**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏCLİSİ**

# NAXÇIVAN: İLKİN ŞƏHƏR VƏ DUZDAĞ

***(27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları)***

**Naxçıvan-2013**

**Baş məsləhətçi:** **Vasif Talıbov**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məclisinin Sədri*

**Redaksiya heyəti:** İsmayıl Hacıyev, İsa Həbibbəyli,
Nailə Vəlixanlı, Yaqub Mahmudov,
Katerine Marro, Lauren Ristvet, Oktay Bəlli,
Vitaliy Otroşenko, Rudolf İvanov,
Qüdrət İsmayılzadə, Fəxrəddin Səfərli, Qadir
Qədirzadə, Rza Hejbəri, Vəli Baxşəliyev

Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, “Əcəmi” NPB, 2013, 360 səh.

4700000000
053-2013

© “Əcəmi” 2013.

**“NAXÇIVAN: İLKİN ŞƏHƏR VƏ DUZDAĞ”**
**MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN**
**KEÇİRİLMƏSİ HAQQINDA**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏCLİSİ SƏDRİNİN**

# S Ə R Ə N C A M I

Ölkəmiz müstəqillik qazandıqdan sonra milli dövlətçiliyimizin möhkəmlənməsi, iqtisadiyyatın dirçəlməsi sahəsində görülən işlərlə yanaşı Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin arxeologiya və etnoqrafiyasının, milli dəyərlər sisteminin elmi dəlil və konkret faktlar əsasında araşdırılması sahəsində də əsaslı tədbirlər görülmüş, ayrı-ayrı bölgələrin, o cümlədən Naxçıvan tarixinin öyrənilməsinə başlanılmışdır.

Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Əlverişli relyefi və coğrafi mövqeyi, təbii sərvətlərin bolluğu ən qədim dövrlərdən insanların bu ərazidə məskunlaşmasına səbəb olmuş, regionda özünəməxsus daş dövrü mədəniyyəti yaranmışdır. Bu mədəniyyət Şərur rayonundakı Qazma, Ordubad rayonundakı Kilid, Babək rayonundakı Daşqala və Culfa rayonundakı Ərməmməd kimi ilkin yaşayış məskənlərində qorunub saxlanmaqdadır.

Əldə olunan arxeoloji materiallar bir daha təsdiq edir ki, bizim eradan əvvəl 12-ci minillikdən başlayaraq indiki Naxçıvan ərazisində intensiv həyat davam etmiş, Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzinə çevrilmiş və bu ərazidə ikinci sivilizasiyanın vacib elementi olan ilkin şəhər mədəniyyəti formalaşmışdır. Zaman keçdikcə Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında iqtisadi, mədəni əlaqələr olmuş, əkinçiliyin, maldarlığın ilkin sənayenin, ticarətin və sahibkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə təkan vermiş, nəticədə 5 min il bundan əvvəl Naxçıvan şəhəri yaranmışdır.

Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən amillərdən biri son illər aşkara çıxarılan və elmi tədqiqata cəlb olunan Duzdağ mədəniyyətidir. Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 4-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə öz növbəsində şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır.

XIX əsrin 70-ci illərində Duzdağda aşkar olunan əmək alətləri, daş baltalar və çəkiclər, çapacaqlar, sonrakı dövrdə tapılan ocaq qalıqları, Eneolit, Erkən Tunc və Dəmir dövrünə aid keramika məmulatları, qədim yaşayış yerləri və Duzdağla bağlı folklor nümunələri Duzdağ mədəniyyətinin sistemli şəkildə və yenidən araşdırılması üçün ciddi əsaslar yaradır.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq ilkin yaşayış və şəhər mədəniyyətinin yaranıb inkişaf etdiyi yer kimi Naxçıvan tarixinin öyrənilməsi, tədqiq və təbliğ olunması məqsədi ilə **qərara alıram:**

1. 2012-ci ilin iyul ayında “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzusunda beynəlxalq simpozium keçirilsin.

2. Simpoziuma hazırlıq, habelə Duzdağ mədəniyyəti tarixinin sistemli şəkildə araşdırılması məqsədi ilə Tədbirlər Planı təsdiq edilsin ( əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 aprel 2012-ci il.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 20 aprel tarixli 79-04/S nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

**"NAXÇIVAN: İLKİN ŞƏHƏR VƏ DUZDAĞ" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR**

**TƏDBİRLƏR PLANI**

| S/s | Tədbirin adı | İcra müddəti | İcraya məsul təşkilatlar |
|---|---|---|---|
| 1 | "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi | 27-28 iyul 2012-ci il | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi |
| 2 | "Duzdağ" sənədlər toplusunun nəşr olunması | 2012-ci il | Naxçıvan MR Ali Məclisi, AMEA-nın Naxçıvan Bölməsi |
| 3 | Duzdağdan tapılmış arxeoloji materiallar əsasında sərginin təşkil olunması | İyul, 2012-ci il | AMEA-nın Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti |
| 4 | "Naxçıvan ilkin şəhər mədəniyyəti" mövzusunda internet saytının yaradılması | İyul, 2012- ci il | AMEA-nın Naxçıvan Bölməsi, Naxçıvan MR Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi |
| 5 | "Naxçıvan: ilkin şəhər yeri" mövzusunda sənədli filmin hazırlanması | 2012-ci il | AMEA-nın Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Komitəsi |
| 6 | "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" məqalələr toplusunun nəşr olunması | 2012-ci il | Naxçıvan MR Ali Məclisi, AMEA-nın Naxçıvan Bölməsi |
| 7 | Duzdağla bağlı folklor nümunələrinin toplanması | 2012-ci il | AMEA-nın Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti |

## “NAXÇIVAN: İLKİN ŞƏHƏR VƏ DUZDAĞ” MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ SİMPOZİUMDA NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN

## Ç I X I Ş I

Beynəlxalq simpoziumun hörmətli iştirakçıları!

Bu gün Naxçıvanda Azərbaycan, eləcə də ümumdünya tarixi üçün çox mühüm əhəmiyyətə malik olan beynəlxalq elmi forum – “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzusunda simpozium öz işinə başlayır.

Beynəlxalq simpoziuma dəvəti qəbul etdiyinizə və simpoziumun işində yaxından iştirakınıza görə sizə və simpoziumun təşkilatçılarına təşəkkürümü bildirir, sizi salamlayır, elmi simpoziumu açıq elan edirəm.

Hər bir xalqın həyatında onun tarixi və əsrlər boyu yaratdığı mədəni irs mühüm əhəmiyyətə malikdir. Odur ki, xalqların və ölkələrin tarixinin araşdırılması hər zaman olduğu kimi, bu gün də aktualdır.

Azərbaycan xalqı çox qədim və zəngin tarixə malikdir. Təəssüf ki, ölkəmizin tarixi uzun müddət lazımınca araşdırılmamış, xalqımızın mənsub olduğu dəyərlərin öyrənilməsinə imkan və şərait yaradılmamışdır. Azərbaycan müstəqillik qazandıqdan və müdrik dövlət xadimi Heydər Əliyev ikinci dəfə ali hakimiyyətə qayıtdıqdan sonra bir sıra taleyüklü məsələlər kimi Azərbaycan tarixinin, arxeologiya və etnoqrafiyasının, milli dəyərlər sisteminin elmi dəlil və konkret faktlar əsasında tədqiq olunması sahəsində də əsaslı tədbirlər görülmüş, ayrı-ayrı bölgələrin, o cümlədən Naxçıvan tarixinin də araşdırılmasına başlanmışdır.

Naxçıvan tarixinin öyrənilməsində və bu sahənin yenidən elmi düşüncənin məhsuluna çevrilməsində 1996-cı ildə keçirilən “Uluslararası qaynaqlarda Naxçıvan” beynəlxalq simpoziumu mühüm mərhələ təşkil edir. Bu simpoziumda tarixi mənbə və qaynaqlara bir daha nəzər salınmış, Naxçıvan tarixinə konseptual yanaşma təşəbbüsü irəli sürülmüş, elmi istiqamət kimi Naxçıvanşünaslığın yaradılması əsaslandırılmışdır. Bundan ötən dövr ərzində keçirilən 10-a yaxın beynəlxalq elmi simpozium bu ideyanı əməli fəaliyyət müstəvisinə çəkmiş, qısa müddətdə xeyli iş görülmüşdür. Əgər 1996-cı ilə qədər Naxçıvan tarixinə münasibətdə ümumi yanaşma ortalığa qoyulur və elmi tədqiqatlar məhdud çərçivədən kənara çıxa bilmirdisə, sonrakı dövrdə elmi araşdırmalar konkret istiqamətə yönəldilmiş, xarici ölkələrin tanınmış mütəxəssislərinin də iştirakı ilə geniş tədqiqat işləri aparılmış, minə yaxın kitab, monoqrafiya, dərslik və elmi məqalə hazırlanaraq nəşr olunmuşdur.

Həmin nəşrlərdə və aparılmış tədqiqatlarda bu fikir bir daha öz təsdiqini tapmışdır ki, Naxçıvan bəşər sivilizasiyasının mühüm ocaqlarından biridir. Ümummilli lider Heydər Əliyev Naxçıvanı bəşəri dəyərlərin daşıyıcısı adlandıraraq deyirdi ki: “**Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır”**. Ulu öndərimizin Naxçıvan torpağının “tarixiliyi” və “müqəddəsliyi” barədə fikirləri müasir şəraitdə elmi tədqiqatlara yeni istiqamət vermişdir.

Tarixşünaslıq baxımından bugünkü Naxçıvan özündə 3 vacib elementi birləşdirir: o, həm **tarixiliyi yaşadır**, həm **müqəddəsliyi yaşadır**, həm də **yeni həyatın başlandığı**

**yerdir.** Dünyada çox az sayda ərazilər var kı, qədim sivilizasiyanın davamlı inkişafını izləmək üçün qeyd olunan 3 amilin hamısını özündə cəmləşdirə bilsin.

Naxçıvanın **tarixiliyi yaşatması** bu ərazilərdə ən qədim dövrlərdən başlayaraq yaşayışın bütün cəhətlərini əhatə edən elmi arqumentlərin və abidələrin zənginliyi ilə bağlıdır. Muxtar respublika ərazisində 1200-ə yaxın tarixi abidə mövcuddur ki, onların da yarıdan çoxu dünya və ölkə əhəmiyyətlidir. Elmi müəssisələrin imkanları birinci növbədə bu abidələrin araşdırılmasına istiqamətləndirilmiş, tarixi abidələr yenidən tədqiq olunaraq pasportlaşdırılmış, qədim yaşayış yerlərindən tapılan materiallar bu ərazidə Daş dövrü, sonrakı mərhələdə isə Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin formalaşmasını sübuta yetirmişdir. Aydın olmuşdur ki, təkcə indiki Naxçıvan şəhəri ətrafında - kiçik bir tarixi ərazidə 20-yə yaxın qədim yaşayış məskəni salınmış, bu məskənlər tədricən birləşərək 7-5 min il bundan əvvəl Naxçıvan ilkin şəhər mədəniyyətinin əsasını təşkil etmişdir.

Naxçıvanın **müqəddəsliyi** bu ərazidə ən qədim ziyarətgah yerləri və eləcə də "Nuh-Naxçıvan" bağlılığı ilə əlaqədardır. 1996-cı ildən sonra aparılan tədqiqatlar bu məsələyə də aydınlıq gətirmiş, Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarının yeri müəyyənləşdirilmiş və qədim mənbələr əsas götürülərək bərpa olunmuşdur. 2009-cu ildə keçirilmiş "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumu ən azı 7 min il bundan əvvəl baş vermiş ümumdünya tufanının Naxçıvanla bağlılığına aydınlıq gətirmişdir. Simpoziumun irəli sürdüyü elmi nəticə isə bundan ibarət olmuşdur ki, Naxçıvan Nuhla bağlı növbəti sivilizasiyanın beşiyi olan müqəddəs yerdir. Naxçıvan ətrafında eradan əvvəl 5-ci minilliyə aid Əshabi-Kəhf ziyarətgahı vardır ki, bu da ilkin şəhərsalmada mühüm rol oynayan vacib elementlərdir. Naxçıvan şəhərinin qala içində və Nuh peyğəmbərin məzarı ətrafında salınması ilkin şəhər nəzəriyyəsinin Naxçıvan ərazisində bir daha öz təsdiqini tapmasının daha bir göstəricisidir.

Bu mənada Naxçıvan həm də **yeni həyatın başlandığı** yerdir və bu o deməkdir ki, Nuh peyğəmbərlə başlanan həyat bu ərazidə təşəkkül tapmışdır. Qədim insanlar yaşayışı o yerdə qura bilərdi ki, orada bol su ehtiyatı, bərəkətli torpaq, zəngin təbii sərvətlər, qəfil hücumlardan qorunmaq üçün təbii maneələr və ya qalalar olsun. Naxçıvan şəhəri ətrafında bol sulu çayların, təbii nemət kimi Duzdağının mövcudluğu qədim dövrlərdən bu ərazinin ilkin yaşayış yeri kimi seçilməsinə səbəb olmuşdur. 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilmiş beynəlxalq simpozium bu mülahizəni elmi dəlillərlə daha da zənginləşdirmiş, bu simpoziumda ilk dəfə olaraq Naxçıvan şəhərinin yaşı və ilkin şəhər yeri öz təsdiqini tapmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələri sübut edir ki, Naxçıvan şəhərinin əsası 5 min il bundan əvvəl qoyulmuşdur.

Həmin simpoziumda qarşıya qoyulan mühüm elmi istiqamətlərdən biri də Naxçıvan Duzdağ mədəniyyətinin araşdırılması idi. Nə üçün məhz Naxçıvan Duzdağı? Ona görə ki, Naxçıvan Duzdağını öyrənmədən ümumiyyətlə Naxçıvanda ilkin şəhər mədəniyyətini öyrənmək mümkün deyil.

Aydın məsələdir ki, duz insan həyatında mühüm rola malikdir. Qədim yunan şairi Homer duzu "ilahi varlıq" adlandırmışdır. Duz təkcə qida məhsulu deyil, o, həm də müəyyən ərzaq məhsullarını saxlamaq üçün də vasitədir. Tədqiqatlar göstərir ki, bu ərazidə yaşamış ulu əcdadlarımız duzun üstün keyfiyyətlərini bildiklərindən Eneolit dövründən başlayaraq Naxçıvanda duz mədənçiliyinin əsasını qoymuşlar. Faktlar sübut edir ki, Naxçıvan Duzdağı dünyanın tunel üsulu ilə duz çıxarılan ən qədim mədən yerlərindən biridir. Duzun çıxarılma forma və vasitələrinin təkmilləşdirilməsi, bunun

üçün ibtidai formalı daş alət və çapacaqların hazırlanması, çıxarılan duzun daşınma və saxlanma texnologiyasının mənimsənilməsi, nəhayət, tələbatdan artıq duzun böyük karvan yolları ilə dünyanın qədim şəhərlərinə göndərilməsi özlüyündə icmalar daxili, icmalararası və şəhərlərarası əlaqələrin yaranmasına da təsir göstərmişdir. Beləliklə, duz, sosial və ictimai münasibətlər faktoruna çevrilmiş, sənətkarlığın və ticarətin, bununla birlikdə isə şəhər mədəniyyətinin yaranmasına güclü təsir göstərmişdir. Naxçıvan Duzdağı təkcə ilkin yaşayış yeri və ya təkcə ilkin mədənçilik yeri kimi deyil, eyni zamanda Naxçıvan şəhər mədəniyyətinə bilavasitə təsir göstərən mədəniyyət yeri kimi də öyrənilməli və tədqiq edilməlidir.

Bu mənada biz "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsinə mühüm əhəmiyyət veririk. Düşünürük ki, Azərbaycan, o cümlədən Naxçıvan tarixinin öyrənilməsinə həsr olunmuş digər simpoziumlar kimi "Naxçıvan: ilkin şəhər və Duzdağ" beynəlxalq simpoziumu da mühüm elmi nəticələri ilə yadda qalacaqdır.

Hörmətli simpozium iştirakçıları!

Elmi simpozium zəngin gündəliyə malikdir. Bilirik ki, bu gün və sabah geniş müzakirələr aparılacaq, bölmə iclasları keçiriləcəkdir. Əminik ki, sizin – Azərbaycan alimlərinin və dünyanın müxtəlif ölkələrindən gəlmiş mütəxəssislərin fikirləri Naxçıvan şəhər mədəniyyəti məsələsini maraqlı elmi nəticələrlə daha da zənginləşdirəcəkdir.

Bu yolda sizin hamınıza uğurlar, beynəlxalq elmi simpoziuma isə səmərəli və nəticəli fəaliyyət arzulayıram.

Sağ olun!

**Nailə VƏLİXANLI**
*AMEA-nın həqiqi üzvü,*
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
**Nasir QULUZADƏ**
*Tarix üzrə fəlsəfə doktoru*
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*

# NAXÇIVANIN İLKİN ŞƏHƏR MƏDƏNİYYƏTİNİN TƏDQİQİNDƏ VƏ TƏBLİĞİNDƏ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ARXEOLOJİ MATERİALLARININ ƏHƏMİYYƏTİ

Qədim şəhərlərin tarixini araşdıran tədqiqatçılar onların yaranması prosesinin mürəkkəbliyini qeyd etməklə yanaşı bu ictimai-iqtisadi prosesin müəyyən amillərlə bağlı olduğunu da xüsusi vurğulayırlar. Qədim Azərbaycan ərazisində ilkin şəhər mədəniyyətinin yaranması da cəmiyyətin çoxəsrlik ictimai-iqtisadi inkişafının nəticəsi olmuş, bu inkişafın müxtəlif mərhələlərində özünəməxsus xüsusiyyətləri ilə fərqlənmişdir. Belə şəhərlərin 10-dan artıq əlamətini müəyyənləşdirən urbanoloqlar bu məqsədlə həm zahiri kəmiyyət, həm də ictimai-iqtisadi və funksional kriterilərdən istifadə etmiş, bununla yanaşı onlara müasir ölçülərlə yanaşmağın, əlamətlərinə görə hətta orta əsr şəhəri ilə müqayisə etməyin də düzgün olmadığını bildirmişlər.

Təqdim olunan məruzədə istifadə etdiyimiz zəngin arxeoloji material Azərbaycanın ən qədim şəhərlərindən olan Naxçıvanın ilkin şəhər mədəniyyətinin özünəməxsus xüsusiyyətlərini açıqlamaq, onu qədim şəhər kimi səciyyələndirən əlamətləri müəyyənləşdirmək imkanı verir. Biz muzey işçisi kimi bizim üzərimizə, həmçinin, vətən tariximizin bu mühüm səhifəsini geniş tamaşaçı auditoriyasına çatdırmaq funksiyası da düşür.

Azərbaycanın ilk dövlət səviyyəli muzeyi olan Milli Azərbaycan Tarixi Muzeyi tarixi-mədəni irsimizə aid nümunələrin mühafizəsini, təbliğini və tədqiqini həyata keçirən ən böyük elmi-tədqiqat və mədəni-maarif mərkəzidir. Bu gün Muzeyin fondlarında ən qədim dövrdən bu günədək olan böyük bir zaman kəsiyinə aid minlərlə tarixi və elmi əhəmiyyətli maddi-mədəniyyət nümunəsi saxlanılır. Həmin nümunələr tarixi-mədəni irsimizin öyrənilməsində və təbliğində əvəzsiz rol oynayan çox qiymətli mənbədir. Muzeyin yarandığı ilk gündən (1920-ci ildən) Arxeologiya fondunda mühafizə edilən maddi-mədəniyyət nümunələri də bu baxımdan istisna deyil. Bu materialın əksəriyyəti Qarabağ, Mingəçevir, Beyləqan, Qəbələ, Şəki, Gəncə, Xanlar (Göygöl), Şamaxı, Abşeron və Azərbaycanın digər bölgələrindəki abidələrdən tapılmışdır.

Arxeologiya fondunda mühafizə olunan arxeoloji materialların bir qismini Naxçıvan tapıntıları təşkil edir. Tariximizin eneolitdən başlayaraq orta əsrlərədək olan dövrünü təmsil edən bu tapıntılar I və II Kültəpələr, Şahtaxtı, Qızılburun, Naxçıvan və Xaraba-Gilan abidələrindən aşkar olunub. Bu materiallar əsasən daş alətlərdən, saxsı, metal və sümük məmulatından, toxuculuq nümunələrindən və digər tipli arxeoloji əşyalardan ibarətdir. Onlar fondun 37, 38, 42-43 və 46-49 saylı şkaflarında yerləşdirilmişlər. Son zamanlar Naxçıvandan tapılmış materialların qeydiyyata alınması istiqamətində əməli işlər görülmüşdür. Muzeyə daxil olmuş bu arxeoloji materiallar ilk öncə baş inventar kitabına daxil edilmiş, daha sonra fondun 1-3, 6-7, 10, 18-20 və 27 saylı inventar kitablarında qeydiyyata alınmışdır (1). Qeydiyyata alınmış materialların sayı 2661 ədəddir. Lakin inventar kitablarında qeydiyyata alınmayan Naxçıvan

materiallarının sayı da az deyildir. Təkcə onu qeyd etmək olar ki, II Kültəpə abidəsinin materialları ümumiyyətlə fondun inventar kitablarına daxil edilməmişdir.

Naxçıvan materialları fondun inventar kitablarına daxil edilməklə yanaşı onların elektron pasport proqramında da qeydiyyatı aparılır. Bu pasport proqramında arxeoloji material qeydiyyata alınarkən onunla bağlı bir çox qeydlər, o cümlədən materialın adı, inventar nömrəsi, səhra qeydi, tapıldığı il və yer, tapan şəxs, dövrü, təsviri, tərkibi, ölçüləri və digər məlumatlar yerləşdirilir.

Araşdırmalar göstərir ki, bu material bölgənin maddi və mənəvi mədəniyyəti, o cümlədən qədim əhalinin təsərrüfatı, məişəti, məşğuliyyəti, mədəni-ticarət əlaqələri və dini-ideoloji təsəvvürləri barədə məlumatı özündə əks etdirir. Bütün bunlarla yanaşı bu arxeoloji tapıntılar Naxçıvanın qədim şəhər mədəniyyətinin öyrənilməsində də çox böyük əhəmiyyət kəsb edir. Belə ki, yazılı mənbələrin olmadığı tunc dövrü protoşəhərlərinin tədqiqində arxeoloji materialların rolu danılmazdır. Bu arxeoloji materiallar arasında xüsusilə hər iki Kültəpə tapıntıları Naxçıvanda ilkin şəhər mədəniyyətinin təşəkkülünü özündə təcəssüm etdirir.

Urbanoloqlar şəhəri səciyyələndirən əlamətlər sırasında ilk növbədə onun çoxsaylı əhalisi olan iri yaşayış məskəni olduğunu bildirmişlər. Arxeoloji tədqiqatlarla doğrudan da müəyyən olunmuşdur ki, e.ə. III minilliyin sonunda Naxçıvanda əhalinin sayı xeyli artmış, yaşayış yerlərinin sahəsi genişlənmişdir. İqtisadiyyatın, sənətkarlığın və mədəniyyətin intensiv inkişafı sayəsində bu proses e.ə. II minilliyin əvvəllərində daha da güclənərək yeni xarakter almış və ilkin şəhər mədəniyyəti meydana gəlmişdir (2, s. 55). Muzeydə qorunan I və II Kültəpə materialının müqayisəli-tənqidi araşdırılması Naxçıvan ərazisində ilkin şəhər mədəniyyətinin yaranma prosesini izləmək imkanı verir.

Maraqlıdır ki, görkəmli rus alimi V.M.Masson «şəhər» anlayışını açarkən onu inkişaf etmiş müdafiə sistemi olan iri yaşayış məskəni, kənd təsərrüfatı, sənətkarlıq və ticarətin təmərküzləşdiyi yer kimi səciyyələndirmişdir. Ümumiyyətlə, qədim şəhərlərin əsasən əkinçi icmaları əsasında təşəkkül tapdığını, ictimai-iqtisadi proseslərin intensivləşməsi, ticarət əlaqələrinin genişlənməsi kimi əlamətlərə malik olduğunu nəzərə alsaq hətta I Kültəpə tapıntılarının da bu proseslərin öyrənilməsi üçün əhəmiyyətini aydın görəcəyik. Muzeyin fondunda qorunan və ekspozisiyada nümayiş etdirilən I Kültəpə materialları – daş, sümük və buynuz toxalar, dən əzən daşlar, həvəngdəstələr, kömürləşmiş buğda və s. e.ə. VI-IV minilliklərdə qədim azərbaycanlıların inkişaf etməkdə olan əkinçi mədəniyyətindən xəbər verir. Müxtəlif təyinatlı gil qablar, qazan və küplər dulusçuluğun, sümükdən olan iynə, bizlər, gil əyircəklər, eləcə də bəzək əşyaları sənətkarlığın, o cümlədən toxuculuğun inkişafının göstəricisidir.

Əlbəttə, şəhərlərin yaranması, artıq qeyd etdiyimiz kimi, ictimai-iqtisadi inkişafın nəticəsidir. Lakin xarici amillərin, daha doğrusu, əlaqələrin də bu prosesə təsiri böyük olub. Artıq bu dövrə aid iqtisadi əlaqələrin mövcud olduğunu təsdiqləyən tapıntılar vardır ki, bu da arxeoloqların aşkar etdikləri və Muzeyin ekspozisiyasında nümayiş olunan məşhur Xələf mədəniyyətinə məxsus boyalı çölməkdir (3). Çox səliqəli və daha yüksək texnika ilə hazırlanmış bu qabın üstündəki naxışların magik xarakter daşıması ehtimal olunur. Onu da demək lazımdır ki, dini inanclarda əcdadlara da sitayişin mühüm yer tutduğu bu dövrdə insanları bədnəzərdən və bəd ruhdan qorumaq məqsədi ilə müxtəlif qoruyucu amuletlərdən istifadə olunurdu. Ekspozisiyada nümayiş etdirilən I Kültəpədən tapılmış sümük, pasta və əqiqdən bəzək əşyaları, qaban dişindən

asmalar bəzək əşyası olmaqla yanaşı amulet funksiyası da daşıyırdılar. Üzərində müxtəlif magik işarələr olan çox zərif qablar bizi qədim əcdadlarımızın dini-ideoloji təsəvvürləri ilə tanış edir.

Erkən tunc dövrünə mənsub, Naxçıvandan tapılmış qayıqvari dən daşı ekspozisiyanın ən maraqlı abidələrindəndir (4). Tapıntılar arasında bundan başqa, Kür-Araz mədəniyyətinə xas olan spesifik xüsusiyyətli – yumru, yarımşar formalı və çox halda öküz burnuna oxşar qulplu, müxtəlif ölçülü və təyinatlı saxsı qablar maldarlıq və əkinçiliyin intişar tapdığı bu ərazidə məhsuldarlıq rəmzi olan öküz kultunun geniş yayıldığını göstərir.

Bu və Arxeologiya fondunda mühafizə olunan digər Naxçıvan materialları gördüyümüz kimi bölgənin maddi və mənəvi mədəniyyətini, protoşəhər tarixini öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

İlkin şəhər mədəniyyətini səciyyələndirən əlamətlərdən biri də coğrafi şərait və təbii sərvətlərlə bağlıdır. Bu baxımdan Naxçıvanın yerləşdiyi coğrafi mövqe və təbii sərvətləri sözsüz ki, şəhərin yaranmasına, ən qədim zamanlardan yerli qəbilələrin tarixi-mədəni inkişafına kömək etmişdir. Bu da öz növbəsində II Kültəpə kimi müdafiə tikililərinə malik erkən şəhər məskənlərinin meydana gəlməsinə yardım göstərmişdir (5, s. 192). Qeyd etməliyik ki, II Kültəpədə aparılan arxeoloji tədqiqatlar (1968-ci il) nəticəsində aşkar edilmiş İlk, Orta, Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətlərinə məxsus maddi-mədəniyyət nümunələri Arxeologiya fonduna 1977-ci ildə təhvil verilmişdir.

Bu materiallar əsasında demək olar ki, Orta tunc dövründə qədim Naxçıvanda artıq tam formalaşmış müstəqil dulusçuluq, toxuculuq, metalişləmə, sümükişləmə, daşişləmə və digər sənətkarlıq növləri mövcud idi. Qazıntılardan həmin sənətkarlıq növləri ilə əlaqədar çoxlu əmək aləti də toplanmışdır (6, s. 56). Bu materialların bir qismi Muzeyin ekspozisiyasında – 11 saylı vitrində nümayiş etdirilir.

II Kültəpə materiallarına istinadən həmçinin belə qənaətə gəlmək olar ki, istehsal təsərrüfatı sahələrinin, o cümlədən əkinçilik və yarımköçəri maldarlığın intensiv inkişafı yaşayış yerinin iqtisadi və mədəni qüdrətinin yüksəlməsi üçün ən mühüm amillərdən biri olmuşdur. Külli miqdarda əkinçilik alətlərinin – daş vəllərin, oraq dişlərinin, dəndaşlarının, həvəngdəstələrin və taxıl qalıqlarının tapılması buna ən yaxşı sübut ola bilər. Orta Tunc dövrünün digər yaşayış yerlərindən fərqli olaraq burada külli miqdarda heyvan sümüyünə rast gəlinməsi ət məhsullarına böyük tələbatın olmasının əyani göstəricisidir. Bu isə şəhər şəraiti üçün səciyyəvi xüsusiyyətlərdən hesab olunur.

Arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan ərazisindəki qədim yaşayış yerləri Son Tunc və Erkən Dəmir dövründə xeyli böyümüş, bəziləri isə böyük əkinçi-maldar qəbilələrin, yaxud ətraf ərazilərin qəbilə birliklərinin möhkəmləndirilmiş mədəni-iqtisadi və ictimai mərkəzlərinə çevrilmişdi. Naxçıvanın qədim şəhər mədəniyyətinin öyrənilməsində və təbliğində böyük əhəmiyyət kəsb edən mənbələrdən birini də məhz Son Tunc və Erkən Dəmir dövrü abidələri və onların materialları təşkil edir. Muzeydə bu dövrə aid materialları mühafizə olunan abidələrdən biri Qızılburundur.

1926-cı ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Muzeyin bilavasitə iştirakı ilə təşkil etdiyi arxeoloji ekspedisiyaya akad. İ.İ.Meşşaninov (7, s. 217-240), Zaqafqaziya Elmi Cəmiyyətinin arxeoloji ekpedisiyasına isə məşhur arxeoloq A.A.Miller rəhbərlik etmişdir (8, s. 8; 9, s. 60). Həmin ilə aid «Bakinskiy raboçiy» qəzetinin nömrələrinin birində bu haqda maraqlı məlumat var. Həmin məlumata görə

muzey əməkdaşlarının, o cümlədən muzeyin işçisi, məşhur etnoqraf və arxeoloq Ə.Ələkbərovun iştirak etdiyi bu ekspedisiya Qızılburun və Xocalıda olmuş, Bakıya qayıtdıqdan sonra əldə olunan arxeoloji tapıntıların nümayiş edildiyi sərgi açılmışdır. Sərginin keçirildiyi ilk 3 gündə onu 500-dən çox tamaşaçı ziyarət etmişdir. 1927-ci ildə A.A.Miller də aşkar etdiyi Qızılburun tapıntılarını Milli Azərbaycan Tarixi Muzeyinə daimi mühafizə üçün təhvil vermişdir.

Qızılburunda növbəti arxeoloji axtarışlar 1969-cu ildə arxeoloq V.Əliyev tərəfindən həyata keçirilmişdir. Bu axtarışlar zamanı toplanılmış qırmızı və boz rəngli, boyalı və boyasız saxsı məmulatı 1977-ci ildə Muzeyin Arxeologiya fonduna təhvil verilmişdir. Arxeoloji axtarışlar zamanı Qızılburundan Son Tunc və İlk Dəmir dövrlərinə aid saxsı, metal, sümük və daş məmulatı tapılmışdır. Qızılburunun saxsı məmulatı əsasən xeyrə, kasa, şargövdəli küpə, çaynikformalı, güvəc, bardaq, qədəh, ayaqqabıformalı qablardan ibarətdir. Qablar əsasən boz və qırmızı rəngli olub, bəzilərinin üzəri qırmızı boyanmış və naxışlanmışdır. Qızılburunun tunc məmulatı xəncər, ox ucları, boyunbağı, sancaqlar, qolbaqlar, üzüklər, halqalar, pilək, lövhələr, düymələr və muncuqlardan ibarətdir. Üzüklər sayca çox olub, formalarına görə iri, kiçik, miniatür həcmli, spiralşəkilli və muncuq keçirilmiş tiplərə ayrılır. Dəmirdən xəncər, bıçaqlar, massiv qolbaq və xırda müxtəlif əşyaların hissələri, sürmədən aypara və muncuqlar maraqlı tapıntılardır. Qızılburun muncuqları əsasən tunc, əqiq, şüşə, sümük və pastadan hazırlanmışdır. Tapıntılar içərisində fil sümüyündən düzəldilmiş əşyalar, balıqqulağılar, qalay parçaları və qəbirin üzərini örtən plitənin bir hissəsi isə xarici əlaqələrin göstəricisi kimi qəbul oluna bilər. Məişətdə və hərbi işlərdə dəvəgözündən hazırlanmış ox ucları və müxtəlif qəlpələrdən də istifadə olunmuşdur. Hazırda bu abidənin materialları fondun 1-3 və 20 saylı inventar kitablarında qeydiyyata alınmış və ümumi sayları 186 ədəddir.

Qızılburun materiallarının bir qismi ekspozisiyanın 11, 18 və 20 saylı vitrinlərində nümayiş etdirilir. Həmin vitrinlərin Qızılburundan olan eksponatları xeyrə, küpə və çaynik tipli boyalı qabdan, tunc nizə və dəvəgözü ox ucluqlarından, tunc toppuz başından və sancaqdan ibarətdir.

Naxçıvanın şəhər mədəniyyətinin öyrənilməsində və təbliğində Ordubad rayonunun Danaqırd kəndi ərazisində aşkar olunmuş arxeoloji tapıntılar da az əhəmiyyət kəsb etmir. Belə ki, son arxeoloji tədqiqatlarla müəyyənləşdirilmişdir ki, Ordubad rayonu ərazisində, Gilançayın mənsəbində e.ə. II minilliyin sonlarında müdafiə divarları ilə möhkəmləndirilmiş şəhər – Sumbatan-Dizə olmuşdur (10, s. 50). Bu dövr şəhərlərin və onların mədəniyyətlərinin öyrənilməsində bölgədən tapılmış arxeoloji materialların özünəməxsus rolu vardır.

1926-cı il sentyabrın 10-da Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Ə.Ələkbərovu arxeoloji və etnoqrafik tədqiqatlar aparmaq üçün Naxçıvana – Ordubad rayonuna ezam etmişdir (11, 243; 12, s. 147). O, bu səfər zamanı təsadüfi arxeoloji materiallar – əsasən tunc əşyalar toplaya bilmişdir (13, 248). Sonradan həmin tapıntılar Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir (14). Son tunc və ilk dəmir dövrünə aid maraqlı tapıntılardan biri eynəkşəkilli tunc asmadır. Muzeydə mühafizə edilən eynəkşəkilli asmaların biri məhz Danaqırddan aşkar olunmuşdur. Bu asmada spiral xaricə doğru qatlanmışdır. Oxşar eynəkşəkilli asma Mingəçevirdən də tapılmışdır (15, XI tablo). Danaqırd tapıntıları 1 saylı inventar kitabına daxil edilmişdir. Onların ümumi sayı doqquz ədəddir.

Naxçıvan ərazisindəki qədim abidələrin öyrənilməsi 30-cu illərdə uğurla davam etdirilmiş və Ə.K.Ələkbərovun həmin ərazidə Son Tunc və İlk Dəmir dövrə aid tam bir silsilə yaşayış yerlərini, iç qalaları kəşf etməsi ilə nəticələnmişdir. Belə ki, 1934-1936-cı illərdə Ə.K.Ələkbərovun rəhbərliyi ilə SSRİ EA Azərbaycan Filialının ekspedisiyası tərəfindən Oğlanqala, Şahtaxtı Govurqalası, Şortəpə yaşayış yeri və bir sıra digər abidələr aşkara çıxarılıb tədqiq olunmuşdur (16, 53-54). Göstərilən abidələr təkcə Azərbaycanda deyil, bütün Qafqazda ən qədim şəhərlər və şəhər mədəniyyəti haqqında məlumat verən məxəzlərdir.

Ə.K.Ələkbərovun Şahtaxtı nekropolunda da axtarışları uğurlu olmuşdur. Belə ki, onun 1 saylı qəbirdən aşkar etdiyi boyalı küp üzərindəki məzmunlu təsvirlərinə görə böyük maraq kəsb edir (17, s. 47). Müxtəlif cinsli heyvan və quş rəsmləri ilə bəzədilmiş bu küpənin üzəri üç zolağa ayrılmışdır (18). Üst zolaqda bir-birinin arxasında qu quşları təsvir edilir. İkinci zolaq nisbətən enli olub, şaquli istiqamətdə çəkilən həndəsi formalı naxışlarla iki hissəyə bölünmüşdür. Birinci hissədə keçilər, onların üzərinə hücum edən canavar, digər vəhşi heyvan və quşlar, həmçinin su quşları çəkilmişdir. İkinci hissədə isə həmin heyvanlardan əlavə, keçilərlə qarşı-qarşıya vəhşi ulaq və ya at təsvir edilmişdir. Üçüncü zolaqda bir-biri ilə bağlı olan və üfüqi vəziyyətdə küpəni əhatə edən romb şəkilləri çəkilmişdir (19, s. 368). Həmin qəbirdən digər maraqlı tapıntı üzəri qızıl təbəqə ilə örtülmüş tunc bəzək nümunəsidir. Hər iki tapıntı ekspozisiyanın 11 saylı vitrinində nümayiş etdirilir.

Ümumiyyətlə, Şahtaxtı nekropolundan və Govurqaladan aşkar olunan boz rəngli saxsı məmulatı tək qulplu parçlar, çaynikformalı qablar, piyalələr, küpələr, badyalar, kasalar və xeyrələrdən ibarətdir. Şahtaxtı qabları ilə yaxından tanış olduqda onların boz rəngli olduğu və üzərinin cilalandığı görünür. Şahtaxtının qırmızı rəngli azsaylı saxsı məmulatı içərisində badya, xeyrə və miniatür həcmli qablar üstünlük təşkil edir. Şahtaxtının daş məmulatı isə orta hissəsindən boğmalı balta və qayıqvari dən daşından ibarətdir. Arxeologiya fondunun 2, 3, 6 və 20 saylı inventar kitablarında 39 ədəd Şahtaxtı-Govurqala materialı qeydiyyata alınmışdır.

Son Tunc və Erkən Dəmir dövrünü təmsil edən yuxarıda verilmiş materialları nəzərdən keçirdikdə, əminliklə söyləmək olar ki, bu dövrdə Naxçıvan ərazisi iqtisadiyyat və sosial münasibətlər sahəsində mühüm dəyişikliklərlə əlamətdar olmuşdur. Bu dövr, eyni zamanda, yerli qəbilələrin maddi və mənəvi mədəniyyətinin inkişafında yeni mərhələ olmuşdur. Əkinçilik və maldarlıq, eləcə də tunctökmənin geniş yayılması, daha bərk metal olan dəmirin mənimsənilməsi nəticəsində bölgə yeni yüksək inkişaf pilləsinə qalxdı. Bu dövrdə Naxçıvan Qafqaz və Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni münasibətlərdə mühüm rol oynamış və Yaxın Şərq ölkələrini Qafqazla əlaqələndirən əsas mədəniyyət ocaqlarından biri olmuşdur (20, s. 18). Son tunc və Erkən dəmir dövründə həyat əsasən həm böyük, həm də kiçik çayların düzənlik və vadilərində, eləcə də əkinçilik üçün yararlı iri sahələri olan dağətəyi yerlərdə salınmış yaşayış yerlərində cərəyan edirdi. Əvvəlki dövrlərdən fərqli olaraq, onlar iri və əhalisi sıx olan məntəqələrə – şəhərlərə çevrilirdilər (21, s. 82-83).

Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda Xarabagilan orta əsr yaşayış məskənindən və ona yaxın ərazilərdə yerləşmiş Son tunc və Erkən dəmir dövrünə aid abidələrdən də tapılmış maddi-mədəniyyət nümunələri mühafizə olunur. Bu maddi-mədəniyyət nümunələrinin də Naxçıvanın şəhər mədəniyyətinin öyrənilməsində və təbliğində özünəməxsus rolu vardır. Həmin materiallardan yalnız on ədədi fondun 2 və 27 saylı inventar kitablarında qeydiyyata alınmışdır.

Xarabagilan yaşayış məskəninin arxeoloji cəhətdən öyrənilməsinə XIX əsrin 90-cı illərində başlanılmışdır (22, 150). Burada əsaslı şəkildə arxeoloji qazıntıların aparılması isə XX əsrin 20-ci illərinə təsadüf edir. 1976-cı ildən isə abidənin sistemli şəkildə arxeoloji tədqiqinə başlanılmışdır. Bu tədqiqatları V.H.Əliyevin başçılıq etdiyi Naxçıvan arxeoloji ekspedisiyasının Xarabagilan dəstəsi aparmışdır. 1980-ci ildən isə bu tədqiqatları Q.M.Aslanovun rəhbəlik etdiyi Azərbaycan SSR EA Tarix İnstitutunun nəzdində təşkil olunmuş Xarabagilan arxeoloji ekspedisiyası həyata keçirmişdir (23, s. 17-21). Sonuncu ekspedisiyanın 1980-1983 və 1985-ci illərdə Xarabagilanda apardığı arxeoloji qazıntılardan aşkar etdiyi maddi-mədəniyyət nümunələrinin müəyyən hissəsi 2003-cü ildə Solmaz Qaşqay tərəfindən 67 inventar sayı altında Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir. Həmin maddi mədəniyyət nümunələri 1981 və 1983-cü illərin tapıntıları olub, ox ucu tökmək üçün daş qəlib, çaxmaqdaşı və dəvəgözüdən ox ucluqları, qaşov, ağ pastadan slindrik möhürlər (içərisində urartu və mitanni tipli möhürlər də olmaqla), tunc silahlar (nizə və ox ucluqları, xəncər tiyəsi), bəzək nümunələri (sancaqlar, iri qolbaqlar, muncuqlar keçirilmiş boyunbağı, üzük və sırğalar), düymə düzümü, tunc və dəmir bəzək əşyaları (zəncir, qolbaq, üzük və asmalar), əqiq, pasta, şüşə, tunc, təbaşir və balıqqulağıdan muncuq dəstləri, boz və qırmızı rəngli qab-lardan (vaz, çaynikvari, küpə, üzəri yazılı dolça və s.) ibarətdir. Xarabagilan arxeoloji materialları Son Tunc və İlk Dəmir dövründən başlayaraq orta əsrlərin sonuna qədər mərhələni əhatə edir. Tapıntılardan üzərində arami yazısı ilə dua yazılmış qab V-VI əsrlərə aid edilir (24, s. 69).

Xarabagilandan tapılmış ipək və pambıq parça qalıqları da böyük maraq doğurur. Parçalardan ikisinin naxışları gümüş saplarla işlənmişdir. Digərinin üzərində isə stilizə edilmiş ərəb qrafikası ilə sözlər yazılmışdır. Tapıntılar arasında qızıl telləri olan güləbətin parça qalığı da var. Parça qalıqlarından biri isə rəngli «Qoç buynuzu» naxışları ilə bəzədilmişdir (25; 26).

Xarabagilan materiallarının bir qismi ekspozisiyada nümayiş etdirilir. Son Tunc və Erkən Dəmir dövrünün təsərrüfatını əks etdirən 13 saylı vitrində ox ucu tökmək üçün daş qəlib, 23 saylı vitrində silindrik möhürlər, Qafqaz Albaniyasında sənətkarlığı və ticarəti (e.ə. III-e.VII əsrlər) əks etdirən 40 saylı vitrində üzərində arami yazısı olan qab və nəhayət, 60 saylı vitrində isə ipək və pambıq parça qalıqları nümayiş etdirilir (27).

Ekspozisiyada nümayiş etdirilən Xarabagilan materialları şəhər mədəniyyətinin inkişafında sənətkarlığın və ticarətin çox böyük rolu oynadığını bir daha təsdiq edir. Azərbaycanın, o cümlədən Naxçıvanın əlverişli strateji mövqeyi, şərqlə qərbi birləşdi-rən ticarət yollarının buradan keçməsi yerli məhsulların dünya bazarına çıxarılmasına və daha əhəmiyyətlisi isə texniki yeniliklərin və kəşflərin Azərbaycan ustaları tərəfindən tətbiq olunmasına imkan vermişdir (28, s. 392).

Milli Azərbaycan Tarixi Muzeyində arxeoloji qazıntılarla yanaşı, təsadüf nəticəsində Naxçıvan bölgəsindən tapılmış maddi-mədəniyyət nümunələri də mühafizə olunur. Məsələn, 1928-ci ildə Naxçıvanda duz mədənlərində işlədildiyi ehtimal olunan çaydaşından hazırlanmış yuxarı və mərkəzi hissələri sapa bərkitmək üçün boğmalı olan baltalar aşkar olunmuşdur. Həmin il Şahbuzdan əldə edilmiş qırmızı rəngli badya (29) və 1927-ci ildə Naxçıvan şəhərində Köhnə Şah bağçasından tapılmış qırmızı rəngli şirli miniatür həcmli qab (30) da Muzeyə təhvil verilmişdir. Bu materialların da Naxçıvanda şəhər mədəniyyətinin öyrənilməsində müəyyən əhəmiyyət daşıması heç bir şübhə doğurmur.

Beləliklə, Milli Azərbaycan Tarixi Muzeyinin Orta Tunc dövründən Orta əsrlərə qədər olan zaman çərçivəsinə aid Naxçıvan bölgəsinin arxeoloji və təsadüfi materiallarını qısa da olsa nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, istehsal təsərrüfatının inkişafı, sənətkarlığın və əməyin ixtisaslaşması, var-dövlətin təmərküzləşməsi, uzaq məsafələrə mübadilə, mülki bərabərsizliyin dərinləşməsi, dini-ideoloji təsəvvürlərin genişlənməsi, texniki yeniliklərin tətbiqi şəhər mədəniyyətlərinin təşəkkülünə və inkişafına ciddi təsir göstərmişdir.

Bu gün Milli Azərbaycan Tarixi Muzeyi Naxçıvanın şəhər mədəniyyətinin yüksək səviyyədə təbliği üçün əməli işlər görür. Ekpozisiyada təqdim edilən material Naxçıvan ərazisinin Azərbaycanın ən qədim yaşayış məskənlərindən olduğunu, onun çoxminillik tarixini təsdiq edir. Naxçıvanın ayrı-ayrı yerlərindən (I və II Kültəpələr, daha sonra Şahtaxtı, Qızılburun və b.) aşkar olunmuş arxeoloji tapıntılar bu ərazidə ilkin şəhər mədəniyyətinin yaranma prosesini, ictimai-iqtisadi-mədəni əlaqələri izləmək imkanı verir.

## ƏDƏBİYYAT

1. MATM Arxeologiya fondunun 1-3, 6-7, 10, 18-20 və 27 saylı inventar kitabları.
2. Əliyev V. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 76 s.
3. MATM Arxeologiya fondunun materialı: AF 543.
4. MATM Arxeologiya fondunun materialı: AF 565.
5. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
6. Əliyev V. Göstərilən əsəri.
7. Мещанинов И.И. Краткие сведения о работе археологических экспедиций в Нагорный Карабах и Нахичеванский край. Сообщения ГАИМК, вып. I, Л., 1926, с. 217-240.
8. Seyidov M.M. Naxçıvan ərazisində Son tunc və Erkən dəmir dövrü mədəniyyəti. Bakı: Bakı Universiteti, 188 s.
9. Бахшиева А. Из истории музейного дела в Азербайджане (на материалах Музея Истории Азербайджана). Баку: Элм, 2005, 152 с.
10. İbrahimli B. Gilançay vadisinin arxeoloji abidələri (e.ə. I minillik-e. XIV əsri) // Azərbaycan arxeologiyası, 2010, cild 13, № 2, s. 51-72.
11. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку: Изд. АН Аз.ССР, 1960, 252 с.
12. İbrahimova İ. Ə.K.Ələkbərovun «Zəngəzur və Naxçıvan səfərləri» adlı məqaləsinin dərc olunmamış hesabatı // Azərbaycan arxeologiyası, 2002, № 3-4, s. 147-148.
13. Алекперов А.К. Göstərilən əsəri.
14. MATM Arxeologiya fondunun materialları: AF 689-697.
15. Sadıqzadə Ş.H. Qədim Azərbaycan bəzəkləri. Bakı: İşıq, 1971, tablo XI.
16. Алекперов А.К. Göstərilən əsəri.
17. Yenə orada.
18. MATM Arxeologiya fondunun materialı: AF 2516.
19. Xəlilli F. Milli Azərbaycan Tarixi Muzeyi arxeoloji materiallarının təsnifatı (III məqalə – saxsı məmulatı) // Azərbaycan Tarixi Muzeyi-2008, Bakı: Elm, 2008, s. 362-378.

20. Ağayev Q. Tunc və ilk dəmir dövründə Naxçıvanın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələri // Azərbaycan arxeologiyası, 2001, № 1-4, s. 18-22.
21. Seyidov M.M. Naxçıvan ərazisində Son tunc və Erkən dəmir dövrü mədəniyyəti. Bakı, Bakı Universiteti, 188 s.
22. Əliyev E. Naxçıvanın arxeoloji tədqiqat tarixindən // Azərbaycan arxeologiyası, 2010, cild.
23. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва, 2000, 176 с.
24. Yenə orada.
25. MATM Arxeologiya fondunun materialları: AF 224305, AF24333, AF 24332, AF 24335, AF 2718, AF 2719.
26. İbrahimli B.İ. Orta taleli şəhərlər / «Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı». Birinci respublika elmi-praktik konfransın materialları, Bakı, 2008, s. 392-400
27. MATM Arxeologiya fondunun materialları: AF 888, AF1391, AF 1395, AF 1393, AF 1394, AF1397, AF 1392, AF 2035, AF 224305, AF24333, AF 24332, AF 24335, AF 2718, AF 2719.
28. İbrahimli B.İ. Göstərilən əsəri.
29. MATM Arxeologiya fondunun materialı: inv. № 1014.
30. MATM Arxeologiya fondunun materialı: inv. № 1015.

**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın həqiqi üzvü,*
*Naxçıvan Dövlət Universiteti*

# NUHDABAN OTURAQ MƏKANI VƏ DUZDAĞ ŞƏHƏRƏTRAFI MƏDƏNİYYƏTİ

Dövlət müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi ilə bağlı olan ötən 21 illik tarixi epoxa ölkənin tarixinin, xalqın soykökünün yenidən və əsaslı şəkildə öyrənilməsi, milli-mənəvi özünüdərk proseslərinin dərinləşdirilməsi məsələlərini həm böyük siyasətin və həm də böyük elmin, Vətən elminin ön cəbhəsinə çəkmişdir. Fikrimizcə, əsası görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyası da bu zərurətdən doğan mühüm bir siyasi-elmi təlim kimi meydana çıxmışdır. Artıq ölkənin hər yerində ayrı-ayrı yaşayış məskənlərinin, qalalarının, şəhərlərinin tarixinə dair yeni arxeoloji, mifoloji, etnoqrafik materiallar üzə çıxarılır, naməlum sənədlər aşkar olunur, müxtəlif fərziyələr irəli sürülür, mühüm elmi nəticələr, yekun qənaətlər əldə edilir. Müstəqillik qazanmış digər ölkələrdə olduğu kimi, Azərbaycan miqyasında da gedən bu prosesdə vətənimizin ayrılmaz bir parçası olan Naxçıvanda da muxtar respublika rəhbərliyi səviyyəsində illərdən bəri həyata keçirilən sistemli elmi-mədəni tədbirlər də həmin ölkəmiqyaslı hərəkatın üzvi tərkib hissəsidir.

Hələ 1996-cı ildə Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun sərəncamı ilə «Uluslararası qaynaqlarda Naxçıvan» mövzusuna həsr edilmiş beynəlxalq simpoziumla başlanan bu proses son illərdə «Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik» (2007), «Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan» (2009), «Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri» (2011) mövzusunda ardıcıl olaraq keçirilmiş yüksək səviyyəli konfranslarla daha da dərinləşmiş və genişlənmişdir. Bütün bunların nəticəsində qısa müddətdə Naxçıvanda keçmiş Rusiya İmperiyasında və sovet hakimiyyəti illərində gerçəkləşdirilməsi mümkün olmayan böyük işlər həyata keçirilmişdir. Belə ki, əvvəlki dövrlərdə adları qadağan olunmuş və ya arxa plana keçirilmiş həzrəti Nuh peyğəmbərlə bağlı yer adları və mifologiya öyrənilmiş, Nuh peyğəmbərin Naxçıvan şəhərindəki türbəsinin yeri müəyyənləşdirilmiş, məzarının üzərində məqbərəsi ucaldılmışdır. Bundan başqa, Əshabi-Kəhf ziyarətgahında genişmiqyaslı bərpa işləri aparılmışdır. Xanəgah kompleksində və İmamzada pirində əsaslı yenidənqurma tədbirləri həyata keçirilmişdir. İkicildlik «Naxçıvan enisklopediyası»nın, «Naxçıvan abidələri ensiklopediyası»nın, «Naxçıvanın tarixi atlası»nın, «Naxçıvan teatr salnaməsi»nin, «Bəhruz Kəngərli albomu-kataloqu» hazırlanaraq yüksək poliqrafik şəkildə nəşr edilməsi də milli-tarixi yaddaşa qayıdış və soykökün öyrənilməsi məsələlərində mühüm əhəmiyyətə malik hadisələrdir. Aparılan arxeoloji axtarışların, mifoloji və linqvistik tədqiqatların sayəsində Naxçıvanda ilkin şəhərsalmanın 5 min illik tarixə malik olması barədə qənaətlər formalaşmışdır.

Son illərdə haqlı olaraq elmi surətdə əsaslandırılmış şəkildə deyildiyi kimi, Naxçıvan ərazisi Həzrəti Nuh peyğəmbərin əfsanəvi səfəri və dünya tufanı hadisəsi ilə möhkəm surətdə bağlıdır. Bəşəriyyətin babası Nuh peyğəmbərin torpağa endiyi ehtimal olunan yerlərdən biri də Türkiyə ərazisindəki Ağrı dağı və Cudi dağı ilə yanaşı, Naxçıvan ərazisindəki Gəmiqayadır. Ümumiyyətlə, Naxçıvan ərazisindəki Nuh peyğəmbərlə əlaqədar yer adları, mifoloji motivlər bu regionun bəşər

sivilizasiyasının başlanğıc dövrləri ilə bağlı olduğunu təsdiq edir. Həqiqətən də bəşəriyyətin ümumdünya daşqını kimi böyük bir fəlakətdən xilas olması və nəticədə Yer kürəsində həyatın yenidən başlanması kimi hadisələr mühüm sivilizasiya faktıdır. Nuh peyğəmbərlə səsləşən Naxçıvan mifologiyası və toponimikası dünyanın qədim tarixinin böyük hadisələrinin bu torpaqda baş verdiyini düşünməyə əsas verir. Kiçik Qafqaz dağlarının ən hündür nöqtəsi olan Gəmiqayadakı Qapıcıq zirvəsindən Naxçıvan şəhərinə, Duzdağa qədər uzanan geniş ərazini əhatə edən tarixin izləri qədimliyi, ilkinliyi dövrümüzə qədər yaşadan şahidlərdir. Əvvəlki illərdə apardığımız tədqiqatlarda bildirdiyimiz kimi, Kiçik Qafqaz dağlarının ən yüksək zirvəsi olan və 3906 metr yüksəklikdə yerləşən Qapıcıq dünya boyda dənizin Gəmiqaya möhtəşəmlikdə ilk limanı funksiyasını yerinə yetirmişdir. Qapıcıq – bəşəriyyətin yeni həyatına «açılan kiçik qapı», «giriş yeri» (1) mənasını daşıyır.

Qapıcıq zirvəsinin altındakı sıldırım qayalardan çıxan Baca bulağı Qapıcıq sözünün sinonimi kimi də başa düşülə bilər. Yəni Nuh peyğəmbərin ilk dəfə ayağını torpağa qoyduğu yer qapıcıq, yaxud baca boyda imiş. Gəmiqaya ətəklərindəki Qaranquş yaylağı – Nuh peyğəmbərin suyun çəkilib-çəkilmədiyini öyrənmək üçün əfsanəvi gəmidən buraxdığı və caynağında palçıq, yaxud dəfnə yarpağı geri dönən Qaranquşun adını əbədiləşdirən toponimdir.

Gəmiqaya ərazisində olan Xəzər obası Nuh peyğəmbərin nəvələrindən birinin adının toponimdə yaşayan izidir. Ordubaddakı Nəsirvaz kəndi Nuh əfsanəsi ilə bağlı və «Bilqamıs» dastanında adı çəkilmiş Nisr dağının adını yaşadan toponimdir.

Nuh peyğəmbərin gəmisinin Gəmiqaya istiqamətində üzərkən toxunub zirvəsində iz ayırdığı Haçadağ Naxçıvan dağlarının sərkərdəsidir:

Hərdən şimşəklərin gələr tuşuna,
Göylər ildırımı çaxar başına,
Xırda təpələri yığır başına
Özü sərkərdəyə oxşar Haçadağ! (2)

Naxçıvan ərazisindəki Haçadağ, Nəhəcir, Nehrəm, Peyğəmbər ayağı, Dor aşırımı və sair kimi toponimlər də Nuh peyğəmbərin gəmisi əhvalatı ilə səsləşir.

Naxçıvanla həmsərhəd cənub və qərb ərazilərdə, habelə Gəmiqayanın arxa hissəsində yerləşən Zəngəzur bölgəsində də Nuh peyğəmbərin əfsanəvi səfəri və dünya daşqını ilə əlaqədar toponimlərin mövcudluğu bu regionun tarixində Nuh peyğəmbər faktorunun əhəmiyyətli yer tutduğunu göstərir. «Ümumiyyətlə, Nuhun əfsanəvi gəmisinin yerə enməsi ehtimal edilən ərazilərdən Ağrı dağı və Cudi dağı ətrafından heç birində Naxçıvandakı qədər Dünya tufanı hadisəsi və ya Nuh peyğəmbərlə səsləşən adlar, toponimlər, əfsanələr çox deyildir» (3).

Fikrimizcə, Gəmiqaya kompleksinə daxil olan dünya tufanı dənizindəki yeganə gəminin qüdrətli kapitanı olan Nuh peyğəmbərin ilk olaraq oba saldığı yer Gəmiqaya ərazisində olan Nəbi yurdudur (4). Lakin toponimin adındakı «yurd» ifadəsi bu formatda həmin yerin müvəqqəti, mövsümi yaşayış məskəni olduğunu göstərir. Bizə görə, Nuh peyğəmbərin Qapıcıq zirvəsindən Qaranquş yaylağından, Nəbi yurdundan başlanan məskunlaşma prosesi Nuhdaban adlı yerdə başa çatmışdır. Nəbi yurdu toponimindəki mövsümi yaşayış məskəni, hətta yaylaq mənasını bildirən «yurd» ifadəsindən fərqli olaraq, Nuhdaban yer adındakı «daban» sözü daimi, möhkəm, oturaq, dayanıqlı mənalarını bildirir. Türk dillərindəki «işi dabana oturtmaq» frazeoloji ifadəsi də hər hansı bir prosesi başa çatdırmaq, yerinə oturtmaq, bitirmək, möhkəmləndirmək kimi anlayışları özündə cəmləşdirir. Nuh

peyğəmbərlə bağlı əsatirlər də ifadə olunduğu kimi, Nuhdaban gəminin dayandığı yerlərdə deyil, oradan «bir addım irəlidə», sabit bir məkanda yerləşir. Əsatirdə deyilir ki, «Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir də gördülər ki, uca dağlar od tutub yanır.

...Nuh Nəbi dedi: - ...Yanan dağların biri Gəmiqaya, biri İlandağ, biri Ağrı dağıdır. Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı. Oğlanları həmin yerdə yurd saldılar, adına da Nuhdaban dedilər» (5).

Ümumiyyətlə, elmi ədəbiyyatlarda Naxçıvan ərazisindəki digər toponimlərlə müqayisədə Nuhdaban yer adı demək olar ki, az öyrənilmişdir. Nuhdaban yaşayış yerinin müəyyən edilməsi baxımından da əsaslı dəqiqləşdirmələr aparılmasına ehtiyac vardır. Nəhayət ki, «haradır Nuhdaban» sualına cavab verilməlidir. Hələ ki, bu barədə yalnız şifahi yaddaşlara əsasən fərqli versiyalar üstünlük təşkil edir.

Əsatirdəki məcazi mənada işlədilən «bir addım irəli» ifadəsinə istinad edənlər Nuhdabanın Gəmiqaya ərazisində olduğunu qeyd edirlər. Nuhdabanın Gəmiqayada olmasına dair məlumatlar bəzən elmi ədəbiyyata da xalq düşüncəsi əsasında daxil olmuşdur. Lakin son illərin araşdırmaları göstərdi ki, Gəmiqaya ətraflarında Nuhdaban adlı yer adı yoxdur.

Bəziləri Nəhəcir kəndinin Nuhdaban olduğunu düşünürlər. Doğrudur, Nəhəcir yer adı Nuh peyğəmbərlə bağlıdır. Ancaq bu yer Nuh peyğəmbərin hələ quruya çatmadığı, heç Haçadağdan da keçmədiyi bir məsafədədir. Nəhəcir – Nuh peyğəmbərin əcir, əzab içində quruya çıxmaq qayğıları ilə yaşadığı anların yadigarıdır. Nəhəcir – Nuhəcir ifadələri ilə Nuhdaban anlayışı tamam fərqli mənaların daşıyıcılarıdır. «Nuhəcir» sözündə son məqsədə çatmaq üçün bir tələş düşüncəsi, «Nuhdaban» toponimində isə oturuşmuş bir fikir, qayə öz əksini tapmışdır.

Bundan başqa, Nuhdabanın Haçadağın Naxçıvan şəhərinə tərəf baxan ətrafında olduğunu deyənlər də vardır. Tarixçi-etnoqraf alim Qadir Qədirzadə bu ərazidəki Nuh peyğəmbərlə bağlı olan toponimin Nuhdaban deyil, «Peyğəmbər ayağı» olduğunu elmi dəlillərlə isbat etmişdir. AMEA-nın müxbir üzvü Qadir Qədirzadə yazır: «Hazırda çox az adamın tanıdığı «Peyğəmbər ayağı» adlanan məqam bu dərənin (Culfa rayonunun Kırna kəndi yaxınlığındakı Gendərənin – İ.H.) sağ yamaclarındakı sərt qayalarda yerləşir. Xalq arasında mövcud olan rəvayətə görə tufandan sonra sular tədricən çəkilməyə başlamış, ərazinin dağlıq hissələri sulardan qurtarsa da, nisbətən aşağı zonalarda torpaq hələ də tam qurumamışdır. Belə bir vəziyyətdə Peyğəmbər bu qaya ilə hərəkət etməli olmuşdur. Ayağını qoyduğu yerdə yerimək asanlaşsın deyə qaya yumşalmış, onun ayaq izləri orada qalmışdır. Biz dərənin sağında, qayalığın ortasından başlayaraq qərb istiqamətinə doğru 127 belə ayaq izi saya bildik. Maraqlıdır ki, ayaq izləri açıq aşkar görünməklə indi də həmin yerlərə ayaq qoymaqla yerimək mümkündür» (6).

«Peyğəmbər ayağı» ifadəsində hələ hərəkətin bitmədiyi, davam etdiyi fikri göz önünə gəlir. Bundan başqa, Q.Qədirzadə «Peyğəmbər ayağı» adlanan yerdə daban yox, pəncə izləri olduğunu qeydə almışdır (6). Buradan başa düşmək olur ki, Həzrəti Nuh peyğəmbər hələ ki, oturaq məkana doğru yol üstündədir, dabanını yerə basmamışdır.

Bu qəbildən olan başqa fərziyyələr də mövcuddur. Fikrimizcə, qeyd olunanlardan heç biri Nuhdaban yaşayış yerinin əsl, real məkanını ifadə etmir. Bizə görə Naxçıvanda ilkin şəhərin əsasını təşkil edən Nuhdaban yaşayış yerini müəyyən

etmək və Nuhdabandan Nuhçıxana – Naxçıvana gələn yolun mahiyyətini aydınlaşdırmaq üçün bir neçə əsas faktora diqqət yetirmək lazımdır.

***Birincisi:*** «Nuhdaban» sözünün etimoloji mənasını aydınlaşdırmaq lazımdır: «Nuhdaban» adlı əsatirdən bu sözün üç mənasını çıxarmaq olar: 1.Nuh peyğəmbərin dabanı, yəni bu müqəddəs şəxsiyyətin ayağının daban hissəsi. Bu məna «Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı, ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi» cümləsində öz əksini tapmışdır.1 Göründüyü kimi, burada gerçək olaraq Nuh peyğəmbərin (insanın) ayağının daban hissəsini yerə basmasından söhbət gedir.2. «Nuhdaban» adlı əsatirdə daban sözü yurd, məskən salmaq, oturaq həyata başlamaq mənasını daşıyır. Bu fikir əsatirdəki «Oğlanları həmin yerdə yurd saldılar»(5) sözlərində ifadə olunmuşdur.3. Nuh peyğəmbərlə bağlı mifdə «daban» sözü onun şərəfinə salınmış bir şəhərin – «Nuhdaban» şəhərinin adının bir hissəsidir. Buradakı «daban» ifadəsi olmasaydı yaranmış yeni yaşayış yeri daimi, oturaq məkan mənasını ifadə edə bilməzdi. Bunlardan başqa, «Nuhun dabanı» ifadəsi Nuhun gəmisi mənasında da işlədilmişdir. Bir mənbədə deyilir: «Nuh öz əhli-əyalı və ona tabe olanlarla qalxır təzə ayrılmış dabana... Nuhun düzəltdiyi daban qalxır suyun üzünə, dağ kimi dalğalar arasında üzür» (7).

Əslində əsatirdəki «daban» sözünün mənası ilə gəmi mənasını bildirən eyniadlı ifadənin arasında da lap dərinliklərdə müəyyən bir bağlılıq müşahidə etmək mümkündür. Nuhdabandakı «daban» sabit bir məskunlaşma fikrini ifadə edirsə, gəmi anlayışındakı «daban» da qasırğalar, tufanlar içərisindən keçərək oturaq bir quru yerə çatmaq düşüncəsini izləyir. Yer mənasında Nuhdaban da, gəmi anlayışını bildirən Nuhun dabanı da bələdçilik etmək, işin səmtini, istiqamətini tapmaq mətləblərini də özündə ehtiva edir. Nuh peyğəmbər dabanını yerə basmaqla salınması zəruri olan yaşayış yerinin ünvanını müəyyənləşdirmişdir. Nuhun dabanı – gəmisi də insanlar da daxil olmaqla bütün canlıları dünya tufanından xilas etmişdir. Xilaskarlıq da, bələdçilik də, quruculuq da peyğəmbərlərə xas olan xüsusiyyətlərdir.

***İkincisi:*** Xalqın hafizəsində əsrlər boyu yaşayaraq dövrümüzə qədər gəlib çıxan «Nuhdaban» əsatiri eyni adlı yaşayış yerinin müəyyənləşdirilməsinə bələdçilik edə bilir. Arxeologiya ilə yanaşı əsatirlər və toponimika da qədim tarixin müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir. «Nuhdaban» adlı əsatirdə deyilir ki, həzrəti peyğəmbərin övladları Gəmiqaya və İlandağla Ağrı dağı arasında atalarının dabanını basdığı yerdə yurd saldılar. Əsatirdəki məntiq göstərir ki, Nuhdaban od tutub yanan Gəmiqaya, İlandağ və Ağrıdağın yaxın ətrafında ola bilməzdi. Ona görə də Gəmiqaya ərazisindəki Nuhdaban, Haçadağ yaxınlığındakı Nəhəcir və Peyğəmbər ayağı versiyaları əsatirdə deyilənlərə uyğun gəlmir. Nuhdaban Gəmiqaya və İlandağdan sonra, Ağrıdağla Haçadağ arasında oturaq bir məkan olmalıdır. Fikrimizcə, həmin yer indiki Naxçıvan şəhərinin vaxtilə ilk salındığı məkandır. Nuhdaban ilkin şəhəri Nuh peyğəmbərin məzarının, türbəsinin olduğu ərazidən başlanmışdır. Bu yeri həzrəti Nuh peyğəmbər dabanını yerə basmaqla müəyyən etmişdir. Nuh peyğəmbərin başçılığı ilə övladları atalarının dabanını yerə basdığı yerdə yurd salmışlar. Beləliklə, Nuh peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur. Mənbələrdə də bu barədə məlumatlar mövcuddur (8). İlkin şəhər kimi Nuhdabana, Naxçıvana indiki Nuh türbəsinin ətrafı, Qədim Qurdlar, Şahab və Sarvanlar məhəllələri, Qızlar bulağı ətrafı, habelə indiki Naxçıvan Dövlət Universitetinin əhatə etdiyi ərazilər daxil olmuşdur. Lap son illərə qədər Naxçıvan Dövlət Universiteti ilə Əliabad kəndi arasındakı ərazidə müdafiə divarı mövcud idi.

Həzrəti Nuh peyğəmbər ömrünün çox hissəsi əsasını qoyduğu Nuhdabanda yaşamış, bu yerdə insan birlikləri formalaşmış, Nuhdaban inkişaf edərək şəhər tipli yaşayış məskəninə çevrilmişdir. Nuh peyğəmbər Nuhdaban şəhərində vəfat etmiş və burada torpağa tapşırılmışdır. Dünyasını dəyişdikdən sonra Peyğəmbərin şərəfinə onun saldığı, əsasını qoyduğu şəhəri Nuhçıxan adlandırmışlar. Nəslinin davamçıları və tərəfdarları Nuhdaban şəhərini Nuhçıxan adlandırmaqla ulu Peyğəmbərin xatirəsini əbədiləşdirmişlər. Nuhçıxan – Nuh peyğəmbərin dünya tufanı fəlakətindən xilas olaraq gəlib çıxdığı, oturaq məkan kimi seçib müəyyən etdiyi, yaşayıb ömür sürdüyü yer deməkdir. Nuhçıxan – bəşəriyyətin babasının vətənidir. Peyğəmbər burada böyük bir yaşayış məskəni salmış, insanlıq buradan dünyaya yayılmışdır. Nuh peyğəmbərin Nuhdabanda üzüm bağları salması da mənbələrdə öz əksini tapmışdır (8).

Naxçıvan sözü Nuhçıxan ifadəsindən yaranmışdır. Naxçıvan Nuhdabandan başlanan Nuhçıxanın varisidir, davamıdır. Nuhdaban ilkin şəhərtipli yaşayış yeri, Nuhçıxan şəhərin formalaşması mərhələsi, Naxçıvan isə inkişaf etmiş şəhərdir.

***Üçüncüsü:*** Nuh peyğəmbərin məzarı Nuhdabanın möhürüdür. Nuh peyğəmbərin məqbərəsinin, mavzoleyinin olduğu ərazi Nuhdabanın Baş meydanıdır. Ola bilməz ki, Nuh peyğəmbər Nuhdaban oturaq məkanında yaşayıb ömür sürsün, amma başqa bir yerdə dəfn olunsun. Tarixdə əksər peyğəmbərlər ömür sürdükləri yerdə torpağa tapşırılmışdır və həmin yerlər müqəddəs ziyarətgaha çevrilmişdir. Xalqın yaddaşında Nuh peyğəmbərin məzarının olduğu yer uzun əsrlər boyu Nuh türbəsi kimi qalmışdır. Peyğəmbərlərin dəfn olunduğu digər yerlər kimi, Nuhdaban da əzəmət, möhtəşəmlik qazanmış və ziyarətgah olaraq tanınmışdır.

***Dördüncüsü:*** Orta əsrlər Azərbaycan və ərəb mənbələrində, habelə XIX əsrdən başlayaraq Rusiya qaynaqlarında Nuh peyğəmbərin məzarının Naxçıvan şəhərində olmasına dair çoxsaylı mülahizələr mövcuddur. 1882-1884-cü illərdə Naxçıvan şəhər məktəbinin müdiri vəzifəsində çalışan, böyük ədibimiz Cəlil Məmmədquluzadəyə də dərs demiş Konstantin Nikitin Nuh peyğəmbərin məzarının dəqiq təsvirini vermiş, şəxsi müşahidəsi əsasında bu yerin ziyarətgah olduğunu təsdiqləmişdir (8).

XX əsrin otuzuncu illərinin əvvəllərində Naxçıvanda əsaslı tədqiqatlar aparan Peterburq Arxeologiya İnstitutunun məzunu, tanınmış arxeoloq-etnoqraf Konstantin Smirnov Abbasabad qalasının yaxınlığındakı Nuhun məzarını ziyarət etmiş və məzarın 4900 il əvvəl salındığı qənaətinə gəlmişdir. (9) Mənbələrdə Nuh peyğəmbərin 596 il, yaxud 650 il, hətta 950 il ömür sürdüyünə dair məlumatların olduğunu nəzərə alsaq, onda Nuhdaban yaşayış yerinin, Nuhçıxan protoşəhərinin tarixinin 5 min ildən çox olduğu qənaətini təsdiq etmiş olarıq.

***Beşincisi:*** Konstantin Smirnov Nuh peyğəmbərin məzarının aşağısında qədim qəbristanlığın olduğunu qeyd edir. (9) Ehtimal ki, bu, indi İmamzadənin yerləşdiyi, habelə görkəmli rəssam Bəhruz Kəngərlinin məzarının olduğu qəbristanlıqdır. Yuxarıda Nuh peyğəmbərin məzarının yaxınlığında da qəbirlər müşahidə edilmişdir. Ətrafında qəbristanlığın olması Nuhdabanın böyük bir oturaq məkan olduğunu isbat edən əsas faktorlardan biridir. Tanrıçılığın beşiyi olan Nuhdaban qəbristanlığının sonralar təkallahlığa iman gətirən müsəlmanların qəbristanlığına çevrilməsi də biri-digərini tamamlayan hadisələrdir. İmamzadənin Nuh türbəsinə yaxın bir yerdə tikilməsi də islamın tanrıçılığa yaxın olmasından irəli gəlir.

***Altıncısı:*** Köhnə qala məsələsi. Mənbələrdə Köhnə qalanın mövcudluğu barədə müxtəlif fikirlər vardır. Belə ki, tarixçilər Köhnə qalanın bizim eranın yeddinci

əsrində Sasani hökmdarı Yəzdəgird tərəfindən tikildiyini qeyd edirlər. Bundan başqa, Köhnə qalanın Naxçıvan şəhərinin Makedoniyalı İskəndərin yürüşlərindən qorunmağı üçün salındığını ehtimal edənlər də vardır. Böyük ehtimal ki, Sasani hökmdarı əvvəllərdən mövcud olmuş qalanı genişləndirmiş və möhkəmləndirmiş, yenidən salmışdır. Bütün hallarda Köhnə qalanın ətrafında müdafiə edilməsi zəruri sayılan qədim bir şəhərin olduğu etiraf olunur. Əgər təxminən 2400 il qabaq burada Makedoniyalı İskəndərin diqqətini çəkən bir şəhər var idisə, onda təbii ki, inkişaf etmiş bu şəhərin yaşı həmin tarixdən neçə min illər əvvələ aid olmalıdır.

Bizə görə Köhnə qala ilkin olaraq Nuh peyğəmbərin məzarının – məqbərəsinin ətrafının mühafizəsi üçün salınmışdır. Köhnə qalanın bu hissəsi Kiçik qala, yaxud da Narınqala adlandırılmışdır. Sonrakı dövrlərdə Nuhdabanın – Naxçıvanın müdafiəsi məqsədilə həmin qala daha da genişləndirilmiş və inkişaf etdirilmişdir. Qalanın bu hissəsi Böyük qala kimi tanınmışdır.

Yoxsa, VII əsrdə salınmış qalaya nə üçün Sasanilər Yeni qala, yaxud da Sasanilər qalası adını verməmişlər? Elə Makedoniyalı İskəndərin epoxasında da, Sasanilərin zamanında da bu Köhnə qala idi.

Nuhdabanın – Nuhçıxanın – Naxçıvanın qala-şəhər kimi meydana çıxması bu yaşayış yerinin ən qədim zamanlardan ilkin şəhərin əsas xüsusiyyətlərini özündə cəmləşdirdiyini göstərir. Mühafizə hasarları Nuhdabanda, müdafiə qalası Nuhçıxanda – Naxçıvanda ilkin şəhərsalmanın nişanələridir.

***Yeddincisi:*** Bizim ehtimalımıza görə, Əshabi-Kəhf ziyarətgahı ilə də Nuh peyğəmbər və ya Nuhdaban arasında müəyyən bağlılıq vardır. Artıq məlum olduğu kimi, Əshabi-Kəhf ziyarətgahı təkallahlığın, tanrıçılığın məbədgahıdır. Nuh peyğəmbər də təkallahlığın carçısı kimi əbədiləşmişdir. Əshabi-Kəhf ziyarətgahı Naxçıvanın, Nuhçıxanın, Nuhdabanın islamaqədərki dövrdə təkallahlığın əsas mərkəzlərindən biri olduğunu sübut edir. Gəmiqaya rəsmlərində də əllərini göylərə uzadıb Tanrıya ibadət edən insanların kifayət qədər çox sayda rəsmləri vardır. Kimsəsizlərin mağarası kimi tanınan Əshabi-Kəhf də təkallahlığa, tanrıçılığa, nəticə etibarilə Nuh peyğəmbərə iman gətirənlərin ziyarətgahı ola bilərdi. Tanrıçılıqla islam dini arasında çox yaxınlıq olduğu üçün Əshabi-Kəhf çox sonralar həm də müsəlmançılığın ziyarətgahına çevrilmişdir. Beləliklə, yaxın ətrafında ibadətgahın olması da Nuhdabanın – Nuhçıxanın protoşəhər əlamətlərindən biridir. Fikrimizcə, Nuh peyğəmbərin məzarının salındığı yerdən Əshabi-Kəhf ziyarətgahının açıq-aydın görsənməsi də təsadüfi olmayıb, Nuhdabanla bu müqəddəs ibadətgahın yaxınlığını, bağlılığını ifadə edir.

***Səkkizincisi:*** «Naxçı qəbiləsi» məsələsi. Bu barədə azdan-çoxdan yazılmışdır. Hətta üzərində «Naxc» sözu yazılmış sikkələr haqqında da məlumatlar mövcuddur. (10) Amma kim olub, harada yaşayıb Naxçılar suallarına əsaslı cavab verilməyib. Bizim fikrimizcə, Naxçılar Nuhçulardır, Nuh peyğəmbərin nəslinin davamçıları və tərəfdarlarıdır, Nuhdabanın sakinləridirlər.

Azərbaycan dilində «x» və «h» səslərinin bir-birini əvəz etməsi fonetik hadisəsi mövcuddur. Ehtimal ki, Naxçı və Nuhçu sözlərində həmin fonetik hadisə baş vermişdir. Bu da ola bilər ki, Naxçı ifadəsi rus mənbələrindən olduğu kimi alınaraq işlədilmişdir.

***Doqquzuncusu:*** Nuh türbəsinin aşağısında, yəni Nuhdabanın alt hissəsində mağara tipli sığınacaq yerinin olması da ilkin şəhər mədəniyyəti üçün səciyyəvi haldır. Həmin yerdəki kəhriz kimi çıxan bol su mənbəyinin mövcudluğu da orada şəhərsalma prosesinin reallığını əks etdirir.

***Onuncusu:*** Görkəmli rəssam Bəhruz Kəngərlinin «Nuhun türbəsi» rəsm əsəri Nuhdabanın təsviri sənətdə yaşayan izidir.

Yeri gəlmişkən deyək ki, Bəhruz Kəngərlinin 1919-cu ildə çəkdiyi Nuhun türbəsi əsərində də arxa fonda Əshabi-Kəhf ziyarətgahı və Haçadağ aydın şəkildə görünür. Təsadüfən də olsa, Bəhruz Kəngərli Nuhun türbəsini ulu peyğəmbərin adı ilə bağlı olan Haça dağla və Əshabi-Kəhf ziyarətgahı ilə eyni kompozisiyada birləşdirmişdir.

Nəhayət, ***onbirinci dəlil***: Mənbələrdə Naxçıvan şəhəri ilə yanaşı, bu şəhərdən bir qədər aralıda yerləşən Duzdağın da əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğu fikri irəli sürülür. (8) Belə olduqda Naxçıvan şəhəri ilə Duzdağ təxminən yaşıddırlar. 2008-2011-ci illərdə AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşları ilə Duzdağda birgə axtarışlar aparan Amerika-Fransa arxeoloqları müqayisəli elmi təhlillər və laboratoriya analizləri əsasında bu qənaətə gəliblər ki, Naxçıvan Duzdağının 5 min ildən çox yaşı vardır. Deməli, Duzdağ Nuhdabanın yaşıdıdır. Fikrimizcə, Nuhdaban ilkin oturaq məkanın, protoşəhərin, Duzdağ isə qədim şəhərətrafı mədəniyyətin tarixini özündə əks etdirir. Naxçıvanda ilkin şəhərin formalaşmasında, yəni Nuhdabanın şəhərə çevrilməsində Duzdağ amili mühüm rol oynamışdır. Duzun istehsalı, emalı, daşınması, bazarı, daş əmək alətlərinin hazırlanması kimi anlayışlar Nuhdabanda – Naxçıvanda şəhərsalmanı zəruri edən əsas faktorlardan biridir.

Tədqiqatçıların fikrincə, Naxçıvan Duzdağından tapılmış saman qarışıqlı keramikaya əsasən mədənin işə başlamasını eradan əvvəlki beşinci minilliyin ikinci yarısına aid etmək mümkündür. (11)

Bundan başqa, Naxçıvan Duzdağı ərazisindən tapılmış daş baltalar (və ya daş çəkiclər – İ.H.) də qədim tarixin yadigarlarıdır. Hətta bəzən alimlər daş əmək alətlərindən Duz mədənlərindəki şaxtalarda daş dövründən etibarən istifadə edildiyini qeyd edirlər. (12) XIX əsrin ikinci yarısında, 1870-ci ildə Naxçıvan Duz mədəninin mühəndisi Beyer tərəfindən ilk dəfə tapılaraq bəyan edilən baş baltalardan da hələ metalın məlum olmadığı dövrlərdən istifadə olunmuşdur. Elmdə belə bir nəticə çıxarılmışdır ki, «daş gürzlərin, külünglərin, baltaların, pazların... tapılması göstərir ki, ...Naxçıvan mədənçiləri dərin şaxtalar və tunellər qazmaqla kütləvi duz istehsalı ilə məşğul olmuşlar». (13) Müstəqillik dövründə aparılmış tədqiqatlarda Naxçıvan Duzdağında «müxtəlif xronoloji dövrlərə aid yüzlərlə daş əmək alətlərinin aşkar olunduğu» qeyd edilmiş və həmin alətlərdən Duz mədəni işə başladığı vaxtdan istifadə edildiyi müəyyən olunmuşdur. (11)

Beləliklə, Duzdağ Naxçıvanda ilkin şəhərin formalaşmasına ciddi surətdə təsir göstərmişdir. Nuhdaban – Nuhçıxan – Naxçıvan ən qədim daş əmək alətlərini hazırlayan ilkin şəhərdir. Naxçıvan Duzdağı regionda şəhərətrafı mədəniyyətin abidəsidir.

Naxçıvanda karvançılıq – Karvansara və bazar mədəniyyətinin yaranmasında da Duzdağ mühüm amil olmuşdur. Duzdağ ərazisində, indiki duz mədənindən Şərq tərəfdə, Xor gədiyi vasitəsilə Cəhri səmtə gedən yolun sol kənarında qədim bir yaşayış yerinin izləri açıq-aşkar görünməkdədir. Ehtimal ki, həmin yer qədim Duzdağçıların ilk yaşayış yeri olmuşdur. Arxeoloji axtarışlara ciddi ehtiyac vardır.

Kültəpələrdə, Oğlanqalalarda, Gilançaylarda, Ovçular təpəsində davamlı olaraq aparılan arxeoloji axtarışların məntiqi yekunu gec-tez həmin tarixi yaşayış yerlərinin ilkin başlanğıcı, start nöqtəsi olan Nuhdabana-Nuhçıxana-Naxçıvana gətirib çıxarmalıdır. Arxeoloqları, mifologiya və toponimika ilə məşğul olan mütə-

xəssisləri özündə cəmləşdirən «Nuhdaban» adlı xüsusi bir ekspedisiya qrupuna böyük ehtiyac vardır. Nuhdabanda-Nuhçıxanda-Naxçıvanda aparılacaq elmi axtarışlar yəqin ki, çox məsələləri həll edəcək, bəlkə də illərdən bəri düşünülənləri qəti şəkildə tamamlayacaqdır.

## ƏDƏBİYYAT


1. İsa Həbibbəyli. Naxçıvanda ilkin şəhərsalma tarixinə kompleks yanaşma. Bax: Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (beynəlxalq simpoziumun materialları). Naxçıvan, «Əcəmi», 2012, səh. 26.
2. Muxtar Qasımzadə. Gülü xəlvət açan dünya. Naxçıvan, «Əcəmi» nəşriyyatı, 2004, səh. 38.
3. İsa Həbibbəyli. Nuh peyğəmbər və dünya tufanı toplusu. Bax: «Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan» beynəlxalq simpoziumunun materialları. Naxçıvan, «Əcəmi», 2010, səh. 60.
4. İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, «Nurlan»,2007, səh. 606.
5. Naxçıvan folkloru (tərtib edənlər Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı). Bakı, «Sabah», 1994, səh. 70.
6. Qadir Qədirzadə. Naxçıvan: Nuh baba və Türk Atadan gələn yol. Naxçıvan, «Əcəmi», 2011, səh.23.
7. Elçin Muxtar Elxan. Nuhun dabanı. Bakı, «Nurlan», 2008, səh. 4.
8. K.A.Nikitin. Naxçıvan şəhəri və Naxçıvan mahalı. «Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün materiallar» məcmuəsi, Tiflis, 1882, II buraxılış, səh. 111.
9. Konstantin Smirnov. Naxçıvan diyarının tarixinə və etnoqrafiyasına dair materiallar. Bakı, «Ozan», 1999, səh. 99.
10. Vəli Əliyev. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı, 2002, səh. 39.
11. Baxşəliyev V., Katerine Marro, Karoline Hamon, N.Alıyev, Filippe Dessant, Severine Sanz. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan, «Əcəmi», 2012, səh. 13.
12. Богаевский. История техники, Т 1, Моксва-Ленинград, 1936, стр. 231.
13. Vəli Əliyev. Naxçıvanın qədim duz mədənləri. Azərbaycan EA-nın «Xəbərlər» jurnalı, Bakı, 1983, №4, səh. 79

**Katherine MARRO**
*Dosent, doktor*
*Fransa Milli Araşdırmalar Mərkəzi*

# DUZDAGINDA TUZ MADENCİLİĞİNİN BAŞLANĞICI HAKKINDA

Duzdagi'ndaki madencilik tarihi M.Ö. 5.Binin ikinci yarisina dayanıyor : Duzdağı, simdiye kadar kesin olarak bilinen dünyanin en eski tuz madeni sayiliyor.

Duzdagi'nin yanisira Urmiyah havzasinda olan Khoy Duzdagi madeninin de aynı tarihe ait oldugu tespit edildi; 2005 yilinda birlikte çalistığım Iranlı meslektaslarimla Khoy Duzdagi'nda çok sayıda Kalkolitik ve Kuro-Aras kültürüne ait keramik parçalarina rastladik.

Fakat Khoy tuz madeni, Naxçivan'daki Duzdagi'ndan oldukça farkli bir görüntüye sahiptir: Naxçivan'daki Duzdagi'nin her tarafinda taş aletler ve tüneller varken, Khoy tuz madeninde sadece keramik parçalari ve alçak çukurlar bulduk. Bu çukurlarin seklinden yola cıkarak orasının nekropol olarak kullanılmış olabileceğini düsünüyoruz.

Yani Khoy tuz madeni, kücük bir ölcüde tuz madeni olarak kullanilmis olabilir, fakat ana fonksiyonu mezarlik olmustur; sonuçta tuz cikarma islemine dair izler Khoy tuz madeninde tespit edilmemistir.

Buna benzer bir duruma İspanya'daki « la Muntanya del Sal » denilen mevkide de rastlandi. Bu mevkideki tuz yataklari yakınında Orta Neolithik döneme ait bir nekropol tespit edildi, fakat orada tuz isleminin yapılmış olduğuna dair izler oldukça azdır. Sunu söyleyebiliriz ki, bu nekropolün bir çok mezarinda duz madenciliginde kullanilmis olabilecek bir sürü tas aletler bulunmus, o yüzden «la Muntanya del Sal» madeninin de 5. Bin yillarinda kullanılmış olabileceği tahmin ediliyor (Weller and Figuls 2007).

Avrupa'daki Orta Neolithik dönem tarih olarak Kavkaz'in Geç Kalkolitik dönemine denk düsüyor, yani o da M.Ö. 4500-3500 yillarina tarihleniyor.

Sonuçta, verdigim örneklerden de anlaşılacağı üzere, tuz sadece gida ya da hayvan yemi olarak kullanilmamış bunun yanında tuzun manevi bir değeri de olmuştur.

İlginç olan diğer bir durum da şu ki; yukarıda bahsini ettiğim bütün bu madenlerin tuzu hemen hemen ayni dönemde islenmeye baslamis. Yani demek ki kaya tuzu, Avrupa'da olsun Kavkas'ta olsun hemen hemen eşzamanlı olarak tarih öncesindeki toplumlarin dikkatini çekmeye baslamis.

Bunların yanısira yaptıgımız calısmalardan anlaşıldığına göre Naxçivan'daki Duzdaginin tuzunun daha da özel bir öneminin olduğunu söyleyebiliriz, şöyle ki:
Duzdagi'nin tuzu M.Ö. 4. Bin yillarinda bile yogun bir sekilde islenmistir. Simdiye kadar Duzdağı'nın eteklerinde arastirma yaptığımız alti bölgenin hepsinde de tarih öncesine ait kalintilar bulduk ve özellikle 2. Bölgede yogun bir sekilde hem keramik parçalari hem de tas aletlere rastladık (Marro, Bakhshaliyev and Sanz 2010).

Geçen sene açtigimiz bir sondajda da, bir ocak yakininda in situ Kuro-Aras çömlekleri bulduk. İlginç olan şu ki, bu buluntuların arasında olan bir testi üzerinde bitüm kalintilari mevcuttu. Ayrica, o bölge sirf Kalkolitik ve Kuro-Aras döneminde isletilmis, yani açtigimiz sondajda sirf bu dönemlere ait keramiklerin olduğunu tespit ettik.

Kuro-Aras dönemine ait kalıntılar ise hemen hemen tuz madeninin her tarafında mevcuttu.

Bütün bunlardan anlaşılıyor ki, Kuro-Aras döneminde Duzdagi çok büyük bir oranda işlenmiştir.

C. Hamon'un yaptigi bir çalismada, tarih öncesine ait kalintilarda, tünelden tuz çikarma operasyonlarından tuzun ögütülmesine kadar tuz islemesine dair bütün izler Duzdagi'nda tespit edilmiştir (Hamon, bu kiptapta bkz).

Bütün bu saptamalardan sonra kendimize şu soruyu sorabiliriz: Neden M.Ö. 5. Bin yillarinda madene karsı birden bire çok büyük bir ilgi başlamış?

Madenciligin baslangicinin sartlari halen arastirilmaktadır, fakat yukarıda anlattıklarımız ve yaptığımız çalışmalardan yola çıkarak bir sürü varsayimda bulunmak mümkündür: Genis bir perspektiften baktığımızda tuz madenciliginin bakir madenciligiyle ayni zamanda baslamis oldugu anlasiliyor. Ayrıca, Gürcistan'daki Sakdrissi altin madeni üzerinde yapilan arastirmalara göre, altin madenciliginin de yine o zamanlarda baslamis olduğu anlasılmaktadır.

Bütün bunlardan, M.Ö. 5. ve 4. Bin yillarinda maden ve toprak içindeki maddelere karşı müthis bir ilgi gelistiğini anlamaktayız.

Tuz madenciligi konusuna tekrar dönecek olursak tuz madenciligi, hayvanciligın gelismesi ve spesyalizasyonuyla beraber gelismistir. Yani, Sherratt'in "*secondary products revolution"* un bir ögesi olmustur (Sherratt, 1981).

Tuz madenciligi olsun, bakir ya da altin madenciligi olsun bütün bu madenciliklerin gelişimi tarih öncesi toplumlarda çok sayida yapisal degisimin meydana geldiği bir dönemde olmustur, şöyle ki: Zanaatlar gelisiyor, farkli bölgeler arasinda hareketler ve iliskiler çogaliyor, 4. Binin sonlarinda Kuzey Mesopotamyada ilk kentler olusuyor; bu ve benzeri şekillerde Kavkas ve Dogu Anadolu bölgesi çapinda müthis yapisal degisimler gözleniyor. Bu yapisal degisimleri daha iyi anlamak için Duzdaginda yürüttügümüz çalismalar çok önemli bir katki sağlamaktadır.

## BİBLİOGRAFYA


1. Marro C., V. Bakhshaliyev and S. Sanz, 2010: "Archaeological investigations on the salt mine of Duzdagi (Nakhchivan, Azerbaïdjan)", *TUBA-AR*, 13 (*Journal of the Turkish Academy of Science*): 230-244.
2. Sherratt A. 1981: "Plough and pastoralism: aspects of the secondary products revolution, in Pattern of the Past". In I. Hodder, G. Isaac and N. Hammond (eds.) *Studies in honour of David Clarke*, Cambridge University Press: Cambridge: 261–305.
3. Weller O. and A. Figuls 2007: « Première exploitation de sel gemme en Europe: organisation et enjeux socio-économiques au Néolithique Moyen autour de la *Muntanya del Sal* de Cardona (Catalogne) ». In A. Figuls and O. Weller (eds) *Acts of the 1st International Archaeology meeting about Prehistoric and Protohistoric salt exploitation*, Cardona, december 2003, IREC, Barcelona.




*Resim 1 : Aras-Urmiyeh havzasi - Arkeolojik kalintilari olan tuz madenleri*



*Resim 2 : Duzdagi – 2. Bölge : Kuro-Aras «Naxçivan» kulplari*



*Resim 2 : Duzdagi – 2. Bölge, Sondaj 2 : Kuro-Aras su testisi*

**Yaqub MAHMUDOV**
*AMEA-nın müxbir üzvü,*
*AMEA Tarix İnstitutu*

# NAXÇIVAN: DÜNYA SİVİLİZASİYASININ ƏN QƏDİM MƏRKƏZLƏRİNDƏN BİRİ

Hörmətli cənab Ali Məclisin Sədri!
Hörmətli konfrans iştirakçıları!
Xanımlar və cənablar!

Mən çıxışımın lap əvvəlindəcə Azərbaycanımızın və dünyanın ən qədim şəhərlərindən biri olan Naxçıvanın tarixinə həsr olunmuş bu çox önəmli beynəlxalq elmi konfransın iştirakçılarını Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşları adından salamlayır və konfransın bütün iştirakçılarına uğurlar arzulayıram. Bu konfransa dəvət olunduğum üçün böyük məmnuniyyətlə Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə öz dərin minnətdarlığımı bildirirəm.

Bu cümlələri isə elmi konfransda iştirak edən həmkarlarıma üzümü tutub demək istəyirəm: elm, o cümlədən tarix elmi ona dövlət tərəfindən yüksək qayğı və köməklik göstərildikdə daha sürətlə inkişaf edir. Tarix İnstitutuna rəhbərlik etdiyim üçün, hələ Ulu Öndər Heydər Əliyevin zamanından başlayaraq Azərbaycan dövlətinin elmin inkişafına, o cümlədən tarixi tədqiqatların genişləndirilməsinə nə qədər böyük önəm verdiyinin şahidiyəm. Ölkəmizdə tarix elminin inkişafına xüsusi diqqət və qayğı göstərilməsi, bu elmə gündəlik dövlət himayəsi bizə Ulu Öndər əmanətidir, vəsiyyətidir! Bu gün Azərbaycanda tarix elminin inkişafını qloballaşan dünyamızın böyük dövlət xadimi İlham Əliyev gündəlik nəzarət altında saxlayır. Ölkəmizin başçısı prezident İlham Əliyev Azərbaycan tarix elminin inkişafına xüsusi qayğı və diqqət göstərir.

Tarix elminin inkişafına dövlət qayğısının ən parlaq təzahürü Azərbaycanımızın ayrılmaz parçası olan Naxçıvanımızla bağlıdır. Bu gün mən təkcə tarixçi kimi yox, bir Azərbaycan vətəndaşı kimi böyük qürur hissi keçirirəm ki, bir neçə il bundan əvvəl barəsində vur-tut, irili-xırdalı cəmi 30 çap məhsulu olduğu halda, bu gün Naxçıvanşünaslıq Azərbaycanda sürətlə inkişaf edən zəngin bir elm sahəsinə çevrilmişdir. Bunu konfransın açılışından əvvəl müşahidə etdiyiniz böyük kitab sərgisindən də gördünüz.

Naxçıvan Muxtar Respublikasının qədim tarixi ənənələrinin öyrənilməsi, buradakı saysız-hesabsız tarixi abidələrimizin bərpası, abadlaşdırılması, qorunması, onların tarixinin araşdılrılması işi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin gündəmindən düşməyən ən mühüm fəaliyyət sahələrindən biridir. Bu işə xüsusi can yanğısı göstərən, onu daim qayğı və nəzarətində saxlayan və Naxçıvanımızın inkişaf etmiş elm diyarına çevrilməsinə böyük əmək sərf edən cənab Vasif Talıbova bu beynəlxalq konfransın iştirakçısı kimi ən səmimi minnətdarlığımı bildirməyi özümə borc sayıram.

Əziz dostlar!

Bugünkü konfrans sadəcə bir beynəlxalq elmi məclis deyildir, bu konfrans Azərbaycanın və dünyanın ən qədim yaşayış məskənlərindən birinin, dünya sivilizasiyasının başlandığı yerlərdən birinin tarixinə, yaşadığımız planetdə həyatın başlandığı yerin – Naxçıvanın tarixinə həsr olunmuşdur. Ona görə də Naxçıvanın tarixi, o cümlədən bugünkü konfransın materialları sadəcə olaraq qədim bir Azərbaycan

şəhərinin tarixini öyrənmək baxımından önəm daşımır; Naxçıvan tarixi yaşadığımız sivilizasiyanın tarixini öyrənmək üçün, Yer kürəsində oturaq təsərrüfatın tarixini öyrənmək üçün, əkinçilik mədəniyyəti və sənətkarlıq tarixini öyrənmək üçün, dünyada şəhərsalma tarixini öyrənmək üçün əhəmiyyətlidir.

Azərbaycanın Naxçıvan diyarı tarixin ən qədim dövrlərindən başlayaraq yaşadığımız günlərədək aramsız, fasiləsiz olaraq həyatın davam etdiyi bir məkanın tarixidir. Naxçıvan diyarının demək olar ki, hər qarışı bu yerlərin qədim tarixindən xəbər verən çox qiymətli abidələrlə zəngindir. Bunun parlaq bir nümunəsi ondan ibarətdir ki, son illərdəki araşdırmalar sayəsində Naxçıvanda tarixi abidələrin aparılan son siyahıya alınması zamanı ərazicə o qədər də böyük olmayan bu məkanda 1197-dən çox ölkə və dünya miqyaslı tarixi abidə qeydə alınmışdır. Axtarışlar, arxeoloji qazıntılar genişləndikcə bu sayın daha da artacağı şübhə doğurmur.

Naxçıvan başdan-başa tarixin müxtəlif dövrlərini əhatə edən arxeoloji abidələr diyarıdır. Bütün bunlar isə təsadüfi deyil. Hər şeydən əvvəl bu konfransın həsr olunduğu problem Azərbaycan tarixinin aktuallığından irəli gəlir. Tarixi siyasət xatirinə deyil, elm xatirinə araşdıranlara yaxşı məlumdur ki, tarixi Azərbaycan torpaqları, yəni keçmiş Rusiya imperiyası ilə Qacarlar dövləti arasında bölüşdürülməmiş böyük Azərbaycanın ərazisi ümumdünya tarixində ən qədim mədəniyyətlərin inkişafa başladığı ərazidir. Dünyanın ən qədim insan məskənlərinin yarandığı ərazi, ibtidai insan dəstələrinin yaşadığı ərazidir. Tarixi Azərbaycan ərazisi Yer kürəsində qədim insan düşərgələrinin ən çox və ən sıx olduğu regiondur. Urmiya hövzəsi, Naxçıvan diyarı, Qarabağ, Qazax-Borçalı elləri, Dərbənd diyarı, Qobustan, Lənkəran-Lerik-Yardımlı-Ərdəbil regionu ən qədim insan düşərgələri ilə zəngindir. Azıx mağarası (Azıxantrop), Şuşa mağarası (Ağzıyastı mağara), Aveydağ mağaraları, Qazma və Kilit mağaraları, Duzdağ, Ovçular təpəsi, Oğlanqala, Kültəpə abidələri, Qobustan düşərgəsi, Buzeyir mağarası, Cənubi Azərbaycan ərazisindəki qədim yaşayış yerləri – Urmiyayanı abidələr və bir çox digər arxeoloji abidələr Azərbaycanın dünyanın ən qədim insan məskənləri ilə çox zəngin olduğunu sübut edir. Naxçıvan da daxil olmaqla tarixi Azərbaycan ərazisi Aralıq dənizi, Xəzər dənizi və İran körfəzi üçbucağına daxil olmaqla, dünyanın ən qədim sivilizasiyalar diyarıdır, müasir insanların ayaq açıb yeridiyi ərazidir. Azərbaycanın Naxçıvan diyarı ən qədim Şərq sivilizasiyaları ilə birbaşa, həm də sıx təmasda olmuş bir bölgədir.

Naxçıvanın dünyanın ən qədim yaşayış məskəni olduğunu Dünya tufanı və Nuh peyğəmbərlə bağlı konkret faktik materiallar və maddi-arxeoloji tapıntılar, habelə xalq yaddaşında qorunub saxlanılmış mifoloji materiallar da sübut edir. Yer kürəsində Naxçıvan qədər Nuh peyğəmbər və Dünya tufanı ilə bilavasitə bağlı ikinci bir ərazi yoxdur. Bununla bağlı Azərbaycanın Naxçıvan diyarı dünya tarixinə görün nə qədər faktik material verir! Nuhun məzarı Naxçıvandadır! Nuhla bağlı təbii-tarixi abidələr olan Haçadağ və Gəmiqaya Naxçıvandadır! Bilavasitə Nuh peyğəmbərlə bağlı Nəbi yurdu adlanan qədim qəbristan da Naxçıvanda – Gəmiqayadadır! Bizim xalqımız Naxçıvanın ən qədim adını da «Nuhçıxan» formasında indiyədək qoruyub saxlamışdır. Xalqımız ölkəmizin hər yerində, o cümlədən Naxçıvanımızda qədim-antik əşyaları, hətta hər hansı köhnəlmiş bir əşyanı da «Nuh Nəbidən qalma», yəni «Nuh Peyğəmbərdən qalma» kimi qiymətləndirir. Bu gün Naxçıvanda Nuh Peyğəmbərlə bağlı Nəbi qalası, Nuh dağı, Nuh dərəsi, Nehrəm, Nəhəcir kimi xeyli toponim qorunub saxlanılır.

Naxçıvan diyarı Azərbaycanın və dünyanın ən qədim oturaq mədəniyyət mərkəzlərindən biridir. Naxçıvan ərazisində tapılan çoxsaylı arxeoloji tapıntılar bu diyarda əkinçilik və sənətkarlığın minillərlə tarixə malik olduğunu sübut edir. Dərin lağımlar atılaraq, şaxtalar qazılaraq duz çıxarılmasının ən qədim tarixini ümumdünya salnaməsinə məhz Naxçıvan sənətkarları yazmışlar. Azərbaycanın qədim xalçaçılıq sənətkarlığı tarixində məşhur duz torbalarının toxunması da Naxçıvan xalçaçılıq məktəbinə məxsusdur.

Tarixi Azərbaycanın başqa əraziləri kimi, Naxçıvan diyarı da yaşadığımız planetin ən qədim oturaq əkinçilik və sənətkarlıq mərkəzlərindən biridir. Dünya tarixində ən qədim mədəniyyət ocaqları məhz oturaq təsərrüfatın, xüsusilə əkinçilik mədəniyyətlərinin və istehsal təsərrüfatının inkişaf etdiyi yerlərdə yaranmışdır. Azərbaycan torpaqları, o cümlədən Naxçıvan dünyanın ən qədim əkinçilik mədəniyyəti və sənətkarlıq mərkəzlərindən biridir. Buna görə də dünya tarixində ən qədim şəhər mədəniyyətinin başlandığı yer Azərbaycandır! Dünyanın ən qədim bir neçə şəhərlərindən biri də məhz Naxçıvandır! Şərq ölkələrinə səyahət etmiş, demək olar ki, Marko Polodan tutmuş Adam Oleariyədək bütün Avropa səyyahları Azərbaycanı "şəhərlər və qalalar ölkəsi" kimi təqdim etmişlər. Urmiya ətrafından başlayaraq Naxçıvan və Təbriz də daxil olmaqla Dərbəndə qədər Azərbaycan torpaqları ən qədim şəhərlərin meydana gəldiyi ərazidir. Aparılmış konkret tədqiqatların nəticələri də sübut edir ki, Naxçıvanın və ümumilikdə tarixi Azərbaycanın şəhər mədəniyyətinin tarixi 5 min ildən artıq bir dövrü əhatə edir. Bölgədə, o cümlədən Naxçıvanda aparılan arxeoloji qazıntılar, xüsusilə Duzdağda aparılan araşdırmalar bu tarixin real tarix olduğunu sübut edir.

Naxçıvanın qədim sivilizasiya mərkəzi olması onun çoxsaylı ibtidai insan məskənləri, əkinçilik kompleksləri, sənət və ticarət mərkəzi olan şəhər mədəniyyəti ənənələri ilə təsdiqlənir. Amma Naxçıvanın qədim sivilizasiya mərkəzi olması həm də bu torpağın yetişdirdiyi tarixi şəxsiyyətlərlə də sübut olunur.

Naxçıvanın tarixi – Nəsirəddin Tusi kimi ümumdünya korifeylərinin tarixidir. Biz bu dahi şəxsiyyətimizlə fəxr edirik. Nəsirəddin Tusinin heliosentrik sistem nəzəriyyəsini, onun elmi irsini italyan alimi Toskanelli əxz elədi, yerin kürə formasında olması ideyasını irəli sürdü. Kolumb bu biliklərə söykənərək qərbə doğru üzüb Hindistan sahillərinə yetişməyə can atdı. Bizim üçün böyük bir qürur mənbəyidir ki, həmvətənimiz dahi Əcəmi Naxçıvani təbiət naxışlarını, qadir Allahın insanlara bəxş etdiyi naxışları həndəsi sistemlə, riyazi naxışlarla birləşdirib dünya tarixində unikal bir memarlıq məktəbi yaratdı. Naxçıvan – hürufiliyin banisi Fəzlullah Nəiminin ideyalarının bütün Şərqə yayıldığı diyardır! Teymurilərə qarşı Əlincə qalası qədər qətiyyətli, möhkəm və iradəli böyük bir hürufinin mübarizə meydanıdır Naxçıvan! Naxçıvanımız – böyük Mirzə Cəlilin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin vətənidir! Bu torpaq Azərbaycan ədəbi dilinin, Azərbaycan milli ədəbiyyatının təşəkkül etdiyi, inkişaf etdiyi torpaqdır. Yusif Məmmədəliyev kimi onlarla elm korifeyinin yetişdiyi torpaqdır bu diyar!

Elm və mədəniyyət tarixi qədər hərb tarixi də zəngin olan Naxçıvan Cəmşid xan Naxçıvanskinin vətənidir!

Heydər Əliyev kimi dahi siyasətçinin vətənidir Naxçıvan! Heydər Əliyev dünya tarixində Atatürk, Vaşinqton, Bismark, Nehru kimi dahi simalarla bir sırada duran tarixi şəxsiyyətdir. Mənim aləmimdə Heydər Əliyev öz Vətəni üçün onunla müqayisə olunan tarixi şəxsiyyətlərdən daha çətin problemləri həll etmişdir. Çünki Bismarkın arxasında böyük Almaniyanın potensialı, Vaşinqtonun arxasında Amerikanın qüdrəti dururdu...

Heydər Əliyev isə kiçik, əzilən, ayrı-seçkiliyə məruz qalan bir xalqın nümayəndəsi idi. Lakin buna baxmayaraq, dünyanın altıda birinə sahib olan bir ölkənin – Sovet İttifaqının rəhbərlərindən biri səviyyəsinə ucala bildi, Azərbaycanı dünyaya tanıtdı, Azərbaycan dövlətçiliyini dirçəltdi və inkişaf etdirdi.

Naxçıvan dünyada qədim iqtisadi və mədəni mərkəzlərdən biri kimi tanındığı qədər, həm də Azərbaycanın hərbi-siyasi tarixinin, dövlətçilik tarixinin mərkəzlərindən biri kimi məşhurdur. Naxçıvan e.ə. I minilliyin ilk yüzilliklərində Azərbaycan Manna dövlətinin başlıca vilayətlərindən olmuşdur. Mannanın timsalında yerli dövlətçiliyin qorunub saxlanmasında Naxçıvanın önəmli yerini sübut edən yazılı abidələrdən biri Culfa rayonunda aşkar edilmiş və e.ə.IX əsrə aid edilən İlandağ mixi yazısıdır ki, bu yazıda Urartu işğalçılarına qarşı Naxçıvanın qədim əhalisinin şanlı mübarizəsi əksini tapmışdır.

Makedoniyalı İsgəndərin ölümündən sonra öz dövlətçiliyini bərpa edən Azərbaycanın qədim Atropatena dövlətində də Naxçıvan önəmli yer tuturdu, Azərbaycanın beynəlxalq siyasi və iqtisadi əlaqələrində fəal iştirak edirdi. Azərbaycanın qədim zərbxanalarından olan Gilan zərbxanası məhz Naxçıvanda yerləşirdi və bu zərbxanada “naxç” işarəsilə Sasani sikkələri zərb olunurdu.

İslam dininin yayıldığı, Azərbaycanın Xilafətin tərkibinə daxil olduğu dönəmlərdə Naxçıvan həm də İslam dünyasının mərkəzlərindən birinə çevrilir. Naxçıvanda yerləşən qədim Əshabi-Kəhf abidəsi bütün müsəlmanlar üçün müqəddəs ibadət və ziyarətgah yerinə çevrilir. Qədim Oğuz-Türk torpağı olan Naxçıvan bölgədə həm də İslam mədəniyyətinin yayılmasında önəmli rol oynamışdır.

Böyük Səlcuq imperiyasının zəiflədiyi, Azərbaycan dövlətçiliyinin yenidən dirçəldiyi dövrdə - XII əsrdə Naxçıvan Azərbaycan Eldənizlər dövlətinin paytaxtı olur. Bu dövrdə Naxçıvan bütün Azərbaycanın siyasi mərkəzinə çevrilir. Eldənizlərin hakimiyyəti dövründə bütün Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində güclü yüksəlişə səbəb olur. Azərbaycan İntibah mədəniyyəti özünün Xaqani, Nizami, Əcəmi zirvəsinə ucalır. Eldənizlərin hakimiyyəti dövründə Naxçıvan mərkəz olmaqla Azərbaycan türklərinin, Azərbaycan türk dili və mədəniyyətinin yayıldığı ərazi daha da genişlənir.

Azərbaycanın şanlı tarixinin hər səhifəsində adı keçir Naxçıvanın. Azərbaycanın 5 minillik dövlətçilik tarixi boyu Naxçıvan təkcə siyasi, iqtisadi, mədəni mərkəz olmayıb, həm də ölkəmizin və xalqımızın başına gələn ən ağır faciələrə sinə gərib, mübarizə simvolu olub. E.ə.I minilliyin başlarında Urartunun Mannaya qarşı hücumlarında böyük müqavimət mərkəzi olan Naxçıvan, sonrakı mərhələdə Romanın Parfiya və Sasanilərlə qarşıdurmasında hərbi-strateji mövqeyi və daxili qüvvəsi hesabına bu imperiyaların dağıdıcı yürüşlərinə tab gətirib. Xilafətə qarşı 20 il azadlıq mübarizəsi aparmış Babək hərəkatının əsas mərkəzlərindən biri yenə Naxçıvan olub.

Oğuz Elinin “qara donlu kafirlər”ə qarşı ölüm-dirim çarpışmalarının ən qaynar sərhəd bölgələrindən biri kimi Naxçıvan diyarı Vətən torpağının düşmən tapdağına çevrilməməsi üçün misilsiz qəhrəmanlıqlar göstərmiş, Şəktur xaqan, Qıpçaq xaqan kimi şanlı türk sərkərdələri Əlincə qalasını, bütün Naxçıvanı ələ keçirməyə çalışan erməni-Bizans-səlibçi quldurlarına qan uddurmuşlar. Bu gün hər bir Azərbaycan türkünün başını ucadan da uca tutaraq qürurlanmağa haqqı var ki, Naxçıvanın, qəhrəman Əlincə qalasının, Göycənin, Qarabağın, Gəncənin, Şəkinin qarı düşmənlərdən qorunması üçün onun göstərdiyi misilsiz igidliklərlə dolu olan şanlı qəhrəmanlıq tarixinin qızıl səhifələri üzərində Dədəmiz Qorqudun silinməz möhürü vardır.

Dünyaya meydan oxuyan fateh Teymurun qoşunlarına meydan oxuyub Naxçıvan. Əlincə qalasını təslim etməyib yağılara. Nadir şah Əfşar böyük strateji əhəmiyyəti olan Naxçıvanı itirməmək üçün bu torpağın tanınmış kəngərli tayfasını sürgün edib ölkədən, amma Naxçıvan yenə dirçəlib və Nadir şah Əfşardan sonra Kəngərli tayfasının nümayəndəsi Heydərqulu xanın başçılığı ilə Naxçıvan xanlığının əsası qoyulub, burada Naxçıvan xanı Kəlbəli xanın gözləri çıxarılıb Ağa Məhəmməd şah Qacar tərəfindən, amma Naxçıvan yenə bu davalara sinə gərib.

Çar Rusiyasının ağalığı dövründə bütün əzəli Azərbaycan torpaqlarında erməniləşdirilmə siyasəti başlamışdı, Naxçıvana da ermənilərin köçürülməsinə cəhd edilmişdi, lakin Naxçıvanın türk-müsəlman əhalisi ermənilərin Vətən torpağında möhkəmlənməsinə yol vermədilər. Rusiya müstəmləkəçiləri Naxçıvan diyarında erməniləri məskunlaşdıra bilmədilər.

Azərbaycanın yeni tarixinin ən ağır dövründə - XX əsrin əvvəllərində azərbaycanlılara qarşı soyqırımı illərində Naxçıvan xalqımızın azadlıq mübarizəsinin öncüllərindən oldu. 1919-cu ildə ermənilər Zəngəzuru ələ keçirdilər, amma Naxçıvanı bu diyarın qəhrəman oğulları erməni işğalından qoruyub saxladı. Erməni-daşnak quldurlarının vətənin bu müqəddəs torpağını Azərbaycandan qoparmaq arzusu gözlərində qaldı.

XX əsrin sonu Azərbaycan yenə ağır sınaqlar qarşısına çıxdı. Yağıların torpaqlarımızı bölüşdürmək planları reallaşmaqda, yurdumuz, o cümlədən də Naxçıvanımız bir siyasi varlıq kimi Cənubi Qafqazın siyasi xəritəsindən yox edilmək ərəfəsində idi. Tariximizin bu ölüm-dirim anında vətənin, millətin dadına Ulu Tanrının bu günlər üçün qoruyub saxladığı nadir şəxsiyyətimiz yetişdi. O zaman ən müasir silahlarla silahlanmış düşmənlərin qarşısında əli yalın qalmış xalqımızın yeganə silahı, nicat işığı, ümid yeri Heydər Əliyev şəxsiyyəti idi. Məhz bu şəxsiyyətimiz də "olum ya ölüm" savaşımızın ən ağır cəbhəsindən – Naxçıvandan qurtuluş mücadiləsinə qalxdı. Düşmənlərin mühasirəyə aldığı Naxçıvanda təkcə həmin bölgəmizin deyil, bütün Azərbaycanın müqəddəratı həll olunurdu. Ağlasığmaz dərəcədə ağır olan bu mürəkkəb tarixi şəraitdə Heydər Əliyev şəxsiyyəti özünün yeganə silahı ilə - misilsiz siyasi dühası və dövlət müdrikliyi sayəsində Naxçıvan camaatının mübarizliyinə, əzmkarlığına arxalanaraq qəhrəman Kəngərli yurdunu tarixin ən ağır sınağından çıxara bildi!

1990-cı illərin əvvəlində ağır blokada şəraitində düşmənə sinə gərən Naxçıvanda, eyni zamanda, bütün Azərbaycanın qurtuluş savaşı başlandı. Milli müstəqilliyimizin ilk addımları məhz Naxçıvanda atıldı. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılıb atılması, Naxçıvan "Ali Sovet"inin "Ali Məclis" adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının ilk dəfə burada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması və qaldırılması, Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, SSRİ-nin saxlanılması barədə referendumdan imtina olunması, 1990-cı ilin 19-20 yanvar faciəsinə siyasi qiymət verilməsi, dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə tarixi qərar çıxarılması, bir çox digər cəsarətli addımlar Naxçıvanımızı qurtuluş mücadiləmizin önünə çıxardı. Qurtuluş savaşına Naxçıvanda başlayan, Kəngərli yurdunu Vətən üçün qoruyub saxlayan Heydər Əliyev bütün Azərbaycanın da qurtuluş savaşının qalibi, Azərbaycan dövlətçiliyinin xilaskarı oldu.

Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi Azərbaycan möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu.

Bu gün Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı, qloballaşan dünyanın müdrik dövlət xadimi İlham Əliyev başçılıq edir. Heydər Əliyev siyasi kursu, onun ölməz ideyaları Azərbaycanda yaşayır və qalib gəlir. Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın və bütün dünya azərbaycanlılarının yeni lideridir.

Müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Cənubi Qafqazın lider ölkəsinə və dünyanın ən sürətlə inkişaf edən dövlətinə çevrilmişdir.

Bu gün dövlətimizin başçısı İlham Əliyevin müdrik siyasəti sayəsində Heydər Əliyev dövlət idarəçilik məktəbinin görkəmli nümayəndəsi, Muxtar Respublikanın Ali Məclisinin Sədri Vasif Talıbovun məqsədyönlü fəaliyyəti nəticəsində bütün Azərbaycanımızla birlikdə Naxçıvanımız da özünün Yeni İntibah dövrünü yaşayır.

Danılmaz faktdır ki, bu gün Naxçıvan Şərqi Anadolu və Cənubi Azərbaycan da daxil olmaqla yaşadığımız bu bölgədə ən inkişaf etmiş iqtisadi-mədəni mərkəzə çevrilmişdir. Ən qürur doğuran məqam da bundan ibarətdir ki, blokada şəraitində olmasına baxmayaraq, Naxçıvan öz tarixi ənənələrini, Azərbaycançılıq ideyalarını və öz tərəqqisini davam və inkişaf etdirir, günü-gündən çiçəklənən diyara çevrilir.

Əziz konfrans iştirakçıları, sonda hər birinizə məni səbrlə dinlədiyiniz üçün təşəkkür edirəm və bu beynəlxalq konfransın mötəbər kürsüsündən fəxarətlə deyirəm: **dünya sivilizasiyasının ən qədim mərkəzlərindən olan Azərbaycan və onun əzəli torpağı Naxçıvan müasir dünya üçün tərəqqi örnəyi, Azərbaycanı sevənlər üçün isə qürur mənbəyidir!**

**Виталий ОТРОЩЕНКО**
*Доктор исторических наук,*
*Киев, Украина*

# МИР ПЕТРОГЛИФОВ ГЯМИГАЯ: ПОДХОДЫ К ИНТЕРПРЕТАЦИИ

Открытие петроглифов Гямигая в конце 60-х годов XX века стало выдающимся событием в археологи Евразии. Однако, оценить масштабность и уникальность этого явления удалось уже в эпоху независимого Азербайджана, а решительные шаги в направлении научного изучения петроглифов и популяризации этого уникального памятника осуществлены в нынешнем III тысячелетии. Инициатива Президента Гейдара Алиева о проведении масштабных археологических раскопок на территории Нахичеванской АР в 2001 г. и распоряжение Председателя Верховного Собрания Нахчиванской Автономной Республики Васифа Талыбова «Об исследовании памятников Гямигая в Ордубадском районе» от 26.04.2001 г. открыли ворота в Гямигая для системного научного исследования. С прокладкой автомагистрали к Священной Горе доступ к сокровищнице древнего искусства стал практически доступным как для заинтересованных представителей научного мира, так и для всех интересующихся ранней историей Азербайджана. Фиксация и публикация наскальных рисунков и другой ценной информации о Гямигая В. Алиевым, В. Бахшалиевым, В. Керимовым, Н. Мусейибли, А. Сеидовым и другими исследователями сделали этот уникальный памятник доступным археологам и искусствоведам всей планеты.

Для автора еще недавно местность Гямигая в Ордубадском районе оставалась загадочным объектом на археологической карте Азербайджана, затененным всемирно известным Гобустаном. Открыл автору глаза на это удивительное собрание произведений раннего наскального искусства академик НАНА Иса Габиббейли на симпозиуме «Азербайджан – Венгрия: диалог культур» (Будапешт, ноябрь 2010 г.) и пригласил увидеть петроглифы Священной Горы воочию. Предварительное знакомство с публикациями и незабываемые личные впечатления от непосредственного восприятия «живых» петроглифов на летней стоянке пастухов Гарангуш 24 июля 2011 г. легли в основу этой статьи.

Целесообразно высказать некоторые соображения общего порядка, предваряя изложение конкретных наблюдений и выводов. Употребляя образ «Священная Гора» относительно Гямигая (Гапыджиг) и окружающих ее урочищ автор полагает, что привязка этой местности к эпическим событиям, связанным с мифом о Великом потопе, имеет прямое отношение к феномену петроглифов Гямигая. Напомню цепь легендарных событий на заключительной фазе библейского потопа: «И остановился ковчег на седьмом месяце, в семнадцатый день месяца на горах Араратских» (Бытие, 8, *4*). Текст «Библии», как и легендарная традиция Нахчывана, не привязывает историю Ноя (пророка Нуха) к одной конкретной горе. З. Гасанов отмечает, что в источниках в качестве места высадки Ноя фигурируют горы «Урартские». Далее исследователь локализует место первой высадки Ноя на самой высокой горной равнине Гямигая, ссылаясь

на перевод этого топонима с азербайджанского языка как «корабль-скала» (Гасанов, 2012, с. 376).

Первый контакт корабля со скалой и пролет ласточки стали добрыми знамениями для обитателей ковчега. Далее ковчег сделал отметину на горе Иландаг и над будущим г. Нахчиван проплыл к горе Агрыдаг (Арарат). Среди святынь Нахчывана фигурирует усыпальница Ноя у ворот Старой крепости. Древность истоков этой легенды подтверждают шумерский эпос о Гильгамеше (конец 3 тыс. до н. э.) и упомянутая книга «Бытие» в «Библии» (рубеж 2-1 тыс. до н. э.). В 3-2 тыс. до н. э. начертаны, в основном, петроглифы Гямигая. Письменные документы и фольклорная традиция убеждают нас в том, что Нахчыван (земля Ноя) являлась неотъемлемой частью ойкумены Месопотамской цивилизации с элементами процесса формирования ранних городов.

Возвращаясь к месту первого серьезного контакта земной тверди с ковчегом Ноя, отметим, что камни, упавшие с макушки Гямигая (Гапыджига) после столкновения, обрели сакральную ауру от соприкосновения с легендой. Они охватывают шею и грудь Священной Горы как блистающие диаманты в ожерелье. Очеловеченный в сознании верующих образ живо дополняют ручьи, струящиеся с груди Горы и отливающие в игре солнечных лучей молоком. Столь яркая и чарующая картина не могла не привлечь в Гямигая вереницы паломников из плодородных речных долин. Они-то и выступали если не исполнителями, то заказчиками многочисленных изображений на гранях упавших из-за заоблачной выси камней. Возлагать изобразительные задания на плечи и руки сезонных пастухов вряд ли уместно. Им-то своих прямых обязанностей хватало по горло.

В. Алиев впечатляюще описывает возможный путь археологов, а некогда и паломников, на Гямигая еще в 70-х – 80-тых гг. XX века: «В свое время на Гямигая можно было добраться, пройдя через села Сабиркенд, Билев, Парага Ордубадского района, а затем по дороге, соединяющей села Тиви и Насирваз, а отсюда с трудом подняться по склонам обрывистых гор» (Əliyev, 2005, с. 25). Выявленные оборонительные сооружения поселения Наби на плато Гарабулаг с удобным доступом оттуда на плато петроглифов Гарангуш обеспечивали, вероятно, безопасность не только пастухов, но и возможных паломников, оказавшихся в столь высокогорной и капризной по природным условиям местности (Əliyev, 2005, с. 27). Там же могли обитать и мастера по нанесению петроглифов на каменные глыбы. Археологические материалы, полученные при раскопках В. Алиева в Наби, датируются в пределах 4-1 тыс. до н. э. Их относят к куро-аракской, нахчыванской и ходжалы-кедабекской культурам эпохи бронзы (Əliyev, 2005, с. 28-29).

Приведу еще ряд соображений в пользу того, что рисунки на скалах Гямигая не были делом рук исключительно пастухов. Насыщенность летней стоянки на плато Гарангуш россыпями камней с изображениями делало ее неидеальной для выпаса скота, хотя бы из соображений возможного травматизма животных и ограниченных ресурсов травостоя. Альпийские луга, окружающие летовку Гарангуш и ныне активно используют для сезонного выпаса скота (фото 1). Вероятно, что местность, насыщенная петроглифами, в эпоху бронзы выполняла функции большого открытого святилища. В центральной части ее заметно высохшее русло ручья (источника) вдоль которого и располагается заметная часть изображений (фото 2). Русло смотрится важным осевым объектом

комплекса в целом. Неподалеку от него сохранился цоколь квадратного сооружения с выходом в сторону ручья, интерпретируемого как фундамент жилища пастухов (фото 3). Однако, в данном контексте, выкладку уместнее рассматривать как культовое сооружение, где совершались определенные обряды паломниками, подобные тем, что и сегодня выполняются на известном святилище Асхаби-Кахф в Джульфинском районе. В центре квадратной выкладки на Гарангуше также возвышается наброска из мелких камешков, как и на объектах поклонения в Асхаби-Кахф. Священное место Гафар у с. Милах Джульфинского р-на имеет близкую конструкцию выкладке на Гарангуше (Naxçivan Abidələri Ensiklopediyasi, 2008, s. 274).

Неподалеку от культового места находится большое изображение левосторонней свастики (фото 4), которое можно рассматривать как один из особых объектов почитания, символ защиты, хода времени или же «колесо фортуны» в интерпретации В. Алиева (Əliyev, 2005, с. 129). Исследователь подчеркивает, что летняя стоянка Гарангуш («Ласточка») является местом повышенной концентрации петроглифов (Əliyev, 2005, с. 119). Особый статус стоянки подчеркивается топонимом, органически вплетенным в легенду о ковчеге Ноя. Такой легендарный контекст не позволяет рассматривать комплекс изображений на плато Гарангуш и Гямигая в целом исключительно в бытовой плоскости, как сцены охоты и выпаса скота горными охотниками и животноводами. Феномен места и мифических событий с ним связанных диктовал художникам эпохи бронзы воспроизведение сюжетов эпической истории, обстоятельств сотворения мира и деяний первых демиургов, пророков, героев, шаманов, жрецов. Считаю, что сюжеты изображений Гямигая пронизаны полифонией смыслов и образной картиной мироздания.

Высота плато Гарангуш (3200м над уровнем) моря создает ситуацию максимальной приближенности к небесам, наиболее благоприятную для общения с Творцом. Естественно, что для позитивного результата от такого контакта желательно иметь посредника (медиатора). Отражением такого мотива является, на мой взгляд, элемент «лестница в небо» (фото 5). Лестницей из двух балок с поперечинами прорастают рога животного, надо думать оленя на другом петроглифе (фото 6). Стилизованные под лестницу рога оленя на прочих петроглифах и олень, в таком контексте, воспринимается как животное-медиатор, контактирующее с верховным существом (Naxçivan Abidələri Ensiklopediyasi, 2008, s. 128). Иногда ступени лестницы образуют поперечные изгибы тела змеи, устремленной вверх между двух вертикальных линий (фото 7, слева). Наиболее показательной в этом плане является композиция из вереницы танцоров со сведенными руками и плечами. Голова рослого танцора слева «прорастает» однобалочной осевой лестницей с пятью поперечными планками (фото 8). Не исключено, что лестничная конструкция закреплялась за спиной ведущего танцора (шамана ?). На уровне планок лестницы над головами танцующих людей знак птицеподобного существа на взлете. На степных материалах эпохи бронзы подобный мотив уже рассмотрен как сюжет перевоплощения человека-оборотня в птицу (Отрощенко, 1998, с. 93-98, рис. 1; 2; 4, *5-7, 10-13*).

Пронизан символикой еще один своеобразный тип «лесенки» на петроглифах Гямигшая - сугубо антропоморфный, когда несколько фигур или знаков «человек» изображены вертикально друг над другом. При этом ноги

верхней фигуры опираются на плечи нижней, как в акробатической пирамиде (фото 7, справа). Отдельные композиции насчитывают до трех антропоморфных фигур (знаков) в такой пирамиде (фото 9). Этот петроглиф украшает экспозицию Государственного исторического музея Нахчыванской автономной республики (Naxçivan Abidələri Ensiklopediyasi, 2008, p. 128). В целом, различные модификации лесенок несут структурообразующую функцию в многофигурных композициях петроглифов, подчеркивая антитезы «верх – низ», «небо – земля». Наиболее полно они воплощены в универсальном образе «древа жизни».

Среди обитателей «древа жизни» знаковым и экзотическим персонажем выступает змей. Змей входит в круг обязательных персонажей у древа жизни в мифологии разных народов. Он выполнял связующую функцию между подземной, земной и небесной сферами (фото 7). Его оппонентом выступал обитатель заоблачных высот и, соответственно, репрезентант небесных сфер (Солнца ?) – горный козел. Один из сюжетов Гарангуша передает динамичную сцену нападения змея на горного козла (фото 10). Особенность изображения заключается в том, что змей хватает животное за загривок (Отрощенко, 2012, с. 91, 94, рис. 3). Аналогичная композиция известна в изобразительном искусстве Древнего Египта. Разница только в том, что в сюжете виньетки «Книги мертвых» конца XVIII династии Нового царства змей кусает за холку «солнечного» осла – одну из ипостасей бога Ра (Тарасенко, 2012, с. 180, 587, рис. Б.52). Отсюда можно предположить, что и на упомянутом петроглифе Гямигая укушенный змеем горный козел является репрезентантом солярного божества.

В этой же плоскости можно рассматривать сюжет многофигурного петроглифа, где двух горных козлов в центре композиции окружают три оленя с рогами, оформленными в виде лестниц. Проникнуть в этот магический круг пытается антропоморфный персонаж справа, возможно, шаман (фото 11).

Шаман, как антропоморфный медиатор при «древе жизни», находился в сложных отношениях с горными козлами (фото 12), оленями и змеями. Конфликт или игра трехпалого птицеголового шамана со змеем - один из сюжетов на петроглифах Гямигая (Əliyev, 2005, с. 70). Обозначенная выше структурообразующая вертикаль (змей, попираемый ногой вооруженного человека, и горный козел, нависающий задними ногами над головой лучника) весьма образно представлена на еще одной многофигурной композиции (фото 13) Гямигая (Naxçivan Abidələri Ensiklopediyasi, 2008, p. 128).

В 2011 году азербайджанские исследователи тщательно фиксировали на Гарангуше многофигурную композицию, воспроизводящую несколько эпизодов древнего эпоса обитателей Нахичеванского края (фото 14). На стелообразной плоскости слева направо переданы подвиги героя, обретшего силу. Он побеждает в единоборстве соперника, оплодотворяет женщину и у лестницы-змеи («древа жизни») совершает подъем в верхнюю сферу, водрузившись на плечи своего побратима (помощника). Вверху героя ожидает контакт с змеем на изломе плоскости плиты и горным козлом в горизонтальном положении на сопряженной боковой грани (фото 16). Предложенная реконструкция последовательности событий, естественно, гипотетична. Однако, элементы и вариации этого мифа фрагментарно встречаются на многих петроглифах.

Хочется обратить внимание еще на один важный момент. З. Гасанов упоминает о наскальных изображениях кораблей на петроглифах Гямигая, не

ссылаясь, к сожалению, на археологический источник этой информации (Гасанов, 2012, с. 377). Автору, пока, такие сюжеты на Гямигая не известны, но они чрезвычайно важны для локализации событий, связанных с водной эпопеей и приземлением ковчега Ноя. Тема корабля обильно представлена на петроглифах Гобустана (Cəfərzadə, 1999, Беюкдаш, нижняя терраса, камни 1, 8, 9 и др.). Но там, на побережье Каспийского моря, плавучие средства передвижения периодически находилось в поле зрения создателей петроглифов.

Рассмотренные материалы, естественно, избирательны на фоне многих сотен петроглифов Гямигая, но они дают возможность наметить определенные подходы к пониманию мифотворчества населения Нахчывана в эпоху бронзы (4-2 тыс. до н. э.). Священная гора (Гямигая) в течение нескольких тысячелетий оставалась главным святилищем для страны в целом и созданные мастерами, а, возможно, и шаманами, композиции и пиктограммы являлись важной ступенью на пути к письменности, градостроительству и другим краеугольным плитам цивилизации.

## ЛИТЕРАТУРА


1. Əliyev Vəli. Gəmiqaya. Гямигая. Gamigaya. – Bakı, 2005. – 148 p.
2. Cəfərzadə İ.M. Qobustan qayaüstü rəsmləri. - Bakı, 1999. – 259 s.
3. Naxçıvan Abidələri Ensiklopediyası. - Naxçıvan, 2008. – 522 s.
4. Гасанов З. Происхождение и значение топонима «NAGIU» в переписке ассирийского царя Саргона II // Naxcıvan: ilk yaşayış və şəhərsalma yeri kimi. – Naxcıvan, 2012. – С. 371-380.
5. Отрощенко В.В. Сюжет перевтілення у знаковій системі племен зрубної спільноти // Археологический альманах. - Донецк, 1998. - № 7. - С. 93-98.
6. Отрощенко В.В. Роль мотивов изображений Гямигая в определении древней истории Нахчывана // Naxcıvan: ilk yaşayış və şəhərsalma yeri kimi. – Naxcıvan, 2012. – С. 85-94.
7. Тарасенко Н.А. Древнеегипетская картина мира в изобразительной традиции Книги мертвых времени Нового царства и Третьего переходного периода (виньетки глав 16, 17 и 42). – Дис. … докт. ист. наук. – Киев: Институт востоковедения им. А. Крымского, 2012. – 770 с.



*Фото 1. Вид на высокогорные пастбища с плато Гарангуш.*



*Фото 2. Нагромождение камней вдоль русла высохшего ручья.*



*Фото 3. Культовое сооружение на плато Гарангуш.*



*Фото 4. Петроглиф «Большая свастика».*



*Фото 5. Петроглиф «Лестница в небо».*



*Фото 6. Петроглиф «Лестница-олень».*



*Фото 7. Фрагмент многофигурного петроглифа: «лестница-змея» и один антропоморфный персонаж на плечах другого.*



*Фото 8. Петроглиф «Танцор-лестница во главе хоровода».*



*Фото 9. Петроглиф «Пирамида из трех антропомофных фигур» из экспозиции ГИМ Нахчыванской АР.*



*Фото 10. Петроглиф «Змей, атакующий горного козла».*



*Фото 11. Петроглиф «Горные козлы в окружении оленей».*



*Фото 12. Петроглиф «Шаман в окружении горных козлов».*



*Фото 13. Петроглиф «Петроглиф лучник-змееборец» (по Naxçivan Abidələri Ensiklopediyasi, 2008).*



*Фото 14. Многофигурный петроглиф со сложной эпической композицией.*

Фотографии с натуры выполнены автором статьи.

**Qüdrət İSMAYILZADƏ**
*Tarix elmləri doktoru,*
*Bakı Dövlət Universiteti*

## «NEOLİT İNQİLABI» VƏ NAXÇIVAN

Bir əsrə yaxındır ki, arxeologiya elmində – «Neolit inqilabı» anlayışı diqqət mərkəzində qalmaqda davam edir. Tanınmış ingilis arxeoloqu Vir Qordon Çayld tərəfindən irəli sürülən bu qəribə anlayışda ibtidai insanlar tərəfindən əkinçilik və maldarlıq məşğuliyyətinin, ümumilikdə istehsal təsərrüfatının mənimsənilməsinin tarixi əhəmiyyətinə verilən məntiqi qiymət öz elmi təzahürünü tapmışdır.

Neolit (Yeni daş) 2 milyona yaxın uzun zaman kəsiyini əhatə edən Daş dövrünün son tarixi mərhələsi olmuş, mövcud qədim cəmiyyətlərin həyatında yeniliklər və böyük kəşflərlə səciyyələnmişdir. Bu tarixi mərhələdə ibtidai insan oturaq həyat tərzinə keçmiş, əkinçilik və maldarlıqla məşğul olmuş, daşişləmə sahəsində yeni və daha yüksək üsulları mənimsəməklə məhsuldarlığı ilə seçilən mükəmməl alətlər düzəltməyi öyrənmiş, gil qabları odda bişirməklə əməli keyfiyyətlərə malik dulusçuluğun əsasını qoymuş, rifahını görünməz dərəcədə yüksəltmişdi. İctimai rifahın yaranması Neolit dövrünün mühüm nailiyyətlərindən olmuşdu.

Əkinçilik və maldarlığa keçid bəşər tarixinin mühüm hadisələrindəndir. Minilliklər boyu ibtidai insanların əsas yaşayış vasitəsi olan bəsit yığıcılıq-ovçuluq mənimsəmə məşğuliyyətindən yüksək əkinçilik-maldarlıq iqtisadiyyatına keçid qədim cəmiyyətlərin təkcə təsərrüfatında yox, ictimai və mədəni həyatında da böyük irəliləyişə səbəb olmuş, əsaslı dəyişikliklərlə nəticələnmiş, onların gələcək mütərəqqi inkişaf yolunu müəyyən etmişdi.

İbtidai insan təbiətin asılılığından çıxmış və ilk dəfə olaraq sabit qida məhsulları istehsal etməyi öyrənmişdi. Maraqlıdır ki, istedadlı alim Qordon Çayld əkinçilik və maldarlıq təsərrüfatının meydana çıxmasını Qərbi Avropada XVIII-XIX əsrlərə təsadüf edən sənaye inqilabı ilə müqayisə etmişdi. Lakin sənaye inqilabından fərqli olaraq «Neolit inqilabı» bir neçə minilliyi müşayiət etmiş, son nəticədə daha yüksək paleometal dövrünə keçid üçün zəmin yaratmışdı.

Paleodemoqrafik tədqiqatlarla müəyyən edilmişdir ki, Neolit dövründə əski dünyada əhalinin sayı 16 dəfə artmış, 80 milyona çatmışdı. Məhsuldar qüvvələrin inkişafında əsl mənada sıçrayış baş vermişdi. Dövrünə görə çox yüksək həyat tərzi, iqtisadi, ictimai və mədəni sahələrdə mütərəqqi irəliləyiş öz növbəsində ayrı-ayrı regionlarda sabit oturaq həyat tərzilə bağlı ilk şəhərlərin və şəhər mədəniyyətinin rüşeymlərini doğurmuşdu. Şərqi Aralıq dənizi hövzəsində, Kiçik Asiya, İkiçayarasında və Cənubi Qafqazda artıq eramızdan əvvəl VII-VI minilliklərdə geniş sənətkarlıq və mübadilə imkanlarına malik ilkin mədəni mərkəzlər mövcud olmuşdu.

Keçən əsrin ortalarında Aralıq dənizinin Şərq hövzəsində, İordan çayı vadisində üzə çıxarılan İerixon yaşayış yeri hazırda dünyanın ən qədim şəhəri hesab olunur. Arxeoloji qazıntılarla İerixon abidəsində daşdan inşa edilmiş müdafiə divarı, hündürlüyü 8 m-ə çatan dairəvi qala, çiy kərpiclərdən tikilmiş yaşayış və təsərrüfat binaları, əkinçilik məşğuliyyəti ilə bağlı müxtəlif daş alətlər, eləcə də yabanı arpa və buğda növləri tapılmışdır. Abidə eramızdan əvvəl VIII-VII minilliklərə, Neolit dövrünə aid edilir. Kiçik Asiya ərazisindəki Çatal – höyük abidəsi də ən qədim mədəni mərkəzlərdən sayılır. Arxeoloji qazıntılarla Çatal-höyükdən onun qədim sakinlərinin yüksək

rifahının və həyat tərzini əks etdirən, onların zəngin maddi və mənəvi dünyasından xəbər verən çoxlu sayda əşyavi dəlillər, divar rəsmləri və relyef təsvirləri və digər ibtidai incəsənət nümunələri aşkara çıxarılmışdı.

Arxeoloji dəlillərə görə eramızdan əvvəl VII minillikdə Ön Asiyanın bütün düzən və dağətəyi bölgələri artıq başdan-başa yerli oturaq əkinçi-maldar tayfaların daimi məskən yerlərinə çevrilmişdi. Eyni zamanda həmin ərazilərdə yetkin ənənələri və özəllikləri ilə seçilən əkinçilik mədəniyyətləri təşəkkül tapmışdı. Təsadüfi deyil ki, II Cahan müharibəsindən sonra Yaxın Şərqdə geniş miqyaslı arxeoloji qazıntılar aparmış ingilis alimi Robert Breydvud eramızdan əvvəlki VII minilliyi bəşər tarixinin «Böyük minilliyi» kimi qiymətləndirmişdir.

Keçən əsrin 50-60-cı illərində tarixi Azərbaycan torpaqlarında, o cümlədən Yaxın Şərqin tərkib hissəsi olan Naxçıvan ərazisində başlanan uğurlu arxeoloji tədqiqatlar bu diyarın «Neolit inqilabının» mühüm ocaqlarından olmasını, Əski dünyada baş verən hadisələrdə, dövrünün iqtisadi və mədəni əlaqələrində fəal iştirakını üzə çıxarmışdır. Qazanılan nailiyyətlər ilkin istehsal təsərrüfatının tarixi haqqında mövcud təsəvvürləri əsaslı şəkildə dərinləşdirmişdir. Bu məsələdə çoxtəbəqəli Kültəpə arxeoloji kompleksi müstəsna əhəmiyyət kəsb etmişdir. Kültəpə bütün Qafqazda «Neolit inqilabının» ilk abidəsi kimi tanınmışdır.

Qədim Naxçıvanın mədəni –tarixi inkişafında onun üstün coğrafi mövqeyi və əlverişli torpaq-iqlim şəraiti böyük əməli əhəmiyyətə malik olmuşdu. Məlumdur ki, mürəkkəb səthli bu tarixi Naxçıvan ərazisinin əsas hissəsini dəniz səviyyəsindən 500-600 m yüksəkdə olan geniş Arazboyu düzənliyi və hündürlüyü 4000 m-ə çatan yüksək dağlıq bölgələr təşkil edir. Dərələyəz və Zəngəzur dağlarının Araz çayına qədər uzanan qolları arasında yerləşən münbit torpaqlı - Sədərək, Şərur, Böyük düz, Naxçıvan və Ordubad düzləri Mezolit və Neolit dövrlərində ilk istehsal təsərrüfatının - əkinçiliyin meydana çıxdığı yerlər olmuşdu.

Ərazinin zəngin yeraltı və yerüstü sərvətləri – metal və qeyri-metal filiz yataqları, daşduz, oda davamlı gil, gips və gəc ehtiyatları, yüksək keyfiyyətli müxtəlif tikinti materialları qədim dövrlərdən yerli cəmiyyətlərin iqtisadiyyatında mühüm əhəmiyyət kəsb etmiş, onların mədəni-tarixi inkişafına əsaslı təsir göstərmişdi.

Kültəpə abidəsi Naxçıvan şəhərindən 7-8 km şimal-şərqdə, eyni adlı çayın sol sahilində yerləşmişdir. Burada ilk qazıntı işləri 1951-ci ildə Azərbaycan arxeoloqu Osman Həbibullayev tərəfindən başlanmış və 1964-cü ilə qədər davam etdirilmişdir. Qazıntı işlərindən əvvəl Kültəpə 2 hektara yaxın sahəni tutan hündür süni təpədən ibarət olmuşdu. Geniş qazıntı işlərilə Kültəpədə Neolit dövründən Dəmir dövrünədək uzun zaman kəsiyinin bütün ardıcıl mərhələlərini əks etdirən 22 m qalınlığında mədəni təbəqənin varlığı aşkar olunmuşdur. Diqqətəlayiq haldır ki, təcrübəli və istedadlı peşəkar arxeoloq Osman Həbibullayev hələ ilk tədqiqatlar zamanı öz dərin müşahidələrilə Kültəpənin ən qədim laylarının bilavasitə Neolit dövrünə aid olmasını üzə çıxarmışdı. Qazıntılar nəticəsində həmin laylardan Ön Asiyanın Neolit dövrü abidələri üçün səciyyəvi sayılan məişət və təsərrüfat tikintilərinin qalıqları aşkar olunmuş, ibtidai əkinçiliklə bağlı sümük və daş alətlər, gil qab nümunələri, eləcə də müxtəlif növ dənli bitkilər tapılmışdır. Müqayisəli təhlillər Kültəpə kompleksinin Azərbaycanda və Qafqazda ilkin istehsal təsərrüfatı ilə bağlı ən qədim yaşayış yeri olmasını söyləməyə imkan vermişdi.

Neolit dövründə Kültəpə yaşayış yerində oturaq həyat tərzinin sabitliyi, ictimai rifahın kifayət qədər yüksək səviyyəsi memarlığın, ayrılıqda tikinti sənətinin tərəqqisi

üçün əsas olmuşdu. Müəyyən formaya malik gil kərpiclərin ixtirası və geniş tətbiqi yerli sakinlərə möhkəm və rahat yaşayış evləri, köməkçi təsərrüfat binaları tikməyə imkan vermişdi. Saman qarışıqlı gil kərpiclər, bəzi hallarda isə daş əsas inşaat materialları olmuşdu. Tikintilər dairəvi və ya dördkünc formada olmaqla Şərq üçün səciyyəvi sayılan ən qədim memarlıq ənənələrini davam etdirmişdi. Onların divarları və döşəmələri bir qayda olaraq saman qatışıqlı gil suvaqla örtülmüşdü. Ayrı-ayrı yaşayış evlərinin içərisində sobalara təsadüf olunmuşdu. Çox güman ki, yaşayış yerinin bütün ərazisi vaxtı ilə sıx şəkildə belə tikintilərlə örtülmüşdü. Abidənin ən qədim mədəni təbəqələrində 18 tikinti layının üzə çıxarılması Neolit dövründə Kültəpədə yaşayışın uzun müddət davam etdiyini göstərmişdir.

Kültəpə abidəsinin tədqiqi ilə bağlı başqa bir maraqlı cəhət burada qədim dəfn yerlərinin üzə çıxarılmasıdır. Qazıntılar zamanı alt təbəqədə uşaq, qadın və kişilərə aid 85 qəbir aşkar edilmişdir. Onların hamısına yaşayış yerinin özündə: evlərinin döşəmələri altında və ya evlər arasındakı yerlərdə təsadüf edilmişdir. Dəfn olunanlar bükülü vəziyyətdə, sağ və ya sol böyrü üstə olmuşdu. Skeletlərin çoxunun üstündə qırmızı rəng izləri müşahidə olunmuşdu.

Nəzərə çatdırmalıyıq ki, ölənlərin bilavasitə yaşayış evlərinin döşəmələri altında dəfn olunması adəti bütün Ön Asiyada ən qədim əkinçilik tayfalarına məxsus dəfn adətlərindən olmuşdu. Kültəpədə açılan 31 qəbirdə müəyyən tapıntılara: daş bıçaqlara, gil qab qırıqlarına bəzi hallarda bütöv qablara, silah və bəzək nümunələrinə və s. rast gəlinmişdir. Ayrı-ayrı qəbirlərdə çoxlu sayda bəzək nümunələrinin - firuzə, əqiq və başqa daşlardan hazırlanmış incə muncuqların olması yaşayış yeri sakinlərinin yüksək rifahından xəbər verir. Bir qəbirdə 314, digər qəbirdə isə 235 ədəd belə bəzək nümunələrinə təsadüf olunmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi Kültəpə kompleksinin Neolit dövrünə aid memarlıq ənənəsi İran körfəzindən tutmuş Aralıq dənizinin Şərq sahillərinədək uzanan geniş ərazidə izlənilmişdir. Arxeoloji qazıntılarla tarixi Azərbaycan torpaqlarında eyni ulu memarlıq ənənələrinin Urmiya hövzəsindəki qədim yaşayış yerlərində, Gəncə-Qazax bölgəsinin, Mil-Qarabağ və Muğan düzlərinin və digər yerlərin bütün arxeoloji komplekslərində geniş vüsət tapması müəyyənləşdirilmişdir. Məlumdur ki, oxşar qədim tikinti ənənəsinin bariz nümunələrinə Şomutəpə, Töyrətəpə, Qarğalartəpə və digər abidələrdə rast gəlinmişdir. Gəncə-Qazax mədəni-tarixi regionunun payına düşən Tovuz bölgəsində Göytəpə adlı qədim yaşayış yerinin geniş elmi tədqiqi burada vaxtilə Kültəpə kompleksində üzə çıxarılan Neolit dövrü və ya «Neolit inqilabı» anlayışı ilə sıx yetkin memarlıq nümunələrinin aşkarlanması ilə nəticələnmişdir.

Arxeoloji tədqiqatlar zamanı Kültəpədən əldə edilən tapıntıların böyük hissəsi Neolit inqilabının iqtisadi özülünü təşkil edən ibtidai əkinçilik və maldarlıq təsərrüfatını əks etdirir. Bunlara əkinçiliklə bağlı şum və biçin alətləri, dənli bitki qalıqları, ev heyvanlarına aid osteoloji tapıntılar və s. aiddir. Yaşayış yerinin qədim sakinləri müxtəlif növ buğda və arpa yetişdirmiş, iribuynuzlu və xırda buynuzlu ev heyvanları saxlamışdılar.

Torpaq ibtidai şum alətləri – sümük və daşdan düzəldilmiş toxalar vasitəsilə işlənilmişdir. O qədər də geniş olmayan əkin sahələrində müxtəlif növ mədəni arpa və buğda yetişdirilmişdir. Diqqətəlayiq haldır ki, həmin dənli bitkilərin yabanı formaları hal-hazırda da Naxçıvan ərazisində mövcuddur.

Məhsul dəvəgözü və çaxmaq daşından hazırlanmış bıçaqvari lövhələrlə, eləcə də Neolit dövrü üçün mükəmməl biçin aləti sayılan quraşdırma oraqlarla biçilmişdir.

Tapılan iri ölçülü və ağır çəkili dən daşları un və yarma emalını əks etdirməklə yanaşı, Neolit dövründə sabit oturaq həyat tərzinin mövcudluğundan xəbər verir.

Maraqlıdır ki, Kültəpənin qədim sakinləri Neolit dövründə metal istehsalına da bələd olmuş, misdən müxtəlif bəzək nümunələri və digər əşyalar hazırlaya bilmişdilər. Bu özlüyündə öyrənilən dövrün böyük nailiyyətlərindən olmuşdu.

Şübhəsiz, Kültəpə Naxçıvan ərazisində, ümumilikdə tarixi Azərbaycan torpaqlarında «Neolit inqilabı»na aid yeganə abidə deyildir. Naxçıvanda və Azərbaycanın digər bölgələrində son vaxtlarda açılan və öyrənilən həmdövr silsilə abidələr bu tarixi ərazinin «Neolit inqilabı»nın geniş vüsət tapdığını Ön Asiya mərkəzlərilə eyni səviyyədə olduğunu bir daha sübuta yetirmişdir.

## ƏDƏBİYYAT


1. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959.
2. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахчыванской АССР. Баку, 1982.
3. Абибуллаев О.А. К вопросу о древней металлургии Азербайджана. МИА СССР, № 125, Москва-Ленинград, 1965.
4. Абибуллаев О.А. Некоторые итоги изучения холма Кюлтепе в Нахчыване. СА, 1963.
5. Иессен А.А. Кавказ и Древний Восток в IV и III тыс. до н.э. КСИА, 1963, № 93.
6. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.
7. Археология Зарубежной Азии. Москва, 1986.
8. Нариманов И.Г. Древнейшие серпы Азербайджана. СА, 1964, № 1.
9. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987.
10. Кушнарева К.Х, Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград, 1970.
11. Джапаридзе О.М., Джавахашвили А.И. Культура древнейшего земледельческого населения на территории Грузии. Тбилиси, 1971.
12. Məmmədov Z.S. Naxçıvanın təbii sərvətləri. Bakı, 1993.
13. Массон В.М. Средняя Азия и Древний Восток. Москва-Ленинград, 1964.
14. Массон В.М. Первые цивилизации. Ленинград, 1989.
15. Мелларт Дж. Древнейшие цивилизации Ближнего Востока. Москва, 1982.
16. Quliyev F., Yoşihiro Nisiyaki. Sivilizasiyanın başlanğıc nöqtəsi – Göytəpə Neolit dövrü abidəsi. Bakı, 2012.

**Кетеван СВАНИДЗЕ**
*Ассоциированный профессор,*
*Батумский государственный университет имени Шота Руставели, Грузия*

# СТЕРЕОТИПИЗАЦИЯ НАЦИОНАЛЬНОГО ХАРАКТЕРА ИЛИ КАКИМИ МЫ ВИДИМ СЕБЯ И ДРУГИХ

Как-то один голландский профессор удачно пошутил: «Рай там, где владельцами являются швейцарцы, поварами французы, полицейскими англичане, любовниками итальянцы и механиками немцы. А ад там, где любовниками являются швейцарцы, владельцами французы, поварами – англичане, механиками – итальянцы, а полицейскими- немцы. Давайте подумаем, почему же рай там, где - владельцами являются швейцарцы, здорово и твердо убеждённые в том, что все, происходящее в их стране и из их страны, безусловно лучшее, постоянно бегущие вперед, как пресловутый ослик за подвешенной впереди него морковкой. безудержно стремящиеся к целям, которых давным-давно уже достигли, а не французы, которых привлекает живой трепет жизни, ее движение, ее блеск и красота. С виду они всегда аккуратны и щеголеваты, однако под внешним лоском скрываются горячие сердца, а порой французам свойственны и довольно дикие, можно сказать, атавистические порывы, с лёгкостью проматывая не только свое но и чужое состояние; Но тем же самым французам в этом раю отводится очень важное место – они непременно должны быть поварами. Ведь они почтут за честь для себя соблазнить женщину, с чувством победителя подав к столу отлично поджаренный антрекот и явственно почувствует, что принадлежит к величайшей нации в мире, откупорив бутылку какого-нибудь «*grand cru*» (лучшего из местных сухих вин), а не англичане, крайне редко проявляющие свои эмоции, понять кулинарные пристрастия которых совершенно невозможно, а радости жизни, похоже, и вовсе проходят мимо них, пока они упиваются своими лишениями и самоотречением.

Что же касается охранников порядка в этом раю, то ими непременно должны быть забракованные нами повара – англичане, не отличающиеся своей организованностью и дисциплиной. Представьте себе под охраной немца-полицейского, если вы нечаянно совершили даже малейшее преступление. Думаю, нам бы никто не позавидовал. Ведь категорический императив, который чтит каждый немец, звучит так: «*Ordnung muss sein*», - что означает: «Порядок превыше всего». Ведь они относятся к жизни с невероятной серьезностью.

Однако работоспособные, организованные, дисциплинированные, опрятные и пунктуальные, немцы, безусловно, должны служить механиками. Ведь если что немцам и нравится, так это труд. Для них труд - основа основ. Поломка автомобиля или стиральной машины через полгода после их покупки воспринимается немцем не просто как неприятность, а как нарушение общественного договора. Что же касается безалаберных итальянцев, то к технике их допускать никак нельзя, ведь по общему мнению, всякий итальянец - это шумный, нервный, пройдошистый средиземноморский тип, чей ум и природная изобретательность опорочены ленью и безалаберностью. Они не способны соблюдать порядок и дисциплину.

Но им отводится, пожалуй, самая ответственная функция в нашем раю – они, по всемирному признанию, лучшие, самые страстные любовники. Да, они умеют петь и готовить, но физически. У итальянских мужчин черные зализанные назад волосы, массивные ляжки и демоническая страсть в глазах. Думаю, после таких слов, не следует говорить о любовных способностях, вернее, неспособностях холодных, беспристрастных, угрюмых и по общему признанию скучных швейцарцев.

Культура как айсберг - его большая, важная часть покоится под поверхностью воды. Его видимая часть только неполный образ наших представлений и отношений к тем или иным явлениям. Под поверхностью же скрыты такие важные части культурных составляющих как культурные ценности, традиции и опыт носительей данной культуры.

Видимая же часть определяет наши представления о мире, о людях, об отношениях между людьми, нациями. Определяет ход наших мыслей при оценке тех или иных фактов действительности.

В наше время, когда международные контакты становятся все более массовыми и интенсивными, проблема наших представлений о мире, о себе и других нациях особенно остро.

Данную проблему изучил и обобщил американский писатель, журналист, политический обозреватель, двукратный лауреат Пулитцеровской премии (1958 и 1962) в своем исследовании «Общественное мнение» (1922 г). В данной книге «Общественное мнение», вышедшей в 1922 году, он сделал попытку определить место и роль стереотипов в системе общественного мнения. На протяжении длительного времени ведется полемика об определении понятия “стереотип”, делаются попытки выявить пути формирования и распространения национальных стереотипов в обществе, обсуждается вопрос о влиянии их на отношения между народами. Нет единого мнения среди исследователей и относительно правомерности использования самого слова “стереотип”. В научной литературе можно встретить различные термины – национальные стереотипы, этнические предрассудки, этнические представления, национальные образы и другие, выражающие одно и то же явление. Национальные стереотипы изучаются в разных науках – социологии, психологии, политологии, филологии, истории. В некоторых странах существует самостоятельное междисциплинарное направление, исследующее происхождение, функционирование, влияние на состояние общества стереотипных представлений. Это направление получило название “имагология” (во французском языке) или “имэджинология” (в английском языке). Липпманв своей работе сделал попытку определить место и роль стереотипов в системе общественного мнения. Под стереотипом Липпман понимал особую форму восприятия окружающего мира, оказывающую определенное влияние на данные наших чувств до того, как эти данные дойдут до нашего сознания. [цит. по Lippman W. Public Opinion. N.Y.,1950, p.95; 23, с.95]. По мнению Липпмана, человек, пытаясь постичь окружающий его мир во всей его противоречивости, создает “картину в своей голове” относительно тех явлений, которые он непосредственно не наблюдал. Человек имеет ясное представление о большинстве вещей еще до того, как он с ними непосредственно столкнулся в жизни. Подобные представления-стереотипы формируются под влиянием культурного окружения данного индивидуума: “В большинстве случаев мы не

сначала видим, а потом даем определение, мы сначала определяем для себя то или иное явление, а потом уже наблюдаем его. Во всей ... неразберихе внешнего мира мы выхватываем то, что навязывает нам наша культура, и мы имеем очевидную тенденцию воспринимать эту информацию в форме стереотипов“ [Lippman 1950:81]. Стереотипы позволяют человеку составить представление о мире в целом, выйти за рамки своего узкого социального, географического и политического окружения. Липпман пишет о том, что стереотипы так настойчиво передаются из поколения в поколение, что часто воспринимаются как данность, реальность, биологический факт. Если же личный опыт противоречит стереотипу, чаще всего происходит одно из двух: человек негибкий, незаинтересованный по каким-то причинам в изменении своих взглядов, либо просто не замечает этого противоречия, либо считает его исключением, подтверждающим правило, и обычно просто забывает о нем. Человек же восприимчивый, любознательный при столкновении стереотипа с реальностью изменяет свое восприятие окружающего мира. Липпман не считает стереотипы однозначно ложными представлениями. По его мнению, стереотип может быть правдой, или частично правдой, или ложью. Липпман не только ввел в научный оборот термин “стереотип”, дал ему определение, но и подчеркнул важность этого явления. “Система стереотипов, - писал он, - возможно, является стержневой в нашей личной традиции, она защищает наше место в обществе, ... а также сохраняет время в нашей занятой жизни и помогает нам спастись от сбивающих с толку попыток увидеть мир устойчивым и охватить его целиком” [Lippman 1950: 95; 114]. При таком понимании стереотипа выделяются две его важные черты – детерминированность культурой и быть средством экономии трудовых усилий, и соответственно, языковых средств. Если алгоритмы решения математических задач экономят мышление человека, то стереотипы “экономят” саму личность.

Итак, что такое стереотип? Это, прежде всего, бинарная (двухкомпонентная) оппозиция, возникающая в результате наблюдений над культурными различиями. И, результаты такого наблюдения всегда выливаются в виде противопоставлений, где:

В науке существует следующая деление стереотипов на авто- и гетеростереотипы:

Автостереотип – это личное мнение, представление о себе. Автостереотипы всегда более определенные, в них преобладает положительная оценка.

Гетеростереотип - это более сильное обобщенное, упрощение или неполноценное представление, составленное нами о других.

Ученые предлагают следующую типологию:

- простые автостереотипы (что мы думаем о себе);
- простые гетеростереотипы (что мы думаем о «чужих»);
- переносные автостереотипы (что мы предполагаем о том, что «чужие» думают о нас);
- переносные гетеростереотипы (что мы предполагаем о том, что «чужие» думают о себе самих).

Результаты исследования показали, что:

1. Простой автостереотип грузин: мы, *Грузины думаем, что мы гордые, смелые, умные, гостеприимные, талантливые и т.д...*

2. (Простой гетеростереотип грузин: *Американцы свободолюбивые и толстые; Британцы - умные, трудолюбивые, со странным чувством юмора; Французы – прекрасные и романтичные; Немцы – пунктуальные , холодные, педантичные и осторожные; Итальянцы - умные и темпераментные; Русские – оккупанты, плохие, пьяницы, но очень умные; Турки – трудолюбивые ...*

3. Переносный автостереотип грузин: *Грузины думают, что их считают гордыми, свободолюбивыми, гостеприимными, смелыми… (возможно в силу августовский событий 2008 года)*

4. Переносный гетеростереотип грузин: *Грузины думают, что другие нации считают себя: Американцы – индивидуалисты, независимые и толерантные; Русские – умные, интеллигентные, но лентяи и пьяницы; Турки – трудолюбивые, работящие, умные, успешные ...*

## ЛИТЕРАТУРА


1. Lippman W. Public Opinion. N.Y.,1950
2. http://www.langust.ru/review/xenoger2.shtml
3. http://www.langust.ru/review/xeno_sw1.shtml
4. http://www.langust.ru/review/xeno_fr1.shtml
5. http://www.langust.ru/review/xenoeng1.shtml
6. http://www.langust.ru/review/xeno-it1.shtml

**Rauf MƏLİKOV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Tarix İnstitutu*

# AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİ QƏDİM DÖVRDƏ VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ (yazılı mənbələr əsasında)

İnsanlar Naxçıvanın ərazisində hələ Orta Paleolit dövründə məskunlaşmışlar. Bunu Şərur rayonunda Qazma mağarasında aşkar olunan arxeoloji tapıntılar təsdiq edir. I Kültəpədə (Babək rayonu), Ovçulartəpədə (Şərur rayonu), Damlamada (Kəngərli rayonu) və digər abidələrdə Neolit və Eneolit dövrlərinə aid əkinçi-maldar əhalisinin yaşayış yerləri tədqiq olunmuşdur (1, 100; 6, 9). Bir sıra tədqiqatçılar Naxçıvanda boyalı keramikanın yayılmasını e.ə. IV minilliyin əvvələrində Şimali Mesopotamiyadan Xələf-Übeyd mədəniyyətinin daşıyıcılarının bu əraziyə köçməsi ilə bağlayırlar. Erkən Tunc dövründə (e.ə. IV–III minilliklər) Naxçıvanda Kür-Araz mədəniyyətinin daşıyıcıları məskunlaşmışlar. Gəmiqaya təsvirləri (Ordubad rayonu; e.ə. III–I minilliklər) yerli əhalinin mənəvi mədəniyyətini əks etdirir (6, 11).

Bəzi tədqiqatçılar Cənubi Qafqazı e.ə. III–II minilliklərdə geniş ərazilərdə, o cümlədən Mannanın şimalında yayılmış hurri tayfalarının vətəni hesab edir (**1**, 100). Fikrimizcə, elə həmin dövrdə Araz çayından cənubda yaşamış kutilər, çox güman ki, e.ə. II minillikdə Arazın sol sahilinə köçmüşlər (25, 112-113). Urmiya gölündən qərbdə aşkar edilmiş kutilərə məxsus Göytəpə mədəniyyətinin Cənubi Qafqaz mədəniyyətlərinə yaxın olması faktı da bu fikrə bir dəlildir (1, 101). E.ə. II minilliyin ikinci yarısı – I minilliyin əvvələrinə aid Naxçıvan abidələri qrupuna Urmiya gölü ətrafında tapılmış materiallarla bir çox cəhətdən oxşarlıq təşkil edən boyalı qablar və metal məmulatı daxildir (1, 118; 5, 55).

E.ə. XIII əsrə aid hett sənədlərində Urmiya ilə Van gölləri arasındakı ərazidə, Naxçıvanın qonşuluğunda Mehri ölkəsi qeyd olunur. Aşşur hökmdarı II Adadnerarinin [e.ə. 911–891] kitabəsində də Mehri ölkəsi haqqında məlumat var (4, 22). E.ə. VII əsrə aid Aşşur mətninə əsaslanaraq Mada (Midiya) şahlığının tərkibinə daxil olan bu ərazidə əhalinin bir qisminin mehran dilində danışdığını söyləmək mümkündür (1, 122).

E.ə. IX–VIII əsrlərdə Cənubi Qafqazda məskunlaşmış müxtəlif siyasi və etnik birliklər Etiuni (Etiuhi) adlı dövlət qurumunun tərkibində birləşmişlər. Bəzi tədqiqatçıların fikrincə, Etiuni Cənubi Qafqazın böyük hissəsini əhatə iri bir qurum olmuşdur. Bu alimlər etiunilərin adını bu ərazilərə cənubdan köçən kutilərlə bağlayır və etiuniləri sonrakı utilərin əcdadları hesab edirlər (25, 111–114). Güman ki, bu dövrdə Etiuninin tərkibində olan Naxçıvan ərazisi bəzən Mannaya qatılmışdır.

Urartu çarları İşpuini və onun oğlu Menuanın birgə hakimiyyəti illərində [e.ə. 820–810-cu illər] urartulular Etiunini zəbt etməyə çalışırdılar. Culfa rayonundakı İlandağ mixi yazısı onların bu ərazilərə yürüşlərindən bəhs edir (5, 56; 4, 5). "Arsini şəhərinin" qeyd olunduğu kitabədən bir neçə kilometr məsafədə yerləşən Ərəzin kəndinin adının qədim şəhərdən götürüldüyü ehtimal olunur (5, 57). Urartu çarı I Argişti [e.ə. 786–764] də Etiuni ölkəsinə yürüşlər etmişdir. Çar II Sarduri [e.ə. 764–735] isə Puluadi ölkəsində 21 qalanı, 45 şəhəri və "çar şəhəri olan Libliuni"ni ələ keçirmişdir (4, 109–115). S.Qaşqay Urartu mənbələrinə əsaslanaraq Puluadi ölkəsinin bir hissəsini Naxçıvan ərazisində lokalizə edir (5, 57).

E.ə. VIII əsrin sonları – e.ə. VII əsrin 70-ci illərində şimaldan Azərbaycan ərazisinə kimmerlər və skiflərin (sakların) yürüşləri baş vermişdir. Kimmerlərin adı ilk dəfə Aşşur mənbələrində Manna ilə əlaqədar olaraq e.ə. VIII əsrin son rübündə çəkilir. Skiflər (saklar) isə e.ə. 674-cü ilə aid olan Aşşur mətnində Manna ərazisində işkuzai (aşkuzai) adı altında qeyd olunur. Həmin vaxt Azərbaycan ərazisində yaranmış Skif şahlığı[1] Kür çayının orta axarı ilə Urmiya gölü arasında yerləşən ərazini əhatə edirdi (25, 160-166; 7, 167); Naxçıvan da bu şahlığın tərkibində, yaxud onun nüfuz dairəsində olmuşdur. Babək rayonunun Nəzərabad kəndi yaxınlığında Meydantəpə yaşayış məskənində, həmçinin Şahtaxtı yaxınlığında skif tipli rombvarı ox ucluqlarının aşkar olunması bu fikri təsdiq edir (5, 58).

E.ə. 590-cı ildə madalılar (midiyalılar) Skif şahlığını ləğv etdilər və Naxçıvan Mada şahlığına daxil oldu. E.ə. 550-ci ildə Madanın süqutundan sonra Naxçıvan Əhəmənilərin hakimiyyəti altına düşdü. Bu dövrdə Naxçıvan, ehtimal ki, Kür-Araz çayarasında yaşayan utilər və müklər, habelə Cənubi Azərbaycan və ona bitişik ərazilərdə məskunlaşan saqartilərdən ibarət olan Əhəməni şahlığının XIV satraplığının tərkibində idi (25, 115-117, 123, 137-138) .

E.ə. 321-ci ildə Atropatena dövləti meydana gələndə Naxçıvan onun hüdudlarına daxil oldu. E.ə. 189-cu ildə yaranan Ermənistan çarlığının[2] hakimləri Artaksi[3] və Zariadri[4] təqribən e.ə. II əsrin 70-ci–60-cı illərində Strabonun məlumatına görə, "midiyalılardan (atropatenalılardan – R.M.) Kaspiana, Favnitida[5] və Basoropedanı[6] tutub almışlar" (Strabo, XI, XIV, 5). Lakin, erməni mənbələrinə görə, az sonra Artaşesin (Artaksinin) qoşununda güclü üsyan baş vermiş və e.ə. 160-cı ildə Artaşes öldürülmüşdür. Ehtimal ki, bu hadisədən sonra Ermənistan tərəfindən zəbt edilmiş torpaqlar Atropatenaya və başqa dövlətlərə qaytarılmışdır.

E.ə. 95-ci ildə parfiyalılar II Tiqranı Ermənistanda hakimiyyətə gətirmiş və bunun müqabilində Tiqran 70 vadini Parfiyaya vermişdir. Bəzi alimlərin ehtimalına görə, II Tiqranın parfiyalılara verdiyi "70 vadi" məhz Artaşesin atropatenalılardan aldığı vadilər idi. Erməni tarixçiləri Atropatena şahı Mitridatın II Tiqranın "sədaqətli vassalı" olmasını yazsalar da, bu fakt yazılı mənbələrdə öz təsdiqini tapmır. Mitridat Tiqranın qızı ilə evləndiyinə görə, iki hakimin münasibətlərində çox şey bununla müəyyən edilmişdir və, ehtimal ki, onlar sadəcə müttəfiq olmuşlar (12, 80).

E.ə. 69-cu ildə Roma sərkərdəsi Lukull Ermənistanın paytaxtı Tiqranakerti mühasirəyə alanda Plutarxın verdiyi məlumata görə, onun köməyinə "çarların başçılığı ilə medlərin (atropatenalıların – R.M.) və korduenlərin çoxsaylı könüllü orduları, ...Kaspi [sahillərindən] çoxlu alban və onlara qonşu olan iberlər, çarları olmayan və

---

[1] Orta əsrlərdə Kürün orta axarında Skif şahlığın qalığı olan Sakasena vilayəti yerləşirdi.

[2] Ermənistan çarlığı Van gölünün qərb sahillərində yaranmışdır.

[3] Artaksi – farsca Artaxşasa, erm. Artaşes. Bir sıra tədqiqatçıların fikrincə Artaksi əslən madalı (midiyalı) olmuşdur.

[4] Zariadri – farsca Zariatra, erm. Zareh. Zariadrinin də əslən madalı olduğu güman edilir.

[5] Favnitida – ehtimal ki, sonrakı mənbələrdə Sikan, Sisakan, Sisqan, Sünik, Sünistan, Sünakan adları ilə qeyd olunan vilayət.

[6] Basoropeda (sonrakı Vaspurakan, yaxud Basfurcan) – Van gölü ilə Urmiya gölü arasındakı ərazidə yerləşən vilayət. Böyük strateji və hərbi-siyasi əhəmiyyət kəsb edirdi (**37**, 245–246). Orta əsr erməni müəlliflərinin məlumatına görə, bu vilayətin sakinləri marlar, yəni madalılar (atropatenalılar) olmuşlar. Ərəb müəllifi Yaqut yazır ki, Basfurcan "Arranda bir vilayətdir. Paytaxtı Naşavadır, ona Naxçıvan da deyilir" (Yaqut, I, 624).

Arazboyunda sürülər otaran bir çox tayfa[1] gəldi, [bəziləri] yardım göstərmək, [digərləri] hədiyyələr almaq arzusu ilə [gəlmişlər]" (Plut., Luc., XXVI, 6). Bu məlumat bəzi alimlərin II Tiqranın qoşununun "ona tabe olan vassal çarlıqlardan və knyazlıqlardan" toplanması haqqındakı fərziyyəsi üçün əsas ola bilməz. Bu fərziyyəni hələ N.Adons qəbulolunmaz hesab edirdi. Sonralar K.V.Trever (33, 88) və İ.H.Əliyev (12, 84) də bu fikri tənqid etmişlər.

II Tiqranın məğlubiyyətindən sonra Roma sərkərdəsi Pompey Tiqrana irsən qalan torpaqları onun hakimiyyətində saxladı, işğal etdiyi torpaqları (Şimali Mesopotamiya və Korduena istisna olmaqla) isə ondan aldı (20, 275-276). E.ə. 66-cı il müqaviləsi ilə müəyyən olunmuş Ermənistan ərazisi eramızın 37-ci ilinədək dəyişməz qaldı, həmin il Roma ilə Parfiya arasında bağlanan sazişə görə, Şimali Mesopotamiya və Korduena Ermənistandan alınaraq Parfiyaya verildi. Ermənistanın bu sərhədlərini 298-ci il müqaviləsi təsdiq etdi və onlar 387-ci ilədək dəyişmədi. Bu müqavilələrdə alban vilayətlərinin Ermənistanın tərkibində olduğu qeyd olunmur (23, 276).

Ermənistanda Parfiyaya meyilin güclənməsi və Roma əleyhinə çıxışlarla əlaqədar olaraq e.ə. 20-ci ildə romalılar bu ölkəyə qoşun yeritdilər. Onlar əvvəlcə atropatenalı Artabazdı, sonra isə Atropatena şahı II Ariobarzanı Ermənistan çarı elan etdilər. Tasit bu hadisəni belə təsvir edir: "O zaman Ermənistanda qayda yaratmaq üçün Qay Sezar[2] oraya göndərildi. Ermənilərin razılığı və təqdiri ilə o, əslən midiyalı olan Ariobarzanı onlara çar təyin etdi" (Tac., Ann., II, 4). "İlahi Avqustun əməllərində" də deyilir: "...oğlum Qay tərəfindən ram edilən həmin xalqı (erməniləri – R.M.) mən medlərin (atropatenalıların – R.M.) çarı Artabazın oğlu çar Ariobarzanın ixtiyarına verdim" (Res gestae divi Augusti, XXVII, 2). Atropatena şahı II Ariobarzanın Ermənistan üzərində hökmranlığı eramızın 2-ci ilinədək davam etdi.

Mada və Atropatenada küp qəbirlər yayılmışdır. Naxçıvan ətrafında tədqiq olunmuş qəbirlər Azərbaycan ərazisindəki erkən küp qəbirləri e.ə. VI–III əsrlərə aid etməyə imkan verir (10, 73–84; 12, 114). Sonradan Küp qəbirləri mədəniyyəti alban tayfalarının hakim mədəniyyətinə çevrildi (1, 335).

Eramızın I əsrinin ikinci yarısında Albaniya Arşakiləri sülaləsinin hakimiyyətə gəlməsi Albaniyanın siyasi həyatında ən mühüm hadisə olmuşdur. Bu sülalə Albaniyanı qısa fasilələrlə 506–510-cu illərədək idarə edirdi (11, 18).

Movses Xorenli yazır ki, Albaniyanın hökmdarına "Erasx[3] çayından başlayaraq Xnarakert[4] adlanan qalayadək olan Alban düzü və onun dağlıq hissəsi miras qaldı... Parfiyalı Valarşak adlı-sanlı, cəsur Aranı hakim təyin etdi... Aranın nəsillərindən utilər, qardmanlılar, sodelər tayfaları[5] və Qarqar knyazlığı[6] yaranmışdır...". Alban tarixçisi Musa Kalankatuklunun "Albaniyanın tarixi" əsərində bu məlumat təsdiqini tapır (Musa Kalankatuklu, I, 4). Beləliklə, mənbələrə görə, təqribən I əsrin ikinci yarısında Araz çayının döngəsindən Ağstafa zonasınadək Kürün sağsahilindəki bütün ərazilər Albaniyaya məxsus idi. Tarixi Albaniyanın vilayətləri olan Arsax, Uti, Sode və Qarqar məhz bu ərazidə yerləşirdi (11, 19).

---

[1] Ehtimal ki, Strabon tərəfindən qeyd edilən (Strabo, II, I, 14; XI, VII, 2; XI, XIV, 3, 6, 13) və Arazın sol sahilində yerləşən Araksena vilayətinin sakinləri. Güman ki, Naxçıvan ərazisinin bir hissəsi Araksena vilayətinə daxil idi.
[2] Qay Sezar – Roma imperatoru Oktavian Avqustun oğulluğu.
[3] Erasx – Araz çayı.
[4] Xnarakert – Qazax-Borçalı zonasında lokalizə edilən Xunan şəhəri.
[5] Sadalanan tayfaların hamısı alban tayfalarıdır.
[6] Qarqar knyazlığı – Qarqarçayboyunda yerləşən dövlət qurmu.

Mənbələrin verdiyi məlumata görə, Albaniya hökmdarı Aran Sisakan nəslinə mənsub idi (Musa Kalankatuklu, I, 4). Əvvəllər "Sisan" adlandırılan Qafqaz keçidini qoruyan qoşunların komandanlığı I əsrdə Sisakan nəslinə həvalə olunmuşdur (Stepannos Orbeli, I, 4; 23, 264-265). Belə nəticəyə gəlmək olar ki, həmin dövrdə Naxçıvan ərazisi Sisakan vilayətinin tərkibində Albaniyaya daxil idi (23, 264-265).

Naxçıvan şəhəri haqqında ən erkən məlumat yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. Ptolemeyin "Coğrafiya" əsərində şəhərin adı Naksuana (yun. Ναξουάνα) formasında qeyd olunmuş və onun coğrafi mövqeyi göstərilmişdir (Ptol., Geogr., V, 12).[1]

Ehtimal ki, e.ə. I əsr – eramızın II əsrinə aid məlumatlar arasında, Naxçıvan ərazisində bir neçə toponim – Şərur düzü, Qoltn (yaxud Qoxtn, Qoxtan) vilayəti (indiki Ordubad rayonu), Naxçıvan qalası, həmçinin Naxçıvan, Xram, Cula (Cuğa) və Xoşakunik qəsəbələri qeyd olunur. Həmin vaxtlarda bu ərazilərdə marların (madalıların, yaxud atropatenalıların) məskunlaşması haqqında ətraflı məlumat var.

Sasani şahı I Şapurun [241–272] "Kəbəye Zərdüşt" adlı kitabəsində Cənubi Qafqaz ölkələrinin sırasında Naxçıvan ərazisi müstəqil bir vahid kimi qeyd olunur. Kitabədə Kap dağlarınadək[2] və Alan keçidinədək Vrşan (İberiya), Sikan (Sisakan, Sünik), Ardan (Albaniya) və Balasakanın (Paytakaran) adları çəkilir, bu şəhrlərin (ölkələrin) Şapura tabe olmasından və ona bac verməsindən bəhs olunur (22, 217-218). Sasani şahı Narsenin [293–302] 293-cü ilə aid Payqulu yazısında isə yanına gələn hökmdarların sırasında Sikanşah da qeyd edilir (22, 168; 20, 26). O dövrdə Naxçıvan ərazisi Sünik ölkəsinin tərkibində olmuşdur.

337-ci ildə massagetlərin başçısı Sanesan (Sanatruk) Paytakaran vilayətinin hakimi oldu. Həmin ildə Sanesan şimal tayfalarının dəstəyi ilə Ermənistanı tabe etdi. Lakin 338-ci ildə ermənilər romalılarla birlikdə Sanesanın qoşunlarını məğlub etdilər. Bəzi mənbələrə görə, Sanesan bu döyüşdə həlak oldu (Favstos Buzand, VI, VII; Movses Xorenli, III, 3, 9; Musa Kalankatuklu, I, 14, 20).

Sasani şahı II Şapur [309–379] yürüşü zamanı (364–367 illər) Naxçıvanı dağıtmış, şəhərdən 18 min ailə əsir aparmışdır (Favstos Buzand, IV, 55). Bu fakt Naxçıvanın o dövrdə iri şəhər olmasından xəbər verir.

Müharibə zamanı çıxarılacaq hərbi qüvvələri müəyyən edən IV əsrin sonu – V əsrin əvvəllərinə aid fərmanda Sünik qoşunu (19400 nəfər) sayına görə birinci yerdə olmuşdur. Sünik həm iqtisadi, həm də siyasi baxımından güclü vilayət idi. 428-ci ildən Ermənistan mərzbanlar tərəfindən idarə edilirdi, 440-cı illərdə Sünik hakimi Vasak Ermənistanın mərzbanı təyin olunmuşdu, o, həmçinin İberiyaya nəzarət edirdi. XIII əsr Sünik tarixçisinin məlumatına görə, Sasanilər Dərbənd keçidinin müdafiəsini müxtəlif vaxtlarda Sünik döyüşçülərinə tapşırırdılar.

VI əsr Suriya müəllifi Mitilenli Zaxariya 436–491-ci illərdə Cənubi Qafqazda mövcud olan ölkələri təsvir edərək yazır: "Sisqan (Sisakan – R.M.) da ölkədir, (öz) dili və dindar xalqı ilə, lakin burada bütpərəstlər də yaşayır" (29, 108-115). Erməni müəllifi

---

[1] Maraqlıdır ki, XIII əsr flamand səyyahı Gilyom de Rubruk Naxçıvanın adını, demək olar ki, eyni formada qeyd edir: "Batu (Batı xan – R.M.) isə əmr etdi ki, məni Naksua adlı bir şəhərə ötürsünlər. (Bu şəhər) əvvəllər böyük bir çarlığın paytaxtı, habelə iri və çox gözəl şəhər olmuşdur; lakin tatarlar onu, demək olar ki, biyabana çevirmişlər" (Gilyom de Rubruk. Şərq ölkələrinə səyahət, LI). Alban tarixçisi Musa Kalankatuklu və orta əsr erməni müəllifləri şəhəri "Naxçavan" adlandırırlar. Ərəb müəllifləri isə onun adını "Naşava", "Naxçuan", "Naxçuvan", hətta "Nəqşi-cahan" və "Həciran" kimi müxtəlif formalarda verirlər.

[2] Kap dağları – Qafqaz dağları.

Sebeos məlumat verir ki, 591-ci ildə “Sünik torpağının hakimi Vaqan üsyan edib ermənilərdən ayrıldı və İran şahı Xosrovdan xahiş etdi ki, Sünik torpağının arxivini (divanını – R.M.) Dvindən Paytakaran (Beyləqan – R.M.) şəhərinə köçürsün və onların şəhərini də Atrpatakan hüdudlarına daxil etsin ki, erməni adı onların üzərindən götürülsün. Bu əmr yerinə yetirildi” (Sebeos, III, 1; 3, 117; 23, 265). F.Məmmədova bu iqtibasda Atrpatakan termini altında Albaniyanın nəzərdə tutulduğunu ehtimal edir (23, 265).

591-ci il İran–Bizans müqaviləsinə görə, Naxçıvan Sünik və Vaspurakan vilayətləri tərkibində bilavasitə Sasanilərə tabe edildi (8, 343). VI–VII əsrlərdə Sasani şahı I Xosrovun [531–579] dövründən Naxçıvanda mövcud olan zərbxanada “nax” işarəsilə sikkələr kəsilirdi (27, 114-118; 2, 41, 54; 23, 271). Bizans–İran müharibələri zamanı Naxçıvan müharibə meydanına çevrilmiş, gah Sasani, gah da Bizans qoşunlarının basqınlarına məruz qalmışdır. 623-cü ildə Bizans imperatoru I İraklinin [610–641] ordusu Naxçıvanı tutdu və viran etmişdir (3, 56).

Xəlifə Osman ibn Affanın [644–656] hakimiyyəti zamanında Sünik vilayəti, o cümlədən Naxçıvan ərəblər tərəfindən işğal olundu (3, 104). Erməni müəllifi Gevondun dediyinə görə, xəlifə orduları “Midiyanın (burada: Adurbadaqan, Azərbaycan – R.M.) kəndlərini, Qoxtan vilayətini və Naxçıvanın kəndlərini viran etdilər. Kişilərin əksəriyyətini öldürdülər, digərlərini isə arvad-uşaqları ilə əsir götürüb Culfa bərəsi ilə Arazın o tayına apardılar” (Gevond, II; 3, 105).

VII əsrin 40-cı illərində ərəblər tərəfindən öz torpaq və malikanələrindən məhrum olunmuş İran əyanları Albaniyaya hücüm etmişlər. Lakin Albaniyanın hökmdarı Cavanşir [638–680/81] düşmən hücumunun qarşısını ala bildi. “Onun müvəffəqiyyətlərini görən Ermənistan və İberiya hakimləri ona öz nəsillərindən olan qız vermək istəyirdilər. O, isə Aruiçan nəslindən olan Sisakan [Sünik – R.M.] ölkəsi hökmdarının qızı ilə evləndi...” (Musa Kalankatuklu, II, 19). 670-ci ildə Dəməşqdə Cavanşirin xəlifə Müaviyə ilə ikinci görüşü zamanı “O [xəlifə – R.M.], Sünik vilayətinin idarəsini ona [Cavanşirə – R.M.] tapşırdı...” (Musa Kalankatuklu, II, 28). Naxçıvanda Cavanşirin VII əsrə aid olan tunc heykəlciyinin tapılması (hazırda Sankt-Peterburqdakı Ermitaj muzeyində saxlanılır) Sünik ərazisinin Albaniyanın tərkibində olduğunu təsdiqləyir (6, 12, 146).

Sadaladığımız faktlar göstərir ki, “VII əsr erməni coğrafiyası”nda Naxçıvan və Qoxtanın Vaspurakan vilayətinin tərkibində Ermənistana daxil olması haqqındakı məlumat tarixi həqiqətə uyğun deyil (23, 266).

705-ci ildə Albaniyadakı yerli hakimiyyət Xilafət tərəfindən ləğv olundu və bütün Azərbaycan qəti şəkildə ərəblərin tabeliyinə keçdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (yeddi cilddə). C. I. Ən qədimdən – b.e. III əsri, Bakı, 2007.
2. Azərbaycan tarixi (yeddi cilddə). C. II. III–XIII əsrin I rübü, Bakı, 2007.
3. Bünyadov Z. Azərbaycan VII–IX əsrlərdə. Bakı, 2007.
4. Qaşqay S. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, 2006.
5. Qaşqay S. Naxçıvanın e.ə. I minilliyin birinci yarısında qonşu ölkələrlə əlaqələri // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Bakı, 2006, s. 55-60.
6. Mahmudov Y., Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı, 2007.

7. Məlikov R. Azərbaycan ərazisində Skif şahlığı // Azərbaycan Milli Ensiklopediyası. “Azərbaycan” cildi, Bakı, 2007, s. 167.
8. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (Orta əsrlər dövrü). Bakı, 1977.
9. Алиев В.Г. Кувшинные погребения античного периода в г. Нахичевани // Изв. АН Азерб. ССР, серия истории, философии и права, 1976, № 1, с. 73-84.
10. Алиев И. Нагорный Карабах: История. Факты. События. Баку, 1989.
11. Алиев И. Очерк истории Атропатены. Баку, 1989.
12. Гильом де Рубрук. Путешествие в Восточные страны / Джиованни дель Плано Карпини. История Монгалов. Гильом де Рубрук. Путешествие в Восточные страны. Пер. А.И. Малеина. Москва, 1957.
13. История халифов вардапета Гевонда, писателя VIII века. Пер. К.Патканьяна. Санкт-Петербург, 1862.
14. Йакут ал-Хамави. Му’джам ал-булдан (Сведения об Азербайджане). Пер. с араб. З. М. Буниятова и П. К. Жузе. Баку, 1983.
15. Касумова С.Ю. Азербайджан в III–VII вв. (Этнокультурная и социально-экономическая история). Баку, 1993.
16. Корнелий Тацит. Сочинения в двух томах. Том первый. Анналы. Малые произведения. Пер. А.С.Бобовича. Москва, 1993.
17. Луконин В.Г. Древний и раннесредневековый Иран. Москва, 1987.
18. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005.
19. Меликов Р. Этническая картина Азербайджана в период ахеменидского владычества (VI–IV вв. до н.э.). Баку, 2003.
20. Пахомов Е.А. Монеты “Нахчывана” // Известия АН Азерб. ССР, № 5, 1949, с. 114-118.
21. Пигулевская Н.В. Сирийский источник VI в. о народах Кавказа // Вестник древней истории, 1939, № 1, с. 108-115.
22. Плутарх. Сравнительные жизнеописания. В двух томах. Пер. С.С.Аверинцева, М.Л.Гаспарова, С.П.Маркиша. Москва, 1994.
23. Страбон. География в 17 книгах. Пер. Г.А.Стратановского. Москва, 1994.
24. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. Москва–Ленинград, 1959.
25. Claudii Ptolemaei Geographia. Ed. Karl Friedrich August Nobbe, Sumptibus et typis Caroli Tauchnitti, 1845, T. II.
26. Grosso F. La Media Atropatene e la politica di Augusto // Athenaeum, № 35, 1957, p. 240-256.
27. Res Gestae Divi Augusti ex monumentis Ancyrano et Apolloniensi // Ed. Th. Mommsen. Berolini, 1883.
28. Thomas Artsruni. History of the House of Artsrunik. Trans. and edited by Robert W. Thomson. Detroit, 1985.

**Səfər AŞUROV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
**Fidan ƏLİYEVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

# NAXÇIVANIN TUNC DÖVRÜ YAŞAYIŞ MƏSKƏNLƏRİNİN TİKİNTİ VƏ MEMARLIQ XÜSUSİYYƏTLƏRİ

Qədim yaşayış məskənlərində aparılan tədqiqatların əsas cəhətlərindən biri onlarda həyatın davamlılığını müəyyən etməkdən ibarətdir. Yaşayışın müvəqqəti və ya daimi olmasının müəyyən edilməsində əsas rol insanların təsərrüfat və sənətkarlıq həyatından asılıdır. Bu isə öz növbəsində cəmiyyətin sosial - iqtisadi inkişafının göstəricisidir.

Qədim dövr tikinti xüsusiyyətlərinin tədqiqi eyni zamanda abidələrin lokal xüsusiyyətlərini, mədəniyyətlər arasındakı əlaqələri və dini dünyagörüşləri bərpa etməyə imkan verir.

Naxçıvan ərazisində yerləşən I və II Kültəpə, Ovçulartəpəsi, I Maxta, Plovdağ, Oğlanqala tipli yaşayış məskənlərində aparılmış tədqiqatlar bölgədə Eneolit dövründən başlayaraq Antik dövrədək olan geniş bir tarixi mərhələdə tikinti və memarlıq xüsusiyyətlərini izləməyə imkan verir. Eyni zamanda əsasən Son Tunc və Erkən Dəmir dövründə geniş yayılmış qalaların memarlıq xüsusiyyətlərinin tədqiqi də müəyyən nəticələr söyləməyə imkan verir.

Qafqazın etalon abidələrindən hesab edilən I Kültəpədə ən qədim tikinti qalıqları 21,4 m. dərinlikdə aşkar edilmişdir və onlar O.H.Həbibullayevin fikrincə Eneolit dövrünə aiddir. (7,s.25) Qeyd etmək lazımdır ki, O.H Həbibullayev I Kültəpədə apardığı tədqiqatlardan sonra ilkin olaraq 12,8 m dərinlikdən başlayaraq 21,1 m dərinliyədək davam edən təbəqəni $1^a$ və $1^b$ təbəqələrinə ayırmış və alt təbəqənin neolitə aid olduğunu söyləmişdir. (5,s.14) Fikrimizcə bu bölgü daha düzgündür və belə olduqda I Kültəpənin ən qədim tikililərinin Neolit dövrünə aid olduğunu söyləmək mümkündür.

I Kültəpə Cənubi Qafqazın digər abidələrindən fərqlənir. Buradakı evlər çiy kərpicdən deyil, iki cərgə çay daşlarından qurulmuşdur. Evlərin diametrləri 8 m-dək, divarların qalınlıqları 55 sm-dir. Dördkünc evlərlə yanaşı dairəvi planlılarda vardır. Və onların sayı təqribən bərabərdir. (9,s.92) Lakin, dördkünc və dairəvi evlər ayrı-ayrılıqda inşa edilmişlər.

Naxçıvan ərazisində geniş tədqiqatlara cəlb olunmuş Ovçulartəpəsinin yerləşdiyi təpə tamamilə üfiqi formada deyildir. Şərq-qərb istiqamətdə təpə mailidi. Digər tərəfdən abidənin bir tərəfi, şərq tərəfinin düzənə uzanan hissəsi qayalıqdan ibarətdir. Bu amillər abidənin tikinti xüsusiyyətlərini müəyyənləşdirmişdir. Yəni tikinti materialları baxımından abidə əlverişli sahədə yerləşmişdir. Abidənin mərkəzində məskunlaşma daha sıx olmuşdur. Kənarlara doğru yaşayış binaları seyrəlir və onlara bir-birindən xeyli aralı məsafələrdə rast gəlinir.

Ovçulartəpəsində istər Eneolit və istərsə də Erkən Tunc dövrü üçün xarakterik tikililərin qarışıq formalarının rastlanması və eyni zamanda abidənin digər arxeoloji materialları onun həmdövr abidələrdən fərqləndiyini üzə çıxarır. Abidədə qeydə alınan ən erkən memarlıq elementləri ana torpaqda qazılaraq hər birinin döşəməsi yer səviyyəsindən 10-20 sm aşağıda yerləşən kiçik, düzbucaqlı yarımqazma evlərlə

xarakterizə olunur. (4,s.6) Lakin bu hündürlük həmişə nisbi xarakter daşımışdır. Abidənin yerləşdiyi təpənin formasına uyğun olaraq döşəmə cənub tərəfdə daha dərində yerləşir. Şimal tərəfdə isə döşəmələr bəzən yer səviyyəsi ilə eyniyyət təşkil edirlər.

Bundan başqa evlərin hamısının arxa-cənub tərəfi bəzən yamacdakı çınqılın uçüb-tökülməsinin qarşısını almaq üçün daşdan inşa edilmiş terras divarları ilə qorunmuşdur. Digər tərəfdən bu evlərin ətrafında çoxlu dirək çuxurlarının aşkar olunması Ovçulartəpəsində ilk evlərin tavanları yerə basdırılmış ağac dirəklər vasitəsi ilə saxlanılan çadır tipli evlərdən ibarət olduğunu deməyə imkan verir. Lakin bəzi kvadratlarda aşkar olunan ortası çuxur dabana daşları ox ətrafında fırlanan qapılardan da istifadə olunduğunu göstərir və bu fakt Ovçulartəpəsində bütün evlərin çadırlardan ibarət olmadığını təsdiq edir. (4)

Ovçulartəpəsində tamamilə qazılaraq tədqiq olunmuş ən erkən ev, iki otaqlı olub çiy kərpicdən inşa edilmişdir. Kərpiclər təbəqənin sarı rəngli torpağından çətin seçildiyindən onların formasını və ölçülərini dəqiq müəyyən etmək mümkün olmamışdır. (4,s.7)

Evlərdən birində müxtəlif ölçülü səkilərə rastlanmışdır. Bəzləri pis saxlansa da mərkəzdəki və şərqdəki otaqda səkkiz səki aşkar edilmişdir. Səkilər bir qədər yerə oturdulmuş, içərisi 3-4 sm qalınlığında gil təbəqəsi ilə doldurulmuş və möhrədən inşa edilmiş 8-12 sm qalınlığında dairəvi divarla əhatə olunmuşdur. Bu səkilər ehtimal ki, iş yerləri olmuşdur. (4,s.7-8)

Tikinti üsulları, interyerin quruluşu (möhrədən inşa edilmiş yarımdairəvi və dairəvi iş yerləri) və əldə olunmuş gil qablar göstərir ki, şimaldakı ev cənubdakılarla eyni dövrə, yaxud son eneolit dövrünə aiddir. (4,s.8)

Ovçulartəpəsi yaşayış yerinin tikililərinin təhlili təsdiq edir ki, yaşayış binaları bilavasitə təpənin coğrafi quruluşuna uyğun tikilmişlər. Burada üzə çıxarılan evlər yerüstü deyil yarımqazma evlər olmuşdur. Evlərin əsas divarlarının fundamenti iri çay daşlarından tikilmişdir. Bütün evlərdə təpənin zirvəsinə doğru olan divarlar daha iri daşlardan və enli qurulmuşdur. Bu nisbətən yuxarı hissədən olacaq hər hansı bir axıntının qarşısını almaq üçün edilmişdir. Maraqlı faktlardan biri odur ki, eneolit dövrünə aid yaşayış binalarında tam planlı tikinti xüsusiyyəti izlənilmir. Yəni bu evlər tam dördkünc və ya tam dairəvi formada deyildir. Evlərin hər birində müəyyən xüsusiyyətlər üzə çıxır. Bəzi evlərin divarları tam olaraq daşlardan qurulduğu halda, bəzi evlərin özülləri daşlardan, üst hissəsi isə çiy kərpicdən qurulmuşdur. Istifadə olunan daşların az bir hissəsi qaya parçalarından ibarətdir. Çay daşlarından daha çox istifadə edilmişdir. Eneolit dövrü evlərinin daxili arakəsmələrlə ayrı-ayrı otaqlara və ya iş yerlərinə bölünmüşdür. Bu arakəsmələrin qurulması zamanı çox halda adi möhrədən istifadə edilmişdir.

Evlərin daxilində isə çay daşlarından istifadə edilmirdi. Əsas tikinti vasitəsi kərpic idi.

İ.H.Nərimanov qeyd edir ki, Eneolit dövründə Azərbaycanda və Cənubi Qafqazda yaşayış və təsərrüfat tikililəri çiy kərpic və saman qarışığından hörülmüşdür. Bəzi tikililərin divarları qarışıqsız kərpicdən ucaldılırdı. Kərpicləri istifadə edərkən bəzi vaxt gilə kül əlavə olunurdu, bu isə kərpiclərin rəngini boz edirdi. (13,s.85)

Cənubi Qafqaz memarlığının inkişafının erkən dövrü üçün kərpic əsas tikinti materialı hesab edilir. Inşaat texnikasında qurğu planı dairəvi olan tikililərdə, kərpicin üç istifadə üsulunu təyin etmək mümkün olmuşdur. Onlardan birinin xüsusiyyəti ondan ibarətdir ki, yuxarı sıradakı kərpiclər aşağıdakılara nisbətən daxilə doğru qoyulmuşdur. Bu isə şaquli vəziyyətdə pillə hörgünün yaranmasına gətirir. Hər iki tərəfdən divar

suvanmışdır və bu səbəbdən hörgünün pilləyə bənzəməsi çox da nəzərə çarpmır. (13,s.86)

Eneolit dövrünə aid dairəvi planlı tikililərin digər hörgü üsulu bir qədər qeyri adidir. Bir sıra kərpiclər digərlərinə nisbətən elə qoyulmuşdur ki, onların bir bucağı daxilə, əks tərəfdəki bucağı isə xaricə baxır. Bu üsul nadir hallarda istifadə edilib və yalnız İlanlıtəpədə qeydə alınıb. Kərpic hörgüsünün üçüncüsündə şaquli divarlar tikilir və qurğu silindir formasını alır. (13,s.87)

Ovçulartəpəsindən fərqli olaraq I Kültəpə qədim yaşayış yerinin Eneolit dövrünə aid evləri yerüstü evlər olmuşdur. O.Həbibullayev evlərin yerüstü olmasını döşəmənin divarın özülü ilə bir səviyyədə olması və divarların hər iki tərəfdən suvanması faktına əsaslanaraq qeyd edir. (5,s.32-33)

I Kültəpənin evlərinin həyətində, yaxud təsərrüfat tikililərinin ətrafında eyni ilə Ovçulartəpəsində olduğu kimi daş döşəmələrdən də istifadə edilmişdir. Daş döşəmələrin aşkar olunması Eneolit tayfalarının dövrünə görə yüksək mədəni həyat səviyyəsinə aid olduğunu göstərir. (3,s.33)

I Kültəpənin Eneolit dövrünə aid aşkar olunan dairəvi formalı evləri bir sıra xüsusiyyətlərinə görə Ön Asiya abidələrindən aşkar olunan evlərlə bənzər olsa da, qədim Şərqin bəzi əkinçilik mədəniyyətləri, xüsusilə Xələf mədəniyyəti üçün xarakterik olan dairəvi formalı və onlara birləşik dördkünc artırmalı binalara burada rastlanmamışdır. Şübhəsiz ki, Yaxın Şərqlə qarşılıqlı iqtisadi mədəni əlaqələr şəraitində inkişaf edən Naxçıvanın qədim əkinçilik mədəniyyəti Ön Asiya təsirinə məruz qalsa da onlara əks təsir də göstərmişdir. (3,s.20-21)

Evlərin daxilində dirək yerlərinin aşkar edilməsi hallarına biz I Kültəpədə də rast gəlirik. O.Həbibullayev evlərin daxilində dirək yerlərinin olmasını I Kültəpənin dairəvi evlərinin damlarının günbəzşəkilli olması ilə əlaqələndirir. (5,s.25)

Dördkünc otaqlar isə O.Həbibullayevin fikrincə yastı damlı olmuşdur. Çünki belə otaqların ortasında dirək üçün nə yastı daş, nə də çala vardır.

Maraqlıdır ki, Eneolit dövrü yaşayış yerlərinin tikinti qatlarının qalınlıqları çox da böyük olmur. Çoxsaylı tikinti qatlarına rast gəlinməsi bir daha təsdiq edir ki, onların tikililərinin əksəriyyəti yüngül konstruksiyalı olmuşdur.

Son zamanlaradək belə bir fikir formalaşıb ki, dairəvi və dördkünc tikililərin hər biri müəyyən tarixi mərhələyə aiddir. Eyni zamanda dördkünc tikililər Eneolitə, dairəvi tikililər isə Erkən Tunc dövrünə aiddirlər. Lakin, son illərin tədqiqatları, xüsusən Naxçıvanın Son Eneolit və Erkən Tunc dövrü abidələrində aparılan tədqiqatlar təsdiq edir ki, evlərin və yardımçı tikililərin formaları əsasən abidənin yerləşmə xüsusiyyətlərindən və eyni zamanda tikinti materiallarının mövcudluğundan daha çox asılı olmuşdur.

Şərur rayonu ərazisindəki başqa bir İlk Tunc dövrü abidəsi olan I Maxtada aparılan tədqiqatlar təsdiq edir ki, bir sıra yaşayış məskənlərində tarixi dövrdən asılı olmayaraq dairəvi və dördkünc evlər yanaşı tikilmişlər. Bəzən isə dairəvi tikililərə dördkünc yardımçı tikililər birləşdirilmişdir. (1,s.66)

Son illərin tədqiqatları bir daha təsdiq edir ki, Eneolit məskənlərinin yayıldığı bəzi bölgələrdə yarımqazma evlər əsas ev tipi olmuşdur. Bu ərazinin təbii-coğrafi şəraiti ilə bilavasitə bağlı olmuşdur. Belə ki, kəskin iqlimə malik olan ərazilərdə, o cümlədən Naxçıvanda bu tip evlər geniş yayılmışdır.

Qafqazın arxeoloji abidələrində Şimali Mesopotomiyanın təsiri aydın şəkildə görünür. R.M.Munçayev ehtimal edir ki, Cənubi Qafqazda aşkar edilmiş iri çiy kərpiclərdən tikilmiş dairəvi evlər, o cümlədən təsərrüfat quyuları və onların tikinti

xüsusiyyətləri mədəni-tarixi olaraq ilk növbədə Asiya ənənələri ilə bağlıdır. (12,s.119)

Ovçulartəpəsində İlk Tunc dövrünə aid tam formasını saxlamış yalnız bir tikili təmizlənmişdir. Bu tikili dairəvi formadadır. Onun özülü daşlardan qurulmuşdur. Daş düzümü dairənin bir tərəfində 4 cərgəyədək qalmışdır. Tikinti zamanı qaya parçalarından və az miqdarda çay daşlarından istifadə edilmişdir. Dairəvi tikilinin daş özülünün üzərində kərpiclər olmuşdur. (15,s.31-87)

Ovçulartəpəsində İlk Tunc dövrünə aid tikililər sırasında təsərrüfat quyularını qeyd etmək lazımdır. Bu tikililər tam dairəvi formadadırlar. Onlar adətən yer səviyyəsindən aşağıda qurulmuşlar. Bunun üçün əvvəlcə yerdə xüsusi çala qazılmış, parçalanmış qaya daşlarından silindrik formada divar hörüldükdən sonra ətrafı torpaqla doldurulmuşdur. Bu tip tikililərin daxilindən adətən heyvan sümüklərinin qalıqları aşkar edilir.

Maraqlı faktdır ki, Naxçıvanın I və II Kültəpə, I Maxta qədim yaşayış yerlərindən əldə olunan stasionar ocaq qurğuları – dairəvi manqallara Ovçulartəpəsi abidəsində rast gəlinmir. Bu manqallar adətən yerdə çala qazıldıqdan sonra əvvəlcədən hazırlanmış lentvari gil təbəqələrini bir-birinin üzərinə qoymaqla hazırlanırdı. Manqallardan evlərin qızdırılması üçün kürsü kimi istifadə olunurdu. Ovçulartəpəsi abidəsinin İlk Tunc dövrünə aid tikililərinin daxilindən manqalların tapılmaması bir daha abidədə məskunlaşan insanların yarımköçəri maldarlıqla məşğul olduğunu və yalnız ilin isti aylarında Ovçulartəpəsinə qayıtdıqlarından xəbər verir.

I Kültəpənin Eneolit təbəqəsində düzbucaqlı və dairəvi evlər ayrı-ayrılıqda yerləşirsə, ilk tunc dövrü təbəqəsində bu evlər bir-birinə bitişik formada inşa edilmişlər. (7,s.81-82)

II Kültəpədə də aşkar edilmiş İlk Tunc dövrünə aid dairəvi planlı evlərin tikintisi zamanı çiy kərpicdən istifadə edilmişdir. Evlər yer səthində qurulmuşdur. Bu evlərin özülü olmamışdır. Daxili isə qalın suvaqla suvanmışdır. (14,s.85)

I Maxtada öyrənilmiş tikililər əsasən dairəvi və dördkünc formada olub çiy kərpic və möhrədən qurulmuşlar. Lakin, burada Ovçulartəpəsindən fərqli xüsusiyyətlər nəzərə çarpır. Birincisi, burada evlərin inşası zamanı yalnız çiy kərpicdən istifadə edilmişdir. Bəzi hallarda arakəsmələrdə möhrədən istifadə olunmuşdur. Hər bir dairəvi evin daxilində ilk tunc dövrü abidələrində geniş yayılmış dairəvi manqal yerləşdirilmişdir. Bəzi hallarda dairəvi evlərə kənardan kiçik dördkünc tikililər birləşdirilmişdir. Bu tikililərin hər birinin daxilindən müəyyən materiallar əldə edilir. (1,s.65-69)

Eneolit dövrünün təsərrüfat binalarının və yaşayış tikililərinin memarlıq forma və tikinti üsulları Erkən Tunc dövrünün memarlığında da geniş istifadə olunmuşdur. Fərq ondan ibarətdir ki, eneolit dövründə dairəvi və dördkünc evlər ayrı-ayrı tikilmiş, erkən tunc dövründə isə onlar kompleks şəklində verilmişdir. Yalnız erkən tunc dövrünün sonunda (e.ə III min. ikinci yarısında) dördkünc təsərrüfat və məişət tikililəri əsas memarlıq formaları kimi öz təsdiqini tapmışdır. (8,s.8-11)

Kuftinin fikrincə Kür-Araz mədəniyyətinin dairəvi evləri daha çox Aralıq dənizi hövzəsi mədəniyyətləri ilə bağlıdır. Bu tip evlər Iran və Cənubi Mesopatamiyada neolit dövründə qeydə alınmamışdır. (10,s.28-29)

Maraqlıdır ki, Kür-Araz mədəniyyətinin yayıldığı arealın Cənub-Qərbində (Amiranis-qora, Karaz) dairəvi tikililər yoxdur. R.M.Munçayev qeyd edir ki, bu fakt bu tip tikililərin mənşəyinin Aralıq dənizi hövzəsi ilə bağlı olması fikrini şübhə altına alır. (11,s.152)

Eneolit və İlk Tunc dövrlərində əsası qoyulmuş ənənələr sonrakı tarixi mərhələlərdə davam etmişdir. II Kültəpənin Orta Tunc dövrü, Oğlanqalanın Son Tunc-Erkən

Dəmir dövrü tikinti xüsusiyyətləri əvvəlki ənənələrin davamıdır. Oğlanqalanın yarımdairəvi bürclərinin və divarlarının yuxarı hissələri çiy kərpiclərlə hörülmüşdür.

Naxçıvanın qədim dövr tikinti və memarlıq xüsusiyyətlərinin tədqiqi aşağıdakı nəticələrə gəlməyə imkan verir. Birincisi, hər bir yaşayış yeri ilkin olaraq insanların təsərrüfat zərurətləri səbəbindən müəyyən coğrafi yüksəklikdə salınmışdır. Oturaq həyat keçirən əhali çay kənarlarında, yarımköçəri əhali isə Kiçik Qafqazın ətəklərində məskunlaşmışdır.

İkincisi, ümumi tikinti xüsusiyyətlərinin olmasına baxmayaraq hər bir yaşayış məskənində özünəməxsus xüsusiyyətlər də mövcuddur ki, bu da yerli ənənələrlə bağlıdır.

Üçüncüsü, eneolit dövründə bir yaşayış məskənində evlərin istər quruluşunda və istərsə də avadanlıqlarında fərqlər olmadığı halda, İlk Tunc dövründə hər bir ev ayrılıqda müəyyən funksiyalar daşımışdır. I Maxtada təmizlənmiş evlərin daxilindən fərqli avadanlıqların əldə edilməsi fikrimizi təsdiq edir. Eyni zamanda burada təmizlənmiş ibadətgah artıq bu dövrdə yaşayış məskənində ümumi məbədlərin olduğunu təsdiq edir. Həmçinin ibadətgahın düz divarla yaşayış məskəninin digər evlərindən ayrılmasıda maraqlı faktdır. Bu faktlar artıq İlk Tunc dövründə şəhərləşmə prosesinin başlandığını və protoşəhərlərin yarandığını təsdiq edir.

Nəhayət dördüncüsü, II Kültəpədə olduğu kimi, Orta Tunc dövründə yaşayış məskənlərinin qala divarları ilə əhatə olunması, sənətkarlıq emalatxanalarının və məhəllələrin mövcudluğu artıq şəhərlərin tam olaraq formalaşdığını təsdiq edir.

## ƏDƏBİYYAT


1. S.H.Aşurov, V.B.Baxşəliyev, S.A.Hüseynova, F.A.Əliyeva, O.K.Əliyev. I Maxtada 2009-cu il qazıntıları. Azərbaycanda arxeoloji tədqiqatlar (2009), Bakı, 2010
2. S.H.Aşurov, V.B.Baxşəliyev, S.A.Hüseynova, F.A.Əliyeva, O.K.Əliyev. I Maxta qədim yaşayış yerində 2010-cu il qazıntıları. Azərbaycanda arxeoloji tədqiqatlar (2010), Bakı, 2011
3. Baxşəliyev Vəli. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı, 2004
4. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı, 2010
5. O.H.Həbibullayev. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959
6. Hüseynova S.A., Əliyeva F.A. I Maxta yaşayış yerinin ocaq qurğuları. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı, 2009. №2
7. О.А.Абибуллаев. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982.
8. Ашуров С.Г., Гаффаров А.А. Овчулар тепеси памятник энеолита и ранней бронзы. Историко – культурные и экономические связи народов Кавказа: прошлое, настоящее, будущее. Т.д. Международной научной конференции, посвященной 80-летию Дагестанского научного центра РАН. Махачкала, 2004
9. А.И.Джавахишвили. Строительное дело и архитектура поселений Южного Кавказа V-III тыс. до н.э. Тбилиси, 1973
10. Б.А.Куфтин. Археологические раскопки 1947 г.в Цалкинском районе. Тбилиси. 1948
11. Р.М.Мунчаев. Древнейшая культура Северо-восточного Кавказа. МИА 100, Москва, 1961
12. Р.М. Мунчаев Кавказ на заре бронзового века. Москва, 1975
13. Нариманов И. Культура древнейшего земледелческо-скотоводческого населения Азербайджана. Баку, 1987
14. V.Bakhshaliyev, L.Ristvet, S.Ashurov. The Chronology of Kura-Araxes Sites: 2006 Excavations at Kultepe II and Maxta I. Azerbaijan – Land between East and West. Transfer of knowledge and technology during the "First Globalization" of the VII-IV millennium BC. Baku, 2009
15. C.Marro, V.Bakhshaliyev and S.Ashurov. Excavations at Ovcular tepesi (Nakhchivan, Azerbaijan). First preliminary report: the 2006-2008 seasons. Anatolia Antiqua XVII (2009)



*Şəkil 1-2. II Kültəpənin dairəvi tikili qalıqları*



*Şəkil 3. I Maxtanın daxilində manqal olan dairəvi tikili qalığı*



*Şəkil 4. I Maxtada dairəvi ibadətgah*



*Şəkil 5. Qarabulaq kurqanı*




*Şəkil 6. Oğlanqalanın yarımdairəvi bürcünün planı*

**Leyla HÜSEYNOVA**
*AMEA Tarix İnstitutu*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İRSİNDƏ NAXÇIVAN TARİXİ MƏSƏLƏLƏRİ

Azərbaycan dünyanın qədim və zəngin tarixi olan ölkələrindəndir. Bu baxımdan tariximizin sistemli şəkildə öyrənilməsi indi də aktual problem olaraq qalır . XX əsr tarixşunaslığında Azərbaycan tarixinin öyənilməsi heç də birmənalı olmamışdır. Əgər kommunist rejiminə qədərki dövrdə Azərbaycan tarixinin qədim dövrü səthi öyrənilmişdisə, sovet hakimiyyəti illərində buna maraq artmış və bir çox sahələrdə elmi tədqiqatlar aparılmış, Azərbaycan tarixinə dair dəyərli elmi əsərlər yazılmış, arxeoloji ekspedisiyalar təşkil olunmuşdur. Bununla belə, tariximizin öyrənilməsində təhriflərə və saxtalaşdırmalara da yol verilmişdi. Azərbaycan tarixinin ən çox təhrif olunan mərhələsi onun qədim dövrüdür. Beləki, bu dövr araşdırılarkən xalqımızın soykökü məsələləri təhrif edilmiş, Azərbaycan xalqının türk mənşəli xalq olması şübhə altına alınmış, toponimlərin şərhində saxtalaşdırmalara yol verilmiş, mühüm əhəmiyyət kəsb edən tarixi məsələlər arxa plana keçirilmişdir. Lakin hətta totalitar rejim dövründə də, bəzi tədqiqatçılar Azərbaycan tarixinin öyrənilməsində həqiqəti əsas götürərək, sübuta yetirmişlər ki, azərbaycanlılar Cənubi Qafqazın ən qədim sakinləri olmuşlar, bu regionda qədim mədəniyyət və dövlətçilik ənənələri yaratmışlar. Görkəmli tarixçi professor Yaqub Mahmudov “Azərbaycan: qısa dövlətçilik tarixi” əsərində yazdığı kimi, Şimaldan Baş Qafqaz dağları, qərbdən Göyçə gölü hövzəsi də daxil olmaqla, Alagöz dağ silsiləsi və Şərqi Anadolu , şərqdən Xəzər dənizi, cənubdan isə Sultaniyyə-Zəncan-Həmədan hüdudları ilə əhatə olunan tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. [7, s.140]

Xalqımızın ulu babalarının yaşadığı tarixi Azərbaycan torpaqları ən qədim sivilizasiyaların yarandığı Xəzər - Aralıq dənizi - Fars körfəzi regionuna daxil idi. Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş etnoslar bu regionda yaranmış qədim mədəni mühitin, o cümlədən, Şumer - Babil mədəniyyətinin formalaşmasında, habelə bütövlükdə Yaxın və Orta Şərqin hərbi - siyasi həyatında, qədim dövlətçilik tarixində çox mühüm rol oynamışlar. Bunu ölkəmizdə və xaricdə aparılan elmi axtarışlar, xüsusən də arxeoloji qazıntılar çox aydın sübut edir.

Naxçıvan çoxəsrlik tarixə malik olan ən qədim Azərbaycan torpağıdır. Burada hələ Neolit dövründə yerli tayfalar oturaq həyat sürmüş, müxtəlif təsərrüfat və sənət sahələri ilə məşğul olmuşlar. "Naxçuan", "Naxcuan" və ya "Naqşecahan" adlanmışdır. Bir sıra fars və türk mənbələrində Naxçıvan "Nəqşicahan" kimi göstərilir. Şəhəri yunanca "Naksuana", pəhləvicə "Naxçıvan", ərəbcə - "Nəşəva" və ya “Akçıvan”- Naxçıvan - Oğuz ağ ərənlər vətəni kimi mənalandıranlar da vardır.

Ümummilli lider Heydər Əliyevin irsində Naxçıvan tarixi məsələləri xüsusi yer tutmuşdur. Heydər Əliyevin 1999-cu ildə imzaladığı “Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında” fərmanda yuxarıda toxunulan məsələlər haqqında deyilir: “Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyət və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi

şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Azərbaycan atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri əsası Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbi ilə bütün Şərqdə məşhurlaşmışdı.” [9,s.149]

Azərbaycan tarixinin qədim dövrünün dəyərləndirilməsi Heydər Əliyev irsində də xüsusi yer tutur. Ümummilli lider Azərbaycan tarixinin hər bir dövrünü, o cümlədən qədim dövr tarixini həmişə yüksək qiymətləndirmişdir. Heydər Əliyevin yeni yüzillik və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində deyilir: “İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz subut edir.” [7, s.283] Bu, böyük təcrübəyə malik, dünya miqyasında qəbul olunan bir siyasi xadimin, eyni zamanda xalqının tarixini dərindən bilən yüksək zəkalı bir tarixçinin verdiyi qiymətdir.

Azərbaycan ərazisi bu diyarın, dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən arxeoloji abidələrlə son dərəcə zəngindir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma (Naxçıvan), Buzeyir mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar, o cümlədən 350-400 min il bundan əvvəl yaşamış Aşöl dövrünə aid qədim insanın – Azıx adamının (azıxantrop) alt çənə sümüyünün bir hissəsi Azərbaycanın ibtidai insanların formalaşdıqları əraziyə daxil olduğunu sübut edir. Məlum olduğu kimi, bu nadir tapıntıya görə Azərbaycan ərazisi “Avropanın ən qədim sakinləri” xəritəsinə daxil edilmişdir.

Heydər Əliyev təkcə dövlətin idarə edilməsi, siyasətlə məşğul olmurdu. Azərbaycanın ictimai, elmi-mədəni həyatı, bu sahələrin inkişafı məsələləri daim onun diqqət mərkəzində idi. Nəzərə almaq lazımdır ki, o həm də tarixçi idi. Bu baxımdan onun ölkəmizin, xalqımızın tarixi ilə bağlı məsələlərə münasibəti xüsusilə seçilirdi.

Ulu öndər həmin müraciətində daha sonra vurğulamışdı : “Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı arxeoloji mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta Miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur” [7,s.290] .

Məqsədyönlü fəaliyyəti ilə xalqımızın ictimai-siyasi həyatına, dövlətçilik tarixinə, milli mənəvi irsinə, milli özünüdərk ideologiyasına dönüş gətirən Heydər Əliyev ən qədim milli dövlətçilik ənənələrini davam etdirərək, Şərqlə Qərb arasında Azərbaycanın özünəməxsus yerini qoruyub saxlamışdır. Sivilizasiyaların qovuşuğunda yerləşən, həm mədəniyyətlərin, həm dinlərin, həm də müxtəlif ictimai quruluşların çulğalaşdığı Azərbaycan Şərq və Qərb arasındakı körpü rolunu bu gün də saxlamaqdadır. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına

müraciətində bu məsələyə toxunan umummilli lider demişdir: "Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyasının güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur. Karvan yollarının üstündə yerləşərək, "Böyük İpək yolu"nun mühüm mərkəzlərindən biri olmuş Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir."[7,s.290]

Heydər Əliyev hətta Naxçıvanın ən ağır günlərində muxtar respublika Ali Məclisinin sədri olduğu dövrdə də Azərbaycanın qədim tarixinin öyrənilməsi məsələsini unutmamış, konkret işlərin görülməsinə istiqamət vermişdir. Həm Kültəpə, həm də Gəmiqaya abidələrinə yeni ekspedisiyaların təşkili, vaxtaşırı tədqiqat işlərinin aparılması Heydər Əliyevi narahat edən mühüm məsələlərdən olmuşdur.

2002-ci ildə Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması məsələsi çərçivəsində muxtar respublikada tədqiqat işlərinin aparılması yenidən aktuallaşmışdı. Məhz bu məsələ ilə bağlı Heydər Əliyev öz narahatlığını dilə gətirərək, Kültəpə və Gəmiqaya ərazilərində tədqiqatların heç də qənaətbəxş olmadığını bildirmiş, bu işlərin nəzarətdə saxlanmasını tövsiyə etmişdi, 2002-ci il avqustun 7-də Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə çıxış edərək demişdir: "Məsələn, mən Vəli Əliyevi tanıyıram. Ömrünün çoxunu elə burada keçiribdir. Orada arxeoloji axtarışlar aparır, burada torpaqları qazır. Yadımdadır, 1990-cı ildə Naxçıvana təzə gəlmişdim. Hələ heç bir işlə məşğul deyildim. Gəldi mənimlə görüşdü. Dedim, haraya gedirsən? Dedi ki, Kültəpədə qazıntı işləri aparırıq. Kültəpədə işlərinizi qurtardınızmı, yoxsa hələ davam edir?! Şərurda da qazıntı işləri aparırsınız. Bu işlər gedibdir, çox iş görüblər, nəticələr də əldə ediblər. Eyni zamanda, indi Vəli Əliyev deyir ki, Gəmiqaya haqqında keçən il və bu il biz ekspedisiya təşkil etdik, iş apardıq. Amma nə üçün tək keçən il və bu il ? Mən bu gün çıxışımda dedim, keçən il hələ ilin yarısı idi, mən bu məsələni qoydum. Onda sizi təcili səfərbər edib oraya göndərdik. Yadındadırmı, bu, sizin təşəbbüsünüzlə olmayıbdır. Bunu bilməlisiniz. Ondan sonra, mən dedim ki, keçən il görə bilmədiyiniz işlərə görə gələn il, yəni bu il əvvəlcədən hazırlaşın. Bu barədə Naxçıvanın başçısı Vasif Talıbov da həm keçən il, həm də bu il çox işlər görmüşdür - oraya həmin o yolun çəkilməsi, müəyyən şəraitlərin yaradılması. Mən ona tapşırdım ki, arxeoloji ekspedisiyanın orada təminat məsələsi var. Onların hamısını Naxçıvan Muxtar Respublikasının rəhbəri Vasif Talıbov üzərinə götürdü. Bunların nəticəsində indi sən burada çox böyük sevinc hissi ilə deyirsən ki, artıq biz Gəmiqaya haqqında kitab verəcəyik. Çox gözəl, amma 3-4 il bundan qabaq heç oradan xəbərin yox idi. Xəbərin var idi, amma gedib oraya əlini vurmamışdın.Başa düşürsən! Nəhayət, getdin, indi bu gün deyirsən ki, orada təkcə Gəmiqaya yazıları deyil, orada arxeoloji qazıntılar da aparmaq lazımdır. 2-3 il gedəndən sonra orada daha da çox şey görəcəksən. Amma mən demək istəyirəm ki, orada sizin işiniz bununla qurtarmır. Bilin, planınıza salın, hər il, - özü də dövrü maksimum götürün, - orada iş aparmalısınız. Ümidvaram ki, orada yeni-yeni çox şeylər, Azərbaycanın qədim tarixini təsdiq edən sübutlar tapacaqsınız."[4]

Heydər Əliyev irsindən miras qalan tariximizin təəssübkeşliyi ənənəsi sonralar da davam etmişdir. Naxçıvan Muxtar Respublikasında regionun tarixi abidələrinə münasibət diqqətəlayiq şəkildədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili " haqqında 2005-ci il 6 dekabr tarixli sərəncamında deyilir: "Naxçıvan Muxtar Respublikası zəngin tarixə malikdir. Burada əldə olunan maddi mədəniyyət nümunələri Naxçıvan ərazisində Qədim daş dövründən başlayaraq, bu yurdun ilkin sivilizasiyalı yaşayış məskənlərindən biri olduğunu sübut edir." [5]

Naxçıvan zəngin tarixi abidələri ilə ən qədim türk yurdlarından biridir. Naxçıvan Muxtar Respublikasında 1200-dən artıq tarixi-mədəniyyət abidəsi mövcuddur. Bu abidələrdən Gəmiqaya, Fərhad evi, Əshabi-Kəhf, Yusif ibn Küseyr türbəsi, Möminə xatun türbəsi, Gülüstan türbəsi, Xanəgah türbəsi, Qazançı körpüsü, Naxçivan cümə məscidi, Qeysəriyyə, Şərq hamamı, Naxçıvan buzxanasını xüsusi vurğulamaq olar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır" deyərkən məhz bu tip abidələri nəzərdə tuturdu. Tədqiqatlar göstərir ki, hələ eramızdan əvvəl Naxçıvan ərazisində ulu əcdadlarımız yaşamış və yaratmışlar. Onların özlərindən sonra qoyub getdikləri tarix və mədəniyyət abidələri bu qədim yurdun azərbaycançılıq möhürüdür.

Gostərilən cümlələr cox lakonik olsada cox dərin tarixi, mənəvi, əxlaqi və tərbiyəvi mənaya malik olmaqla gələcək nəsilləridə maddi mədəni abidələrə diqqətlə yanaşmağı, onları qorumagı öyrənməyi və təbliğ etməyi tövsiyyə edir.

Yeri gəlmişkən, kommunist rejimi illərində də Azərbaycanın qədim yaşayış məskənlərinin tədqiq olunması yüksək nəticələr əldə edilmişdi. Lakin bu nəticələr mənfur qonşular tərəfindən böyük qısqanclıqla qarşılanmış və bir çox hallarda onların əsassız təhriflərinə məruz qalmışdır. Xüsusən Naxçıvanda yerləşən qədim abidələr haqqında saxta fikirlər irəli sürən erməni alimləri az qala Gəmiqaya abidəsinin də onlara məxsus olduğunu sübut etməyə çalışırdılar. Onların bu iddialarına qarşı Azərbaycan alimləri tutarlı cavab yazanda isə bu, "yuxarılar" tərəfindən "millətçilik" kimi qiymətləndirilirdi. Heydər Əliyev Moskvada fəaliyyət göstərdiyi dövrdə də bu mübarizənin içində olmuş və doğma xalqının milli tarixini, milli heysiyyatını son ana qədər müdafiə etmişdir. O, sonralar Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə giriş nitqi ilə çıxışında bu məsələyə toxunaraq demişdir: "Xatirimdədir, mən Moskvada işləyəndə "Şərq qapısı" qəzetində Gəmiqaya haqqında məqalə çıxmışdı. Onu böyük bir problemə çevirdilər. Ermənilər qalxdılar ki, burada, - Azərbaycanda millətçilik var. Xatirimdədir, bir dəfə biz - Siyasi Büronun üzvləri Moskvada Böyük Teatrda mövsümün açılışına getmişdik. Qorbaçov idi, Siyasi Büronun başqa üzvləri idi, mən idim, tənəffüs zamanı oturmuşduq, çay içirdik. Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik çoxdur, yoxsa azdır? Mən dedim ki, ümumiyyətlə, millətçilik müttəfiq respublikalarda var, Azərbaycan ən beynəlmiləl bir respublikadır və orada millətçilik başqa respublikalara nisbətən çox azdır. Onda bizim yanımızda oturan Siyasi Büronun üzvlərindən biri qayıtdı ki, "yox, Heydər Əliyeviç, yəqin ki, Siz düz demirsiniz. Bax, görürsünüzmü, Naxçıvanda "Şərq qapısı" qəzetində məqalə dərc ediblər, millətçilik haqqında, filan haqqında...". Mən dedim ki, nə məqalədir? Düzü, mənim bundan heç xəbərim yox idi ki, nə məqalədir, nədir. Bunu şişirdərək elə bir vəziyyətə gətirib çıxarmışdılar ki, SSRİ-nin rəhbərliyi, Siyasi Büro səviyyəsində söhbət gedirdi. Mən dedim ki, bilmirəm. Sonra maraqlandım,

həqiqətən, belə şey olmuşdur. Moskvadan buna çox ciddi reaksiya vermişdilər. Azərbaycan Kommunist Partiyasının rəhbərliyi, - mən burada olanda eşitmişdim, bəlkə bu fikirlərim dəqiq olmasın, - Naxçıvan Vilayət Partiya Komitəsinə göstəriş vermişdi ki, bu məsələ araşdırılsın. Həmin məsələ burada müzakirə olunmuşdu, - Naxçıvanda keçmiş vaxtlardan işləyən işçilər var, yəqin ki, onlar bilirlər, - kimlərisə cəzalandırmışdılar. Vasif, elədirmi, yoxsa yox?

Vasif Talıbov: "Şərq qapısı" qəzetinin redaktorunu işdən çıxarmışdılar. Əvvəllər o qəzet "Sovet Naxçıvanı" adlanırdı. Redaktorun müavininə töhmət vermişdilər. Ondan sonra bu məsələ Mərkəzi Komitənin plenumunda da müzakirə olunmuşdu." [8]

Heydər Əliyev hər zaman həqiqətin tərəfini saxlamış, tarix elminə qarşı haqsız təzyiqlərə sipər olmuşdur. Onun həmişə-istər kommunist rejimi dövründə, istər Naxçıvan dövründə, istərsə də müstəqil Azərbaycana rəhbərliyi dövründə tarix elminə xüsusi diqqət ayırması həm də tarixçi-dövlət xadimi olması ilə bağlı idi. 1993-cü ildə Elmlər Akademiyasında ziyalılarla görüşən Heydər Əliyev çıxışında tarix elminin tədqiqinə münasibətini xüsusi olaraq vurğulamışdı: "Mən o vaxtlar – Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bir şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək. Odur ki, bu baxımdan bir məsələyə də toxunmaq istəyirik: tarixi təhrif etmək olmaz."[1,s.155]

XIX əsr tariximizdə Rusiyanın müstəmləkəçilik siyasəti İrandan və Türkiyədən ermənilərin Azərbaycana köçürülməsi ilə başladı. Rusiyanın İrandakı səfiri A.S.Qriboyedovun və general İ.F.Paskeviçin təşəbbüsü ilə I Pyotrun dövründən yarımçıq qalmış planlar - Azərbaycan torpaqları hesabına "Erməni dövləti" yaratmaq planları reallaşdırılmağa başladı. Professor Yaqub Mahmudov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" əsərində yazdığı kimi, həmin dövrdə Rusiyadan Azərbaycan ərazisinə xristian əhalinin köçürülüb gətirilməsinə cəhd göstərildi. İlk vaxtlar bu siyasət baş tutmadıqda isə Rusiya Cənubi Qafqazda özünə dayaq yaratmaq üçün işğal etdiyi Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq rayonlarına, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhalisi köçürdü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan torpaqlarında - keçmiş İrəvan, Naxçıvan xanlıqlarının ərazisində süni surətdə və xüsusi məqsədlə "Erməni vilayəti" yaradıldı. Bununla da Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin əsası qoyuldu.[6, səh.41.]

Sovetlər birliyi dövründə Azərbaycanda bolşeviklər hakimiyyətə gəldikdən sonra Naxçıvan Sovet Sosialist Respublikası yaradıldı. Ali orqan olan Naxçıvan İnqilab Komitəsi təşkil olundu. İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi elan etdi. Moskvada bağlanmış "Moskva və Qars müqavilə"lərinə əsasən Naxçıvanın üçüncü bir dövlətə güzəştə gedilməməsi şərti ilə Azərbaycanın himayəsinə verilməsi qərara alındı. Naxçıvan ərazisinin qorunmasında Moskva və Qars müqavilələrinin mühüm əhəmiyyəti olmuşdur. Sovetlər Birliyi dövründə Naxçıvanın bir sıra ərazisi Ermənistana verilmiş, qonşu Türkiyə Cümhuriyyəti ilə iqtisadi, siyasi və mədəni əlaqələrin qarşısı alınmışdır. Məlum fərmanda deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq əzəli Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. beləliklə də, Naxçıvanı

Azərbaycandan ayıran - Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi.” [9, s.151]

Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası istiqlaliyyət qazanmaq üçün uzun müddət mübarizə aparmışdır. 1990-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (NMSSR) Ali Soveti “Moskva və Qars müqavilə”lərini əsas götürərək SSRİ-nin tərkibindən çıxmaq barədə qərar qəbul etdi. Bu, faktiki olaraq SSRİ-nin süqutunun başlanğıcı idi. 1990-cı ildən sonrakı siyasi proseslər Dağlıq Qarabağ ətrafında başlanan hadisələr Naxçıvanda da öz əks-sədasını tapırdı. Bu dövrdə Naxçıvanın vəziyyəti daha ağır idi. Onu ermənilər tərəfindən işğal təhlükəsi gözləyirdi. 1990-cı il iyulun 22-də Heydər Əliyevin Moskvadan Naxçıvana gəlməsi bu regionu xilas etdi.

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri bütün Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda ictimai-siyasi hadisələrin ən mürəkkəb dövrü kimi xarakterizə olunur. Həmin dövrdə sovet imperiyası rəhbərliyinin Azərbaycanın maraqlarına zidd siyasəti, ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar yaratması Muxtar Respublikanın həyatına ciddi təsir göstərmişdir. Bu dövrlərdə bütün Azərbaycanda, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik rəhbər lazım idi. Belə bir rəhbər Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyev oldu. Heydər Əliyev 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvana getmişdir.

1990-cı ilin noyabr ayının 17-də 12-ci çağırış Naxçıvan MSSR-in Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə keçirilmişdir. Həmin sessiyada çox mühüm qərarlardan biri Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar oldu.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Sovetinin qarşısında həmin bayrağın bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Naxçıvan MR Ali Məclisinin birinci sessiyasında müzakirə olunan ən mühüm məsələlərdən biri də 1990-cı il 20 yanvar faciəsinə verilən siyasi qiymət idi.

-1990-cı il 21 noyabr ayında Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etmişdir.

-1990-cı il 14 dekabr ayında Naxçıvan MR Ali Məclisi deputat Heydər Əliyevin hazırladığı "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" qərar qəbul etmişdir.

- 1991-ci il 3 sentyabrda Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası çağırılmışdır. Həmin sessiyada Heydər Əliyev yekdilliklə Ali Məclisin sədri seçilmişdir. Oktyabrın 26-da keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Naxçıvanda 7 noyabr bayramının (keçmiş SSRİ-də keçirilən Oktyabr inqilabı günü) ləğv edilməsi haqqında da qərar qəbul olundu.[6]

-Heydər Əliyevin Naxçıvandakı fəaliyyətində ən uğurlu cəhətlərdən biri də Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında fərman verməsi olmuşdur.

- 1991-ci il 29 oktyabrda Heydər Əliyevin ciddi səyi ilə başa gəlmiş Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı

üzərindən salınmış müvəqqəti körpünün rəsmi açılış mərasimi olmuşdur. 1992-ci il 22-25 martda Türkiyədə Baş nazir Süleyman Dəmirəllə Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalamışdır. 1992-ci il 28 mayda Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilmiş "Ümid" körpüsünün açılışı olmuşdur.

Yuxarıda sadalanan bütün addımlar məhz Naxçıvanın müasir tarixinin Heydər Əliyevin uzaqgörən fəaliyyəti ilə yazıldığının bariz nümunəsidir.

Beləliklə, 1991-1993-cü illər arasında ümummilli lider Heydər Əliyev Naxçıvandakı hakimiyyəti dövründə Muxtar Respublikanı geniş tərəqqi yoluna çıxarmağı bacardı.

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli fərmanında deyilir: "Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək, ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının bir formasına çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi." [2]

Bu fərman həm çar Rusiyasının işğalçı siyasətinə, həm ermənilərin Cənubi Qafqaza - Azərbaycan torpaqlarına XIX əsrdə gəlmələrinə, həm də azərbaycanlıların soyqırıma məruz qalmalarına verilən qiymətdir.

Ümummilli lider Heydər Əliyev irsində Naxçıvan tarixi məsələsinə yekun olaraq deyə bilərik ki, Sovetlər Birliyi dövründə Naxçıvanın tarixinə dair cəmi 20 kitabın nəşr edildiyi halda, 1996-cı ildən ötən dövr ərzində isə Naxçıvan, onun tarixi, mədəniyyəti, abidələri və təbii sərvətləri barədə 300-dən çox kitab nəşr olunmuşdur, Naxçıvanın tarixi, mədəniyyəti, abidələri və təbii sərvətlərini təbliğ edən açıqca və bukletlərin hazırlanmışdır.

Bu gündə ulu öndərin ideyalarına sadiq qalaraq ölkəmizin, o cümlədən Naxçıvanın tarixi, mədəniyyəti, abidələri və təbii sərvətləri öyrənilir və təbliğ edilir. 2007-ci ildə regionun tarixi və memarlıq abidələri barədə ensiklopedik nəşr kimi qiymətləndirə biləcək iki hissədən ibarət "Naxçıvan: tarixi və abidələri" kitabı Azərbaycan və ingilis dillərində nəşr edilib və geniş oxucu kütləsinə təqdim olundu. Nəşrdə Naxçıvanın tarixi və bu günü barədə 20-yə yaxın xəritədən, 260 şəkil və illüstrasiyadan istifadə olunub.

2010-cu ildə AMEA Naxçıvan bölməsinin Tarix, etnoqrafiya və arxeologiya İnstitutu "Naxçıvan tarixi atlası" adlı nəşri geniş oxucu kütləsinə təqdim etdi. Atlasda regionun müxtəlif dövrlərinin tarixi coğrafiyasını əks etdirən 50-yə qədər xəritə öz əksini tapıb. Yeni nəşrdə yer alan xəritələrdə Naxçıvanın qədim yaşayış məskənləri, Sovet dönəmində zorla ermənilərə verilən ərazilər, daş və mis dövrünün, qədim türk abidələrinin yayıldığı areallar ayrıca yer tutur. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin

Bakı Kartoqrafiya Fabrikində çap olunmuş atlasda Naxçıvan Muxtar Respublikasının tarixən malik olduğu ərazilər, regionun rayonlarının inzibati əraziləri və malik olduqları sərvətlər dəqiqliklə öz əksini tapıb.

Bütün yuxarıda qeyd olunanları umumiləşdirərək bir daha belə bir qənaətə gəlirik ki, Azərbaycan adlı məmləkətin son yarım əsrdən cox bir dövründə elə bir sahə yoxdur ki, o ümummilli liderin fəaliyyətinin əhatə dairəsindən kənarda qalmış olsun. Onun fəaliyyətinin hər bir istiqaməti Azərbaycan dövlətinə, Azərbaycan millətinə, onun dirçəlişinə, inkişafına xidmət etmiş və qoyduğu irs hələ əsrlər boyu da bu yönumdə mayak rolunu oynayaraq gələcək nəsillərə yol göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə Heydər Əliyevin çıxışı Bakı şəhəri, 21 sentyabr 1993-cü il Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. /Bakı: Azərnəşr, 1997, s.148.
2. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı// Bakı şəhəri, 26 mart 1998-ci il №690// Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998.
3. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin giriş nitqi Bakı şəhəri, 7 avqust 2002-ci il Prezident kitabxanası, www.preslib.az
4. “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili ” haqqında sərəncam //Naxçıvan şəhəri, 6 dekabr 2005-ci il № 5-03/S//Beynəlxalq Elektron Kitabxana-Heydər Əliyev irsini araşdırma mərkəzi www.aliyevheritage.org
5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti //Bakışəhəri, 29 dekabr 2000-ci il// Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 31-ci kitab//Bakı: Azərnəşr, 2010, s.283.
6. Mahmudov Yaqub. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002. 328 s.
7. Mahmudov Yaqub. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, 2005,140 səh.
8. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin giriş nitqi // Bakı şəhəri, 12 avqust 2002-ci il // Prezident kitabxanası - www.preslib.az
9. Hüseynova Leyla. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (Müstəqillik dövrü). Bakı: Təhsil, 2011. 216 s.

**Sevinc ABBASOVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

# XVI ƏSR OSMANLI QAYNAQLARINDA NAXÇIVAN VƏ DUZDAĞ

## 1. GİRİŞ

Naxçıvan ərazisi zəngin tarixə malikdir. Arxeoloji tədqiqatlar nəticəsində əldə edilən maddi-mədəniyyət abidələri bu diyarın daş dövründən başlayaraq ilkin sivilizasiyalı yaşayış məskənlərindən biri olduğunu sübut edir. Naxçıvan ərazisinin dünyanın ən qədim yaşayış məskənlərindən biri olmasını təkcə arxeoloji tədqiqatlar deyil, eyni zamanda qədim yazılı mənbələr də sübüt edir. E.ə. IV-III minilliyə aid Şumer-Akkad, Assur mixi qaynaqlarında, antik dövrdə yaşamış Heredotun, Strabonun, Klavdi Ptolomeyin, Kvunt Horotsinin, İosif Flavinin əsərlərində Naxçıvan bəşər nəslinin ilk beşiyi, yəni yer kürəsində həyatın başlandığı müqəddəs məkan kimi təqdim edilir. (1)

Antik müəlliflərdən fərqli olaraq orta əsrlərdən başlayaraq XIX əsrin sonlarına qədər müsəlman müəlliflərinin və eyni zamanda Avropa dövlətlərindən Azərbaycana gələn səyyahlar və diplomatik missiyalarını həyata keçirən səfirlərin qeydlərində Naxçıvanın təbii sərvətlərindən və əsasən qaya duzunun emalı ilə bağlı qiymətli məlumatlar verilmişdir. XIX əsrin 70-ci illərində Bayer tərəfindən Naxçıvanın daş-duz mədənindən qədim daş dövrünə aid ibtidai insanların hazırladıqları daş baltalar tapılması ilə başlanan tədqiqatlar və 2006-2011-ci illərdə Duzdağda beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının apardığı tədqiqatlar nəticəsində Naxçıvanın duz mədənlərində hələ e.ə. V-III minilliklərdən etibarən daş baltalardan duz çıxarmada istifadə olunduğu öz elmi sübütunu tapdı.

Naxçıvan ərazisində yerləşən duz mədənləri haqqında Osmanlı qaynaqlarında da geniş yer verilir. Osmanlı arxiv sənədlərində Naxçıvandan istehsal edilən qaya duzunun müxtəlf ticarət yolları vasitəsilə ayri-ayrı şəhərlərə daşınmasından bəhs edilməsi ilə yanaşı, səfər ruznamələrində, tapu-təhrir və müfəssəl dəftərlərdə Naxçıvan ərazisində yerləşən duz istehsalı ilə əlaqədar geniş məlumat verilmişdir.

## 2. SƏFƏR RUZNAMƏLƏRİ

Naxçıvan ərazisində yerləşən duz mədənləri haqqında Osmanlı qaynaqlarında da geniş yer verilir. Osmanlı arxiv sənədlərində Naxçıvandan istehsal edilən qaya duzunun müxtəlf ticarət yolları vasitəsilə ayri-ayrı şəhərlərə daşınmasından bəhs edilməsi ilə yanaşı, səfər ruznamələrində, tapu-təhrir və müfəssəl dəftərlərdə Naxçıvan ərazisində yerləşən duz istehsalı ilə əlaqədar geniş məlumat verilmişdir. İndi isə səfər ruznamələrində, təhrir və müfəssəl dəftərlərdə Naxçıvan ərazisindəki duz istehsalı barəsində verilən məlumatları diqqətinizə çatdırırıq. Səfər ruznamələri Osmanlı ordusunun günlük fəaliyyəti ilə bağlı olaraq hazırlanırdı. Naxçıvan haqqında ilk dəfə Sultan I Səlimin "Çaldıran səfəri Ruznaməsin"də bəhs edilir. İstanbul şəhərində yerləşən Başbakanlık arxivində saxlanılan 533 nömrəli "Çaldıran səfəri Ruznaməsin"də "Osmanlı ordusunun yemək xərclərini hesablayarkən, Naxçıvan ərazisindəki duz mədənlərindən alınan duza sərf edilən vəsaitin də miqdarı göstərilir. (2) Naxçıvanla

bağlı məlumatlar təkcə Sultan I Səlimin səfər ruznaməsində deyil, eyni zamanda Sultan Süleyman Qanuninin də səfər ruznamısində də qeyd edilir. 1534-cü ildən başlanan Osmanlı-Səfəvi müharibəsi dövründə Sultan Süleyman Qanuninin başçılığı ilə Osmanlı ordusu Azərbaycan torpaqlarına və əsasən də Naxçıvana dörd böyük yürüş təşkil etmişdir. Sultan Süleymanın Naxçıvana 1534 və 1535-ci illərdə təşkil etdiyi yürşlərin səfər ruznamələrinə arxivlərdə tapılmasa da, 1554-cü il yürüşü haqqında səfər ruznamələrində Naxçıvan haqqında geniş məlumat verilir. Bununla yanaşı Mehmet Solakzadənin "Solakzadə tarixi" əsərində Sultan Suleyman Qanuninin Naxçıvan səfərindən bəhs edilir. (3) Mehmet Solakzadə öz əsərində başlıca olaraq Sultan Süleymanın Naxçıvana gəlməsindən və qızılbaşların ona müqavimət göstərməyərək "yandırılmış torpaq" taktikasından istifadə etdiklərindən bəhs edir. Mehmet Solakzadəyə görə qızılbaşlar Osmanlı ordusunu iqtisadi cəhətdən çətinliyə salmaq üçün Naxçıvanda hər şeyi: mal-qaranı, ot-ələfi, ağacları, yaşayış evlərini, su quyularını, kəhrizləri, duz mədənlərini və yolları məhv etmişdilər. Mehmet Solakzadənin bu məlumatını Sultan Süleymanın səfər ruznaməsi və hətta Səfəvi qaynaqları da təsdiq edir. Göründüyü kimi Osmanlı-Səfəvi savaşlarından ən çox zərər çəkən arazi məhz Naxçıvan olmuşdur.Çünüki növbəti Osmanlı-Səfəvi müharibəsi dövründə qızılbaşlar yenə də "yandırılmış torpaq" taktikasından istifadə etməklə yanaşı, şah I Abbasın dövründə Naxçıvan əhalisinin böyük bir hissəsi zorla İranın mərkəzi vilayətlərinə köçürülmüşdür. Bunun nəticəsində Naxçıvan bölgəsinin iqtisadi qüdrəti zəifləmişdir.

### 3. TAPU-TƏHRİR DƏFTƏRLƏRİ

Səfəvi hökmdarı Şah II Təhmasibin ölümündən sonra ölkədə yaranmış qeyri-sabit vəziyyəti və XVIII əsrin əvvəllərindən başlayaraq Səfəvi dövlətində güclənən mərkəzdənqaçma meyllərini, ərazisini şərqə və cənuba doğru genişləndirən Rusiya qarşısında öz geosiyasi maraqlarının qorunması üçün yeganə və çox mühüm bir vasitə kimi qəbul edən Osmanlı imperiyası 1578-ci, ildə qonşu Səfəvi dövləti ilə açıq qarşıdurmaya keçməli olur. (4) XVI əsrin sonunda və XVIII əsrin 20-ci illərində mövcud beynəlxalq vəziyyəti siyasi maraqları üçün istifadə edə bilməyən Səfəvi dövlətinə qarşı hərbi və eyni zamanda siyasi vasitələrdən uğurla istifadə edən Osmanlı imperiyası hər iki dövrün qarşıdurmasından qalib çıxmış və Səfəvi dövlətinin şimal-qərb bölgəsinin böyük bir hissəsini ələ keçirməyə müvəffəq olmuşdur. (5) 1590-cı ildə Şah I Abbas Osmanlı dövləti ilə İstanbul müqaviləsini imzalayaraq Talış və Ərdəbil istisna olmaqla bütün Azərbaycan torpaqlarını Osmanlıya verməyə məcbur oldu. (6) 1590-cı ildə Osmanlı dövləti tərəfində özündə 27 qəzanı birləşdirən Rəvan(İrəvan) livası təşkil edildi. Naxçıvan ərazisi də Rəvan livasına daxil edilən Rəvan, Karpi, Garnı, Vedi, Aralık, Talin, Armavi, Aylik, Abaran, Şarabxanə, Ağca Kale, Mevazi Hatun, Melek Arslanlu, Karabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə,Sisyan, Ordubad, Azadciran, Şorlut və Dərənurgüt kimi əsas qəzalardan biri idi. (7)

Osmanlı dövləti tərəfindən Rəvan livasında və onun əsas qəzalarından biri olan Naxçıvanda siyasi sabitliyi və asayişi təmin etmək üçün ilk növbədə qalalarda silahlı qüvvələri yerləşdirir, onlara maaş kimi veriləcək vəsaitin mənbələrini müəyyən edirdi. Bu tədbirdən sonra ələ keçirilən bölgələr əyalətlərə bölünür, onların ərazi-inzibati bölgüsü aparılır, yerli idarə aparatı formalaşdırılır, rəhbərləri (bəylərbəyi, sancaqbəyi, qazi, naib, kətxuda, dəftərdar) təyin edilirdi. (4) Ələ keçirdiyi bütün ərazilərdə olduğu kimi Osmanlı dövləti Naxçıvan ərazisində də yaşayan əhalinin sayını, gəlirlərini

müəyyən etmək və onlardan müntəzəm sürətdə vergi almaq məqsədilə tapu-tahrir dəftərləri hazırlayırdı. (8) Bunun nəticəsində əhalinin gəlir obyektləri müəyyən edilir və onlardan alınacaq vergilərin həcmi dəqiqləşdirilirdi. Beləliklə də əyalətin idarə edilməsi üçün lazım olan qanunnamə və vergilərin nizamlı şəkildə toplanmasını müəyyən edən müfəssəldəftər tərtib edilirdi. Sonuncu mərhələdə isə, əkilən torpaq sahələri və formaları ilə bərabər torpaq sahibləri müəyyən edilərək, toplanan məlumatlara əsasən müfəssəl dəftər də istifadə olunmaqla icmal dəftər hazırlanırdı. (4)

**Tapu-tahrir dəftərləri.** 1576-cı ildə Şah II Təhmasibin ölümündən sonra Səfəvi dövlətində hakimiyyət uğrunda mübarizə başladı. Bundan istifadə edən Osmanlı dövləti Azərbaycan torpaqlarını ələ keçirməyə başladı. Qısa müddət ərzində Osmanlı ordusu Azərbaycanın əsas vilayətlərini ələ keçirməyə nail oldu. 1590-cı ildə Şah I Abbas Osmanlı dövləti ilə İstanbul müqaviləsini imzalayaraq Talış və Ərdəbil istisna olmaqla bütün Azərbaycan torpaqlarını Osmanlıya verməyə məcbur oldu. İstanbul müqaviləsi ilə Osmanlı hakimiyyəti altına düşən Naxçıvan ərazisində yeni idarə sistemi yaradıldı. 1590-cı ildə Osmanlı dövləti tərəfində özündə 27 qəzanı birləşdirən Rəvan(İrəvan) livası təşkil edildi. Naxçıvan ərazisi də Rəvan livasına daxil edilən əsas qəzalardan biri idi. Osmanlı dövləti yeni ələ keçirdiyi ərazilərdə yaşayan əhalinin sayını, gəlirlərini müəyyən etmək və onlardan müntəzəm sürətdə vergi almaq məqsədilə tapu-tahrir dəftərləri hazırlayırdı. Hal-hazırda İstanbul Başbakanlık arxivində 633 nömrəli Tapu-tahrir dəftərində Rəvan livasına bağlı olan Naxçıvan qəzasının sosial-iqtisadi vəziyyəti haqqında və onun təbii sərvətləri haqqında geniş məlumatlar verilmişdir. Biz Osmanlı dövlətinin Naxçıvan əhalisindən aldığı vergiləri cədvəl şəkilində Sizə təqdim edirik. Bu vergilər içərisində Naxçıvan duz mədənlərindən alınan vergilər də diqqəti cəlb edir.

| **N** | **Verginin adı** | **Verginin miqdarı** |
|---|---|---|
| 1. | Bostan | 6000 akça |
| 2. | Erzen, Darı, Gâvers | 48120 akça |
| 3. | Kivâre | 4030 akça |
| 4. | Hınta | 147200akça |
| 5. | Keten | 4230 akça |
| 6. | Mərcimək (Ades) | 4024 akça |
| 7. | Meyvə | 1684 akça |
| 8. | Noxud | 296 akça |
| 9. | Pambıq | 64032 akça |
| 10. | Şair | 94340 akça |
| 11. | Şıra | 2420 akça |
| 12. | Bennâk | 2880 akça |
| 13. | Caba | 648 akça |
| 14. | Nîm Çift | 25 akça |
| 15. | Resm-i Çift | 700 akça |
| 16. | İspenç | 7250 akça |
| 17. | Adet-i Ağnâm | 14085 akça |
| 18. | Post Mahsul-i -ı Vaşak | 2000 akça |
| 19. | Resm-i Keştî | 10000 akça |
| 20. | Resm-i Yatak | 5641 akça |
| 21. | Mukatâ‘a-i İhtisab | 250000akça |
| 22. | Mahsûl-i Boyahane | 9000 akça |
| 23. | Mukatâ‘a-i Bağat | 37735 akça |

| | | |
|---|---|---|
| 24. | Mukatâ‘a-i Bezirhane | 120 akça |
| 25. | Resm-i Asiyâb | 1145 akça |
| 26. | Bâd-ı Hevâ ve Arusiye | 7058 akça |
| 27. | Deştbâni ve Tapu-yı Zemîn | 17857 akça |
| 28. | Mahsûl-i Beytü’l mâl-i ‘Avâm | 9000 akça |
| 29. | Rüsûm-ı Tezâkire-i Tımarhâ-i Sipahiyan | 20000 akça |
| 30. | Nısf-ı Bâd-ı Hevâ ve Arusiye | 144 akça |
| 31. | Resm-i Dönüm | 3760 akça |
| 32. | Resm-i Kışlak | 4760 akça |
| 33. | Rüsûm-ı Hâricîn | 23620 akça |
| 34. | Rüsûm-ı Nemek(duz vergisi) | 675 akça |

## 4. ƏLAVƏLƏR

**Rəvan livasının haqqında Osmanlı dövləti tərəfindən verilən Qanunnamə**









**Rəvan qanunnaməsinin transkripsiyası**

*Bismillâhirrahmânirrahîm ve bihî e'tesimü ammâ yedummu filbed'i ve't-tetmîm hamd-ü senâ-i ferâvân şükr-ü seyâsü bî-pâyân ol hâlik-i ins ü cân ve râzık-ı halk-ı cihân dergâh-ı a'lâsınaki süyüf-i aklâm ile cerîde-i âlemde nizâm i'tâ ve salavât-ı fâyikât-ı bînihâye ve tahıyyât-ı lâyıkât-ı bî-ğâye ser-defter-i mevcûdât ve server-i kâinât Muhammedi'l Mustafa aleyhi efdalü's-salavât ve ekmeli't-tahıyyâtın ravza-i 'ulyâsına ki ta'yîn-i şerî'at-ı garrâ ve teblîğ-i ahkâm-ı mülk-ü bezle mesâlih-i benî âdeme kıyâm-ı dîn-i mübîn ile intizâm 'atâ kıldı. Ve 'âl ve ashâb-ı 'ızâmının ervâh-ı mutahharalarına ki levâzım-ı merâsimi islâmî nass-ı icmâlîden mufassal beyân ve 'ıyanda ihtimâm-ı tâm ile itmâm eylediler.Ammâ ba'd Pâdişâh-ı âlem-penâh şehinşâh-ı felek dergâh-ı sâye-i lutf-ı ilâh halîfe-i rasûlu'l-lah kâsir-i rikâb-ı ekâsire kâsir-i fukkâh-ı ekâsıra sahib-kırân-ı zamân mâlik-i cihân-ı devrân kazâ-tuvân kader-fermân sultan ibn-i sultan Murad Hân edâme'l-lahu kıyâme hıyâme sultânihi bi evtâdi'l-ebed ve etnâbi'l-hulûd fî zılleti zıllihi'z-*

*zalîli bi'l-emn ve'l-emân hazretlerinin mesûbât-ı gazâ-yı cennet-cezâ bâbında külli himmet-humâ hemtâları ve celle nühmet-i enkâ hemyâları fırâk-ı dâlle-i râfızıyn ve zümre-i mudille-i mülhidîn üzerine akdem ve etemm olub ol tâife-i bed-girdârun vücûd-u mazarrât-ı âlûdîlerin ezfâr-ı tîğ-i îğ-i âbdâr ile cerîde-i âlemden hâk eylemek olmağın medâr-ı eşref diyârına cünûd-u mevennede bî şumâr ile serdâr-ı rafî'il mikdârlar gönderüb tâife-i mağhûre-i tu'umme şimşîr ve nîze ve tîr ve vilâyet-i Şirvan ve bâzı Gürcistan feth ve teshîr olunduktan sonra bakıyye-i Gürcistan ve vilâyet-i Revân ve Nahcıvân belki 'umûmen milket-i Azerbaycan ve dahi Havza ve Horasata ve havme-i himâyete getirilmek içün vüzerâ-i uzamâ-i âsaf-ı ârâdan vezîr-i rûşen zamîr-i müşîr-i müşterî-i tedbîr dilîr-i iklîm teshîr-i âsaf evsâf-ı zamâne Skender-i mesâf-ı yegâne hurşîd-pertev cemşîd-pîr ve rüstemrezm hâtem-bezm hamrâ-hazm alâ 'ızzı kîtî-gî-i kişvergüşâ e'nî Ferhad Paşa edâme'llahu ikbâlehû ilâ yevmi'd-dîn ve eyyedehû dâimen nusraten ve fursaten ale'l-mülhidîn hazretleri serdâr-ı zafer şiâr-ı ta'yîn buyrulmağla müşârun ileyh dahi asâkir-i mansûre-i mevfûre ve ecnâd-ı ğayr-i mahrûse ile gelüp me'mûr oldukları zikr olunan umûr-u celîli'ş-şu'ûra bezl-i magdûr ve sa'-yi nâ-mahsûr idüp kuvve-i kâhire-i şehriyârî ve satve-i bâhire-i tâc-i dârî ile bi 'avni'llâhi'l-meliki'l-mennân bakıyye-i Gürcistan ve vilâyet-i Revân ve Nahcıvân'ı dahi feth ve teshîr ve çirk-ü şirk-ü küfr ve ilhâddan tathîr idüp ba'zı emsâr ve bilâdına lemyühlak mislühâ fi'l-bilâd müsdâkına mâ-sadak kılâ'-i bedî'i'l-ibdâ' îcâd ve ihtirâ' eyleyüp memâlik-i sâire gibi zabt ve tasarruf olunduktan sonra zikr olunan vilâyet-i Revân ve Nahcıvân'da dahi kemâ yenbağî kavânin-i adâlet âyîn-i pâdişâhî mer'î ve mazbût ve kavâ'id-i fevâ'id-i nısfet rehîn-i dîn-i penâhî mahmî ve merbut olunması içün vilâyet-i mezbûrenin umûmen kurâ ve mezâri' ve mehâri' ve mehâris ve metâri' ve gallât ve hukuk ve mersûmâtı nakîr ve kıtmîr tahrîr ve mücmel ve mufassal defterler tefsîr ve tastîr olunmak müşârun-ileyh serdâr-ı âlî makâm-ı felek-râm hazretlerinin merâm-ı şerîfleri olmağın ol bâbda zümre-i ümerâdan defterdâr-ı emvâl bu 'abd-ı bî-meccâl Mehmed bendelerine ve dîvân-ı hümâyûn-u sa'âdet mal kâtiplerinden el-kâtip Hasan kullarına fermân-ı kazâ cereyân nâzil ve vâsıl olup mazmûm-ı hümâyûn lâzımü'l-iz'ân ve vâcibü'l-im'ânına kânûn-u kadîm ve tarz-ı müstakîm üzre mufassal ve meşrûh fermân olunan hasbü'l-imkân ma'lûm ve iz'ân olundukda imtisâlen li'l-emri'l-'âlî tahrîre şurû' ve mübâşeret eyleyüb ol bâbda fermân olunan me'mûrât ve memnû'ât alâ kadri'l-vüs'i ve't-tâka riâyet ve ahvâl tahrîr ve tevzî'at mümkün oldukça râsitîkârî ve istikâmet himâyet kılınup zikr olunan mesâlih ve mehâm isrâ'-i ikdâm-ı aklâm ile ikdâm-ı tâm ve ihtimâm mâlâ kelâm ile eyyâm-ı devlet-i rûz efzûnu hüsrevânîde bi-'inâyeti'l-meliki'l-allâm ihtitâm ve encâm bulmuştur. El-vâki' fî evâhîr-i şehr-i muharremi'l-harâm sene tis'a ve tis'ân ve tis'a mie.Tafsîl-i eczâ-yı şer'iyye-i müte'âmile ve kavânîn-i rüsûm-u 'örfiyye-i müte'ârefe makâl-i defter-i Osmâniyye ve meâhiz-i ahkân-ı sultâniyye ki vilâyet-i Revân müceddiden tahrîr olundukda icrâ olunan kavânîn-i mahrûsede cenâh-ı hüsrevânînin zılâl-i adâlet ve sâye-i merhamet bahşleri tahtında mütezallil ve müreffehü'l-hâl olmaları ki mûcib-i devâmı devlet ve bâis-i nizâm-ı memleket olmağın ber-muktezâ-yı emîr-i âlî zikr olunur.*

*Fasıl: Resm-i Çift;Üzerine tamam çiftlik kayd olunan ra'iyyetten elli akça ve nîm çiftden yirmibeş akça ve bir mikdar yer tasarruf eden ekinlü bennâkdan on sekiz akça ve caba kayd olunan kimesnelerden ki kânûn-ı kadîm üzere on iki alınır ve defter-i hâkânîde çift veya nîm veya bennâk kayd olunan re'ayadan biri fevt olup birkaç oğulları kalsa yeri mücerredine kayd, ululları caba kayd olunup resm-i caba ile pîr resmi birikdirilüp bi-kader-i hasasihim resimlerin eda idüp yeri müşterek tasarruf iderler. Zîrâ caba bennâklık ra'iyyeti atası yerinden men' etmez. Fi'l-hakîka mülk-ü mevrûsu*

*gibidir.Ve bir ra'iyyet fevt olup sağîr oğula çiftliği kalsa sağîr çiftliğin hakkından gelmiyecek atan çiftliğidir deyu sipâhî resm-i çift talep eylemeye sağîr yarayınca emânet tarîkiyle âhara verilüp ve yetim yetişüp zirâ'ate kâdir olup atasından kalup emânete verilen yerini talep etse teslîm olunup, sipâhîye andan tapu almak yokdur.Ve bir ra'iyyet fevt olup oğulları kalup babaları biri birine müşa' ve müşterek mutasarrıflar iken biri vefât eylese oğlu kalsa hissesi oğluna intikâl eder ve oğlu kalmasa karındaşının yeri karındaşına intikâl eylemez. Anun gibi vâki' olsa müteveffânın hissesi ecnebîye verilmeyüp il(el) verdiğün karındaşı verirse karındaşına verile.Ve sipâhî dahi karındaşı hissesin gerü karındaşına vermekde ehl-i hibre ma'rifetleriyle hakk-ı karârın ala ve muvâda'a ile ziyâde nesne almaya. Meğerki karındaşı rağbet eylemeye ol vaktin sâhib-i tımar ehl-i karyeden tâlip olanlara vere. Ve bir ra'iyyet ki defterde bütün çift veyâhud nîm çift yazılmışdır, ol ra'iyyetün oğlu ve oğlunun oğlu olsa oğlu fevt olup ba'dehû kendü fevt olup oğlunun oğlu kalsa dedesinün yeri oğlu oğluna intikâl eylemez. Karındaşı yeri karındaşa intikâl itmedüği gibi. Ammâ hakk-ı karâr ile tapuya alup ol isterken ecnebîye verilmeye.Ve kefere tâifesinün dahî yerleri atalarından intikâl idüp ber-vech-i iştirâk mutasarrıf olmakda ve eytâm-ı zirâ'ate ka'âdir olup beratınca ataları yeri emânete verilmekde ve karındaşı yeri karındaşa ve dede yeri oğlu oğluna intikâl etmekde kezâlik.Ve vilâyet-i mezbûre keferesi haracların edâ itdüklerinden sonra rüsûm-ı çift'den bedel-i sipâhîlerine her harac-güzâr başınıyirmi beşer akça ispençe vazı' olunmuşdur. Edâ itdüklerinden sonra zemînlerinden resm-i çift ve resm-i nîm ve resm-i dönüm vermezler.Ve vilâyet-i mezbûrede ba'zı müslümanlar mülkiyet tarîkıyla mutasarrıf oldukları bağ ve bağçelerinün öşürü mukayyet olanlarınun öşürün ve zemînlerinün sâlâriyeleri verürler.Ve sâlâriye onda bir öşür alındıktan sonra kırk kilede bir kile alınır.Ve hums verenler sâlâriye vermezler.Ve 'avrat tasarruf eyledüği yeri boz komayub hakkından gelüb behresin ve rüsûmun virdükten sonra elinden alınmak kânûna muhâlifdir.Ve tekrar öşür şol ra'iyyetden alınır ki kendü sipâhîsinin tımarında zirâ'ate kâbil çiftliğin terk edip gayri yerde zirâ'at eyleye iki öşür alınmak kânûn-ı ma'rûfedür. Ammâ sipahinin tımarında zirâ'ate kâbil yeri olmasa veyâhud sipâhinin toprağında olan zirâ'ate sâlih yerlerin bi't-temâm ekdükten sonra varub âharun yerinde dahi ekse behresin sâhib-i'arza verür.Ve re'âyâ tâifesi ki ellerinde yerleri olub müteferrika olsa sipâhi göçürüb yerlerine götürmek kânundur. Ammâ on yıldan ziyâde varub bir yerde mütevattın olan kimesneyi göçürüb getürmek memnû'dur.Ve ra'iyyet oğlu ra'iyyetdür. Mâdemki âhara kayd olunmaya âhara kayd olunmaya âhara kayd olunduktan sonra kayd olunduğu üzere ma'mûldür.Ve bir hâric ra'iyyetin ber-vech-i tapu mutasarrıf olduğu yer elinden alınub dâhil ra'iyyete verilmek memnû'dur. Hâric ile dâhil arasında tercih men' olunmuşdur.Ve defterde kayd olunan müslüman mücerredlerinden nesne alınmaz. Mücerred olan teehhül etse caba resmi alınır.Ve caba ekinlü olsa ekinlü resmi alınır caba alınmaz.Ve çift kayd olunmayanlar çiftliğe mâlik olsa resm-i çift alınır. Ve bu bâbda i'tibâr çiftlik mikdârına dâirdür.Ve çiftlikden ziyâde yer tutsa ziyâde tutduğun yerin resmin verür.Ve sipâhi çiftlik tutan hâric ra'iyyetden tamam çift resmin ve nîm çiftlik tutandan nısf resmin alub ve nısfdan ekall olan yerlerden ekinlü bennâk resmin alırlar.Ve bu zikr olunan dâhil ra'yyetedür. Hâric ra'iyyet dönüm hakkın verür. Eğer 'âlâ yer olup her yıl ekilürse iki dönüme bir akça ve eğer ednâ olursa üç dönüme bir akça alınmak kânûn-u kadîme mutâbıkdur. Zîrâ has yirden seksen dönüme ve mütevassıt olan yerden yüz dönüme ve ednâ yirden yüz otuz dönüme bir çiftlik i'tibâr olunur.Ve dönüm dahi hatavât-ı müte'ârefe ile tûlen ve arzen kırk hatve yerdür.Ve resm-i çift dahi Mard ayında alınır. Ve re'âya hâric kurâda ekdiği*

*mahsulden sipahi harman hakkı talep itmeyüp nesnelerin almayalar.Ve re'âyânın zirâ'ate kâbil yerlerinden bilâ-'özr üç yıl mütevâliyen boz kalsa tımara zarar olduğu takdirce def'i zarar içün sahibinün elinden alınub gayri kimesneye tapuya vermek câizdür. Ammâ dağ ve bayır yerler olup veyâhud su basmayup her yıl zirâ'ate kâbil olmayup boz kalsa alup gayre vermek memnu'dur.Ve ra'iyyetün çifti ve davarı maslahatı içün ve harman yeri içün bir kaç dönüm yer bırakup mer'a edinmek memnu' değildür.Ve kadîmü'z-zemândan şehirlinün ve ehl-i kurânun davarları örûsî içün ta'yîn olunan mer'alarınun ekilmesi ve kurutulması memnu'dur. Ve bağdan ve bağçeden behre alınmak kânûna ve şer'a mutâbıkdır. Ammâ re'âyânun bağ ve bağçelerinün behresin almakda sipahi tazyîk idüp mevsiminde almamağın re'ayanın def'i muzâyakaları içün behre mikdârına bedel ehl-i vukûf tahmîn-i sahîh ile bağ ve bağçelerine maktu' kayd olundu.Ve ra'aya zü'amâ ve sipahinün 'öşürlerin akreb-i bâzâra iletmek ve hâricden gelüp zirâ'at idenler köylerde olan anbara iletmek kanundur.Ve harman vaktinde re'ayanın gallâtı ta'şîr olunduktan sonrasâlâr olanlar tevakkuf göstermeyüp fi'l-hâl hâzır olan harmanı ta'şîr idüp te'hîr itmeyüp re'ayayı ta'cîz ve tazyîk itmeyeler.Ve eğer kesret-i hizmetden irişmeyüp veya ta'arruz veya ihmâl edüp üç gün te'hîr olmağla zarar mürettip olursa def'i zarar içün karyenin imamı ve kethüdâları ma'rifetleriyle ölçüp behresin alup sahibi gelicek teslim eyleyeler.Ve bir hassa çiftliği bağ değilse râbi' hâsılı sâhib-i tımarındur.*

*Fasıl: Resm-i Asiyâb, ekser memâlikde harman vaktinde alınmak kanun olmuşdur.Ve resm-i asiyâb defterde kayıd olunduğu üzere alınup ziyâde alınmaya ve defterde mukayyed olmayan asiyâbdan kaç ay yürürse ayda beş akça alına.*

*Fasıl: Kışlak, bir kimesne bir sipahinin tımarında kışlasa evlü olsa resm-i kışlak altı akça alına ve mücerret olsa resm-i duhân üç akça alına ve kışlayan kimesne dahi kışladığı yerde zirâ'at eder olsa resm-i zemîn verür, resm-i kışlak vermez.*

*Fasıl: Yerlüde resm-i ağnâm iki koyuna bir akçadur.Ve koyun ile kuzuyu bile sayılmak kânun olmışdur.Ve vilâyet-i mezbûre'de olan aşâyir ve kabâil mütemekkin oldukları karyelerde zirâ'at ve hırâset iderlerse resim ve behrelerin sâhib-i arza eda idüp temâm bâdıhevâ ve arûsiye ve âdet-i ağnâmları hâss-ı hümâyûna kayd olunmuşdur.Resm-i ağnâm dahi abril ayının evvelinde alınmak mukarrer olmuşdur.*

*Fasıl: Ağıl Resmi,kışladuği takdirce resm-i yatak deyûher sürüden mütevassıtu'l-hâl bir koyun alınmak kânûn-ı mukarrerdür. Lâkin vilâyet-i Revân'da ziyâdece alınır imiş gûde hakkı deyu kânûn-u kadîm üzre her sürüden mütevassıtu'l-hâl bir koyun alınmak üzredefter-i cedîde kayd olundu.*

*Fasıl: öşür-i aselden bedel-i 'âlâ kovandan iki akça ve ednâsından bir akça alına.Ve bir tımar ki kovan ve koyun, bağ ve bağça ve âsiyâb olmayub sonradan hâdis olsa öşür-ü rüsûmu sâhib-i tımara müte'allikdir.*

*Fasıl: Rüsûm-u 'Arûsâne dahî hâssa-i hümâyûndan ve mîr-i mîrân ve mirlivâ hâslarından ze'âmetlerden vesâyir serbest olan tımardan bâkire kızdan altmış ve yine avratdan otuz akça mezkûrun zâbıtları olup ve sâyir erbâb-ı tımarın nısf-ı arûsiyesin ağaları alup ve nısf-ı âhirîn mîr-i mîrâna kayd olunan mîr-i mîrâna ve mirlivâya ve ze'âmete kayd olınanı zâbitleri alırlar.Ve bâkire kızun arûsiyesin her ne yirden göçse atası kimin ra'iyyeti ise ana verir.Ve seyyibe avrat her kimin toprağında vâki' olursa resm-i arûsiyesin toprak ağası*

*alur. Yörük ve yüzdeci tâifesinün mekân-ı muayyeneleri olmadığı sebebden atasına tâbi'*

*olmakda bâkire ve seyyibe beraberdür.Zü'amâ ve erbâb-ı tımarın kızlarının resm-i arûsâneleri sancağa kayd olunan sancağa ve hâssa-i hümâyûna kayıd olınanı hâssa-i hümâyûna alınır.*
*Fasıl: Vilâyet-i mezbûrede 'abd-ı âbık ve kenîzek ve ecnâs-ı devvâb her kim tutarsa defter-i cedîdde kime mukayyed ise zâbitlerine götürüp müjdegânîsin alup teslim eyleye ve sâhipleri zâhir olmayıp müddet-i örfiyyesi tamâm olduktan sonra vilâyet kadısı ma'rifetiyle bey'-i men-yezîd idüp bahâsın zabt eyleyeler.Ve müddet-i örfiyye dahi kulda ve câriyede üç ay saklamakdır.Ve sâir esbâb ve kumaş ve halı ve kilim ve bunun emsâli nesneler bulsalar saklamayub teslim eyleyeler.Ve eğer saklarlar ise mücrim olalar.*
*Fasıl: Ve cerâyîm-i hayvânât dahî re'ayanın atı veyâhut sığırı ve bilcümle çâr-pâ cinsi biri birinün mezrû'âtına ziyanlık etse sahibinin zararı tazmin etdirüldükten sora davar sahibine baş değnek vurulup her davar başına beş akça cerîme alına ve sipahi ile re'aya mâbeyninde haneden haneye beş akça maktu' vaz' edüp deştbânî deyu nesnelerin almayalar.*
*Fasıl: Akmişe-i muhtelife ve emti'â-i mütenevvi'a satılsa yüz akçada iki akça ve ubûr etse at yükünden ikişer akça ve deve yükünden dört akça alına ve dahi baldan ve yağdan ve yaş ve kuru meyva cinsinden ve bastırmadan ve pirinçden her yükden ikişer akça ve kapanda vezn olsa at tayından bir akça ve deve tayından ikişer akça alına.Ve bilcümle kapanda tartılan bu üslub üzere alınup ziyâde nesne alınmaya.Ve esir satılsa dört akça alandan ve dört akça satandan alına.Ve her at bahâsından iki satandan ve iki akça alandan alına.Ve katırdan ve camusdan ve kara sığırdan dahi iki akça satandan iki akça alandan*
*alına.Ve hımârdan satandan ve alandan birer akça alına.Ve kasaphânede camusdan dört akça alınup kara sığırdan iki akça alına ve iki koyuna bir akça alına.*
*Fasıl: Kadı olanlar taht-ı kazâlarında vâki' olan keferenin âyîn-i bâtılaları üzre nikâhlarına ve resm-i kısmetlerine sağîr ve sağîre'den hilâf-ı kânûn-u kısmet deyu nesnelerin almayalar.Ve vilâyet-i mezbûrede ba'zı marhasalar vardır ki karabaş dimekle ma'rûflardur. Her birinin taht-ı yedlerinde birer vankı olup ol vank sebebi ile üzerlerine marhasa akçası deyu hâllü hâlince ber-vech-i maktû' birer mikdâr akça kayd olunup mîriyye ta'yîn olunduğu üzre eda eyledikten sonra mukâbilde ispençelerin vermeyüp âyîn-i bâtılaları üzre mâbeynlerinde vâki' olan rüsûm-u nikâhlarına ve betü'l-mâllerine ellerinde olan ahkâm-ı şerîfenin mûcib-i münîfi ile mutasarrıf olup kimesne mâni' olmaya ve mezkûrûn marhasalar vank'lerinde ekûp biçdikleri zemînlerinün behrelerin verirler.Ve vank'lerine müte'allik asiyâb ve bağ ve bağçelerinden resm ve behresin verir.*
*Fasıl: Bâc-ı bâzâr-ı galle buğday ve arpa şehre gelüp satılsa her müd'de buçuk kile alına ve sâir hubûbât dahi böyledir.Ve bâzâra un gelüp satılsa her yük altı kile olduğu takdirce satandan yükde iki akça alına.Ve müd'ün dahî haddi Istanbul'un yirmi kilesi bir müd'dür.Ve şehirde muhtesip olanlar şehirden hâric kurrâya çıkup ihtisâbına deyû kimesneden nesne almaya.*
*Fasıl: Vilâyet-i mezbûrede mecrî ve mütedâvil olan batman on iki nügî'dür.Ve her nügî iki yüz dirhemdür.Ve ihtisâbına dahî eksük satılan nesneden dirhem başına bir akça cerîme alınup ve narh verdükde ma'rifeti kadı ile narh verüp hizmet deyu nesne almayalar. Ve dirhem başına bir akça alınan cerîme dirhem ile satılur kıymetdârca olandandur.Ve şol nesne ki az kıymetlü olanun gibilerden ma'rifeti kadı ile satduği metâ'a göre alına.İncir ve üzüm ve erik ki kuru meyva cinsinden ve sâir yaş meyva cinsinden dahi bakkal niceye alursa ona bir üzre narh verile.*

*Ve arpa niceye alınırsa her müd'de beş akça ziyâdeye narh verile.Ve bal ve yağ ve şîr-rugan ve peynir ve düşâb ve sâyir bunun emsâli nesnelerden bakkal alur satar olursa onı onbir üzre narh verile.Ve kuzu eti ki iki yüz dirhem bir akçaya ola koyun eti iki yüz elli dirhem bir akçaya ola.Ve keçi eti üç yüz dirhem ve kara sığır eti üç yüz yetmiş beş dirhem ve su sığırı eti dört yüz dirhem narh verile.Ve sâyir ehl-i hırefün dahî vâki olan noksanın ve bilcümle ihtisâbına müte'allik umûru görüp şehirden gayri kur'âdan ihtisâbına deyû nesne alınmaya.*

*Fasıl: İhtisâb-ı vilâyet-i Revânda muhtesib olanlar olıgelmişe muhâlif meyvadan çeşni deyu tamğadan gayri bir mikdar meyva almayalar.Ve bâzâr ve gayri dükkanlara nevbet tutup kendü metâ'ın ziyâdeye füruht itdürüp vehabbâzlara un ve bakkallara acı yağ ve yaramaz bal ve hubûbat ve gayri tarh idüp te'addî etmeyeler. İhtisâbda kanûn-u kadîme ri'âyet olunup tecâvüz itdüklerinde hükkâm men' ve def' eyleye.*

*Fasıl: Asesiye, şehirde vaki' olan ehl-i mu'âmele dükkanlarından her ayda ikişer akça alına ve ehl-i hıref dükkanlarından birer akça alına ziyâde alınmaya. Ammâ zikr olunan ehli mu'âmele ve ehl-i hıref dükkanlarından âlâ ve evsât ve ednâ i'tibârı üzre te'azzül olunup cem'ul-meccâmi'inde ehl-i muâmele dükkanlarına her dükkan başına ikişer akça ehl-i hıref dükkanları başına birer akça hısâbı üzre alınup ziyâde alınmaya.*

*Fasıl: Kal'aların ve sancakbeylerinin yılda bir kaç def'â re'âyâ içine çıkup gezüp oğul everdünüz ve kız çıkardunuz ve bilcümle cem'iyyet eyledünüz bizim beşer akçamuz vardur deyu hilâf-ı kânûn nesnelerin alurlar imiş ve karye sâzendelerine dahî bizüm ma'rifetümüz yoğiken varup köylerde düğün çalarsuz deyu tutub cerîmelerler (alur)larimiş anlar dahi bed'i ma'rûfeden olmağın def' olundu. Min-ba'd etmeyeler.*

*Fasıl: Harâmiye ve uğrîye ve kanluya ve sâyir hırsızlara bi-hasebil-merâtib siyâset eylemek atlu sancağı beyinindir. Ammâ bir sebep ile şer'an ve 'örfen ve 'afv olsa bedel-i siyaset deyu akça alınması kânûn-ı kadîme muhâlifdir.Ve siyaset olan kimesnelerden cürm alınmak yokdur. Ammâ afvolunduğu takdirce cürümlük sâhib-i ra'iyyetindir. Cürm dahî bi-gayr-i hakk katl-i nefs iden kimesnenün a'lâsından dört yüz akça ve mütevassıtü'l-hâlden iki yüz akça ve ednâdan yüz akça ve zinâ iden evlü olursa a'lâ halliden üç yüz ve evsâtdan iki yüz elli ve ednâdan iki yüz ve zinâ iden eğer ergen olursa bu i'tibâr üzre iki yüz ve yüz elli (ve) yüz akça alına.Ve göz çıkaran ve el düşüren kimesneden cürm-i nefsden ve baş yarup söğün çıksa ve diş çıksa ve kılıç ile ve çomak ile ve bâkî âlât-ı harb ile mecrûh olub döşeğe düşse yüz akça ve bunlardan mâ-dûn cerîmiye ki ta'zîr ve te'dîp lâzım ola otuz akça ve kara bereden on akça cürm almak 'örf-i ma'rûfdur. Ve cürmî olan kimesne teftîş olunmadan ve yâhud üzerine zâhir olan şenâyi' yerine varmadın sancakbeyi ve sübaşıları ve âdemleri nesnelerin alup salıvermek memnu'dur.Ve illâ kendüleri mahall-i töhmet ve âdemleri mücrîm ve müstehakk-ı i'tâb olur.Ve her mücrimin ve müttehimin cerîmesi vilâyet kadısı katında veyâ müfettiş huzûrunda sâbit ve zâhir olmadan ehl-i 'örf tutup siyâset itmek şer'e ve kânûna muhâlifdir. Ammâ mücrîm ve müttehim olan kimesne mütemerrid ve mu'ânid olub mahkemeye gelmede imtinâ' eylerse bu takdîrce cebr ile mahkemeye getürmek memnû' değildür.*

*Fasıl: Vilâyet-i Revân'ın her karyenün hîn-i tahrîrde defter-i hâkânîye yazılmayup hâriç kalan re'âyâsının resmi yine karyeye mahsûb olup hâricdür deyu dâhil olunmaya. Ve köylerde sâkin olan Alpavud ve Türkmen ve Nöker tâ'ifesi dahî re'âyâ emsâli resm-i 'arûsâne ve bâd-ı hevâsının nısfı oturdukları karyeye mahsûbdur.Ve hâric müstakil kalem olmayup her karyenün sipâhîsi zapt ider.*







## ƏDƏBİYYAT


1. Rauf Məmmədov. Naxçıvan şəhərinin tarixi ocerki. Bakı: Elm nəşriyyatı, 1977, s.26-28
2. Fahrettin Kırzıoğlu. Osmanlılar'ın Kafkas Ellerini Fethi (1451-1490), T.T.K. Basımevi, Ankara1993, s.100-120
3. Vahid Çubuk. Solakzâde Tarihi, Kültür Bakanlığı Yayınları, Ankara 1989

4. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifi Z. Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, s.5.
5. Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası. B., 1994
6. Fahrettin M.Kirzioglu. Osmanlilarin Kafkas ellerini fethi (1451-1590), Ankara 1993
7. Hasan Babacan. 1590 (H.633) Tarihli Tahrir Defterine Göre Revan Kazası. Basılmamış Yüksek Lisans Tezi, Samsun 1994, s.10
8. B.Kutukoglu. Osmanli-İran siyasi münasebetleri (1578-1612), İstanbul, 1993
9. Hasan Babacan. “1590 Tarihinde Revan’ın Sosyal ve Ekonomik Yapısı”. SDÜ Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, Sa.1, Isparta 1995, s. 43-79

**Sevinc HÜSEYNOVA**
*Tarix üzrə fəlsəfə doktoru*
*AMEA Tarix İnstitutu*

# NAXÇIVANIN QƏDİM DÖVR HƏRB SƏNƏTİ

Bəşəriyyət yarandığı andan mübarizə şəraitində yaşayır. İlk əvvəl qida əldə etmək üçün təbiətlə mübarizə edən insan qida əldə etdikdən sonra onu bölmək üçün öz aralarında mübarizəyə başlayır və bu mübarizə zaman keçdikcə qəbilələr, tayfalar, xalqlar və millətlərarası müharibələrə çevrilir. Münaqişə və müharibələrə cəlb olunan insan hərb sənətini təkmilləşdirmək, yeni-yeni silah növləri ixtira etmək məcburiyyətində qalır. Beləliklə ilk dəfə daş silahlardan istifadə etməyə başlayan bəşəriyyət bu gün ən mükəmməl silahlara sahibdir.

Hələ daş dövründən ərazisində insanların məskunlaşdığı Naxçıvan tarixin bütün mərhələlərində hücumlara məruz qalmışdır. Bunun bir səbəbi bölgənin strateji mövqeyidirsə, digər səbəbi zəngin təbii sərvətləri və xammal resurslarıdır. Elə bu səbəbdən Naxçıvan tayfalarının hərb sənəti həmişə yüksək səviyyədə olmuşdur.

Hərb sənətinin təkamül və inkişafında əsas amillər sırasına insan resursları, silahlar və müdafiə qurğuları daxildir. Silahlar hücum və müdafiə silahları olaraq iki qrupa ayrılır.

Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı tapılan silahlar qədim hərb sənətini bərpa etməyə imkan verir. Naxçıvanın qədim dövr yaşayış məskənləri və qəbir abidələrindən tapılan silahlar ox ucları, xəncərlər, baltalar, nizələr və s.-dən ibarətdir. Ox uclarının ən qədimləri obsidian və çaxmaq daşlarından hazırlanmışlar. Erkən Tunc dövründə qanadlı, sonrakı mərhələdə isə saplaqlı ox ucları geniş yayılmışdır. Onlar Ovçulartəpəsi, I Maxta, II Kültəpə, Kolanı qədim yaşayış yerlərindən, Kolanı, Sarıdərə, Şahtaxtı, Mərdangöl, Plovdağ və s. nekropollardan məlumdurlar. Bu tip ox uclarından Erkən Dəmir dövrünədək istifadə edilmişdir. Naxçıvanda bu tip ox uclarının kifayət qədər tapılmasına baxmayaraq kaman əldə olunmamışdır. Kamanlar adətən ağacdan hazırlandıqlarından tez çürümüşlər. Lakin, Gəmiqaya təsvirlərində çoxsaylı ox və kaman təsvirləri bilavasitə tunc dövründə bu tip silahlardan geniş istifadə olunduğunu təsdiq edir. Həm də onlar uzaq məsafəli döyüş silahları olmuşdur. Ox uclarının yarımfabriakatlarına da rast gəlinməsi onların yerli istehsal olduqlarını təsdiq edir.

Son Tunc dövründə obsidian və çaxmaqdaşından olan ox ucları ilə yanaşı tuncdan hazırlanmışlarada rast gəlinir. Erkən dəmir dövründən isə onların dəmirdən hazırlanmışları geniş yayılır. Oğlanqala qazıntıları zamanı çoxsaylı dəmir ox ucları topa şəklində əldə edilmişdir. Şərur düzündən isə bir ədəd iskit tipli qanadlı ox ucu əldə edilmişdir.

Xəncərlər formalarına görə fərqlənirlər və Naxçıvan ərazisində əldə olunan ən çox silah növüdür. Onlar Qızılburun, Kolanı, Çalxanqala, Xalı Keşan, Haqqıxlıq, Qumluq, Boyəhməd, Qarabulaq Muncuqlutəpə və s. nekropollardan məlumdurlar. Xəncərlər əsasən tuncdan hazırlanmışlar. Lakin onların bəzilərinin müəyyən elementləri dəmirdən də olurdu. Formalarına görə xəncərlər bir neçə qrupa ayrılırlar. Onların ən sadələri yastı olub kiçik saplağa malikdirlər. Bəzilərində saplaq hissədə deşik açılmışdır. Çox güman ki, saplaqları ağacdan olmuşdur.

İkinci qrupa şəbəkəli başlıqları olan xəncərlər daxildirlər. Elmi ədəbiyyatda Xocalı-Gədəbəy tipli xəncərlər adını almış xəncərlərə daha çox Şahbuz bölgəsinin abidələrində rast gəlinir. Xəncərlər yaxın döyüş silahları olmuşlar. Onların bir qisminin hər iki tərəfində kanalvari xətt olur. Bu döyüş zamanı yaralanmış düşmənin tez qan itirməsini təmin etməli idi.

Xəncərlərin başqa bir qrupunu isə Ön Asiya tiplilər təşkil edirlər. Bu tip xəncərlərdən biri Qızılburun nekropolundan tapılmışdır. Xəncərlərin forma fərqlərinə baxmayaraq onların əldə olunduqları komplekslərin arxeoloji materialları yerli ənənələrlə bağlıdırlar və bu fakt bir daha sübut edir ki, xəncərlər yerli əhalinin silah növü olmuşdur. Qızılburun nekropolunun keramika məmulatı üzərində və Gəmiqaya təsvirlərində tez-tez xəncərli insan rəsmlərinə rast gəlinir.

Orta məsafəli döyüş silahlarından biri də nizə başlıqlarıdır. Onların ən qədimləri tuncdan hazırlanırdı. Dəmir dövrünün başlanması ilə onlarında müəyyən hissəsinin məhz bu metaldan hazırlanmasına başlanmışdır. Nizə başlıqlarının arxa hissələri silindrik boru formasında hazırlanırdı. Onlar Şahtaxtı, Yurdçu və s. abidələrdən məlumdurlar. Bu hissəyə ağac saplaq keçirilir və bərkidilirdi. Bəzən döyüşçü qəbirlərinin üzərinə məhz nizə sancılırdı.

Yaxın məsafəli döyüş silahlarından biri də baltalardır. Onların ən qədimləri daşlardan hazırlanırdı. Şərur rayonundakı Ovçulartəpəsi abidəsinin son eneolit təbəqəsindən təmizlənmiş küp qəbirdən üç ədəd balta tapılmışdır. Onlardan ikisi yastı, biri isə deşiklidir. Yastı tunc baltalardan biridə I Maxta İlk Tunc dövrü yaşayış yerindən tapılmışdır. I Maxta yaşayış yerindən yastı baltaların tökülməsi üçün hazırlanmış daş qəlibdə aşkar edilmişdir. Məhz bu fakt baltaların yerli və kütləvi istehsal olduğundan xəbər verir.

Naxçıvan ərazisində bilavasitə döyüşçülərə məxsus qəbirlərdə məlumdurlar. Son Tunc – Erkən Dəmir dövrünə aid bir sıra qəbirlərdə insan skeletinə rast gəlinmir. Bəzi nekropollarda (Kolanı) bu tip qəbirlər tək-tək olsa da Şərur düzündə öyrənilmiş Şahtaxtı, Qarabağlar, Qarabulaq, Zeyvə, Sədərək nekropollarında, ümumiyyətlə insan skeletinə rast gəlinmir. Tədqiqatçıların bir qrupu bu qəbirlərin döyüşçü qəbirləri olduğunu iddia edirlər. Onların kənarda döyüş zamanı həlak olduqları və vətənlərində şərəflərinə rəmzi qəbirlər ucaldıldığı bildirilir. Qarabulaq nekropolunda tədqiq edilmiş bir qəbirdən tunc xəncərlə yanaşı üzərində maraqlı piktoqrafik işarə cızılmış küp əldə edilmişdir. Abidənin tədqiqatçısı S.H.Aşurovun fikrincə küpün bir tərəfində sanki qarğı ata minmiş döyüşçü, digər tərəfində isə aypara həkk olunmuşdur. Qəbirdə insan skeletinə rast gəlinməsədə bir ədəd at skeleti təmizlənmişdir. Bu fakt və qəbirdəki qabların birinin içərisindən dəmir başlıqlı tunc xəncərin əldə olunması bir daha qəbirin döyüşçüyə məxsus olduğunu söyləməyə imkan verir.

Şahbuz rayonundakı Kolanı nekropolunda aparılan tədqiqatlar da hərb sənətini öyrənməyə imkan verən maraqlı faktlarla zəngindir. Belə ki, 7 saylı qəbirdə kameranın yan daşlarından birinin üzərində sxematik təsvir verilmişdir. Burada sxematik atlı təsviri çəkilmişdir.

Başqa bir qəbirdə isə maraqlı dəfn adəti izlənilmişdir. Qəbirin təmizlənməsi zamanı məlum olmuşdur ki, burada skeletlər tam olmayıb yalnız kəllə sümüklərindən ibarətdir. İnsan kəllələri qəbirin bir tərəfində üst - üstə düzülmüşdür. Maraqlısı odur ki, hər bir kəllənin altında tunc xəncər yerləşdirilmişdir. Kolanı qəbirlərinin bir qismində insan skeletinin olmaması, başqa bir qismində isə kollektiv dəfn aparılması da bilavasitə onların döyüşçülərə məxsus olduğunu təsdiq edir.

Naxçıvan ərazisində qadın döyüşçü qəbirləri də tədqiq edilmişdir. Muncuqlutəpə nekropolundan məlum olan qəbir buna nümunədir. Bu fakt bir daha təsdiq edir ki, Tunc dövründə kişilərlə bərabər qadın döyüşçüləri də olmuşdur.

Son Tunc Və Erkən Dəmir dövründə ictimai və sosial təbəqələşmə ilə əlaqədar olaraq hərb sənətində mühüm irəliləyişlər baş verir. Bu özünü müdafiə qurğularının geniş yayılmasında bir daha təsdiq edir. Artıq bu dövrdə Naxçıvanın keçilməsi mümkün olan bütün çay vadilərinin önündə qalalar və ya müdafiə istehkamları inşa edilir. Qalaların bir qismi yadelli basqınlarından müvəqqəti qorunmaq üçün inşa edilmişdirsə, başqa bir qrupu daimi yaşayış məqsədi daşımışdır və hətta onların bir neçəsi zaman keçdikdən sonra qala şəhərlərə çevrilmişdir.

Qalaların böyük bir qrupu Naxçıvanın qərbində, Şərur düzündə inşa edilmişdir. Şərur düzü qərbdən təbii olaraq Araz çayı ilə əhatə olunmuşdur. Düzün başlanğıcı olan Vəli dağ silsiləsinin Araz çayına uzanan sonluğunda dəniz səviyyəsindən 1100 m yüksəklikdə Sədərək qalası ucaldılmışdır. Qala dağın ətəyindən başlayaraq dağın zirvəsinə doğru iki qat müdafiə divarları ilə əhatələnmişdir. Qalanın keçidlərinin kənarlarında və divarların təhlükəli yerlərində bürclər qurulmuşdur. Sədərək qalasındakı bürclər dördkünc formadadırlar. Bürclər bir və iki döyüşçünün dayanması üçün nəzərdə tutulmuşdur. Qalanın daha hündür hissəsində qurulmuş daha iri həcmli bürc keşikçi məntəqəsi rolunu oynamışdır.

Qalaların böyük bir qrupu Arpaçay vadisində qurulmuşdur. Bunlar Oğlanqala, I və II Qızqala, Qarasu qalası, Böyük qala, Kiçik qala və vadinin girişinin sağ və sol tərəflərində qurulmuş müdafiə istehkamlarından ibarətdirlər. Oğlanqala bu qalalar içərisində istər əhatə etdiyi sahə ilə və istərsə də möhtəşəmliyi ilə fərqlənir. Burada divarlar dağın ətəklərindən başlayaraq 7 cərgə qurulmuşdur. Oğlanqalanın birinci müdafiə divarının iki yerində qoşa yarımdairəvi bürc qurulmuşdur. İstər bürclərin formasına və istərsə də tikinti texnikasına görə Oğlanqala bürclərinin analogiyası məlum deyildir. Digər divarlarda bürclər olmasa da rizalit formasında qurulmuş divarlar müdafiəni asanlaşdırır. Maraqlıdır ki, Oğlanqala Sədərək qalasından görünüş məsafəsindədir. Arpaçay vadisində qurulmuş qalalar da bir - birindən görünür. Bu fakt bir daha bu qalalar arasında bir bağlantı olduğunu təsdiq edir.

I Qızqalanın tikinti xüsusiyyətlərində diqqəti cəlb edən fakt dağın ətəklərində təbii bir konyondan başlayaraq qalanın birinci müdafiə divarına doğru uzanan istehkamın qurulmasıdır. Bu sədd cənubdan olan təhlükədən qorunmaq üçün olmaqla yanaşı, eyni zamanda qalaya qalxıb-enmənin təhlükəsizliyini təmin etmişdir.

I Qızqaladan Arpaçayın mənbəyinə doğru II Qızqala və Qarasu qalaları yerləşir.

Şərur düzünün Qıvraq yaylasına birləşdiyi hissədə isə Qarabağlar və Şahtaxtı Gövurqalaları yerləşir. Naxçıvanın Çalxanqala və Qazançı qalalarının inşası özündə Son Tunc-Erkən Dəmir dövrü eyni tipli tikililərin ümumi xüsusiyyətlərini əks etdirməklə yanaşı, bir sıra özünəməxsus xüsusiyyətlər daşıyırlar ki, bunlar da əsasən qalaların yerləşdiyi coğrafi mövqe ilə bağlıdırlar.

Naxçıvan ərazisində tədqiq edilmiş qalaların müdafiə divarlarının hamısının aşağı qatları iri və orta ölçülü daşlardan qurulmuşlar. Onların yuxarısı isə çiy kərpiclərlə tamamlanmışdır. Oğlanqala qazıntıları bu faktı təsdiq etmişdir. Bu divarlar onların arxasında döyüşçülərin sərbəst hərəkətini və müdafiə olunmasını təmin etmişdir. Qurşağadək divarlarla müdafiə olunan döyüşçülər bədənin yuxarı hissəsini digər vasitələrlə qoruya bilmişlər. Bu formada müdafiə üsulları demək olar ki, Ön Asiyanın

bütün qala tipli məskənlərində özünü göstərir. Məhz bu xüsusiyyətlərinə görə Ə.Ələkbərov Oğlanqalanı Assuriya qalaları ilə müqayisə etmişdir.

E.ə. II minilliyin sonları və I minilliyin əvvəllərində Ön Asiyada bir sıra güclü quldar dövlətlər yaranır. Təbii ki, Naxçıvan torpaqları bu quldar dövlətlərin diqqətini cəlb etməyə bilməzdi. Xüsusən Urartu təsiri istisna edilmir. Qərbi Azərbaycan ərazisindən keçərək Gürcüstan istiqamətində işğalçı yürüşlərini davam etdirən Urartuların Naxçıvanı işğal etmələri faktı təsdiq olunmayıbdır. Naxçıvan ərazisində aparılmış tədqiqatlar Urartularla Naxçıvan tayfaları arasında yalnız iqtisadi əlaqələrin mövcud olduğunu təsdiq edir. Urartuların Naxçıvan ərazisinə keçə bilməməsinin əsas səbəbi isə məhz bu bölgədə yaşayan insanların yüksək hərb sənəti, birliyi və güclü təşkilatlanma bacarıqları olmuşdur.

Naxçıvan tayfalarının qədim dövrlərdən formalaşmağa başlamış hərb sənəti ənənəvi şəkildə davam etmişdir və təsadüfi deyildir ki, orta əsrlərin ən böyük fatehi Əmir Teymur Əlincə qalasını 14 il mühasirədə saxlasa da onu tuta bilməmişdir. Sonrakı tarixi mərhələlərdə ruslar tərəfindən Naxçıvan xanlığının son olaraq işğal edilməsi, XX əsr boyu ermənilərin dəfələrlə Naxçıvana hücum edərək məğlub olmaları da Naxçıvan ərazisində hərb sənətinin qədim və mükəmməl köklərlə bağlı olduğunu təsdiq edir.

## ƏDƏBİYYAT


1. Aşurov S.H. Maxta qədim yaşayış yeri. “Elm və həyat” jurnalı, 1988, № 4, s.23.
2. Aşurov S.H.Naxçıvanda arxeoloji tədqiqatlar (2001-2002-ci illər). Bakı, 2003.
3. Aşurov S.H. Maxta Qarabulaq kurqanları. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, 2004, № 1, s.53-64.
4. Aşurov S.H. Naxçıvanın tunc dövrü qəbir abidələri və dəfn adəti haqqında. “Azərbaycan arxeologiyası” jurnalı. 2004, 1-4, s.19-23.
5. Aşurov S.H., Lauren Ristvet, Hüseynova S. Şərur düzündə son tunc-erkən dəmir dövrü abidələri. Antik və orta əsr Azərbaycan şəhərləri: Arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları. Bakı 2012, s122-134.
6. Aşurov S.H.,Baxşəliyev V.B., Hüseynova S.H., Əliyeva F.A., Əliyev O.K. I Maxta qədim yaşayış yerində 2010-cu il qazıntıları. Azərbaycanda arxeoloji tədqiqatlar 2010. Bakı, 2011.
7. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı, 2004.
8. Baxşəliyev V., L.Ristvet, H.Gopnik, Aşurov S.. Oğlanqalada yeni araşdırmalar. Azərbaycanda arxeoloji tədqiqatlar 2009, Bakı 2010.
9. Əliyev V.H. Gəmiqaya. Bakı, 2005.
10. Seyidov A.Q. Naxçıvan e.ə.VII-II minilliklərdə. Bakı, 2003.
11. Müseyibli N.Ə. Gəmiqaya. Bakı, 2004.
12. Агаев Г.Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку-Москва,2002.
13. Археология Украинской ССР. Киев, 1985, т.1.
14. Арциховский В.В. Основы археологии. Москва, 1954.
15. Г.Асланов, Б.Ибрагимли, С.Кашкай. Древние некрополи Хараба-Гилана. Баку,2002.
16. В.Г.Алиев. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
17. Бахшалиев В.Б., Сеидов А.Г., Бабайев В.М. Археологические памятники Кыврагского плоскогорья. Баку 1995.

18. Керимов В.Г. Оборонительные сооружения Азербайджана. Баку, 1998.
19. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. Москва, 1977.
20. Veli Bakhshaliyev, Catherine Marro. The Archaelogy of Nakhichevan ten years of new discoveries. Istanbul 2009.
21. Volfram Nagel, Yeva Şrommenger. Qalakənd. Bakı, 1999.
22. Marro C., Bakhsaliyev V., Ashurov S. Excavations at Ovcular tepesi (Nakhchivan Azerbaijan). Second preliminary report: The 2009-2010 seasons // Anatolia Antiqua XIX, Paris 2011, page. 53-100.
23. Parker B.J., Ristvet L., Baxshaliyev V., Ashurov S.. The Naxcivan archaeological project survey: preliminary results. Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı, 2009.
24. L.Ristvet, H.Gopnik, V.Bakhshaliyev, H.Lau, S.Ashurov, R.Bryant. – On the Edge of Empire: 2008 and 2009 Excavations at Oglanqala, Azerbaijan. American Journal of Archaeology. Vol.116. No.2, Pp.321-362.



1.



2.



3.



4.



5.



6.



7. 8.



9.



10.

92



11.



12.



13.

Şəkil I. 1-4 – obsidian ox ucları, 5-13 – tunc və dəmir ox ucları



1. Dəmir ox ucları




2. 3. 4. 5. 6.

Şəkil II. 1 – dəmir ox ucları, 2 - 6 xəncərlər




1. 2. 3. 4. 5.



6. 7. 8. 9.

Şəkil III. 1-9 xəncərlər



1. 2. 3. 4. 5.





6. 7.

Şəkil IV. 1-5 – Xəncərlər, 6-Gəmiqaya təsviri, 7-Qızılburun boyalı qabı





1. 2.




3. 4. 5. 6. 7.

Şəkil V. 1- I Maxtadan daş qəlib, 2 – Ovçulartəpəsinin miss baltaları, 3-7 – Nizə başlıqları



1.



2.





3. 4.

Şəkil VI. 1-3 – Qarabulaq kurqanı, 4 – Kolanı daş qutu qəbirinin yan daşı



*Oğlanqalanın qala divarları*



*Oğlanqalanın qala bürcləri*




*Qızqala I*



*Qızqala II*



*Qarasu qalası*



*Qarabağlar govurqalası*

**Firudin RZAYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Naxçıvan Bölməsi*

## QƏDİM NAXÇIVANIN MESOPOTAMİYA İLƏ ETNOGENETİK ƏLAQƏLƏRİ (M.Ö. VI-III MİNİLLİKLƏRƏ AİD NAXÇIVAN OYKONİMLƏRİ ƏSASINDA)

Heyrətamiz qədim mədəniyyətə malik olan Naxçıvan ərazisi istər arxeoloji, istər adlardakı mifik işarələr, istərsə də qədim etnogenezi baxımından tədqiqatçıları heyrətləndirməkdədir. Naxçıvanın ən qədim sivilizasiya mərkəzlərindən biri kimi öz maddi-mədəniyyət nümunələri ilə dünya tarixşünaslığının bəzi yanlış məqamlarına aydınlıq gətirməsi, uzun illər bu istiqamətdə çalışan görkəmli arxeoloqlarımız O.Həbibullayev, V.Əliyev, V.Baxşəliyev, Ə.Novruzlu, S.Aşurov, Q.Seyidov, B.İbrahimov və başqalarının qazıntılardan əldə etdiyi maddi mədəniyyət nümunələri ilə də təsdiq olunur (2, s. 10; 9, s. 11; 44, s. 9-11; 35, s. 5, 42, 60; 36, s. 77; 14, s. 21, 75).

Xüsusi olaraq qeyd edək ki, təkcə son dövrlər Naxçıvanda A.Seyidov, V.Baxşəliyev, S.Məmmədov S.Aşurov Amerika və Fransa arxeoloji heyətinin Qazma mağarası, Oğlanqala, Ovçular təpəsi, I Kültəpə, Xələc, Maxta və s. ərazilərdə apardıqları tədqiqatlardan əldə olunan maddi-mədəniyyət nümunələrinin m.ö. V-IV minilliyə aidliyi, bununla bağlı bütün elm sahələrinin iştirakçılarının gəldiyi elmi nəticələr bu qədimliyi yekdilliklə təsdiq etmişdir (42, s. 11-16, 41, 73-74). Bu faktorlar məhz qədim ərazinin böyük sivilizasiya mərkəzi, eyni dildə danışan tayfa birliklərinin yaratdığı mədəniyyət məkanı olduğunu, bu sivilizasiyanın m.ö. VI-III minilliklər Mesopotamiya mədəniyyəti ilə ortaqlığını sübut edir. Bundan başqa arxiv sənədlərində hələ də izlərini itirməyən ərazidəki minlərlə məntəqə adının prototürk dilində olması, ərazidəki mədəniyyətin prototürk- proto Azərbaycan mədəniyyəti olduğuna danılmaz tarixi faktdır.

Heç təsadüfi deyil ki, qədim qaynaqlar məhz Naxçıvanda bu qədim mədəniyyəti yaxından izləməklə şəhəri bəşərin beşiyi kimi qiymətləndirmiş, məhz bu amillərə görə də I əsrin əvvəllərində yəhudi tarixçisi İosif Flavi Naxçıvanı bəşər nəslinin ilk beşiyi hesab etməklə, bu ərazini Nuhun saldığı ilk şəhər kimi təqdim etmişdir (17, s. 14). Daha sonra m.ö. II əsrdə K.Ptolomey "Coğrafiya" kitabında Naxçıvanı Cənubi Qafqazın ən böyük şəhəri kimi "Naksuana" şəklində göstərməklə onu təkcə Qafqazın deyil, bütün Şərqin ən böyük şəhərlərindən biri kimi dəyərləndirmişdir (12, s. 10-12). Bunun davamı olaraq biz m.ö. VI əsr Qafqazdakı hadisələrindən bəhs edən M.Xorenski, F.Buzənd və Eqişenin yazılarında (13, s. 67-69; 21, s. 133-135), V-VII əsr gürcü mənbələrində də bu ərazinin qədim bir türk yurdu olması faktları ilə qarşılaşırıq (8, s. 20-24).

Sonralar ərəb-fars müəlliflərindən Əl-Balazuri, İbn əl-Fəqih, Qudama ibn Cəfər, Həmdullah Qəzvini və digərlərinin əsərlərində "Nəşəva", "Nəxcəvan", "Nəqşi-cahan" və s. kimi düşən Naxçıvan, türk-Azərbaycan şəhəri təqdim olunmuşdur (30, s. 23; 8 s. 31). Ad "Naxçivan", "Nəqsuan", yazılışları ilə İbn Xordadbeh və Şihabəddin Məhəmməd ən-Nəsəvinin də yazılarında qeydə alınmış (15, s.120-124; 49, s. 164), bu şəhərin qədimliyi, böyük mədəniyyət mərkəzlərindən biri olması fikri Əbd ər- Rəşid əl-Bakuvinin yazılarında da geniş yer almışdır (1, s. 21, 49, 75).

Bütün bunlara baxmayaraq qədim Naxçıvanın İkiçayarası-Mesopotamiya mədəniyyəti ilə hər hansı bir bağlılığı olması məsələsinin tədqiqi də bu gün aktual

məsələlərdən biri olaraq qalmaqdadır. Qədim Naxçıvanın Mesopotamiya ilə bağlılığını təsdiq edən hər hansı bir tarixi fakt, amil, işarə mövcuddurmu? Bu suala aydınlıq gətirmək üçün bəzi tarixi müqayisəli təhlillərə nəzər salmaq istərdik.

Qədim Şumer dastanı "Bilqamıs"da adı çəkilən xeyli sayda yer, tanrı adlarının Naxçıvan ərazisində təkrarı bir təsadüfdürmü? Gəmiqayaya ekspedisiya zamanı ərazinin toponimik sistemi tərəfimizdən tədqiq edilərkən buradakı adların qədim şumer dastanındakı adları təkrarladığını görürük. Rəsmli daşlar ərazisindəki Nuhla bağlı xeyli sayda tarixi məlumat, eləcə də Nuhla bağlı Nəbi yurdu, Qaranquş yaylağı, Qəzər yurdu, Nisir dağı və Nəsirvaz zirvəsi, Kudur Enlil tanrı adı və Qudu yurdu, Bilqamıs dastan adı və Bilbil yer, İrnini tanrı məkanı və Nəbi yurdunda İrni yer adı, dastanda Saria dağ adı və ərazidə Sarı dağ kimi adlar "Bilqamıs" dastanındakı adların təkrarı bir təsadüfmü? (bax, 3, s. 42, 44, 90 və s.). Əlbəttə ki, bu qədər təsadüf olmur və heç şübhəsiz adlar bu mədəniyyətlərin bağlılığından xəbər verməklə, bu əski mədəniyyətlərdə eyniliyin-həqiqətin tarixi izlərini qoruyur. Əgər adların şumerlərdəki tarixi nəzərə alınarsa, qədim Naxçıvanın adlar tarixinin m.ö. VI minilliyə söykənməsi ərazi mədəniyyətinin 8 min illik tarixini təsdiq edir.

Bundan başqa biz qədim Dəclə və Fərat çaylarının yuxarı axarlarında əski prototürklərin məskunlaşdığına dair xeyli tarixi məlumatlarla rastlaşırıq. Burada Hürri, Kuti, Lulubəy, Türk-Türük, Kaşşu, Şu, Şubar/Subar Koman və b., prototürk boylarının inancı ilə bağlı An/Anu, Kiur, Kaşşu, Harbe, Nuh/Nax, Tal, Kamulda, Şuxi, Şar, Sax kimi tanrı adlarını izləyirik (23, II 23; 25, c. 84; 52,I, s. 316, 379, 448, 457, 515; 54, s. 304-305). Bu tanrı adları sonralar prototürk boylarının adlanmasında-nominasiyasında KAŞŞU- Kas+it, Kaş+key, HARBE-Hürri, ŞUXI- Şu, Şubar, KAMULDA -Kom+an, SAX- Sak, İMMİRİYA- Kimmer/Kimmeriya, NUH- Nax şəkillərində tayfa adlarına teofor adlar kim adlamışdır.

Bu yöndən aparılmış araşdırmalar belə türk tayfa adlarının əsasən teofor adlardan-Tanrı adlarından yarandığını və mifik inanclarla bağlı olmaqla ümumtürk arealında yayıldığını da sübut edir. Əski prototürk boylarında Tanrı adlarının o dövrkü tayfa və antroponimik- şəxs adlarının yaranmasında xüsusi rolu olması qaynaqların məlumatları ilə də təsdiq olunur. Əgər yadımıza salsaq Şumer türklərinin tanrıları An-Anu, Enlil, Huma, Şar, Luma, Şumukan və b. (3, s. 12, 15, 56-58) sonralar bu xalqın Şu, Kuti, Lulubəy, Türükkü, Kassit tayfa adlarında, daha sonra isə onların varisləri Kimmer, Şirak və b. prototürk boylarının Saralqab, Elilumeş, Kadaşman Harbe, Kudur Enlil kimi çar adlarında təkrarlanmışdır (6, s. 128; 24, s. 50-51, 61). Şumerlərdə Huma tanrı adı Altay türklərinə Umay şəklində, Şar tanrı adı taras, buryat, hunqar-macar miflərinə Şara-Tanqa, Şarkan, Ki tanrı adı isə yunan və slavyan miflərinə Kiy, Kibela kimi müqəddəs adlarda təkrarlanmışdır (30,. t. I s. 647-648; 31, t. II, s. 640).

Bəs Naxçıvan coğrafi adlar sistemində də bu teofor adlardan yaranmış adlar mövcuddurmu?

Qədim Naxçıvan ərazisinin toponimik adlar sistemində biz tanrı adlarının bir qisminin də məntəqə-oykonim və dağ, düzən və s. adlarda da təkrarlandığını görürük. Kiur tanrı adı və Kıır+na-"Kiur tanrısının verdiyi" məntəqə adı, An/Anu tanrı adı və İl+An -"Anu yurdu" dağ adı, Tork tanrı adı və Tərək məntəqə adı, Tal tanrı adı və Tal+in- "Tal yurdu", İmmer tanrı adı və Gümür məntəqə adı, Sax tanrı adı və Sak+uz- "İşıqlı Sak" məntəqə adı, Şuxi tanrı adı və Şuxyu məntəqə adı kimi yüzlərlə ad (ətraflı bax 19, s. 164-183) təbii ki, təsadüf deyil, bir tarixi yaddaşdır. Bu cür teofor adlar arxiv sənədləri və 1590-1728-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri" və "Naxçıvan

sancağının müfəssəl dəftəri" kitablarında yüzlərlədir. Əgər diqqət etsək bu adlar həm mifik inanc daşıyıcısı, həm tayfa adı, həm dil təkamülünün izləri, həm də etnooykonim adları baxımından əsl tarixi mənbədir. İstər bu qədim türk tanrı adlarının Naxçıvan coğrafi adlar sistemində təkrarı, istərsə də bu adları daşıyan tayfaların 300-dən yuxarı oykonimə öz adlarını verməsi uzaq bir tarixdə Mesopotamiya və Naxçıvan etnogenetik əlaqələrinin tarixi izlərindən söz açır.

Bəs tarixi qaynaqlarda özünə yer almış As, Hürri, Kuti, Naxər, Lulubəy, Türük, Kaşşu, Şu, Subar, Koman, Tal və b. prototürk boylarının Naxçıvan ərazisində məskun olduqlarını təsdiq edən tarixi faktlar mövcuddurmu?

Biz Naxçıvan məntəqə adları-oykonimik sistemində bu tayfaların adı ilə bağlı xeyli sayda adlara rast gəlirik. Məqalə həcmini nəzərə alaraq biz bir qisim Naxçıvan və Mesopotamiya etnogenetik əlaqələrini təsdiq edən tayfalar haqqında da qısaca məlumat verməyi lazım bilirik.

Azərbaycan xalqının etnogenezinin formalaşmasında xüsusi yeri olmaqla bu xalqın adına Asər-Azər yazılışında öz adını verən qədim türk boyları AS TÜRKLƏRİ olmuşdur. Əski yazı nümunələri ilə məşğul olmaqla bunların gözəl bilicilərindən sayılan İoqaness Fridrixin yazılarında bu prototürklər əlifbaya sahib ilk xalqlardan biri kimi göstərilir. O, Turdetan sözünün izahı zamanı bu sözü Tört As kimi göstərir və onların əlifba tarixini m.ö. VI minilliyə aid edir (16, c.119). Eyni məlumatlar Strabonun "Coğrafiya" kitabında da qeydə alınır. Turdi türklərinin ölkəsindən danışmaqla onları həm də "Tartes" adlandıran Strabon, İspaniyada da "Tartes" şəhər adını göstərməklə onun əhalisinin də "tartes" adlandığını qeyd edir. O Turdetaniya ölkəsindəki "Tartes" sözünü Tört As-Dörd As kimi qədim xalq olaraq göstərməklə, onların m.ö. VI minillikdə əlifbaya sahib olduqlarını və bunun ən qədim əlifba olduğunu qeyd edir. Daha bir məlumatında (47, s. 137-138) As əlifbası yazı işarələrinə gəldikdə isə, bu işarələrin Finikiya, latın, gürcü, və başqa xalqların yazı sistemi ilə müqayisəsi əlifba işarələrin adı çəkilən xalqların yazı işarətlərinin də formalaşmasına təsir etdiyini göstərir. Əlimizdə olan bu əlifba sisteminə daxil olan işarələr Qobustan, Kəlbəcər, Pirallahı, Təbriz, Nüvədi, Gəmiqaya və başqa ərazilərimizdən tapılan yazı işarələrində də öz əksini tapmaqdadır (10, s. 18). Nüvədi isə bildiyimiz kimi Naxçıvanın Şorlut nahiyəsinə daxil idi və 1920-ci ilə qədər bu tərkibdə qalmışdır (19, s. 179). Deməli Asərlər-Azərlərin əlifbası Naxçıvan ərazisində də mövcud olmuşdur.

Bundan başqa biz asları m.ö. III minilliyin əvvəllərində Dəclə və Fəratın yuxarı axarlarında indiki Anadolunun-Kiçik Asiyanın şimalında da görürük. "Ümumdünya tarixi" bu ərazidə Assuva- As oba əyalət adını qeyd edir. Misir salnamələri m.ö. II minillikdə bu tayfaların Misiri işğal etdiyini, onları 100 ildən artıq idarə etdiklərini Manefonun onları Qiksos-(Gök As -F.R.) adlandırdığı haqqında da məlumat verir (52, t.I, s. 286, 381). Biz tarixdən türklərin Göy tanrısına inancı ilə bağlı özlərini Gök Türk adlandırdıqlarını görürük və Qiksos sözü də Gök As yazılışında bu inancdan irəli gəlirdi.

Bu tayfaların qədim Azərbaycan və Naxçıvan ərazisində avtoxton- ilk sakinlər (37, s. 21) olduğu istər tarixi, istər dil faktları, istərsə də Azıq "As övladları" və Asafkəf "As yurdunun evi" mağara adları ilə təsdiq olunur. Təkcə qədim Naxçıvana dair arxiv sənədləri və qaynaqlardakı Asayaş, Asti, Azad, Aza, Azərku, Asak, Asqəmər, Asni, Astabad, Araz, Azadciran, Azadkənd, Asnabert, Ərdalas, Azadək, Batevas kimi 45 məntəqə adı və 100-dən yuxarı toponimik adlar (32, s. 25-36; 33, s. 35, 45-46) Azərbaycanın bir parçası olan bu ərazidə onların yerli xalqlar olduğunu təsdiq edir.

Ayrıca bu tayfalar haqqında yazdığımız məqalədə onlarla bağlı daha geniş məlumat vermişik (39, s.132-136).

Naxçıvan ərazisində məskun olmaqla Mesopotamiyada da tarixi proseslərə qoşulan qədim prototürk TÜRÜKKÜ və ŞU boylarının ittifaqı da bu əlaqələri təsdiq edən tarixi faktlardır. Bütün türk tayfalarını öz adı altında birləşdirməklə tarixə TÜRK möhürünü vurmaqla Azərbaycan xalqının, o cümlədən də Naxçıvan əhalisinin etnik tərkibinin formalaşması və bütöv xalq kimi təşəkkülündə iştirakı olmuş xeyli sayda prototürk boylarından biri də Turukku-türk tayfaları olmuşdur. Qədim şərq tarixini mənbələr əsasında araşdıran Y.Yusifovun tədqiqatlarında bu prototürklərin həm ərazisi, həm də tarixi haqqında ətraflı elmi məlumatlara rast gəlirik. O, m.ö. III minillikdə yaranmış qədim Aratta türk-Azərbaycan dövlətinin siyasi tarixini şərh edərkən onun etnogenezində şu/su, kuti, lulubilərlə yanaşı türükküləri xüsusi qeyd etməklə onların dil yaxınlığından da bəhs etmişdir (55, s. 33-38). F.Ağasıoğlu burada türk adının fonetik oxunuşunun tu-ru-ki olduğunu, assuroloqların isə onu Turukku şəklində transkripsiya edərək Assur ləhcəsinə uyğun geminat (qoşa) samitlə oxunduğunu yazmışdır. Müəllif, bu adın Adadnerari (XIV əsr) yazısında da Turuki ölkəsinin tu-ru-ki-i şəklində qeyd olunduğunu, bu səhvin alman aliminin dərsliyində də Tu-ru-ku-tum şəklində özünü göstərdiyini qeyd edərək 25 №-li tabletin 9 və 10-cu sətirlərinin (9) Li-da-a-ia awilum Tu-ru-ku-u, (10) u awilum Tu-ru-ku-u şa it-ti-şu şəklində türklərə aid olduğunu qeyd edir (11, s. 40-46). Miladdan öncə III minilliyə aid Akkad çarı Naram Sinin yazılarını təhlil edən Luis Delaporte və N.Q.Quterbok bu yazılarda tourki və turki tayfa adlarını oxuyurlar. Qədim Assurların m.ö. II minilliyə aid yazılarını təhlil edən Q.Dossi və C.F.Çarls isə, bu yazılarda Turukku boy adını aşkar edirlər. I Adadnerarinin yazılarında da adı keçən turukku boyları kassit, kuti, lulubilərlə bərabər siyasi hadisələrdə iştirak edirlər (52, t.I, s. 319). Tarixi Assur yazıları və qaynaqlar Urmiyanın cənubunda bu prototürklərin qədim "Turukki ölkəsi" olduğunu, Assur hökmdarı I Şamşi-Adadın isə Tukriş (Türkeş -F.R) ölkəsindən xərac aldığını yazır (54, s. 254). Beləliklə tarixdə Turukki, Tukriş ölkəsi adında iki ölkə göstərilir və hər iki ölkə Urmiya gölünün cənub sərhəddi ilə Mesopotamiyanın şimalında əski Mitan türk dövləti sərhədləri arasında göstərilir. İ.M.Dyakonov onları türk qəbul etməsə də bu tayfaların tarixinin Aratta, Kuti- Lulubi dövlətləri ilə sıx bağlı olduğunu yazır (5, s. 265-266). Onlar tarixi proseslərdə kuti, lulubi, şu, su (suv), subar türk boyları ilə ittifaqında Şuşşara uğrunda Assurlara qarşı birgə mübarizə aparırdılar. Bu ölkə əvvəllər türk Mitan dövlətinin tərkibində olmuşdur. Şuşarra hakimi I İşme-Daqan Assur çarına yazdığı məktubunda "su-turukkilərin böyük güc olduqlarını, bu bölgələrdə onlara nəzarət edə bilmədiklərini" qeyd edir. Lakin 1307-1275-ci illərdə turukki, kuti, lulubi və şubarlarla (subərlərlə) döyüşən Assur çarı I Adadnirari döyüşdə onları məğlub edərək bu tayfaları assurların təsiri altına salır. Bütün bunlar haqqında Y.B.Yusifov, R.Məmmədov, V.V.Struve, İ.M.Lure və başqalarının yazıları, eləcə də "Dünya tarixi" kitabı ətraflı məlumat verir (52, t.I, s. 314-318; 54, s. 254, 304-305; 30, s. 45-75; 48, c. 63-81; 26, s. 9-18). Qədim şumerlərlə bağlı bir sıra məlumatlarda m.ö. 2093-2046-cı illərin axırıncı Şumer dövləti Ur sülaləsində onların varislərindən biri olan Şulgi onun varisi isə Şu-Sin ("şöhrətli Şu"- F.R.) haqqında bilgi verilir. Bəzi qaynaqlar isə m.ö. III minillikdə (m.ö.2003-cü ildə) Ur sülaləsi zəiflədikdən sonra bu ərazilərə və Ur şəhərinə elamlıların, eləcə də Turuk və Su tayfalarının hücumu haqqında məlumat verir (52, t. I, s. 219; 54, s. 89-91). Heç şübhə yoxdur ki, bu məlumat istər Türk-Turuk, istərsə də Su/Şu boylarının bir dövlət halında, güclü bir tayfa birliyi olmalarını göstərən əsaslı faktorlardan biri sayıla

bilər. Eradan əvvəl V minillikdən bütöv Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan ərazisində məskunlaşmış bu boyların izləri 1590-1728-ci ilin məlumatlarında keçmiş Əlincə, Şürəgel, Zebil, Talin və s. nahiyələrdə Terekevi, Tirkeş, Türkan (2 kənd), Türküt, Türkəlı, Tərəkə, Şükar, Suvralı, Subərçi, Suyu, Subarton (cəmi 53 məntəqə adı) kimi məntəqə adlarında qalmaqdadır (19, s. 124, 168, 179, 182; 32, s. 27, 32). Bu prototürklərlə bağlı 53 məntəqə adı yəqin ki zahiri oxşarlıq deyil ərazilərin tarixi bağlılığı və mədəniyyətlərin eyni tayfalar tərəfindən yaradıldığının tarixi sübutlarıdır.

Ərazinin hər iki mədəniyyət və tarixi proseslərində fəal iştirakı olmuş tayfalarından biri də NAXƏR türkləridir. Onların ölkəsinin adı NAXARain yazılışında m.ö. XVI əsrdə, Misir fironu III Tutmosun dövründə (m.ö. 1504-cü il) tarixi siyasi hadisələrlə bağlı yazılmış salnamələrdə çəkilir. Naxərlərin tarixi proseslərdə iştirakı Misir fironu III Tutmosun salnaməsində xüsusi olaraq: "O, mənfur Kadeşli rəqib, keçmişdə Misirə itaət edən bütün ölkələrin hakimlərini öz ətrafına toplamışdır. Hamını-Naxarinadan (Mitan ölkəsi) tutmuş ta Suriyaya kimi…", - kimi qeyd edilir (52, t. I, s. 314-318, 344-346; 54, s. 174). Mesopatomiyanın bütün ərazilərində, Mitan, Şuşarra, Aratta, Kuti, Lulubi dövlətlərindəki prototürk- protoazərbaycan quti, lulubi, su-şu, hürrü, subar, türükkü və b. boylarla birgə tarixi proseslərə qatılan Naxər boyları Urmiya gölü, Araz hövzəsi, Dəclə və Fəratın yuxarı axarları, Van gölü ətrafında qarşısı alınmayan güclü tayfa birliyi kimi qaynaqlara düşmüşdür. Onların əski prototürk boyları olaraq bu böyük ərazidə tarixi proseslərə təsiri çoxsaylı elmi araşdırmalar, monoqrafiya və məqalələrdə öz əksini tapmışdır (52, s. 192, 286, 311, 550; 22, s. 253-260; 5, s. 265-266; 7, s. 109, 116).

Bundan sonra Naxər ölkəsinin adına Urartu yazılarında da MÂTU NAKRU yazılışında təsadüf edirik (28, s. 21-29). Qeyd edək ki, bu mənbədə Naxər ölkə adı Lulubi ölkə adı ilə yanaşı çəkilməklə Q.A.Melikişvili tərəfindən rus dilində MÂTU NAKRU (strana vrajeskaya) - düşmən ölkə kimi tərcümə edilmişdir (yenə orada, s. 20-30 ). Lakin, bildiyimiz kimi mat/bat sözü qədim türk dillərində "ölkə", "yurd" kimi işlənmiş, bu gün də dilimizdə olan mədən sözündə (4, s. 335) "hər hansı bir qazıntı məhsulunun yurdu" mənasını daşımaqdadır. Bu tərkibə Ordubad, Aşqabad, Astabad, Qızıl Arbat, Ekbatan, Tolmat kimi qədim və müasir adlarda m≈b fonetik paralellikləri ilə qorunmaqdadır (50, s. 54, 81). Yeri gəlmişkən qeyd edək ki, Urartuları özlərinə ulu baba bilən ermənilər "Düşmən ölkə"- Naxər ölkəsini necə öz torpaqları hesab edə bilərlər ki bu torpaq onların babalarının düşməni idi. Ümumən tarixdə erməni tarixi yoxdur, Ərmən tarixi isə türklərə məxsusdur.

Bütün bu məlumatlar rus müəlliflərinin tədqiqatlarında da yer almaqla Naxəran ölkəsi əhalisinin etnik tərkibinin naxar, qiksos-gök As, kaskey, kassit, mentu, türükkü, su, subar, bulqar və s. prototürk-protoazərbaycanlılardan ibarət olduqları göstərilmişdir (56). Bu tayfalar əski türk boyları olmaqla Manteana-Mitan, Aratta, Manna, Midiya, və Atropatena dövlətləri xalqlarının ulu babaları olmuş və onlar öz izlərini bu günkü Naxçıvan toponimik sistemində günümüzə qədər qoruyub saxlamışlar. Naxəran ölkəsinin ərazi bütövlüyü istər Manna, Midiya və Atropatena dövlətləri zamanında, istərsə də XIX əsrin əvvəllərinədək XII-XVII əsrin tarixini əks etdirən Osmanlı qaynaqları və digər sənədlərdə də qalmaqdadır (38, s. 24,31, 73; 19, s. 35-41, 182; 52, t.I, s. 260-261; 54, s. 339). Biz naxərlərin ərazisindəki etnoslar, məntəqə adları-etnooykonimlər, onların etimologiyaları və bu protoazərbaycanlıların ətraf ölkələrə və

tarixi proseslərə təsiri haqqındakı yazılarımızda bu ölkənin xəritə rəsmi ilə bərabər geniş elmi məlumat vermişik (41, s. 300-308).

Azərbaycan türklərinin etnogenezi tarixində ayrıca yeri olan **KUTİ** türklərinin tarixi, dili və məkanı haqqında danışmazdan öncə onu qeyd edək ki, bu tayfaların Naxçıvan əhalisinin etnogenezi tarixindəki yeri, onların dili və Naxçıvan ərazisi ilə əlaqəsi haqqında əsaslı və sistemli araşdırma aparılmamış, bu dilin mənşəyi dəqiqləşdirilməmişdir. Miladdan öncə IV-III minilliklərin siyasi hadisələrini şərh edən "Ümumdünya tarixi" kitabında kutilər qədim Azərbaycan torpaqlarında göstərilir (52, t. I, s. 314-318; 53, t. II, s. 21, 283, 653, 776). Biz əcnəbi tədqiqatçılardan M.E.Matye, İ.M.Lure, V.V.Struve və digərlərinin yazıları ilə yanaşı, bir sıra tarixi mənbələrdə Naxçıvan ərazisində, Araz çayının sağ və sol axarları boyu Kuti türklərinin yaşadığını görürük. Daha sonra burada Azərbaycan xalqının təşəkkülündə iştirakı olmuş prototürk boyları türükkü, su, lulubi, subar, şubartu, kaskey, kassit, massaget bulqar, lulubəy və b. türklərin də kutilərlə kompakt şəkildə yaşadıqları göstərilir (26, s. 9-18; 27, s. 45-75; 48, s. 63-81).

Mənbələr m.ö. III minillikdə qaynaqlara "kuti", "kutium", "kutu", "quti" bəzi hallarda isə -k samitinin düşümü ilə uti kimi də düşən kutilərin dövlətinə daxil olan ərazilərin və onun sərhədlərinin çox geniş olduğunu yazır. Bu mənbələrdə Kuti dövlət ərazisi, mərkəzi Kuti-Zaqros dağlarından Akkad sərhəddinə, aşağı Diyaladan başlayaraq Xabur, Aşağı Zab çayının yuxarı axarlarına, onun cənub sahilləri Ninevanın şimalından Kuman ölkəsinin cənubuna, müasir Daxuka rayonuna qədər olan torpaqları, Araz axarları boyu geniş ərazini əhatə etdiyi göstərilir. İkiçayarasında isə m.ö. III minillikdə Kut və Kutu şəhər adlarının olduğu da bu məlumatlarda qeydə alınır. Onların böyük güc olduqları Akkad çarı Salmansarın salnamə yazılarına istinadən "göydə ulduzlar qədər miqdarı bilinməyən kutilər" ifadəsi ilə də təsdiq olunur (5, s. 265-266). Bütün bu tarixi faktlar Naxçıvan ərazisinə daxil olan Hati, Ketenus, Kətli, Ketuze Kutiltavr, Kütan, Kotam, Tuquti kimi (22 məntəqə) yer adlarının kutilərlə bağlılığını sübut edir.

Qaynaqlarda m.ö. IV - III minilliklərdə adı Lulu, Lulubbum, Lulubi, Lulube, yazılışlarında çəkilən LULUBƏY tayfaları xalqımızın tarixi təşəkkülündə iştirak etdiyi kimi Naxçıvan əhalisinin etnogenezində də yaxından iştirak etmiş, çoxsaylı coğrafi adlarda öz izlərini qoymuşdular. Öncə bu tayfaların İkiçayarası-Mesopotamiyadakı tarixi proseslərdə iştirakını təsdiq edən faktlara diqqət edək.

Lulubəylərin bir prototürk boyları olması Q.A.Melikişvilinin urartulara dair bir yazısında da özünü göstərir. O, qədim Urartu mənbələrindəki yazı nümunələrini araşdırarkən bir məqaləsində urartuların lulubəyləri Lulu-in-a adlandırdıqlarını bunun isə "düşmən ölkə" mənası verdiyini qeyd edir. Məqaləni 3 yarımbaşlığa bölməklə "Luluların urartularla düşmənçilik münasibətləri" I yarımbaşlığında Lulubi və Urartu ölkə adları keçən yazının transkripsiyasını EAİ MÂTU BİAİNİŠE, EAİ MÂTU LULUİNİŠE yazı nümunələrində birincini "Bianilərə məxsus ölkə", ikincini isə "düşmən ölkə" kimi tərcümə etmişdir. Buradakı tarix oğurlamaq cəhdi də göz önündədir. Biz yuxarıda da qeyd etdik ki, yazıdakı mat tərkibi ölkə mənasında olmaqla EAİ MÂTU LULUİNİŠE ifadəsini Lulu bəylərinə məxsus ölkə kimi izah edir (-F.R.). Müəllif, luluların-lulubəylərin ayrıca ölkəsi olmadığını iddia etməklə burada yaşayanların da lulubəylər olduğunu qəbul etmir "lulu" sözünü ümum düşmən ölkələrə verilən ad hesab edir (28, s. 21-29). Bu iddiada isə, yuxarıdakı EAİ MÂTU NAKRİ ifadəsi öz məna açımını doğrultmur. Göründüyü kimi gürcü alimi öz tədqiqatında saxtakarlığı, siyasi məqsədi önə çəkmişdir.

Lulubəy türklərinin kutilərlə kompakt şəkildə yaşadığını qeyd etməklə bu boylarla yanaşı Azərbaycan xalqının təşəkkülündə iştirakı olmuş digər as, naxər, hürrü, türüккü, şu, şubar, kassit, massaget, bulqar, koman kimi prototürk boylarının və b. türklərin də lulubəylərlə birliyini, tarixi proseslərə birgə kompakt şəkildə qatıldıqlarını qeyd edir (26, s. 9-18; 27, s. 45-75; 48, s. 63). Lulubəy Hürri ittifaqı nəinki Mesopotamiyada böyük bir mədəni dirçəlişə təkan vermişdir, hətta işğal etdikləri ərazinin mədəniyyətinə toxunmamış, türk humanizmini əski tarixə də diktə etmişlər. Bunu əcnəbi arxeoloqları da öz araşdırmaları ilə təsdiq edirlər. "Qədim dünya tarixi" kitabı lulubi-hürritlərin Ön Asiyaya yayıldığı dövrləri (haradan?) belə xarakterizə edirlər: "Lulubi-hürritlər" yayıldıqları ərazilərdə heç bir yerdə (bunu Maykop arxeoloji mədəniyyəti də təsdiq edir) yerli əhalini qırmamış, sıxışdırmamış, hər şeyi dinc yolla həll etmiş, onların işğal etdiyi ölkələrdə mədəniyyət abidələrinin biri də dağıdılmamışdır" (20, s. 185). İngilis arxeoloqu Leonard Vulli bu tayfa birliyini xarakterizə edərək yazır: "İşğal etdikləri ərazilərdə yerli xalqlarla tez qaynayıb qarışan hürrit-lulubi boyları öz mədəniyyətləri ilə yerli mədəniyyətə misilsiz xidmət göstərirdilər. Onların mədəniyyəti m.ö. III minillikdən şumer, Akkad mədəniyyəti və inancları ilə qədim köklərlə bağlı idi və Mesopotamiya adətləri və mədəniyyəti şaxələrini, qoruyurdu" (45, s. 11, 64).

Tərəfimizdən bu fikrin doğruluğunu sübut edən, lulubəylərin qədim Naxər-Naxçıvan ərazisində avtoxton sakinlər olmasını bir daha təsdiq edən bəzi dil və tarixi faktları da diqqətə çatdırmağı lazım bilirik. Qeyd edək ki, yuxarıda göstərilən mənbə məlumatlarında lulubəylərin adı keçən çar Anubanini, Simaş, şəhər və tanrı adı Nuzi, bu boyların kuti və hürrülərlə bərabər yaşadıqları Mu-Turran (indiki Bağdad yaxınlığında), Şilvan, Xumurtum, Xuxnur, Kimaş (indiki Kərkük yaxınlığında) kimi şəhər adları (29, s. 96) ilk oxunuşdan da göründüyü kimi türk dili elementləri ilə yaranmaqla hazırda da leksikonumuza daxil olan Turan, Şirvan yer adlarını təkrar edir. Adları yaradan söz köklərinə Naxçıvanın Ordubad, Culfa toponimik sistemində Anuban-Anabat, Banan+yar, Xumurtum-Xumurut suyu, Kimaş-Kimaş dağ, Kəmki dağ, Nizi şəhər və tanrı adına Nizi/Nisə piri (İlan dağın şimal-şərq ətəyində) adlarında rast gəlirik (40, s. 118-123). Adlardakı ban-"uca" və "naxış", turu-"düşərgə", "törə-tayfa", mu-"su", Silbi türk tayfa adı, ki-"şöhrətli", maş-"igid, qəhrəman" kimi qədim prototürk-proto Azərbaycan dili elementləri bu gün də arxaik formada həm bizim həm də ümumtürk dillərində işlənməkdədir (4, s. 81; 46, t. I, s. 541; 51, s. 57).

Əgər diqqət etsək xeyli sayda tədqiqatçılarımızın əsərlərində və Assur, Akkad, qədim Babilistan yazıları və digər mənbələrdə m.ö. III minilliklərdə kuti, lulubəy, kassit, mitan çarlıqlarının tarixi proseslərə təsiri genişliklə tarixi proseslərdə öz əksini tapmışdır (52, t. I, s. 214-215, 299-301; 54, s. 82-88, 104-112). Məqalənin həcmi nəzərə alınmaqla biz burada bu göstərilən tayfalarla bərabər Kassi, Turdi, Tal, Koman, Tus və s. tayfaları haqqında ətraflı məlumat verə bilmədik. Halbuki, bu tayfaların hər biri haqqında danışdığımız tayfaların ittifaqında Mesopotamiya və Naxçıvan ərazilərində VI-III minilliklərin tarixi proseslərində və mədəniyyətini təşəkkülündə eyni dövrlərdə iştirak etmişlər.

Göstərilən bütün qaynaq və mənbələrin tarixi məlumatlarını müqayisəli şəkildə təhlil edərək aşağıdakıları deyə bilərik:

1. Azərbaycan, Amerika və Fransa arxeoloji heyətinin tədqiqatlar zamanı Naxçıvan ərazisindəki Qazma mağarası, Oğlanqala, Ovçular təpəsi, I Kültəpə, Xələc, Maxta, Xoşkeşin və s. ərazilərin kromlex qəbirlərindən, eləcə də qazıntılarından əldə

etdikləri maddi-mədəniyyət nümunələri bu mədəniyyətin m.ö. V-IV minilliyə aidliyini təsdiq edir.

2. Şumer əfsanələrində tanrı adları və coğrafi adların Naxçıvan ərazisində eynilə təkrarı bu ərazidə şəhər və digər mədəniyyətin m.ö. VI minillikdən formalaşdığını, ərazi mədəniyyəti tarixinin 8 min illik bir dövrü əhatə etdiyini sübut edir.

3. As, Türük, Naxər, Kuti, Lulubi, Şu, Şubar prototürk boyları bütöv Azərbaycan, eləcə də onun tərkib hissəsi olan Naxçıvan torpağında böyük mədəniyyətin yaradıcıları olmuş, arxeoloji mədəniyyət nümunələri bunun qədim Azərbaycan tayfalarına mənsubluğunu ortalığa çıxarmışdır.

4. Adı çəkilən protazərbaycanlıların hələ m.ö. VI-V minilliklərdən əlifbaya sahib olmaları tarixi faktı xalqımızın dilinin ən azı 8 min il öncədən formalaşdığını təsdiq edir.

5. Göstərilən bütün əski türk-Azərbaycan boylarının adı, inancları ilə yaranmış məntəqə adlarının iltisaqi dil üslubunda söz-söz, söz-şəkilçi formasında əmələ gəlməsi ərazinin eyni dildə danışan xalqa-azərbaycanlılara mənsubluğunu bir daha sübut edir.

## ƏDƏBİYYAT


1. Абд ар-Рашид ал- Бакуви. Китаб талхис ал-асар и аджаиб ал-малик ал -каххар. Москва:Наука, 1971, 162 с.
2. Абибулаев О.А. Энолит и бронза на территории Нахичеванской ASSP. Баку: Элм, 1982, 314 с.
3. “Bilqamıs” dastanı. Bakı: Gənclik, 1985, 104 s.
4. Дрвнетюркский словарь. Ленинград: Наука,1969, 676 с.
5. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту//ВДУ, 1951,№ 2, с. 265- 266.
6. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука,1956, 485 с.
7. Дьяконов И.М. Языки древней Передней Азии. Москва: Наука, 1967, 277 с.
8. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Universitet nəşr., 1991, 312 s
9. Əliyev V.V. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: Yeni nəşrlər evi, 2002, 320 s.
10. Фарзали Аждар. Ноев Ковчег и Гямигая- Гобустанский алфавит. Баку: Полиграф, 2005, 302 s.
11. Firudin Ağasıoğlu. Azər xalqı. Bakı: Çıraq, 2005, 432 s.
12. Hacıyev İ.M., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
13. Хоренский Моисей. История Армения. Пер. Н.О.Эмина, Москва, 1893, 323 с.
14. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва: Мос. типография, 2000, 176 с.
15. Ибн Хордадбех. Книга путей и страну. Баку: Элм, 1986, 428 с.
16. Иоганесс Фридрих. История письма. Москва: Наука, 1976, 274 с.
17. Иосиф Флавий. Иудейские древности/ Пер. с греческого Г.Г. Генкеля, т. I, СПб., 1900, 716 с. 18. Иосиф Флавий. Иудейские древности/ Пер. с греческого Г.Г. Генкеля, т. II, СПб., 1900, 420 с.
18. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.

19. История Древнего мира. ч1. Под ред. И.М.Дьяконова. Москва: Наука.1989. 470 с.
20. История Армении Фавстоса Бузанда. Перевод и комментарии М.А. Геворгяна. Ереван:АН Армянской ССР. 1953, 358 с.
21. Kramer S.N. Tarix Şumerdən başlanır. Bakı: Kasımi, 2009, 280 s.
22. Геродот. История. Перевод и примечания Г.А Стратановского. Ленинград: Наука,1972, 599 с.
23. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
24. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. Москва: Наука, 1970,393 с.
25. Лурье И.М.. Немху в Египте нового царства// Вестник древней истории. 1953, №4, с. 9-18.
26. Матье М.Э. Из истории семьи ирода в древнем Египте //Вестник древней истории. 1954, №3, с.45-75.
27. Меликишвили Г.А.. К вопросу о древнейшем очаге урартских племен, "Вестник Древней Истории ", № 1, 1947, с. 21-29.
28. Меликишвили Г.А., «Наири–Урарту», Тбилиси: АН Грузинсой ССР, 1954, 446 с.
29. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 157 s.
30. Мифы народов мира. Энциклопедия. T.I. Москва: Советская энциклопедия. 1987, 671 с.
31. Мифы народов мира. Энциклопедия. T.II. Москва: Советская энциклопедия.1988, 719 с.
32. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
33. Naxçıvan Ensiklopediyası. I c. Çamlıca-Üsküdar/İstanbul, 2005, 360 s.
34. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
35. Novruzlu Ə.I., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993, 106 s.
36. Novruzlu Ə.I., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 182 s.
37. Ожегов С.И. Словарь русского языка. Москва: Русский язык, 1984, 816 с.
38. Osmanlı Arşiv Belgelerinde Nahçıvan.İstanbul: Seçil Ofset, 2011, 568 s.
39. Рзаев Ф.Г. Протоэтносы Асы в этногенезе Нахчыванцев (на основе Нахчыванских этноойконимов)//Актуальные проблемы гуманитарных и естественных наук. Москва: Литера, 2012, с.132-136, 279 с.
40. Rzayev F.H. Əlincə vadisi toponimlərində türk layı. Naxçıvan: Qeyrət, 2003, 179 s.
41. Rzayev F.R. Nuh adı ilə yaranmış qədim türk tayfası "Naxər"lər// Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi (Beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2012, 300-308, 397 s
42. Seyidov A.Q, Baxşəliyev V.B, Məmmədov S.M., Aşurov S.H. Cənubi Qafqaz arxeologiyası. Qədim Şərur: Nurlan Bakı, 2012, 466 s.
43. Сеидов Г. А. Памятники куро-аракской культуры Нахичевани.Баку: Билик, 1993, 164 с.
44. Синило Г.В. Древние литературы Ближнего Востока и мир Танаха. Минск: РУФО, 1998, 474 с.
45. Сравнительный словар тунгусо-маньчжурских языков. Т. I, Ленинград: Наука, 672 с.

46. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г.А.Стратановского. Москва: Наука, 1964, 941 с.
47. Струве В.В. Подлинный Манефонский список царей. Египта и хронология нового царства//Учёные записки Ленинградского университета, 1941, № 78, Вып. 9, с. 63-81.
48. Шихаб ад-дин Мухаммад ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны.Баку: Элм, 1973, 450 с.
49. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif,1967, 420 s.
50. Тугушева Л.Ю.Фрагменты уйгурской версии биографии Сюан-Цзана. Москва: Нука, 1991, 176 с.
51. Всемирная история. Т. I. Москва: Госиздат, 1956, 746 с.
52. Всемирная история. Т. II. Москва: Госиздат, 1956, 899 с.
53. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universiteti, 1993, 496 s.
54. Юсифов Ю. Ранние контакты Месопотамии с северо восточными странами (Приурмийская зона).ВДИ, 1987, № 1, с. 33-38.
55. http://www.chronologia.org/xpon5/17.html.

**Allahverdi ƏLİMİRZƏYEV**
*AMEA Tarix İnstitutu*

# AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİNİN URARTU İLƏ SİYASİ ƏLAQƏLƏRİ TARİXİNDƏN

E.ə. II minilliyin ikinci yarısında Van gölü ətrafında hurrilərə qohum tayfaların siyasi birlikləri formalaşmağa başlayır. Assur kitabələrində onlar «Nairi ölkələri» adı altında ümumiləşdiriliblər. Bu mənbələrdə «Nairi» termini bəzən Uruatri (sonralar Urartu) ölkəsinin, urartudilli mətnlərdə isə Biayna dövlətinin adının sinonimi kimi çıxış edir [7, 362]. E.ə. XIII əsrin sonlarında bu ittifaqa 43, bir əsr sonra isə 23 çarlıq daxil idi. Bu hərbi ittifaqın güclənməsi qonşuluqdakı Assur dövlətinin siyasi maraqlarına uyğun gəlmədiyindən tərəflər arasında münaqişələr adi hal alırdı. Belə münaqişələrin birindən bəhs edən irihəcmli mətn XIX əsrin ortalarında Ostin Henri Leyard tərəfindən İraqın Kalat-Şerkət şəhərindən tapılmış silindr üzərinə həkk olunmuşdur. 1857-ci ilin martında bu mətnin litoqrafiyası London Kral Asiya Cəmiyyətində mixi yazılar üzrə dörd mütəxəssisə - Henri Roulinsona, Edvard Hinksə, Foks Talbota və Jül Oppertə oxunmaq üçün təqdim olunmuşdur. Oxunuşlar tutuşdurulduqdan sonra tərcümələr arasında ciddi fərqlərin olmadığını nəzərə alan Kral Asiya Cəmiyyətinin Komissiya heyəti rəsmən yeni elmin – Assurşünaslığın yaranmasını elan etmişdir.

Mətndə bildirilir ki, Nairi ölkələrindən gözlənilən təhlükənin qarşısını almaq üçün Assur hökmdarı I Tiqlatpalasar (e.ə. 1114-1076-cı illər) çoxsaylı hərbi qüvvə ilə Fərat çayını yuxarı axarında keçərək ittifaqın ərazilərinə daxil olur. Kitabədə hərbi yürüşün marşurutuna uyğun olaraq Nairi ittifaqına daxil olan 23 «ölkə» işğal olunduqları ardıcıllıq üzrə sadalanırlar [8, 162, 188; 3, №10; 9, mətn A.O. 87, 1, IV sütun, 49-83-cü sətirlər]. Burada diqqətimizi 15-ci mövqedə sıralanan «ölkə» cəlb edir; onun adı mixi hecalı işarələrlə şu-ru-ri-a kimi yazılıb. Bu toponim digər mətnlərdə qeydə alınmadığından lokalizə olunmayıb.

Kitabənin mətnindən aydın olur ki, Şururia Viram (qrafik ifadəsi: u-i-ram), Abaeni və Adaeni «ölkələrinin» qonşuluğunda yerləşirdi. Bunlardan Abaeni «Biayna» adının ilkin forması kimi izah olunur və Urartu tayfa ittifaqının mərkəzi sayılır. Van gölünün və onun şərq sahilindəki Van şəhərinin adı da «Abaeni» termini ilə əlaqələndirilir [11, 64-65]. Urartulular öz paytaxtını Tuşpa (və ya Turuşpa) adlandırırdılar, bu üzdən onu Abaeni ilə eyniləşdirmək olmaz. «Abaeni» termini ehtimal ki, müasir Ermənistan Respublikasında Avan kəndinin adında qalıb. Onun qonşuluğunda yerləşən Şururia «ölkəsinin» adı sadə etimologiyaya malikdir. Urartu (və ya Biayna) və ona qohum olan hurri dillərində şur – (və ya sur- ) termini «silah» anlamında işlənirdi [7, 290-292]. Toponimin ikinci komponenti – ur- «etmək», «olmaq» kimi izah olunur [4, 192-193], - ia sonluğu isə məkan suffiksi qismində çıxış edir. Bu baxımdan, Sururia «ölkəsinin» adını urartu mənşəli hesab edərək «Silah düzəldilən yer», «Cəbbəxana» kimi mənalandırmaq olar.

Maraqlıdır ki, Dəclə çayının yuxarı axarında və Urmiya gölü zonasında tərkibində şur- «silah» komponenti olan bir neçə toponim mövcud idi. Şuria (Habhi ölkəsində yaşayış məskəni; baxın: 3, №14), Surzi (Mannanın Sanqibutu vilayətində şəhər; baxın: 1, №63), Surikaş (Mannada vilayət; baxın: 1, №63), Şurqadia (Midiyada kutilərin qalası; baxın: 1, №34), Şurdira (Nairi ölkəsində qala, Mərənd şəhərindən

cənub-şərqdə müasir Şurdərə; baxın: 3, №34) və digər yer adlarını buna misal göstərmək olar.

Göründüyü kimi, I Tiqlatpalasarın Nairi ölkələrinə hərbi yürüşünün marşurutu və linqvistik araşdırmalar Şururia «ölkəsini» Naxçıvan bölgəsi ilə, xüsusən müasir «Şərur» oykonimi ilə əlaqələndirməyə əsas verir.

Şərurun Urartu ilə siyasi-iqtisadi əlaqələrini təsdiqləyən mühüm dəlillər son illər rayonun ən iri qədim yaşayış məskəni olan Oğlanqalada aparılan arxeoloji qazıntılar zamanı əldə olunub. Burada e.ə. IX-VIII əsrlərə aid mədəni təbəqədən üzərində urartu maye ölçü vahidləri akarki və terusi terminləri yazılmış saxsı qabların qalıqları aşkara çıxarılmışdır [Qazıntıların rəhbəri S.Aşurovun şifahi məlumatına əsasən]. Standart tutuma malik olan akarki və terusi qablarına Urartu mədəniyyətinin yayıldığı geniş arealda təsadüf olunur [5, 128, 133, 145, 146; 4, 176]. Görünür Oğlanqalada ambarlardakı ərzaq ehtiyatının vaxtaşırı uçotu aparılırdı.

Naxçıvanın Nairi tayfa ittifaqına daxil olmayan bölgələri e.ə. VIII əsrin əvvəllərindən etibarən işğal olunaraq Urartu dövlətinin tərkibinə qatılır. Menuanın (e.ə. 810-786-cı illər) Culfa rayonu ərazisindəki İlanlıdağ qayalarından birinə həkk olunmuş 5 sətirlik urartudilli kitabəsində bununla bağlı maraqlı məlumatla qarşılaşırıq. M.Salvininin litoqrafiyasına əsasən mətni belə tərcümə etmək olar: «Tanrı Haldinin köməyi (?) ilə Sardurinin oğlu İşpuini <və> İşpuininin oğlu Menua Arsini şəhər-dövlətini, İş <…> şəhər-<dövlətini>, Arsikume (?) şəhər-dövlətini, Aaniane şəhər-dövlətini zəbt edib, viran <qoydu>. Puluadı vilayətində tanrı Haldiyə stela qoyuldu <və> əmr olundu: «Tanrı Haldi üçün burada öküz və inək qurban <kəsilsin>. Tanrı Haldiyə baş kahin…» [9].

Məzmunundan göründüyü kimi, mətn Urartu çarı Menua üçün əhəmiyyətli olan hadisədən – 4 şəhər-dövlətin işğalından xəbər verir. İşğala məruz qalan məntəqələr urartu mixi yazı sistemində geniş tətbiq olunan ideoqramlarla (və ya şumeroqramlarla) xarakterizə olunublar; toponimlərin adları qarşısında URU «şəhər», sonunda isə KUR «dağlıq ölkə»+ni fonetik komplementi yazılıb. Mətnin dilimizə ilk tərcüməsi zamanı bu tip yazılışlar işarələrin ardıcıllığına müvafiq, lakin məntiqi baxımdan yanlış olaraq «Arsini şəhərinin ölkəsi» və s. kimi verilib [1, s.107]. Mətnin yığcamlığını təmin etmək məqsədi ilə tətbiq olunan bu şumeroqramlar əslində mətnin yazıldığı dilə müvafiq olaraq biaynca (=urartuca) ardini-ebani «şəhər-dövlət» kimi oxunmalıdır.

İlanlıdağ kitabəsində bildirilir ki, bu şəhər-dövlətlərin işğalı ilə əlaqədar Menuanın əmri ilə Puluadi vilayətində stela (yazılı abidə) qoyulmuşdur. Ehtimal ki, İlanlıdağ kitabəsi həmin bu steladır, çünki kitabədə xatırlanan toponimlərə digər urartu mətnlərində rast gəlinmir. Əminliklə söyləmək olar ki, bu dörd şəhər-dövlət, o cümlədən Culfa Puluadi inzibati vahidliyinin tərkibinə daxil edilmişdir.

Puluadi Cənubi Azərbaycanda Arazbaran (və ya Qaradağ) mahalının Varzakan inzibati mərkəzi ərazisində lokalizə olunur. Buradan tapılan 10 sətirlik qayaüstü kitabədən məlum olur ki, Urartu hökmdarı II Sarduri (e.ə. 764-735-ci illər) Puluadinin çarı Kadiaunu məğlub etmiş, 21 qalanı, 45 yaşayış məskənini, o cümlədən paytaxt Lubliuni şəhərini zəbt etmişdir [6, 248-249].

Maraqlıdır ki, mətndə Puluadi ilə bağlı xatırlanan yer və şəxs adları (Puluadi, Libliuni, Kadiau) hurri –urartu dil materialı əsasında izah olunmur. Məsələn, - au, -iu kimi diftonqlar bu dillər üçün səciyyəvi deyildir. Görünür etnosiyasi baxımdan Puluadi vilayətinin Nairi tayfa ittifaqına tarixi bağlılığı olmayıb və Urartu mərkəzi hakimiyyətinə qarşı vaxtaşırı itaətsizlik meyilləri burada qarışıq etnosların məskunlaşması

ilə izah edilə bilər. Haldiyə stela ucaldılması və bunun şərəfinə baş kahinin iştirakı ilə qurbanlar kəsilməsi Puluadidə bu tanrıya sitayişin rəsmiləşdirilməsi istiqamətində atılan addım idi.

İlanlıdağ kitabəsində xatırlanan dörd şəhər-dövlətdən biri, Arsini lokalizə olunub. Mərhum tarixçimiz Solmaz xanım Qaşqay Arsini şəhər-dövlətini (qrafik ifadəsi URU Ar-si-ni-e KUR-ni) kitabənin tapıldığı yerdən bir neçə km məsafədə yerləşən müasir Ərəzin kəndinin adı ilə eyniləşdirmişdir [2, 56-57]. Bu toponimin adı urartu dilindən tərcümədə «Yeni (arşe «gənc», «cavan»; baxın: 7, 52-56; 4,180) məkan (-ni toponimik sonluğu)» anlamını verir.

Ehtimal ki, kitabədə Arsinidən sonra xatırlanan digər üç şəhər-dövlət nisbətən şimalda yerləşirdi. Onların Puluadi vilayətinə qatılmaları Urartu hökmdarlarının gələcək hərbi planları üçün zəmin yaratdı. Culfanın strateji əhəmiyyətli məskənlərinin nəzarət altına alınması I Argişti dönəmində (e.ə. 786-764-cü illər) Etiuni vilayətinin (Göyçə gölünün cənubunda və qərbində yerləşən xırda çarlıqların ümumi adı; baxın: 7, 377) işğalına yol açdı və bununla da müasir Ermənistan Respublikasının əraziləri Urartunun siyasi-mədəni sferasına qatıldı.

## ƏDƏBİYYAT


1. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S.Qaşqay. Bakı, 2006.
2. Qaşqay S.: Naxçıvanın e.ə. I minilliyin birinci yarısında qonşu ölkələrlə əlaqələri /Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Naxçıvan, 2006, 55-60.
3. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту // Вестник Древней Истории, 1951, №2.
4. Дьяконов И.М., Старостин С.А. Хуррито-урартские и Восточнокавказские языки /Древний Восток: этнокультурные связи, М., 1988, 164-207.
5. Клейн Дж.Дж. Урартские иероглифические надписи из Алтынтепе /Древней Восток. III. Ереван, 1978, 127-149.
6. Меликишвили Г.А. Урартские клинообразные надписи. II. Открытия и публикации 1954-1970 гг. // Вестник Древней Истории, 1971, №3, 229-255.
7. Мешанинов И.И. Аннотированный словарь Урартского (Биайнского) языка. Ленинград, 1978.
8. Comparative translations by W.H. Fox Talbot, E.Hincks, J.Oppert, H.C.Rawlinson //Journal of the Royal Asiatic Society, vol. 18, 1861, 150-220.
9. Grayson A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 2. Assyrian Rulers of the Early First Millennium BC. I. (1114-859 BC). Toronto-Buffalo-London, 1990.
10. Salvini M. Eine Urartaische Felsinschrift in der Region Nachtcivan // Zeitschrift für Assiriologie und Vorderasiatische Archäologie. Band 88, №1, 1998.
11. Streck M. Das Gebiet der heutigen Landschaften Armenien, Kurdistan und vestpersien nach den babylonisch-assyrischen Keilinschriften // Zeitschrift für Assiriologie und verwandte gebiete. Band 13, 1898, 57-110.

**Zəhmət ŞAHVERDİYEV**
*Tarix elmləri doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN: İLKİN ŞƏHƏRSALMADAN BÖYÜK MƏDƏNİYYƏTƏ DOĞRU

Bəşəriyyətin ən qədim insan məskənlərindən biri olan, planetimizdə ilkin şəhər mədəniyyətinə sahib olmaqla bərabər, onu dünya siviliziasiyasına bəxş edən, Nuh peyğəmbərin məzarının yerləşdiyi ərazi, "Ümumdünya tufanı" ilə əlaqədar əfsanəvi gəmini xatırladan "Gəmiqaya" abidəsinin olduğu yer, müqəddəs "Qurani-Kərimin" 18-ci ayəsində göstərilən " Əshabi-Kəhf" ziyarətgahının yerləşdiyi ərazi, 5000 ildən artıq yaşı olan Naxçıvan şəhəri əlverişli coğrafi iqlim şəraitinə, strateji əhəmiyyətinə görə və Avropa ilə Şərqi birləşdirən ticarət yolları üzərində yerləşdiyindən tarixin müxtəlif mərhələlərində iqtisadi və mədəni cəhətcə çox zaman yüksəlmiş, gah da enməli olmuş və nəhayət yenidən canlanıb bu günkü intibah dövrünə qədəm qoymuşdur.

Naxçıvan ərazisi hələ eramızdan əvvəl canlı orqanizmin meydana çıxıb inkişaf etməsi üçün hər cür iqlim şəraitinə, yeraltı və yerüstü təbii xammal mənbələri ilə zəngin olan bir bölgə hesab edilir. Məhz buna görə də bu qədim diyar ilkin insan məskənlərinin izləri, onların məşğuliyyəti, işlətdikləri əmək alətləri, yaşayış tərzi, müxtəlif tayfalar, ilkin şəhər mədəniyyətini şərtləndirən amillər, ən qədim dövlətlərin yaşayıb inkişaf etmələrini sübuta yetirən maddi-mədəniyyət abidələri ilə tanınan və nəhayət bəşəriyyətin yarandığı vaxtdan bu günə qədər dünyanın ən güclü dövlətlərinin, sərkərdə və hökmdarların, elm adamlarının nəzər diqqətində olmuşdur.

Naxçıvan bölgəsində ilkin şəhər mədəniyyətinin meydana çıxıb inkişaf etməsində şüphəsiz ki, eramızdan əvvəl burada yaşayıb maddi nemətlər uğrunda mübarizə aparan insanların təssərrüfatın müxtəlif sahələrindəki fəaliyyətlərinin tədqiqi və öyrənilməsi həmişə öz elmi aktuallığı ilə tanındığı üçün tarixşunaslığın qarşısında duran əsas vəzifələrdən biri olmuşdur.

Naxçıvan bölgəsi təssərrüfatının, eləcə də bu ərazidə arxeoloji tədqiqatların aparılması isə tarixşünaslığımızda ilk dəfə bu yerlərin 1826-1828-ci illər Rusiya-İran müharibələri nəticəsində Naxçıvan xanlığının rus qoşunları tərəfindən işğalından sonra başlanmışdır. Daha doğrusu, hələ 1827-ci ildə çar hökuməti ilə keçirdiyi ərazilərin təbii xammal mənbələrini öyrənib bu yerləri özünün daxili bazarına çevirmək üçün başda qraf Konqirinin olmaqla müxtəlif ixtisaslara sahib olan mütəxxəssislərdən ibarət yaratdıqları komissiyanı yerlərə, o cümlədən də Naxçıvan bölgəsinə göndərmişdir.

Hökumətin yaratdığı komissiyanın qarşısına qoyduğu əsas vəzifəyə dair hazırladığı "Обзорение Российских владений Кавказом в статистическом, этнографическом, торографичеком и финансовом отношениях" (1836-cı il) adlı dörd ciliddən ibarət rəsmi dövlət sənədində deyilir: "Zaqafqaziya xalqlarına nə universitetlər, nə də institutlar lazım deyil. Komissiyanın əsas vəzifəsi bu yerlərin təbii xammal mənbələrini, ticarət əkinçiliyi üçün yararlı olan məhsuldar sahələri öyrənib, az kapital və daha çox gəlir verə biləcək sahələri öyrənib, hökumət qarşısında həmin sahələrin inkişafı məsələlərini qaldırmaqdır. Bununla da biz ucqarların ticarət əkinçiliyini inkişaf etdirib bu sahə məhsullarını Mərkəzi Rusiya sənaye müəssisələrinə daşımağa buna nail ola bilərik. "Çünki bu yerlər bizim kaloniyamızdır". Yeri gəlmişkən, bir əsas məsələni də oxucularımızın diqqətinə çatdırmaq istəyirik ki, tarixdə ikinci dəfə müstəqilliyimizi bərpa edənə

qədər çox təəssüf ki istər dövlət və hökumət sənədlərində, istər XIX və XX əsrlərə dair tədqiqat əsərlərinin” əksəriyyətində, istərsədə orta məktəbin tarix dərsliklərində, Azərbaycan torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi məsələsini tarixi gerçəkliklə deyil, əksinə ona bəzək-düzək vuraraq ölkənin işğalını Azərbaycanın “könüllü surətdə Rusiyanın tərkibinə keçirdiyini”, bu ərazilərin zorla Rusiyaya birləşdirilməsi kimi yox “birləşmə” kimi təqdim etməklə bu məsələdə xalqımıza uzun müddət obyektiv bilik verməməklə yanaşı işğal məsələsinin guya azərbaycanlılara iqtisadi və mədəni rifah gətirdiyini qeyd edirlər. Halbuki problemin işğalçılıq, işgəncə, dini və milli ayrı seçkilik, müstəmləkəçilik xarakteri daşımasını klassiklərinin özləri dəfələrlə etiraf etmişdilər. Məsələn, bu münasibətlə F.Engels 1851-ci ildə K.Marksa yazdığı 23 may tarixli məktubunda qeyd edir ki, “... Rusiya Şərq məsələsində... özünün slavyanpərəst namərdliyinə, murdarlığına və natəmizliyinə baxmayaraq Rusiyanın Qara və Xəzər dənizlərində, eləcə də Orta Asiyadakı ağalığı başqırd və tatarlar (azərbaycanlılar Z.Ş) üçün mədəniləşdirici xarakter daşımışdır” (K.Marks və F.Engels. seçilmiş əsərləri, XIX cild. səh.211 rusca) XIX əsrin axırlarında isə V.İ.Lenin də bu münasibətlə yazırdı “ Qafqazın siyasi fəthi, iqtisadi fəthindən çox-çox əvvəllər başlamış və hələ də bu başa çatmamışdır. .. Qafqaz Rusiyaya birləşdirildikdən sonra qızğın surətdə müstəmləkələşdirilir”.. (V.İ.Leninin əsərlərinin tam küllüyatı. III cild, səh 630.

Rus mütəxəssislərinin daş duz mədəni sahəsindəki tədqiqatlarının nəticələrinə nəzər yetirdikdə isə bunu biz Daş-duz mədənləri eləcə də, Qızıl-Vəng kimi ərazilərdəki tapıntılardan daha aydın görürük.

V.M.Sısoevin «Краткий путоводитель по наиболе известным памятникам древности и природы в Азербайджане» (Баку, 1930), K.A.Nikitinin «Город Нахичевань и Нахичеванский уезд» СМОМПК (Сборник материалов для описания местностей и племен Кавказа) II buraxılış, Tiflis, 1882), S.P.Zelinskinin «Нахичевань» (“Kavkaz qəzeti, 1882-ci il, № 18) kimi əsər və məqalələrində qeyd olunur ki, Naxçıvan şəhərinin adı ilk dəfə olaraq eramızdan əvvəl 65-8-ci illərdə yaşamış Roma yazıçısı Kвunt Horotsi Flakk və eradan əvvəl birinci əsrdə yaşamış yəhudi tarixçisi Flafi Yosifin əsərlərində çəkilir. Naxçıvan şəhərinin ilk dəfə adı çəkilən əsərlərdən biri də yunan coğrafşünası Klavdi Ptolemeyin “Coğrafiya” əsəri hesab olunur. Müəllif bu əsərində şəhərin adını çəkməklə yanaşı onun ərazisi barədə də məlumat verir. Orta əsr tarixçisi Mousey Xorenli isə Naxçıvan şəhərinin eramızdan əvvəl VI əsrdə mövcud olduğunu deyir.

Görkəmli türk səyyahı Övliya Çələbi (XVII əsr) “Səyahətnamə” adlı əsərinin ikinci cildində (İstanbul, 1314-cü il) Naxçıvan şəhərinin formalaşmasını məşhur əfsanəvi hökmdar Əfrasiyabın adı ilə, çar məmuru B.Qriqoryev isə (Статистическое описание Нахичеванской провинций Спб. 1833) onun mənşəcə türk olan hökmdar Cibuni tərəfindən inşa edildiyini söyləyirlər.

Beləliklə, adları yuxarıda göstərilən mənbə və məxərlərə əsaslanaraq deməliyik ki, Naxçıvan şəhəri hələ eramızdan əvvəl mövcud olmuşdur. Lakin bununla kifayətlənmək olmaz. Çünki, həmin əsərlərin müəllifləri Naxçıvan şəhəri barədə öz yaşadıqları dövrə və ya onlardan xeyli əvvəl yaşamış müəlliflərin məlumatlarından bəlli olan yazılara dair məlumat verirlər. Daha doğrusu, o müəlliflərin heç biri şəhərin yaranmasının canlı şahidi olmamış və ola da bilməzdilər. Deməli, məntiqi olaraq belə bir fikir irəli sürmək mümkündür ki, Naxçıvan şəhəri həmin müəlliflərin yaşadıqları dövrdən də xeyli əvvəl mövcud olmuşdur. Lakin, bununla belə ədalət naminə etiraf etmək lazımdır ki, bu cür tarixi ədəbiyyatların birtərəfli mövqe tutmasına baxmayaraq, həmin mənbələrdə

Naxçıvan şəhərinin qədim və orta əsrlər tarixinə dair bu gün də öz elmi əhəmiyyətini itirməyən fikirlər çoxdur. Məhz elə buna görədir ki, şəhərin tarixi ilə məşğul olan tədqiqatçılarımız keçmiş irsə tənqidi münasibət bəsləməklə bərabər, həmin əsərlərin müsbət cəhətlərindən də faydalanmalıdırlar.

Beləliklə şəhərin yaranma tarixinin əsas elmi səbəbini öyrənmək istədiyimiz təqdirdə bu səbəbləri rəvayət və əfsanələrlə, ayrı-ayrı sərkərdə və hökmdarların fəaliyyətləri ilə, müxtəlif antik və orta əsr müəlliflərinin salnamə və məxəzləri ilə deyil, məhz ilkin insan məskənlərindəki məhsuldar qüvvələrin inkişafı, sənətkarlıq və ticarətin yüksəlişi və cəmiyyət daxilində baş verən təbəqələşmə kimi bir sıra əlamətlərin mövcudluğu ilə izah olunmalıdır.

Bunlardan başqa, ilkin insan yaşayış yerinin planlı tikilməsi, onun möhkəm müdafiə olunması üçün möhtəşəm divar və bürclərlə əhatə olunması, qala daxilində müxtəlif istehsalat emalatxanalarının mövcudluğu, şəhər mədəniyyəti üçün səciyyəvi hal hesab olunan boyalı qabların hazırlanması, sənətkarlıq məhsullarının ailə təsərrüfatı daxilindən çıxıb mübadiləyə qoşulması kimi bir sıra əlamətlər də şəhər həyatının formalaşmasını sübuta yetirən amillər hesab olunur.

Beləliklə, şəhərin yaranması və şəhər tipli mədəniyyətin formalaşması üçün yuxarıda adları çəkilən xarakterik xüsusiyyətlərin Naxçıvandakı ilk insan yaşayış məskənlərinə aid edilməsini sübuta yetirməklə şəhərin meydana çıxması tarixini dəqiq müəyyənləşdirmək mümkündür. Lakin onu da qeyd edək ki, bu iş həddən artıq zehni və fiziki əmək tələb edən vəzifənin yerinə yetirilməsi isə yüksək ixtisaslı tarixçilər və bu elmə köməkçi fənlər olan arxeoloqlar, etnoqraflar və numizmatiklərin üzərinə düşür.

Bu mənada tarixi sənədlərə nəzər yetirdikdə məlum olur ki, Naxçıvanın qədim tarixinə dair ilk arxeoloji tədqiqatlara Şimali Azərbaycan torpaqlarının Rusiyaya birləşdirilməsindən sonra çar hökumətinin iqtisadi tələbatı ilə əlaqədar bu yerlərin təbii xammal mənbələrinin mənimsənilməsinə dair həyata keçirilən axtarış və tapıntılarla başlanmışdır. S. Zelinskinin və K.A.Nikitinin adları yuxarıda göstərilən məqalələrində qeyd edilir ki, XIX əsrin 70-ci illərində Bayer tərəfindən Naxçıvanın daş-duz mədənindən qədim daş dövrünə aid ibtidai insanların hazırladıqları daş baltalar tapılmışdır. K.A.Nikitinin AMEA müxbir üzvü, arxeoloq Vəli Baxşəliyevin yazısında da göstərilir ki, S.P.Zelinskinin 2006-2011-ci illərdə Duzdağda beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekispedisiyasının apardığı araşdırmalar zamanı hələ e.ə.V-III minilliklərdə bu daş baltalardan duz çıxarmada istifadə olunmuşdur.

Naxçıvanda ilk insan məskəninin mövcudluğu və eləcə də şəhər mədəniyyətinin formalaşması üçün əsas şərtlərdən biri hesab olunan boyalı qablar mədəniyyətinin öyrənilməsi məsələsinə XX əsrin əvvəllərindəki əsərlərdə də toxunulur. Bu mənada A.S.Spisinin 1909-cu ildə C.Peterburqda nəşr etdirdiyi "Некоторые Закавказские могильники» adlı elmi məqaləsində Qızılburun (Naxçıvan şəhərindən 18 km aralı) daş qutu qəbrlərindən tapılmış boyalı qablar mədəniyyəti haqqındakı elmi məlumatlar daha çox nəzər diqqəti cəlb edir. Yeri gəlmişkən, onu da qeyd edək ki, bu cür boyalı qablar nəinki Azərbaycanda, habelə bütün Zaqafqaziyada ilk dəfə olaraq Naxçıvanda aşkar edilmişdir. Şəhər mədəniyyətinin öyrənilməsində böyük elmi əhəmiyyət kəsb edən Qızılburun tapıntıları ilə əlaqədar məşhur ingilis alimi K.Şefferin 1948-ci ildə Londonda nəşr etdirdiyi əsərində həmin maddi-mədəniyyət əşyalarının əhəmiyyəti xüsusi qeyd olunmuşdur.

Naxçıvanın qədim tarixinin öyrənilməsinə dair işğalaqədərki ədəbiyyatlar birtərəfli və ya yarımçıq xarakter daşıdığından burada istər ilk insan məskənlərinin

yaranması və istərsə də şəhər tipli mədəniyyətin meydana çıxması problemini qəti həll etmək mümkün deyil. Bu sahədə nisbətən geniş və hərtərəfli elmi tədqiqatlar yalnız XX əsrin 50-ci illərindən sonrakı dövrlərdə aparılmışdırsada bu tədqiqatlar da sosialist ideologiyasına əsaslandığından yenə də onların əksəriyyəti əsl tarixi gerçəkliyi əks etdirmir. Bununla belə, etiraf etmək lazımdır ki, 1958-ci ildə görkəmli arxeoloq, mərhum O.H.Həbibullayevin rəhbərliyi ilə Naxçıvan şəhərindən bir qədər şimalda yerləşən Kültəpə adlanan yerdə aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunmuş maddi-mədəniyyət əşyalarının böyük elmi əhəmiyyəti vardur. O.Həbibullayev "Некоторые итоги изучение на хломе Кюл-Тепе в Азербаджане" / CA.1963.№3 /adlı elmi əsərində həmin tapıntılarla Neolit dövrünün əvvəllərindən başlayaraq Eneolit, Tunc və Dəmir dövürlərinin bütün mədəni təbəqələrini ardıcıl tədqiq edərək Azərbaycan xalqının qədim tarixini, onun mənşəyini, adət-ənənəsini, həyat tərzini müəyyən etməklə, burada ilk insan məskənlərinin 3500 il bundan əvvəl mövcudluğunu sübuta yetirmişdir. Müəllifin rəhbərliyi altında aparılan bu cür arxeoloji qazıntılar Azərbaycan arxeoloqlarının gələcək tədqiqi işlərinin genişləndirilməsində və Azərbaycan xalqının qədim tarixinin elmi cəhətdən daha irəli aparıb onun zənginləşdirilməsində böyük əhəmiyyəti olmuşdur. Bu sahədə qazanılmış elmi nailiyyətlərin və arxeoloji qazıntılar nəticəsində toplanmış zəngin təcrübənin nəticəsi idi ki, XX əsrin 70-ci illərində Naxçıvanın qədim və orta əsrlər şəhər mədəniyyəti tarixinə dair bir sıra qiymətli kitablar, o cümlədən, V.Əliyevin " Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti" /Bakı 1977/ və " Qədim Naxçıvan" /Bakı 1979/, R.Məmmədovun "Naxçıvan şəhərinin tarixi oçerki"/Bakı 1977/, O.Həbibullayevin "Енеолит и Бронза на территории Нахичеванской АССР"/ Bakı 1982/ əsərləri nəşr olunaraq bu dövrə qədər Azərbaycanın qədim tarixi dövründə olan boşluğu qismən tamamlamışdır. 1968-1972-ci illərdə qədim Naxçıvan ərazisində İkinci Kültəpə adı ilə tanınan yerdə aparılan arxeoloji tədqiqatlar elmi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Burada 1500 kv. m sahədə aparılan arxeloji qazıntılar nəticəsində arxeoloq V.Əliyev "Крепостные стены Кюлтепе II". (Археологицеские откирития 1973 г /Mockva 1974/ adlı elmi məqaləsində göstərir ki, "Kür-Araz mədəniyyətinə / e.ə.III minillikdə/, Orta tunc dövrünə, eləcə də e.ə.II minilliyin birinci yarısına və I minilliyin əvvəllərinə aid təbəqələr qazılaraq zəngin maddi-mədəniyyət qalıqları aşkara çıxarılmışdır".

Görkəmli sovet arxeoloqu O.M.Çaparidze "Археологические раскопки в Триалети" /Тиблиси, 1969/ adlı əsərində qədim Naxçıvan mədəniyyətindən bəhs edərək yazır ki, "Qafqaz xalqlarının həyat tərzində 5000 il bundan əvvəl / e.ə.III minillik/-baş vermiş iqtisadi, ictimai və siyasi dəyişiklikləri, onların mədəni inkişafı, Yaxın Şərq ölkələri və Şərqi Avropa tayfaları ilə iqtisadi mədəni əlaqələrini öyrənmək baxımından Kür-Araz mədəniyyəti abidələri mühüm elmi əhəmiyyət kəsb edir".

Beləliklə, arxeoloqlarımızın yuxarıda göstərdiyimiz əldə olunan maddi-mədəniyyət abidələri belə bir düzgün elmi nəticəyə gəlməyə imkan verir ki, hələ eramızdan çox-çox əvvəl qədim Naxçıvanda əhalinin sayı artmış, yaşayış sahəsi genişlənmiş, iqtisadiyyat və mədəniyyətin inkişafı sahəsində bu proses sonralar daha da gücləndiyindən ilkin şəhər mədəniyyəti meydana çıxmışdır.

Naxçıvan şəhərinin belə bir qədim tarixə malik olması onun təbii olaraq toponomiyasının müəyyənləşdirilməsi məsələsini xeyli çətinləşdirir. Məhz elə buna görə də toponomika məsələləri müxtəlif dövürlərdə yaranmış ayrı-ayrı müəlliflərin əsərlərində səslənmişdir. Məsələn, Klavdi Ptolomeyin (eramızın II əsri) "Coğrafiya" əsərində Naxçıvan "Nakcuana", Sasani hökmdarlarına görə isə " Naxq" (ehtimal olunur

ki, Sasani hökmdarları Naxçıvanı zəbt etdikdən sonra şəhərdə öz adlarına kəsdikləri sikkələr üzərində Naxçıvan sözünü qısaca olaraq "Naxq" kimi yazmışlar) kimi qeyd olunurdu. P.Məmmədov "Naxçıvan şəhərinin tarixi oçerki"(Bakı 1977) adlı əsərində " Meycəm əl-buldan", "Münəccim Başı", kimi orta əsr ərəb məxəzlərinə istinad edib göstərir ki, həmin əsərlərin müəllifləri Naxçıvan şəhərin "Nəxcuan", "Nəşavə", yaxud "Nəşəvi", IX-XI əsr ərəb coğrafiyaşünaslarının əsərlərində "Nəşəva", yəni böyüyən, inkişaf edən,XI-XVII əsirlərə aid Şərq məxəzlərində isə "Naxçəvan" və "Nəxcəvan" şəklində işlədildiyini söyləyir. Hətta orta əsr müəllifi Yaqut Həmivinin əsərində Naxçıvan şəhəri həm "Nəşəva", həm də "Naxçıvən" kimi qeyd olunmuşdur. Müəllif bu münasibətlə yazır: "Nəşəva Azərbaycanda şəhərdir... Ermənistana yaxındır. O, xalq arasında Nəxcuan adı ilə də məşhurdur. Yeri gəlmişkən qeyd edək ki, Naxçıvan ərazisində hal-hazırda qalmaqda olan abidələr üzərində şəhərin adı "Nəxcuvan" formasında yazılmışdır.

Bəzi orta əsr Azərbaycan, türk və iran müəlliflərinin (Məhəmməd İbn Hinduşah Naxçıvani, (XIV əsr), Həmdullah Qəzvini, Övliyya Çələbinin XVII əsr) əsərlərində və.b.) əsərlərində isə Naxçıvan "Nəqşi-cahan" (yəni dünyanın bəzəyi) formasında işlənilir. Həmdullah Qəzvini bu münasibətlə yazır ki, "Şəhər gözəldir və ona nəqşi-cahan deyirlər". Azərbaycan dilçilərindən A.Axundov "Torpağın köksündə tarixin izləri" ("Bakı 1983") adlı kitabında Naxçıvan sözünün etnologiyasına dair yuxarıda göstərilənlərdən əlavə elam dilindəki Nahhunte (elamlılarda allah adıdır) sözündən əmələ gəlməsini söyləyir. Məşhur elamşünas alim Yusif Yusifov "Toponimikanın əsasları" (Bakı 1987) adlı əsərində isə Naxçıvan sözünü Naksu-ana Naxçu-an formasında göstərərək toponimun tərkibindəki ana//an hissəsini məkan, yer anlamında, adın kökünü isə iki hissədən Nak//Nax və Şu//Çu hissələrindən ibarət hesab edərək Nak//Nax sözünün qədim türk sözü kimi "yaxşı, xoş", çu//şu hissəsini isə "su" sözü ilə bağlayıb adın mənasını "dadlı su yeri", "xoş", dadlı "su" kimi izah edir.

Naxçıvan adının mənası və mənşəyi haqqında isə bir-birinə zidd olan bir neçə elmi və dini fərziyyələr və xalq etimologiyaları mövcuddur. Lakin hələlik təklif olunan mənaların heç biri inandırıcı deyildir.

Tədqiqatçıların bir qrupu məşhur "Ümumdünya daşqını"na əsaslanaraq Naxçıvanı Nax (ilk, birinci) və içevan (düşərgə) sözlərindən yaranmış hesab edərək "ilk düşərgə" kimi mənalandırmış, bəziləri isə adın tərkibindəki "çıvan" hissəsini " cavan" sözü ilə bağlayaraq toponimdə " ilk cavanlıq yeri" mənasını görmüşlər. Bəllidir ki, "Ümumdünya daşqını" və "xilaskar gəmi" anlayışı ilk dəfə "Bilqamıs" adlı şumer dastanında əks olunmuşdur. Sonradan bu əfsanə "Tövrat"a oradan isə "Qurana" keçmişdir. Şumer dastanı "Bilqamıs"da gəmi qayırıb insanları xilas edən Untapiştininr adı müvafiq surətdə "Tövrat"da Noy, "Quran"da isə Nuh kimi verilmişdir. Göründüyü kimi, Nuh antroponimu ilk dəfə olaraq eramızın VII əsrindən yazılı mənbələrdə (Əlbəttə, "Quran"dan sonra) qeyd edilməyə başlamışdır. "Ümumdünya daşqını" ndan bəhs edən qədim dövr əsərlərinin heç birində -nə eradan əvvəl III əsrdə Babil tarixçisi Berosun, nə IV əsr antik yazıçısı Epifaninin, nə V əsr tarixçisi Flostorqinin, nə IV-V əsrlərdə yaşamış Yevsevi Heronimin əsərlərində və nə də qədim yəhudi dini kitabı "Tövrat"da Naxçıvanın adı çəkilmir, Naxçıvan toponiminin "Quran"dan daha qədim olduğunu söyləyə bilərik. Naxçıvan toponiminin "Naxç" tayfasının adı ilə əlaqələndirilməsi də qeyri-elmdir. Çünki Naxçıvan adı "Naxç" etnonimindən daha qədimdir.

XXI əsrin birinci on illiyində Naxçıvan bölgəsinin, xüsusən Naxçıvan şəhər tarixinin daha dərindən tədqiq edilməsi sahəsində Naxçıvan MR-sı rəhbərliyinin qəbul

etdiyi qərarlar və bunların icrası üçün yaradılmış yüksək dövlət qayğısı öz müsibət nəticələrini vermişdir. AMEA Naxçıvan bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitunun arxeoloq və etnoqrafları Gəmiqayada apardıqları elmi tədqiqatlara əsaslanaraq belə bir nəticəyə gəlmişdilər ki, Nuh əfsanəsinin istər coğrafi, istər toponomik, istərsə də etnoqrafik baxımından Naxçıvanla bağlılığı danılmaz həqiqətdir. AMEA müxbir üzvü V.Əliyev isə öz tədqiqatlarında qeyd edir ki, 4000-5000 il bundan əvvəllər Azərbaycanın ən qədim mədəniyyət ocaqlarından biri olan Naxçıvan bəşəriyyətin ilkin sivilizasiyasının mərkəzi olan Şumer dövlətləri ilə sıx iqtisadi-mədəni əlaqələr saxlamışdır. (Vəli Əliyev Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı, XXI UNE, 2002-ci il, səh,19). Odur ki, ümumşərq dünyası üçün səciyyəvi olan bir çox qədim miflər Naxçıvanda yaşayanların da yaddaşında qalmış və bu günümüzə gəlib çatmışdır. Şummer abidələrində olan təsvirlər özünü Gəmiqaya təsvirlərində də əks etdirir. Qədim Naxçıvan şəhəri əlverişli iqtisadi və hərbi strateji ərazidə yerləşdiyindən qədim və orta əsrlərdə bu və ya digər dövlətlər, xüsusən, Roma imperiyası və sasanilərin (III-VI əsrlərdə) hərbi əməliyyat meydana çevrilmişdir. Roma dövləti bu əraziyə yiyələnərək atəşpərəstlik məbədlərini dağıdaraq əvəzində xiristian abidələri ucaltmış, ölkənin iqtisadiyyatını xeyli zəiflətmişdir. Lakin müharibələrin müvəqqəti dayandırılması ilə əlaqədar olaraq şəhərin təsərrüfat həyatı yenidən canlanıb yüksəlmişdir. A.K.Nikitin o dövr Naxçıvan şəhər həyatından bəhs edərkən yazır ki, bu dövrdə şəhər həddən artıq varlı həyat keçirdiyindən burada ticarət əlaqələri də xeyli güclənmişdir. Müəllifə görə hələ IV əsrdə şəhərdə 150000 əhalini əhatə edən 30000 ev mövcud idi".

VII əsrdə Azərbaycanın başqa şəhərləri kimi, Naxçıvan şəhəri də Ərəb istilasına məruz qalmışdır. Şəhər əhalisinin kəskin müqavimət göstərməsinə baxmayaraq 644-cü ildə Naxçıvan xilafət qoşunları tərəfindən zəbt olunub islam dinini qəbul etməli olmuşdular. Ərəb zülmünə qarşı mübarizə Azərbaycan və Ermənistanın bir çox şəhər və kəndlərində daha ciddi xarakter almışdı. Xilafətə qarşı çevrilmiş bu hərəkatda istismar olunan xalq kütlələri ilə bərabər, ərəb canişinləri tərəfindən iqtisadi və siyasi hüquqlardan məhrum edilən yerli feodallar da iştirak edirdilər. Belə bir vəziyyətdən qorxuya düşən müxtəlif ərəb əmirlərinin cəza dəstələri xalq hərakatını amansızcasına yatırmışdılarsa da hələlik bəzi yerlərdə tam sakitlik yarada bilməmişdilər.

Qədim və orta əsrlər tarixinin tədqiqi üzrə nəinki keçmiş SSRİ-də ,hətta xaricdə də tanınmış gökəmli alim, akademik mərhum Z.M.Bünyadov bu məsələ ilə əlaqədar özünün "Azərbaycan Atabəyləri dövləti" (Bakı 1984) adlı monoqrafiyasında Türkiyə ərazisindəki epiqrafik abidələrin tədqiqində məşhur mütəxəssis kimi tanınmış akademik İ.A.Orbelininin "Baqavanskaya надпись" və "Надпись о построение церкви в Нахичевани" (Изб.труды. Ереван. 1963) adlı əsərlərinə istinad edib göstərir ki, İ.A.Orbeli Türkiyənin Kars vilayətindəki yaşayış məntəqələri arasında Naxçıvan yaşayış məntəqəsinin və həmin yaşayış yerində VII əsrin sonlarına aid bir kilsənin də adını çəkir. Müəllifin Türkiyə, Naxçıvanı və oradakı kilsə haqqındakı İ.A.Orbelinin həmin məqaləsində göstərdiyi sitat belədir: "Naxçıvan məbədi xarabalıqlar içərisində qalmışdı, lakin sonradan camaat özlərinin dini ehtiyaclarını ödəmək üçün kilsəni tikmək qərarına gəldi. Bu məqsədlə əhali uçulmuş divarların ...yenidən özülə tikdilər. Bu işlərə rəhbərlik edən bənna mənə xəbər verdi ki, məbədin daşlarında *yanığın izləri* var, onların üzü tökülmüşdür, buna görə də bütün daşları yenidən yonmaq lazım gəldi."

Beləliklə, İ.A.Orbelinin yazısından göründüyü kimi VII əsrin sonlarında ərəb sərkərdəsi Məhəmməd ibn Mərvan tərəfindən müəyyən təqibə məruz qalan erməni knyazları Azərbaycanın ən qədim və doğma şəhəri hesab olunan Naxçıvanda deyil,

Türkiyənin Qars vilayətindəki Naxçıvan yaşayış məntəqəsində olan kilsədə müəyyən maneələrlə üzləşmişlər. Məhz buna görə də müasir bir qrup orta əsr tarixçilərinin indiki Naxçıvanı Azərbaycan şəhərləri sırasından çıxarmaq cəhdləri əbəsdir. Digər tərəfdən, yuxarıda göstərildiyi kimi arxeoloqların eramızdan əvvəl mövcud olmuş qədim Naxçıvan şəhəri ərazisində apardıqları arxeoloji qazıntılar nəticəsində əldə etdikləri maddi-mədəniyyət nümunələri sırasında heç bir kilsə və heç bir xristian abidələrinin izinin belə olmaması da Naxçıvanın Azərbaycanın doğma şəhərlərindən biri hesab olunmasını bir daha sübuta yetirir.

VII-IX əsrlərdə ərəb canişinlərinin özbaşınalığına baxmayaraq Naxçıvan şəhəri xilafətin əsas hərbi dayaq məntəqələrindən biri olduğuna görə X-XI əsərlərlə şəhər həyat tərzi yenidən dirçəlmişdir. Bu dirçəliş XII əsrdə daha da yüksələrək Naxçıvanı bütün Şərq aləmində ən inkişaf etmiş şəhərlər sırasına çıxararaq bəşəriyyətə görkəmli şəxslər bəxş etmişdir.

Naxçıvanda doğulmuş, orada yaşamış və yaratmış Əcəmi Əbubəkir oğlu Naxçıvanı özünün əvəzedilməz böyük memarlıq sənətkarlığı ilə məhz bu dövrdən bütün dünyada tanınmışdır. Qərbdə memarlıq əsərlərinin hələ anonim şəklində yarandığı bir vaxtda Əcəmi bizə məlum olan şah əsərlərinin müəllifi kimi tanınır. O, həm də Azərbaycanda ilk memarlıq məktəbinin əsasını məhz Naxçıvan şəhərində qoymuşdur. Zəmanəmizə qədər mövcud olan memarlıq məktəbinin yaratdığı abidələr sırasında Yusif Küseyir oğlu türbəsi (1162), Möminə xatın türbəsi (1186), Naxçıvan Cümə məscidi (XI-XII əsr), Gülüstan türbəsi (XIII əsrin əvvəlləri) xüsusi yer tutur.

Naxçıvan ərazisinin bəşəriyyətin ilkin ibtidai insan izlərinin əsas mərkəzlərindən birinin hesab olunmasına dair obyektiv elmi tədqiqatlar xüsusən XX əsrin 90-cı illərindən sonra daha doğrusu Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra ölkəmizdə yüksək dövlət qayğısı sayəsində həyata keçirilən böyük tədbirlər nəticəsində mümkün olmuşdur.

Bu mənada Naxçıvan MR-ın rəhbərliyinin xalq təsərrüfatının ayrı-ayrı sahələrinə, o cümlədən elmi tədqiqatların bəşəri və milli dəyərlər baxımından yenidən işlənilməsi məqsədi ilə verilmiş sərəncam, elmi məsləhət və tövsiyələr xüsusi əhəmiyyət kəsb edir.

Məhz dövlət tərəfindən yaradılmış bu yüksək qayğıya cavab olaraq tədqiqatçılarımız Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-da son illər tariximizin müxtəlif sahələrinə dair, xüsusən də Naxçıvanda ilk ibtidai insan məskənlərinin tədqiqatı sahəsində sanballı elmi nəticələr əldə etmişlər. Son tədqiqatların elmi cəhətdən daha tutarlı olmasını və onun dünya alimləri tərəfindən birmənalı şəkildə müdafiə edilməsinin bir səbəbi də bu sahə ilə məşğul olan və dünya elmində tanınan xarici ölkə alimləri ilə o cümlədən ingilis, amerikan, fransız, türk tədqiqatçıları ilə yerli tədqiqatçıların birlikdə işləmələri və onların əldə etdikləri maddi-mədəniyyət tapıntılarını laboratoriya analizindən keçirib onlara dair elmi təhlillər aparıb qarşılıqlı razılaşma əsasında mətbuatda çıxışlar edib, beynəlxalq elmi konfranslarda Azərbaycan elmi barədə yüksək fikir yaratmaqla, Naxçıvana əsassız ərazi iddiasında olan erməni cığırdaşlarına və onların havadarlarına verilən layiqli elmi cavabdır.

Bu cür elmi cəhətdən tutarlı və sanballı əsərlər Azərbaycan Milli Elmlər Akademiyasının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutları , xüsusən həmin akademiyanın Naxçıvan bölməsi və Naxçıvan Dövlət Universiteti alimlərinin tədqiqatları sayəsində işıq üzü görmüşdür.

Bu tədqiqatlar Naxçıvandakı Kilid, Daşqala, Qazma kimi mağaralarda, Batabatın dağ və yamaclarında, II Kültəpə qədim yaşayış kimi onlarla yerlərdən daş dövrünə dair

tapılan əşyalar burada ibtidai insan izlərinin olmasını sübuta yetirir, həmin ərazilərin dünyanın ən qədim ərazilərindən biri olduğunu göstərir.

Naxçıvan ərazisindəki ilkin insan məskənlərinin əsas tədqiqatçılarından biri sayılan AMEA-nın müxbir üzvü Vəli Əliyev yazır ki, "Bütün Qafqazda, Cənubi Azərbaycanda (Urmiyada), Ön Asiyada, (Suriya, Fələstin və.b.) geniş yayılmış Kür-Araz mədəniyyətinin əsas vətəni Naxçıvan diyarıdır. Odur ki, Kür-Araz mədəniyyətinin ən zəngin və qalın yaşayış yerləri (I Kültəpə, II Kültəpə, Maxta, Ovçular təpəsi, Daşarx və b.) Naxçıvan ərazisindədir.

Təbii ki, əlverişli coğrafi iqlim şəraitinə malik olan Naxçıvan ərazisi ilk ibtidai insan mərkəzlərindən biri olduğu kimi, qədim insanların maddi nemətlər uğrunda mübarizəsi nəticədə əmək alətlərinin təkmilləşdirilməsinə, ilk əmək bölgülərinin meydana çıxmasına, müxtəlif peşə sahibi tayfaların formalaşması sayəsində və nəhayət burada şəhər mədəniyyətinin də erkən yaranmasına səbəb olmuşdur. Belə ilkin şəhər tipli mərkəzlərdən II Kültəpə, Govurqala (Şahtaxtı), Qarabağlar, Oğlanqala, Pilovtəpə və Qazançı kimi qalalarda ilkin şəhər mədəniyyətinə dair maddi-mədəniyyət nümunələri kifayət qədərdir.

Son tədqiqatlar Naxçıvan ərazisində ilk ibtidai insan izləri, icmanın yaranması, onun daxilindəki parçalanmalar, müxtəlif peşə sahələrinin formalaşması və nəhayət şəhər mədəniyyətinin meydana çıxması sahəsində XX əsrin 50-80-ci illərində Naxçıvan bölgəsi tarixinə dair əldə olunmuş, elmi nailiyyətlərə hörmətlə yanaşıb onların elmi-metodiki məktəblərinə söykənməklə müstəqilliyimizin bizə bəxş etdiyi şəraitdən istifadə edib apardıqları arxeoloji qazıntılardan əldə etdikləri tutarlı faktlar əsasında dünya miqyasında Naxçıvan şəhər mədəniyyətinin daha, 5000 il bundan əvvəl meydana çıxdığını sübut etməyə yönəlmişdir.

Azərbaycanın o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ədəbi və mədəni mühitinin tədqiqində xüsusi xidmətləri olan, tanınmış görkəmli ədəbiyyatşünas alim, akademik İsa Həbibbəyli Naxçıvanda şəhərsalma mədəniyyəti izlərinin olması barədə keçmiş SSRİ arxeoloqlarının o cümlədən Qafqaz və Azərbaycan arxeoloqlarının maddi mədəniyyət tapıntılarına, qədim, orta əsr, yeni və ən yeni tarixi qaynaqlara söykənməklə Naxçıvan şəhərinin yaşı barədə öz elmi mülahizələrini yekunlaşdıraraq yazır: " Naxçıvan şəhərinin tarixi insanlığın yaranmasının başlanğıc dövrləri ilə bağlıdır. Naxçıvan bəşər sivilizasiyasının ilk şəhər tipli yaşayış məskənlərindən biridir... Naxçıvan şəhərinin 5 min illik yaşını təsdiq edən dəlil sübutlar kifayət qədərdir".

## ƏDƏBİYYAT


1. Обозрение Российских владений Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отнощениях IV hissə Спб. 1836.с.110.
2. Овлия Челеби.Книга путешествивия. вын. Москва. 1983. С.48.
3. Статистическое опасание Нахичеванской провинции. Спб.1833.с.27.
4. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Спб. 1852. С.24.
5. Şərq qapısı qəzeti; 24 aprel, 2012-ci il № 24.
6. O.A.Həbibullayev Некоторые итоги изучение на холме Кюл Тепе в Азербайджане.СА. 1963.№3.с.38; yenə onun O.A.Həbibullayev Энолит и бронза на территории Нахчеванской АССР . Elm. 1982-ci il səh.6-19.
7. R.Məmmədov Naxçıvan şəhərinin tarixi oçerki (orta əsr dövrü). Bakı 1977. səh 17.

8. Vasif Yusifov. Toponimikanın əsasları. Bakı 1987.səh.36.
9. Naxçıvan MR-nın qərarlar.
10. Vəli Əliyev. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı, XXI UNE, 2002-ci il, səh.19.
11. К.А.Никитин. Город Нахчевань и нахчеванской уезд. СМОМПК (Сборник материалов для описания местностей и племен Кавказа) вын. Тифлис 1882. С.17.
12. Z.M.Bünyadov. Azərbaycan Atabəylər dövləti. Bakı, 1988-ci il, səh. 28.
13. V.Əliyev göstərilən əsəri. Səh. 12.
14. İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı- "Nurlan" 2007-ci il səh. 631-632.

**Elbrus İSAYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN ŞƏHƏR MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI VƏ İNKİŞAFINDA TİCARƏT VƏ SƏNƏTKARLIĞIN ROLU

Arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələri təsdiq edirlər ki, Naxçıvan bölgəsi ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuşdur. Şübhəsiz ki, tədqiq olunan bölgədə yaranan ilk şəhər Naxçıvan şəhəri olsa da, zaman keçdikcə, bu ərazidə yeni şəhərlər də meydana gəlmişdir.

Müşahidələrimiz və hazırki zamanda yerləşdikləri coğrafi mövqe də təsdiq edir ki, bu şəhərlər əsasən ərazidən keçən mühüm ticarət yollarının üzərində yerləşmişdir. Bu şəhərlərin bəzisi yarandıqdan sonra ticarət və sənətkarlıq mərkəzinə çevrilsə də, bəzilərinin yaranmasında şəhərin salındığı ərazidən keçən ticarət yollarının mühüm rolu olmuşdur.

Arxeoloji tədqiqatlara əsaslanaraq deyə bilərik ki, ilk insanlar arasında ticarət yolları tunc dövrünün əvvəllərindən yaranmağa başlamışdır. Hələ o vaxtdan ən çox ehtiyac duyulan məhsulların mübadiləsi gedirdi. Tayfa daxilində, qonşu tayfalar arasında aparılan bu mal mübadiləsinin miqyası getdikcə daha da genişlənir və ticarətə çevrilirdi. Əvvəlcə bu mal mübadiləsi fasilələrlə olurdu. Lakin sonralar həm fasilələr aradan qalxır, həm də mal gətirilməsinin marşrutu uzadılırdı. Beləliklə, nisbətən asan və təhlükəsiz istiqamətlərə gedən ticarət yolları təşəkkül tapırdı. Eyni zamanda artıq bu işlərlə məşğul olan xüsusi adamlar - dəllallar, ticarətçilər meydana gəlirdi. Onlar ən zəruri və qiymətli mallar, məsələn, duz, bəzək şeyləri, metallar gətirirdilər. Mis və qalay olan yerlərə tez-tez səfər edirdilər.

Qədim və orta əsr müəlliflərinin əsərlərində verilən məlumatlar da təsdiq edir ki, şəhərlər əsasən ərazidən keçən ticarət yollarının üzərində salınmış, ticarət və sənətkarlıq mərkəzləri kimi inkişaf etmişlər. Bu yol üzərində yerləşən yaşayış yerləri və qəbir abidələrində aparılan arxeoloji qazıntılar zamanı küllü miqdarda başqa ölkələrdən gətirilən avadanlıq (pullar, bəzək şeyləri, silahlar, möhürlər, metal və gil qablar, fil sümüyü və rəngli daşlardan hazırlanan fiqurlar və s.) tapılmışdır. Arxeoloji tapıntılar göstərir ki, tarixin bütün dövrlərində bu yoldan istifadə olunmuşdur. Şimalın köçəri tayfaları da (skiflər, sarmatlar, xəzərlər) zəngin cənub ölkələrinə qarətçi hərbi yürüşlər edərkən bu yoldan istifadə etmişlər.

Bu ticarət yolları üzərində daşınan məhsulların dəyərinə görə müxtəlif əmtəələrin adı ilə simvolizə olunurdu. Tarixi mənbələrdə «ipək», «çay», «baharat», «ətriyyat», «şüşə», «Həcc» yolu və.s kimi adlandırılan karvan yolunun ən işlək qollarından biri uzun müddət şərq və qərb ölkələrinin böyük maraqla qarşıladıqları Naxçıvan duzunun da daşındığı «Duz yolu» olmuşdur.

Böyük Britaniyadan alınan qalay və sink, Transilvaniyadan qızıl, Bohemiyadan qurğuşun, mis və digər mallar Çindən və Hindistandan gələn «ipək» və «çay» yolları ilə aparılırdı. Ərəbistandan ətirli maddələr, Baltik və Şimal dənizi sahillərindən gətirilən kəhrəba «ətriyyat» yolu (1, s.13), Naxçıvanın məşhur daş duzu isə məhz «Duz yolları» vasitəsilə dünyanın müxtəlif ölkələrinə çatdırılırdı.

Qədim zamanlardan başlayaraq əhəmiyyətli məişət və müalicə vasitəsi kimi qiymətləndirilən duz demək olar bütün insanlar üçün əvəzolunmaz maddəyə

çevrilmişdir. Qədim Misirdə duzdan həm xörək üçün, həm də balığı və ev quşlarının ətini duzlamaq üçün istifadə edirdilər. Şumerdə duza səcdə var idi. Onun əldə edilməsi və paylanması dövlətin nəzarəti altında aparılırdı. Qədim vaxtlarda Hollandiyada məhbusları cəzalandırmaq üçün onlara duzsuz yemək verərdilər. Nəticədə adamlar bir neçə aydan sonra həyatla vidalaşırdılar. Bu göstərir ki, duz olmadan yaşamaq mümkün deyil, həyat mənasını itirir.

İslam aləmində duzun dəyişməzliyini əsas tutaraq sazişləri duzla təsdiq edirdilər. Qədim yunan və Roma mütəfəkkirləri duzu yüksək qiymətləndirir və yazırdılar ki, bu maddə çörəkdən savayı bütün qidaları əvəz edə bilər. Onu «Tanrı sovqatı» adlandırırdılar. Dini kitablarda duz sədaqət, müqəddəslik, saflıq, allahlarla xalqlar arasında birlik rəmzi kimi dəyərləndirilir.

Elə bu gün də Naxçıvan ərazisində duz-çörək müqəddəsliyi haqqında el arasında yaşayan aforizmlər bölgənin iqtisadi və mənəvi həyatında duzun yüksək əhəmiyyətini ifadə edir. Vaxtilə Çində duz pulların olmasından söz açan məşhur italyan səyyah Marko Polo onların necə hazırlanmasını belə təsvir edir: «Duzlu suyu böyük tiyanlarda qatılaşana qədər qaynadır, sonra kiçik paylara ayırıb üstünə imperatorun möhürünü vururlar. Duz pulların metal pullara oxşaması üçün onları kürədə bişirirlər». Orta əsrlərdə bir sıra Avropa şəhərlərində vergiləri duzla ödəyirdilər.

Sadaladığımız məlumatlar sübut edir ki, duz sadəcə məişət maddəsi kimi deyil həmçinin müxtəlif ayinlərin, sənətkarlıq nümunələrinin, dini-ideoloji təfəkkürün formalaşmasında dəyərli məhsul idi. Bu baxımdan qədim və orta əsrlər dövründə yaxın uzaq ölkələrin Naxçıvan duzuna olan marağı, qədim karvan yollarına (İpək yolunun fəaliyyətindən əvvəl E.İ.) simvolik olaraq «Duz yolu» adı verilməsi məhz bu yolda daşınan məhsullar içərisində ən qiymətli məhsulun duz olmasından xəbər verir.

Naxçıvan ərazisindən keçən karvan yolları boyunca inşa edilmiş karvansaraların, körpülərin, ovdanların və eləcə də bazar meydanlarının qalıqları vaxtilə burada gərgin ticarətin aparılmasını təsdiq edən tarixi şahidlərdəndir. Bu abidələrin günümüzə gəlib çatması, eyni zamanda keçmişdə şəhərlər arasında aparılan ticarət yollarının hansı istiqamətdə getdiyini müəyyən etməkdə bizə köməklik edir.

Böyük İpək yolu üzərində şəhərlər mühüm strateji məntəqə kimi böyük əhəmiyyət kəsb edirdi. Naxçıvan bölgəsində də qədim və orta əsrlər zamanı yaranmış şəhərlər mühüm ticarət, sənətkarlıq və mədəniyyət mərkəzləri kimi inkişaf edirdilər. Həmdullah Qəzvininin verdiyi məlumata görə, XVI yüzillikdə Naxçıvan tüməninə 5 şəhər daxil idi. Bu şəhərlərin Naxçıvan, Əncan, Ordubad, Azad və Maku şəhərləri olduğu göstərilir (2, s.51).

Orta əsrlərdə Azərbaycanın inkişaf etmiş ticarət şəhərləri içərisində Naxçıvan, Ordubad, Azad, Gilan və Qarabağlar şəhərləri xüsusilə fərqlənmişlər. Naxçıvan bölgəsinin şəhərləri içərisində nəinki Azərbaycanda, hətta Yaxın Şərqdə qədim mədəniyyət mərkəzlərindən, şəhər mədəniyyətinin yarandığı ilk ocaqlardan biri olan Naxçıvan şəhəri xüsusi yer tutur. Tarixi mənbələrdə Böyük İpək yolunun bir qolu da Ekbatandan ayrılıb Albaniya ərazisinə keçdiyi, qədim Qəbələ, Bərdə və Naxçıvandan dolanaraq yenidən Bağdada əsas yola qovuşduğu göstərilir.

Yaxın Şərqin qabaqcıl mədəniyyət mərkəzləri ilə coğrafi yaxınlıq, eyni zamanda ərazinin mühüm ticarət yollarının keçdiyi əlverişli bir mövqedə yerləşməsi Naxçıvan tayfalarının həyatına çox böyük təsir göstərmiş, burada erkən şəhər

mədəniyyəti və sinifli cəmiyyətlərin ünsürləri daha tez meydana gəlmişdir. Hətta Naxçıvan ərazisində zəmanəmizədək mühafizə olunan bir sıra maddi mədəniyyət qalıqları mövcuddur ki, bu abidələr Yaxın Şərq xalqlarının qədim tarixinə, mədəniyyətinə dair bir sıra problem məsələlərin tədqiqi baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Naxçıvan ərazisindəki Çalxanqala və Oğlanqalanın qala divarları ilə Yaxın Şərq ölkələri şəhərlərinin müdafiə sistemləri arasında, onların planlaşdırılmasında və tikinti texnikasında olan yaxın oxşarlıq dediklərimizə ən tutarlı faktlardan biridir (3, s.52).

Beləliklə, bölgədəki arxeoloji abidələrin tədqiqi bir daha sübut edir ki, Naxçıvan ərazisi hələ e.ə. III-II minilliklərdə Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələrə malik olmuşdur. Antik müəlliflərin əsərlərinə də nəzər salanda bunu bir daha aydın görmək olur. Lakin Naxçıvanın bir şəhər kimi təşəkkül tapması, insanların həmin yerdə məskən salması prosesindən xeyli sonralar baş vermişdir (4, s.9). Naxçıvan ilkin şəhər mədəniyyətinin ən möhtəşəm nümunələrindən biri olmuşdur. Təsadüfi deyil ki, tarixi mənbələrdə Naxçıvan zonasını digər yaşayış məskənlərindən fərqli olaraq öz möhkəmliyi ilə qədim Şərqdəki şəhər-dövlətlərə bənzədiyi göstərilir. Naxçıvan şəhəri orta əsrlərdə möhtəşəmliyi ilə diqqəti cəlb etmişdir. XIII əsrə aid «Əcaib əd-dünya» («Dünyanın qəribəlikləri») adlı əsərdə deyilir: «Orada çoxlu saray, köşk və eyvan vardı. Şəhərin yaxınlığında daşdan qala tikilmişdir. Qalada mədrəsə və məscid vardır... Bütün binalar gəcdən və bişmiş kərpicdən inşa edilmişdir» (5, s.209).

Orta əsrlər dövründə Naxçıvan özünün məhsuldar bazarları ilə də şöhrət tapmışdı. Naxçıvan bazarı böyük və izdihamlı olardı. Burada müxtəlif ölkələrdən gəlmiş tacirlərə təsadüf edilirdi. Bazarda Çindən, Misirdən, İrandan, Türkiyədən, Hindistandan, İraqdan, Orta Asiyadan gətirilmiş müxtəlif növlü mallarla yanaşı mahir azəri sənətkarları tərəfindən yüksək zövqlə hazırlanmış əşyalar – saxsı və mis qablar, xalçalar, parçalar, zərgərlik məmulatları və s. satılırdı. Yerli ustaların ağacdan hazırladıqları qəşəng məişət və bəzək əşyaları dünyanın bir çox ölkələrinə aparılırdı (6). Yaxın Şərq ölkələrindən öz növbəsində buraya müxtəlif əmtəələr gətirilirdi. Həmin əmtəələr içərisində ədviyyat, müxtəlif ipək parçalar, şirli saxsı qablar, fayans, seladon, metal əşyalar və s. var idi (7, s.55).

Azərbaycanın çox mühüm strateji məntəqəsi və sənətkarlıq mərkəzi olan Naxçıvan haqqında ərəb, fars və Avropa alim və səyyahlarının əsərlərində də maraqlı məlumatlar verilmişdir. XIV əsrin ikinci yarısı və XV əsrin əvvəllərində yaşamış orta əsr Şərqinin tanınmış səyyahı, coğrafiyaşünası və astronomu Əbdürrəşid əl-Bakuvinin qeydlərində Naxçıvan şəhəri bağlı-bostanlı, meşəli, meyvəli və çörəkli bir yer, təmiz havası və şirin suyu olan gözəl Azərbaycan şəhəri kimi göstərilmişdir. Eyni zamanda səyyah Naxçıvanda sənətkarlığın və ticarətin inkişafından söhbət açaraq qeyd etmişdir ki, «Naxçıvanın əhalisi nəqqaşlıqla və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır» (8, s.132).

XVII əsrin məşhur türk səyyahı Evliya Çələbi isə özünün «Səyahətnamə» əsərində XVI-XVII əsrlərdə Naxçıvanın sənətkarlıq və ticarət mərkəzi olduğunu göstərir. Naxçıvan şəhərinin təsərrüfat həyatından bəhs edərək göstərir ki, burada 7 növ pambıq (bəyaz, xaszağı, munlayı, zəfəranı, ləli və s.) bitir, tərifəlayiq taxıl, xüsusilə pərinc, buğda, dörd növ arpa yetişdirilir. Şəhərətrafı bostanlarda lətafətli qovun, qarpız və s. becərilirdi. Naxçıvan üzümü xüsusi şöhrət qazanmışdır. Səyyah şəhərin quruluşu və memarlıq abidələrindən xəbər verərək göstərir ki, şəhərdə 40

məscid, 20 karvansara, 7 gözəl hamam, təqribən 1000 dükan vardır. İmarətlərinin əksəriyyəti gözəldir. Sənətkarlar öz sənət sahələrində çox mahirdirlər. Üzərində naxışlar olan parçalar, süfrə üçün istifadə edilən çitləri dünyada məşhurdur(9, s.118).

Bəzi mənbələrdə isə Culfa sözünün orta əsrlərdə fəaliyyət göstərən tacir təşkilatının adı ilə bağlı olduğunun göstərilməsi, bu ərazidə ticarətin mühüm rol oynadığını, hətta şəhərin salınmasının ticarətlə bağlı olmasını söyləməyə bizə əsas verir. Avropa ilə bir çox Yaxın Şərq ölkələrini birləşdirən və Böyük İpək yoluna xidmət edən ən mühüm yollardan biri də məhz Təbriz-Mərənd-Culfa-Naxçıvan yolu idi (10, s.33). Bu yol vasitəsilə Culfa tacirləri Qərbi Avropanın Venesiya, Amsterdam, Marsel şəhərləri, habelə Suriya, Türkiyə və Hindistanda alver edirdilər.

Təsadüfi deyildir ki, Avropada beynəlxalq ticarətin əsas mərkəzlərindən biri olan Venesiyada «Culfa yolu» adlanan küçə yaranmışdır ki, buraya əsasən Azərbaycandan, İrandan, xüsusilə Culfadan tacirlər düşürdülər (11, s.54).

Orta əsr ticarət yollarının keçdiyi Naxçıvan ərazisində ticarət-iqtisadi cəhətdən mühüm əhəmiyyətə malik olan şəhərlərdən biri də Ordubad şəhəri idi. Həmdullah Qəzvini yazır ki, Ordubad bağlar arasında qərq olmuş mahal şəhəridir. Burada əla üzüm, dənli bitkilər və pambıq becərilir. Sərin suyu Qaban (Qafan) dağlarından gəlir, artıq qalan su Araz çayına tökülür (2, s.51).

Xanlıqlar dövründə də Ordubad şəhəri ticarətdə mühüm rol oynamışdır. Ordubad şəhərində 35 topdansatış dükanı fəaliyyət göstərirdi. Ordubad bazarında 85 dükan var idi ki, onlardan 30-da ipək və pambıq parçalar, mahud, çay, qənd, kofe və s. satılırdı. İxrac olunan mallar əsasən daxildə istehsal olunan pambıq, çəltik, dəri, küncüt yağı, yun, quru meyvə və s.-dən ibarət idi. Bu mallar içərisində gön-dəri məmulatı mühüm yer tutmuşdur. Tarixi çox qədimlərə gedib çıxan, ancaq Tunc dövründən etibarən müstəqil sənət sahəsinə çevrilən «dabbaqlıq» sənəti, digər Azərbaycan şəhərləri kimi, Ordubadın da təsərrüfat həyatında mühüm yer tutmuşdur. Qədim zamanlardan bölgədə heyvandarlığın geniş yayılması bu ərazidə gön-dəri istehsalının və dəri aşılanması sənətinin inkişafı üçün şərait yaratmış və dabbaqlıq burada müstəqil sənət sahəsinə çevrilmişdi. H.Səfərli bölgənin epiqrafik abidələrindən əldə etdiyi materiallara əsaslanaraq bu sənətin adının bir sıra qəbirüstü abidələr, yer və nəsil adlarında bu günədək saxlandığını göstərir (12, s.14-16). Müəllif göstərir ki, qədim və orta əsrlər dövründə sənətkarlıq irsi xarakter daşımış, bəzən atadan oğula keçmişdir. Keçmişdə hər hansı bir sənət sahəsi ilə bəzən bir ailə, yaxud bütün tayfa məşğul olurdu. Onlar adətən bir məhəllədə yaşayırdılar. Ona görə də ayrı-ayrı sənət sahələri ilə bağlı tayfalar və məhəllələr də yaranırdı. Məsələn, Misgərlər məhəlləsində əsasən misgərlər, Dabbaqlar məhəlləsində dabbaqlar, Dulusçular məhəlləsində dulusçular yaşayırdı. Ordubad şəhərinin dabbaqları da bu cəhətdən istisna təşkil etmirdilər və əhali arasında «Dabbaqlar» nəsli kimi tanınırdılar. Həmin nəslin törəmələri hazırki dövrdə gön-dəri aşılanması sənəti ilə məşğul olmasalar da, yenə də şəhərdə keçmişdəki kimi «Dabbaqlar» tayfası kimi tanınırlar (12, s.15). Ordubad həm də Azərbaycanda qədim tarixə malik olan ipəkçiliyin yayıldığı ilk ərazilərdən biri olmuşdur. İpəkçiliyin bu ərazidə geniş yayılmasının və inkişafının başlıca faktorları bu ərazidə münbit hava şəraitinin olması və 40-60-gün ərzində baramaqurdlarının düzgün qidalandırılmasıdır. Eyni zamanda ipəkçiliyin inkişafında iqtisadi amillərin rolu da böyükdür. Çünki bu dövrdə ipək sürətlə inkişaf edərək digər məhsullarla

müqayisədə ən qiymətli mala çevrilmişdir (13, s.47). Ordubaddan Moskvaya, Nijniqorod yarmarkasına xam və boyadılmış ipək aparılırdı (14, s.96).

Etnoqraf və tarixçi, mənşəcə fransız olan İ.İ.Şopen (1798-1870) Ordubadın ticarət əhəmiyyətindən söhbət açaraq, şəhərin mərkəzində iri bazarın və 6 karvansaranın olduğunu göstərir (15, s.482).

Qədim və orta əsrlər dövründə beynəlxalq karvan yolları üzərində mühüm məntəqə sayılan yurd yerlərindən biri də indiyədək gəlib çatmayan, adı yalnız mənbələrdə qeyd olunan Azad şəhəridir. Vaxtilə Azad şəhərinin yerinin müəyyənləşdirilməsi müəyyən mübahisələrə səbəb olsa da, sonrakı araşdırmalarda bu şəhərin Ordubad şəhəri ilə Culfa şəhəri arasında yerləşdiyi sübut edilmişdir. Şəhər inkişaf etmiş ticarət və sənətkarlıq mərkəzi olduğundan ətraf ərazi uzun müddət Kiranla (hazırda Naxçıvan-Ordubad şose yolunun sol tərəfində xarabalıqları qalan Azad kəndindən təxminən 6-7 km şimalda yerləşən orta əsr şəhəri Xaraba Gilanla) birlikdə onun adı ilə Azad-Ciran adlanmışdır (16, s.1; 17, s.10). Bundan əlavə bu şəhərin, həmçinin Culfa şəhərinin ətrafında boyaqçılara satmaq üçün qırmız deyilən böcəklər də toplanmışdır. Bu böcəkdən qırmızı rəng alınmış və boyaqçılıqda geniş istifadə olunmuşdur. Bu iş, orta əsrlərdə olduğu kimi, sonrakı dövrlərdə də davam etdirilmişdir.

Tarixin müəyyən inkişaf mərhələsində Naxçıvan bölgəsində şəhərlərin sırasına daha bir şəhər daxil olmuşdur. Bu Əylis şəhəri idi. Orta əsr qaynaqlarına əsaslanan tədqiqatçılar artıq XVI əsrdə Azərbaycan şəhərləri haqqında danışarkən onların sırasında Əylisin də adını çəkirlər (18, s.211; 19, s.112).

Əylis şəhəri, xüsusilə beynəlxalq ticarətdə mühüm rol oynamışdır. Bu şəhərin tacirləri bir sıra ölkələrə, eyni zamanda Azərbaycan şəhərlərinə gedir, mühüm mallar, xüsusilə ipək alır, onu xarici ölkələrdən gəlmiş tacirlərə satır və yaxud özləri aparıb xarici bazarlarda satırdılar. Şəhərə çoxlu tacirlər gəlib getdiyindən burada ticarət əhəmiyyətli böyük obyektlər, o cümlədən dükanlar, karvansaralar, körpülər və s. inşa edilmişdi.

Orta əsr müəlliflərindən Əylisli Zəkəriyyə öz «Gündəliyi»ndə XVI-XVII əsrlərdə Əylisdə olan və həmin vaxt inşa edilən bu ticarət mərkəzləri haqqında məlumatlar verir. Həmin ticarət obyektlərinin qalıqları indiyədək gəlib çatmışdır. Keçən yüzilliyin 20-ci illərində Naxçıvanda olmuş, Azərbaycanı Tədqiq və Tətöbbə Cəmiyyətinin elmi katibi, rus alimi V.Sısoyev həmin abidələri görmüş və yazmışdır ki, burada yarımdağıdılmış vəziyyətdə olan dükan və karvansaralar vardır (20, s.160).

Orta əsrlərdə Əylis şəhərinin mərkəzində ticarət mərkəzi fəaliyyət göstərmişdir. Bu mərkəzdə, orta əsrlərdə olduğu kimi, sonralar da qaynar ticarət getmişdir. Əylisi memarlıq və şəhərsalma baxımından tədqiq edən R.Salayevanın yazdığına görə, bu mərkəz indi Yuxarı Əylisdə hazırda «poçt yolu» adlanan əsas magistral yolun üzərində olan ticarət mərkəzinin yerində olmuşdur (21, s.137).

Orta əsrlər dövründə Azərbaycanın sosial-siyasi, iqtisadi, mədəni, ticarət və sənətkarlıq həyatında özünəməxsus yeri olan yaşayış məskənlərindən biri də Qarabağlar şəhəri olmuşdur. Şərq ölkələri ilə Qərbi birləşdirən Böyük İpək yolunun Naxçıvandan keçən qolları üzərində yerləşən, bu səbəbdən də böyük mədəniyyət, ticarət və sənətkarlıq mərkəzi kimi inkişaf edən Qarabağlar şəhəri haqqında orta əsr qaynaqlarında təəssüf ki, geniş məlumatlar gəlib çatmamışdır. Bu şəhərin varlığı haqqında geniş məlumatı biz məşhur türk səyyahı, XVII yüzilliyin ortalarında Naxçıvanda olmuş Evliya Çələbinin «Səyahətnaməsi»ndən

alırıq. Səyahətnaməsində Evliya Çələbi şəhər haqqında belə bir məlumat verir: Qarabağlar şəhəri 50 min nəfər əhalisi, 10 minə qədər evi, 40-a qədər minarəsi, 70 məscidi, karvansaraları, bazarları, hamamları, meyvə bağları, üzümlükləri, yaxşı havası və suyu olan bol nemətli bir yaşayış məntəqəsidir. Səyyah yazır ki, buradakı bağların birində gəzərkən Yazdanqulu adlı bir bağban mənə 26 növ armud verdi. «Mələsə», «Abbasi», «Ordubadi» növlərindən olan armudu yeyəndə adam ağzında nabat dadı hiss edir. Burada «yaqut» rəngli nar yetişir. Bu diyarın əhalisinin hamısı müsəlmandır. Bu diyarda erməni və rum yoxdur (9, s.10-11). Beynəlxalq ticarət yolları üzərində inşa edilən bir sıra memarlıq abidələrinin bu ərazidə də aşkarlanması şəhərin ticarət əhəmiyyətli bir məntəqə olduğunu sübut etməkdədir.

Beləliklə, bu cür tarixi, elmi faktlar, səyyahların qeydləri, bir daha göstərir ki, qədim və orta əsrlər dövründə bir çox dünya dövlətlərinin ciddi marağına səbəb olan Böyük İpək yolunun düyün nöqtəsində yerləşən Naxçıvan ərazisi hər zaman diqqət mərkəzində olmuş və dünyanın bir çox ölkələri, o cümlədən uzaq Qərb dövlətləri ilə geniş əlaqələr qurmuşdur.

## ƏDƏBİYYAT


1. İsgəndər H. Azərbaycanın yol tarixi. Bakı: Azərnəşr, 1995, 128 s.
2. Казвини Х. Нузхат ал-кулуб (материалы по Азербайджану). Перевод с английского З.М.Буниятова, перевод с персидского И.Л. Петрушевского. Баку, Элм, 1983, с.37-65.
3. Əliyev V. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 76 s.
4. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın Milli dövlətçilik tarixində: Tar.elm.dok...dis. avtoref. Bakı, 1999, 65 s.
5. عجائب الدنيا
6. Məmmədov R. Qədim şəhər. «Azərbaycan pioneri» qəz., Bakı, 1967, 20 yanvar.
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
8. Əbdürrəşid əl-Bakuvi. «Abidələrin» xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Bakı: Şur, 1992, 176 s.
9. Çelebi E. Seyehatname. II kitab, Ankara: 1998, s.
10. Əliyev F.M. XVIII əsrin I yarısında Azərbaycanda ticarət. Bakı: Azərnəşr 1964, 124 s.
11. Mahmudlu Y. Azərbaycan diplomatiyası. Bakı: Azərbaycan diplomatiyası jurnalının nəşri. 1996, 269 s.
12. Səfərli H. Ordubad şəhərində dabbaqlıq sənəti haqqında // NDU Xəbərlər, 2005, №17, s.14-16.
13. Пашаев А.М. Город Ордубад в XIX начале XX вв. Баку: Элм, 1998, 200 с.
14. Əliyev F.M. XVIII əsrin II yarısında Şimali Azərbaycan şəhərləri. Bakı: Azərnəşr, 1960, 136 s.
15. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, Типография императорской АН, 1852, 1231 с.
16. Nemət M.Aza kəndi-Azad şəhəri haqqında // Elm və həyat jurnalı, 1990, №2, s.1-3.
17. Səfərli F. Bir daha Azad şəhəri haqqında / Ali Diplomatiya Kolleci Naxçıvan Bölməsi. İctimai elmlər, məqalələr məcmuəsi. Bakı: 1998, №1, s.8-12.

18. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
19. Məmmədov S. Azərbaycan XV-XVIII əsrin I yarısında. Bakı: 1981.
20. Сысоев В.М. Древности Нахчыванской ССР, Отдельный оттиск из 4-го выпуска Известий «Азкомстарис»а. Баку: 1928, с.123-215.
21. Салаева Р. Нахчыван. Наследия архитектуры. Баку: 2002, 137 с.

**Nizami ALIYEV**
*AMEA Naxçıvan Bölməsi*

# SUST MƏDƏNİNDƏN TAPILMIŞ QƏDİM DAŞ ALƏTLƏR

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 aprel 2012-ci il tarixli "Naxçıvan: İlkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqındakı Sərəncamı Naxçıvan tarixinin daha dərindən və hərtərəfli öyrənilməsi kimi məsul bir məsələni qarşıya qoymuşdur. Bu vəzifələrdən biri də Duzdağ mədəniyyətinin yenidən və sistemli şəkildə araşdırılması ilə bağlıdır.

Sərəncamda deyildiyi kimi Naxçıvan Muxtar Respublikası ərazisində aparılan elmi tədqiqatlar sübut edir ki, Naxçıvan bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuş, hələ bizim eradan əvvəl 12-ci minillikdən başlayaraq indiki Naxçıvanda intensiv həyat davam etmiş, Yaxın Şərq mədəniyyətlərindən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzinə çevrilmiş və bu ərazidə ikinci sivilizasiyanın vacib elementi olan ilkin şəhər mədəniyyəti formalaşmışdır.

Naxçıvan şəhərinin şəhər kimi formalaşmasına təsir göstərən əsas amillərdən biri də duz istehsalı ilə əlaqədar yaranmış – Duzdağ mədəniyyətinin özünəməxsus yeri olmuşdur. Duzdağ və onun ətrafında aparılan elmi araşdırmalar zamanı tapılmış qədim lağım, tunel və şaxtaların çoxluğu onu sübut edir ki, hələ Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik işi mövcud olmuş, Erkən Tunc dövründə isə ən yüksək mərhələyə çatmışdır. Bu dövrdə duz emalının artması ilə əlaqədar olaraq iqtisadiyyat yüksəlmiş, Yaxın Şərq ölkələri ilə iqtisadi və mədəni əlaqələr olmuş, ilkin sənayenin, ticarətin və sənətkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə təkan vermişdir. Bu inkişaf eradan əvvəl 4-cü minillikdən başlayaraq Duzdağ ətrafındakı əhalinin çoxalması ilə əlaqədar olaraq yeni kəndlərin, qəsəbələrin və Naxçıvan kimi qədim bir şəhərin yaranmasına səbəb olmuşdur.

Məlum olduğu kimi Duzdağ ətrafındakı tədqiqatlar XIX əsrin ortalarından başlamışdır. 9, 12 mart və 16 may 1855-ci il tarixlərin də Pavel Şeremetyevski "Naxçıvanın duz yataqları" mövzusunda ilk dəfə "Qafqaz" qəzetinin 20, 21 və 22-ci nömrələrində geniş məqalə dərc etdirmişdir ("Şərq qapısı" qəzeti, 24, 25, 26 iyul 2012-ci il, № 137, 138, 139).

1870-ci ildə dağ-mədən mühəndisi Fon Köşkul Naxçıvanın qədim duz mədənlərindən daş çəkiclər aşkar etmiş və onları özü ilə Peterburq Antropoloji Muzeyinə aparmışdır. Elə həmin illərdə buradakı duz mədənlərinin nəzarətçisi olan Beyer tapdığı baltalardan 2 ədədini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir (1, s. 115.).

1897-ci ildə İ.S.Polyakov Duzdağda arxeoloji kəşfiyyat işləri apararkən şaxtaların birindən xeyli əmək aləti aşkarlamış və onların tarixini qədim metal dövrünə aid etmişdir.

Duzdağda olan qədim mədənlərindən biri də, 1967-ci ildə uçqun nəticəsində təsadüfən aşkar olmuşdur. Həmin mədəndən xeyli daş çəkiclər və digər əmək alətləri tapılmışdır. Daş çəkiclərin bir qismi Naxçıvan Tarix Muzeyinə verilmişdir.

Bu hadisədən 9 il sonra, daha dəqiq desək 1976-cı ilin şaxtalı bir qış gecəsində dağ-mədən sexinin rəisi Nurəddin Məmmədovun gecə növbəsində, IV şaxtanın şimal dirsəyində növbəti partlayış üçün hazırlıq işləri görülürdü. Dirsəyin 30 metrliyində partlayıcılar üçün oyulan yuvalardan duz əvəzinə başqa süxurların çıxması hər kəsi

təəccübləndirmişdi. Növbəti partlayışdan sonra açılan boşluq bu həyəcana son qoydu. Mədən işçiləri qədim dövrlərə aid möhtəşəm bir "saray"la üzbəüz idilər. Ən təəccüblüsü o idi ki, bu şaxtanı qazmış qədim insanlar, o dövrün primitiv alətlərdən istifadə edərək, duz laylarını elə yonub götürmüşdülər ki, divarlarda bir santimetr belə çıxıntı qalmamışdı. Sanki divarları sumbata kağızı ilə sürtüb cilalamışdılar. Ümumi uzunluğu 70 metrdən çox olan bu "saray" 5 sütun olmaqla bir birini əvəzləyən 10 müxtəlif quruluşlu zaldan ibarət idi.

Bu xəbər tezliklə bütün respublikaya yayılmış, Muxtar Respublikanın o vaxtkı rəhbərləri, ziyalılar, sıravi insanlar və bir sözlə "Şah Abbasın büllur sarayı"nın tapıldığını eşidən hər kəs Duzdağa axın etmişdi. Bakıdan bir qrup alim buraya gəlmiş, axtarışlar aparmış, tapılan daş alətləri və digər maddi-mədəniyyət abidələrini tədqiq etmək üçün özləri ilə aparmışdılar.

Duzdağ ərazisində intensiv tədqiqat işləri əsasən 2006-cı ildən başlayıb və bu günə qədər davam edir. Bu ərazidəki tədqiqat işlərini AMEA Naxçıvan Bölməsi və Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşlarından təşkil olunmuş birgə Beynəlxalq arxeoloji ekspedisiya aparır. Bu ekspedisiyanın uğur qazanmasının əsas səbəblərindən biri əvvəlkilərdən fərqli olaraq, təsadüf nəticəsində mədənlərdən aşkar olunan tapıntılarla kifayətlənməmiş, mədənlərdən kənara çıxıb Duzdağ ətrafındakı duz qanadlarının və qədim lağımların olduğu ərazilərdə araşdırmalar aparmalarıdır.

Ekspedisiya 2006-cı ildə fəaliyyətə başlasa da, həmin il, indiki mədənlər və mədən ərazisində apardıqları tədqiqatlar müsbət nəticə verməmişdir. 2007-ci ildə isə, mədənlərdən kənardakı ərazilərə baxış zamanı buralardan çoxlu sayda daşdan düzəldilmiş əmək alətləri, keramika məmulatları, obsidian və çaxmaq daşı qalıqları aşkar edilib götürülmüşdür. Həmin il qədim mədənlərin və istehsalat platformalarının yerləri müəyyənləşdirilsə də, tam təchizatlı tədqiqat işləri 2008-ci ildən başlamışdır.

2008-ci ilin avqust ayından, 2011-ci ilin sentyabrına kimi Duzdağ mədənlərinin dörd bir tərəfində aparılan tədqiqat işləri zamanı – Cəhri xorunun yaxınlığındakı Duzdağ platosunda və Kəngərli rayonunun Sust kəndi ərazisində yaşayış yeri, bir bulaq və bir kəhriz sistemi, onlarca istehsalat platformaları və duz qalereyaları, mindən çox daş alətlər, minlərlə Eneolit, Erkən Tunc, Kür-Araz, Dəmir dövrü və Orta əsrlərə aid keramika qalıqları, çoxlu sayda obsidian tiyələr və çaxmaq daşı parçaları aşkarlanıb qeydiyyata alınmışdır.

Qeydiyyat zamanı ArcGis və DGPS-nin (Diferensial Qlobal Mövqe Sistemi) birgə tətbiqi ilə cüt GPS-dən (Mövqenin Uzaqdan Təyini) istifadə edilərək aşkar olunmuş bütün arxeoloji tapıntıların koordinatları müəyyənləşdirilmiş, daş alətlərin bütün səthlərinin fotoları çəkilmiş, ölçüləri və ağırlıqları müəyyənləşdirildikdən sonra yeni tipə aid olan daş alətlər və digər maddi-mədəniyyət abidələrinin qalıqları, tədqiq edilmək üçün laboratoriyaya götürülmüşdür(2, s. 229-244).

2008-ci ildən, 2011-ci ilə kimi Duzdağda aparılan tədqiqat işləri zamanı aşkar olunmuş bütün maddi-mədəniyyət abidələrinin statistik təsvirini özündə əks etdirən sxemlər və xəritələr də hazırlanmışdır.

Duzdağ və Sust mədənləri ərazisindən tapılmış daş alətlərin böyük bir qismini daş baltalar, bir neçə sürtgəc, dən daşı və dəstər istisna olmaqla qalan qismini, obsidian tiyələri və çaxmaq daşları təşkil edir. Çaxmaq daşlarına, obsidiana nisbətən daha az təsadüf edilir. Ərazidən tapılmış obsidianlar tünd qara, açıq qara, qəhvəyi rənglərdə, Çaxmaq daşları isə açıq qəhvəyi rəngdə olub üzərlərində ağ və qara ləkələr var.

Daş alətlərin 80 %-ni baltalar, gürzlər, çəkiclər və çapacaqlar təşkil edir. Bu tip daş alətlərə həm Duzdağ, həm də Sust mədənlərinin bütün ərazilərində rast gəlinir. Duzdağ mədənlərindən fərqli olaraq, Sust mədənlərindən aşkar olunmuş daş alətlərin çeşidləri daha çoxdur. 2011-ci ilin avqust ayında Sust mədənlərinin şimal tərəfində tədqiqat zamanı əvvəllər rastlaşmadığımız iki tip yeni daş alətlə qarşılaşdıq. Bunlardan biri sürgəc tipli çapacaqlar (şəkil 1), digəri isə hökmdar toppuzuna bənzər ortası dəlik olan sürtgəc daşlarıdır (şəkil 2).





**Şəkil 1**

Həm Duzdağ, həm də Sust mədənlərindən tapılmış bu daş baltalar öz estetik görünüşü və hazırlanma texnologiyasının kamilliyinə görə, insanı heyran etməyə bilmir. İstər forma gözəlliyi, istərsə də həndəsi biçiminə görə bir-birini tamamlayan bu alətlər əsl sənətkarlıq məharəti ilə yaradılmış möhtəşəm bir heykəltəraşlıq əsərləridir. Ölçüləri 100 qramdan 60 kq arasında dəyişən alətlərinin üzərləri 0,5 mm-dən 2 sm-ə qədər dərinlikdə açılmış gəzlərlə bəzədilmiş və müxtəlif formalarda yonulmuşlar. Əsasən çay daşlarından hazırlanmış bu əmək alətlərini tipoloji xüsusiyyətlərinə görə şərti olaraq 7 qrupa bölmək daha düzgün olardı.





**Şəkil 2**

Birinci qrupa kürə şəklində yonulmuş kiçik əl çəkiclərini daxil etmək olar (şəkil 3). Belə çəkiclərə əsasən, Eneolit və İlk Tunc dövrü keramikalarının çoxluq təşkil etdiyi yerlərdə rast gəlinir. Çəkiləri 100-300 qram, gövdələrinin diametri 3-7 sm arasında dəyişir. Bu alətlərdən balta və ya gürzlərin yonulması, onların üzərlərinə gəz açılması və naxışların döyülməsində istifadə olunması güman edilir. Təcrübə zamanı dolerit, qabbro, bazalt, çay daşı və daha bərk süxurlardan düzəldilmiş bu çəkiclərlə, daş alətlərin çox asanlıqla yonulduğunu və üzərlərinə naxış salındığının şahidi olduq. Onu da qeyd edim ki, Gəmiqaya rəsmlərinin də, sərt qayalar üzərinə məhz bu tip əl çəkicləri ilə həkk olunduğu ehtimal olunur.





**Şəkil 3**

İkinci qrupa daxil olan kiçik ölçülü əl çapacaqları – silindrik formada olub uzunluqları 15-25 sm, gövdələrinin diametri 3-5 sm, çəkiləri 300 qramla 1,5 kiloqram arasında dəyişir (şəkil 4). Bu çapacaqlar görünüşlərinə görə iki formada olub silindrə və ərsinə bənzəyirlər. Silindrik olanların arxa tərəfləri yarım sferik, gövdələri düz, uc tərəfləri isə hər iki tərəfdən içəriyə doğru yonulmuşdur. Ərsinə bənzərlərin isə, arxa və gövdələri birincilərə oxşar, uc tərəfləri isə ərsin kimi yanlara doğru çıxarılmışdır. Ərazidən çox az miqdarda tapılmış bu tip çapacaqların bəzilərindən bu gün belə kəsici alət kimi istifadə etmək mümkündür.





**Şəkil 4**

Since most of pottery samples in archeological investigations are broken little pieces, unless accidently and exceptionally an unbroken dish can be found, hence there is a fixed difficulty in recognizing form and shape of pottery dishes. Even in most of cases, recognizing type of shape in dishes according to designs (due to smallness of designed potter pieces) is difficult and hardly possible. In order to solve this problem, we first categorized characteristic pottery samples according to type of the pieces and then categorized different types of pottery dishes according to shape of the pieces.

- **Dishes with Wide Throat.** These dishes which include 13.63% of characteristic sample potteries of Old Bronze Age have different subcategories. The most important subcategories are dishes with relatively sharp edges which join diagonally to body

(*PL.V, No.22S-29*).Additionally; outward beveled edge (*PL.V, No.23H-1*) belongs to dishes with wide throat. There are other edges such as outward turned ellipsoid edge,

Outward relatively beveled edge and outward turned round and simple edge which can be seen in this category, as well.

- **Dishes with Closed Throat.** This kind of dishes contains 20.45% of characteristic sample potteries of Old Bronze Age. The following models can be pointed out of this category, simple ellipsoid edge which have curvature outward with an arc in shoulder (*PL.V, No.17W-15*), outward turned round and simple edge (*PL.II, No.20H-11, PL.II, No.11B-2*), outward turned sharp edge with spherical body (*PL.III, No.19V-5*), inward beveled rectangular edge with diagonal with convex body (*PL.VIII, No.13D-22*), beveled edge with inward turned flat surface (*PL. III, No. 21I-37*) , outward turned round simple and cornered edges (*PL.I,No.15C-1*) , outward turned beveled rectangular edge with diagonal body (*PL.III,No.17E-6*). Also, outward turned sharp cornered edge as well as inward turned round edge with relatively beveled surface and outward turned triangular edge are of other types of dishes with closed throat.
- **Dishes with vertical Throat.** This kind of dishes contains 9.09% of characteristic sample potteries of Old Bronze Age. Of important models of this group is outward fairly sharp edge which is relatively vertical to body (*PL.VI, No.24L-33*). Also , cornered round edge, outward turned rectangular edge , outward beveled round edge and vertical to body , outward turned beveled and cornered edge, sharp edge which is vertical to body , beveled edge which is vertical to body , and round and simple edge which is vertical to body can be considered as other members of this category .
- **Necked Dishes.** These dishes include 7.95% of characteristic sample potteries of Old Bronze Age. Outward turned triangular edge with arced neck (*PL.I, No.23K2*), outward turned relatively sharp and simple edge with arced neck (*PL.I, No.20Z-31*), simple round edge and outward turned with arced neck (*PL.I, No.17E-7*) are of important subgroups of necked dishes. There are two more types of this category in which the first is rectangular shaped edge with beveled surface with a neck which is diagonally runs to middle of the dish and with a light angle goes outward from shoulder of the dish and the next type is turned round edge with arced neck. In spite of surprising diversity in shapes of edges, all characteristic potteries of Old Bronze Age are flat bottom. Flat bottom themselves are divided in to simple flat bottoms (*PL.VI, No.11B-5, PL. II, No. 22J-3*) and disk flat bottoms (*PL.VI, No. 23K-21 and* PL.VI, No. 1B′-4). Handles in characteristic potteries of Old Bronze Age in Nader Tepesi are of vertical handles and horizontal hole connected to body (PL. III, No.25A-1). Another type of pottery handles in this period is cake of mud shaped which has been attached to upper part of the dish and then a horizontal hole from its center and connected to body has been added(*PL. III, No.19D-6* , PL. II, No. 11B-2, PL.II,No.14B-3) these handles are well-known to Nakhchivan handles (*Lamb, 1954, pp. 28 – 29*).

A piece of lid was identified among characteristic potteries of Old Bronze Age which has rectangular shape beveled and simple edge (*PL.VI, No.29N-5*).

**Conclusion**

Studies on sample potteries of Nader Tepesi show that this site had relation with the neighboring areas of Mughan Steppe. Fertile valleys and higher lands betweenAraxes

and Kura rives in Republic of Azerbaijan, Georgia, and Autonomous Republic of Nakhchivan are of its important areas. Certainly, before emphasizing on relations and interactions of Nader Tepesi with its neighboring areas, it's more noteworthy that the Kura-Araxes culture in Old Bronze Age had has wide expansion ranging from Transcaucasia to more internal areas in Iran such as central Zagros and Hamadan region and has clear and known pottery characteristics. In different sites and regions which the Kura -Araxes Culture has been identified, these pottery criteria and characteristics are same and similar in most of cases. Before emphasizing on that Nader Tepesi and consequently Mughan Steppe in Old Bronze Age had relations with contemporary neighboring areas in the Lake Urmia basin or more northern areas ofAraxes river and Transcaucasia which are comparable in terms of pottery criteria, we consider in that there was a unit culture namely the Kura –Araxes culture in Old Caucasia and Iranian Azerbaijan Bronze Age era that its signs can be seen in Old Bronze Age layers of Nader Tepesi in Aslanduz.

But, according to performed pottery comparisons , Old Bronze Age potteries of Nader Tepesi are comparable with contemporary potteries of several areas in Republic of Azerbaijan such as Juoma Kand , Mourad Dai , Osman Bozu, Dashli Tepe , Dash Youz , Padar , Khan Kandi ,and Ouzun Tepe , as well as some regions in Nakhchivan area of Republic of Azerbaijan like Kül Tepe I,II , Shah Takhti cemetery , Uchular , Sadrak , Khalaj and Damalama. Moreover, Old Bronze Age potteries of Nader Tepesi are comparable with contemporary pottery samples of some areas in Republic of Georgia such as Kikti , Amiranis- Gura, Kuwatskhala , Sakdris Kanbi , Külkhidi and Erar site of most south of Caucasus and Ashagi Molla Hasan in Anatolia and Haftvavn Tepe in Lake Urmia basin and Barouj Tepe in Marand.

Studies on pottery samples showed that Old Bronze Age potteries of Nader Tepesi have the most similarity to potteries of contemporary sites in Republic of Azerbaijan (especially of sites in Kura River basin and steppe between Kura andAraxes rivers in western part of Republic of Azerbaijan) in terms of forms and ornaments. This point was predictable because Nader Tepesi is not far from above mentioned regions.

In the next standing of similarity, Old Bronze Age potteries of Nader Tepesi have the most similarity to potteries of contemporary sites in Republic of Georgia and Nakhchivan area. On the other hand, nearness of Nakhchivan area to Aslanduz in Mughan Steppe makes existence of relations and interactions between these two regions to be seemed acceptable. In the case of accepting this hypothesis,Araxes River valley is an appropriate path to this interaction. This hypothesis applies for Barouj Tepe in Marand, as well.

It's noteworthy at the end that Nader Tepesi on the one hand has all three phases of the Kura -Araxes Culture, Late Bronze Ageand on the other hand due to its particular positional situation (being located among Nakhchivan area, steppes between Kura andAraxes , south west of Caspian sea and Talesh areas), Nader Tepesi can be considered as one of the most important sites in terms of Bronze Age studies. When we look for achieving to this point that how this culture was expanded into more internal parts of Iran such as Qazvin Plain, Tehran, and Saveh, then positional significance of Nader Tepesi and consequently Mughan Steppe on studies about Kura -Araxes culture will be more understandable.

*Footnote*: This article is a part of author's final thesis for his master course which was defended in Sep.2004, Tehran University, Faculty of Literature and Humanities, department of Archeology.

***Bibliography:***


[1] H.Talaei. *Iran's Archeology and Art in first millennium B.C., First edition.* Samt Press, Tehran, 1994. ***( In Persian )***

[2] K.Alizadeh. *Study of cultural relations of two sides ofAraxes river: Methodological investigation of Barouj Tepe. Master course final thesis (unpublished).* Tehran University, Faculty of Literature and Humanities, Archeology Group. 2001. ***( In Persian)***

[3] K.Alizadeh and M.Azarnoush. *Study of cultural relations of two sides ofAraxes river: Methodological investigation of Barouj Tepe, Archeology and History. Nashre Daneshgahi Press, Tehran, Pages 3-22. ,2003* ***(In Persian)***

[4] H.fazeli and B.Ajorlou. An introduction to Kura culture extension in Qazvin Plain at late *fourth millennium B.C., Iran's international archeology conference abstracts. North West region, Research institute of cultural heritage and tourism organization of Iran Press, Tehran. 2004* ***(In Persian)***

[5] S.Kambakh Fard. *A Report on archeological investigations of East Azerbaijan, (unpublished).* Center of documents and evidences of Iran's cultural heritages, 1967 ***(In Persian)***

[6] M.Kordovani. A*rcheological investigations of Mughan Steppe, (unpublished).* Center of documents and evidences of Iran's cultural heritages, 1972. ***( In Persian)***

[7] Mir.R.Mohammadi. *Ashkanian and Sasanian period in Mughan Steppe: based upon methodological investigation of Nader Tepesi (Nader Tepesisi), Aslanudz, (unpublished).* Tehran University, Faculty of Literature and Humanities, 2004. ***( In Persian)***

1-Akhondov, T. I. 2001 **Severo-Zapadnii Azerbaidzhan Ve Epokhi Eneolita Ei Brozni** , Elm , Baki .

2-Bahshaliev, V.

1997 **The Archaeology of Nakhichevan** , Kanat Matbassi, Istanbul.

3- Burney, C.A.

1958 *"Eastern Anatolia in the Chalcolithic and Early Bronze Age"*, Anatolian Studies,Vol.VIII,PP.157-209.

4 - Burney, C & D. Lang

1971, **" The Peoples Of The Hills , Ancient Ararat And Caucasus "** , London : Weidenfeld and Nicholson.

5- Burton- Brown, T.

1951 **Excavation in Azerbaijan, 1948**, John Murrey, London.

6- Edwards, M. R.

1981 *The Pottery of Haftavan VIB (Urmia Ware )*, Iran, Vol. XIX, pp.101-104.

7- Glumac , P & D . Anthony

1992 **,** *" Culture and Environment in the Prehistoric Caucasus : The Neolithic through the Early Bronze Age* " In ***" Chronologies In Old World Archaeology "*** Third Edition , Edited By Robert W .Erich , Vol I , 1992 .pp.196-206.

8- Glumac, P & D. Anthony

1992 , " *The Caucasus* " In " **Chronologies In Old World Archaeology** " Third Edition , Edited By Robert W .Erich , Vol II , 1992 .pp.163-170.

9- Ismailov, G. S.

1986 *"üzün Tepe "* , J.B.Guliev ( red ), Azerbaican Sovet Ensiklopediasi, Jild. IX: 427, Baki.

10- Kvizhinadze, K. D & O. C. Gambashidze
1982 *" Raboti Meskhet- Dzhavakhetskoi Arkheologicheskoi Ekspeditsii Za 1976-1979 gg.",* In Archaeological Researches At New Bulding of the Georgian SSR, Metsniereva, Tbilisi.
11- Lamb, W.
1954 *"The Culture of North – East Anatolia and Its Neighbors* ", Anatolian Studies, Vol. IV, PP.21-32.
12- Lordkipanidze, O.
1989 **"Nasledie Drevnei Gruzii**", Metsniereba, Tbilisi.
13- Mikeladze, T.
1990 **" K Arkheologii Kolkhidi ( Epokha Stednei Ei Pozdnei Bronzi- Rannego Zheleza )**, Metsniereba, Tbilisi.
14- Syidov, A. G.
2000 **Nəkhchivanin Ilk Tünc Dövru Abideleri Ve önlarin Dövrleşdirilmesi**, Çaşioğlu Metbessi, Baki.
15- Safer, H. J.
1997*"Research Design and Sampling Techniques "*, In T. R. Hester & H. J. Shafer & K. L. Feder (eds ), **Field Methods in Archaeology**, $7^{th}$ ed., PP. 21- 40, Mayfield Publishing Company, Mountain View, California, London, Toronto.

**Qəhrəman AĞAYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

# ŞAHTAXTININ QONŞU TAYFALARLA İQTİSADİ-MƏDƏNİ ƏLAQƏLƏRİ

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən arxeoloji abidələrlə müqayisədə Şahtaxtı abidələr kompleksi özünəməxsus xüsusiyyətləri ilə seçilir. Belə ki Eneolit dövründən günümüzə qədər intensiv yaşayışın olması, bir-birinin üzərində yerləşən mədəni təbəqələrin zərər görmədən günümüzə qədər çatması, əldə edilmiş fərqli maddi-mədəniyyət nümunələrin zənginliyi belə bir fikir söyləməyə əsas verir ki, Şahtaxtı ərazisində yaşamış tayfalar digər tayfalarla mədəni-iqtisadi əlaqələri genişləndirmiş, bütün dövrlərdə sənətkar sahəsində hegemonluğu əldə saxlamışlar. Məhz bu əlaqələrin sayəsində ərazidə yaranmış mədəniyyət qonşu tayfalarla daha uzaq ərazilərə yayılmış və Şahtaxtı qısa müddətdə sənətkarlıq mərkəzi kimi tanınmışdır.

Təbii ki, belə bir abidənin bütün dövrlərini müəyyənləşdirmək, tapılmış maddi-mədəniyyət nümunələrini dövrləşdirmək asan bir iş deyildir. Çünki, mədəni təbəqələrdən tapılmış arxeoloji materiallar o qədər çox və zəngindir ki, bunların hamısının xarakteristikasını vermək işləri çətinləşdirir.

Ancaq qeyd edək ki, hələ e.ə. ən azı dörd min il əvvəldən başlayan bir mədəniyyəti izlədikcə sonrakı dövrlərdə də ərazi də yaşamış tayfaların məişət və təsərrüfat həyatlarında, dini-ideoloji görüşlərində və sənətkarlıq sahələrində özündən əvvəlki mədəniyyətin izlərinə rast gəlmək olur. Buna əsaslanaraq söyləmək olar ki, Şahtaxtı ərazisində tayfaların yaratdığı mədəniyyət hər zaman subprotogeometrik xüsusiyyətləri özündə saxlamışdır. Subprotogeometriya hər hansısa bir mədəniyyətin özündən əvvəlki mədəniyyət üzərində yaranmasıdır.

Şahtaxtı ərazisində Tunc və Dəmir dövrünə aid abidələrdən tapılmış maddi-mədəniyyət nümunələri əsasən qədim tayfaların təsərrüfat və məişət həyatları ilə bağlıdır. Qeyd etdiyimiz ki, ərazidə sənətkarlıq üçün yetərincə xammal ehtiyatının olması və ərazidə tayfadaxili tələbatı ödəyəcək qədər əkin sahələrinin və otlaq sahələrinin olması hələ Erkən Tunc dövründən başlayaraq bu sahələrin inkişaf etdiyini göstərir.

Naxçıvan Muxtar Respublikasının bir sıra abidələrindən fərqli olaraq ərazinin yaxınlığında Araz çayı və təbii fəlakət nəticəsində məcrasını dəyişən Asnı çayı süni suvarmadan istifadə etməyə imkan vermişdir. Bu da ərazidə fərqli təsərrüfat sahələrinin yaranmasına və Şahtaxtının bir aqromərkəz halına gəlməsinə səbəb olmuşdur.

Naxçıvanın torpaq və iqlim xüsusiyyətlərini nəzərə alsaq, Son Tunc və Erkən Dəmir dövründə artıq tayfalar ixtisaslaşmış əkinçiliklə məşğul olmuşlar. Ancaq fikrimizə görə Eneolit dövrü tayfaları qarışıq əkinçiliklə məşğul olmuş və bir neçə dənli bitkilərin əkini ilə məşğul olmuşlar. Q.İsmayılov hesab edir ki, bu tip əkinçiliyi Erkən Tunc dövrü üçün xarakterik hesab etmək olar. Lakin Muxtar Respublika ərazisində tapılmış Eneolit dövrünə məxsus maddi-mədəniyyət nümunələrindəki taxıl məhsullarının qalıqları bu əkinçiliyin daha qədim keçmişə malik olduğunu göstərir.

Şahtaxtı ərazisində əkinçilik təsərrüfatında ilkin olaraq çaxmaq daşından və obsidiandan hazırlanmış əmək alətlərindən istifadə etmişlər. Bunun ilkin nümunələrinə I Kültəpə ərazisində də rast gəlinmişdir. Burada tapılmış bıçaqşəkilli obsidian lövhələr

çox güman ki, bunlardan oraq kimi istifadə edildiyi üçün hazırlanmışdır. Şahtaxtı ərazisində isə bir tərəfi mişar kimi diş-diş boz çaxmaq daşından hazırlanmış əmək alətinin parçası tapılmışdır.

Şahtaxtı abidələr kompleksinin öyrənilməsi zamanı əldə etdiyimiz faktlar onların yaşam tərzini, ərazidə tayfaların yerləşməsini, onların qonşu tayfalarla əlaqələrini və ətraf mühiti öyrənməyə kömək edir. Hələ keçən əsrdə tayfaların müəyyən bir ərazidə məskunlaşması zamanı bir sıra nəzəriyyələr meydana gəlmişdir. Bu nəzəriyyələr tayfaların bir ərazidə məskunlaşması və yaratdıqları mədəniyyətin başqa inteqrasiya olunması yollarını axtarmışdır.

Şahtaxtının yerləşdiyi ərazi elə formalaşmışdır ki, ərazi geoloji quruluşların əksər mərhələlərinin, dağ əmələ gəlmə proseslərinin baş verdiyi əraziyə düşmüşdür. Bu zaman yaranan antiklinallarda cəmləşmiş minerallar və gil yataqları üst qatlarda formalaşmışdır ki, bunlar təbii hadisələr zamanı aşınma nəticəsində üzə çıxmışdır. Şərur antiklinalında olan və minerallarla zəngin olan gil yataqları yerli tayfaların nəzərindən qaça bilməzdi.

Şahtaxtı ərazisində yaşayan tayfalarda çox güman ki, Zəngəzur-Dərələyəz silsiləsinin yamaclarında yerləşən otlaqlardan istifadə etmişlər. Zəngəzur sıra dağları ətəklərindəki yaylaqlara gedən yolların bir qismi bu zonaya düşür. Eyni zamanda Dərələyəz istiqamətində olan keçidlər Düzdağla birləşdiyi Qaranquş zirvəsindən keçməklə Kükü, Süsəndağ, Dəmirli silsilələri ilə Zəngəzur sıra dağlarına bağlanaraq halqavari bir yol yaradır. Eyni zamanda Araz çayına tökülən çayların hamısı öz başlanğıclarını Zəngəzur-Dərələyəz silsilələrindən götürürlər. Orta Tunc dövrünün yaşayış məskənlərinin əksəriyyəti bu qolların üzərində yerləşir. Bu çaylar isə mövsumi xarakterli olub yay zamanı quruyurlar. Bu üzdən böyük sürülərin təkbaşına yaylaqlara qaldırılması təhlükəli olduğundan inandırıcı görünmür. Bu səbəbdən belə hesab edirik ki, sürülərin otlaqlara qaldırılması zamanı, yarımköçəri tayfalar digər tayfaların ərazilərindən müəyyən şərtlər daxilində istifadə etmişlər. Bu zaman onlar digər tayfaların yerləşdiyi ərazilərdən keçmək məcburiyyətində qalmışlar. Bu da çox ehtimal ki, tayfalar arasında olan iqtisadi-mədəni əlaqələrdən dolayı mübahisəsiz həllini tapmışdır.

Təsərrüfatlarında maldarlığa və ya əkinçiliyə daha meylli tayfalar əldə etdikləri məhsulun artımını mübadiləyə sərf etmələri daha inandırıcı görünür. Çünki əkinçi tayfalar müəyyən tayfadaxili tələbatı ödəyəcək maldarlıqla məşğul ola bilərdilər. Lakin maldar tayfalar digər tələbatlarını ödəyəcək mübadiləyə daha maraqlı olmuşlar. Diqqət çəkən məqam ondan ibarətdir ki, yarımköçəri maldar tayfalar daimi yaşayış məskənlərini tam tərk edə bilməzdilər. Bu üzdən yaşayış məskənində əhalinin bir hissəsi qalmışdır ki, bunlar da tayfaların nəzarətində olan ərazilərində qışa ot ehtiyatının hazırlanması ilə məşğul olurdular. Yaylağa qalxmayan əhalinin tələbatı tam ödənilsə də, onlar artımdan əldə etdikləri qazancı mübadiləyə sərf etmək üçün əlaqələr yaratmışlar. Onlar heyvanların artımından başqa, əldə etdikləri süd məhsulları və yunu sənətkarlığın yüksək istehsal gücünə malik olduğu ərazilərdə mübadilə etmişlər. Şahtaxtı keramikasının yüksək emal səviyyəsi bu tayfaların diqqətindən kənarda qala bilməzdi. Bunu eyni zamanda Arazboyu əkinçi tayfalarına da aid etmək olar. Onlar da taxıl biçinindən sonra əldə etdikləri heyvan yeminin artıq hissəsini mübadiləyə sərf edə bilərdilər. Keramika sənətinin inkişafı isə Şahtaxtıda yaşayan tayfaların əlaqələrinin təkcə qonşu tayfalarla deyil, daha uzaq tayfalarla əlaqə yaratmasına gətirib çıxarmışdır. Mübadilənin əsas səbəbi heç də əlavə məhsulun satılması ilə bitməmiş, eyni zamanda

mədəni əlaqələrin yaranmasına səbəb olmuşdur. Bu mədəni əlaqələr isə tayfaların bir-birlərinin dini görüşlərini, adət və ənənələrinin öyrənilməsinə və yaxınlaşmalarına təkan vermişdir. Bu səbəbdən ərazimizdə yaşamış istənilən dağətəyi maldar və Arazboyu əkinçi tayfaların həyat tərzi kompleks halda öyrənilməlidir. Təbii ki, hər bir tayfa idxal və ixracda qazanc əldə etmək istəmişdir. Bu da ayrılıqda götürülmüş istənilən «mikrozona»da yaşayan əhali üçün idxalın istehsaldan ucuz başa gəlməsi ilə bağlı olmuşdur. Mübadilə zamanı hətta xammal məmulatı da rol oynamışdır. Bu əsasən qravitasiya modeli ilə bağlı olub ixtisaslaşmış tayfalar arasında aparıla bilərdi. I Kültəpədə hətta tuncun külçə halında mübabiləsi haqqında tarixi ədəbiyyatda mülahizələr vardır (7, s. 22-23).

Basma üsulla naxışlanmış qablara Trialetti (9, s. 18; ), Üzərriktəpə, II Kültərə (28, s.149), Şahtaxtı (5, s.18-25) və digər abidələrdə də rast gəlinmişdir. Üzərriktəpədə aşkar olunan materiallar basma naxışlı bəzəyin orta tunc dövrünün ilkin mərhələsi üçün xarakterik olduğunu göstərir. Bu cür ornamentasiyaya Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı ərazilərdə də rast gəlinmişdir. Basma naxışlı keramika nümunələrinə II Kültəpə ərazisində dulus kürələrinin içərisində rast gəlinməsi, bu tip ornamentasiyanın Naxçıvan ərazisində istehsal olunmuş qablarda geniş tətbiq olunduğunu göstərir ki, bu da tayfalar arası iqtisadi-mədəni əlaqələrdən qaynaqlanır.

Duz istər əkinçi, istər də maldar tayfaların həyatında vacib mineraldır. Şahtaxtı ərazisində hər iki sahənin inkişafı üçün şərait vardır. Eyni zamanda sənətkarlığın da müxtəlif sahələrində duzdan istifadə olunur. Şaxtaxtı ərazisindəki tayfaların bu tələbatı ödəmək üçün Duzdağ ərazisindən istifadə etməsi qanunauyğun idi. Şahtaxtının Duzdağa yaxın olması və tapılmış maddi-mədəniyyət nümunələri içərisindəki osteoloji qalıqlar bunu sübut edir.

Bir maraqlı cəhət ondan ibarətdir ki, istənilən dövrdə müəyyən bir ərazidəki iki tayfanın eyni vaxtda yaşaması müəyyən olunmamışdır. Bu konsepsiya dünyanın heç bir yerində tam dəqiqliklə öyrənilməmişdir. Dövr böyük olsa da, nümunə olaraq Orta Tunc dövr abidələri kompleks halda götürülür ki, bəlkə də bu tayfaların bir qismi Şahtaxtı yaşayış məskənləri ilə eyni zamanda mövcud olmamışdır. Ancaq qədim nekropollardakı kurqan və qəbirlərin çoxluğunu qəbul etdiyimiz tayfa əhalisinin nisbəti ilə müqayisə etdikdə belə bir versiya irəli sürmək olar ki, yaşayış məskənlərində 5-6 yüz ildən artıq yaşayış olmuşdur. Digər bir amil isə keramika məmulatları arasında forma və ornamentasiya oxşarlığıdır. Sırf bənzəmələr həmin yaşayış yerlərinin Şahtaxtı ilə eyni zamanda mövcud olduğunu və ya Şahtaxtı sənətkarlıq məktəbinin təsiri ilə formalaşdığını göstərir. Yaşayış yerinin məhv olması və ya dəyişdirilməsi isə heç də barbar istilaları ilə bağlı olmamış, əsasən maldar tayfalar üçün otlaq sahələrin azalması, əkinçi tayfalar üçün quraqlıq, sənətkar tayfalar üçün təbii ehtiyatların tükənməsi ola bilərdi. N. Merpertin fikrinə görə, arxeoloji mədəniyyətlərin miqrasiyasının mərkəzində iqtisadi amillər durur. Mədəniyyətin yayılması əhalinin say artımı nəticəsində tayfaların böyüməsi və ayrılması ilə inkişaf etməyə başlamışdır. Digər tərəfdən bu artımdan yaranan münaqişələr hərbi toquşmalara gətirib çıxara bilərdi ki, bu da az məskunlaşan ərazilərdə miqrasiyaya səbəb olmuşdur (10, s. 290).

İkinci əmək bölgüsü nəticəsində sənətkarlığın ayrılması göstərir ki, artıq sənətkarlar müstəqil sürətdə istehsal yaratmaqla tayfa daxilində bir «sənaye çevrilişi» etmişlər. Sənətkarlığın inkişafı istehsala marağı artırmışdır ki, bu da təkcə tayfa daxili deyil, mübadilə üçün də əlavə istehsala gətirib çıxarmışdır. Bu səbəbdən də qonşu tayfalarla əlaqələr yaradırdılar ki, keyfiyyətcə yüksək olan məhsullarının mübadilə

sürətini artırsınlar. Fikrimizcə, tayfadaxili endoqam nigahdan fərqli olaraq ekzoqam nigaha meyilli olmasının bir səbəbi də istehsal səviyyəsinin artımı ilə əlaqədar olmuşdur. Bunun nəticəsində də tayfalar arasında əlaqələr inkişaf edərək etnosun formalaşmasına təkan vermişdir.

Cəmiyyətin inkişafında ilkin ticarətdə mübadilə əlaqələri böyük rol oynamışdır. Ticarətdə intensifikasiya (səmərələşdiricilik) əlaqələri cəmiyyətin tarixi inkişafına təkan verirdi. Bu səbəbdən yaranmış mədəniyyətlər bir-birləri ilə əlaqələrə maraqlı olmuşlar.

Oturaq həyat tərzi və sənətkarlığın inkişafı göstərir ki, bu tayfaların ərazidəki digər tayfalarla iqtisadi, mədəni və ticari istiqamətdə sıx və intensiv əlaqəyə meylli olmuşlar.

Sənətkarlıq məhsulları mübadilə ilə əldə olunduğundan qiymətli hesab olunmuşdur. Bu onu göstərir ki, Şahtaxtı tayfaları ilə eyni dövrdə yaşamış tayfalar arasındakı əlaqələr genişlənərək ərazidə keramika sənətkarlığı baxımından bir iqtisadi zonaya çevrilməsinə gətirib çıxarmışdır. Sonralar isə öz ticari əlaqələrini genişləndirməyə çalışaraq bir qədər də irəli gedərək qonşu tayfalarla qohumluq əlaqələri yaratmışlar. Bu əlaqələr də tunc dövrünün sonrakı mərhələlərində daha da inkişaf edərək müəyyən bir etnosun formalaşmasına təkan vermişdir. Xalqların böyük köçləri zamanı ərazimizdə yaşamış tayfaların yerdəyişməməsi göstərir ki, bu tayfalar arasında müəyyən hərbi, dini və qohumluq əlaqələri olmuşdur.

Qəbir abidələrinin öyrənilməsi göstərir ki, bu ərazidə yaşamış tayfaların dini baxışlarında qədim türklərə məxsus dəfn adətləri olmuşdur. Sonrakı dövrlərdə, xalqların böyük köçü zamanı buraya gəlmiş qohum türkdilli tayfalar yerli əhali ilə qarışaraq etnosun formalaşmasına təkan vermişdir.

Şumerlərin qonşuluğunda, Cənubi Azərbaycan ərazisində, Urmiya gölünün ətraf dağlıq ərazilərində yaşayan iri tayfalar e.ə. III minilliyə aid şumer və akkad mənbələrində kuti və lullubi adlanırlar (3, s.19). Zaman-zaman Kür-Araz mədəniyyətinin lokal variantlarının türk tayfalarına (yerli) aid edilməsinə cəhdlər göstərilmişdir (1, s. 59-60; 8, s. 174).

Çox güman ki, ərazidə yaşayan tayfalarla gəlmə tayfalar arasında mədəniyyətlərin qarşılıqlı transformasiyası olmuşdur. Bu semantik yaxınlıqlar zamanı mədəni-tarixi köklər saxlanılmışdır (6, s. 17). Ustalıqla hazırlanmış boyalı qablar, tunc əşyalar ticari əlaqələrdə önəmli yer tutmaqla, Cənubi Qafqaz ərazisində yayılmışdır. Şahtaxtı qəbirlərindən tapılan silindirik möhürlər əlaqələrin Mesopotamiyaya qədər uzandığını göstərir.

Araşdırmalar göstərir ki, Naxçıvanın tarixi Urmiya gölü hövzəsi və iki çay arasında (Mesopotamiya) yaranan sivilizasiya ilə bağlı olmuşdur. Maddi dəlillər hələ miladdan əvvəl IV minillikdə müəyyən əhali qruplarının Mesopotamiyadan Urmiya hövzəsinə, oradan isə Naxçıvana miqrasiya edib, burada məskunlaşdığını sübut edir.

Məntiqi cəhətdən belə hesab etmək olar ki, hər bir tayfa öz mövcudluğu üçün seçdikləri təsərrüfat və ya istehsal sahəsini daha da genişləndirməyə meylli olmuşlar. Bu səbəbdən ərazidən köç edənlər və qonşuluqda yaşayan tayfalar keramika nümunələri əldə etmək üçün qədim zamanlardan yaşamış tayfalarla ticari və mədəni əlaqələrə maraqlı olmuşlar. Digər tərəfdən Şahtaxtı ərazisində başqa sənətkarlıq sahələri də inkişaf edirdi. Şahtaxtının Araz çayı vasitəsi ilə cənubda yaşayan tayfalarla da əlaqələr yaratmağa maraqlı olmuşlar. Bu da mədəniyyətin daha uzaq ərazilərə yayılmasına imkan verirdi.

Azərbaycanın iki mühüm keramika mərkəzlərindən olan Naxçıvan və Urmiya arasında qarşılıqlı iqtisadi-mədəni əlaqələr çox güclü olmuşdur. Mədəni-ticari əlaqələrdə tayfaların dil mənsubiyyəti artıq bir o qədər rol oynamırdı.Bu səbəbdən də Urmiya ərazisində Göydərə, Dinkətəpə, Haftavan, Həsənli yaşayış məskənlərindən tapılmış maddi-mədəniyyət nümunələri Şahtaxtı keramikası ilə oxşarlığı iqtisadi-mədəni əlaqələrin daha uzaq ərazilərə yayıldığını göstərir.

Belə bir nəticəyə gəlmək olar ki, Şahtaxtı ərazisində yaşayan və məskunlaşan tayfalar ilk əvvəl ərazinin coğrafi mövqeyini öyrənmiş, təhlükəsizlik kordonu olan Şahtaxtı qalasını yaratmış, daha sonra ətraf əraziləri öz nəzarətləri altına götürmüşlər. Bu səbəbdən də belə hesab edirik ki, Şahtaxtı qalasının bir vəzifəsi də qaladan görünən əraziləri nəzarətdə saxlamaq məqsədi daşımışdır. Bununla da onlar ərazidə olan gil yataqlarını nəzarətdə saxlamış, bütün region üçün daha keyfiyyətli qablar hazırlamaqla bu sahədə dominantlığı ələ keçirə bilmişlər. Bu səbəbdən də yerli xammal ehtiyatları ilə zəngin olan Şahtaxtı ərazisində keramika sənətkarlığı güclənməyə başlamışdır. Onlar mübadilə ediləcək səviyyədə istehsal yaratmaqla, qonşu tayfaların diqqətini özlərinə çəkə bilərdilər ki, bu da ərazinin iqtisadi cəhətdən güclü bir zonaya çevrilməsinə gətirib çıxarmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, I cild, 456 s.
2. Əliyev V. Azərbaycanda boyalı qablar mədəniyyətinin xronologiyasına dair // AMM, Elm, 1973, VII cild, s. 146-160.
3. Qeybullayev Q. Azərbaycanın etnik tarixinə dair. Bakı: Elm, 1994, s. 102.
4. Kadırzade K. Nahçıvanda eski türk inancları / Gelenek, Görenek, inanclar ve milletler arası türk halk kültürü konqresi. Ankara: 1997, s. 237-249.
5. Агаев Г.Г. Шахтахты в эпохи поздней бронзы и раннего железа. Баку-Москва: Агрыдаг,, 2002, 200 с.
6. Алекперов А.К. Иследования по археологии и этнографии Азербайджана. Баку: Элм, 1960, 260 с.
7. Джафарзаде. И.М. Циклопические сооружения Азербайджана (Обследование 1927-34 г) Труды Аз. ФАН СССР, 1938, Том-56, с. 5-54.
8. Кофманн. М. Демирчюк // СА, Наука, 1986, №3, с. 266
9. К.Х.Кушнарева. Южный Кавказ в Х1-11 тыс.до н.э. Санкт-Петербург: Наука, 1993, с.22-23.
10. Н.Я.Мерперт. Миграции в эпоху неолита и энеолита. Москва, Советская Археология, 1978, 292 с.

**Yusif HÜSEYNOV**
*Fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVANIN TRANZİT MÖVQEYİNİN BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ ROLU

Qədim dövrdə dövlətlər və ölkələr arasında əlaqələr, iqtisadi və ticarət münasibətləri ilkin olaraq Şərqdə meydana gəlmiş, müxtəlif istiqamətli karvan yolları vasitəsilə həyata keçirilmiş və inkişaf edərək orta əsrlərdə daha geniş vüsət almışdır.

İqtisadi əlaqələrin ilkin mübadilə formasının iki çay arasında, Mesopatomiyada meydana gəlməsinə istinadən bu mübadilənin Transqafqaz ölkələri ilə aparıldığını da ehtimal etmək olar. Transqafqaz ölkələri ərazisində həmin dövr Mesopatomiyaya məxsus sənətkarlıq məmulatlarının qalıqlarının tapılması, eləcə də karvansaraların mövcudluğuna dair izlərin olması bu ehtimalı irəli sürmək üçün əsas verir.(9)

E.ə. 550-330-cu illərdə hökm sürmüş Azərbaycanın tərkibində olan Əhmənilər imperiyası Qədim dövrün ən böyük imperiyalarından biri olub Şimal-Şərqi Afrikadan tutmuş Hindistana kimi, İran körfəzindən tutmuş Şimali Qafqaz dağlarına qədər böyük bir ərazini əhatə edirdi. E.ə V əsrdə yaşamış yunan tarixçisi Herodot Əhmənilər imperiyasının tərkibinə daxil olan 70 xalq və tayfanın adını çəkərək göstərir ki, Əhmənilər imperiyasının idarə olunmasını asanlaşdırmaq üçün rahat yolların olmasına və bu yolların təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət yetirirdi. Bu məqsədlə imperiya ərazisində çoxlu karvansara və gözətçi məntəqələri tikilmişdir.(11)

E.ə II əsrin axırlarında Yaxın Şərqin əvvəllərdən fəaliyyətdə olan ticarət yolları şəbəkəsi Çindən gələn ticarət yolu ilə birləşdi. Nəticədə "Böyük İpək Yolu" yarandı. Bu yol Qərblə-Şərq arasında bütün sahələr üzrə əlaqələrin genişlənməsində mühüm rol oynamaqla yanaşı beynəlxalq əlaqələr üçün də əlverişli şərait yaranmasına səbəb oldu.

Qərb-Şərq əlaqələri zəminində əlverişli coğrafi mövqedə yerləşən qədim Naxçıvan şəhəri özünəməxsus əhəmiyyət kəsb edirdi. Arxeoloji tədqiqatlardan əldə olunan materiallar qədim Naxçıvanın son tunc və ilk dəmir dövründə iqtisadi və mədəni cəhətdən yüksək inkişaf səviyyəsində olduğunu göstərir. Bu isə Naxçıvanın Qafqaz və Yaxın Şərq ölkələri arasındakı əlaqələrdə tranzit rol oynamasına əsas verir.

Şimal –Şərqi Afrikanın və Yaxın Şərqin inkişaf etmiş ölkələrində - Misir, Finikiya, Mesopatomiyada istehsal olunan sənətkarlıq məmulatlarının (saxsı qablar, silahlar, bəzək əşyaları və s.) Naxçıvan ərazisində tapılması, Naxçıvana gətirilən və Naxçıvandan aparılan mallar haqqında məlumatların olması, Naxçıvanın bu əlaqələrdəki roluna sübutdur. Naxçıvan ərazisindən tapılan Ön Asiya tipli xəncərlər dünya arxeologiyasının aparıcı tədqiqatçılarının (Q.Bonne, Q.Konteno, R.Dyusso, T.Mik, R.Qrisman, K.Şiffer və s.) fikrincə Misirin "Niksos " ustalarına və Assurlara aid olmuşdur. (9)

Qədim dünya ölkələrinin – Misir, Finikiya, Mesopatomiya, Yunan, Roma, Mərkəzi Asiya, Hindistan və s. məişət, bəzək, hərbi işlər və s. sahələrdə istifadə etdikləri maddi-mədəniyyət məmulatlarının qalıqlarına Azərbaycan – Naxçıvan ərazilərində rast gəlinməsi Naxçıvanın qədim dünya ölkələri arasındakı əlaqələrdə tranzit rolunu aydınlaşdırmağa imkan verir.

Naxçıvanın Qədim dünya ölkələri arasindakı əlaqələrdə tranzit mövqeyə sahib olması bir neçə amillə şərtlənir;

- Naxçıvan qədim dünyanın Şərq-Qərb, Şimal-Cənub ölkələri arasında ən əlverişli cografi mövqedə yerləşirdi;
- Naxçıvan dövrün tələblərinə cavab verəcək səviyyədə inkişaf etmiş, qədim dünyanın tanınan şəhərlərindən idi;
- Naxçıvan ticarət və mübadilə üçün əlverişli imkanlara sahib idi. Həm buraya gətirilmiş malların alıcıları, həm də bu malların aparılması üçün bəlli yollar var idi;
- Naxcvanın təbii sərvətlərinə (duz, mis, quru meyvə və s.) və sənətkarlıq məmulatlarına digər ölkələrdə ciddi ehtyac var idi;
- Mübadilə və ticarət əlaqələri zəmnində Naxçıvanın siyasi mövqeyi də möhkəmlənir, böyük imperiyaların beynəlxalq siyasi əlaqələrində dayaq mərkəzi olaraq formalaşmaqla yanaşı özü də siyasi mərkəzə çevrilirdi.

Bu amillərə dayanaraq qeyd etmək olar ki, Naxçıvanın qədim dünyanın Şərq-Qərb, Şimal-Cənub ölkələri arasında maddi və mənəvi mübadilə mərkəzi, eləcə də siyasi mərkəz rolunu oynaması onun bu imkanlara sahib olmasının sübutudur. Naxçıvanın qədim dünya ölkələri arasında tranzit ticarət qovşağına çevrilməsi təkcə onun əlverişli təbii-cografi mövqedə yerləşməsi ilə bağlı olmayıb, həm də burada yaradılan şəraitlə - yollar, körpülər karvansaralar və s. ilə bağlı idi.

Naxçıvanın qədim dünya ölkələri arasındakı tranzit mövqeyini şərtləndirən amillərdən biri də onun Araz hövzəsi vasitəsilə su yollarına sahib olması ilə əlaqədardır.

Erkən və inkişaf etmiş orta əsrlərdə Naxçıvanın dünya ölkələri arasındakı əlaqələrdə tranzit mövqeyi və rolu daha da artır. Naxçıvan orta əsrlərin ən məşhur şəhərləri sırasında özünə yer alır. İlkin orta əsrlərdə Naxçıvan şəhərində 30 min ev və 150 min insanın olmasına dair məlumat var idi. Naxçıvandan Şərq, Qərb və Mərkəzi Asiya dövlətlərinə duz, mis, quru meyvə, pambıq, taxıl, sənətkarlıq məmulatları (naxışlı taxta şəbəkələr, saxsı qablar və s.) aparılır, Naxçıvana isə əsasən ipək parçalar, metal əşyalar, silahlar, ədviyyat və s. gətirilirdi.(11)

Ərəb Xilafəti dövründə Naxçıvanın tranzit mövqe rolu daha da yüksəldilir. Ərəb mənbələrində ərəb sərkərdəsi Həbibinin VII əsrin 40-cı illərində Naxçıvanı tutması və şəhər əhalisi ilə müqavilə bağlaması haqqında məlumat verilir. Müqaviləyə əsasən naxçıvanlılar xilafətin siyasi hakimiyyətini qəbul edir, xilafət isə naxçıvanlıların mal və can toxunulmazlığına təminat verirdi.(5) Çünki, Xilafət dövründə dünya tranzit əlaqələrinin ən önəmli nöqtələri artıq vahid bir ərazidə birləşərək fəaliyyət göstərirdi. Avropanın böyük qismi, Şimali Afrika, Ön Asya, Qafqaz, Orta Asya, Çin hüdudları Xilafətin əlində cəmləşmişdi. Tranzit əlaqələrdə karvan yolları ilə yanaşı su yollarının da əhəmiyyəti durmadan artırdı. Ticarət malları Xəzər dənizi Kür və Araz çayları vasitəsilə Ön Asiyaya oradan da Avropaya çatdırılırdı. Şimaldan gələn mallar Volqa çayı, Xəzər dənizi, Kür və Araz çayları vasitəsilə xilafətin bütün nöqtələrinə çatdırılırdı. Bu coğrafiyada Naxçıvan Qərb−Şərq dünyasının birləşmə nöqtəsi rolunu oynayırdı. Xilafətin paytaxtı Bağdadı digər ölkələrlə birləşdirən yollar Naxçıvandan keçirdi. Xilafət Naxçıvanı həm də digər ölkələrlə əlaqələrdə siyasi dayaq mərkəzinə çevirmişdi.

Naxçıvanın orta əsrlərin Qərbin və Şərqin aparıcı dövlətləri arasındakı ticarət və s. əlaqələrdə oynadığı rolu səyyah və tarixçilər də qeyd etmişlər. (Fransız səyyahları Pyer Şarden, Dbüa-de Monper, Jan Tavernye, İngilis səyyahı Rotter, türk səyyahı Ölviya Çələbi, ərəb səyyahları Yaqut Həməvi, İstəxri, Müqəddəsi ibn-Hövqəl və s.)

XIII əsrdə müəllifi olmayan “Əcaib əd-Dünya” adlı əsərdə yazılıb: “ Naxçıvan Azərbaycanda yüksək bir yerdə salınmış və möhkəmləndirilmiş, əhalisi gur olan iri şəhərdir. Burada çoxlu saraylar, şəhərətrafı qalalar, malikanələr (köşk) və parad təyinatlı tikililər qurulmuşdur. Şəhərin yaxınlığında daşdan qalalar, qalanın içində isə mədrəsə və məscidlər tikilib. Qalanın içində həmçinin gözəl bir bulaq var. Deyilənə görə, dünyada bundan çox məskunlaşmış şəhər yoxdur. Bütün inşaat kirəcdən və bişmiş kərpicdən aparılırdı. Üç və dördmərtəbəli köşklərin əksər qismi əslində qalalardır. Şəhərin ətrafındakı kəndlər olduqca gözəldir, axar suları var. Çoxlu bağ-bağat salınıb, göz oxşayan çəmənliklər var. Araz çayı şəhərin ətrafından axır. Eldənizin mübarək zamanında Naxçıvan tamam əzəmətə çatdı. Orada darul-mülk (şah iqamətgahı) və dövlətxana tikdilər” (1).

Naxçıvan XII yüzildə möhkəm qalası olan şəhəristan, ona bitişik daş divarlı İçqala və onları dövrələyən bayır şəhər və bağlardan ibarət klassik orta əsr şəhəri imiş. Eldəgizlərin intensiv tikinti işləri, çoxsaylı, çoxqatlı, müxtəlif tipli və kompozisiyalı binalar şəhərin Arazacan uzanan ərazisinə böyük gözəllik və bədii rəngarənglik verirdi. Naxçıvana səfəri zamanı türk alim-səyyahı Ölviya Çələbi Naxçıvan şəhəri haqqında yazırdı: “Naxçıvan şəhəri gözəldir, keçmişdə isə daha qəşəng olmuşdur, lakin monqollar bir çox tikililəri və Naxçıvan qalasını dağıdıb xarabaya çevirmişlər. Şəhərin Osmanlı-Səfəvi müharibələrindən qüvvətli ziyan çəkdiyini söyləmişdir. Naxçıvanda olarkən burada 10200 örtülü böyük torpaq ev, 70 cümə məscidi, 20 mehmanxana, 7 gözəl hamam, təqribən 1000 dükan olduğunu bildirir”.

XIII əsrdə Həmdyllah Qəzvini Naxçıvan haqqında yazmışdır ki, şəhər “gözəldir və Nəqşi-cahan adlanır”. Azərbaycan alimi Məhəmməd Hinduşah Naxçıvani şahidlik edirdi ki, “Bağdad və Təbrizdən sonra Naxçıvan kimi gözəl şəhəri göz görməmiş, qulaq eşitməmişdir”.(8)

Ərəb tarixçisi İbn Əl-Əsir “Əl-Kamal fi-t-tarix” (“Mükəmməl tarix”) adlı əsərində Naxçıvanın mövqeyi və onun hökmdarı Atabəy Şəmsəddin Eldəniz haqqında yazırdı: “...O, Azərbaycan, Arran və Şirvana, Cibəl ölkəsinə, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Reyə sahib olmuşdu. Xilat, Fars, Xuzistan, Mosul və Kirmanın hakimləri də ona tabe idilər.” (2)

XI-XII əsrlərdə Naxçıvan əhalisinin sayına görə Yaxın Şərqin iri şəhərləri ilə eyni səviyyədə dururdu. Bəzi mülahizələrə görə, həmin dövrdə Naxçıvan şəhərində təxminən 150-200 min adam yaşamışdır. Əhalinin tam əksəriyyəti islam dininə mənsub olan Azərbaycan türklərindən ibarət idi. Bundan başqa, şəhərdə farslar və Səlcuq türkləri və az sayda digər etnoslar da yaşayırdılar. Bu faktı Naxçıvanın qədim şəhər qəbiristanlıqları da təsdiq edir. Şəhərdə çoxlu məscid və mədrəsələr inşa edilmişdi. Ticarətin inkişafı nəticəsində Naxçıvanda çoxlu karvansaralar tikilir, yollar çəkilir, körpülər salınırdı.(4)

Bu dövrdə Naxçıvan mühüm sənətkarlıq mərkəzinə çevrilmişdi. Şəhər görkəmli memarları, dülgərləri, bənnaları, bəzzazları, dulusçuları, dəmirçiləri, dabbaqları, baş-maq-çıları, xalçaçıları, zərgərləri, boyaqçıları ilə məşhur idi.

Naxçıvanda istehsal olunan gözəl parçalar, örtüklər, keçə, çuxa, kasa, ağac tabaqlar və s. məmulatlar bir çox qonşu ölkələrə də aparılırdı. Naxçıvan sənətkarları tərəfindən nadir sənətkarlıq nümunəsi olan xalçalar, keyfiyyətli yun, ipək və pambıq parçalar toxunurdu. Dulusçuluq, misgərlik kimi mühüm sənət növləri də yüksək səviyyədə inkişaf etmişdi.

Keramika məmulatları içərisində zər naxışlı nəfis bədii tərtibatlı qablar, xüsusilə diqqəti cəlb edir. Gildən hazırlanmış müxtəlif formalı bəzək kərpicləri, kaşılar Naxçıvan memarlığında geniş istifadə edilmişdir. Həmin dövrdə Naxçıvan şəhərində şüşə istehsalı sənətkarlığı da təşəkkül tapmışdı.

Sənətkarlığın inkişafı Naxçıvanın qonşu ölkələrlə ticarət əlaqələrinin güclənməsinə təkan vermişdi. Naxçıvan sənətkarlarının hazırladıqları zərif parçalar, zinət əşyaları, incə naxışlı qablar, keramika və metal məmulatları, həmçinin duz, pambıq, taxıl, quru meyvə və s. məhsullar Azərbaycanın digər bölgələrinə və qonşu regionlara aparılırdı.

Naxçıvan İran, Bizans, Orta Asiya, eləcə də qonşu Cənubi Qafqaz şəhərləri ilə də ticarət əlaqələri saxlamış, Mərənd, Xoy, Təbriz, Marağa, Urmiya, Səlmas, Dəbil və başqa şəhərlərə gedən ticarət yolu üzərində yerləşən əsas mərkəz olmuşdur. Ticarət əlaqələrinin inkişafı sayəsində pul dövriyyəsi də xeyli genişlənmişdi. Naxçıvan şəhərindən, Şərur ərazisindən tapılmış çoxlu pul dəfinələri, X-XII əsrlərə aid mis, gümüş, qızıl sikkələr buna əyani sübutdur. Bu sikkələr Abbasi xəlifələri, Bizans çarları, Sacilər, Salarilər, Samanilər, Səlcuq sultanları, Atabəylər və başqaları tərəfindən zərb etdirilmişdir. Naxçıvan Azərbaycanın əsas elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. (3)

Bütün bu deyilənləri nəzərə alaraq qeyd edə bilərik ki, beynəlxalq əlaqələrdə Naxçıvanın tranzit mövqeyi tarixin bütün dönəmlərində özünün rol və əhəmiyyətini qoruyub saxlamışdır.

## ƏDƏBİYYAT


1. Naxçıvan Ensiklopediyası, 2 cilddə. 2005
2. Azərbaycan tarixi, 7 cilddə, I cild. Elm-Təhsil nəşriyyatı-2007
3. Azərbaycan etnoqrafiyası, 3 ciddə, I cild. Bakı-2007
4. Y.Mahmudov. K.Şükurov. Naxçıvan tarixi və abidələri. Bakı, "Təhsil" 2007
5. Nailə Vəlixanlı. Naxçıvan- Ərəblərdən Monqollaradək (VII-XII əsrlər). Bakı-2005.
6. Nailə Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
7.V.Qasımlı. Erkən orta əsrlərdə Naxçıvanın iqtisadi əlaqələrinə dair, Dirçəliş- XXI əsr, sayı-149-150. Bakı, 2010
8. Vəli Əliyev. Naxçıvan Atabəylər dövründə, Xalq qəzeti, 8 avqust 2009.
9. Azərbaycan Arxeologiyası, Volume: 3 Number- 1-4. Bakı 2001
10. Azərbaycan Arxeologiyası, Volume:13 Number- 2. Bakı 2010
11. Feyruz Bağırov. Naxçıvanın təbii sərvətləri. Naxçıvan-2008.

**Gülnarə QƏNBƏROVA**
*Memarlıq üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN BÖLGƏSİNİN MƏSKUNLAŞMA STRUKTURU VƏ ORTA ƏSRLƏRDƏ ŞƏHƏR KİMİ FORMALAŞMASINA SOSİAL-SİYASİ AMİLLƏRİN TƏSİRİ

Azərbaycanın qədim bölgələrindən olan Naxçıvan ərazisində arxeoloji tədqiqatlar və abidələrin araşdırılması XIX əsrin 40-50-ci illərindən başlamasına baxmayaraq, bu tədqiqat işlərinin əsaslı nəticələri özünü Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra verməyə başlamışdır. Azərbaycanın ən qədim yaşayış bölgəsi olan Naxçıvanda şəhər mədəniyyətinin yaranma tarixinin qədimliyini sübut etmək üçün AMEA-nın Naxçıvan bölməsinin əməkdaşları xarici arxeoloji ekspedisiya qrupları ilə birlikdə Naxçıvan şəhərinin ərazisi ilə yanaşı, Şərur rayon Tənənəm kəndində Arpaçayın sol sahilində yerləşən Qazma mağarasında (e.ə. 80-90 min il əvvəl Mustiye mədəniyyəti), sonralar e.ə 3-cü minillikdə Kas türklərinin ərazisi olmuşdur (1). Ağsal yaşayış yerində (e.ə. 3-1-ci minillik), Ərəbyengicə yaşayış yerində (e.ə. 4-3-cü minillik), Qoşatəpə yaşayış yerində (e.ə. 4-2-ci minillik), Nəhəcir yaşayış yerində (e.ə. 4-2-ci minillik), Şahtaxtı yaşayış yerində (e.ə. 4-3-cü minillik), Naxçıvan şəhərinin ərazisində (e.ə. 3-2-ci minillik), Naxçıvandan on iki kilometr aralıda qalın dirəkli divarlar üzərində qaldırılmış Kültəpə 2 (e.ə. 2-1-ci minillik) və Kültəpə yaşayış yeri 1-də (e.ə.7-1-ci minillik), Vayxır Gavurqalada (e.ə. 2-ci minillik, 2,5 hektar sahəsi), Arpaçayın sağ sahilində yerləşən Qaratəpə dağında Oğlanqalada (e.ə. 2-1-ci minillik), qədim türk çelkan adı (2,səh.325-331) əsasında yaranmış Çalxanqalada (e.ə.2-1-ci minillik) tədqiqat işləri aparmışlar. Bu ərazilərdən qədim alətlərin tapılması, yaşayış yerlərinin aşkarlanması, ərazidə çox qədimdən insanların məşkunlaşdığını sübuta yetirir, Naxçıvan şəhərinin minilliklərdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərdən biri olmasını təsdiq edir. Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranması tarixinin nəinki 2000, hətta dörd min ildən də çox olduğunu təsdiqləyir.

Bir sıra tədqiqatlar ilkin şəhər mədəniyyətinin meydana gəlməsini I və II Kültəpə abidələri ilə əlaqələndirirdilər. Lakin Naxçıvan şəhəri ərazisində arxeoloji ekspedisiyalar tərəfindən aparılan ilk tədqiqat işləri (Araz arxeoloji ekspedisiyası) Nekrapolun Naxçıvanın şimal hissəsində indiki Naxçıvan Dövlət Universitetinin və Hərbi şəhərciyin ərazisində yerləşdiyi ehtimal edilmişdir. Nekrapoldan 100-dən artıq maddi-mədəniyyət nümunələri tapılmış və bu nümunələr e.ə. 2 minilliyin ikinci yarısına aid edilmişdir. Tədqiqatlar zamanı Naxçıvan şəhəri ərazisində Tunc dövrünə aid qəbir abidələri, antik dövrə aid təsərrüfat binalarının qalıqları və qəbir abidələr də aşkar edilmişdir (3,səh.270-271;315).

2006-cı ildən Naxçıvan Muxtar Respublikası ərazisində Beynəlxalq arxeoloji ekispedisiyalar fəaliyyət göstərir. Bu ekspedisiyaların tərkibində Amerika Birləşmiş Ştatlarının, Fransanın, Macarıstanın, İtaliyanın, Türkiyənin, İran İslam Respublikasının arxeoloqları da iştirak edirlər. Ötən əsrin 70-ci illərində alimlərimiz Naxçıvanın tarixinin 3500-4000 il olduğunu irəli sürürdülərsə, son dövrlər Şərur rayon Dizə kəndi ərazisində Ovçular təpəsində, Babək rayonunun Sirab kəndi yaxınlığında AMEA-nın müxbir üzvü V.Baxşəliyevin (5, səh.6), əsasən də Duzdağda Fransa Beynəlxalq Araşdırmalar Mərkəzinin əməkdaşı, doktor Katerina Marro və Severine Sanzinin (6)

apardıqları tədqiqatlar nəticəsində mədəndən aşkar olunmuş tapıntılar, keramika məmulatları, daş alətlər sübut edir ki, e.ə. V minillikdən başlayaraq Duzdağda duz çıxarılmış və Naxçıvanda mədənçilik inkişaf etmişdir. (6).

İpək Yolu üzərində yerləşən, mühüm ticarət və sənətkarlıq mərkəzi hesab olunan Naxçıvanın hələ qədimdən inkişaf etmiş antik ölkələrlə sıx əlaqələri olmuş, orta əsrlərdə Hindistan, Orta Asiya, Çin ölkələrinə gedən tranzit karvan yollarının qovşaq mərkəzi olmaqla, dünyanın bir çox ölkələrinin iqtisadiyyatı və mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir.

Naxçıvan regionunun məskunlaşma strukturunun tarixinin genetik analizi, şəhərlərin şəhərsalma təkamülünün aşağıdakı bir neçə xarakterik mərhələlərini aşkar etməyə imkan verir:

1.Qədim dövr

a) Yaşayış yerlərinin salınması, ilkin məskunlaşma (e.ə.VII-III minillik)

b) Qüdrətli tayfa ittifaqlarının yaradılması (e.ə. III-I minillik)

c) İlkin şəhər sivilizasiyasının yaradılması, istehkam məskənlərinin (b.e.ə. II-I minilliklər) (Çanaqqala və b.) şəhər-qalaların (Kültəpə, Oğlanqala, Vayxır, Gavurqala) və digər sitadellərin tikintisi.

2.İlkin orta əsr (IV-VI əsrlər)

a) Sasanilər dövrü (III-VI əsrlər) sülalənin canişinləri tərəfindən şəhərlərin idarə olunması. Şəhərlərin planlaşdırılmasında şərqi-fars təsirinin güclənməsi.

3. Orta əsr dövrü (VII-XVIII əsrlər)

a) Ərəb xilafəti dövrü (VII əsrin ortası VIII əsr)-dağılmış Naxçıvanın bərpası və Naxçıvanda məskunlaşmasının dayaq məntəqəsinə çevrilməsi.

b) Səlcuq imperiyası dövrü (X-XII əsrlər)- Naxçıvanda canişin istiqamətgahının yerləşdirilməsi, türk ənənələrinin dirçəlişi, rayon və şəhər məskunlaşmanın müstəqil inkişafı.

c) Eldənizlər-Atabəylər dövrü (XII-XIII əsrlər)-Naxçıvan, Ordubad, Culfa şəhərlərində, mədəniyyətin, ticarət və sənətkarlığın sürətli inkişafı, 30-70-ci illərdə, Naxçıvanın-dövlət paytaxtı funksiyalarına ayrılması, sarayların, məscidlərin, məqbərələrin tikilməsi, Naxçıvan memarlıq məktəbinin çiçəklənməsi.

d) Səfəvilər dövləti (XVI-XVII əsrlər) irrequlyar şəhərsalmanın inkişafı, Naxçıvanın iri şəhərə çevrilməsi, şəhər ictimai mərkəzlərinin formalaşması, mülki və dini binaların tikintisi.

e) Azərbaycanın Rusiyaya birləşdirilməsi (XIX əsrin ortaları), Naxçıvan və Ordubad şəhərlərinin baş planının rus mühəndisləri tərəfindən tərtib olunması, şəhərlərin planlaşdırılmasında Avropa ənənələrinin izləri.

4. Kapitalizm dövrü (XIX əsrin sonu-XX əsrin əvvəli) Naxçıvanda, Ordubadda sənaye müəssisələrinin əmələ gəlməsi, dəmir yolunun Naxçıvan ərazisindən keçməsi, (1906-cı ildə), yeni nəqliyyat məskənlərinin təşkili (Culfa və b.) və bütün bunların nəticəsində məskunlaşma strukturunun dəyişdirilməsi. Şəhərin əvvəlki kompakt planlarının parçalanması.

5. Müasir dövr (XX-XXI əsrin əvvəli)

a) Sovet dövrü (1920-1990-cı illər) Şəhərsalmanın sosializm ideyalarına əsasən şəhər və kənd qəsəbələrinin bir bərabərdə olan şəbəkəsi ilə birgə inkişaf etdirilməsi, onların inkişafının planlı xarakteri.

b) Sovet dövründən sonrakı dövr (1991-ci ildən cari ilə qədər) məskunlaşmanın yeni formalarının axtarışı və şəhərsalmanın müstəqillik, demokratiya əldə etməsi və bazar modelinə keçməsi ilə əlaqədar inkişaf etməsi (7; 8).

Şəhər insanlığın bu günə kimi tapdığı ən məqsədəuyğun ümumi yaşayış məskəni kimi düşünülür. Həqiqətən də neçə min illik yaşayış tarixində bəşəriyyətin müxtəlif formalara üz tutmasına baxmayaraq məzmun dəyişməz olaraq qalmışdır. Bütün hallarda mübadilə və birgə yaşayışdan yaxşı məskunlaşma vahidi tapılmamışdır.

Şəhər həm mübadilə, həm istehsalat, həm də istirahət yeri kimi funksiyaları özündə cəmləşdirən bir möcüzədir. Bəzən yüz illərlə bir ərazidə qalıb inkişaf etdiyindən və şəhər hədsiz böyüdüyündən axır ki, şəhərin özü də parçalanmalı olmuşdur. Lakin parçalansa belə şəhər öz məzmununu dəyişməmişdir. Şəhər şəhərsalma quruluşunu və funksional məzmununu dəyişsə belə bütövlükdə həyati fəaliyyət formasını dəyişməyib. Şəhərlər adətən uzun inkişaf tarixində ilk yarandığı yerini tərk etmirsə o, adəti üzrə konsentrik çevrələrlə artaraq birmərkəzli radialkonsentrik çevrələrə bölünür. Yox əgər tarixi şəhər inkişaf tarixində ilk yarandığı torpaqlardan bir, yaxud iki istiqamətdə artıb ərazisini dəyişirsə, təbii olaraq burada planlaşma prinsipi, dövrün tələblərinə uyğunlaşdırılır. Bu baxımdan Naxçıvanın məskunlaşma strukturu ilə yanaşı şəhərin planlaşma quruluşunun öyrənilməsi də vacib məsələlərdəndir.

Şəhərin quruluşunun, əsasən də orta əsr Naxçıvan şəhərinin quruluşunun öyrənilməsi prosesində bir sıra suallar ortaya çıxır.

1. Xalq memarlığının inkişaf prosesində şəhərin önəmliliyinin və yerinin müəyyənləşdirilməsi; 2. Şəhərsalmanın memarlıq həllinin müəyyən dərəcədə mədəniyyət əlaqələrinin problemi kimi özünü göstərən genezis problemi, ən vacibi isə milli memarlığın uğurlu inkişafına kömək edən-inşaat-texniki və bədii elementlərin aşkar edilməsidir.

İslam dininin Naxçıvanda hakimiyyətə gəlməsi, orta əsrlərdə Naxçıvanın bir sıra ölkələrlə daimi ticarət əlaqələri, yerli, müstəqil feodal dövlətlərin yaranması (X əsrdə Rəvvadilər dövründə Naxçıvanda "Naxçıvan şahlığı" yaranmışdır) və digər sosial-siyasi proseslər əsasında IX-X əsrlərdə Naxçıvanda şəhər həyatının canlanması sonralar sürətli inkişafa gətirib çıxardı. Əgər IX-X əsrləri Naxçıvan şəhərinin kiçik qala-şəhərindən iri siyasi-inzibati, sənətkarlıq-ticarət və mədəni-dini mərkəzə çevrilməsi kimi hesab edilirsə, XI-XII əsrləri şəhər həyatının yüksəlişi, çiçəklənməsi dövrü, yəni memarlığın intibah dövrü adlandırılır. Bu dövr Naxçıvanın tarixinə Səlcuq-Atabəylər dövrü kimi təqdim olunur.

Şəhər ictimai əmək bölgüsü baxımından kəndin əksi olaraq, sənət istehsalı, ticarətlə bağlı əməyin və zehni əmək fəaliyyətinin cəmləşdiyi məkan idi. İctimai istehsaldakı dəyişikliklər hər bir sosial-iqtisadi prosesdə olduğu kimi urbanizasiya prosesinin əsasında dururdu.

Orta əsrlərdə Azərbaycanın digər şəhərləri kimi Naxçıvan şəhərinin inkişafının iqtisadi əsasını sənət istehsalı və ticarət təşkil etmişdir. IX-XII əsrin əvvəllərində Naxçıvanda urbanizasiya proseslərinin səviyyəsi sənətkarlığın yüksək inkişafında, sənətdaxili ixtisaslaşmanın dərinləşməsində və sənətkarlıq məmulatlarının standartlaşdırılmasında özünü göstərir və yeni konstruktiv inşaat formaları və memarlıq abidələri-günbəz örtüklər, minarələr, türbələr, məscidlər, karvansara və buzxanalar, milli ornament sənətinin çiçəklənməsi, dekorda zəngin naxış işləmələr yaranır. Buradan da görünür ki, şəhərlərin inkişafı müəyyən sosial-iqtisadi şərtlərə əsaslanan prosesdir.

XIV əsrdə monqol istilaları zamanı şəhər həyatı iflic vəziyyətə düşsə də, XVI əsrdə Naxçıvan Səfəvi dövlətinin aparıcı şəhərlərindən birinə çevrilmişdir. XVIII əsrdə Naxçıvanda "Naxçıvan xanlığı" yaranır. Bu dövrdə bir qədər iqtisadi inkişafı olan Naxçıvan xanlığında xalq memarlığı onun bəzi gözəl cəhətlərini qeyd etməyə imkan verir. Yerli inşaat materialları haqqında yüksək biliklərin əldə edilməsi özünəxas inşaat konstruksiyalarının yaradılmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, dekorativliyə olan sevgi tək saray və ictimai qurğularda deyil, o cümlədən sıravi yaşayış binalarında da öz əksini tapır. Bəzəkli kərpic düzülüşü, zövqlü və naxışla yonulmuş taxta detallar-eyvan məhəccərləri, pəncərələrin birləşdirmələri, eksteryerdə şəbəkə sistemi, interyerlərin boyanması və s. sahibin rifahlıq dərəcəsini təyin edir.

Naxçıvan xanlığının əmələ gəlməsinin ümumi səbəbləri ilə yanaşı bəzi özəl tərəfləri də var idi. Bütün bu sosial-siyasi amillər xanlıqlar dövrü şəhərsalmanın memarlıq-planlaşdırılmasının formalaşmasına, tarixi feodal şəhərinin bədii simasının inkişafına, məhəllələrin formalaşmasına və s. öz təsirini göstərmişdir. Naxçıvan xanlığı dövrü şəhərin strukturunun əsasını aşağıdakı qanunauyğunluqlar əhatə edirdi:

1. Müdafiə xüsusiyyətləri;
2. Xan sarayının coğrafi mövqeyi;
3. Tarixi mərkəzin formalaşması;
4. Məhəllə sistemi;
5. Ərazinin landşaftı.

XVIII əsrdə Naxçıvanda şəhərsalma və şəhərin xarakteri haqqında danışarkən qeyd etmək lazımdır ki, Naxçıvanda müstəqil xanlığın yaranması şəhərin inzibati idarəçilik və sənətkarlıq mərkəzinə çevrilməsinə gətirib çıxarmışdır. Naxçıvan xanlığının mərkəzi kimi şəhər olduğu halda bu fakt onun inkişafı üçün o qədər də əhəmiyyət kəsb etmirdi. Lakin Ordubad, Culfa kimi yaşayış məntəqələrinin inkişafı başlıca olaraq buralara köçmüş sənətkarlar və xan qulluqçuları hesabına həyata keçirilirdi. Burada milli mədəniyyətin inkişafı ayrı-ayrı regionların özünəxas adət-ənənələrinə əsaslanırdı. Milli-adət ənənələrin inkişaf prosesində demoqratik tərkib, xalqın bədii-estetik idealı və s. əsas yer tuturdu.

Bu gün, tarixi mühitin kontekstində Naxçıvan şəhərinin inkişaf tənzimlənməsi XXI əsrin ən aktual və eyni zamanda, az öyrənilmiş və mürəkkəb məsələlərindən biridir. Tədqiqat obyekti kimi Naxçıvan şəhərinin məkan-mühit təşkili, xüsusi ilə tarixi mühitin müasir şəhərsalma konsepsiyasındakı rolunun öyrənilməsi vacib məsələlərdəndir. Bu məsələlərin həllini təmin etmək üçün şəhərin memarlıq-məkan görkəmi kompozisiya baxımından zənginləşdirilməlidir. Həmin məqsədə yönələn bu proqram həmçinin tarixi abidələrin bərpa və rekonstruktiv-siyahısından sonra müasir şəhər kompozisiyasına inteqrasiyanı da nəzərdə tutmalıdır. Şəhər mühiti estetik cəlbedici olmalı, şəhər planı təbii strukturu məhv etmədən mərhələli şəkildə şəhər mühitinin dayanıqlı inkişafını təmin etməlidir.

## ƏDƏBİYYAT


1. Cəfərov Ə. Naxçıvan Paleolit düşərgəsi. NDU nəşri 1999, 40 s.
2. Bağırov A. Onomologiya problemləri. I cild. Bakı, Elm və təhsil, 2010, 435 s.
3. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 519 s.
4. "Şərq qapısı" qəzeti. Yeni abidələr aşkar edilib. 7aprel 2010, sayı: 61
5. "Şərq qapısı" qəzeti. Naxçıvan Kür-Araz mədəniyyətinin vətənidir. 10 dekabr 2010, sayı: 225.

6. Baxşəliyev V., Catherıne M., Carolıne H., Alıyev N., Phılıppe D., Severıne S. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan-2012, 78 s.
7. Cəfərov X. Naxçıvan şəhərinin sakinləşmə prinsipləri və planlaşdırma strukturunun inkişafı. Urbanizm, Bakı, 2001, 90 s.
8. Cəfərov X. Azərbaycanın Naxçıvan Muxtar Respublikasında məskunlaşmanın şəhərsalma məsələləri. Memarlıq namizədi elmi dərəcə almaq üçün dissertasiya işi. Bakı, 2002, 136 s.
9. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, 1996,106 s.
10. http. www. Azərbaycan xanlıqları, vikipediya, açıq ensiklopediya.
11. Гусейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, 1963, 396 с.

**Rəsul BAĞIROV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN ƏHALİSİNİN MƏDƏNİ VƏ TƏSƏRRÜFAT HƏYATI (e.ə.V-IV minilliklər)

Naxçıvan ərazisinin münbit torpaqları dağətəyi və dağlıq zonaları, Araz, Arpaçay, Cəhriçay, Naxçıvançay, Gilançay və s. su mənbələri hələ neolit dövründən burada təsərrüfatın müxtəlif sahələrinin, xüsusilə əkinçiliyin və maldarlığın inkişafı üçün zəmin yaratmışdır.

Cənubi Qafqaz ərazisində qədim əkinçi − maldar tayfalarının təsərrüfat həyatını əks etdirən əkinçilik mədəniyyəti iki mərhələdən keçmişdir. Birinci mərhələ Neolit dövrünü, ikinci mərhələ Eneolit dövrünü əhatə edir. Birinci mərhələdə əkinçilik ilkin yaranma mərhələsində olur, onunla bərabər maldarlıq, sənətkarlığın dulusçuluq, toxuculuq sahələri də formalaşmağa başlayır. (5, s.245)

Eneolit dövründə təsərrüfat yüksək xətlə inkişaf etməyə başlayır.

Qafqazda Eneolit dövrü abidəsi ilk dəfə olaraq XX əsrin 50-ci illərində O.H.Həbibullayev tərəfindən Naxçıvan ərazisində I Kültəpədə aşkar edilmişdir. I Kültəpənin Eneolit dövrü təbəqəsi ilə həmin dövrün yaşayış məskənləri Qarabağda A.A.Jüssen, Gəncəçay düzənliyində İ.H.Nərimanov tərəfindən aşkar edilib öyrənilmişdir.

Eneolit dövrü abidələrindən tapılmış oraq dişi daş və sürtgəclər, daş toxalar artıq bu dövrdə əkinçiliyin intensiv xarakter daşıdığına işarədir. Naxçıvan ərazisində əkinçiliyin inkişafını göstərən amillərdən biri də qazıntı sahələrindən aşkar edilən və ilkin əkinçilik mədəniyyəti üçün xarakterik olan taxıl dənləridir.

Maldarlığın inkişafına nəzər salsaq görərik ki, Neolit dövründə maldarlıq o qədər də inkişaf etməmişdir. Eneolit dövründə Naxçıvan ərazisində heyvan sürüləri artmış, iribuynuzlu heyvanlar çoxluq təşkil etmişdir. Bunu I Kültəpədən tapılmış materiallar sübut edir.

Arxeoloji qazıntılardan əldə edilən müxtəlif alətləri, təsərrüfat əşyaları o dövrdə sənətkarlığın müxtəlif qollarının metallurgiya və metalişləmə, dulusçuluq, daşişləmə, sümükişləmə dəri və gönişləmə, toxuculuq və s. müxtəlif mərhələlərdə dinamik şəkildə inkişaf etdiyini göstərir.

I Kültəpənin Eneolit dövrü təbəqəsindən yeddi ədəd Ovçular təpəsindən olduğu kimi Azərbaycanda və bütün Cənubi Qafqazda məskunlaşan tayfaların metalla ilk tanışlığı hələ Eneolit dövründə olmuşdur. Bu dövrə aid abidələrdən xırda metal əşyalar o cümlədən, bəzək üçün muncuqlar tapılmışdır. (4, s.78,79)

Tədqiqatçılar Azərbaycanın Eneolit dövrü Kültəpə və Gomutəpə mədəniyyəti ilə Kür-Araz mədəniyyəti arasında müəyyən varisçiliyinin olduğunu söyləyir.

Eneolit dövrü abidələrindən tapılmış keramika məmulatının hazırlanma texnologiyasında, bişirilməsində inkişaf var idi. Qablar müxtəlif formalarda hazırlanmışdır. Onlar əsasən küpə, badya, çölmək, kasa, banka şəkilli və çəlləkvaridir.

Naxçıvan ərazisində daşişləmə sənəti qədim daş dövrünün bütün mərhələlərində başlayıb və əsas yerlərdən birini tutmuşdur.

I Kültəpənin Eneolit təbəqəsindən tapılmış sümük alətlər içərisində bizlər çoxluq təşkil edir. Onlar əsasən kiçik və iribuynuzlu heyvan və quş sümüyündən

hazırlanmışdır. Bunlardan başqa qaşovlar və pardaxlayıcı alətlər o dövrdə sümükişləmənin mövcudluğundan xəbər verir.

Arxeoloji abidələrdən aşkar edilən toxuculuq alətlərindən görünür ki, bu dövrdə toxuculuq təsərrüfatın mühüm bir sahəsini təşkil etmişdir. Toxuculuğun əsası Neolit dövründə daha da inkişaf etmişdir. I Kültəpənin Eneolit dövrü təbəqəsində binaların döşəməsindən və qəbirlərdən bitki liflərindən toxunmuş parça qalıqlarına təsadüf edilmişdir.

Naxçıvan ərazisində dağ-mədən işinin yüksək səviyyədə inkişaf etdiyini, XIX əsrin ikinci yarısında Duzdağdan tapılmış daş çəkiclər sübut edir. Daş çəkiclərdən duz çıxarılmasında istifadə olunmuşdur. (Nikitin)

1976-cı ildə Duzdağın qədim duz mədəni qeydə alınmışdır. Burada ilk tədqiqat işlərini V.H.Əliyev aparmışdır. O, qədim dövrdə duzun çıxarılması üçün başlıca olaraq şaxta və tunellərdən istifadə olunduğunu göstərir. (3. s.82)

Arxeoloji materiallar Cənubi-Qafqaz tayfalarının Mezolit, Eneolit və Neolit dövrlərindən başlayaraq qonşu ölkələrlə iqtisadi və mədəni əlaqələrin olduğunu göstərir. V.H.Əliyev Ön Asiya tipli boyalı qabların füruzə və minalı pasta muncuqların tapılmasını nəzərə alaraq hələ Eneolit dövründən qədim Naxçıvan tayfaları ilə Şumerlər arasında əlaqələrin olması fikrinə gəlmişdir. Valaf Obeyd tipli saxsı qabların Azərbaycanda bir neçə abidədən tapılması bunu bir daha sübut edir.

I Kültəpənin Neolit və Eneolit dövrü təbəqəsindən iki ədəd boyalı qab və 13 boyalı keramika nümunəsi tapılmışdlr. Həmin boyalılar içərisində iki ədəd çölmək tipli qab xüsusi zöqlə hazırlanmışdır. Çox ehtimal ki, bu qablar dulus çarxında hazırlanmışdır. Belə qab nümunələrinin olması qədim Naxçıvan tayfalarının hələ Eneolit dövründə Ön Asiya tayfaları ilə iqtisadi mədəni əlaqələrindən xəbər verir.

Qədim Naxçıvan tayfalarının qonşu ölkələrlə iqtisadi mədəni əlaqələrin genişliyini göstərən dəlillərdən biri də silindirik möhürlərdəndir. Tədqiqatçılar belə hesab edir ki, silindirik möhürlərin ilk vətəni Mesopotamiya olmuş və orada bunlardan e.ə. V minilliyin sonu və IV minilliyin əvvəllərində istifadə olunmuşdur.

Qədim Naxçıvan tayfalarının qonşu ölkələrlə iqtisadi mədəni əlaqələrinin genişləndirilməsində metal emalının mühüm əhəmiyyəti olmuşdur.

Qeyd etmək lazımdır ki, Türkiyə ərazisində Anadoluda yerləşən Çayonu təpəsindən tapılmış metal əşya son nəticələrə görə e ə. IX-VIII minilliklərə aid edilib. Ondan təxminən 700-800 km aralı yerləşən I Kültəpənin alt təbəqəsi e.ə. VI minilliyi əhatə edir. Onların arasında 3000 ilə yaxın fərqi olmasından görünür ki, I Kültəpənin dövrünü dəqiqləşdirmək üçün yenidən tədqiqat aparmaq zəruridir. (6. s.270, 271)

Qalay ticarəti qonşu ölkələrlə iqtisadi əlaqələrin inkişafında xüsusi yer tutmuşdur. Məlum olduğu kimi, Azərbaycanda zəngin mis və polimetal yataqlarına rast gəlinməmişdir. Tədqiqatçılar qeyd edir ki, Azərbaycana və Qafqaz ərazisinə qalay Yaxın və Şərq ölkələri vasitəsilə gətirilmişdir. (5. s.277)

Şərq ölkələri ilə iqtisadi mədəni əlaqələrin inkişafında atdan minik və qoşqu vasitəsi kimi istifadə edilməsinin böyük əhəmiyyəti olduğunu göstərir. Azərbaycan alimlərinin son illər apardığı tədqiqatlarda atçılığın e.ə. V minilliyin sonu və e.ə. IV minilliyin əvvəllərində təşəkkül tapması göstərilmişdir. ( 5, s. 280)

Gəmiqayada rast gəlinən araba təsvirləri ( I, s. 31,34) habelə, I Kültəpə, II Kültəpə, I Maxta yaşayış yerlərindən əldə olunmuş gil təkər modelləri təkərli nəqliyyatın inkişafı ilə bağlıdır. Naxçıvanın Urmiya və Yaxın Şərq ölkələrinin

qonşuluğunda yerləşməsi bu ölkələrlə iqtisadi və mədəni əlaqələrin genişlənməsi üçün əlverişli şərait yaratmışdır.

Bu mədəni əlaqələr Qədim Şərq sivilizasiyasının əldə etdiyi nailiyyətlərin Naxçıvan ərazisində yaşayan tayfalar tərəfindən mənimsənilməsinə səbəb olmuşdur. Bu əlaqələr Şərqdə Çinə, qərbdə Misirə, cənubda Mesopotamiya, şimalda Qara dəniz sahillərinə qədər uzandığını göstərir.

Naxçıvanın Qədim Şərq ölkələri ilə həm iqtisadi, həm də mədəni əlaqələrinin inkişaf etdiyini Şahtaxtı və Qızılburundan tapılmış xüsusi tərkibli noxta və şüşə muncuqlar da təsdiq edir. Bu tip muncuqların iki çay arasında (Mesopotamiya) istehsal olunduğu qeyd edilmişdir. Sonralar onların istehsalı Misir və Şərqi Aralıq dənizi rayonlarında da olmuşdur. (5, s.280)

Yuxarıda göstərildiyi kimi, Ön Asiya və Aralıq dənizi hövzəsi ilə hələ e.ə. IV minillikdən başlayaraq intensiv inkişaf edən iqtisadi-mədəni əlaqələr gil qabların bənzətmə texnikasına da müəyyən təsir göstərmişdir. Naxçıvan ərazisində yayılan boyalı qablar mədəniyyəti, şübhəsiz ki, Ön Asiya tayfaları ilə iqtisadi-mədəni əlaqələr zəmnində meydana çıxmışdır. Belə qabların ilk nümunələrinin Suriya və Şərqi Aralıq dənizi hövzəsində yaranması tədqiqatçılar tərəfindən qeyd edilmişdir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V. B. Gəmiqaya təsvirlərinin poetikası. Bakı. 2002
2. Əliyev V.H. Tarixin izi ilə. Bakı. “Elm”, 1975, 77 s.
3. Əliyev V.H. Naxçıvanın qədim duz mədənləri. Azərbaycan SSR EA Xəbərləri (Tarix, fəlsəfə, hüquq), 1983, № 4, s.79-87.
4. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Azərbaycan SSR EA nəşriyyatı, Bakı. 1959, B. 4 s.
5. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı, “Elm” 2003, 339 s.
6. Seyidov A.Q., Həsənova Ə.M. Naxçıvanın qədim metalı. Bakı, “Elm”, 2005, 315 s.

**Günay MƏMMƏDOVA**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# GƏMİQAYA TƏSVİRLƏRİNDƏ MUSİQİ VƏ RƏQS MOTİVLƏRİ

Naxçıvan Azərbaycanın Cənub bölgəsində yerləşən və mühüm strateji əhəmiyyətə malik olan ərazisidir. Azərbaycanın bu qədim mədəniyyət beşiyinin füsunkar gözəlliyə, təbii zənginliklərə malik çay vadilərində, dağ yamaclarında, karst mağaralarında daş dövründə 100 min illər bundan əvvəllər ulu babalarımız olan ibtidai insanlar yaşayış məskənləri salmışlar.

Ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan Yaxın Şərq mədəniyyəti ilə sıx təmasda olmuş, Azərbaycan xalqının tarixini əks etdirən tarixi arxeoloji abidələrlə zəngindir. Belə abidələrdən biri də Gəmiqayadır. Qayalar üzərində həkk olunmuş qədim təsviri sənət əsərləri xalqın keçmiş həyat tərzini, mədəniyyətini, dini və estetik görüşlərini öyrənmək üçün ən dəyərli mənbələrdir. Belə abidələr dünyanın bir çox ölkəsində aşkara çıxarılmışdır. Gəmiqaya dünya mədəniyyətinin başlanğıc nöqtələrindən biri sayılır. Yəni bu yerlərdə insanlar yaşayanda dünyanın bir çox torpaqlarına insan ayağı dəyməmişdi. Cənubi Qafqazda ən qədim və zəngin qayaüstü rəsmlər Azərbaycanda−Qobustanda, Abşeronda, Kəlbəcərdə və Gəmiqayadadır.

Ordubad rayonu ərazisində, Kiçik Qafqazın ən hündür zirvəsi olan Qapıcıq dağında yerləşən Gəmiqayada qayaüstü rəsmlərin olması ilk dəfə 1967-ci ildə müəyyən edilmişdir. Bundan sonra vaxtaşırı bu ərazilərə arxeoloji səfərlər təşkil olunmuşdur. Əlalxüsus, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Ordubad rayonundakı Gəmiqaya abidələrinin tədqiq edilməsi haqqında" 26 aprel 2001-ci il tarixli Sərəncamı ilə bu sahədə lazımi işlərin görülməsi üçün şərait yaradılmış, bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları Gəmiqayada geniş tədqiqatlar aparmağa başlamışlar.

Məhz qayaların üzərində həkk olunmuş təsvirlər cızma, döymə və sürmə üsulu ilə rəsm edilmiş və onlar özünün qədimliyi, çoxtəbəqəliliyi, süjet zənginliyinə görə səciyyələnmişdir. Mənbələrdə qeyd olunur ki, ümumi sayı mindən artıq olan Gəmiqaya təsvirlərində ən qədim təsvirin 17 min yaşı var.

Elmi araşdırmalar göstərir ki, Gəmiqaya təsvirlərinin böyük əksəriyyəti Tunc dövründə − b.e.ə. IV minilliyin II yarısında həkk olunub. Gəmiqaya petroqrifləri Qobustan, Şimalı Qafqaz və Anadolunun qayaüstü təsvirləri ilə, eləcə də Naxçıvanın Tunc dövrünə aid digər incəsənət abidələri ilə sıx bağlıdır. Buna görə də Gəmiqaya təsvirləri həm Azərbaycanın, həm də Qafqazda yaşayan xalqların, Anadolunun və Ön Asiyanın qədim əhalisinin adət-ənənələrinin, dini ideoloji dünyagörüşünün öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Qədim insanlar onları əhatə edən mühiti, heyvanlar aləmini, özlərinin həyat tərzini, təsərrüfatını, dini inamlarını obrazlı şəkildə qayalar üzərində təsvir ediblər. Bununla da dəyərli incəsənət əsərləri yaradıblar.

Qayaüstü rəsmlər-petroqliflər qədim incəsənətin yaranması və təkamülü kimi mühüm elmi problem məsələlərin öyrənilməsi üçün əsas mənbələrdir. Qədim insanların sosial həyat tərzi, ideologiyası, müxtəlif adət-ənənələri, estetik və fəlsəfi baxışları ilə əlaqədar yaranmış qayaüstü rəsmlər, qiymətli təsviri-sənət əsərləri olmaqla yanaşı, bir növ bəşəriyyətin ilkin inkişaf mərhələlərini əks etdirən sirli piktoqrafik yazılardır.

Dünyanın əksər ərazilərində mövcud olan petroqliflər arxeoloqları, sənətşünasları və tədqiqatçıları ən çox maraqlandıran abidələrdir.

Gəmiqaya petroqlifləri Azərbaycan qayaüstü təsvirləri içərisində öz orijinallığı ilə seçilir. Bu abidə qədim Naxçıvan mədəniyyətinin geniş tədqiqində yeni söz deməyə imkan verir. Bu qayalar üzərində müxtəlif süjetli rəsmlər həkk olunmuşdur. Sərt qranit, bazalt cinsli qayalar üzərində adam, keçi, maral, it, at, öküz, bəbir, quş təsvirləri və müxtəlif şərti işarələr həkk olunmuşdur. Qədim təsviri sənət əsərlərinin böyük əksəriyyətini heyvan rəsmləri təşkil edir. Tədqiqatçılar qeyd edir ki, bir qayda olaraq, heyvan rəsmləri tək-tək, qoşa, sürü halında və kompozisiyalı səhnələrdə təsvir olunmuşdur. Onların böyük əksəriyyəti keçi rəsmləridir.

Eyni zamanda Gəmiqayada insan rəsmlərinin tək halda və kompozisiyalı səhnələrdə verilməsi və bəzi insan rəsmlərinin zoomorfik əlamətlərlə fantastik şəkildə təsvir olunması da mənbələrdə öz əksini tapmışdır. İnsan rəsmlərinin əksəriyyəti tək xətlərlə əks olunub. Bədəni düz xətlə, başı dairəvi formada, yana açılmış qollarını dirsəkdən bükərək əllərini yuxarı qaldırmış, sol əli yarpaqvari təsvir edilmiş, ayaqlarını geniş açmış rəqs edən insan rəsmi diqqəti cəlb edir. Naxçıvanın Tunc dövrünə aid saxsı qabların üzərində də rəqs səhnələrinin təsvirinə rast gəlinir.

Gəmiqaya petroqliflərinin bir qismində qədim rəqs səhnələri təsvir olunmuşdur. Maraqlı kollektiv rəqs səhnələrindən birində adam təsvirinin başında buynuzvari çıxıntılar var. Görünür, həmin adam başına öküz və yaxud keçi maskası geyinmişdir. Adamlar qollarını və ayaqlarını geniş açaraq hərə bir tərəfdə fərdi şəkildə rəqs edir. Rəqs meydanının mərkəzində verilən, günəş və yaxud od rəmzi sayılan dairədən şüaşəkilli xətlər çıxır. Bir qədər aşağıda həmin dairəyə doğru hərəkət edən keçi təsvir olunmuşdur. Keçinin yaxınlığındakı adam əlini dairəyə doğru uzatmışdır. Onun əli üç barmaqla verilmişdir. Görünür, bu təsvirdə qədim ovçuluq və yaxud heyvandarlıqla əlaqədar müqəddəs sayılan od-ocaq ətrafında icra edilən maraqlı mərasim əks etdirilmişdi.

Tunc dövründə (e.ə. IV-II minilliklərdə) Naxçıvan ərazisində yaşayan əhalinin mədəni inkişaf səviyyəsi xeyli yüksəlmiş, müəyyən mərasimlərlə əlaqədar rəqslərin icra olunması, ilkin musiqinin yaranması ilə nəticələnmişdir. Gəmiqayadakı və Naxçıvanın boyalı qabları üzərindəki rəqs səhnələri, eləcə də Qobustandakı qaval daşlar, yallı təsvirləri Eneolit və Tunc dövründə Azərbaycanda musiqi mədəniyyətinin inkişaf etdiyini göstərir.



Gəmiqaya Azərbaycanın rəsm mədəniyyətinin ilk ocaqlarından biri olduğu kimi, həm də qədim rəqs və musiqi mədəniyyətinin formalaşdığı ərazilərdən biridir. Gəmiqayadakı şəkillər içərisində rəqs mərasimi təsvirləri xüsusi yer tutur. Kollektiv ifa olunan bu rəqslər indiki Azərbaycan türklərinin oynadıqları “Yallı” rəqsini xatırladır. Bu rəqs, vaxtilə qəbilənin estetik zövqünü təmin etməklə yanaşı, həm də birgə ov

zamanı hədəfə hamılıqla bir anda zərbə endirmək və bununla da ovu sarsıtmaq vərdişlərinin yaranmasına kömək edirdi. Bundan əlavə Naxçıvan həm də mənşəyi ilə ən qədim zamanlarla bağlı olan “Yallı” rəqsinin vətənidir.

Rəqs sənətinin meydana gəlməsinin bir çox səbəbləri mövcuddur. Rəqslərdən ilk dəfə dini ayinlərin icrasında istifadə olunmuşdur. Rəqsin ən qədim növü "Yallı"dır. Xalq məişətinin qədim adətlərini özündə ehtiva etdirən "Yallı" hesab olunur.



Tədqiqatçıların fikrincə, birlik rəmzi olan Yallı 8-10 min il bundan əvvəl yaranıb. Heç şübhəsiz ki, onun yaranma tarixi əlifbanın, yazılı mədəniyyətin əmələ gəlməsindən əvvəlki dövrlərə təsadüf etmiş, ilkin Yallı oyunları oda, atəşə pərəstiş dövründə formalaşmışdır. O, od-ocaq ətrafında toplanan mərasimlərdən ibarət olmuş, sonralar isə əhalinin başlıca məşğuliyyət sahəsi olan ovçuluqla bağlı rəqs nümunələri yaranmışdır. Ovun, döyüşün uğurlu olmasını arzulayan, ovsuna, tilsimə arxalanan, fövqəltəbii qüvvələrə and vermək istəyənlər özlərinin bu münasibətlərini mərasimlərdə təqlid, təsvir yolu ilə ifadə etməyə çalışmışlar. Yadelli, hiyləgər düşmən üzərində qalibiyyətli mübarizə, baharın gəlişi və digər həyati vacib məsələlər də rəqs nümunələrində dolğun əksini tapmışdır. Tariximizin ən böyük daş kitabələri olan Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində bu deyilənləri təsdiq edir. Hər bir Yallı həm də birlik ifadəsinin rəmzinə çevrilib. Əcdadlarımız yaxşı anlayıblar ki, süfrələrin zəngin olması, ovun uğurlu keçməsi, çətinliklərin həll olunması, düşmənin yerində oturdulması xeyli dərəcədə birgə əməkdən, birlikdən asılıdır.

İnsanlar danışmaqdan qabaq rəqs etməyi bacarırdılar. Əvvəlcə rəqs, sonra söz, rəsm sənəti yaranıb. Məhəbbət çağı gələndə min bir rəng alıb, istəklisinin qabağında əsl mərasim rəqsi ifa edir. Bununla sanki səyyarələri, aləmləri belə nizamda saxlayan əzəli ritmə qoşulmuş olurlar. Tilsim, ovsun mərasimlərini rəqslə qeyd etmiş, ov, döyüş uğurlarını rəqslə ulu bildiklərindən diləmişlər. And-aman etmək istəyən hər bir şəxs fövqəl qüvvələr qarşısında rəqslə müntəzir olmuş, hər bir ovçu, əkinçi, kahin həm də öz peşəsinin mərasim rəqslərini ifa edə bilmişdir. Təbiət hadisələrinə − yağış, ildırım, külək və s. canlı varlıqlar kimi baxan, ağaclara, heyvanlara, göy cisimlərinə müqəddəs məxluqlar kimi sitayiş edən qədim əcdadlarımız onlara musiqi parçaları, oyun səhnələri həsr etmiş, ayin rəqslərində öz münasibətlərini, duyğularını ifadə etmişlər. Mərasim rəqsləri adlanan bu sənət nümunələri dövrümüzə qədər gəlib çatmışdır. Bütün dövrlərdə ayin rəqsləri insanların ilahi qüvvəyə, transsendental aləmə qovuşması üçün yol, fənd olmuşdur.

Zəngin tarixi keçmişə malik olan Gəmiqaya Azərbaycanın ən qədim abidələrindəndir. Bizim borcumuz isə abidələrimizi qorumaq, yaşatmaq, tədqiq etmək, dünyaya tanıtmaqdır.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V. Gəmiqaya təsvirlərinin poetikası. Bakı: Elm,2002, 128 s.
2. Baxşəliyev V. Gəmiqaya təsvirləri.Bakı: Elm, 2003, 168 s.
3. Baxşəliyev V. Naxçıvanın arxeoloji abidələri, Bakı: 2008
4. Əliyev V. Gəmiqaya abidələri, Bakı: 1993
5. Müseyibli N. Gəmiqaya rəsmləri. B., 2002
6. Seyidov A. Gəmiqaya (toponimlər, qədim köç yolları). B., 2003

**İsmayıl HACIYEV**
*AMEA-nın həqiqi üzvü,*
*AMEA Naxçıvan Bölməsi*

# NAXÇIVANDA İLKİN ŞƏHƏR MƏDƏNİYYƏTİNİN YARANMASI VƏ FORMALAŞMASINDA DUZDAĞIN ROLU

Naxçıvan diyarı dünyanın ən qədim insan məskənlərindən biridir. Son illərdə Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri əsasında arxeoloq alimlər təsdiq edirlər ki, 500-300 min il bundan əvvəl bu ərazilərdə ən qədim insanlar məskən salmışlar. Bunlar əsasən Naxçıvanın təbii zənginliklərə malik çay vadilərində, dağ yamaclarında, Qazma, Kilit, Daşqala, Ərməmməd mağaralarında yaşamışlar. Şərur rayonunun Ovçulartəpəsi yaşayış yerindən tapılmış üç ədəd əmək aləti bu ərazinin nəinki Azərbaycanda, hətta dünyanın ən qədim yaşayış yerlərindən biri olduğunu göstərir. Tapılmış əmək alətləri Alt Paleolit dövrünə aid edilir. Daş, Tünc və Erkən Dəmir dövrlərində Naxçıvan ərazisində ardıcıl və intensiv yaşayış olmuşdur.

Tunc dövründə qədim Naxçıvan tayfalarının iqtisadi, ictimai və mədəni həyat tərzində böyük dəyişikliklər baş vermiş və iri tayfa ittifaqları yaranmışdır. Bu tayfaların həyat tərzini səciyyələndirən tarixi mənbələr Kür-Araz mədəniyyəti abidələridir. Qafqazda, Ön Asiyada geniş yayılmış Kür-Araz mədəniyyətinin əsas vətəni Naxçıvan diyarıdır. Bu mədəniyyətin daşıyıcıları Azərbaycanın yerli əhalisi – qədim türklərdir. Yaxın Şərq və Ön Asiyanın Kür-Araz mədəniyyəti abidələrinin tarixi e.ə. IV minilliyin ortalarına aid edilir. Son illərdə Şərur rayonunun Ovçulartəpəsində aşkar edilən maddi-mədəniyyət nümunələri Kür-Araz mədəniyyətinin e.ə. V minilliyin sonu, IV minilliyin əvvəllərinə aid olduğunu, Naxçıvanın isə bu mədəniyyətin vətəni olduğunu təsdiq edir.

Tədqiqatçıların fikrincə Orta Tunc dövründə Naxçıvanda güclü tayfa ittifaqları formalaşmış, əhalinin sayı artmış, əkinçilik, maldarlıq, sənətkarlıq əsas təsərrüfat sahələri kimi özünü göstərmiş, mübadilə və ticarət əlaqələri genişlənmişdir. Naxçıvan şəhərinin mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. İqtisadiyyatın və ticarətin inkişafı Naxçıvan ərazisində şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir (3). Şəhər mədəniyyətinin yaranması və inkişafı iki mərhələdən keçir: İlkin şəhərsalma mədəniyyəti və inkişaf etmiş şəhər mədəniyyəti (8, s.19). İnkişaf etmiş mərhələdən danışarkən artıq bu şəhərlərin qala divarları, dulusçu emalatxanaları, bazarı, su təchizatı, meydanı və sairəsi olmuşdur. İlkin şəhərsalma mərhələsindən, yəni protoşəhər dövründən inkişaf etmiş şəhər mədəniyyəti mərhələsinə qədər min illərlə vaxt tələb olunur. Naxçıvan diyarının Ön Asiya qədim Şərqinin inkişaf etmiş sivilizasiyaları ilə qonşuluqda yerləşməsi burada da ilkin şəhər mədəniyyətinin inkişafına təsir etmişdir. Akademik İqrar Əliyev göstərir ki, Naxçıvan şəhərini "Azərbaycanın ən qədim şəhərlərindən biri hesab etmək üçün kifayət qədər əsas var" (16, s.37). Son illərdə bu istiqamətlərdə tədqiqat işləri aparılmış və maraqlı nəticələr əldə edilmişdir. Prof. Y.Yusifovun yazdığına görə eramızdan əvvəl III minillikdə Azərbaycanda dövlət qurumlarının meydana gəldiyi müşahidə olunur (1, s. 64). Əlverişli təbii-coğrafi şəraiti olan Naxçıvan ərazisi dünyada insanın formalaşdığı ilk məskənlərdən və insanların yaratdığı ilkin şəhər mədəniyyətinin mərkəzlərindən biridir.

İlkin şəhər mədəniyyətinin yaranması bir sıra amillərlə əlaqədardır: təbii-coğrafi şərait, coğrafi mövqe, insanların yaşaması üçün təbii zənginliklərin olması, torpaq və su ehtiyatının bolluğu və sair. Bütün bu amillər Naxçıvan diyarı üçün xarakterikdir. Bu ərazidəki ibtidai insanlar Neolit dövründən başlayaraq I və II Kültəpə, Sədərək, Ovçulartəpəsi, Xələc, Duzdağ, Şahtaxtı, Nəhəcir kimi yaşayış yerləri salmışlar. Gəmiqaya abidəsi, Əshabi-Kəhf dini və tarixi memarlıq kompleksi bu ərazinin ilkin məskunlaşma, eləcə də zəngin mədəniyyət mərkəzlərindən biri kimi əhəmiyyətini daha da artırır (14, s.6).

"Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən beynəlxalq simpoziumdakı çıxışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qeyd etmişdir ki, "Əldə olunan nəticələr sübut edir ki, Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında sıx iqtisadi, mədəni əlaqələr olmuş, əkinçiliyin, maldarlığın, sənətkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə təkan vermiş, nəticədə 5 min il bundan əvvəl Naxçıvan şəhəri yaranmışdır" (13, s.8).

Tədqiqatçıların fikrincə Naxçıvan ərazisində ilkin şəhər mədəniyyətinin yaranmasının əsas səbəblərindən biri yaxınlıqda Duz mədənlərinin olmasıdır. Naxçıvan şəhərinin tarixi Duz dağının tarixi ilə sıx əlaqədardır. "Duz mədənləri həm Naxçıvanın daş dövrünü, həm də bu şəhərin yaşını müəyyən etmək baxımından çox əhəmiyyətli tədqiqat obyektidir" (8, s.22).

Naxçıvan şəhərinin yaranmasında Naxçıvan Duzdağının rolundan bəhs edən Ali Məclisin Sədri demişdir: "Naxçıvan şəhərinin yaranmasına bilavasitə təsir göstərən Naxçıvan Duzdağı mədəniyyətinin öyrənilməsini və Duzdağı ətrafındakı ilkin yaşayış məskənlərinin tədqiqata cəlb olunmasını ilkin şəhərsalma mədəniyyətinin öyrənilməsində yeni elmi istiqamət kimi qəbul etmək, Naxçıvan şəhər mədəniyyətini onun indiki tarixi-coğrafi hüdudlarından kənarda yox, Naxçıvan şəhərinin özündə axtarmaq, bu ərazidə tədqiqatları intensivləşdirmək lazımdır" (14, s.8).

Fikrimizcə, Naxçıvan şəhərinin yaşı məsələsi şəhərin yaxınlığındakı Duz mədənlərinin tarixi ilə üzvi surətdə bağlıdır. Mənbələrdə hətta Duz mədənlərinin həzrəti Nuh peyğəmbərin zamanından salınması haqqında məlumatlar vardır. K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı məqaləsində göstərilir: "...Xalq arasında Nuhun Naxçıvan və Kulp duz mağaralarındakı fəaliyyəti barədə əfsanələr yaşamaqdadır. Əfsanəyə görə o, burada ilk çalışan olmuşdur" (17, s.119).

Tədqiqatçılara görə e.ə. V minillikdən başlayaraq Duzdağdan duz çıxarılır. Bu mədəndən erkən Tunc dövründə xüsusilə geniş istifadə olunmuşdur. Tədqiqatlardan məlum olur ki, XIX əsrin ikinci yarısında Duz mədənləri ərazisində qazıntı aparılarkən burada daş baltalar aşkar edilmişdir. K.Nikitin yazır ki, "Naxçıvanda qədim mədəniyyətə Naxçıvan duz mədənlərindən tapılmış daş baltaları və daş pazları aid etmək olar. Bu alətlər 1870-ci ildə buradakı Duz mədənlərinin nəzarətçisi cənab Beyer tərəfindən tapılmış, 2 ədədi Naxçıvan şəhər məktəbinə verilmiş, qalanlarının isə bir hissəsi Tiflis muzeyinə göndərilmişdir. Baltalar və pazlar duzçıxarma aləti kimi bu ərazidə insanlığın ilk məskunlaşma dövrləri, hələ insanlara dəmirdən istifadənin məlum olmadığı daş dövrü haqqında təsəvvür yaradır, eyni zamanda, bunlar ərazidəki eradan əvvəl işlənən Duz mədənlərinin qədimliyini müəyyən edir" (17, s.115).

Son illərdə Naxçıvan ərazisində respublika və beynəlxalq səviyyəli arxeoloji ekspedisiyalar fəaliyyət göstərir. Beynəlxalq ekspedisiyalar əsasən Oğlanqala, Ovçulartəpəsi və Duzdağda tədqiqatlar aparırlar. Yuxarıda göstərdiyimiz kimi, Ovçulartəpəsindəki arxeoloji qazıntılar bu ərazidə insanların çox qədimdən yaşadığını

sübut edirsə, Duzdağdakı tədqiqatlar həm bu mədənin dünyanın ən qədim duz çıxarıldığı yer olması fikrini təsdiqləmiş, həm də Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasının Duzdağla bağlı olduğu qənaətinə gəlinmişdir. Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 4-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə, öz növbəsində, şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır (2, s.3).

Duzdağda çalışan insanlar əlverişli yerdə özlərinin yaşayış məskənlərini salmış və burada məskunlaşmışlar. Belə yaşayış məskənlərindən biri, bəlkə də birincisi Naxçıvandır. Duzdağda duzun çıxarılması həm ətraf ərazilərdə insanların tələbatının ödənilməsinə səbəb olmuş, həm də kənar yerlərlə mübadilə edilmiş və satılmışdır. Duzdağın yaxın ətrafında şəhər tipli yaşayış yerləri olmuşdur: Naxçıvan, Qarabağlar, II Kültəpə, Şahtaxtı və s. Bəzi tədqiqatçılar Naxçıvanın ilkin şəhər mədəniyyətindən danışarkən bunu II Kültəpə ilə eyniləşdirirlər. Bu həqiqətə uyğun deyil. Naxçıvanın ilkin şəhər mədəniyyəti elə Naxçıvan şəhəri ərazisindədir. II Kültəpə də şəhər tipli yaşayış yeri olmuşdur, lakin bu Naxçıvan şəhəri deyildir. Ola bilsin ki, Duzdağda çalışan insanların bir qismi çox əlverişli bir yer olan II Kültəpə ərazisində ilkin şəhər mədəniyyətini yaratmışlar. Duzdağdan Naxçıvan və II Kültəpə əraziləri əsasən eyni məsafədədir. Lakin duz mədənlərindən Naxçıvana olan məsafə II Kültəpəyə nisbətən çox rahat və əlverişli idi. Bununla belə, Duzdağın olması bu şəhər tipli yaşayış yerlərinin yaranmasına səbəb olmuşdur.

Duzdağdakı duz mədənlərindən çoxsaylı daş alətlər və keramikalar tapılmışdır. Duzdağ mədənlərində duzun çıxarılması və ilkin emalı üçün minlərlə böyük daş alətlərdən istifadə edilmişdir (2, s.9). Daş alətlərin 80 faizindən çoxu daş çəkiclərdir. Tədqiqatçıların fikrincə daş çəkiclər Naxçıvançaydan, ya da Duzdağ təpəsinin səthində saxlanan allyuvial yataqlardan gətirilmişdir. Həmin alətlərin sayəsində duz istehsalı ilə əlaqədar olaraq dağ-mədən işi kifayət qədər inkişaf etmiş və sənaye səviyyəsinə qədər yüksəlmişdir. Sənayenin yüksəlişi isə öz növbəsində iqtisadiyyatın, ticarətin, sənətkarlığın, mədəniyyətin və başqa sahələrin inkişafına böyük təkan vermişdir. Bu inkişaf ilkin şəhərsalmanın və şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Arxeoloqların fikrincə I və II Kültəpə yaşayış yerləri Duzdağdan uzaqda olduğundan insanların ilk yaşayış yeri yaxınlıqda olmalı idi. Axtarışlar nəticəsində Duzdağ yaxınlığında insanların məskən saldığı Sust adlı ərazidə Eneolit və Erkən Tunc dövrlərinə aid abidələr aşkar olunmuşdur. Bu da Duzdağa ən yaxın və ən qədim yaşayış yeridir. Ehtimala görə, duz mədənindən istifadə Sust ərazisindən başlamışdır. Sonra duz istehsalının artması, işçi qüvvəsinə olan tələbat, duz ticarəti və başqa amillər yeni yaşayış yerlərinin yaranmasına gətirib çıxarmışdır. Bunlardan biri də qeyd etdiyimiz kimi, daha əlverişli ərazidə yeni yaşayış məntəqəsinin salınması ilə nəticələnmişdir ki, bu da Naxçıvan şəhəridir. Duzdağdan Naxçıvana olan məsafənin və yolun əlverişli olması, şəhərin (təbii ki, əvvəl bu şəhər olmamışdır – İ.H.) çox əlverişli yerdə salınması ilkin şəhər mədəniyyətinin yaranması ilə nəticələnmişdir. Qədim insanlar yaşayış yerini seçərkən bir sıra amilləri nəzərə almağa məcbur idi: coğrafi mövqeyi, su təminatını, təhlükəsizliyi, ticarət yolu üzərində yerləşməni, təbii zənginlikləri və s. Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasına bir sıra amillər təsir göstərsə də, bunlar arasında Duzdağın olması fikrimizcə ən mühüm amildir.

Ümumiyyətlə, duz insan həyatında çox mühüm rol oynamışdır. "Duzun kəşf olunması ilə insanlıq mədəni həyat tərzinə qədəm qoymuşdur. Duzun kəşfi ibtidai insan birliklərinin oturaq mədəni həyata keçidinin inqilabıdır... Duzun kəşfi, axtarışı, üzə çıxarılması, əldə edilməsi, məişətə daxil olması, istifadəsi, bazarı ilə bağlı məsələlər əvvəlcə insanı, sonra isə bu yolla insan cəmiyyətini formalaşdırmış, oturaq həyatın bünövrəsinə çevrilmişdir. Duz istehsalı anlayışını əhatə edən yataqların müəyyən olunması, indiki terminologiya ilə desək kəşfiyyatı, mağaraların qazılması, duz parçalarının əldə olunması, daşınması, üyüdülməsi, alınıb-satılması, Duzdağ əmək alətlərinin – daş baltaların, pazların hazırlanması və sair bəşəriyyətin həyatında şəhər tipli inkişaf tərzinin də əsasını qoymuşdur"(9).

Naxçıvan ərazisində yaşamış insanların təbii yer seçmələri qanunauyğun bir prosesdir. Lakin insanların duza olan tələbatları, həm də duz vasitəsi ilə, yəni onun mübadiləsi ilə digər tələbatlarının ödənilməsi Duzdağ ətrafında uyğun yaşayış yerlərinin seçilməsi və salınmasını zəruri etmişdir. Duz həm də istehsal prosesi ilə reallaşır, insanın tələbatını ödəməyə xidmət edir. Bu isə asan başa gəlmir. Xüsusilə də Naxçıvan Duzdağındakı daş duz insan əməyinin nəticəsində istehsal edilir. "Duz dağı, duz mağarası, duz mədəni, duz bazarı anlayışları ilkin şəhər tipli yaşayış düşüncəsinin təməl şərtlərindəndir. Naxçıvanda da ilkin şəhərsalmanın yaranmasında və inkişafında Duzdağ məsələsi mühüm rol oynamışdır"(9).

Beləliklə, aydın olur ki, Naxçıvan şəhəri yaxınlığında olan Duzdağı və oradan mədən yolu ilə çıxarılan duzun tarixi çox qədimdir. Eramızdan əvvəl V minillikdən başlayaraq Duzdağda duz çıxarıldığını, mədənçiliyin inkişaf etdirildiyini, bu mədənin xüsusilə Erkən Tunc dövründə geniş istifadə olunduğu qənaətinə gəliriksə, həm də mədənçilik işinin şəhər tipli yaşayış üçün səciyyəvi olduğunu bildiririk. Ümumiyyətlə, Duzdağ amili, mədənçiliyin yaranması və inkişafı Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır. Duzdağda əmək alətlərinə, axtarış işlərinə, duzun çıxarılmasına, satışına, mübadiləsinə yaranan tələbat Naxçıvanda şəhərsalma, şəhərləşmə işinin inkişafına təkan vermişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Bakı, "Çıraq", 2005, 720 s.
2. Baxşəliyev V., Catherine M. və b. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan: "Əcəmi" NPB, 2012, 80 s.
3. Baxşəliyev V. Naxçıvanın qədim şəhərləri. "Şərq qapısı", 2010, 5 mart, № 43 (19.957).
4. Əliyev V. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır. Bakı, XXI, UNE, 2002, 320 s.
5. Əliyev V. Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemi//Naxçıvan tarixinin səhifələri. Bakı: ADPU, 1996, 222 s.
6. Əliyev V., Bağırov R. Naxçıvanın qədim qala şəhərləri. Bakı: "Elm", 2012, 192 s.
7. Əliyev V. Naxçıvan şəhərinin qədim tarixinə dair qərəzli mülahizə. "Elm" qəzeti, 1999, 13, 27 avqust, № 19-20, 21-22.
8. Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il/Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Bakı: "Nurlan", 2007, s. 20-27.
9. Həbibbəyli İ. Naxçıvan Duzdağı: tarix və müasirlik. "525-ci qəzet", 2012, 28 iyul.
10. II Uluslarası Aras hövzəsi sempozyumu (13-15 aralıq 2011, İğdır, Türkiyə). Erzurum, 2012, 632 s.

11. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: "Elm", 1977, 158 s.
12. Məmmədov F. Azərbaycan şəhərləri tarixinin tədqiqi metodologiyasına dair//Tarixin metodoloji və aktual problemləri. Beynəlxalq elmi-nəzəri konfransın tezisləri. Bakı, "Nurlan", 2010, s. 92-93.
13. Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2012, 398 s.
14. "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən beynəlxalq simpoziumda Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı. Naxçıvan Muxtar Respublikası. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: "Əcəmi", NPB, 2012, s. 514-515.
15. Алиев И. К вопросу о возрасте города Нахчывана/ Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: "Elm", 1999, s.30-37.
16. Григорьев В.Т. Статистическое описание Нахчыванской провинции. Санкт-Петербург. Типография департамента Внешней Торговли, 1838.
17. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. СМОМПК, вып. 2, Тифлис, 1882, вып. I, отдел II, с. 109-142.
18. Щерметевский П. Нахичеванские соляные месторождения. Газета «Кавказ», 16 март 1855 г., № 22.

**Turgut ÖCAL**
*Dosent, doktor.*
*Iğdır Üniversitesi, Türkiye*

# “TUZ”UN TÜRK KÜLTÜRÜNDEKİ YERİ VE ÖNEMİ

Tuz ile ilgili bu sempozyuma bir tutam tuz da ben katmak istedim. Büyük şair Yahya Kemal Beyatlı:

Kanmaz en uzun buseye, öptükçe susuzdur.
Zira susatan zevk o dudaklardaki tuzdur;
İnsan ne yaratmışsa yaratmıştır o tuzdan
Bir sır gibi az çok ilah olduğumuzdan

Herhalde aşka, tuzu, bu kadar güzel katabilen başka bir ahçı bulamayız. Aşımıza da aşkımıza da tad veren hep odur. Tuzdur.

Adı temel gıdamız ekmekle birlikte anılan tuz, bütün toplumlarda vaz geçilmez bir unsur olmuştur.

Eski Ahid’de :”Rabbinin önünde ebedi tuz ahdidir” sözleri – yeminleri geçmektedir.

Yeni Ahid’de ise “Toprağın tuzu, yaradanın öyküsünü anlatsın” denir.

Yeni evlenen çiftler, Hıristiyanlıkta şarap, ekmek ve tuzla kutsanırlar. Yunanlılar: “Tuza karşı günah işleme” derken İranlılar ise “Tuza ihanet etme” derler.

Dünyada böyle iken bizdeki tuz ile ilgili düşüncelerimiz, atasözü ve deyimlerde şöyle ifade edilmektedir.

Bezginlik ve mutsuzluk anımızda: “Artık benim için hayatın tadı tuzu kalmadı.” Sabrımızın taşmasında: “Bu da artık tuz-biber ekti.” Olumlu bir işe katkıda bulunanların: “Çorbada tuzum bulunsun.” deyimleri vardır. Bir şey pahalı olunca: “Amma da tuzluymuş.” deriz. Alışverişimiz umulandan fazla ise: “Tuzluya patladı.” “Tuzu kuru olanların” hayatlarına gıpta edebiliriz. Bazen de bir avuntu ifadesi : “Tuzsuz aşım, dertsiz başım” denilmiştir. Elden düşürüp, kırarak paramparça ettiklerimize: “Tuzla-buz olur” demişizdir. İhanet vefasızlık olaylarında: “Yarasına tuz basmış” oluruz. Şakalaşırken karşımızdakine yanlış düşüncedesin, aldandığının farkında değilsin. Yazık sana kabilinden halleri için: “Tuzluyayım da kokmayasın deriz.” Huysuz kaynanalar, önlerindeki tabağı: “Ya benim ya da bunun tadı tuzu yok” diye iter. Yolsuzluklar karşısında: “Et kokarsa tuz basarsınız; Ya tuz kokarsa…” İyilik gördüğü kimseye kötülük ve hainlik yapanlara: “Tuz-ekmek düşmanı” deriz. Birinin iyilik ettiği kimse üzerindeki hakkı için: “Tuz-ekmek hakkı” ifadesi ile karşılık veririz.

Türk Edebiyatında “ Tuz-ekmek hakkı (Nan ü nemek hakkı)” şeklinde şiirlerde ve özdeyişlerde gözümüze çarpmaktadır. Tuz-ekmek hakkı deyip de geçemeyiz. Bunu yerine getirmemek, halk idrakinde “nankörlüktür” .Edebiyatımızda bu konuda çok güzel deyişler vardır. Âşık Garip:

İşte geldim gidiyorum,
Şen olasın Halep şehri.
Çok ekmeğin tuzun yedim,
Helal eyle Halep şehri.

diyerek Halep şehrine karşı vefa görevini tuz-ekmek sözüyle yerine getiriyor.

Kâtibi ise, bir deyişinde:

Kâtibi sabreyle ötesi yakın

Hercâi gözetmez tuz-ekmek hakkın

“Tuzlu(ya) oturmak” deyimi için, Sünbülzâde Vehbi:

Tuzlu oturur sonra sakın kıyma kebâba
Ey rind-i mey-âşâm biraz hakk-ı nemek tut

Demektedir.

Tuz bazı yörelerimizde “duz” diye de anılmaktadır. Tuz-ekmekle ilgili deyimleri ileride daha teferruatlı vereceğim: “Tuz-ekmek bilmezden it iyidir”, “Tuz-ekmek haini”, “Tuz-ekmek hakkı” vb.

Türk Edebiyatında, bu atasözü ve deyimleri üzerine divan ve halk şairlerimizin deyişleri/şiirleri olmuştur. Yukarıdaki ata sözleri veya deyimler, yapılan iyiliği bilmek, nankörlük etmek anlamı üzerine inşa edilmiştir.Şairlerimizin de bu konuda elbette söyleyecekleri vardır:

Dediler bu pendi sordumsa kime
Tuz-ekmek bilmeze hâlîni deme
Kül kömür ye, namert lokması yeme
Gün olur başına kakar demişler

Levnî

Halk inanışında: “Tuz-ekmek hakkını bilmeyen akıbet kör olur” düşüncesi hâkimdir.

Bilmediğin sözü söyleme, ulaşamayacağın şeye elini uzatma, kırılacak dala konma, fakirlerin elinden tut, tuz-ekmek hakkını unutma. Kaygısız Abdalın bu konularda öğüdü şöyledir:

Tuz-ekmek hakkını sakla ey safa
Ta ki hoşnud ola senden Mustafa

Karacaoğlan tuz-ekmeğin hakkını şöyle ifade eder:

Yeni geldi arap atın sökünü
Seyir eyle sağa sola bükeni
Helal edin tuz-ekmeğin hakkını
Varamıyon, beni burada eyler var

Ararsan var kalbin ara
Eller sana ne der sonra
Tuz-ekmek yediğin yere
Hıyanetlik etmek olmaz

Karacaoğlan’ın, yeni doğmuş çocuğun tuzlanmasına yönelik ifadesi şöyledir:

Ben de bildim şu dünyaya geldiğim.
Tuzlandım da çaputlara belendim.
Bir zaman da beşiklerde eğlendim.
Anamın sütüne kandırdın beni.

Tuz, hem koruma hem de tad verme amaçlı kullanılmıştır. Ayrıca besleyici özelliğini, Âşık Veysel şöyle açar:

Kurulma sevdiğim güzelim deyin,
Bağlanma karayı alları geyin.
Ben bir çoban olsam sen de bir koyun,
Beslesem elimde tuz ile seni.

**“TUZ” KELİMESİ**

“Tuz” kelimesi TDK, Türkçe sözlük de isim olarak:

1. Kokusuz, suda eriyen, yiyecekleri korumada ve tadlandırmada kullanılan billursu madde olarak geçmektedir.

Yard.Doç.Dr.Mesut Şen, tuz kelimesi üzerine yaptığı tuz sunumunda çok aydınlatıcı ve teferruatlı bilgileri güzel sıralamıştır.

Eski Türkçe devresinden (6.-13.yy) beri tuz, dilimizde mevcut olan bir kelimedir. Ana Türkçeden itibaren varlığı hep kabul edilmiştir. Kültür Bakanlığı 54. Kaynak eserler serisinden çıkan Türk Lehçeleri sözlüğünde “Tuz”, Azerbaycan Türkçesinde: Duz, Başkurt Türkçesinde: Toz, Kazak Türkçesinde: Tuz, Kırgız Türkçesinde: Tuz, Özbek Türkçesinde Tuz, Tatar Türkçesinde: Toz, Türkmen Türkçesinde: Duz, Uygur Türkçesinde: Tuz kelimeleri ile hâlâ yaşamaktadır.

Tuz kelimesi ilk olarak Uygur metinlerinde (8.-13.yy) görülmektedir. Yine bu devirde tuz kelimesi: Fayda, güzellik, şirinlik gibi mecaz anlamlara da bürünmüştür. Mesela “Altun Yaruk” (840-870) isimli eserde geçen tuzluk kelimesinin gerçek anlamı, tuzlu olmasına rağmen, metinde faydalı manasına gelmektedir. Şu halde “tuz” yemeklere tad verme özelliğinden olsa gerek daha eski Türkçe devresinde hoş, güzel, uygun ve faydalı şeyler anlamına gelmiştir.

Orta Türkçe devresinden (12.-14.yy) itibaren tarihi şivelerde “Tuzun” kelime olarak çeşitli anlamlarda kullanılışı, çağdaş şivelerden pek farklı değildir. Mesela Türkiye Türkçesinde tuzla ilgili deyimlerden olan “Nimet”, “İhsan”, anlamındaki “Tuz-ekmek”, iyiliğe nankörlük ile karşılık veren anlamındaki: “Tuz-ekmek hani”, minnet şükran borcu anlamındaki: “Tuz-ekmek hakkı” gibi tabirlere, tarihi metinlerde de rastlamak mümkündür.

Yusuf Has Hacib’in Kutadgu Bilig’de ( 1069-1070):”Gözü tok, başkaları üzerinde tuz-ekmek hakkı olan cömertlerin namlısı ne der? Dinle” Şeklinde geçmektedir.

Yine aynı eserde: “Başkalarına ikramda bulunmak için tuzu ve ekmeği evde bol tut” öğüdü verilmektedir.

> “Tuzu ekmeği bol tut, başkalarına ikram et; bir kimsenin ayıbını görürsen, açma üstünü ört’.’

Yine aynı eserden:

> “Adının namlı şöhretli olmasını dilersen, başkalarına tuz ve ekmek yedir; yaşamak dilersen yine aynı şeyi yap”

Kutadgu Bilig’de bunlar gibi tuzla ilgili tam 18 beyitte tuz-ekmek hakkının yani minnet borcunun öneminden ve sofrayı bol tutup hiçbir şeyi insanlardan esirgememekten bahsetmektedir.

Kutadgu Bilig’in bir yerinde şair, söze tuz katan, yani lezzet veren bir insan olarak tanımlanmaktadır. Şairin şu sözü buna şahittir: “Şair sözü, söze tuz katmıştır.”

Kâşgâri (1077)’de “Tuz” tam 18 yerde geçmektedir. Hepsi de yukarıda verdiğimiz anlamları kapsamaktadır:

1. “Tuz yemeğe tad katar ancak çanakla da yenmez.”
2. “Tuzlu et beni susattı.”

Madde adı olarak geçmek yanında Kutadgu Bilig’de kine benzer şekilde güzellik manasında mecaz olarak da kullanılmaktadır:

> “Gönlüm onun güzelliğine avlanır (ayağının) tozu da yaralı gözlerime merhem olur.”

Birin manga sözkiye
Menglip Kara tuzkıya
Yelvin tutar Közkiye
Mengum mening bilinge

"Bana bir kelimecik söyle (ey) benli esmer güzeli! Ey büyüleyici gözler benim çilemi bir bilseniz."

Dörtlükte güzel, sevgili anlamındaki "tuzkıya" kelimesidir. Tuzun türevleri de eserde kullanılmıştır.

Tuz, Harezm Türkçesi metinlerinde (13.-14.yy) de geçmektedir. Nahçül Feradis (1358, Kerderli Mahmut): "Hz.Peygamberin(S.A.S) vasıfları anlatılırken dünya malına tamah etmediği, buğday unundan ekmek yemediği ve sofrasında iki türlü yemek ve iki türlü katık bulunmadığı" metinlerde geçmektedir. Metinde: "… tuzluk takı kılmadı" şeklinde geçmektedir.

Tuzluk kelimesi bir Harezm Türkçesi metni olan, Rabguznin, Kısasül Enbiya'sında da eski Türkçe ve Hakaniye Türkçesinde olduğu gibi, güzel, çekici, zarif şeklinde mecazî manada geçmektedir.

Tuzun Arapçası melih/malih kelimesidir. Kâşgârî'de de tuz kelimesine milh, tuzlug kelimesine de malih şeklinde Arapça mânalar verilmiştir. Arapça'da "tuz" anlamındaki "milh" kelimesi tad, lezzet, şirinlik, güzellik şeklinde, tuzlu demek olan "malih" kelimesi de "tatlı, şirinlik, güzellik" şeklinde tuzlu demek olan "malih" kelimesi de "tatlı, şirin, güzel, çekici olarak mecazî anlamında kullanılmaktadır. Kız ismi olan Melahat da bununla ilgilidir. Melahat, güzellik güzel yüzlülük demektir.

Eski Anadolu Türkçesi (13.-15.yy) metinlerinde "tuz" kelimesinin tad, şirinlik, güzellik, manaları, daha belirginleşmiştir. Hoca mes'ud'un, Süheyl-i Nev- Bahar'ında:

Boyu vü huyı vü gözi vü yüzi,
Bakışı, yürüyişi, görki tuzı,
Gören diye ol sen, veya sensin ol,
Bulunmaya fark eylemeklüge yol.

Burada sevgilinin anlatıldığı, vasıflarının içinde tabii ki "tuz" da bulunmaktadır.

Bir başka Anadolu Türkçesi metni olan Dede Korkut kitabında (15.yy) bugünkü Türkçede: "Ufalanmak, küçük parçalara ayrılmak anlamında tuz-buz olmak" deyimine benzer bir şekilde: "Sünüklerüm tuz gibi oldı." Yani kemiklerim tuz-buz oldu. Ufalandı ibaresi yer almaktadır.

Bir Çağatay Türkçesi (17.yy) olan Ebulgazi bahadır Han'ın Şecere-i Terakime adlı eserinde Tuzla ilgili ilginç bir anekdot bulunmaktadır:

"Günlerden bir gün ava çıkıp, geyik öldürüp kebap yapıp yiyordu. Bir parça et yere düştü, onu yiyince ağzına çok hoş bir tad geldi. Çünkü o yer tuzla, yani tuzlu bir yer idi. Yemeğe tuz katmasını o çıkardı. Bu yüzden yemeğe tuz koyma âdeti ondan kaldı."

Manas Destanı'nda tuz, zenginliğin ifadesidir. Yunus Emre şiirlerinde tuz; "tuz-ekmek hakkıyla" işlenir. Kadı Burhaneddin Divanında tuz: "Tuz-ekmek hakkı" biçiminde işlenir.

Demek ki "tuz" Eski Türkçeden beri dilimizde mevcut olan bir kelimedir. Yemeklere tad verme işlevinden dolayı türevleriyle birlikte Eski Türkçe döneminden itibaren mecazî manalarda da kullanılmağa başlanmıştır.

Dede Korkut kitabının 12.boyunda Taş Oğuz Beyleri, Beyrek'ten, Kazana düşman olmasını istedikleri zaman, Beyrek kabul etmez ve "Kazana men asi olmazam" diyerek şöyle ant içer:

Men Kazanın nimetini çok yemişem
Bilmez isem gözüme dursun
Kara koçta kazılık atına çok binmişem
Bilmez isem mana tabut olsun

Yahşı Kaftanların çok giymişem
Bilmez isem kefenim olsun.
Ala bargâh otağına çok girmişem
Bilmez isem bana zindan olsun
Men Kazandan dönmezem bellü bilgil.

Bu birçok metinlerde "tuz-nimet'le özdeşleştirilmiştir.

Türk sosyokültürel hayatında tuzun çok ayrı bir yeri vardır:

Tuzun "dehidratasyon" (suyunu alma, su kaybı yapma) özelliğinden istifade edilerek: 1. Sütlü mamullerin, 2. Sebze ve meyvelerin, 3. Derilerin muhafazasında, 4. Balıkçılıkta, 5. Zeytincilikte kullanılmakla birlikte insanların ve hayvanların doğrudan tükettikleri bir besin maddesidir.

Dünya mutfaklarının vaz geçilmez kullanım maddelerinden olan tuz, Türk mutfağının ve sofra kültürünün de değişmezidir. Hatta mutfaklarımızda kullanım ölçüsü bile yoktur. Onu kullanırken "bir tutam", ölçü ifadesi olmuştur.

Tuz, Türk'ün doğumundan itibaren hayatına girmiştir. Masallardan- mitolojisine, atasözlerinden- deyimlerine, folklöründen- edebiyatına, türküsünden- şarkısına, bilmecesinden- tekerlemesine kadar geniş bir yelpazede kendisine yer edinmiştir.

Eski Türk mitolojisine göre tuz, Türk atası tarafından bulunmuştur. Bu Türk atası yukarıda da anlatıldığı gibi avladığı geyiği pişirip yerken tesadüfen yere düşürmesi ve o yerin tuzlu olmasından dolayı tuzu keşfeden, Nuh'un torunu ve Türkün oğlu "TUTUK"tur. Bu konu Evliya Çelebi Seyahatnamesinde ise Halil İbrahim olarak anlatılmıştır.

Tuz kültüründe " tuz-tadış" ve " tuza banma" bir ikram sembolüdür. Günümüzde kullandığımız "söze şeker katma" sözümüzün karşılığı, eski Türkler "Sözüne tuz kattığı" yani sözünü tuzladı ve tadlandırdı derlerdi. Kırgız Türkleri, Yeminlerinde bile:

"Eğer yalan söylüyorsam beni tuz buz vursun."

Iğdır'da bu beddua hala vardır: "Yalançını (yalancıyı) duz-tuz çöreyh(ekmek) tutsun / çarpsın!

Evliya Çelebiye göre yeminler: Ekmek, kılıç, Kur'an'ın yanında "tuz" da geçerlidir.

Ahi Fütüvvet Nâmelerinde: Âdem Peygamber'in Havva anamıza mihir olarak "tuz verdiği yazılır".

İstanbul'un Fethinde orduya tuz temin eden Tuz Babanın İstanbul'da türbesi vardır.

Türk mutfaklarında bazen tuz, tatlılara bile konulmaktadır.

Hikâye ve masallarımıza da tuz motifi yansımıştır. Sadece tuz üzerine inşa edilmiş halk hikâyeleri ve masalları vardır. Masal kahramanın gece uyanık kalabilmek için, kestiği parmağına tuz basması motifi vardır. Bir başka masalda, tuzun suya, suyun kana dönüşmesi… masal kahramanın sıkıntıdan kurtulma zamanı geldiğini gösterir.

Kara koyun hikâyesinde ise üç gün süreyle tuz yalatılan koyunların, dereden su içmeden geçmeleri, çobanın sevdiği kız ile evlenmesini sağlamaktadır. Bu ve buna benzer tuz motifli çok hikâye ve masallarımız vardır.

Bilmecelere Yansıyan Yönüyle Tuz

1. Hayatın en tatlı şeyi nedir?
2. Suda doğmuştur, sudan korkar.
3. Tohumsuz biter dünyaya yeter.
4. Adı nedir, budu nedir?

Bu dünyanın tadı nedir?
Nuh peygamber gemi yapmış,
Ustasının adı nedir?

5. Ekilmezi, biçilmezi, doğurmaza yüklediler; Yatmazın uyanmazın bacasından geçirdiler.

Gibi cevabı tuz olan bilmeceler yanında içinde "tuz" kelimesi geçen bilmeceler de vardır:

1. Bilmece bildirmece,

Kürkünü sermiş yamaca.
Bir karı ile bir koca,
Tuz atar bulamaca.
(Kar -Elazığ)

2. Altı tuz, üstü buz / gece yıldız, gündüz kız.

(Kız kulesi- Mardin)

3. Altı tuz / ortası kız / üstü yıldız.

(Kız kulesi- Adapazarı)

4. Her tarafı beyaz kireç / tuzla tuzla sabahtan iç.

(Yumurta- Erzurum)

5. Aydan eğri, tuzdan acı / bunu bilmeyen kumacı

(Sarımsak)

6. İki budun arasında / Allahuekber deresinde / yaştır kurumaz / tuzludur çürümez.

(Zeytin-Elazığ)

7. Hey han gördüm han gördüm,

Yerden yapma dam gördüm,
Tuzsuz pişen aş gördüm,
Köpük evden taş gördüm.
(Mezar, Süt, Sabun-Kadirli)

8. Yaştır kurumaz / tuzsuzdur çürümez

(Bal- Elazığ)

9. Kazan kaynar tuzu yok / insan gezer izi yok

(Hamam- Ankara)

10. Gökten bir derviş inmiş / Ah demiş vah demiş / Balığa bıçak, helvaya tuz / Katıra kolan, hamama direk, horoza yumurta, denize köprü / Ölüme çare olmaz demiş.

Yanıltmak amacıyla yapılmış Kayseri yanıltmacalarından birinde de helvaya tuz konmayacağı belirtilmiştir.

Bütün bunlar halk muhayyilesinin tuzla ne kadar içli dışlı olduğunu göstermektedir.

Tuz, mal değişimlerinde de önemli rol oynamıştır. Hatta bazı tuz yatakları savaşlara sebep olmuştur. Roma'da askerlere para karşılığı verilmiş olan tuz, halen Afrika'da Sudan bölgesi ve güneyindeki ormanda para yerine kullanılmaktadır. (Tuz Kitabı. Sahife:28)

Türkiye'de kaya, kaynak göl ve deniz tuzlası olmak üzere 78 adet tuzla tespit edilmiştir. Buna göre büyük kısmı köy olmak üzere 91 yerleşmenin adı tuzla ilgilidir. (Aynı eser s:31)

Iğdır ili, Tuzluca ilçesi de adını tuzdan almış merkezi Kulp olan bu ilçeye, Diyarbakır Kulp'la karıştırılmasın diye, yörede kaya tuzunun bulunmamsından dolayı, 1934'de Tuzluca adı verilmiştir.

Türkiye'de tuz ile ilgili birçok akarsu vardır. Göllerin tuz ile ilgi alakalı isim almasının esas sebebi sularının tuzlu olmasıdır. Tuz ile ilgili isim almış 21 göl tespit edilmiştir. Bu göllerden biri de Türkiye'nin ikinci büyük gölü olan Tuz gölüdür.(a.e., s:43)

Otuza yakın yerde tuzla ilgili topografik isimler vardır. Mera hayvancılığının yaygın olduğu ülkemizde ve dünyanın diğer yerlerinde tuz yedirilmesinden isim almış birçok mevki adları vardır. Türkiye'de mevcut idari taksimata göre 91 adet yerleşimin tuz ile ilgili isim aldığı tespit edilmiştir. (a.e., s:54)

**Tuzla İlgili Atasözü, Deyim, ve Deyişler**

1. Kar, izi; tuz, gözü kapatır.
2. Tuz devesi gibi böğürmek.
3. Tuz -ekmek olsun.
4. Tuzsuz helva gibi sallanmak.
5. Tuzsuz pelte gibi sallanmak / titremek.
6. Tuzu kurtlanmak.
7. Tuzunu küle katmak.
8. Tuz yerine buz yalamak.
9. İçine tuz girmeyen yemek haram olur.
10. Tuz yükü ile buz yükünün arasında yatasın.
11. Tuzu kuru olmak.
12. Avrat tuz der, adamın içi cız der.
13. Başında tuz kavrulmak.
14. Dadandığın yere tuz ekmek.
15. Tuzluyaym da kokmayasın!
16. Tadsız tuzsuz konuşmak.
17. Tuzsuz adam.

18. Tuz-buz etmek.
19. Boynuna tuz torbası geçirmek.
20. Tuz ambarına su mu yürüdü?
21. Tuzun azı da birdir çoğu da.
22. Yemeğin tuzu belli olmak.
23. Aş haranıyla, tuz kararıyla.
24. Ermeni tuz yemez.
25. Konya'nın tozu, Sille'nin kızı, Koçhisar'ın tuzu.
26. Tuzdan leziz sudan aziz bir şey olmaz.
27. Tuz gibi her aşa girer.
28. Tuz-biber olmak.
29. Tuz-buz olmak.
30. Tuz- ekmek haini.
31. Tuz -ekmek hakkı.
32. Tuz gibi erimek.
33. Tuz hakkı / Yemin.
34. Tuzdan tuz suyu çıkar.
35. Tuzu kuru sabunu sarı.
36. Aş tuzu ile tuz, kararı ile.
37. Dağ taş tuz ile dolmuş, yılan bile kararı ile yalamış.
38. Tuz yükü ağır olur.
39. Tuz yüküdür, şaka götürmez.
40. Tuz yükü, kız yükü.
41. Ana ile kız, yara ile tuz.
42. Balık kokarsa tuzlanır, tuz kokarsa ne olur?
43. Arsıza söz / kokmuşa tuz / kar etmez.
44. İnsan inat için kırk batman tuz yer.
45. Kokmuş et, tuz istemez; kızarmaz yüz, söz istemez.
46. Yoğurdu tuz, insan söz öldürür.
47. Körpe kuzu, evin tuzu.
48. Aş tadı tuz, ama çanakla yenmez.
49. Bir tuzsuz, bir tuzluyu, yalaya yalaya bitirir.
50. Yağsız peynir de tuzsuz yenmez.
51. Yemeğe tuz, söze şeker katmalı.
52. Yemeğin tadı tuz, dünyanın tadı göz.
53. Tuzun tadı olmasa, taam neyle tuzlanır?
54. Yaraya tuz basmak.
55. Tuz- ekmek bilmeyen itten kötüdür.
56. Tuz- ekmek hakkını bilmeyen akıbet gözden çıkar.
57. Bir halk deyişinde:
    Duz duzağda, eşek nahırda,
    Ay duz alan! duz alan!
    Ortada hiçbir şey yokken, "kendi kendine gelin-güvey olmak" demektir.

## Azerbaycan Türkçesinde Duz / Tuz Ve Duz-Çöreyh İle İlgili Deyimlerden Bir Demet

1. Duz - çörek basmak: Dostluğa aykırı iş yapmak
2. Duz – çörek gözünden gelsin
3. Duz – çörek hakkı:Yemin
4. Duz – çöreyi itirmek / taptamah: İyliğye karşı kötülük
5. Duz – çörek kesmek (yemek) : Dost olmak
6. Duz – çörek tutmak: Namertliğinden dolayı ilahi cezaya maruz kalmak
7. Duz – çöreyi unutmak: Nankörlük etmek
8. Duz kimi yalamak: Çokça öpmek, sevmek
9. Duza getmek: Sonucunu kestirmeden bir şeye meyletmek, başlanan bir işin zorluğunu göz önünde bulundurmamak.
10. Duza goymak: Tuzlamak
11. Duzuna bakmak: Tadına tuzuna bakmak
12. Duzunu datmak.
13. Duzunu gaçırmak.
14. Yemeğin dadı duzdadır, dünyanın dadı / tadı gözdedir.
15. Gız yükü, duz yükü.
16. Çöreyhimin duzu yohmuş! : Ekmek veya iş verdiği kimselerin vefasızlığı ile karşılaşınca söylenen sözdür.

## Tuz Ekmek(Nan ü Nemek) İle İligli Beyitler

1. Yunus Emre:

   Dostlar gel esenleşelim.
   Tuz-ekmek helalaşalım.

   Ekmek yiyüp tuz basmak, ol namertler işüdür.
   Ekmek anı komaya, tuzun hakkı var ise.

2. Işıkname ( Mehmed):

   Tuz-ekmek bilmemek erlik değildir.
   Hiyanet mevzii dirlik değildir.

3. Nesimî:

   Ey Nesimî akıbet varır yele.
   Bi-vefa ile yine nan-ı nemek.

   Kimin rızkını yiyisen medhini it .
   Tuz ekmek bilmeyenden yeğdir it.

4. Karacaoğlan:

   Helâl edin tuz-ekmeğin hakkını.
   Varamıyom, beni burda eğler var.

5. Nabi:

Çıkar mı hatırımıdan lezzet-i gül-bûs'i la'li?
Nemek hakkın feramuş eyleyenler, behremend olmaz.

6. Kâmili:

Tuz hakkını bilmiyeninen,
Bayramlarda dahi hiç görüşmesin.

Türk halk şiirinde tuzla iligli en sık söyleşi "tuz-ekmek" hakkı deyimi üzerinden yapılmıştır.

7. Âşık Kerem:

Tuz-ekmek yediğim kavim kardeşler.
Nedir bu feleğin ettiği işler.

Gözümden akıttım kan ile yaşlar.
Gelin helallaşın ben gider oldum.

8. Derdi Çok:

Tuz- ekmeği helal eyle sevdiğim,
Gayri sizin elden göçer giderim.
Bundan sonra bana gülmek haramdır.
Boyuma kara dun biçer giderim.

9. Şeref Taşlıova:

Şeref der ki gerçek aşık olmayan,
Dert ortağı telli sazı çalmayan,
Yediğinin kıymetini bilmeyen,
Ekmek fayda etmez,tuz fayda etmez.

10. Çobanoğlu:

Böyle mi, dünyada bilmem adalet?
Ne muhabbet kaldı ne de sehavet.
Gönül sofrasından almadım lezzet.
Acaba yemekte tuz mu kalmadı?

11. Pir Sultan Abdal:

Bir kara daşa meyil verip.
Tuz ile ekmeğin yeyip.
Azıcık noksanın görüp.
Tez başına kakma gönül.

12. Seyranî:

Uyan deli gönül uyan.
Sokar seni kara yılan.
Kalmamıştır pek çok sayan.
Hakkın nân u nemeklerin.

13. Âşık Şenlik:

Sılaymış bu dizinin direği.
Cismimin cesette titrer üreği.
Bu yerlerin tuz-ekmeği çöreği.
Haram olsun bunnan bele sevdiğim.

14. Aşık Veysel:

Kimi yaya kimi atlı,
Kimi uçar çift kanatlı,
Dünya şirin baldan tatlı,
Eyvah! Balı tuza katmış!

Folklör ve Tuz

**Tuz ve Nazar:**

Nazar, Arapça bir kelime olup, manası bakıştır. Türkçede Nazar, insanların bakışlarında var olduğuna inanılan, zararlı gücün bir kişiye, bir canlıya ya da her hangi bir nesneye yöneldiğinde onun üzerinde ölüme kadar varan olumsuz etki bıraktığına inanılan biyoenerjidir.

Nazarın, tuzla ilişiği ve nazarı bozma boyutuyla ilgili birçok varyantları vardır:

1. Tavaya bir miktar tuz konur ve tava, tuzuyla ateşe konur. Ateşteki tuz kavrulunca hem yanar hem de çatlar, patlar. Bu sırada nazar değen kişinin başı, bir başörtü ile örtülür. Başı üstünde su dolu, su kabı tutulur.Kavrulan tuz ,suya dökülür. Aynı sudan ilgili kişiye içirilir. Eline ayaklarına da bu sudan serpilir. Bu tuzlu su, sonunda ayakaltı olmayan bir yere dökülür. Böylece nazardan korunacağına inanılır.

2.Bazen sadece tuz kavrulur ve dua okunarak bu tuz ilgili kişiye doğru üfürülünce nazardan korunacağına inanılır.

3.Koruma amacıyla yeni doğan çocuklar için nefesi çok kesin bir hocaya tuz okutulur ve okutulan tuzla nazarlanan kişi önünde şu tekerleme söylenir:

Kem göz çatlasın,
Nazar eden patlasın.
Tuzlusun sen havasın,
Her dertlere devasın,
Ak göz, kara göz,
Mavi göz, ela göz,
Hangisi nazar etmişse,
Tuzla beraber yanmışsa,
Onların nazarını boz.
Üzerlik tuzla çatlasın.
Nazar eden patlasın.

Türkiye'nin çeşitli yörelerindeki ve özellikle Adana'da tuz ile ilgili inançları inceleyen Dr. Zekiye Çağımlar'ın, Tuz Kitabındaki tebliğ özetinde şunlara yer verilmiştir.
4. Hamilelik öncesinde oğlu olmasını isteyen kadın bol tuzlu yemekler yer.
5. Iğdır yöresinde ise bol tuzlu yenilir evlenecek genç kıza kimin talip olacağı, rüyasında susuzluğunu gidereceği delikanlının ona su sunacağına inanılır.
6. Ebe, çocuğu doğurtup göbeğini kestikten sonra tuzlu suyla yıkayıp bebeği tuzlama adetleri Türk dünyasında müşterek bir gelenektir.
7. Lohusanın al basmasından korunması için bir torbaya çivi, tuz ve ekmek konarak bu torba daima lohusanın yanında bulunursa onu al basmazmış.
8. Aydaş denilen sakat doğmuş çocukları, Cuma salası okunurken tuz ile tartarlar. Bu, tartma olayı, onun için şifa getireceğine inanılır.
9. Evlenme çağına gelmiş delikanlının, evlenmek istediğini babasının ayakkabısı içine tuz koyarak dile getirmesi alışagelen adetlerdendir.
10. Aynı şekilde evlenme çağına gelmiş bir genç kız da kısmetinin hangi yönden olduğunu öğrenmek için tuzlu ekmeği veya üzerine tuz serpilmiş ekmeği, dama koyar ve bekler. Bu ekmeği alan kuşun hangi yöne uçtuğuna bakarak kısmetinin de o yönde olacağına inanılır.
11. Bir genç kızı istemeğe karar verildiğinde, oğlan evi, kendi evine bir miktar tuz alarak yemeklerinde kullanmağa başlar. Tuz bitene kadar o evde huzursuzluk olmazsa o kızın hayırlı bir gelin olacağına inanılır.
12. Hamilelerde, doğuracağı bebeğin cinsini tayin için, annenin başına, onun hissetmeyeceği şekilde tuz serpilir. Hamile kadın, eğer kaşının üstünden saçlarını düzletirse kız; eğer ağzını ve burnunu silerse veya ovalarsa erkek çocuk doğuracağına inanılır. Bu inancı bize anlatan Hacı Saniye Öcal hanımefendi, bu olay çok kesindir eklemesini de yaptı.
13. Kız istenirken, kahve ikramında, istenilen kız, isteyen oğlanın fincanına tuz koymuşsa gönülsüzlüğünün işaretidir.
14. Cenaze çıkan bir evden ev sahipleri bir paket tuzu komşulara dağıtmaktadır. Özellikle küçük çocuğu olan aileler bu tuzdan çocuklarına yalatırlar ki ölenin ömrü çocuklarının olsun.
15. Kötü rüya gören biri, uyandığında ihtiyacı olan birine tuz ekmek sunarak rüyanın hayra döneceğine inanır.
16. Her ne sebeple olursa olsun yerlere ekmek ve tuz dökmek çok günahtır. Yerlere tuz döküldüğünde, döken kişinin kıyamette bu tuzu kirpikleri ile toplayacağına inanılır.
17. Kurbanlık hayvanlara, kesilmeden önce okunmuş tuz yalatılır, su içirilip öyle kurban edilir.

Görüldüğü gibi tuz, yiyeceklere, tad verdiği kadar hayatın kendisine ve inançlara da tad vermektedir. Aynı zamanda gelenek içindeki yerini de korumaktadır.

Bütün bunların dışında da, gerek sağlık konusunda olsun , gerekse tedavi amaçlı, şifa amaçlı olsun, bereket ve rızkın açılmasıyla ilgili, rüya versiyonlu "tuz" inançlarımız, sayılamayacak kadar çoktur.

**Tuzun İslamiyet'teki Yeri**

Tuz, Kur'an'da iki yerde geçmektedir. Biri Furkan suresinin 53. Ayeti diğeri ise Fatır suresinin 12.ayetidir.

> **"O, iki denizi birbirine saldı. Bu, tatlı, susuzluğu giderici; bu da tuzlu ve acıdır ve ikinsin arasına birbirine geçmelerine engel olan bir perde koydu".**

**Furkan(25/53)**

Prof. Dr. Süleyman Ateş, Kuranı Kerim tefsiri, Milliyet yayınları, 1995 İstanbul (Sahife:1857) adlı eserinde şöyle açıklamıştır:
Tanrının tabiat olaylarında görünen kudret ve hikmetlerine işaret ediliyor. Biri acı biri tatlı iki deniz suyu yan yana oldukları halde bunların birbirlerine karışıp, tabiatlarının değişmesini önleyen Allah, ikisinin arasına bir engel koymuştur. Bu engel sayesinde sular birbirine karışmamaktadır. Adeta birbirine: "Aman bana dokunma, senden Allah'a sığınırım" der gibi birbirinden korunmaktadır.
Yard. Doç. Dr. Yunus Macit, "Hz. Peygamber'in sünnetinde çevre" adlı doktora tezinde şöyle bir tespiti vardır:
"Yeryüzündeki suların %97'si denizlerde bulunan ve kullanılması kolay olmayan tuzlu sulardır. Diğer %3'de tatlı suları teşkil edip içme ve kullanma maksadıyla insanların faydalandığı kısımdır".
Madem tuzlu su çok ama tatlı su çok azdır. O halde tatlı su israf edilmemelidir anlamı çıkmaktadır. Unutmamalıyız ki buharlaşan deniz suyunda çeşitli dönüşümlerle tatlı su elde edilmektedir.

> **"İki deniz bir olmaz: Şu tatlı, susuzluğu keser, içimi (boğazdan) kolay kayar; şu da tuzlu, acıdır. Hepsinden de taze et yersiniz ve taktığınız süs eşyası çıkarırsınız, Allahın lütfünden payınızı alıp şükretmeniz için, gemilerin denizi yarıp gittiğini görürsün".**

**Fatır(35/12)**

Süleyman Ateş Hoca yine tefsirinde şöyle söyler: Suyun tatlı ve acı iki deniz yaratan da Allah'tır. Göllerin, ırmakların, çeşmelerin, yer altı kaynaklarının suyu tatlı, denizlerin suyu tuzludur. Aynı suya tatlılık ve tuzluluk veya acılık veren Allah'tır. Her ikisinden de taze etler çıkarılır. Tatlı suda da balık yetişir, tuzlu suda da balık yetişir. Her ikisinin hayvanlarının etleri, gıda olarak, Allahın insanlara ihsanıdır. Keza denizlerden inci mercan gibi kıymetli süs eşyaları da çıkarılmaktadır".

Kuranı Kerim'de "tuz" yukarıdaki tefsiri yapılan iki ayet de geçmektedir. Görüldüğü gibi her iki ayet de tuzlu sudan bahsetmektedir. Aynı zamanda tuzun hikmetleri de sıralanmıştır.

Hadislerde tuz konusu pek fazla işlenmemekle birlikte yine de konuya dokunulduğu görülmektedir. Kütüb-i Sitte'de İbn-i Abbas'tan şunlar rivayet edilmiştir:

1. Hz. Peygamber Efendimiz (S.A.S), buyurmuştur ki"… İnsanlar çoğalır, ensar azalır, hatta yemekler içindeki tuz gibi…"
2. Hz. Peygamber Efendimiz (S.A.S) buyurdular ki: " Allah, zulüm ve kötülüklerinden dolayı, cezalandırmak isterse, Allah onlara azap verir, suyun içinde eriyen tuz gibi"
3. Bir sahabe Hz. Peygamber (S.A.S)'e sordu:

   - "Kendisine engel olunmayacak helal şey nedir?"

   Hz. Peygamber efendimizin cevabı:

   - "Su" dedi.

   Sahabe tekrar aynı soruyu sordu:

   Peygamber Efendimiz cevaben:

   - " Tuz" dedi.

   Üçüncü kez aynı soruyu sorunca

   Cevaben:

   - " Senin için yararlı olan her hayırlı işi yapmandır" diye buyurdular.
4. Hz. Peygamber (S.A.S) Efendimiz buyurdular ki:

   **- Ya Ali, yemeğe tuz ile başla.**

5. Peygamber Efendimiz (S.A.S.) buyurdular ki:

**“Yemeğe tuz ile başlayıp, tuz ile bitirenin vücudundan Cenab-ı Allah yetmiş hastalığı giderir”.**

6. Hz. Enes İbn-i Malik (R.A) anlatıyor:

**Hz. Peygamber Efendimiz buyurdular:**

**“Yemeklerin efendisi tuzdur” veya “katığınızın efendisi tuzdur”.**

**Kütüb-i Sitte**

Yukarıdaki 4, 5 ve 6 numaralı hadisler Kütüb-i Sitte’de zayıf hadis olarak değerlendirilmiştir.

Yukarıdaki ayet ve hadislerden de anlaşılacağı üzere İslamiyet de tuza yeteri kadar önem vermiştir. Yiyeceklerimizin efendisi şeklinde yorumlamış ayrıca tuzun su içerisindeki erimesini, İslami değerlerin eriyip kaybolmasıyla mukayese etmiştir.

## KAYNAKLAR


1. Seyfettin Altaylı, Azerbaycan Türkçesi Deyimler Sözlüğü, Ankara2005.
2. Prof. Dr. Süleyman Ateş, Kur’an-ı Kerim Tefsiri, Milliyet Yayınları, İstanbul 1995.
3. İlhan Ayverdi, Misalli Büyük Türkçe Sözlük Üç Cilt. Kubbealtı Lügatı, İstanbul 2005.
4. Prof. Dr. İbrahim Canan, Hadis Ansiklopedisi (Kütüb-ü Sitte), Akçağ-Zaman Yayınları 18 Cilt, İstanbul.
5. Kur’an-ı Kerim Meali, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara 2005.
6. Prof. Dr. Ahmet Bican Erculasun ve diğerleri, Türk Dili Ve Kompozisyon, Ankara 2005.
7. Kemalettin Erdil, Yaşayan Hurafeler, Türkiye Diyanet Vakfı Yayınları, Ankara 1991.
8. Prof. Dr. Şadi Eren, Kadı Beydavi Muhtasar Tefsiri, Selsebil Yayınları İstanbul 2010.
9. E. Kemal Eyüboğlu 13. Yy’dan Günümüze Kadar Şiirde Ve Halk Dilinde Atasözleri ve Deyimler, İki Cilt, İstanbul 1973.
10. Prof. Dr. Abdulaziz Hatip, Sahîfe-i Seccâdiye ve Türkçe Açıklaması İmam-ı Zeynelâbidin (R.A), Nesil Yayınları, İstanbul 2009.
11. Prof. Dr. Kerem Karabulut, Fatih Öz Aslan, Tuzluca Sosyoekonomik Profil Araştırması, Erzurum 2011.
12. Prof. Dr. Hayreddin Karaman, Prof. Dr. Mustafa Çağrıcı, Prof. Dr. İbrahim Kâfi Dönmez, Prof. Dr. Sadrettin, Gümüş Kuran Yolu- Türkçe Meal Ve Tefsir. Diyanet İşleri Başkanlığı Yayınları, Dört Cilt, Ankara, 2006.
13. Türk Lehçeleri Sözlüğü, Kültür Bakanlığı Yayınları, Ankara1991.
14. Yard. Doç. Dr. Yunus Macit, Hz. Peygamber(S.A.S)’İn Sünnetinde Çevre, Trabzon 2000.
15. Örnekleriyle Türkçe Sözlük, MEB Yayınları, Ankara 1995.
16. Türk Atasözleri ve Deyimler, İki Cilt, Milli Kütüphane Başkanlığı Yayınları, İstanbul 1993.
17. Prof. Dr. Emine Gürsoy Naskali, (Editör), Mesut Şen, Tuz Kitabı, İstanbul 2004.
18. Prof. Dr. İsmail Parlatır, Deyimler, Ankara 2007.
19. Bölge Ağızları Atasözleri ve Deyimler, TDK Yayınları, Ankara 1969.
20. Tarama Sözlüğü, TDK Yayınları, Ankara 1996.
21. Türkçe Sözlük, TDK Yayınları, İstanbul 1975.
22. Metin Yurtbaşı, Sınıflandırılırmış Türk Atasözleri, Ankara 1994.

**Abbas SEYİDOV**
*Tarix elmləri doktoru,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# NAXÇIVANIN TUNC DÖVRÜ: DAŞ ƏMƏK ALƏTLƏRİ VƏ DUZDAĞ

Neolit və Eneolit dövrlərində meydana çıxan ibtidai sənətkarlıq tunc dövründə inkişaf edərək, daha da təkmilləşmişdir. Naxçıvanın Tunc dövrü abidədərindən əldə edilən müxtəlif əmək alətləri, təsərrüfat əşyaları o dövrdə sənətkarlığın müxtəlif qollarının, o cümlədən metallurgiya və metalişləmə, dulusçuluq, daşişləmə, sümükişləmə, dəri və gönişləmə, toxuculuğun müəyyən mərhələlərdə dinamik inkişaf etdiyini göstərir.

Daşişləmə sənəti qədim daş dövrünün bütün mərhələlərindən başlayaraq əsas yerlərdən birini tutmuşdur. Naxçıvanın e.ə. IV-II minilliyə aid abidələrindən tapılmış çoxlu sayda daş alətlərin olması bu sənətin kökünün daha qədim dövrlərə getdiyindən xəbər verir. Tunc dövründən başlayaraq ibtidai metallurgiyanın meydana çıxması və metal əşyaların əldə edilməsi tunc dövrünün sonrakı inkişaf mərhələlərində daş alətlərə olan tələbatı nisbətən azaltsa da, bu sahəni sıxışdırıb aradan çıxara bilməmişdir. Naxçıvanın, demək olar ki, bütün abidələrindən tapılmış külli miqdarda müxtəlif cinsli daşlardan hazırlanmış alətlər forma və görünüşü ilə fərqlənirlər.

Naxçıvanın Tunc dövrü abidələrindən xeyli miqdarda müxtəlif məqsədlər üçün istifadə olunan daş alətlər tapılmışdır. Daş məmulatı içərisində əmək alətləri əsas yer tutur. Onlar dən daşı, sürtgəc, balta, gürz, həvəng, dəstək və s. ibarətdir.

Daş balta, gürz və çəkiclər bazalt tipli möhkəm daşdan hazırlanmışdır. I Kültəpə, II Kültəpə, Şahtaxtı Govurqalası və digər abidələrdən tapılmış belə alətlər formasına görə konusvari olub, uc hissəsi sivri, nazik və itidir.

Daş çəkiclər formasına görə baltalara bənzəsə də, kiçik olmaları ilə onlardan fərqlənirlər. Onların bəzisinin yuxarı hissəsində ensiz yiv açılmışdır.

Gürzlər möhkəm bazalt cinsli tünd boz rəngli daşdan hazırlanmışdır. Onlar uzunsov, yanlarda yastı, qıraqları isə girdədir. Baş tərəfində köndələn yiv açılmışdır

Naxçıvanda daşişləmənin inkişaf səviyyəsini göstərən arxeoloji materiallar arasında I Maxta abidəsinin yaxınlığındakı məbəd yerindən [Seyidov A.,Baxşəliyev V.,və b. 2012] və II Kültəpənin ilk tunc dövrü təbəqəsindən [Сеидов А.Г. 1993] tapılmış daş bütlər də mühüm yer tutur. Bu dövrün daşişləmə sənətində yonma, pardaqlama, cilalama, oyma, deşmə, zərbetmə və s. kimi texniki üsullar daha da təkmilləşmişdir. Naxçıvanın tunc dövrü abidələrindən tapılmış daş alətlər də eyni üsullarla işlənmişdir.

Arxeoloji tədqiqatlar tunc dövründə Azərbaycanda dağ-mədən işinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Naxçıvan şəhərindən 12 km şimal-qərbdə [Əliyev, 1983, s.81], Duzdağda aşkar olunan qədim duz mədənləri bunu bir daha sübut edir. Hələ XIX əsrin ikinci yarısında Duzdağdan tapılmış daş çəkiclərdən duz çıxarılmasında istifadə olunduğu K.A.Nikitin tərəfindən söylənmişdi [Никитин, 1882, с.115].

1897-ci ildə İ.S.Polyakovun Duzdağda apardığı arxeoloji kəşfiyyat işləri zamanı bir neçə daş çəkic aşkar olunmuşdur. Onun fikrinə görə, bu daş çəkiclərdən duzun parçalanması üçün istifadə edilmişdir [Поляков, 1882, с.212].

1967-ci ildə Duzdağın cənub ətəyində aparılan inşaat işləri zamanı qədim şaxtanın girişi aşkar olunmuşdur. Şaxtadan xeyli daş çəkic, o cümlədən 30 kq

ağırlığında daş gürz tapılmışdır [Əliyev, 1983, s.80]. Çox güman ki, bu alətlərdən duzun parçalanması və çıxarılmasında istifadə olunmuşdur.

1976-cı ildə tunel tikilərkən Duzdağda qədim duz mədəni qeydə alınmışdır. Burada ilk tədqiqat işləri aparmış V.H.Əliyevin fikrinə görə, mədən olduqca mürəkkəb plana malikdir. Qədim tunelin uzunluğu 70 m, eni 6-20 m, hündürlüyü 10-15 m-dir. Tunel müxtəlif ölçülü 10 salondan ibarətdir. Bu salonların ən böyüyündə duzdan kəsilmiş 5 sütun vardır [Əliyev, 1983, s.82].

Tunelin cənub tərəfində daş çəkiclər, maral buynuzu, ağac və samandan hörülmüş ip qalığı aşkar olunmuşdur. Buradan həmçinin iki qara cilalı gil qab əldə edilmişdir. Tuneldən tapılmış daş çəkiclər, maral buynuzundan hazırlanmış alətlər, I və II Kültəpə yaşayış yerlərindən bəllidir. Bu alətlər həm qədim duz mədəninin dövrləşməsi, həm də duzun çıxarılma üsullarını müəyyən etmək baxımından əhəmiyyətlidir. Müəyyən edilmişdir ki, buynuz alətlərlə duz layları arasındakı meqrel təbəqəsi təmizlənmiş, sonra yaranan boşluqlara ağac pazlar çalınaraq, duz parçaları qoparılmışdır. İlkin hesablamalara görə qədim duz mədəninin tutumu 5700 $m^3$-dən artıqdır ki, bu da haqqında danışılan mədəndən 11.500 ton duz çıxarıldığını (hər kub metrdən təxminən 2 ton) göstərir [Əliyev, 1983, s.86].

V.H.Əliyev qədim dövrdə duzun çıxarılması üçün, başlıca olaraq, şaxta və tunellərdən istifadə olunduğunu göstərir. O, əldə edilən arxeoloji materiallara əsasən qədim duz mədənlərini e.ə. III-II minilliklərə aid edir [Əliyev, 1983, s.86; Алиев, 1991, s.154].

Ovçular təpəsi, Maxta, Ərəbyengicə, Xələc, Sədərək, Aşağı Daşarx [Seyidov A.,Baxşəliyev V.,və b. 2012] abidələrindən də göstərilən dövrə aid daş alətlərin, həmçinin duzun döyülüb əzilməsi üçün həvəng və dəstəklərin tapılması təsərrüfatın müxtəlif sahələri ilə yanaşı dağ-mədən işlərində bu alətlərdən istifadə olunduğunu göstərir.

## ƏDƏBİYYAT


1. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, "Элм", 1991, 256 с.
2. Əliyev V.H. Naxçıvanın qədim duz mədənləri. Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə hüquq), 1983, № 4, s.79-87.
3. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. СМОМПК. Тбилиси, 1882, вып.2, с.110-142.
4. Поляков И.С. Дневник. Протоколы подготовительного комитета V археологического съезда. Приложение к вып. I, Древности. М., 1882, с.212.
5. Seyidov A.,Baxşəliyev V., Məmmədov S., Aşurov S. Qədim Şərur., Bakı, 2012.
6. Сеидов А.Г. Памятники куро-аракской культуры Нахичевани. Баку, «Билик», 1993, 164 с.



*Şəkil. Erkən Tunc dövrünün əmək alətləri*

**Əbülfəz QULİYEV**
*AMEA-nın müxbir üzvü,*
*AMEA Naxçıvan Bölməsi*

## ƏDƏBİYYATIMIZDA DUZDAĞ VƏ DUZ MÖVZUSU

Azərbaycan xalqının və dövlətinin çox qədim tarixi vardır. Çox təəssüf ki, sovet dövründə tarixi keçmişimizə, onun mədəniyyətinə düzgün qiymət verilməmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra qloballaşma şəraitində milli dəyərlərin qorunmasına, tariximizin elmi şəkildə öyrənilməsinə hərtərəfli şərait yaradılmışdır. Bu baxımdan Ali Məclis sədrinin sərəncamları işığında 5000 ildən artıq yaşı olan sivilizasiyaların beşiyi kimi Naxçıvan şəhərinin tarixinin, arxeologiyasının, folklorunun öyrənilməsi işinin canlandırılması, Gəmiqaya abidəsinin qədim mədəniyyətimizin beşiyi, Naxçıvanın ilk şəhərsalma məkanı kimi tədqiq edilməsi elmi ictimaiyyət tərəfindən təqdirlə qarşılanmışdır.

Naxçıvan tarixinin qədimliyini sübut edən maddi mədəniyyət abidələrindən biri də Duzdağ kompleksidir. Duzdağ kompleksi təkcə duz mədəni kimi deyil, daş dövrünün şahidi kimi elm adamlarının diqqət mərkəzindədir. Təsadüfi deyildir ki, Ali Məclis sədrinin 20 aprel 2012-ci il tarixli sərəncamı ilə bu qədim abidədə uzun müddətdir ki, axtarış, araşdırma işləri aparılır və əlamətdar haldır ki, bu beynəlxalq konfransın mövzusu da Duzdağ probleminə həsr olunmuşdur.

Duz ilk dəfə mətbəxə türklər tərəfindən daxil edilmişdir. Adəm oğullarından olan Türk xanın oğlu Tütək xan çöl düzündə ətdən hazırlanmış kabab yeyərkən əlindəki ət tikəsi yerə düşmüş. Qaldırıb tikəni yedikdə tikənin dadının dəyişdiyini hiss etmişdir. Ona məlum olmuşdur ki, bu duzdur və o zamandan etibarən duzdan mətbəxdə istifadə olunmuşdur.

Od insanlığın başlanğıcıdır, duz isə insan həyatının mahiyyətidir. Duzun kəşf edilməsi ilə insanlıq mədəni həyat tərzinə qədəm qoymuşdur. Duzun kəşfi ibtidai insan birliklərinin oturaq mədəni həyata keçidinin inqilabıdır. Mənbələrdə Naxçıvan Duzdağının Nuh peyğəmbər tərəfindən aşkar edilməsi haqqında əsatirlər yaşayır. Beləliklə, əfsanəvi gəmisi ilə bəşəriyyəti dünya tufanından xilas etmiş Nuh peyğəmbər Naxçıvan Duzdağını kəşf etməklə ilkin insan cəmiyyətinin yaradılmasının əsasını qoymuşdur (3, 521).

Təbiətdə əsasən daş duz geniş yayılmışdır. Duzun tamı onun tərkibində olan mikroelementlərin nisbətindən və miqdarından asılıdır.Bu baxımdan Naxçıvan duzu yumşaq hesab edilir. Mətbəximizdə duzun çox işlənməsinin bir səbəbi də budur. Qeyd etmək lazımdır ki, Naxçıvan duzu başqa duzlardan fərqli olaraq hipertoniya xəstəliyi əmələ gətirmir və bu baxımdan yaxşı duz hesab olunur.

İlk insanların həyatında torpaqdan, oddan sonra duz mühüm rol oynamışdır. Məhz buna görə duz çox qiymətli bir varlıq, əşya kimi dəyərləndirilmiş, hətta "Qurani-Kərim"də , "İbrahim" surəsində İbrahim oğlu İsmayılı qurban kəsməyə apararkən anası Hacərin onun heybəsinə duz və çörək qoyduğunun qeyd edilməsi diqqəti çəkən faktdır.

Onu da qeyd edək ki,hələ qədim Şumerlərdə duz müqəddəs canlı varlıq kimi qəbul edilirdi. Duz bu dövrdə insanları bədbəxtliklərdən qoruyan bir varlıq kimi təsəvvür edilirdi. Məsələn:

Bəd ovsunlarla mən bağlanmışam,
Bəd fitnə-fəsadlara düçar olmuşam.

Duz, qurtar məni bu vəsvəsədən,
Aç mənim ovsunlarımı,
Qır, dağıt bu cadu-pitini (8,530).

Qədim və orta əsrlərin türk ədəbiyyatında, eləcə də klassik ədəbiyyatımızda duzla bağlı xeyli ifadələr yer almaqdadır. Bu əsərlərdə duz motivi müxtəlif mənalar kəsb etmişdir:

*Avlalur özüm anıng tuzunga*
*Emlelür közüm anıng tozınga* (5, 296).

Tərcümə

Könlüm onun gözəlliyinə heyran qalıb tələyə düşür,
Ayağının tozu da yaralı gözlərimə məlhəm olur

Burada *tuz* gözəllik mənasındadır.

Onu da qeyd etmək lazımdır ki, tuz/duz leksik vahidi eyni məcazi mənada həm də "Qisas-ül-ənbiya" abidəsində gözə çarpır: *Yusuf mendin körklügrek erdi, amma men Yusufdın tuzluğrak men* (9, 657). Buradakı *tuzluğrak* kəlməs*i* daha gözəl mənasındadır.

Yeri gəlmişkən qeyd edək ki, *tuz/duz* sözünün ərəb dilində qarşılığı *məlih* sözü ilə ifadə olunur. Dilimizdəki məlahət sözü də məlih sözünün kökündən gəlməkdədir ki, bu da gözəllik anlayışı ilə bağlıdır.

XI əsrin digər məşhur yazılı abidəsi olan Yusif Balasaqunlunun "Kutadqu bilig" poemasında tuz/duz leksemi tez-tez gözə çarpır. Bu əsərdə 18 dəfə *tuz -ekmek* (duz-çörək) ifadəsi işlənmişdir. Məsələn:

*Tuz etmekni king tut kişike yitür*
*Kişi aybı körse sen açma yitür* (10, 150)

XV əsr şairimiz İmadəddin Nəsimidə də duz-çörək məfhumu (nanü-nəmək şəklində) gözə çarpır:

*Ey Nəsimi, aqibət varır yelə,*
*Bivəfa ilə yinən nanü nəmək.*

Eləcə də XVI əsr şairimiz Məhəmməd Füzulidə nəmək şəklində gözə çarpır:

*Gəldi göftara buzeyi-bədnam*
*Laflar urdu ol nəməkbehəram* (4, 238).

Onu da qeyd edək ki, Osmanlı dövrü türk ədəbiyyatına aid bədii mətnlərdə də duz ümumiyyətlə gözəllik, hüsn, məlahət, şirinlik mənalarını ifadə etmişdir (13,3864).

Buna nümunə olaraq Mövlana Cəlaləddin Ruminin "Məsnəvi"sindən bir-iki misal gətirmək istəyirik: Ey təbrizli Şəmsim mənim, sənin rənginə boyandım, birləşdim sanki, sənsə çevrəmdə duzlu bir dənizsən (15, s, 234).

Ey təbrizli tanrı Şəmsi, sən zatən elə abi-həyatsan, o su sənin duzlu, sənin alımlı gözlərindən başqa harada olar ki (15,s.345).

Cağatay ədəbiyyatının banilərindən biri olan Əlişir Nəvainin "Fəvaidi-kibər" adlı divanında duz mövzusunda iki qəzəli gözə çarpır. Birinci qəzələ nəzər salaq:

Ol yüz etrafı melih u lali-xendanıda tuz
Tingri her yan tökti guya hüsninin xanıda tuz.

Xanı-hüsn ol yüz nemekdan ağzıdur ol xan ara
Nutkı-şurengizdin peyda nemekdanıdanıda tuz.

Çun fena yolığa kirdim ağzı könlümde ni tang
Kim sefer ehli çu azm itti bolur yanıda tuz.

Hüsninin anı köngül aşubi boldı kim salur
Külgüdin zahmığa şirinkarlığ anıda tuz.

Tözmese tang yok könül kim ol melahat kanının
İşvesi toldurmış anıng zaxmı-pinhanıda tuz.

Naveki zaxmıda ağrıkdın açışmakdur füzun
Müzmer itmişler meger su birle peykanıda tuz.

Açığ açığ yığlamay niyley iki laling üçün
Kim xayali saldı közler eşki qaltanıda tuz.

Ol melahat kanı ışkıdın kayan barsam kilür
Dostlar allımğa rüsvalığ beyabanıda tuz.

İy Nevayi ni aceb salsa çüçüg canımğa şur
Çünki bar ol nuş-lebning şekkeristanıda tuz (11,s.108).

Müasir dilimizdə yarasına duz basmaq şəklində işlənən frazeoloji vahidin Nəvainin bu şeirində *zaxmığa tuz sal-, zaxmı pinhanıda tuz toldur-, su birle peykanıda tuz muzmer it-* şəklində varintları çıxış etmişdir.

Digər türk dillərində duz motivinin çıxış etməsini izləyərkən bir maraqlı fakta da təsadüf etdik. Altay türklərinin dilində ölmək mənasında *tuzka bar- tuska yürü-* (duza getmək) şəklində bir ifadə işlənməkdədir: *Taadam, tuska yüre bergen dep uulçak ayttı.*

Altayda duz olmadığından insanlar bu nemət üçün uzaq ölkələrə səfər etmişlər, çoxu da sağ qayıtmamış, ölmüşlər. Ona görə də tuska bar-yürü frazeoloji vahidi meydana çıxmışdır (14, s. 61).

Maraqlıdır ki,duza getmək ifadəsi fərqli mənada olsa da Azərbaycan türkcəsində də çıxış etməkdədir(7,s.135)

Duzla bağlı Naxçıvan folklorunda təsadüf edilən bayatı da diqqəti cəlb edir:

Əzizinəm nə çarə
Biçarəyə nə çarə
Ət qoxudu duz gətir
Duz qoxudu nə çarə.
(2,s.145)

Xalq ədəbiyyatında belə bir ifadə var ki, Həzrəti Fatimənin kəbini duz olmuşdur. Bəlkə də dilimizdəki qız yükü, duz yükü ifadəsi də bu anlayış əsasında meydana gəlmişdir.

Naxçıvan folklorunda belə bir nümunəyə təsadüf olunur: “Dəvəyə deyirlər: səni qonaqlığa dəvət edirlər. O da deyir. Öpməli dodağım yox, qucmalı belim yox. Ya Naxçıvana duza göndərəcəklər, ya Bərgüşada düyüyə”.

Müasir yazılı ədəbiyyatımızda Duzdağ mövzusu Əlımdar Quluzadənin “Duzdağ” nağılı ilə yadda qalır.

Əyyub Abbasovun məşhur “Zəngəzur” romanında Naxçıvandakı Duzdağdan ulaqlarla Zəngəzura duz daşınması, ermənilərin bu işdə göstərdiyi xain əməllər yaddaqalan detallarla təsvir olunmuşdur.

Əli Vəliyevin “Budağın xatirələri” romanında da Naxçıvan duzunun şöhrətindən bəhs olunur. Müəllif göstərir ki, “Naxçıvanın duzu, buzu, qarpızı” ifadəsi aforizm şəkli almışdır.

Eyni zamanda xalq şairi Rəsul Rzanın “Marallar da duz yeyərmiş” şeiri mövzumuzla bağlı olan yaddaqalan bədii nümunələrdən hesab oluna bilər.

Ümumiyyətlə, duz mövzusu xüsusilə şifahi ədəbiyyatda, folklorda həmişə özünəməxsus yer tutmuşdur. Şifahi ədəbiyyatdakı duzla bağlı ifadələr çox ibrətamiz məqamlarda işlənir və bunlar yaranma tarixinə görə çox qədim dövrlərə gedib çıxır. Naxçıvan folkloru bəlkə də bura duzun vətəni olduğuna görə duzla bağlı frazeoloji ifadə, idiom və zərb-məsəllərlə zəngindir.

Naxçıvan folklorundakı bədii mətnlərdə (inanclar, sınamalar, ovsunlar, bayatılar, nağıllar) duza müxtəlif məqsədlərlə yanaşmaq (duz-çörək-düz-çörək) hesabına bir müqəddəslik gətirildiyi kimi, həm də bu predmetlə günlahlar aşkarlanıb (məs.duzu yeyib duzqabını zibilləmə), andlar içilib (duz haqqı), canlı bilinib (məs. Duzun üzünə gülməsən dava-dalaş düşər), etiqada çevrilib (ehsan veriləndə duza dua oxunar), ovsun olub məs.yağış kəsməkdən ötrü duz-çörəyi daşın üstünə qoyub deyirlər:

Mən anamın ilkiyəm, ağzı qara tülküyəm.

Naxçıvanda duz-çörək məfhumuna böyük inam olmuşdur ki, bu da folklor mətnlərində tez-tez təsadüf edilən ifadəyə çevrilmişdir. Duz-çörəyin ilahi gücünə inam aşağıdakı epizodlarda açıq şəkildə gözə çarpmaqdadır. Məs.:

“İlan hansı həyətdən əl çəkməzsə, qabağına duz-çörək qoyarlar, deyərlər ki, sən bu duz-çörək bizdən əl çək”.

“Hansı həyətə bayquş gələrsə, ev yiyəsi qorxar. Tez duz-çörək gətirib bayquşun qabağına qoyar və deyər: Səni and verirəm, bu duz-çörəyə, çıx burdan get, bizdən uzaq ol”.

Naxçıvan regionunda xalq arasında belə bir inam var ki,

- “Evin bərəkəti duzla gəlib duzla gedər”.
- “Şər qarışanda qonum-qonşuya duz verməzlər. Gecələr duz ortada qalsa şeytan evin urzasını oğurlayar”.
- “Duz yerə töküləndə dava olar, gərək üstünə qənd qoyasan”.
- Duz göz dəymənin, nəzərin, cadu-pitinin, tilsimin qənimidir.Şər qarışandan sonra üzərlik yandırmazlar, ocağa duz atarlar ki, xata-bala sovuşsun.
- İnanıblar ki, uşaq ağlalğan olsa, çox ağlasa, ata-anasının başını yeyər. Gərək onun ağzına duz töküb başmaq tayı ilə vurasan. (2,s.144).

İnstitumuzun əməkdaşlarının topladığı duz məfhumu ilə bağlı bir nağıl bu baxımdan çox səciyyəvidir:

“Şahlıq dövrü idi. İki tacir səfərə gedirdi. Onların kasıb bir yerlisi onu da özləri ilə aparmağı xahiş edir. Tacirlər soruşur: Sənin heç nəyin yoxdu, sən nə aparacaqsan?

Kişi bir az fikirləşib deyir: - Gedib Duzdağdan bir ulaq yükü duz götürərəm.

Onlar razılaşdılar. Kişi duzu yüklədikdən sonra, yola düşdülər. Getdikləri yerə çatmamış tacirlər kişini bir bəhanə ilə özlərindən ayırdılar. Tacirlər gedəndən sonra kasıb kişi yemək yemək üçün bir yer axtarırdı. Biri ona yaxınlıqdakı yeməkxananı göstərdi. Kişi içəri girib yemək istədi. Kişi gördü yemək dadsızdır, gedib yükdən bir az duz gətirib yeməyinə səpdi, iştahla yeməyə başladı. Aşpaz gördü ki, kişi yeməyi iştahla

yeyir...Gedib kişinin yeməyindən bir qaşıq götürdü. Gördü ki, yemək çox dadlı olub. Aşpaz kişidən soruşdu ki, bu yeməyə nə qatmısan, bu cür dadlı olub?

Kişi yeməyə duz atdığını dedi. Aşpaz kişidən bir az duz alıb getdi. O, öz yeməyinə səpib yeməyə başladı.

Sən demə bu aşpaz şahın öz aşpazı imiş. O şaha yemək bişirəndə içinə bir çimdik duz atır. Şah yeməyi yeyəndə görür ki, bu əvvəlkindən dadlıdır. Fikirləşir ki, görəsən yeməyə nə qatıblar? Şah tez aşpazı yanına gətirmələrini əmr edir. Aşpaz gəldikdən sonra əmr edir ki, onun boynunu vursunlar. Aşpaz səbəbini soruşur. Şah deyir:

-Qırx ildir aşpazlıq eləyirsən, bu cür yemək bişirə bilirdinsə, bəs niyə bişirmirdin?

O dedi: - Şah sağ olsun o nədisə, indiyə qədər bizdə olmayıb.

O duzun necə olmağını şaha danışır. Şah əmr elədi ki, o adamı onun yanına gətirsinlər. Şah kişidən soruşdu ki, bu nədir, bunu haradan almısan?

-Kişi duzu özü ilə gətirdiyini deyir. Şah soruşur: Bundan səndə nə qədər var?

Kişi bir ulaq yükü olduğunu deyir. Şah əmr elədi ki, yükün ağırlığı qədər ona qızıl verib duzun hamısını alsınlar.

Qızılları ulağa yüklədilər. Kişi tacirlərlə sözləşdikləri yerə gəldi, orda oturub yoldaşlarını gözlədi. Tacirlər gəldikdə gördülər ki, kişi yatıb. Çuvallarına baxdılar, onun çuvallarındakı qızılı gördükdə paxıllıq etməyə başladılar. Kişini öldürmək qərarına gəldilər. Kişini öldürərkən o vəsiyyət elədi:

Mənim arvadım hamilədir, əgər mənim qızım olarsa ona köməklik edin, o uşağı böyütsün, ancaq oğlum olarsa onun adını "İnsafqalmadı" qoysunlar.

Tacirlər kişini öldürüb bir dərədə basdırıb getdilər.

Onlar öz yerlərinə çatdılar. Kişinin arvadının evinə getdilər. Onlar kişinin arvadına kişinin yolda öldüyünü dedilər. Sonra isə kişinin vəsiyyətini arvada deyib ona bir az xərclik verib getdilər.

Vaxt gəlib çatır, bu arvadın bir oğlu olur. Uşağın adını "İnsafqalmadı" qoyurlar.

Bir gün uşaq küçədə oynayarkən birdən onu çağırırlar. Bu dəmdə şah həmin küçədən keçirmiş. Şah onun adını eşidib soruşdu ki, bu uşaq kimdir. Uşaq cavabında atasının öldüyünü, anasının isə evlərində olduğunu dedi.

Şah uşağın anasını çağırtdırıb bu adı nəyə görə qoyduğunu soruşdu.

Arvad əhvalat necə olubsa şaha danışdı. Şahın vəziri çox ağıllı olduğundan burda nə isə bir hiylə olduğunu başa düşdü. Tacirləri çağırtdırıb hadisənin necə baş verdiyini soruşdu. Tacirlər kişini öldürdüklərini boyunlarına aldılar. Şah onların boyunlarını vurdurdu (1,III c. s.180-181).

Naxçıvan regionundan toplanmış folklor materiallarında eyni zamanda duzdağ məkanından, duzun birlik yaratmaq funksiyasından bəhs edilir. Bununla əlaqədar bir nümunə gətirmək istəyirik: "Daşbəy yenə bir daşın üstündə oturub dua elədi. Sonra göyə, daşdara üz tutub bu adamların niyə belə olduxlarını soruşdu. Ona cavab verən olmadı. Ancaq birdən bir göy daş onu səsləyib dedi. Ey Daşbəy, məni evinə aparıb un kimi döy. Sonra yeddi gün saxla, sənin səsindən hamı qorxur. Odu ki, onları çağır bir yerə yığışsınlar. Uşaqdan böyüyə, qocadan cavana hər kəsin ağzına o ağ undan bir çimdik at. Sonrasın biz bilərik. Daşbəy göy daşı götürüb evlərinə gəldi. Onu belindəki qılıncla xırdaladı. Nənəsi Nargül də onu dəsdər daşına salıb üyütdü. Göy daşın ununu 7 gün qaranlıqda saxladılar.

Elə ki, səkkizinci gün oldu, onu nənəsi Nargüllə meydana gətirdilər. Daşbəy bir nərə çəkən oldu ki,hamı ora yığışdı. O bütün Qarasan elinin camaatının ağzına bir çimdiy un atdı. Elə ki, iş tamam oldu birdən hamı bir-birin qucaqlayıb öpdü, ağlaşdılar.

Daşbəyin əlinnən öpdülər. Daş bəy bu işə mat-məttəl qaldı. O, camaatdan ayrılıb dağa çıxdı. Bir daşın üstdə oturub duva elədi. Sonra daşa yalvarıb bu sirdən onu agah etməsini dilədi. Daşdan bir səs gəldi. Ey Daşbəy, sənin un elədiyin göy daş duzdur. Yadda saxla ki, duz kəsən, düz kəsər. Duz kəsən namərd olmaz, şeytana uymaz. Duza dönük çıxan murada çatmaz. Camaat duz kəsdiyindən bir oldu. Qoy onlar tez-tez duz kəssinlər. Bax bu dağı da sənə duz dağı elədik. İndi get Qarasan camaatı səni gözləyir" (1, III c, s.162).

Bütün bu faktlar onu göstərir ki, duz motivi qiymətli milli dəyərlərimizdən biri kimi nəinki məişətimizdə, eləcə də mənəviyyatımızda, mədəniyyət və ədəbiyyatımızda tarixən özünəməxsus yer tutmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan folklor antologiyası. Naxçıvan folkloru, III c. Naxçıvan: Əcəmi, 2012, 560 s.
2. R.Babayev. Folklorda duz yükü məsələsi (Naxçıvan materialları əsasında), AMEA NB Xəbərləri (ictimai və humanitar elmlər seriyası), NO:2, 2006, s.142-146.
3. İ.Həbibbəyli. Dünya sivilizasiya prosesləri və Nuhçıxan-Naxçıvan məsələsi,-"Türki düniyesi" almanaxı, Astana (Qazaxıstan), 2012, Foliant nəşriyyatı. s.521-529.
4. Füzuli.Əsərləri, II c.Bakı, Şərq-Qərb, 2005, 336 s.
5. Kaşgarlı Mahmud. Divani-luğat-it-türk, I c. Ankara: TTK yay. 2006, 384 s.
6. Kitabi-Dədə Qorqud, Bakı: Yazıçı, 1988, 264 s.
7. Q.Qədirzadə. Duzdağ və duzla bağlı bir neçə söz// AMEA NB "Xəbərləri", 2009, №1, s.133-135.
8. C.Nağıyev. Qədim Şərq ədəbiyyatı, Bakı:Şərq-Qərb, 2004, 580 s.
9. Nasırüddin bin Burhanüddin Rabğuzi. Kısasül-enbiya, 2 cilt. Ankara: TDK yay. 1997, 870 s.
10. Yusuf Has Hacib.Kutadqu bilig, I cild, Ankara: TTK yay.1998, 550 s.
11. Ali Şir Nevayi. Fevayidül-kiber, Ankara, TDK yay.1996, 408 s.
12. İmadəddin Nəsimi.Əsərləri,Bakı: Şərq-Qərb, 2005, 600 s.
13. Tarama sözlüğü,VI cild,Ankara: TDK yay.1996, 3820 s.
14. Tuz kitabı, İstanbul: Kitabevi, 2004, 368 s.
15. Mövlana Cəlaləddin Rumi. Məsnəvi. II cild, çevirən Əbülfəz Quliyev, Naxçıvan: Əcəmi, 2012, 614 s.

**Toğrul XƏLİLOV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Naxçıvan Bölməsi*

# TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜNDƏ NAXÇIVANDA DUZ EMALI

Duz həzm prosesi üçün ən vacib maddələrdən biridir. Sutka ərzində insan orqanizmi orta hesabla 10 qrama qədər duz tələb edir. Ondan dəriçilikdə, maldarlıqda və digər sahələrdə də istifadə olunur. Buna görə də duza tarixən böyük ehtiyac olmuşdur. İnsan da daxil olmaqla əksər canlıların qida məhsulu kimi istifadə etdikləri duz hazırda bütün xalqlara məlumdur. 100-150 il bundan əvvəl ayrı-ayrı xalqlar duzdan korluq çəkmişlər. Dini mərasimlərdə, ayrı-ayrı şəxslər və dövlətlər arasında müqavilələr bağlanan zaman duza xüsusi əhəmiyyət verilmişdir. Duz ticarət baxımından da önəmli bir məhsuldur. Efiopiyada bir vaxtlar "duz pullar" dəbdə olmuşdur. Çəkisi yarım kilo gələn borusşəkilli həmin "pullar" daş duzdan hazırlanırdı. Afrikada hazırda da "o, yeməyinə duz vurur", yəni, "o, zəngin adamdır" ifadəsi işlədilir. Vaxtilə Çində duz pulların olmasından söz açan məşhur italyan səyyah Marko Polo onların necə hazırlanmasını belə təsvir edirdi: "Duzlu suyu böyük tiyanlarda qatılaşana qədər qaynadır, sonra kiçik paylara ayırıb üstünə imperatorun möhürünü vururlar. Duz pulların metal pullara oxşaması üçün onları kürədə bişirirlər" (9).

Duz ilk dəfə mətbəxə türklər tərəfindən daxil edilmişdir. Adəm oğullarından olan Türk xanın oğlu Tütək xan çöl düzündə ətdən hazırlanmış kabab yeyərkən əlindəki ət tikəsi yerə düşmüşdür. Qaldırıb tikəni yedikdə tikənin dadının dəyişdiyini hiss etmişdir. Ona məlum olmuşdur ki, bu duzdur və o zamandan etibarən duzdan mətbəxdə istifadə olunmuşdur (8). Dünyanın ədəbi abidələrindən hesab olunan "İlliada"nın və "Odisseya"nın müəllifi, qədim yunan şairi Homer duzu müqəddəs substansiya, yəni, bütün cisimlərin və hadisələrin ilk əsasını təşkil edən maddə adlandırmışdır. Qədim yunan filosofu Platon demişdir “Duz allahların xüsusi qiymətləndirdiyi maddədir”.

Bu qida məhsulu dünyanın müxtəlif ölkələrində fərqli şəkildə əldə olunmuşdur. Dəniz sahili ərazilərdə yaşayan xalqlar diqqətli müşahidələr apararaq görmüşlər ki, ləpələr qayalara çırpılıb, geri çəkiləndən sonra qayaların dibindəki suyun buxarlanmasından sonra onun yerində duz kristalları qalır. Fələstinlilər vaxtı ilə Ölü dənizin suyundan acı tam verən duzu bu metodla əldə etmişlər. Fransanın qədim tayfalarından olan Qallar duzu bir qədər fərqli şəkildə əldə etmişlər. Onlar yanan kömürün üstünə duzlu su tökmüşlər. Su buxarlandıqdan sonra kömürün üzərində ağ örtük şəklində duz əmələ gəlmişdir. Onu yığıb istifadə etmişlər. Romalılar Ank Marsinin dövründə dəniz suyundan ilk dəfə geniş miqyasda duz istehsal etməyə başlamışlar. Ostiyada duzxana təşkil olunmuşdur. Suyu şor olan göllərin sahilində məskən salmış qədim tayfalar xörəyə duz vurmaq üçün göldən yosun yığıb xörəklərinə əlavə etmişlər. Çinin Çanlu şəhərində duz başqa formada istehsal olunmuşdur. Marko Polo bununla bağlı qeyd etmişdir ki, “Bu şəhərdə (Çanlu şəhəri) çox şoran torpağı dağ şəklində yığırlar, üstünə su buraxırlar. Su torpağın dibinə hopur. Sonra oradan axan suyu ləyənlərə yığıb ocaqda qaynadırlar. Bax belə bir qayda ilə ağ və narın duz alırlar. Onu aparıb qonşu ölkələrdə satırlar”. Mikluxo-Maklayın məlumatında qeyd olunur ki, papuaslar duzu əvəz edən xüsusi toz hazırlamışlar. Onlar uzun müddət dəniz suyunda qalmış ağacları yararaq gündə qurutmuş və yandırmışlar. Ağacın yanmasından sonra alınan kül duz əvəzinə

işlədilmişdir. Tunquslar vəziyyətdən başqa cür çıxmışlar. Onlar əti dəniz suyunda bişirirmişlər. Astrolyabiya körfəzinin ətraflarında yaşayan papuaslar duz əvəzinə dəniz suyundan istifadə etmişlər, yəni xörəyi şor suda sadəcə olaraq bişirirmişlər. Yunanıstan-da duz gölünün suyundan duz alınmışdır (9).

Qafqazın qədim duzçıxarılan ərazilərindən biri Qara dənizdən şimalda yerləşən Opuk və Çikprak gölləridir. Türkiyənin Arazboyu vadisindəki Tuzlucada, Şimal-Qərbi İranda Xoy yaxınlığında da duz yataqları var. Dünyanın müxtəlif yerlərində istehsal olunmuş duzların heç birisi Naxçıvan duzu kimi keyfiyyətli deyil. Naxçıvan duzunun özünəməxsus xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu duzda insan orqanizmi üçün lazım olan miqdarda yod var və o hipertoniya xəstəliyi əmələ gətirmir.

Naxçıvan Muxtar Respublikasının ərazisində duz yataqları Böyükdüz kəndi yaxınlığında Naxçıvan şəhərindən 12 km aralıda Duzdağda var. Duzdağ daşduz yatağı iki sahəyə ayrılır. Uzunluğu 2,2 km, eni 1,6 km, sahəsi 3,5 kv. km adlanan cənub sahə və ondan 4,5 km şimal-qərbdə yerləşən uzunluğu 1,3 km, eni 0,9 km, sahəsi 1,2 kv. km olan sahə. Yatağın geoloji quruluşu Miosen, Dördüncü və Müasir dövrün kompleks süxurlarından ibarətdir (5, s. 90-92).

Duzdağdakı duz mədənləri qədim zamanlardan istismar olunmuşdur. Bu fikri subut edən xeyli miqdarda məlumatlar vardır. Mənbələrə nəzər salsaq görərik ki, XIX əsrin 70 illərində Duzdağda işləmiş dağ-mədən mühəndisi Koşkul və Bayer adlı şəxslər tərəfindən oradan bir neçə ədəd daş balta tapılmışdır. Duzdağdakı daş çəkiclərin bir qismi 1870-ci ildə Naxçıvan şəhər məktəbinin müfəttişi K.A.Nikitin tərəfindən toplanmışdır. K.A.Nikitin Duzdağdan tapılmış müxtəlif formalı daş çəkiclərin duz çıxarılmasında istifadə olunduğunu qeyd etmişdir (6, s.115).

1895-ci ildə Qafqazın arxeologiyası və etnoqrafiyası ilə məşğul olan P.N.Nadej-din Duzdağdan əldə olunmuş daş çəkiclərlə tanış olduqdan sonra onlardan düz çıxarmaq üçün istifadə olunduğunu qeyd etmişdir. 1897-ci ildə İ.S.Polyakov Duzdağda apardığı kəşfiyyat xarakterli arxeoloji araşdırma zamanı oradakı duz mədənlərinin yaxınlığından xeyli daş çəkic tapmışdır. Tədqiqatçı tərəfindən belə bir nəticə əldə olunmuşdur ki, daş çəkiclərdən duzun parçalanmasında istifadə edilmişdir (7, s. 212). Duzdağdan əldə olunmuş daş çəkiclərin duz emalı ilə bağlı olması haqqında M.M.Hüseynov tərəfindən də fikir irəli sürülmüşdür. 1967-ci ildə Duzdağın cənub ətəyində aparılan inşaat işləri zamanı uçqun nəticəsində təsadüfən duz şaxtasının girişi aşkar edilmişdir. Bu tapıntı qədim dövrdən Naxçıvanda duz emalının olduğunu, dağ-mədən sənayesinin yüksək səviyyədə inkişaf etdiyini sübut edən maraqlı arxeoloji faktlardandır. Həmin dövrdə abidədə aparılan kəşfiyyat xarakterli araşdırma zamanı duzun parçalanması və çıxarılması ilə bağlı müxtəlif formalı daş əmək alətləri, daş çəkic, 30 kq ağırlığında olan daş gürz əldə olunmuşdur (4, s. 80).

1976-cı ildə Duzdağda müasir tunel tikilərkən qədim duz mədəni aşkar olunmuşdur. Bu mədən V.Əliyev tərəfindən ilkin olaraq öyrənilmişdir. Aparılan kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar zamanı oradakı mədənin mürəkkəb planlı olduğu müəyyən olunmuşdur (4, s. 86). Duz mədənindəki tunelin cənub tərəfindən daş çəkiclər, maral buynuzu, ağac və samandan hörülmüş ip qalıqları, meqrel təbəqələrə çalınmış ağac pazların qalıqları aşkar olunmuşdur. Buradan həmçinin iki qara cilalı gil qab da əldə edilmişdir. Mədənin divarları böyük ustalıqla işlənilmişdir. Mədəndəki tunelin uzunluğu 70 m, eni 6-20 m, hündürlüyü 10-15 m-dir. Tunel müxtəlif ölçülərdə olan on salondan ibarətdir. Salonların bəzisinin divarlarında his izləri aşkar olunmuşdur. Bəzi salonların içərisində ocaq qalıqları vardır. Salonlardan ən böyüyündə duzdan

mədənin divarına tağ şəklində birləşmiş beş sütun düzəldilmişdir. Oradakı qədim duz mədəninin tutumu 5700 $m^3$-dən artıqdır. Mədəndə ildə hər $m^3$-dən 2 tona yaxın bütövlükdə 11500 ton duz çıxarılmışdır. Abidədəki bütün salonlarda olan 3-5 metr uzunluğundakı səki formalı çıxıntıların mədənçilərin oturması üçün düzəldildiyi ehtimal olunur (4, s. 86). Duzdağ abidəsindən əldə olunmuş əmək alətləri, mədənin divarındakı ağac pazların qalıqları, duzun necə emal olunması haqqında məlumat əldə etməyə imkan verir. Aparılan müqayisəli araşdırma onu göstərir ki, duzun çıxarılması üçün şaxta və tunellər düzəldilmişdir. İnsanlar buynuz alətlərlə duz layları arasındakı meqrel təbəqəsini təmizləmiş, sonra yaranan boşluqlara ağac pazlar çalaraq duzu parçalar şəklində qoparmışlar. Daş çəkiclərdən duz laylarının qoparılması ilə yanaşı olaraq döyülməsində də istifadə olunmuşdur. Bu tip alətlər I Kültəpə və II Kültəpə yaşayış yerlərindən də əldə olunmuşdur.

Duzdağda qədim zamanlardan duz emal olunmasını sübut edən maraqlı arxeoloji materiallardan birini oradakı mədənin divarlarında cızılmış müxtəlif işarələr təşkil edir. Mədənin 5-ci və 8-ci salonunda bu tip işarələr çoxdur. Onlar qurup halında çəkilmişlər. Ən böyük qurupda hər birində 10 işarə olan 5 sıra vardır. Həmin işarələrin mədəndən çıxarılan duzun miqdarını və ya orada işləyən fəhlələrin günlərini göstərməsi haqqında tədqiqatçı V.Əliyev tərəfindən fikir irəli sürülmüşdür (1, s. 189). Bu işarələrin müəyyən say sistemini ifadə etməsi məntiqə uyğundur. Ona görə ki, 5-ci və 8-ci salondakı qrup şəklində verilən işarələrin sayı müxtəlifdir. İki dəstədə 50, bir dəstədə 44, digər dəstələr-də isə 35, 12 işarə çəkilmişdir.

Duzdağ abidəsində qədim zamanlardan insanların duz emal etməsini sübut edən arxeoloji materiallar sonrakı tədqiqatlar zamanı da aşkar olunmuşdur. Bu abidədən 2006-2008-ci illərdə V.B.Baxşəliyev, Catherine Marro və S.H.Aşurovun rəhbərliyi ilə aparılan araşdırmalar zamanı xeyli miqdarda keramika nümunələri və əmək alətləri əldə olunmuşdur. Aparılan arxeoloji araşdırmalar zamanı əldə olunmuş materiallara əsasən Duzdağın İspaniyadakı Kardono duz mədəni kimi dünyanın ən qədim duz mədənlərindən biri olduğu və e.ə. V minilliyin ikinci yarısından Duzdağda duz emal olunduğu sübut olunmuşdur (3, s. 230). Duzdağ abidəsindən Son Eneolit və Erkən Tunc dövrünə aid gil qablar və daş əmək alətləri tunelin giriş qapısından tapılmışdır. Son Eneolit və Erkən Tunc dövrünə aid gil qablar I Kültəpə, II Kültəpə abidələrində olduğu kimi daş əmək alətləri ilə birlikdə olması bu alətlərin daha geniş istifadə olunduğunu göstərir. Duzdağdan Orta Tunc dövrünə aid gil qablar Son Tunc və Dəmir dövrünə aid keramikalarla müqayisədə az tapılmışdır. Orta Tunc dövrünə aid keramika nümunələri-nin hamısı monoxrom rəngli düzəldilmişdir. Onlar qırmızı rəng üzərindən qara rənglə naxışlanmışdır. Son Tunc və Erkən Dəmir dövrünə aid keramikalar boz-qara rəngli düzəldilmişdir. Qabların çiyin hissəsi çərtmə və qabarıq-batıq xətlərlə naxışlanmışdır (2, s. 11-12).

Duzdağ abidəsində müxtəlif dövrlərdə aparılan arxeoloji tapıntılar zamanı əldə olunmuş arxeoloji materialların müqayisəli şəkildə öyrənilməsi zamanı maraq doğuran faktlardan birini də bu abidədən əmək alətləri ilə yanaşı Erkən, Orta, Son Tunc və Erkən Dəmir dövrünə aid keramikaların tapılması təşkil edir. Onlar belə bir yekun nəticəyə gəlməyə əsas verir ki, abidədə bütün dövrlərdə olduğu kimi Tunc və Erkən Dəmir dövründə də duz emal olunmuşdur. Tunc və Erkən Dəmir dövründə orada çalışmış insanlar gil qablardan müxtəlif məqsədlərlə istifadə etmişlər. Çıxarılan duz yerli tələbatı ödəməklə yanaşı qonşu ölkələrə də ixrac olunmuşdur.

## ƏDƏBİYYAT


1. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. АН Азербайджанской ССР. Институт Истории. Баку: Элм, 1991, 253 с.
2. Baxşəliyev V.B., Morro C., Hamon C., Aliyev N., Dessaint P., Sanz S. Naxçıvan duzdağının qədim duz mədənləri, Naxçıvan: Əcəmi, 2012, 80 s.
3. Catherine M., Bakhshaliyev V., SANZ S (Nizami ALIYEV'in işbirliğiyle). Duzdağı Tuz Madeninde Arkeolojik Çalışmalar (Nahçivan, Azerbeycan)- Türkiye Bilimler Akademisi Arkeoloji Dergisi (TÜBA-Ar)-13, 2010, s. 229-244.
4. Əliyev V.H. Naxçıvanın qədim duz mədənləri // Azərb. SSR EA Xəbərlər (tarix, fəlsəfə, hüquq), Bakı: Elm, 1983, s. 79-87.
5. NağıyevV., Məmmədov İ. Naxçıvan Muxtar Respublikasının faydalı qazıntıları. Bakı: Elm, 2010. 240 s.
6. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. СМОМПК. Тифлис: 1882, вып. 2, с. 110-142.
7. Поляков И.С. Дневник. Протоколы подготовительного комитета V археологического съезда. Приложение к вып. I, Древности. Москва, 1882, с. 212.
8. http://az.wikipedia.org/wiki/Duz._Əbülqazi Bahadur Xan "Şəcəreyi-Tərakimə"
9. kayzen.az/blog/erzaq/3083/duz.html. Mətləb Əlizadə M.N., Quliyev Y.E. Ərzaqların mənşəyi.

**Qadir ƏLİYEV**
*Memarlıq üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# KLASSİK NAXÇIVAN MEMARLIQ FORMALARININ VƏ DUZ KRİSTALLARININ QURULUŞU

Elm təbiət haqqında qaydalı bilik sistemidir, gündən-günə dərinləşən, aydınlaşan gerçəklik göz ilə görünə biləcək qədər sadə deyil. Tədqiqatçının daxili aləmində tədqiq edilən obyektin quruluşuna uyğun bir surət hasil olduqda sənət anlayışı meydana çıxır. Tədqiq etdiyimiz sənət qolunun baniləri yaradıcılıqlarının əsasına təbii quruluşlarının yaradıcılıq prinsiplərini qoyub, kristal quruluşunu çox yeniliklə təkrar edən naxışlar yarada biliblər.

Dahi Azərbayçan şairi Məhəmməd Füzulinin "Mətlə`əl-e`tiqad" elmi-fəlsəfi traktatından gətirdiyimiz stat bu haqda bizim fikirlərimizi tamamlayır: "Filosoflardan bəziləri demişlər: "Elm – öyrənən (*şəxsin*) daxili aləmində öyrənilənə (*obyektə*) tam uyğun bir surətin hasil olmasıdır ".

Bəziləri isə deyiblər: "Elm - əşyanın (*və ya hər hansı bir obyektin*) surətinin əqldə hasil olmasıdır". Qarşıya qoyulan çox mühüm və mürəkkəb məsələnin aydınlaşdırılması üçün göstərilən ardıcıllıq üzrə hərəkət etməyimiz məqsədəuyğundur.

1. Kristalların quruluşu haqqında.
2. Klassik Naxçıvan memarlıq formalarının quruluşu haqqında.
3. Duz kristalların və klassik Naxçıvan memarlıq formalarının quruluşlarının eyniliyinin açılması

## 1.Kristalların quruluşu haqqında.

Varlığın müxtəlif formalarının analizi zamanı iki əsas tendensiya müşahidə edilir. Bunlardan biri nizamlılıqdır. Bərk cisimlərin tədqiqi zamanı belə bir faktor müşahidə olunur ki, müxtəlif qüvvələrin təsirindən müxtəlif qanunauyğunluqla yerləşən hissəciklər arasındakı məsafələr sabit qalır ki, belə cisimlərə kristallar deyilir. Başqa tendensiya isə birincinin əksinədir. Bu zaman müxtəlif qüvvələrin təsirindən hissəciklər arasında məsafələr dəyişir ki, maddənin belə halı bizim tədqiqat sahəmizə daxil deyil. Birinci tendensiyanı biz ciddi nizamlılıqla xarakterizə olunan ideal kristallarda müşahidə edə bilərik. Onları üçölçülü periodik yerləşən qəfəs strukturu şəklində (ionlar, atomlar və ya molekullar) təsəvvür etmək olar. Bu qəfəs hüdudunda istənilən hissəciyin vəziyyəti birmənalı olaraq müəyyən olunur. İdeal kristallarda atomların daimi pozisiyası olur. İstənilən hər bir hissəcik ciddi, qanuna uyğun şəkildə başqa hissəciklərlə əhatə olunub. Atomları, ionları, və ya molekulları üçölçülü periodik yerləşən kristalların əyani təsəvvürünü verək. Bu təsəvvür memarlıqda, həcm fəza kompozisiyası ilə, forma əmələ gəlmə prosesi ilə bir eynilik təşkil edir.




*Şəkil1. a) duz kristalları; b) kristalların kubik formaları; c) NaCI kristalında dekorativ torun dislokasiyası*

Simvolik olaraq nöqtə şəklində təsvir edilən atomların üç koordinat oxu boyunca periodik transliyası yolu ilə fəza qəfəsini qururuq. Belə kristal qəfəsinin qurulmasını aşağıdakı ardıcıllıqla yerinə yetirmək olar:

Bir istiqamətdə hərəkət prosesi. Bu zaman çıxış nöqtəsindən atomun transliyası **a** vektoru qədər olur. Nəticədə nöqtələrin periodik sırası alınır.
(şək 2.a) . Belə periodik sıra birölçülü qəfəsi təsvir edir. $a = a_0$ məsafəsi period adlanır (period eyniliyi və ya interval eyniliyi).




*Şəkil 2. NaCI qəfəsinin sxematik təsviri. a) bir ölçülü (nöqtələr sırası); b) ikiölçülü (müstəvi tor); c) üçölçülü (fəza transliyasiya şəbəkəsi); d) Xörək duzunun kristallik qəfəsi (Na və CL ionları paralel oxlar boyunca periodik təkrar olunur)*

İndi isə çıxış atomunun eyni qayda ilə şaquli istiqamətdə yerini dəyişək. Ümumi halda yerdəyişmə istiqamətləri arasında bucaq bir-birindən $90^o$-yə qədər fərqlənir. İkinci istiqamətdə yerdəyişmədə transliyasiya $b$ vektoru qədərdir. Beləliklə artıq eyni nöqtələr çoxluğundan qurulan ikiölçülü qəfəs alınır. Bu halda nöqtələr bir-biri ilə yerini dəyişə bilər, struktur isə sabit qalar (şək. 2.b).

Nəhayət atomların 3-cü koordinat oxu istiqamətində yerdəyişməsi zamanı üçölçülü və ya fəza qəfəsi alınır (şək. 2 c). $a$ $b$ $c$ vektorlarının əmələ gətirdiyi paralelepiped elementar özək adlanır. Şəkildə o qalın xətlərlə göstərilib. Çoxsaylı elementar özəklərin periodik təkrarlanması yolu ilə makposkopik kristal əmələ gəlir.Şəkil 2c-də quruluşun qalın xətlə göstərilən hissəsi təkrar olunan hissələrdir. Biz

bu çərçivəni (üçölçülü qəfəsi) şəkilin istənilən yerinə öz-özünə paralel sürüşdürə bilərik. Bu vaxt yenə də çərçivənin təpələri bir-birindən heç cür fərqlənməyən nöqtələrə düşəcəkdir. Hər bir kristalik maddə üçün belə bir üçlü qəfəs göstərmək olar. Buna elementar qəfəs deyilir. Maddədən-maddəyə elementar qəfəsin tillərinin ölçüsü və aralarındakı bucaq dəyişə bilər.

Maddənin quruluşunu öyrənmək-elementar qəfəsin tillərinin ölçüsünü və atomların qəfəsin içərisində necə yerləşdiklərini müəyyən etməkdir. Ümümi halda transliyasiya vektoru bir-birinə perpendikulyar deyil, onların istiqaməti bir-biri ilə düz bucaqdan fərqli bucaq əmələ gətirirlər ($\alpha \neq \beta \neq \gamma$).

Müxtəlif istiqamətlərdə transliyasiyanın periodu da həmçinin bir-birindən fərqlənir ($a \neq b \neq c$). Əgər $a$ məsafəsi, eyni zamanda periodlar müxtəlif istiqamətdə müxtəlifdirsə onda qəfəs anizotpop olur. Xüsusi halda isə qəfəs eyni düyünlərdən ibarət olur. Demək ki, o da hemogendir (bircinslidir). Beləliklə, qəfəs iki çox mühüm xassəyə malik olur: o həm bircinsli olur, həm də anozotpop. Buradan kristalların mühüm xüsusiyyəti meydana çıxır. Onların anizotpopluğu və beləliklə, xassələrin istiqamətdən asılılığı, fəza qəfəsinin eyni düyünlərdən təşkil olunması.

Məlumdur ki, qəfəslərin 14 növü var (transliyasiya olunan və ya Brave qəfəsləri). Əgər transliyasiya oxları olan $\alpha$ $\beta$ $\gamma$ bucaqlarını və $a_0$ $b_0$ $c_0$ olan translyasiya periodlarını simmetrik olaraq üç istiqamətdə dəyişsək o halda yeddi kristallik sistem əmələ gələr. Bu yeddi kristallik sistemdən bizi ancaq kubik sistem maraqlandırır.

Bir transliyasiya qəfəsini başqasına əlavə etməklə mürəkkəb quruluşlu strukturu təsəvvür etmək olar. Şəkildə göstərilən natrium xlorid qəfəsi $Na^+$ və $Cl^-$ ionlarının ardıcıllığından təşkil olunur və paralel oxlar boyunca yerini dəyişən iki kubik translyasiya qəfəsindən ibarətdir.

İndi şək. 1d-də göstərilən xörək duzunun kristallik qəfəsin strukturunu nəzərdən keçirək. Bu kristallik qəfəs $Na^+$ və $CL^-$ ionlarının periodik növbələşməsindən əmələ gəlmişdir. Fəza forması paralel oxlara görə transliyasiya olunan kubik qəfəsdən ibarətdir. Transliyasiyanın periodu $Na^+$ və $CL^-$ ionları arasında olan məsafəyə bərabər deyil, eyni ionlar arasında məsafəyə bərabərdir. Bu məsafə qəfəs sabiti olan $a_0$ məsafəsinə uyğundur. İndi qarşıya qoyulan məsələnin 2-ci hissəsinə keçə bilərik.

**2. Klassik Naxçıvan memarlıq formalarının quruluşu haqqında.**

Aparılan tədqiqatlar göstərir ki, klassik Naxçıvan memarlıq formalarının quruluşu aşağıda göstərilən üç mütənasiblik sistemi ilə tamamilə müəyyən olunur: 1. Kvadrat və bu mənbədən yaranan mütənasiblik sistemi; 2. Düzgün altıbucaqlı və bu mənbədən yaranan mütənasiblik sistemi; 3. Qızıl bölgü və bu mənbədən yaranan mütənasiblik sistemi.

Bu memarlıq formaları əsasən aşağıdakılardan ibarətdir; memarlıq abidələrinin özlərinin fəza quruluşu; abidələrdə olan çatma tağ və günbəz əyriləri; abidələrin memarlıq dekoru. Göründüyü kimi bu memarlıq formalarına həm xətti, həm müstəvi, həm də fəza quruluşlu formalar daxildir.

**3. Duz kristalların və klassik Naxçıvan memarlıq formalarının quruluşlarının eyniliyinin açılması.**

Duz kristallarının quruluşu ideal kristalların quruluşunun xüsusi halıdır.
Fikirlərimizi isbat etmək üçün əyani olaraq Yusif Küseyir oğlu türbəsi üzərində olan müstəvi memarlıq kompozisiyası xarakteri daşıyan bir naxış elementinin harmonik

quruluşu ilə xörək duzu kristalının (NaCI) harmonik quruluşunun müqayisəli təhlilini verək. Şəkil 3-də xörək duzu kristalının harmonik quruluşu ilə Yusif Küseyir oğlu türbəsi üzərində olan həndəsi naxış kompozisiyasının harmonok quruluşularının eyniliyini göstərən həndəsi mütənasibli sistemi verilmişdir. Əyani şəkildə göstərilən bu mütənasiblik sisteminin necə yarandığını izah etməyə ehtiyac yoxdur. Şəkil 1c-də göstərilən NaCI kristalının dekorativ torunun dislokasiyasında olan formalar ilə şəkil 3c- də göstərilən kvadrat və bu mənbədən yaranan mütənasiblik sisteminin həndəsi formasını müqayisə etsək onların tamamilə eyni olduğunu görərik.




*Şəkil3. Xörək duzu kristalının harmonik quruluşu ilə Yusif Küseyir oğlu türbəsi üzərində olan həndəsi naxış kompozisiyasının harmonik quruluşlarının eyniliyini göstərən həndəsi mütənasibli sistemi. a) Xörək duzu (NaCI) kristalının horizontal proyeksiyası;b) və c) kvadrat və bu mənbədən yaranan mütənasiblik sisteminin həndəsi forması*

Şəkil 4-də Yusif Küseyir oğlu türbəsi üzərində həndəsi naxış kompozisiyası və onun həndəsi qrafiki analizi göstərilmişdir. Beləliklə, isbat etmiş oluruq ki, xörək duzun kristalının (NaCI) harmonik quruluşu ilə Yusif Küseyir oğlu türbəsi üzərində həndəsi naxış kompozisiyasının harmonik quruluşu tamamilə üst-üstə düşür. Bununla da qarşıya qoyulan məsələ tamamilə həll olunur.







*Şəkil 4. Yusif Küseyr oğlu türbəsi. a. Həndəsi naxış kompozisiysı;*
*b. həndəsi naxış kompozisiyasının qrafiki analizi*

Son olaraq göstərə bilərik ki, klassik Naxçıvan memarlıq formalarının harmonik quruluşu ilə təkcə xörək duzu kristalının harmonik quruluşu ilə yox, bütün duz kristallarının harmonik quruluşu arasında bir eynilik var. Bu da Azərbaycan xalqının görkəmli alimi Xudu Məmmədovun dahiyanə fikirlərini bir daha təsdiq edir.

## ƏDƏBİYYAT


1. X.S.Məmmədov, İ.S.Əmiraslanov, H.N.Nəcəfov, A.A.Mürsəliyev. Naxışların yaddaşı. Bakı. 1981.
2. M. Füzuli. Mətlə"əl-e"tiqat. Bakı. 1981.
3. Q. Əliyev. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı. 2007.
4. К. Мейер. Физико-химическая кронсталлография. Москва. 1972.
5. Г. И. Епифанов. Физика твердого тела. Москва. 1977.

**Əli CABBAROV**
*İqtisad üzrə fəlsəfə doktoru*
*Naxçıvan Dövlət Universiteti*
**Günel İSAYEVA**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN DUZDAĞININ MÜALİCƏ VƏ TANIŞLIQ TURİZM İMKANLARI

Ali varlıq kimi insan tələbatları arasında dünyanın möcüzələrini öz gözü ilə görə bilmək və bunun təəssüratı altında ümumbəşəri dəyərlərə xidmət etmək kimi dünyəvi hisslər də vardır. (1) Tarix boyu səyyahları min kilometrlərlə uzaqdakı çətin və riskli səfərlərə çəkən qüvvə də məhz elm, mədəni təsir yolu ilə dünyanı fəth etmək istəyi olmuşdur. Gedərək yayılan turizm də özünün dərin sosial-humanist dəyərləri ilə belə səyahətlərin əsasında inkişaf edərək müasir dövrdə mədəniyyətlərarası dialoqa və iqtisadi inkişafa verdiyi töhfələrlə yeni dünyanın yeddi möcüzəsi arasında özünə möhkəm yer tutmuşdur. Azərbaycan Respublikasının rəngarəng turizm ehtiyatları arasında Naxçıvan Duzdağının formalaşması, tarixi, yerləşmə mövqeyi və funksional istifadə imkanları burada turizmin bir sıra növ və formalarının inkişafına çox geniş imkanlar açır. (2)

***Duzdağ müalicə turizmi mərkəzi kimi***

Təbiətin möcüzəli gücünə inanıb sağlamlıq məqsədilə uzaq diyarlara edilən səfərlər turizmin ən qədim növlərindən biri sayılır. Mənəvi və fiziki sağlamlığını bərpa etmək üçün insanların müqəddəs yerlərə və şəfalı mənbələrə etdiyi səyahətlər elmi mənbələrdə ən qədim dinc məqsədli səyahətlər kimi tanınır və müasir turizmdə də öz xüsusi çəkisini qorumaqdadır. Təbii ehtiyatlardan turizmin müxtəlif növləri üzrə istifadə edilməsi arasında məhz müalicə turizmi özünün sosial əhəmiyyətinə görə də seçilir. Çünki burada əsas motiv hər şeydən qiymətli olan insan sağlamlığıdır.

Müasir müalicə turizminə qoşulanların geniş məqsədləri vardır. Konkret olaraq, bunlar bir yerdən başqa yerə sırf klinik müalicə üçün həkimə gedənlər, bir ölkənin və regionun təbii şəfalı ehtiyatlarından yenə də həkim təyinatına görə istifadə etmək üçün və sırf təbii ehtiyatlar hesabına istirahət edib, sağlamlığını bərpa edənlər üçün təşkil olunan turizm səyahətləridir. Bu məqsədlərlə bir yerdən başqa bir yerə, yaxud bir ölkədən başqa ölkəyə səyahət edən turistləri isə müalicə turistləri adlandırırlar. Bir sıra xüsusiyyətlərinə görə Duzdağda təşkil olunan müalicə turizmini hər üç yarımnövə aid etmək olar. Naxçıvandakı Duzdağ Fizioterapiya mərkəzində tətbiq olunan “Spleoterapiya” yolu ilə bronxial astmalı xəstələrin müalicə edilməsi və dünyanın müxtəlif yerlərindən bu məqsədlə gələn turistlər Duzdağın bu sahədəki geniş imkanlarını göstərir.

Hələ keçən əsrin 70-ci illərində Duzdağ şaxtalarında təşkil olunmuş yeraltı müalicə mərkəzi geniş şöhrət qazanmışdır. Dünyada analoqu çox az olan Duzdağ şaxtalarının imkanları isə mütəxəssislər tərəfindən üstün qiymətləndirilir.(3) Ümumiyyətlə, Naxçıvanın təmiz havası ilə bərabər Duzdağ şaxtalarında mövcud olan hava, buranın quruluşu, dəniz səviyyəsindən yüksəkliyi, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı təşkil olunan müalicənin ideal nəticələr verməsinə şərait yaradır. Son dövrlərdə yaradılan müasir infrastruktur şəraiti, yüksək ixtisaslı həkim və texniki heyət və habelə təşkil olunan mədəni servislər, istər müalicə üçün

gələnlər, istərsə də onları müşaiyət edənlər üçün hər cür müalicə-istirahət imkanları yaratmışdır. Nəticədə Duzdağın möcüzəli müalicəvi xüsusiyyətləri həm ölkəmizdə, həm də bütün dünyada tənəffüs yolları xəstəliklərindən əziyyət çəkənlərin sağlamlığına qovuşmasına xidmət etməklə, əslində bütün insanlığa xidmət etməkdədir.



Müalicə turizmi öz məzmununa görə sosial turizm kateqoriyasına aiddir. Başqa sözlə, insanlar müalicə-sağlamlıq üçün müəyyən vaxt və vəsaitdən məcburi olaraq istifadə etdiklərindən, xüsusən müəyyən kateqoriyadan olanlara bu təklif müəyyən güzəştlərlə edilməlidir. Qeyd olunmalıdır ki, bu müddəa Ümumdünya Turizm Təşkilatının da tövsiyyələrində olub, dövlətlərə və turizm təşkilatçılarına insanların sağlamlığı naminə turizm xidmətlərinin güzəştli qiymətlərlə təklif olunmasını nəzərdə tutur. Bu baxımdan, Duzdağ Fizioterapiya Mərkəzində təkcə Azərbaycan vətəndaşları deyil, dost ölkələrin də aztəminatlı ailələri üçün pulsuz müalicə kursları təklif olunur. Bu yaxınlarda qonşu Gürcüstan Respublikasının Acariya Muxtar Respublikasından olan uşaqlar üçün təşkil olunmuş pulsuz müalicə kursu da ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsinə xidmət edən və insanların cansağlığının qorunmasına yönəlmiş ümumbəşəri humanist bir addım kimi qiymətləndirilməlidir.

***Duzdağ tanışlıq turizmi məkanı kimi***

Turizmin hərəkətverici qüvvələrindən biri təbiətin heç bir yerdə təkrarlanmayan bənzərsiz gözəlliyi və insanın bu müxtəlifliyə qarşı həssaslığından doğan tanışlıq-rekreasiya tələbatlarıdır. Heç bir insan dünyanın ən gözəl məkanında yaşasa da təkcə öz diyarının gözəllikləri, maraqlı yerləri ilə kifayətlənmir, daha uzaqlarda da bunları axtarmağa meyl edir. Müasir texniki imkanlar—sürətli informasiya və nəqliyyat vasitələri belə maraqlı yerlərlə saniyələr içində məlumat almaq və saatlar ərzində oraya çataraq əyani şəkildə tanış olmaq imkanları yaradır. Zəngin tarixi-mədəni ehtiyatlara malik Azərbaycanın Naxçıvan Muxtar Respublikasında mövcud potensial əsasında tanışlıq-dərketmə turizmi baxımından Duzdağın da özünəməxsusluğunu göstərmək olar.



Duzdağla tanışlıq hələ səmadan başlanır. Naxçıvana ilk dəfə gələnlər yəqin ki, təyyarənin hava limanına enişi zamanı yer üstündəki qeyri-adi mənzərələr qarşısında heyranlıqlarını gizlətmirlər. Bir anlıq belə bir təəssüratın bütün səyahət boyu və ondan sonrakı bütün dövrlərdə yaddaşlarda qalması isə artıq turizm xidmət sektoruna aid olan sahələrin əlində bir əsasdır. Muxtar respublikaya istər hava yolu, istərsə də quru yollarla gələn qonaqlara buranın tarixi, təbiəti, iqlimi, inkişaf səviyyəsi və milli qonaqpərvərliyi haqda məlumat verərək, Naxçıvan şəhərindən cəmisi on beş dəqiqəlik məsafədəki Duzdağ haqqında məlumat vermək

tanışlıq turizmi həvəskarları üçün turun ilk günlərində təşkil oluna bilər. Duzdağın hər ölkədən gələn, hər yaşda və cinsdə olan turistlər üçün tanışlıq imkanları genişdir. Əgər turistlərin bir qismi, yəni tarixə meyli yaşlı insanlar buradakı qədim insan məskənləri, şəhər mədəniyyətinin izləri ilə maraqlanırsa, gənclər və uşaqlar üçün bura nağılları xatırladan sehrli bir aləm təsəvvürləri yaradaraq əsl əyləncə və mənəvi zənginləşmə məkanıdır. Duzdağ şaxtalarına baxıb dərin təəssürat alan turistlər eyni əhvali-ruhiyyəni lap yaxınlığında eyniadlı beşulduzlu oteldə və Naxçıvan şəhərinin servis-xidmət obyektlərində də davam etdirə bilərlər. Hər cür lüks xidmətlərin təklif olunduğu Duzdağ otelinin pəncərələrindən Araz çayı və Ağrı dağı mənzərələri isə bir baqşa təbii zənginlikdir.

Duzdağa tanışlıq və elə həm də müalicə turizmini asanlaşdıran digər bir faktor isə burada mövsümiliyin olmamasıdır. Turizmlə məşğul olanlar və tez-tez turizm səfərlərinə gedənlər mövsümilik amilinin çətinlikləri ilə yaxşı tanışdırlar. Ancaq muxtar respublikanın tranzit və turizm infrastrukturunun buraxılış imkanları ilə bərabər Duzdağın ətraf relyefi və şaxtalar daxilindəkı sabit hava temperaturu burada ilin bütün fəsillərində həvəskar turistlərin mənalı istirahəti üçün əlverişli şərait yaradır.

Müalicə turizmindən fərqli olaraq tanışlıq turizmi çoxlu sayda lüks xidmətlərin təklif olunduğu bahalı turizm növüdür. Yəni, tanışlıq-dərketmə turizminə gələnlər sırf özünün mənəvi zənginləşmə ehtiyacları naminə hər cür təklifə qarşı tələb nümayiş etdirə bilirlər. Bu isə Duzdağ şaxtaları və ətraf əraziləri, ümumiyyətlə isə Naxçıvanın bənzərsiz gözəlliklərindən bir turizm ehtiyatı kimi istifadə etməklə tanışlıq turizminin bir çox yarımnövlərinin inkişafına şərait yaradır. Ölkəmizin və muxtar respublikamızın müasir iqtisadi inkişaf səviyyəsində və Azərbaycan xalqının dərin köklərə əsaslanan milli qonaqpərvərliyi fonunda turistlərə təşkil olunacaq çoxlu sayda pullu xidmətlər, satılacaq hədiyyəlik əşayalar, servislər zamanı nümayiş etdiriləcək yüksək peşəkarlıq qədim insan məskəni Duzdağın həm tarixi-mədəniyyət nümunəsi və həm də şəfa mərkəzi kimi təbliğinə əlverişli şərait yaradır. Bununla, dünya Duzdağı, Naxçıvanı və bütün Azərbaycanı daha da yaxından tanıyacaq.

## ƏDƏBİYYAT


1. Turizmin Manila Bəyannaməsi. 27 sentyabr-10 oktyabr, 1980-ci il
2. Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət proqramı. 6 aprel 2010-cu il.
3. А.Джаббаров, М.Рзаев, Г.Гурбанлы. Дары природы: лечебный туризм в Азербайджане.Опыт и перспективы. Национальный туристский журнал «Туристские Фирмы». Выпуск 45(13), СПб.: Невский Фонд, 2008, с.139-145
4. http://fototraveller.ru/articles/artcountry.php?country_id=3

**Məhsəti İSMAYIL**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Naxçıvan Bölməsi*

## AZƏRBAYCAN FOLKLORUNDA DUZ VƏ DUZDAĞINA BAXIŞ

İnsan həyatı, orqanizmi, sağlamlığı üçün xüsusi əhəmiyyət daşıyan bir neçə maddi nemət vardır ki, onlarsız yaşamaq olmaz. Misal üçün; hava, su, çörək və bu siyahını uzatmaq, əlavələr etmək olar ancaq məqsədimiz tamamilə başqadır. Belə ki, fiziki həyatımıza aktiv girən bir nemət də vardır ki, mənəvi dünyamıza, düşüncəmizə inamlar, ovsunlar, deyimlər, alqışlar şəklində daxil olmuşdur. Bu ağız dadı olaraq bildiyimiz duzdur. Duz insanların təbiətdən hazır şəkildə aldığı məhsuldur. Onun az və ya çox istifadəsi belə zərərlidir. Söz şəklində ifadəsinə gəlincə isə xalqımızın zəngin yaradıcılığı ilə qarşı qarşıyayıq. Folklor toplamaları zamanı rast gəldiyimiz yaşlı qadınlar bəd nəzərdən qorunmaq üçün üzərliklə bağlı inamlara bəzi əlavələr edirdi. Bizi bunların icra olunmasının vacibliyinə inandırmağa çalışırdılar. “İnama görə gözdən qorunmaq üçün üzərlik yandırarlar. Amma gecə od üzərinə üzərlik salmaq olmaz. Çünki, “məlaikələrin” acığı gələr. Gecə nəzərdən qorunmaq üçün ocağa duz atmaq lazımdır”. Yaxud “Ovcunuza aldığınız duzu başınıza üç dəfə fırladıb odun üzərinə atın. Əgər duz ocağa töküləndə yüksək səslə çırtıldayırsa demək sənin nəzərin götürülür” (Novruzova Zəhra Abbasqulu qızı. 1929-cu il təvəllüd. Babək rayonu, Nehrəm kəndi). Onu da qeyd edək ki, duz insandakı mənfi enerjini alır və burada icra olunan ritual şamanizmlə bağlıdır. Həmçinin ovsun xarakteri də daşımaqdadır. Məhz gecə şər qüvvələrdən qorunmaq üçün bu ritual icra olunur. Azərbaycanda insan öləndən sonra arxasınca halva çalınır. Bu mərhumun ruhunun rahatlığa qovuşması kimi də dəyərləndirilir. Hətta “yazıqdı möhtac adama verin avsanata düşsün” şəklində yorumlanır. Çox vaxtı ölü sahibi və ya qohumu mərhumu yuxuda gördüklərini ölənin “nə yaxşı ehsanımı filankəsə verdiniz” şəklində çox razılıq ifadə etdiyini iddia edirlər. Qeyd olunan fikri və sözlü ifadələr insanların digər dünya ilə bağlantı şəklinin görüntü olaraq sərgiləməsidir. Maraqlı cəhət isə odur ki, ehsan hazırlığı sırasında da İslami etiqadı olan insanlar İslamla heç bir əlaqəsi olmayan əski inanclara dayalı “ovsun ritualı” icra etməkdədir. Halva teştləri, süfrələr və halva çalacaq insanlar təmizliyə xüsusi diqqət edirlər. Ehsan üçün ayrılan duz isə dualanır. Yaşlılar “Qurani-Kərim”dən “İxlas” surəsini yeddi dəfə pıçıltılı səslə oxuyur. Bu arada duz davamlı olaraq iki barmaqla götürülüb ovulur. “Dua oxunmuş duz” və ya əsl adı ilə desək “ovsunlanmış duz”a mərhumun adı çəkilir, “filankəsin ehsanı”dı deyərək hazırlanacaq yeməklərə və ya halva çalınmaq üçün hazırlanan umaca tökülür. Bəzən ev sahibi duzu böyük qabda təqdim edir ki, dua oxunmuş duzun qalmışını uzun müddət istifadə etsin. Hələ də öz orijinallığını qoruyub saxlayan Naxçıvandakı yas mərasimlərində əski inamların ritual ayini sıx şəkildə görülməkdədir. Qadınlar məclisində yemək üçün yerdən “yer süfrə”si açılır. Bu insanların Tanrı yaratdığı və bəxş etdiyi nemətlərə əyilməsi minnətdarlıq əlaməti kimi dəyərləndirilməlidir. Yeməklərin bitdiyi zaman süfrədə bir parça çörək və duz saxlanılır. Yenə müqəddəs kitabdan surələr oxunub mərhumun ruhuna bağışlanır. Süfrədəki dualı çörək və duz xəstələrə, uşaqlara verilir. Bəlkə də, çoxları bunun fərqində deyil amma icra olunan bu inam keçmiş inancların İslami etiqadla təqdimidir. Əcdadlarımız duzun qoruyucu və dad keyfiyyətini çox yaxşı bildiyi bəzi ərzaqların saxlanma qaydalarında istifadəsindən aydın olur. Sonra yaddaşında canlandırdığı bu

xüsusiyyəti ilə də ovsuna köçürmüşlər. Ovsunlar ilkin yaddaş məhsulu, yarım dini anlayışdır. Burada nə şamanizm, nə də tək Tanrıçılıq axtarmağa lüzum yoxdur. Hətta intuisiyası güclü olan prototürklər ovsunları qoruyuculuq, artım, bolluq, məhsul verimində istifadə etmişlər. Məlum olduğu kimi, Gəmiqayadakı qayaüstü təsvirlərin bir qismində sırf ovsunlarla bağlı rəsmlər vardır. İlan ovsunu təsvir olunan rəsm və digər ilan təsvirlərindən aydın olur ki, ilan əski zamanlarda mifoloji varlıq sayılmış, həm gerçək heyvan obrazında həm də mifik güc qismi ilə qayaüstü təsvirlərə həkk olunmuşdur.

İcra olunan ilan inamlarından və ovsunlarından biri də evinə girmiş ilanın qarşısına duz qoyaraq öldürməməkdir. Ev ilanlarının ev iyəsi, qoruyucu güc olduğuna inam hissi ilə mənəvi bağ əlaqəsi- "duz" görülür. İyələr gizli, sahiblik qüvvəsi olan, qoruyandır. Duzun da qoruyuculuq xüsusiyyətini nəzərə alsaq, demək, tam ovsun şəklini saxlamamış inamın qoruyuculuq məqsədi daşıdığı aydınlanır. Qoruyucu ev iyəsi (fərqli dünya sahibi və gücü olan) ilə ev sahibi –insan (gizli gücü olmayan, zəif) arasında əlaqə formalaşır. Ahıl insanlarımızın dilindən deyilir ki, Naxçıvanda ta qədimlərdən belə bir deyim də var: "Naxçıvanın qızı, duzu, qarpızı". Bu deyim bizə maraqlı gəlmişdi. "Hər yerdə ola bilər" demişdik. Cavab maraqlı idi. "Naxçıvanın sərt havası var. İnsanı da yetişdirir, məhsulu da burda kallıq olmaz". Duz dağı da dünya durduqca var.

Bir çox hallarda inamlar ovsun ritual ayini ilə qarşımıza çıxır. Xalq arasında çox ağlayan uşaq "baş yeyən" adlanır. Yəni evdən birinin ölümünü istəyir. İnama görə belə uşaq cəzalandırılmalıdı. "Cəza" üsulu və yerinə yetirilən ritual inam şəkli ilə bilinməkdədir. Ağlayan uşaq evin qapısı istiqamətində tutulur. Ağzına duz doldurub ayaqqabının tərsi ilə vurulur. Bununla da ailəni gözləyən fəlakətin qarşısı alınmış sayılır. Bilindiyi kimi ayaqqabını tərs çevirmək, qapı istiqamətində atmaq kimi xeyirə yozulan inamlar da vardır. Duz isə burada qalmağa işarədir. Yəni evdən heç kəsin getməsinə gərək yoxdu. Özbək, qırğız, altay, Azərbaycan türklərində yeni doğulmuş körpə göbəyi kəsildikdən sonra duzlanır. Yəni uşaqlar duzlu suya salınmaqla bir çox xəstəliklərdən qorunacağına inanılmışdır (6, s. 140). İnama görə uşaq gec yeriyəndə suyun kənarına duz basdırarlar. Duz əriyəndə uşaq da yeriyərmiş (7, s. 48). Keçmiş ənənəçiliyin bir neçə forma və quruluşda yaşaması kiçik epizodik olmasına rəğmən inam, tapınma, mifoloji şüur, dini anlayış, dünyagörüşdəki ifadə sərbəstliyi hətta bədii söz obrazlılığına aydınlıq gətirmiş olur. Məlum olduğu kimi Naxçıvanda duz dağı var. Yəni daş duz mədənləri. Bu qiymətli nemət insanların gözündə saflıq və böyüklük simvoludur. Dağ hər zaman qədim türk düşüncəsində böyük və ulu olmuşdur. "Ömrün duz dağına dönsün", "Ömrün duz dağı kimi uzun olsun" alqışı da birinci, uzun ömürlülüyə işarədirsə, ikinci də böyüklük duasıdır. Bu yerin bir neçə ifadə şəkli vardır. "duzdaq", "duzdağ", "duzlaq". Nəzərə alsaq ki, Azərbaycan dilinin qrammatikasında məkani isimlər düzəldən -laq şəkilçisi vardır. (Misal üçün; qışlaq, çaylaq və s.) Demək, duzdaq və ya duzdax sözün fonetik dəyişməsidir. Amma türk dillərindəki l-d səs keçidləri də vardır. Həmçinin digər türk dillərində bu şəkilçi elə -daq olaraq işlənir. Sözün duzdaq variantını əski sayarsaq demək xalq arasındakı ifadə şəkilləri daha məqbul sayılmalıdır. Çünki "duzdaq" və ya "duz dağ" adı ilə bilinən bu yerdə elə də böyük, nəhəng dağ dayanmır. Yerin dərinliyinə işləyən duz mədəni yerin səthi hissəsində kiçik təpə və təpəciklər şəklindədir. Duzdaq duzlu yerdi. Duz dağ isə duzun dağ qədər böyüklüyüdür. Onu da xatırlatmaq yerinə düşərdi ki, dağların yerin dərinliyinə işləyən köklərinin olması yerin dayağı olması kimi fikirlər əski türk

düşüncəsinə xasdır. Mahmud Kaşğarlı əski türkcədə “Tengri tağ birle yerig basurdı”- “Tanrı, dağlarla yeri basdırdı daha sağlam yaptı” kimi ifadələr işlənmişdir.

Bəzi folklor nümunələrinin leksik mənası təbiət elmlərinin sirri ilə aşkar olunur. Beləliklə, “xalqın gözü tərəzidir” deyimi yerinə düşür. Kimyaçı alim B.Rzayev “ömrün duz dağına dönsün” alqışını haqlı olaraq maddənin kimyəvi xassəsi ilə əlaqələndirmişdir. Araşdırmacı xörək duzunun hiqroskopik maddə xüsusiyyətindən bəhs edərək qeyd etmişdir ki, duz nəmi udur və sulanaraq olduğu yerdən səthi üzə doğru hərəkət edir. Hər tərəfində duz layı qalmış quyuya kənardan yağış, qar suları sızaraq duz təbəqələrini sulandırır. O da tədricən quyunun dibinə doğru hərəkət edir. Uzun zaman kəsimindən sonra yenidən duzla dolan quyunun kənarlarından sızaraq səthə çıxır. Alim qədim insanların kimyəvi prosesi heyrətlə qarşıladığını möcüzəvi baxış prinsipini də bu hadisəyə bağlayır. Yəni bu xassəyə görə inam formalaşmışdır. İnama görə isə dağdan nə qədər duz çıxarılmasından asılı olmayaraq duz tükənməzdir. Ömrün duz dağı qədər məcazi ölçüsü də bununla bağlıdır. (9, s. 7) Sust yatağının e.ə.IV-II minilliklərdə istismar olunduğu faktlarına baxsaq kimyəvi xassə və folklorik deyim anlayışlarının birbirini tamamladığının şahidi oluruq. Naxçıvan duz dağı, duz şaxtası maraqlı məkan olaraq da diqqət çəkicidir. Sovet dövründə duz şaxtası ilə bağlı reportaj üçün araşdırma aparan L. Kruqlov yazır ki, duz şaxtasına girdiklərində müşahidə etdiklərindən biri də burada heyrətamiz dərəcədə asanlıqla nəfəs almaları olmuşdur. Şaxtada havanın temperaturu və nəmliliyi, atmosfer təzyiqi, havanın tərkibində oksigenin miqdarı həmişə sabitdir. Burada çalışan insanlar qrip və ağciyər xəstəliklərinə tutulmurlar (5, s. 2).

Duzun möcüzəvi gücü şifahi ədəbiyyatda bir çox janrlarda var. Bir rəvayətdə deyilir ki, padşahın qızı ağır xəstəliyə düçar olur. Loğmanlar dərdinə dərman tapa bilmir. Padşah qızının bu halına çox üzülür. Onun göz yaşları qurumaq bilmir. Padşah övladının ölümünü görməmək üçün əmr edir ki, onu aparıb gözdən uzaq bir yerə qoysunlar. Belə də edirlər. Şahın adamları getdikdən sonra qız tək tənha qalır. O, ətrafa boylanır, nəfəs almaqda çətinlik çəkir. Boğulur, sinəsindəki ağrıdan yerə uzanıb torpağı yalayır. Aradan bir neçə gün keçdikdən sonra padşah adamlarını göndərir ki qızı dəfn etsinlər. Gələnlər gözlərinə inanmır. Qız gümrah bir şəkildə qarşılarında durmuşdu. Qız bu torpaq mənim məlhəmim oldu, deyir. Sahə mütəxəssisləri duzla müalicədə məhz Naxçıvan şaxtalarını uyğun görürlər. Rəvayətin məzmunu kimya, tibb, fizika kimi dəqiq elmlərin əsası ilə sübut olunur. Belə ki, şaxtalar yer səthi ilə eyni səviyyədə yerləşmişdir. Belə olan halda buraya əlavə hava vurmaq gərəksizdir. Səbəbi isə hava vurularsa ionlaşmış duz komponentləri və duz hissəcikləri də (aerozollar) çıxarılmış olur. Yəni havada olan duz hissəcikləri mikrob törədilməsinin qarşısını almış olur. Mütəxəssislər adi havanın hər kubmetrində çox sayda irintörədən mikroblar olduğunu bildirir (4, s. 4). Məhz bu səbəbdən də bu məkan astma xəstəliyinin müalicəsi üçün əlverişlidir.

Babək rayonu, Vayxır kəndində 89 yaşlı Sura nənə hər zaman yastı kristal duz daşları ilə ayaqlarını, bədənini sürtdüyünü söyləmişdi. O, inanır ki, məhz bu vərdiş nəticəsində ayaq və bel ağrılarına tutulmamışdır. (Seyidova Sura Mirqədir qızı, 1916-cı il təvəllüd, təqaüdçü, Babək rayonu, Vayxır kəndi).

Naxçıvan şəhər sakini Lətif Hüseynzadədən topladığımız “Nuhun oğlu” rəvayəti də duz yataqları ilə bağlıdır. Rəvayətdə deyilir: “Türk bırda 220 il yaşıyıp. Türkün 4 oğlu olupdu. Oğlannarının birisinin adı Tutukdu, biri Xəzərdi, birisinin adı Əlincədi. Əlincə qala onun adıynandı. Əlincə uzun müddət bırda yaşıyıp. Türkün özü də uzun müddət bırda yaşıyıp. Oğlanlarının birisi Tutuk ava gedipmiş. Tutuk avdan gələndə

duzdağ təpələrinin üstündə adamlarıynan kabab eliyiblər. Bir yaxşı tikəsi əlinnən yerə düşüp. Yerə düşənnən sora o baxıp ki, yaxşı ətdi götürüp. Yeyip görüp daha da daddanıbdı. Deмəhnən orda duzdanıp. Beləlihlə duz mədəni tapılıp" (Lətif Hüseynzadə Talıb oğlu, 1903-cü il təvəllüd, ziyalı, ədəbiyyatşünas, Naxçıvan şəhəri).

Azərbaycan nağıllarının birində deyilir ki, padşahın kiçik qızı "ata mən səni duz kimi sevirəm" dediyinə görə cəzalandırılır. Amma hadisələrin sonrakı gedişatı sübut edir ki, kiçik qız çox ağıllıdır. İnsan orqanizmi duzsuz bir çox xəstəliklərə düçar olar. Kimyaçı alim F. Məmmədova araşdırmalarında qeyd edir ki, orqanizmdə duzun çatışmaması depressiya, maddələr mübadiləsinin pozulması, qidanın çətin həzm olunması, zəhərlənmə simptomları, hətta ölüm halları əmələ gətirir. Canlı orqanizmlərin maddələr mübadiləsində natriumun rolu çox böyükdür. Onun birləşmələri qanın tərkibinə daxil olur, osmotik təzyiqin tənzimlənməsinə kömək edir, su balansının saxlanmasında iştirak edir. Natriumun əsas mənbəyi isə xörək duzudur (8, s. 3) Xalq inamlarında deyilir ki, xəstənin yanına duz, çörək, kömür qoymaq lazımdır (2, s. 151). Göründüyü kimi, duzun tərkib xüsusiyyəti bütünlükdə folklor mətnlərində ifadə olunmaqdadır. Şifahi yaddaşda duzun ovsun kimi istifadəsi mərasim folklor nümunələrində də verilmişdir:

Çömçəxatun duz istər,
Çiçək dolu düz istər.
Havaları buludlu,
Bol yağışlı yaz istər (1, s.40)

Ovsun nəğmələrinin birində isə deyilir:

Bir ovuc duz,
Ocaqda qız.
Yanıb kül olsun,
Balama dəyən göz (1, s.102).

İnama görə arzu olunmayan qonağın ayaqqabılarına duz səpilsə o, tezliklə çıxıb gedər (1, s. 112).

Tanrı neməti anlayışı ilə qavranılan duz alqış və qarğışlarda antonim fikirlərlə ifadə olunur. Allah süfrənizdə duz-çörəyi həmməşə bol eləsin (3, s. 116); alqışının antonimi "duz-çörək tapmayasan" (1, s.223) qarğışı deyilib. Bu ardıcıllıqla bir neçə nümunəni də təqdim edirik;

- Duz-çörək sənə halal olsun
- Duz-çörək gözünü tutsun
- Duz-çörək kəsdiyindən xeyir görəsən
- Duz-çörək sənə qənim olsun
- Duz-çörək evindən qaçaq düşsün (1, s.223)

Duz və çörək orqanizmin sağlamlığı üçün lazım olan komponentlərdəndir. İkisinin paralel ardıcıllıqla verilməsi maddi anlam daşıyan duzun və çörəyin maddi mənəvi tutumunu, əski düşüncədəki inam yerini, ovsun xarakterini və onun mahiyyətini aydınlaşdırır.

## ƏDƏBİYYAT


1. Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası. Bakı: 2004, Çaşıoğlu, 576 s.
2. Azərbaycan mifoloji mətnləri. Bakı: 1989, Elm, 196 s.
3. El sözü-yurd yaddaşı (toplayıb tərtib edən M.İsmayıl) Bakı: Elm, 2010, 168 s.
4. Hacıyev Ə. Nağıl həqiqət olur. "Azərbaycan gəncləri" qəz., 1986, 3 iyul.
5. Kruqlov L. Duzun dəyəri. "Şərq qapısı" qəz., 1979, 5 may.

6. Qədirzadə H. Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
7. Qədirzadə T. İslamaqədərki adətlər, inamlar və mərasimlər. Bakı: Nafta-press, 2006, 120 s.
8. Məmmədova F. Xörək duzunun sirri. "Şərq qapısı" qəzeti. 2006, 1 iyun.
9. Rzayev B. "Ömrün duz dağına dönsün" yaxud bir xalq deyiminin izi il. "Şərq qapısı" qəz., 2003, 26 aprel.

**Söyləyicilər**

Seyidova Sura Mirqədir qızı, 1916-cı il təvəllüd, təqaüdçü, Babək rayonu, Vayxır kəndi.

Novruzova Zəhra Abbasqulu qızı.1929-cu il təvəllüd. Babək rayonu, Nehrəm kəndi.

Lətif Hüseynzadə Talıb oğlu, 1903-cü il təvəllüd, ziyalı, ədəbiyyatşünas, Naxçıvan şəhəri.

**Нана ХАХУТАИШВИЛИ**
*Кандидат исторических наук,*
*Батумский государственный университет имени Шота Руставели*

# ДРЕВНЕКОЛХИДСКАЯ ЖЕЛЕЗНАЯ МЕТАЛЛУРГИЯ ЧОРОХСКОГО БАССЕЙНА (ПО ДАННЫМ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК ПОСЛЕДНИХ ЛЕТ)

Исследование древнейшей железной металлургии является одной из сложнейших проблем исторической науки. Интерес данного вопроса обусловлен тем особым значением, какое железо выполняло в жизни древнего общества. Даже сегодня являются спорными и требуют ответа вопросы: как впервые человек ознакомился с железом, где, когда и кем был освоен впервые данный металл.

По истории ранней металлургии железа и первородине возникновения сидерургии опубликовано множество работ, предложено огромное количество гипотез и предложений. Несмотря на это, проблема о первородине зарождения производства железа далека от своего решения. Множество логических построений, предложенных в разное время разными, нередко авторитетными, учеными, подчеркивало лишь актуальность и научную остроту данной проблемы, но мало что прибавляло к ее решению. В этом плане, значительных результатов достигли грузинские ученные. На территории исторической Колхиды, с территории Гонио до приступов Большого Кавказа ими был зафиксирован и изучен уникальный центр древнего производства железа II- I тысячелетии до н.э. (железоплавильные мастерские, хорошо датированные железоплавильные печи, отвалы железных шлаков и т.д.).

В результате проведенных за последние 60 лет изысканий грузинскими ученными, удалось установить, что в предантичной Колхиде существовал мощный для своего времени центр железного производства, который насчитывал более 400 объектов, сгруппированных в виде 5 основных производственных очагов (в районе бассейна рек: Чорохи, Чолоки-Очхамури, Чаквисцкали, Супса-Гувазеули и Хоби-Очхомури) расположенных в предгорной полосе Восточного Причерноморья (историческая Колхида) (Хахутаишвили 1987: 41-178).

Изучение чорохского производственного очага Колхидского центра древнежелезной металлургии началось в 1961 году (И. Гзелишвили, Д. Хахутаишвили ) (И. Гзелишвили 1964: 38-52) и было продолжено до 1979 года (Д. Хахутаишвили) (Хахутаишвили 1964: 45-58;Хахутаишвили 1987: 41-178). В следствие археологических разведок здесь было выявлено более 50 объектов древнежелезного производства, шесть из которых («Чарнали I», «Чарнали II», «Чарнали III») было изучено. Самая ранняя железоплавильная мастерская была датирована XI веком до н.э. а самая поздняя- VIII-VII вв до н.э. (Челидзе 1977: 142-145). Памятники расположены в полосе левобережья нижнего течения р. Чорохи (Акампсис -античных авторов) и разбросаны по холмам и склонам предгорной полосы, вблизи района слияния отрогов Месхетского и Лазистанского горных массивов.

Примечательно, что данная зона предгорья насыщенна залежами огнеупорных и тугоплавких глин имеющих повышенную стойкость к высокой

температуре. Данный участок Припонтийского региона был покрыт пышными лесными масивами, богатыми древесиной, необходимой, как топливо для металлопроизводства. А вся новочерноморская терасса изобиловала магнетитовыми песками( Минеральные ресурсы 1935: 244-257). Установлено, что приморские пески Западной Грузии от Гонио до Гагры и далее содержат значительное количество (от 10 до 60%) Магнетита. По минералогическому составу эти пески представляют собой смесь зерен магнетита, титано-магнетита, ильменита и т.д.(Природные ресурсы 1958: 83) Таким образом, наличие запасов огнеупорных глин, изобилие горючего разных видов и залежи магнетитовых песков создавали ту базу, на которой возник очаг древнего сыродутного железопроизводства. Ведь не без основания Чорохский бассейн считается одним из основных центров древней цветной металлургии Ближнего Востока, а приморье Юго-Западной Грузии-регионом, где формировалась общеизвестная позднебронзовая колхидская культура (Джапаридзе 2003, Хахутаишвили Н. 1987).

В 2001 году было возобновлено изучение древнежелезного очага чорохского бассейна. В течение последних лет здесь было выявлено и изучено несколько мастерских условно названных нами «Авгиа I», «Хобчо I» и «Хобчо II» по месту расположения.

Железоплавильная мастерская «Авгиа I» была обнаружена на левом берегу р. Чорохи, в районе крепости Гонио-Апсарос, в 3-3.5 км от прибрежной полосы, на мысообразном холме, покрытом диким субтропическим кустарником и имеющем северо-восточную экспозицию (рис. 1, таб. I-II). Породы данной территории составляют оглинившиеся туфогенные образования третичного возраста, над которыми залегают желтые делювиальные глины мощностью в 2 и более метра.

Археологические раскопки проводились на участке площадью 320 кв.м. здесь были выявлены остатки двух железоплавильных печей (таб.II, рис. 3-5), развалины составного каменного стола-наковальни («сажепела») предназначенного для первичной обработки деревянными колотушками крицы вынутой из железоплавильной печи (рис. 1, таб. I) и навал производственных отходов (таб.III-V, рис.6-8).

Железоплавильная печь «Авгиа I-1» была устроена в яме, имевшей форму усеченной, перевернутой пирамиды. Верхняя часть печи была облицована рваными камнями, а нижняя-толстым слоем раствора огнеупорной глины. Внутреннее пространство печи было заполнено фрагментами железного шлака, глиняной обмазкой печи, опавшими камнями от конструкции печи, кусками сопел воздуходувных мехов и фрагментами безликих гончарных изделии (рис.6-7, таб.III-V). Высота печи-108 см, ширина: у поверхности-80 см, в середине-50 см, у дна-10-15 см. На расстоянии 90 см от первой печи была обнаружена другая печь («Авгиа I-2») аналогичной конструкции. Внутреннее пространство данной печи было заполнено древесным углем и золой перемешанной с глиной. По – видимому, эта печь уже не функционировала и ее использовали для хранения угля. Высота печи-108 см, ширина: у поверхности-120-150 см, в середине-58 см, у дна-50 см. Южнее был обнаружен стол-наковальня. Он состоял из двух частей: одна часть была облицована каменным настилом (210 смХ140 см), а другая часть была выложена черепками (430 смХ150 см). Длина всего стола 570 см, а ширина-210-150см. Навал производственных отходов был представлен на северном и

северо-западном склоне холма, недалеко от печи. В навале были представлены: большое количество кусков шлака с «густой» патиной сероватого цвета, характерной для шлаков предантичного времени, фрагменты глиняной обмазки печи сероватого (пепельного) цвета и сопел воздуходувных мехов красноватого цвета. По объему навала можно предположить среднюю мощность мастерской.

Найденные в печах образцы древесного угля, с помощью немецких коллег, были отправлены для датировки в Германию. Вследствие полученного ответа одна печь-мастерская функционировала в X-VIII вв до н.э. а другая - в IX-VII вв до н.э.( Khakhutaishvili N. 2005: 80-88).

В двух километрах от данной мастерской, на левом берегу р. Чорохи, в лесу, где когда-то проходила соединяющая с Турцией нелегальная дорога, названная местным населением «дорога Хобчо», были обнаружены две железоплавильные мастерские названные нами условно «Хобчо I» и «Хобчо II».

Мастерская была расположена на холме, имеющем западную экспозицию. У подножья холма, с двух сторон протекали безымянные ручьи. мастерская «Хобчо I» была представлена остатками двух железоплавильных печей (таб. VI-VII, рис. 9, 11-12), развалинами составного каменного стола-наковальни («сажепела») (таб. VI) и навалом производственных отходов (таб. VI, рис.10,13).

Железоплавильная печь «Хобчо I-1» была типичной конструкции, имеющей форму усеченной перевернутой пирамиды и характерной для Чорохского бассейна. Верхняя часть печи была облицована большими камнями неоднородного происхождения, а нижняя - представляла собой сферическое углубление, обмазанное толстым слоем раствора огнеупорной глины. Таким же раствором была обмазана и вся внутренняя поверхность печи. Внутреннее пространство печи было заполнено кусками железного шлака, фрагментами сопел воздуходувных мехов, глиняной обмазкой печи, опавшими камнями от конструкции печи и фрагментами гончарных изделии (рис.6-7, таб.III-V). Высота печи-110 см, ширина: у поверхности-104 см, в середине-75 см, у дна-45 см. На расстоянии 130 см от первой печи была обнаружена другая печь (« Хобчо I-2») аналогичной конструкции. Внутреннее пространство данной печи было заполнено древесным углем и золой. По-видимому эта печь также не функционировала и ее использовали для хранения угля. Высота печи-105 см, ширина: у поверхности-125 см, в середине-82 см, у дна-75 см. Недалеко, на расстоянии 100 см. был обнаружен стол-наковальня. К сожалению, при прокладке дороги он был частично разрушен. Сохранилась лишь небольшая, выложенная черепками часть. Навал производственных отходов был представлен на большой территории: большим количеством шлака, фрагментами глиняной обмазки печи и сопел воздуходувных мехов (таб. VI, рис.10,13, 15). Судя по объему навала, мастерская была мощной.

По другую сторону дороги была обнаружена мастерская «Хобчо II» (таб. VI). К сожалению, железоплавильные печи данной мастерской, при прокладке дороги, были разрушены. Сохранился лишь стол-наковальня выложенный большими камнями (рис.14).

Образцы древесного угля, обнаруженные на территории железоплавильных мастерских, предоставили возможность их датирования. Взятые для радиоуглеродного анализа образцы были переданы немецким коллегам из института Археометаллургии г. Бохуми. По полученным итогам

железоплавильная мастерская « Хобчо I» была датирована XI-X вв до н.э., мастерская «Хобчо II»– XV-XI вв до н.э.

Новые раскопки металлоплавильных мастерских дали возможность расширить ареал действий древних колхов, занимающихся железной металлургией в эпоху раннего железа. В свете новых исследований, все более убедительными выглядят позиции грузинских ученных, что Древняя Колхида занимала одно из ведущих мест в зарождении и развитии ранней металлургии железа. По-видимому, развитие железного производства в Колхиде было обусловлено, как растущим спросом на железо в местном хозяйстве, так и на внешнем рынке.

## ЛИТЕРАТУРА


1. Гзелишвили И.А. Железоплавильное дело в Древней Грузии, Тбилиси, 1964
2. Джапаридзе О.М. К истокам истории Грузии, Тбилиси, 2003
3. Инанишвили Г, Сакварелидзе Т. Некоторые технологические особенности железоплавильного производства в древней Колхиды, Тбилиси, 1987
4. Микеладзе Т.К. Исследования по истории древнейшего населения Колхиды и Юго-Восточного Причерноморья, Тбилиси, 1974
5. Минеральные ресурсы Грузии, Тбилиси, 1935
6. Природные ресурсы Грузинской СССР, Тбилиси, 1958
7. Рамишвили А.О. О назначении стоянок с «текстильной керамикой» Восточного Причерноморья, СА, N 4, Москва, 1975
8. Хахутаишвили Д.А. У истоков колхидской металлургии железа. «Памятники Юго-Западной Грузии», I, Тбилиси, 1964
9. Хахутаишвили Н.Д. Приморье Юго-Западной Грузии в эпоху раннего железа, Тбилиси, 1987
10. Хахутаишвили Д.А. Производство железа в древней Колхиде, Тбилиси, 1987
11. Khakhutaishvili N.D. Development of iron metallurgy in West.

**Əkrəm HÜSEYNZADƏ**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Naxçıvan Bölməsi*

# NAXÇIVAN FOLKLOR NÜMUNƏLƏRİNDƏ DUZLA BAĞLI BƏZİ MƏSƏLLƏR VƏ ŞƏRHİ

Naxçıvan qədim və zəngin mədəniyyətə malik olmaqla, bəşər sivilizasiyasının, şəhər mədəniyyətinin ilk beşiklərindən biri kimi həmişə regionun mədəni, iqtisadi həyatında mühüm yer tutmuş və özünün zəngin arxeoloji, etnoqrafik, xüsusilə folklor qaynaqları ilə tədqiqatçıların diqqətini cəlb etmişdir.

Naxçıvan diyarının qədimliyi, ümumtürk mədəniyyəti ilə sıx bağlılığı, özünəməxsus zəngin mədəniyyəti və ədəbiyyatı Naxçıvan folklor mətnlərində öz parlaq əksini tapmışdır. Deyə bilərik ki, xalqın ilkin mədəniyyəti, mənəviyyatı, əxlaqı, ilkin düşüncə tərzi, dünyaya, həyata sistemli baxışı folklor nümunələrindən başlayır və bu nümunələrdə öz müdrik ifadəsini tapır. Azərbaycan folklorunun tərkib hissəsi olan Naxçıvan folkloru öz zənginliyi, qədimliyi, orijinallığı və xüsusilə semantik anlamı ilə həm filoloji, həm də elmi-ictimai əhəmiyyəti ilə xüsusi olaraq diqqət kəsb etməkdədir.

Naxçıvan folklorunu dərindən öyrənməyi, ciddi tədqiq etməyi Ulu Öndərimiz Heydər Əliyev bir vəzifə kimi qarşıya qoymuşdur. O, 2002-ci ildə AMEA-nın Naxçıvan Bölməsinin açılışında etdiyi çıxışında qeyd edirdi ki, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir... Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. “Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür” (1, 17).

Naxçıvan folklor nümunələri bu regionun tarixini, mədəniyyətini, adət və ənənələrini, insanlarının həyat tərzi və məişətini, inancını, mifik və real təfəkkürünü əks etdirir.

Naxçıvan tarixən həm də ən qədim, ən zəngin və ən “dadlı” duz məkanıdır. Duzla müalicəxanalar, duz mağaraları, duz daş baltaları bu məkanda tapılmışdır.

Naxçıvanda duzun istismarı daş dövrünə gedib çıxır. 1870-ci ildə arxeoloji qazıntılar zamanı buradan tapılmış daş baltalar, daş alətlər, külünglər də bunu təsdiq edir. Naxçıvan duz dağından tapılmış daş baltalar Naxçıvan muzeyinə, Sankt- Peterburq və Tiflis muzeylərinə göndərilmişdir.

Deyilənə görə, hələ 6 min il əvvəl – Nuh-Nəbi dövründən buradan duz çıxarılıb. Şöhrəti dünyaya səs salan “İpək yolu”ndan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə “Duz yolu” uzanıb. Həmin ölkələrə-xüsusilə Şumerlərə buradan duz daşınıb. Şumerlərdə duz müqəddəs sayılıb, duza səcdə etmişlər. Şumer əfsanəsi ilə Gəmiqaya, Nuh tufanı əfsanəsi üst-üstə düşür. Türkiyəli şümeroloq tədqiqatçıların araşdırmalarına görə Şümer Kəngər sözündən yaranmışdır. Şümerlər özlərinə Kəngər demişlər. Kəngərlilər isə Naxçıvanda yaşamış, bu gün də Naxçıvanda Kəngərli soyadı, Kəngərli royonu mövcuddur. Atı əhilləşdirənlər, arabanı kəşf edənlər Kəngərlilərdir ki, Gəmiqaya rəsmlərində iki təkərli və dörd təkərli araba, at və atlı rəsmləri vardır. (7,13). Heç şübhəsiz bu arabalardan bir nəqliyyat vasitəsi kimi istifadə edilmiş və Şumerlərə bu arabalar vasitəsilə duz daşınmışdır.

Məlumatlara görə, 1866-cı ildə Naxçıvanda 11 min ton duz çıxarılırdı. 1880-cı illərdə isə Naxçıvanda orta hesabla hər il 4800 ton duz istehsal edilirdi.

Qədim Naxçıvanın ən möcüzəli yerlərindən bir olan Duzdağın hər bir qarışında, dağında, daşında sirli-sehrli tarixin izləri gizlənib. Bu yer haqqında xeyli elmi və publisistik məqalələr yazılsa da, duzla bağlı Naxçıvan folklor nümunələrinin toplanması, araşdırılması həm folklorşünaslığımız üçün dəyərli mənbə olub, onu zənginləşdirər, həm də bu tarixi yerin öyrənilməsinə və ümumiyyətlə isə Naxçıvan diyarının daha geniş və ətraflı öyrənilməsinə bir kömək olar.

Duzla bağlı ən zəngin folklor materialları da Naxçıvandadır. Buradakı Duz dağ uzun əsrlər boyu insanların qida təminatını ödəmiş və hələ 1000 illər boyu da bu Duz dağ insanların xidmətində olacaqdır. Duz insanların ən lazımlı qida məhsuludur. Duzsuz yaşamaq olmaz. Qədim vaxtlarda Hollandiyada məhbusları cəzalandırmaq üçün onlara duzsuz yemək verərdilər. Nəticədə adamlar bir neçə aydan sonra həyatla vidalaşırdılar. Bu onu göstərir ki, duz olmadan yaşamaq mümkün deyildir.

Duzdağdan açıq üsulla duz çıxarılması XX əsrin ortalarına qədər mövcud olub. Yaşlıların söylədiyinə görə, ətraf kəndlərin əhalisi kənardan açıq şəkildə görünən duz laylarını qırıb götürmüş, bəzən çox da dərin olmayan oyuqlar, lağımlar qazmışlar. El arasında hər kəsin açdığı lağım bəlli olmuşdu, yəni heç kəs başqasının açdığı lağıma girməzdi.

Bəzi rəvayətlərdə Duzdağdan Qaraquca (Qaravuşa) qədər yeraltı yol olduğu da bildirilir. Düzdür, bu fikirlər rəvayət olsa da, unutmaq olmaz ki, onlar xalq arasında söylənilən müəyyən məlumatlara söykənir. Ərazidəki daş alətlər, keramika və obsidiand qırıqları buranın qədim tarixə malik bir yer olduğunu təsdiq edir.

Tarixdə duzun ilk dəfə kəşf olunması Naxçıvan diyarına məxsusdur. Duzu ilk dəfə mətbəxə gətirən türklər olmuşdur. Belə rəvayət edirlər ki, Nuh peyğəmbərin nəvəsi Türk xanın oğlu Tütək xan duz dağ ərazisində ət yeyərkən tikəsi yerə düşmüş, qaldırıb tikəni yedikdə tikənin daha dadlı olduğunu duymuşdur. Ona məlum olmuşdur ki, bu duzdur. O vaxtdan duz mətbəxdə istifadə edilməyə başalmışdır (6).

Naxçıvan atalar sözlərində duzla bağlı xeyli atalar sözləri, bayatılar, xalq təbabəti, əfsanə və rəvayətlər mövcuddur.

Bu barədə bir neçə atalar sözünə və onların açıqlamasına nəzər sala bilərik: “Hələ duza gedir” (4). Açıqlamasını belə izah etmək olar: Bir insan hələ xamdır, həyat çətinliklərini görməmiş, duza gedib oradan duz gətirməyin ağırlığını hələ dərk etməmişdir.

“Axşamdan duza gedən çox olar” (4). Açıqlaması belədir:
Bəzən düşünüb-daşınmadan, işin ağırlığını dərk etmədən əvvəlcədən söz verənlər çox olur. Amma işin ağırlığı ağıla gəlincə, onun məsuliyyəti dərk edilincə işdən qaçılır. Axşamdan verilən söz, səhər unudulur və müxtəlif bəhanələrlə işdən qaçınır.

“Dəvəni toya çağırırlar. O da ağladı ki, məni ya Naxçıvana duza göndərirlər, ya da Bərgüşada - düyüyə” (3, 43). Bu atalar sözü də duzun ağırlığından, daşınmasının zəhmətli iş olduğundan xəbər verir. Ona görə də deyirlər “ Qız yükü, duz yükü”. Duz yükü ağır olduğundan, qız tərbiyə edib, böyüdüb, başa çatdırmaq da bir o qədər ağır işdi.

“Bir gün duz yediyin yerə qırx gün salam ver” (3, 275). Açıqlaması belədir:

Yəni heç vaxt nankorluq etmə, sənə xeyir verən insanlara, yerlərə, məkanlara sədaqətli ol. Yediyin məhsula hörmətlə yanaş. Sənə edilən yaxşılığı unutma və onun qədrini bil. Bu atalar sözünə bənzər daha bir atalar sözü də var ki, onun semantikası elə

dediyimiz anlamdadır.”Duzu yeyib, duzdağı buluyan...” (3, 279). Yaxud da deyilir: “Duz, çörək haqqını bilməyən kor olar”(4).

“Duz duzlaqda, eşşək naxırda”(4). Açıqlamasını isə belə izah etmək olar:

Hələ heç bir real iş görülməmiş və görüləcək iş üçün də əsaslı bir zəmin hazırlanmamışdır. Amma, gələcəkdə görüləcək iş haqqında şirin söhbətlər edilir, məsələlər həll olunur. Halbuki ortalıqda hələ heç nə yoxdur.

Duzla bağlı deyimlər də vardır: “Duz –çörək kəsmək”- xalq deyimi də Naxçıvan regionunda geniş işlənməkdədir. Duz və çörək xalqın ən müqəddəs nemətidir. Duz, çörək həmişə qorunmalıdır. Duz-çörək evin bərəkətidir. Bu o anlamda işlədilir ki, kimlə müqəddəs duz –çörək kəsilirsə, birlikdə yemək yeyilirsə, o adama sədaqətli olmalı, ona hörmətlə yanaşılmalıdır. Əlbəttə hər adamla da “Duz-çörək” kəsmək olmaz, bu ölçülüb biçilib, düşünülməlidir.

“Əlimin duzu yoxdur” (4)- deyimində bir insan başqalarına etdiyi yaxşılıqlar, qayğılar başa düşülməyəndə, ona qarşılıq vermədiyində işlənə bilir.

“Naxçıvanın duzu, qızı, qarpızı” (4). Bu Naxçıvan deyimində də Naxçıvan duzunun tərifləNməsi açıq – aydın görünməkdə və həmçinin Naxçıvan qız-gəlininin təriflənməsi, habelə burada dadlı qarpız yetişdirilməsinə işarədir.

Bütün bunlar Naxçıvanın iqtisadiyyatı, həyat tərzi ilə əlaqədar, insanların həyat təcrübələri ilə bağlı duzla əlaqədar deyilmiş atalar sözləridir.

Duzla bağlı Naxçıvan bayatıları da vardır. Onlara da nəzər salaq və semantik şərhinə diqqət yetirək:

Naxçıvanın duzu var,
Büllur kimi duzu var.
İki könül bir olsa,
Kimin ona sözü var (3, 354).

Folklorşünas alim R.T.Babayev bayatının izahını belə şərh edir ki, qız-gəlinin xörəyin duzunu artıq etməsi nişanlısını, ərini çox sevməyinə işarədir (5,17). Deməli, duzla bağlı informasiyadan sonra “bir olan iki könül”dən danışmaq da təbiidir.

Başqa bir bayatıda belə deyilir:

Naxçıvanın duz dağı,
Duz təpəsi, duz dağı.
Çəkdi yar sinəm üstə,
Dağ üstündən yüz dağı (3, 333).

Bu bayatıda sevgidə, eşqdə əzablara, çətinlkilərə qatlanan bir aşiqin ürək yanğılarıdır ki, bu da “duz dağı”, “duz təpəsi” ilə müqayisə edilir.

Duz həm də xalqın inanc yeri, inamı olmuşdur. Ona görə də “Duz haqqı” ifadəsi də işlənməkdədir. Yaxud deyilmişdir: “Duz yerə töküləndə savaş olar, gərəh duzun üstünə qənt qoyasan”(3, 41).

Duz insanların and-aman yeri olmuşdur. “.... bu duz-çörək mənə qənim olsun...”–demişlər.

Duz - xüsusilə qız-gəlinlər üçün istəkli, şirin, gözəgəlimli mənasında işlədilir. “Çox duzlu gəlindir”, “Nazlı - duzlu qızdır” və s.

Duzla bağlı tapmacalar da vardır: “Məni tək yeməzlər, mənsiz də yemək olmaz” (duz).

Duzla bağlı yuxu yozumunda deyilir: “Yuxuda duz görənin və ya duz daşıyanın, reallıqda dişi ağrıyar”(4).

Duz xalq təbabətində də işlənməkdədir: “Diş ağrıyanda yerinə duz bas və duzla

qarqara et" və s.

Duzla bağlı bir nağılı da ixtisarla nümunə kimi verə bilərik: "Duz qədər sevgi... Bir hökmdarın bir-birindən gözəl üç qızı vardı. Sonuncu qızı o biri qızlardan çox fərqli idi. Həm ağıllı, həm də atasını çox sevirdi. O biri iki qız atasının var-dövlətini hər şeydən üstün tuturdu. Bir gün atası qızları çağırıb onlardan: Məni nə qədər sevirsiniz?- deyə soruşur. Böyük qız cavab verir: Atacan, mən səni var-dövlətin qədər sevirəm. Atası onun cavabından razı qalıb onu varlı bir tacirə ərə verir.

Sonra ikinci qızdan soruşur: Məni nə qədər sevirsən? Atacan, səni həyat qədər sevirəm. Padşah bu qızın da cavabından razı qalıb onu o biri ölkənin padşahına ərə verir.

Nəhayət, növbə gəlib üçüncü qıza çatır. Atası ondan soruşur: Qızım, məni nə qədər səvirsən? Qız atasına: Ata, səni duz qədər sevirəm-deyə cavab verir. Atasının ona acığı tutur. Onu kasıb bir pinəçiyə ərə verir.

Aradan üç il keçir, atası qızların evinə qonaq gedir. Əvvəlcə böyük qızıgilə gedir. Böyük qızı atasını çox soyuq qarşılayır. Ata büruzə verməyib saraya qayıdır. Növbə ikinci qıza çatır. O da böyük bacısı kimi atasını çox soyuq qarşılayır. Ata bunu da büruzə verməyib qayıdır. Padşah bunları gördükdən sonra kiçik qızı haqda çox düşünür. Hazırlaşıb onlara getməyi qərara alır. Kiçik qız atasını görüb çox sevinir. Evdə olanlardan həvəslə hazırlayıb atasına gözəl bir süfrə açır. Amma bişirdiyi yeməklərin heç birinə duz atmır. Padşah yeməklərin duzsuz olduğunu biruzə vermir. Kiçik qız yeməklərin necə olduğunu soruşanda padşah deyir: Yaxşıydı amma, elə bil heç birinə duz tökməmişdin.

Qız gülümsəyərək atasına: Atacan yadındadırsa məndən soruşanda səni duz qədər sevdiyimi söyləmişdim. Səninsə mənə acığın tutmuşdu. Bax indi bildinmi ki, duzsuz heç nəyin dadı yoxdur. Bu fani dünyada istəklərimiz heç bir şeylə ölçüyə qoyulmamalıdır. Hökmdar bu sözləri eşidib onları sarayda yaşamağa dəvət edir. Bütün var-dövlətini kiçik qızına miras qoyur" (4).

1970-ci illərdə Naxçıvan duz mədənində aparılan arxeoloji qazıntılar, tədqiqatlar nəticəsində burada böyük duz mağarası aşkar olunmuşdur ki, buranın ən qədim duzla müalicəxana məkanı olduğu müəyyənləşdirilmişdir. Avropaya XIX əsrdə duzla müalicə üsulu məlumdursa, Naxçıvanda bu ən qədim dövrlərdən mövcud olmuşdur. Müəyyənləşdirilmişdir ki, duz mədənində çalışanların heç birində bronxit və ya asma kimi ağciyər xəstəlikləri yoxdur.

1979-cu ildən Naxçıvan Muxtar Respublikası "Duzdağ" Fizioterapiya xəstəxanası 50 çarpayılıq xəsətəxana kimi Naxçıvan Duz Mədəninin bazasında fəaliyyətə başlamışdır ki, bu gün bu şəfa ocağı daha da genişlənmiş və dünyanın müxtəlif ölkərindən bura xəstələr gələrək təbii şəkildə Naxçıvan duzu, iqlimi, təbii havası ilə müalicə olunaraq öz dərdlərinin şəfasını tapırlar.

Bütün bunlar bir daha göstərir ki, Naxçıvan qədim diyar olmaqla yanaşı, həm də Naxçıvan ilk duz məkanı, ən dadlı və faydalı duz diyarı kimi yaddaşlarda əbədi yaşayacaqdır.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə giriş nitqi / Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Bakı: Nurlan, 2005.
2. Naxçıvan Ensiklopediyası. 2 clddə. I cild, Naxçıvan: 2005.

3. Naxçıvan folkloru. I cild. Naxçıvan: Əcəmi, 2010
4. Folklor toplama materialı. (Ə.R. Hüseynzadə ). Naxçıvan: 2010-2012 –ci illər.
5. Babayev R.T. Azərbaycan folklorunun regional xüsusiyyətləri (Naxçıvan folkloru əsasında). Filologiya üzrə fəlsəfə doktoru dissert. avtoreferatı. Naxçıvan: 2009, 24 s.
6. Əbülqazi Bahadur Xan. Şəcərəye-Tərakimə. Bakı: 2002.
7. Hüseynzadə Ə.R. Folklor mətnlərində adların semantikasi (Naxçıvan folkloru əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Naxçıvan: 2012

**Əlövsət QULİYEV**
*Kənd təsərrüfatı elmləri doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# DUZDAĞ DUZ MƏDƏNİ ƏTRAFINDA ŞİRİN SU MƏNBƏLƏRİ VƏ QƏDİM SİVİLİZASİYALARIN ONDAN İSTİFADƏ İMKANLARI

## GİRİŞ

İlkin sivilizasiya mərkəzlərindən biri olan Naxçıvan çox əsrlik tarixə, əlverişli coğrafi mövqeyə, zəngin yeraltı və yerüstü sərvətlərinə, ərazidən keçən karvan yollarına, tarixi memarlıq abidələrinə görə buradan keşən tacirlərin, səyyahların, salnaməçilərin diqqətini cəlb etmiş, çoxlu tarixi hadisələrin şahidi olmuşdur.

Bu torpaqda ilkin məskunlaşmış babalarımız öncə yaşayış məskənlərini çay və bulaq kənarlarında seçsələr də, sonradan yeraltı sulardan kəhriz vasitəsi ilə istifadə edərək yeni şəhərlər və kəndlər salmışlar.

Naxçıvan kəhrizləri və onların üzərində olan abidələr xalqımızın tarixi keçmişi, yaşayış tərzi, etnogenezi və etnoqrafiyasının öyrənilməsi üçün mühüm mənbədir. Onların tədqiqi bir çox gerçəkliyin dəqiqləşdirilməsinə, qaranlıq mətləblərin işıqlandırılmasına imkan verə bilər.

## ARAŞDIRMALAR VƏ ONLARIN TƏHLİLİ

Naxçıvanda Duzdağ mədəniyyətinin öyrənilməsi və Duzdağ ətrafındakı ilkin yaşayış məskənlərinin tədqiqata cəlb olunması ilkin şəhərsalma mədəniyyətinin öyrənilməsində yeni elmi istiqamət kimi qəbul edilmişdir. Duzdağ ətrafında aparılan son tədqiqatlar onu göstərir ki, burada 7 min ildir ki, duz yataqlarından istifadə edilir. Deməli 7 min ildir ki, Naxçıvandan çıxarılan daş duz dünyanın bir çox ölkələrinə karvanlar vasitəsi ilə daşınmışdır. Məhz akademik İ.Həbibbəylinin dediyi kimi Duzdağ daşduz mədəni ətrafında yeni tədqiqatların aparılmasına ciddi ehtiyac vardır (Şəkil 4).

Akademik Ş.A.Əzizbəyovun fikrincə, Duzdağ ərazisi geoloji quruluşu baxımından, əsasən, üst miosen və dördüncü dövr çöküntülərindən təşkil olunmuşdur. Burada üst miosen çöküntüləri alt, orta və üst sarmat qatlarında özlərini büruzə vermişdir. Ərazidəki alt və orta sarmat yaşlı çöküntülər qırmızı-tünd, şokoladı-tünd, qəhvəyi-boz, boz, yaşılımtıl-boz, sarımtıl-boz gillərdən, qumdaşlardan, əhəngdaşlı təbəqələrdən, mergel və alevrolitlərdən, eləcə də vulkan külündən ibarətdir. Duz yataqları adı çəkilən üst miosen çöküntüləri arasında on bir təbəqədən ibarət olub, qalınlığı 6,7 metrə çatır. Onların arasında gilli, qumlucalı, mergelli təbəqələrə rast gəlinir. Beləliklə, duzlu layın qalınlığı 8,2 metrə bərabərdir. Sonrakı geoloji dövrlərdə duzlu layın üzəri III dövrün sonu və IV dövr çöküntüləri ilə örtülmüşdür. Keçən 35-40 milyon illər ərzində burada çoxlu tektonik hadisələr, zəlzələlər bu strukturları pozmuş, vaxtı ilə üfqi yatıma malik duz layları sonradan yer qabığında baş verən qırılmalar, çökmələr və dağ əmələ gəlmə prosesləri təsirinə məruz qalaraq vəziyyətlərini dəyişmişlər. Yəni, qeyd olunan duzlu təbəqə Duzdağda üzə çıxmış, bəzi yerlərdə 60-85 m (Nehrəm duz yatağı), 120-150 m dərinlikdə (Şərur rayonun Pusyan və Təzəkənd altında) uzanaraq Türkiyənin İğdır vilayətinin Tuzluca şəhəri yaxınlığında təkrar yer səthinə təzahür etmişdir. Nəticədə səthə çıxan duz yatağından sonrakı dövrlərdə qədim sivilizasiyalar istifadə etməyə başlamışlar (4).

Məhz, həmin duz yataqlarından biri də indki Naxçıvan Duzdağı duz mədəni ətrafında olmuşdur. Yəni duz istehsalı hesabına ilkin sivilizasiyaların Duzdağ ətrafında və ya ona yaxın məntəqələrində məskunlaşması baş vermişdir. Sözsüz ki, burada içməli su problemini həll etmədən heç bir sivilizasiyadan söz gedə bilməzdi. Əks halda davamlı fəaliyyət üçün Mədənə ən yaxın içməli su mənbəyi 8-10 km məsafədən Araz və ya Naxçıvan çaylarından su gətirdilməli idi. Naxçıvanın iqlimini və digər şərtləri nəzərə alan babalarımız Duzdağ duz mədəni ətrafında yaxın məsafələrdə etibarlı içməli su mənbəyi axtarmış və sonda quyular qazaraq yeraltı suyu tapmış və ondan kəhriz vasitəsi ilə bəhrələnmişlər. Son tədqiqatlar da onu göstərdi ki, Duzdağ duz mədəni ətrafında da kəhriz sistemləri olmuş və onların öyrənilməsinə ehtiyac vardır (Şəkil 4, 5).

Aparılmış tədqiqatlarda iki kəhrizin qalıqlarına rast gəlinmişdir. Onlardan birinin çalagərdanı və quyusu (Şəkil 1.(a), digərinin isə 4 quyusu (Şəkil 1. (b), kəhrizin kürəsi (Şəkil 2) qalıqlarına rast gəlinmişdir. Məlum olmuşdur ki, kəhrizlər olduqca qədim zamanlarda fəaliyyət göstərmişlər. Bunu kəhriz quyuları ətrafında yer altından çıxarılmış çöküntülərin uzun zaman ərzində yer səthi ilə bərabərləşməsi də təsdiq edir. Duzdağ duz mədənindən cənubi qərbdə yerləşən kəhrizin çalagərdanı ətrafında keramika məhsuları, kül və sümük qalıqlarına rast gəlinmişdir, Arxeoloq alim V.Baxşəliyevin fikrincə buradan uzun müddət su mənbəyi kimi istifadə edilmişdir.

a)  b) 

*Səkil 1.Duzdağ mədənin cənubi qərbində(a) və şimali şərqində(b) tapılmış qədim kəhriz qalıqları*

Kəhrizin qidalanma mənbəyinə gəldikdə isə onun Sust kəndinin şimali - qərbindən Araza doğru axan (1-2 q/l) yeraltı axınlardan istifadə hesabına təmin olunmuşdur.

Digər kəhriz isə Naxçıvan–Şərur magistral yolundan 1,2 km şimalda, keçmiş Başbaşı-Duzdağ yolu üzərində rast gəlinmişdir. Bu kəhrizin qidalanması isə duzlu süxurlardan üstdə yatmış və böyük bir ərazini əhatə edən Duzdağ platosunun örtüyünü təşkil edən IV dövr çöküntülərində intişar tapmış şirin sular hesabınadır. Hər iki kəhrizi qidalandıran yeraltı axınlar aşağı ərazilərdə duzlu süxurlarla təmasa girdikdə minerallaşmaları 1,6-dan 15-19 q/l qədər artaraq şor axınlara çevrilərək yer səthinə çıxmışdır (Şəkil 2).



*Şəkil 2. Duzdağın şimali şərq tərəfdə yer səthinə çıxan şirin sulu bulaq*

Beləliklə, duzlu süxurlardan yuxarı ərazilərdə yeraltı axınlar şirin sulu olduğuna görə onlardan kəhriz vasitəsi ilə istifadə edilmişdir. Yəni, uzun müddət duz mədənində işləyən adamlar, yolçular və əkin biçinlə məşğul olan insanlar kəhriz suyundan istifadə etmişlər.

Duzdağ mədəni ətrafında kəhriz sistemlərinin tədqiqatı onu göstərdi ki, 7 min il ərzində insanlar duz mədənlərindən istifadə edərkən 8-10 km məsafədə olan Araz və Naxçıvan çaylarından su gətirmək əvəzinə yaxın məsafədə qazdıqları etibarlı su mənbələri olan kəhriz sistemlərindən istifadə etmişlər.



*Şəkil 3. Duzdağ mədəninin cənub-şərq tərəfində çökmə müşahidə olunan ərazidən görüntüsü*

Geologiyada "fleksura" deyilən bir termin vardır. Dağ süxurlarının tektonik gərginliyə məruz qalaraq müəyyən bir yerdən qırılmasına "fleksura" deyilir. Tektonik gərginliyin təsiri ilə layların bir-birindən aralanması nəticəsində "fleksura" yaranır. Yəni dağ əmələgəlmə vaxtı süxurlar qırılmağa məruz qalaraq aralanırlar. Məhz Duzdağ sinklinalının da əyilmə yerlərində tektonik gərginliyin artdığı zonada "fleksura" əmələ

gəlmişdir. Nəticədə laylar arasında aralanma baş verdiyindən həmin yerlərdə çökmə başlamışdır (3. s.139-145).

Duzdağdakı dəniz laqun mənşəli sarmat çöküntülərinin “fleksura” zonasında yerüstü və yeraltı suların təsiri ilə daha çox çökmələr baş verməkdədir. Burada duzlu laya müdaxilə edən yerüstü sular orada rast gəldikləri duzları özündə həll edərək aşağıya aparmaqla yeraltı boşluqlar əmələ gətirir. Sonradan ağırlıq nəticəsində üst qatlar qoparaq aşağı düşməklə təknəvari çökmələrin yaranmasına səbəb olurlar. Bu proses kəhriz olan ərazilərdə daha intensiv surətdə davam edir. Çünki, kəhriz öncədən yeraltı suların intişar tapdığı ərazidə qazılmışdır (Şəkil 3).

Son tədqiqatlar onu göstərir ki, indiki duz mədəni rayonundan başqa Sust kəndi ətrafında da ilkin duz emalı işləri aparılmışdır. Burada insanların məskunlaşması üçün münbit torpaqların olması, onların kəhrizlə suvarılması, il boyu etibarlı surətdə içməli suyun təmin edilməsi və onların hesabına ərzaq ehtiyatının yaradılması, mal-qaranın suvarılması və duz istehsalı ilə məşğul olan işçi qüvvəsinin qoşqu heyvanlarının yemlənməsi və suvarılması işlərinin təşkili müvəffəqiyyətlə həyata keçirilmişdir. Deməli, Duzdağ ətrafında duz istehsalı ilə məşğul olan sivilizasiyanın inkişafının bir hissəsi də Sust kəndi ətrafında axtarılmalıdır.




*Şəkil 4. Duzdağ mədəni ətrafında rast gəlinən su mənbələri.*




*Şəkil 5. Duzdağ duz mədənin cənubi-şərq tərəfində çökməyə məruz qalmış ərazinin sxematik təsviri*

## NƏTİCƏ

Naxçıvan təbiətinin şıltaq və qeyri-adi şərtlərinə baxmayaraq qədim sivilizasiyalar Duzdağ ətrafındakı yeraltı sulardan kəhriz vasitəsilə istifadə etmişlər.

Duzdağ ərazisinin paleocoğrafi şəraiti, burada insan məskunlaşmasında və daş duz istehsalında kəhriz sistemlərinin böyük əhəmiyyət kəsb etməsi və baş verən geoloji proseslərin nəticəsində kəhrizlərin fəaliyyətinin dayanması sübuta yetirilmişdir.

Naxçıvanın kəhrizləri və onların üzərində olan abidələr xalqımızın tarixi keçmişi, yaşayış tərzi, etnogenezi və etnoqrafiyasının öyrənilməsi üçün mühüm mənbədir. Ona görə kəhrizlərin tədqiqi bir çox gerçəkliyin dəqiqləşdirilməsinə, qaranlıq mətləblərin işıqlandırılmasına imkan verir.

## ƏDƏBİYYAT


1. Həbibbəyli İ.Ə., Həşimli H., və başqaları. Kəhriz sistemləri, Bakı; 2010, BMQT, s.210.
2. Quliyev Ə.G., Naxçıvan kəhrizləri, Bakı; Nurlan, 2008, 165 s.
3. Quliyev Ə. G., Naxçıvanda insan məskunlaşmasında kəhriz sistemlərinin rolu. "Naxçıvan: İlk yaşayış və şəhərsalma yeri kimi" 20-24 iyul 2011 ildə keçirilmiş Beynəlxalq simpoziumun materialları, 2012,, s.139-148.
4. Азизбеков Ш. А., Геология Нахичеванской АССР, Москва;1961. 502 с.
5. Marro. C., Bakhshaliyev V., Sanz S. with Aliyev N.. "Archaeological investigations on the salt mine of Duzdag (Nakhchivan, Azerbaijan). Turkish academy of sciences journal of archaeology.Volume 13 , pp. 229-244.
6. "Şərq qapısı" qəzeti, 22 iyul 2011-ci il. Sayı: 135 (20.293),

**Zakir RZAYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Naxçıvan Bölməsi*

## DÜNYA DUZ TİCARƏTİ VƏ NAXÇIVAN

Dünyanın hər yerində rast gəlinən xörək duzuna tarixən böyük ehtiyac olmuşdur. Ticarət baxımından da önəmli bir məhsul olan ağ, şəffaf kristal duzdan ərzaq məhsulu olmaqla insanla bərabər əksər canlılar da qida məhsulu kimi istifadə edirlər. Hələ qədim zamanlardan insanlar duzdan eyni zamanda sənətkarlığın bəzi sahələrində, o cümlədən dəriçilikdə, maldarlıqda, su təmizləmə sistemlərində geniş istifadə etmişlər.

Duz istehsalı bütün mineral çıxarma üsulları arasında az qala ən sadə və asan olanıdır. Duz əldə etmə üsullarından ən məşhur olanı, duzlu gölməçələrdə suyun buxarlaşdırılmasıdır.

Tava çıxarma üsulu zamanı maqnezium sulfatı çökdürmək üçün az miqdarda kirəc qatılır. Sonra tava adı verilən buxarlaşma qabına göndərilir. Bu qab 80-100 $m^2$ olub isti qazlarla qızdırılır. Bu zaman maqnezium sulfat çökür, alınan duz toplanılır.

Vakum üsulunda isə duzlu su vakuum pompaların köməyi ilə buxarlaşdırılır. Ümumiyyətlə buxarlaşdırma üsulu əksəriyyətlə quraq və isti bölgələrdə tətbiq olunur ki, bu yol ilə əldə edilən duzlar da ticari məqsədlər üçün yararsızdır. Çünki əldə edilmiş bu cür duzlarda duzsevən bəzi mikroorqanizmlər də ola bilər ki, bunlar da insan orqanizmi üçün təhlükəlidir.

Buna görə də tarixən insanlar sal duzdan istifadəyə üstünlük vermişlər. Qaya duzu, əhəmiyyətli duz qaynaqlarından biri olub çox təmizdir. Bu gün dünyada 1500 yerdə duz çıxarılır ki, bunlardan yalnız 300-ü şaxtalarda emal olunur. Təbii ki, bu yataqlarında əksəriyyəti son zamanlarda istismar olunmağa başlamışdır. Lakin tarixi qaynaqlar Naxçıvanda belə yataqların hələ Daş dövründən olduğunu sübut edir.

Belə ki, Duzdağ ərazisində son 5 ildə aparılan geniş tədqiqat işləri nəticəsində buradan daş əmək alətləri ilə bərabər, Eneolit dövründən başlayaraq müxtəlif dövrlərə aid keramika nümunələri də tapılmışdır (2, s. 88-90).

Tarixi mənbələrdə Duzdağla bağlı bir o qədər də ətraflı məlumata rast gəlinmir. Tarixi mənbələrdə XIX əsrin I yarısından başlayaraq burada bir sıra kəşfiyyat xarakterli araşdırmalar aparılmışdır. 1870-ci ildə burada çalışan Bayer bir neçə daş balta tapmışdır. K.A.Nikitinin məlumatlarından isə aydın olur ki, o tapdığı bir neçə daş baltanı Tiflis və Peteburq muzeylərinə göndərmişdir (6, s. 115).

Mark Kurlanski “Duzun ümumi tarixi” əsərində heç bir canlı növünün onsuz yaşaya bilməyəcəyi, bu kristalın insanlıq tarixindəki yerini qeyd edərək yazır ki, insanın qida kimi qəbul etdiyi tək qaya növü olan duzun, indiki vaxtda dərman istehsalından, buz tutan yolların açılmasına, suyun yumşalmasından sabun istehsalına qədər 14 min növ istifadə sahəsi vardır (5, c.17).

Duz ilk dəfə mətbəxə türklər tərəfindən daxil edilmişdir. Adəm oğullarından olan Türk xanın oğlu Tütək xan çöl düzündə ətdən hazırlanmış kabab yeyərkən əlindəki ət tikəsi yerə düşmüş, qaldırıb tikəni yedikdə tikənin dadının dəyişdiyini hiss etmişdir. Ona məlum olmuşdur ki, bu duzdur və o zamandan etibarən duzdan mətbəxdə istifadə olunmuşdur (11).

Həzrəti Əli qeyd edirdi ki "Yeməyinizə duzla başlayın. Çünki əgər camaat duzun faydalarının nə olmasını bilsəydi, onu təcrübədən keçmiş zərdabdan üstün tutardı."(11).

Görkəmli rus mineroloqu A.E. Fersman qeyd edir ki, "Ən əsası odur ki, bütün təbii mineral duzların içərisində biz yalnız birini duz adlandırırıq" (7, s.17).

Bəzi tədqiqatçılar duzu ilk dadlandırıcı adlandırırlar. Duzun xarab olan ərzaq məhsullarını qoruması baxımından onun qədim insanların həyatında rol oynadığını qeyd etmək lazımdır. Duzun cəmiyyətdə istifadəsi faktı qədim Misirdən məlumdur. Onlar mumyalama zamanı duzdan istifadə etmişlər. Sonradan sodanın kəşfi qədim Misirdə duzun qızıla bərabər tutulmasına gətirib çıxardı. Mark Kurlanski, ət və balığı duzlayaraq saxlayan ilk sivilizasiyanın misirlilər ola biləcəyini qeyd edərək, balığı duzda saxlamağa aid ən qədim Çin salnamələrinin e.ə. II minilliyə aid olduğunu göstərir. Qədim dövrlərə aid Misir qəbrlərindən də duzlanmış balıq və quş əti də tapılmışdır. Araşdırmalara görə, qədim misirlilər Nil deltasında dəniz suyunu buxarlandıraraq duz istehsal edirdilər.

Çində duz istehsalına aid ən qədim yazılı məlumata e.ə. 800-cü ilə aid salnamələrdə rast gəlinir. Bu salnamələrdə Xia xanədanlığı zamanında min il əvvəlki dəniz duzu istehsalı və ticarətindən bəhs edilir. Eyni zamanda Çin hökmdarlarının duz ticarətindən bəhs edilərək Çində e.ə. XII yüzüllikdə duz vergisindən söz edən mətnlər də tapılmışdır.

Duz tarixin müxtəlif dövrlərində bir tədavül vasitəsi olmamış, sonralar əmtəə vasitəsinə çevrilmiş, daxili və xarici ticarətin əsas atributlarından biri olmuşdur. Bu gün aparılan arxeoloji qazıntılar nəticəsində sübut olunmuşdur ki, Nil, İordan, Fərat və Dəclə çaylarının ətrafında məskunlaşmış əkinçi tayfaların yaşayış məskənlərinin ətrafında çoxlu sayda qurumuş duzlu gölməçələr vardır. Yazılı mənbələr hətta şumerlər arasında duza sitayiş olunduğunu göstərir. Onun əldə edilməsi və paylanması dövlətin nəzarəti altında aparılırdı.

Arxeoloji qazıntılar zamanı Pakistan, Ərəbistan yarımadası, hətta Şimali Afrikadakı Böyük Səhra ərazisində də istismar olunmuş duz yataqlarına rast gəlinmişdir. Suyunun 20 fazini duz təşkil edən Ölü dəniz də Yaxın Şərqdə yaşamış tayfaların duza olan tələbatını ödəmişdir. Antik dövrdə Roma və Yunanıstanda duz qiymətli hesab olunmuş, hətta duzun əyalətlərə rahat daşınması üçün xüsusi yollar çəkilmişdir. Roma imperiyası öz tələbatını ödəmək üçün İspaniya, Ərəbistan, Misir və bir sıra başqa ölkələrdən daş duz gətirirdi. Roma legionlarının əsgərləri maaşlarını duzla alırdılar (4, s 39-40 ).

Çinlilər, romalılar, fransızlar, venetsiyalılar, habsburglar və digər xalqlar və sülalələr müharibə aparmaq üçün duz vergisi tətbiq etmişlər. Qaya və ya daş duzun pul vahidi kimi işlənməsini səyyah 1286-cı ildə Çində olduğu zaman qeydə almışdır. Maraqlı faktlardan biri də ondan ibarətdir ki, Efiopiyada daş duz XIX əsrə qədər pul vahidi kimi işlənmişdir. Tədqiqatçılar qeyd edir ki, qədim zamanlarda əmək haqları belə duzla verilən ölkələr olmuşdur ki, soldi (qəpik pul) ifadəsi də buradan yaranmışdır (7, s 16-17).

1776-cı ildə Adam Smit özünün "Xalqların varlanması səbəblərinin tədqiqi" əsərində qeyd edirdi ki, hər bir məhsul pul rolunu oynaya bilər. O, qeyd edir ki, Həbəşistanda ticarətin və mübadilənin arxasında hər zaman duz dayanmışdır.

Yığıcılıqdan əkinçiliyə, ovçuluqdan maldarlığa keçdikdən sonra insanların duza olan tələbatı artırdı. Belə ki, artıq qədim insanlara duz təsərrüfat sahələrinin saxlanması üçün də lazım idi. Vəhşi heyvanlar və insanlar bu duzu qəbul etdikləri ətlə də ala bilirdilər. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, istehsala qədər duz əldə etmək üçün insanlar duza daha çox tələbatı olan heyvan izlərini təqib etmişlər. Bu faktın həqiqət olmasını Naxçıvan ərazisində Duzdağ kompleksində tapılmış əmək alətləri də sübut edir. Belə ki, bu ərazidə tapılmış ən qədim duz baltaları bunu söyləməyə əsas verir.

Digər tərəfdən 10 min illərdir ki, istismar olunan bu duz yataqlarının yer səthinə çıxan əraziləri vardır ki, bu da qədim əkinçi və maldar tayfaların hər zaman nəzarətində olmuşdur. Maldar tayfalar saxladıqları heyvanların duza olan tələbatını ödəmək məcburiyyətində idilər. Əks halda, yemlərinə duz qatılmadığı təqdirdə hamısı tələf ola bilərdilər. Nümunə olaraq göstərmək olar ki, atın duza olan tələbatı insandan 5 dəfə, iri buynuzlu mal-qaranın tələbatı isə 10 dəfə çoxdur.

Bu təcrübədən tarixin sonrakı dövrlərində də istifadə olunmuşdur. XIV-XVIII əsrlədə qul ticarəti zamanı belə bir faktla üzləşmişlər. Belə ki, Afrikadan Amerikaya aparılan qulların yeməklərinə duz qatılmırmış. Belə ki, Afrikanın tropik meşələrində və Saxarada duz yoxdur. Bu ərazidə yaşayan insanlar bunu yedikləri ət və bitkilərdən əldə edirlər. Buna görə də qulların əksəriyyəti hissi hipertoniya xəstəliyi ilə (yüksək təzyiq) üzləşirdilər. Bunun qarşısını isə heç bir dərman ala bilmədiyi halda duzla məsələni həll etmək mümkün idi (7, s.15-16).

Qədim vaxtlarda Hollandiyada məhbusları cəzalandırmaq üçün onlara duzsuz yemək verərdilər. Nəticədə adamlar bir neçə aydan sonra həyatla vidalaşırdılar. Bu göstərir ki, duz olmadan yaşamaq mümkün deyil, həyat mənasını itirir. (9)

I Dünya müharibəsinə qədərki dövrdə Zaqafqaziyanın duza olan tələbatı ildə 3,5-4 milyon pud təşkil edirdi. Zaqafqaziyanın cənub-qərb hissəsi (Qars və başqa rayonlar Türkiyəyə qaytarıldıqdan sonra Kağızman, Kulpin, Oltin kimi zəngin duz yataqları Sovet dövlətinin əlindən çıxdı. Buna görə də Zaqafqaziyanın duz ilə təmin olunması Naxçıvanın üzərinə düşdü. Naxçıvan ölkəsinin duz mədəninin ehtiyatı 97 mln ton, Sust duz mədəninin ehtiyatı isə 45 mil. tondur (1, s. 146-147).

Duz yeganə mineraldır ki, dünyanın hər yerində tapmaq olar. Lakin əsas olan duzun keyfiyyətidir. Bəşəriyyət yarandığı gündən duz təkcə mübadilə və ticarət məhsulu deyil, eyni zamanda mübarizə və müharibələrin də səbəbkarı olmuşdur. Tarix boyu bütün xalqlar onu zənginlik və xeyirxahlıq rəmzi kimi tanımışlar.

Hazırda duz bütün xalqlara məlumdur. Ondan hamının istifadə etmək imkanı vardır. Deməliyik ki, 100-150 il bundan əvvəl ayrı-ayrı xalqlar duzdan korluq çəkirdilər. Bəzi ölkələrə duz uzaqlardan gətirilirdi. Afrikada Zuluslar qidanın təbii duzu ilə kifayətlənirdilər. Braynantın yazdığına görə əllərinə azca duz keçəndə onlar onu şəkər kimi yalayırdılar (9).

Yer üzərində zəngin duz yataqları mövcuddur. Bu yataqlar qədim dövrlərdən istismar edilməyə başlanmışdır. Məsələn, Qafqazda xörək duzunu ilk dəfə azı 5 min il bundan əvvəl çıxarmışlar. Şərqin qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhərinin yaxınlığındakı duz mədənlərindən əsrlər boyu Şərqin müxtəlif ölkələrinə duz daşınmışdır. XIX əsrdə Naxçıvan Bakı və Gəncə qəzalarını duzla təmin edirdi. Məlumata görə, 1866-cı ildə Naxçıvanda 11 min ton duz çıxarılmışdır. Statistikada göstərilir ki, keçən əsrin 80-ci illərində Naxçıvan orta hesabla hər il 4800 ton duz ixrac edirdi (9).

Qafqazın qədim duzçıxarılan rayonlarından biri də Qara dənizdən şimalda yerləşən ərazidir. Antik dövrdə bu yerlərdə külli miqdarda balıq duzlayıb, ixrac etmişlər. Burada Opuk və Çikprak gölləri keyfiyyətli duzu ilə məşhur olmuşdur. XIX əsrin ortalarında buradan müxtəlif ölkələrə hər il 10 min tona yaxın duz göndərilmişdir (4, s.40-41).

XIX əsrdə Avropanın bir sıra ölkələrində, o cümlədən Almaniya, İspaniya, Fransa və Polşada duz çıxarılmağa başlanmışdır. Polşanın Veliçke adlanan yerində məşhur duz mədəni yerləşir. Duz mədəni aşkar ediləndən 1812-ci ilə qədər burada 30

milyon tona yaxın duz çıxarılmışdır. Rusiyanın duz mədənləri Orenburq quberniyasında, Krımda, Bessarabiyada və Həştərxanda yerləşirdi (8, s. 10-11).

Təmiz mədənlərdə duz istifadə üçün hazır şəkildə çıxır. Lakin duza kənar maddələr, məsələn, torpaq və qum qarışanda onu əridib məhlul hazırlayır, «çirki»ni ayırır, sonra məhlulu buxarlandırıb ağ duz alırdılar. Bu baxımdan göllər, bəzən də dəniz suyu duz istehsalı üçün mənbə olurdu.

Qədim xalqlar duzu dolayı şəkildə əldə etməyi də bacarırdılar. Məsələn, Fransanın qədim tayfalarından olan qallar yanan kömürün üstünə duzlu su tökürdülər. Su buxarlandıqdan sonra kömürün üzərində ağ örtük — duz əmələ gəlirdi. Onu yığıb istifadə edirdilər (5, s.23).

Yunanıstanda duz gölü var idi. Landanın məlumatına görə bu gölün suyundan əla ağ duz alınırdı. XVI əsrdə buradan Meksika, Honduras və Kubaya qədər duz aparırdılar.

XX əsrin əvvəllərindən başlayaraq Yaponiyada da dəniz suyundan xörək duzu istehsal edilir. Suyu şor olan göllərin sahilində məskən salmış qədim tayfalar xörəyə duz vurmaq üçün çıxış yolu tapmışdı. Onlar göldən yosun yığıb xörəklərinə əlavə edirdilər.

N.N.Mikluxo-Maklay müşahidə etmişdi ki, Astrolyabiya körfəzinin ətraflarında yaşayan Papuaslar duz əvəzinə dəniz suyundan istifadə edirlər, yəni xörəyi şor suda sadəcə olaraq bişirirdilər. Mikluxo-Maklayın başqa bir məlumatına görə, Papuaslar duzu əvəz edən xüsusi toz da hazırlayırdılar. Belə ki, onlar uzun müddət dəniz suyunda qalmış ağacları yarır, gündə qurudur və yandırırdılar. Alınan kül duz əvəzinə işlədilirdi. Tunquslar vəziyyətdən başqa cür çıxırdılar. Onlar əti dəniz suyunda bişirirdilər (10).

Qədim yunan və Roma mütəfəkkirləri duzu yüksək qiymətləndirir və yazırdılar ki, bu maddə çörəkdən savayı bütün qidaları əvəz edə bilər. Onu "Tanrı sovqatı" adlandırırdılar. Dini kitablarda duz sədaqət, müqəddəslik, saflıq, allahlarla xalqlar arasında birlik rəmzi kimi dəyərləndirilir. Qədim Tevtonlar (german dil qruplarında danışan qəbilələr) andiçmə zamanı barmaqlarını duz qabına salırdılar. Ərəb və Türk qəbilələri duz doldurulmuş qabın üzərində saziş bağlayır və sonda ağızlarına bir çimdik duz qoyurdular. Efiopiyada duz indiyədək də dostluq rəmzi sayılır. İki efiopiyalı dost rastlaşdıqda ciblərindən duz parçaları çıxarıb yalamaq üçün bir-birinə verir. Bundan imtina etmək dostun öz dostuna xəyanəti, dostun ömür boyu itirilməsi deməkdir (11).

Efiopiyada bir vaxtlar "duz pullar" dəbdə idi. Çəkisi yarım kilo gələn brusşəkilli həmin "pullar" daş duzdan hazırlanırdı. Afrikada indi də o, yeməyinə duz vurur, yəni, o, zəngin adamdır ifadəsi işlədilir.

Vaxtilə Çində duz pulların olmasından söz açan məşhur italyan səyyahı Marko Polo onların necə hazırlanmasını belə təsvir edir: "Duzlu suyu böyük tiyanlarda qatılaşana qədər qaynadır, sonra kiçik paylara ayırıb üstünə imperatorun möhürünü vururlar. Duz pulların metal pullara oxşaması üçün onları kürədə bişirirlər". Orta əsrlərdə bir sıra Avropa şəhərlərində vergiləri duzla ödəyirdilər.

Qədim Romada əsgərlərə pul əvəzinə verilən duz "sol" adlanırdı. "Sol" latın dilində "günəş" deməkdir. İtaliyada xırda pul "soldi", Fransada "solid" adlanırdı. Fransız sözü "saler" "əməkhaqqı" mənasını verirdi. Ola bilsin ki, "soldat" sözü "saler" sözündən törənmişdir. İngilis sözü "salari", yəni, "əməkhaqqı", özəl telekanallarda geniş vüsət almış restoran yeməklərinin hazırlanması zamanı çox tez-tez xatırladılan "salat" sözləri latınca "sal", yəni "duz" sözlərindən törənmişdir. Romalılar göyərtini duza qoymağı xoşlayırdılar (5, s.15).

Qədim yunan dilində duza "qall" deyirdilər. Xırda alman pulu "qaller", yaxud "geller" qədim zamanlarda duzdan hazırlanırdı. Bəzi tarixçilər sübut etməyə çalışırlar

ki, yemək hazırlanmasında duzdan istifadə edilməsi sivilizasiyanın inkişafına təkan vermişdir. Məhsulların duzun köməyi ilə uzun müddət saxlanılması üsulu uzaq dəniz səfərlərinin baş tutmasına, yeni qitələrin kəşf olunmasına və dünya haqqında təsəvvürlərin genişlənməsinə imkan vermişdir.

Nuh peyğəmbərlə bağlı rəvayətlərin birində qeyd olunur ki, Tufandan sonra Naxçıvanda məskunlaşan Nuh peyğəmbər xalqa bir sıra sənətkarlıq sahələrini, o cümlədən Duzdağda duz çıxarılmasını da öyrətmişdir. Bu fikir XIX əsr mənbələrində də öz əksini tapmışdır. Son illər burada aparılan araşdırmalar, qədim mədənlərdən aşkar edilmiş alətlərin kimyəvi analizi rəvayətin reallığını, yəni e.ə. V minillikdə burada duz çıxarıldığını təsdiq edir. Əldə olunmuş çox saylı dəlillərə əsaslanaraq bir sıra müəlliflər yazırlar ki, dünyada ən qədim duz mağaraları Naxçıvana aiddir (3, s. 74).

Ancaq qeyd etdiyimiz kimi dünyanın əksər yerlərində duz istehsalı bizim eraya təsadüf edir. Eyni zamanda bu istehsalın çox hissəsi süni yolla əldə edilir. Lakin tarixi faktlar göstərir ki, Naxçıvan ərazisində duzun istehsalı çox qədimə getməklə bərabər, eyni zamanda canlı orqanizmlər üçün çox yararlıdır. Naxçıvan duzunun keyfiyyəti bu ərazinin qısa zaman içərisində şöhrət tapmasına və iri duz mərkəzinə çevrilməsinə səbəb olmuşdur. Bu gün də Naxçıvanda tükənməz ehtiyatı olan çox qədim daş duz mədənləri vardır. Son illər aparılan beynəlxalq arxeoloji ekspedisiyalarin nəticələri də göstərir ki, qədimdən mövcud olan şaxtalarda insanlar hələ Daş dövrünün sonlarından daş əmək alətlərindən istifadə edərək duz çıxarmışlar. Bu gün də Duzdağ, Sust və Nehrəm duz yataqları Naxçıvanın ən böyük təbii sərvətidir.

## ƏDƏBİYYAT


1. Babayev. S. Naxçıvan MR coğrafiyası.Bakı, Elm,1999, 298s, 209 s
2. Baxşəliyev V., Marro C., Aşurov S., Ovçular təpəsi. Bakı, 2010
3. Qədirzadə. Q. Naxçıvan: Nuh baba və türk atadan gələn yol. Naxçıvan, Əcəmi-2011, 192 s.
4. Кукушкин. Ю. Поваренная соль. Химия вокруг нас, №6, Москва, 2007, с. 37-46
5. Курлански М. Всеобщая история соли. – Москва,. Колибри, 2007, с. 13-25
6. Никитин. К.А. Город Нахичеван и Нахичеванский уезд. СМОМПК. Тифлис, 1882, вып. 2, отдел 1. с 109-124
7. Медведев. Ж. Гипертония черного населения Америки. Аспекты, Еженедельник, 2000, с. 14-19
8. Медведев. Ж. Соль земли. Здоровье №3 (398) 18 - 24 января 2008, с. 9-12.
9. http://kayzen.az/blog/erzaq/4390/.html
10. http://www.salz.ru/salz_history.html
11. http://az.wikipedia.org/wiki/Duz

**Nazim BABABƏYLİ**
*Coğrafiya üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*
**Fatih İMAT**
*Coğrafiya üzrə fəlsəfə doktoru,*
*Kastamonu Universiteti, Türkiyə*

# DUZDAĞ MASSİVİNDƏ TƏBİİ MAĞARALARIN GENETİK XÜSUSİYYƏTLƏRİ VƏ YARANMA ŞƏRAİTİ

Uzunluğu 300 km-ə, eni 15–20 km-ə, orta qalınlığı isə 60 m-ə çatan Orta Araz hövzəsi daxilində yerləşən Nehrəm-Duzdağ-Püsyan-Sürməli-Tuzluca xətti ilə uzanan duz massivi dünyanın ən böyük daş-duz ehtiyatlarından biri sayılır. Onun yaratdığı antiklinoriumu cənub-şərq qanadında yerləşən Duzdağ və şimal-qərb qanadı Tuzluca-Kağızman sahələri tipik karst relyefi, eləcə də çox saylı karst mağaraları ilə zəngindir.

Ərazidə karst prosesinin inkişafı üçün lazım olan bütün şərtlər mövcuddur. Bunlardan birincisi hövzə daxilində karstlaşan halegenli suxurların-halit və silvinitin, eləcə gips, anhidrit və müəyyən miqdarda dolomit kimi asan həll olan suxurların mövcudluğu və onların optimal qalınlığının, həmçinin karstlaşan suxurların altında quruntun filtrasiya qabiliyyətini aşağı salan gilli layların olmasıdır.

Geomorfologiyada genetik xüsusiyyətlərinə görə karstlar bir neçə siniflərə ayrılır ki, bunlardan ikisi - çılpaq və qalıq karstlar (tropik) Araz boyunda geniş yayılmışdır.

Çılpaq karstlar arid iqlim sahələri üçün daha səciyyəvidir. Belə sahələrdə karstlaşan süxurların səthi çılpaqdır, erroziya intensivdir və yağıntılar il boyu qeyri-bərabər paylanmış olur. Qalıq və ya tropik karstlar kasttin əsas morfogenetik tiplərindən olub uzun geoloji dövrlər ərzində formalaşır və səthində müxtəlif morfoloji quruluşlu müsbət relyef formaları yaranır. Bunlar adətən konusvari, künbəzvari və xalq arasında onlara "plov təpə" deyilən relyef formalarıdır.

Qalıq karst formalarının yamacları dik olur və onların hündürlüyü on metrlərlə ölçülür. Belə təpələr arasında mövcud olan çökəkliklər eroziya nəticəsində əmələ gəlir və adətən karst relyefinin əsas səth və yeraltı formaları burada yaranır. Karst mağaralarının formalaşmasında səth karstları xüsusi rol oynayır. Bu baxımdan mağaraların tədqiqində səth karstlarının tədqiqi olduqca zəruridir.

Tədqiqat obyektində geniş yayılmış karr və karr çökəklikləri Duzdağ massivinin orta və aşağı azmeyilli sahələrində yerləşir. Burada karların dərinliyi bir neçə santimetrdən bir neçə metrə qədər çatır və bizim təxmini hesablamalarımıza görə yalnız iri karların sayı 2500–dən artıqdır (şək.1). Onların yaratdıqları ilkin forma sayılan şırımlar adətən bir-birinə paralel uzanır və bəzən aşağı hissələrdə müəyyən bucaq altında birləşirlər. Dərinliyi bir neçə metrə çatan şırımların divarları çox dik, səthi isə yastı və girdə formadadır. Duzlu sular quruyaraq şırımlar içərisində buzu xatırladan duz "axınları" və " duz şəlalələri" yaradaraq landşafta ekzotik görkəm verir.





*Şək.1. Duzdağ platosunda tipik karr.* *Şək.2. Karst qıfı*

Müxtəlif ölçüdə qapalı dairəvi çökəkliklər, başqa sözlə karst qıfları, massivin prolüvial konusu üzərində və relyefin nisbətən azmeyilli sahələrində daha çoxluq təşkil etməkdədir (şək.2). Bəzi yerlərdə, xüsusilə duz mədənini magistral yolla birləşdirən avtomobil yolunun ətrafında genişlənən belə qıflar bir-birləri ilə birləşərək mürəkkəb morfoloji quruluşa malik çökəkliklərə çevrilir. Bu çökəkliklər yamaclarda asimmetrik, maili, düzənlikdə isə simmetrik quruluşludur. Qıfların dibində bir, bəzən isə bir neçə ponor-quyu yerləşir. Ponorlar səthi karstları yeraltı karstlarla birləşdirməklə həm də onların yaranmasında mühüm rol oynayır. Ponorların yamacları dik və dərin, dibləri isə adətən aşınma materialları ilə dolur (şək.3).

Ponorların yaranmasında vəhşi heyvanlar, xüsusi ilə tülkülər və səthi axınların hərəkətini məhdudlaşdıran avtomobil yolları da mühüm rol oynayır. Quyuların dərinliyi əsasən sukeçirməyən gilli layın qalınlığı ilə ölçülür. Apardığımız müşahidələrə görə quyuların dərinliyi 3 - 17 metr arasında dəyişməkdədir. Yer səthindən su keçirməyən layın səviyyəsinə qədər yenən su burada gilli səthin üzərinə toplaşaraq axın istiqamətini dəyişir və üfüqi istiqamətdə hərəkət edərək təbii şaxtalar və mağaralar əmələ gətirir. Yeraltı karstlaşmanı gücləndirən suyun üfüqi hərəkəti bəzi hallarda suffoziya yaradır.





*Şək.3. Ponor* *Şək.4. Polye*

Duz mədənlərinə çəkilən avtomobil yolunun orta hissəsində uzunsov, sahəsi bir neçə $km^2$-a çatan, dibi çox hamar və yumşaq suxurlarla örtülü, qapalı polye yerləşməkdədir. Polyenin səthində cənub qərb üzrə istiqamətlənən, diametri 2-4 metrə çatan çoxsaylı quyularla aşağı keçən su girişi və çıxışı qapalı olan böyük bir mağaranın

uçmasına səbəb olmuş və uçma mağaranın yan divarları üzərində yer səthində uzunsov, dərin çatlar əmələ gətirmişdir. Polyenin səthindəki quyuların görünən hissəsinin dərinliyi 12-18 m arasında dəyişməkdədir. Mağaranın divarlarının üzərindəki sağ və sol çatlar arasında məsafə onun eninin təxminən 18-20 m olmasını isbat etməkdədir (şək.4).



*Şək.5. Şaxta*



*Şək.6. Mağaraları birləşdirən sifon*

Duzdağda ayrı-ayrı təbii şaxtaların uzunluğu yüz metrlərlə, bəzən isə bir neçə kilometrələrlə ölçülür (şək. 5). Şaxtaların uzanma istiqaməti bir qayda olaraq su keçirməyən layın yatım istiqamətinə uyğun gəlir. Yeri gəlmişkən, bəzi müəlliflər yalnış olaraq təbii karst şaxtalarını "kəhriz sistemləri" adlandırır. Belə ki, stratiqrafik təhlil göstərir ki, burada şirin suyu 171 metr dərinlikdən aşağıda axtarmaq lazımdır.



*Şək. 7. Mağaranın giriş hissəsi*



*Şək. 8. Mağarada toplanmış su*

Duzdağ massivində geniş yayılmış karst formalarından biri də müxtəlif ölçülü və dərinlikli mağaralardır (şək.7, 8). Onların yaranma şəraitini öyrənmək üçün ərazinin paleocografi ve paleogeoloji şəraiti, eləcə də stratiqrafiyası araşdırılmışdır.

Məlum olduğu kimi Devondan başlayaraq (420 mln il əvvəl) Neogenin Pliosen mərtəbəsinə qədər indiki Naxçıvan ərazisi dəfələrlə dənizin altında qalmış və Miosenin sonu Pliosenin əvvəllərində, 6-9 mln il əvvəl Orta Sarmat və Pont mərtəbələrində eyni adlı dəniz suları ərazini birdəfəlik tərk etmişdir (2, səh.71-72). Bundan sonra yaxın geoloji keçmişdə dənizlərin transqresiyası uzunmüddətli olmamış və yalnız lokal şəkildə özünü Kür-Araz ovalığında, müəyyən zamanlar isə Arazboyunda göstərmişdir.

5,5 - 6,5 min il əvvəl Xəzərin Kür-Araz ovalığını basması nəticəsində burada yerləşən 150-ə qədər o dövr üçün iri sayıla biləcək yaşayış məntəqəsi suyun altında qalmış, insanlar qərbə- Kiçik Qafqazın, Zəngəzurun orta və yüksək dağlığına doğru miqrasiya etmiş, sular çəkildikcə geriyə dönmüşlər. Sözsüz ki, onların əsas sığınacaqlarından bəlkə də birincisi məhz bu təbii mağaralar olmuşdur.

Karakanın əvvəllərində indiki Nehrəm ərazisində, Sarmatın ortalarında isə Duzdağda akvatoriyaların kiçik körfəzlərində dəniz duzlarının qalın toplantısı çökmüşdür. Onun yaratdığı duz layı şimal-şərqə doğru 4-$8^0$ bucaq altında enir. Qırışığın oxu Duzdağın təpəsindən başlayaraq cənub-şərqdən şimal-qərbə uzanır. Layın tərkibində NaCl-un miqdarı 81-98 % -ə qədərdir. Xörək duzu ilə yanaşı digər dəniz duzları - KCl- 0,70 %, $CaCl_2$- 0,80%, $MgCl_2$ - 1%, $CaSO_4$-1,5 % miqdar təşkil edir (3, səh.37).

Oliqosen və Aşağı miosenin kontinental rejimi Orta miosendə dənizlə əvəz edilmişdir. Tarxan-Çokrak zamanında iqlimin dəyişməsi, buxarlanmanın artması və hövzəyə daxil olan şirin suların azalması körfəzlərdə çökmə qatının qalınlaşmasına şərait yaratmışdır. Naxçıvan çökəyinin cənub-şərqində, indiki Nehrəm kəndi ərazisində yerləşən kiçik körfəzin dənizlə əlaqəsi dövrü olaraq kəsilmiş və buxarlanmanın miqdarı körfəzə zaman-zaman daxil olan dəniz suyunun kütləsindən çox olmuşdur. Dəniz suyu buxarlanmadan artıq olduqda duzların çöküntüsü azalmış və bu çöküntüləri terrigen materiallar əvəz etmişdir. Dərinlik artdıqca onların miqdarı da azalmışdır. Gilli-terrigen layın qalınlığına eyni zamanda çöküntünün toplanmasına sərf olunan zaman da təsirini göstərmişdir.

Halit və silvinə nisbətən çətin həll olunan anhidrit stratiqrefiyada özünəməxsus mövqe tutur və bu gün gilli təbəqələr arasında rast gəlinən anhidrit o zamankı körfəz sularının sıxlığının xeyli yüksək olmasını göstərməkdədir. Qonşu rayonlarda isə alevritli-gilli çökmə mənşəli suxurların toplandığı, nisbətən şirinsulu və sahəcə çox da böyük olmayan hövzə fəaliyyət göstərmiş olur. Konk əsrində Karakandan fərqli, daha iri dənəli terrigen materialların yaratdığı alevrit-qumdaşı suxurlar içərisində müxtəlif fosullar özlərinə yer tutur.

Konk və Sarmat əsrlərinin sərhəddində körfəzdə kəskin dayazlaşma prosesi duzluluğun yenidən artmasına səbəb olur. Aşağı və Orta Sarmatın su hövzəsi Konka nisbətən daha çox qərbə doğru genişlənir. Bu gün Duzdağda nəzərə çarpan rəngarəng qumlu-gilli suxurlar Aşağı və Orta sarmatda Naxçıvan çökəyində turşulu rejimin olmasını isbat etməkdədir (6, səh. 125).

Aşağı və Orta Sarmatda hövzə dayazlaşır və buraya daxil olan şirin suların miqdarı da tədricən azalır. Duzdağ massivində anhidrit və duzla yanaşı əhəngdaşı və mergelin qarışığı gips təbəqəsi formalaşır (şək.9). Sonrakı kontinental inkişaf mərhələsində Naxçıvan çökəyində, xüsusi ilə onun mərkəzi və qərb hissəsində paleo-coğrafi şərait dəyişir. Aşağı və Orta sarmatın rəngarəng, qırmızı qumlu-gilli suxurları Yuxarı sarmatın boz və yaşımtıl-boz gilli-qumlu-əhəngli və qumlu çınqıllı suxurları ilə əvəz olunur. Yuxarı sarmatda hövzə xeyli şirinləşdiyi üçün suxurlarda hidrokimyəvi çöküntülərə demək olar ki, rast gəlinmir. Bu zaman isti və quru iqlim öz yerini qısa müddətli isti və rütubətli iqlimə verir.

Duzdağ massivində əsasən üfüqi istiqamətdə uzanan və bir-birləri ilə növbələşən müxtəlif qalınlıqlı asan həll olan duz, filtrasiya və həllolma əmsalı aşağı gil və anhidrit laylarının mövcudluğu burada mağaraların bir neçə mərtəbəli olmasına şərait yaratmışdır. Geoloji zaman ərzində Duzdağ massivinin tektonik qalxmaya məruz

qalması nəticəsində karstlaşmanın eroziya bazisindən xeyli yuxarıda eyni suxurlar üzərində bir qrup mağaralar yaranmışdır. Buraya toplanan sular ponorlar vasitəsi və ya sadəcə olaraq filtrasiya yolu ilə aşağı qatlara keçərək burada yeni yeraltı boşluqlar yaratmışdır və bunların əksəriyyəti kordur. Kor mağaraların əsas indiqatorları səthdəki nəlbəkilər və iri çatlardır.

Ən böyük mağaralar qanunauyğun olaraq çılpaq səthi karstların kümbəzlərinin dabanındakı qalın gilli-anhidritli layların üzərində əmələ gəlmişdir. Kümbəzlərin dabanında çox saylı mağaraların ağzı, altında isə əsas hissəsi yerləşir. Müvəqqəti səth suları ağız hissəni yuyaraq genişləndirir və bəzən də gətirmələrlə qapayır. Çox hallarda qapanma konusun yamacının uçaraq ağız hissəyə tökülməsi nəticəsində baş verir.

Toplanan materialların əsasında qurduğumuz cədvəlin təhlili daha aşağıda, hansı dərinlikdə mağaraların olması ehtimalını ortaya çıxarmağa imkan verməkdədir (cədvəl). Qeyd etmək lazımdır ki, Ş.A.Əzizbəyov 805 metr dərinliyə kimi Sarmat mərtəbəsinin müxtəlif qalınlıqlı 74 təbəqə aşkar etmişdir (1, səh.143-145). Nümunə üçün 26 laydan ibarət tərtib etdiyimiz cədvəldə 1 saylı mədən yaxınlığında Karakanın startiqrafiyası verilmişdir.

**Duzdağ massivində I mədən yaxınlığında suxurların qalınlığı və dərinliyi cədvəli**

(Cədvəl Azərbaycan SSR Nazirlər Soveti yanında Geologiya və Yer Təkinin Mühafizəsi İdarəsinin materialları əsasında hazırlanmışdır.)

| **Sıra** | **Lay** | **Rəngi və tərkibi** | **Layın dərinliyi (m-lə)** | **Layın qalınlığı (m-lə)** |
|---|---|---|---|---|
| **IV dövr** | | | | |
| **1** | Gillicə | Boz | 0,0 – 1,8 | 1,8 |
| **2** | İridənəli qum və çınqıl | Boz və ağımtıl | 1,8 – 4,90 | 3,1 |
| **Karakan** | | | | |
| **3** | Gil | Qırmızı boz zəif əhəngli və gips | 4,90 – 17,60 | 12,7 |
| **4** | Qumdaşı | Qırmızı boz, gipslə qarışıq | 17,60 – 18,25 | 0,65 |
| **5** | Gil | Qəhvəyi, qırmızı-qonur nazik gips qatı ilə | 18,25 – 33,30 | 15,05 |
| **6** | Gil | Tünd-boz, kipləşmiş vulkan küllü qatı ilə | 33,50 – 35,00 | 1,5 |

| | | | | |
|---|---|---|---|---|
| **7** | Gil | Qəhvəyi-qonur | 35,00 – 36,20 | 1,2 |
| **8** | Gil | Yaşıl-boz, ağ vulkan külü ilə | 36,20 – 36,50 | 0,3 |
| **9** | Gil | Boz, gips və anhidritlə | 36,50 – 39,75 | 3,25 |
| **10** | Gil | Yaşıl-boz, açıq-boz vulkan külü ilə | 39,75 – 49,50 | 9,75 |
| **11** | Gil | Qırmızı-qonur, gipslə | 49,50 – 52,00 | 2,5 |
| **12** | Gil | Tünd boz, güclü gipsləşmiş | 52,00 – 88,00 | 36 |
| **13** | Anhidrit | Gilli, gilli-qumlu | 88,00 – 99,95 | 11,95 |
| **14** | Duz | Açıq-boz, nazik təbəqəli gips | 99,95- 106,75 | 6,8 |
| **15** | Gil və gillicə | Nazik gips və duzla | 106,75 – 107,50 | 0,75 |
| **16** | Duz | Açıq boz, gipsli qumlar | 107,50 – 108,50 | 1 |
| **17** | Gilli qumdaşı | Anhidritlə | 108,50 – 109,50 | 1 |
| **18** | Duz | Gilli qumdaşı və gipslə örtülü | 109,50 – 112,80 | 3,3 |
| **19** | Duz | Anhidrid və nazik gil | 112,80 – 128,20 | 15,4 |
| **20** | Duz | Açıq-iridənəli duzla yanaşı qumdaşı gil və anhidrid | 128,20 – 138,10 | 9,9 |
| **21** | Gil | Tünd-boz qumdaşı və duz | 138,10 – 139,10 | 1 |
| **22** | Duz | Nazik gil, qumdaşı və anhidrit | 139,10 – 150,75 | 11,65 |
| **23** | Gil | Tünd-boz, anhidritlə | 150,75 – 151,00 | 0,25 |

| | | | | |
|---|---|---|---|---|
| **24** | Duz | Tünd-boz, anhidrit gil və gilli əhəng | 151,00 – 156,35 | 5,35 |
| **25** | Duz | Tünd-boz, cuzi anhidritlə, gillə | 156,35 – 163,35 | 7 |
| **T a r x a n - Ç o k r a k** | | | | |
| **26** | Gil | Tünd-boz, cuzi anhidritlə | 163,35 – 171,00 | 7,65 |
| Ümumi qalınlıq | | | | 171 |

Cədvəldə göstərilən laylar üzrə Duzdağ duzunun ümumi ehtiyatı M.Ə.Qaşqaya görə 1,13 mld tondur (4, səh.132).

Cədvəldən göründüyü kimi Duzdağ massivində ən böyük mağaraların yaranma ehtimalı qalınlığı 6,85 metr olan 14-cü, qalınlığı 15,40 m olan 19-cu, qalınlığı 9,90 m olan 20-ci və qalınlığı 7 m olan 25-ci laylardadır. 14-cü layda yerləşən bir neçə mağaradan yalnız birində doymuş məhlullu gölə, eləcə də, duz və kalsit kristallarının yaratdıqları stalaktitlərə rast gəlinmişdir (şəkil 10). Bu mağaradan çıxan su bir neçə yüz metr axdıqdan sonra itir.

Yer altında üfüqi və meyilli çatlar üzrə hərəkət edən sular halogenli suxurların kimyəvi tərkibindən və yeraltı suxurların çatlıq dərəcəsindən asılı olaraq müxtəlif mağaralar yaratmışdır.

14-cü layda yerləşən mağaralardan qədim insanlar müvəqqəti sığınacaq, bəlkə də, məskunlaşma kimi də istifadə etmişlər. Mağaralarda tapılan daş baltalar, gildən hazırlanmış məişət qablarının qalıqları və gömülmüş mədəni təbəqənin, ocaq külünün olması bu fikri təsdiq etməkdədir. İçməli şirin suyun və onun əldə olunmasının mümkünsüzlüyü mağaralardan daimi məskunlaşma kimi istifadə etməyə imkan verməmişdir.



*Şək. 9. Sarmatın gilli çöküntüləri*



*Şək.10. Karbonatlı - halogenli stalaktit*

Qeyd etmək lazımdır ki, vaxtı ilə duz istehsalı ümumi faydalı qazıntı istehsalında həcminə görə birinci yerdə, XX əsrin sonuna yaxın isə dəmir və kömürdən sonra üçüncü yerdə durmuşdur (5. səh.206). Bu fakt yaxın zamanlara kimi Duzdağ duzunun nə qədər mühüm əhəmiyyət daşımasının göstəricisidir.

Zəngin ehtiyatı və yüksək keyfiyyəti ilə seçilən Duzdağ duzu dövri qədimdən yaxın keçmişə qədər bu mağaralarda depolanmış və Koreyadan Pireneyə qədər uzanan böyük karvan yolunun orta xətti ilə Avropaya ixrac edilmişdir.

## ƏDƏBİYYAT


1. Азизбеков Ш.А. Геология Нахичеванской АССР. Москва, 1961. 500с.
2. Bababəyli N.S., İmat F.M. Araz çay sisteminin yuxarı hissəsinin ekocoğrafi şəraiti. Naxçıvan, 2009. 214 s.
3. Qaşqay M.Ə. Naxçıvan MSSR-in faydalı qazıntıları. AzSSREA Xəbərləri. N:5. Bakı, 1949, səh. 29-48.
4. Qaşqay M.Ə. Naxçıvan MSSR-in faydalı qazıntıları. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası. Bakı, 1975, səh.115-138
5. Məmmədov Ş. H., Muxtarov H.H. Naxçıvan MSSR-in faydalı qazıntılarının səmərəli istismarının əsas prinsipləri. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası. Bakı, 1975. səh.191 - 212.
6. Bababəyli N.S., İmat F.M. Naxçıvan diyarı Nuh tufanından əvvəl və sonra. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Beynəlxalq simpoziumun materialları. Naxçıvan, 2010, səh. 219-126.

**Caroline HAMON**
*Candidate of history,*
*USA*

# EXTRACTION AND TRANSFORMATION OF SALT IN DUZDAGI: THE STONE TOOLS EVIDENCES

Since the Neolithic, salt has been a strategic resource both for human food and the feeding of cattles. Facing the lack of direct evidences of exploitation, the archaeology of salt is generally relying on the study of the different artefacts connected to its transformation. Our work on the technology of salt extraction and transformation in Caucasus was conducted between 2008 and 2012 on the salt mine of Duzdagi in Nakhchivan (Azerbaïjan).

**The salt mine of Duzdagi**

The salt mine of Duzdagi is located 7 km to the northwest of city of Nakhchivan in the Araxes valley (Marro *et al.* 2010). Still being exploited today, the salt is of very good quality as it contains more than 98% of pure NaCl. The salt deposits occupy an area of 3km long and 2 km wide (fig.1). In this area, the systematic survey conducted by our team put to light a high number of archaeological remains, including potsherds, macrolithic tools and obsidian artefacts. Preliminary results on the pottery show that most of these remains are dated of the Late Chalcolithic and Early Bronze Age (end of Vth-IVth millennium BC). Some Iron age and medieval pottery have also been found, indicating that the mine was visited long after. During the Chalcolithic and Early Bronze Age, the Araxe valley was already constituing a main way of circulation of men, products and ideas between Transcaucasia, Anatolia and northern Mesopotamia. This geographical situation is key to understand the strategic importance of the salt mine of Duzdagi in the exchange network through the whole Caucasus.

**Objectives of the research and fieldwork**

In the frame of this project, a systematic survey was conducted on the slopes of the mine together with S. Sanz and N. Aliyev. All the archaeological remains were systematically registered with a DGPS (Differential Global Positioning System) and all artefacts and archaeological structures were plotted on a Spot 5 satellite image (2,5 m resolution) in order to build a precise mapping of all the structures (galleries, outcrops, fireplaces, water, etc) and artefacts found.

The study of the stone tools was made in two steps. At first a systematic registration of about 800 stone tools was made on the site ; it was completed by a more precise technological and use-wear analysis of a sample of 200 stone tools in laboratory. Three categories of tools have been identified: hammers, hammerstones and grinding tools (querns, pestles). Then, an experimental work was elaborated in order to test our archaeological interpretations.

**Typology and functional analysis of the hammers**

Hammers represent 80 % of the assemblage. Their raw materials come from different sources. Cobbles of sandstones, granites and basalts come probably from the alluvial deposits still visible at the top of the Duzdagi mount, or from the Naxcivan çay. But some volcanic rocks of the great dolerite and gabbro family were used for the production of a very specific type of hammer. Their use implies some specific raw

material procurement strategy as the nearest geological sources of these rocks are located twenty kilometers north of the mine.

A systematic typology of the hammers has been built, and mapped. Different categories of hammers were identified, on the basis of their size (from 400g to more than 60 kg), their raw material (soft or hard), their shape (spherical, triangular, quadrangular) and their shaping techniques (natural cobbles, by flaking, pecking, etc). The localization and shape of their haftening grooves are also a key element for the definition of these different types of hammers. Different types of hammers and grooves have been tested by experimentation.

Six main types of hammers have been identified (fig. 2). The diversity of their characteristics shows that different extraction techniques have been used on the site. They correspond to different methods of shaping, durations of use and functions. Some of the hammers are simple cobbles directly used without shaping (fig. 2a). Some others show simple notches on both sides (fig. 2b). But most of them show different associations of linear or curvilinear large grooves on their faces, sides and/or ends (fig. 3). These simple or complex associations of grooves are part of an handling system. The heaviest hammers, which can sometimes weight tens of kilograms, cannot be fixed on a handle (fig. 4). One type of groove, circular and located on the very end of the tool, evokes a system of suspension on a rope. Another particular type of hammer is made in a very hard green rock of the dolerite and gabbro family (fig. 5). They have been very carefully shaped by pecking, so as to create a very narrow point. These hammers were used for a long time. These tools, also found in Kületepe I and II (Abibullayev 1982, Aliyev 1991), are apparently associated to Kuro-Araxe contexts.

**The other stone tools**

Other categories of tools such as grinding tools and hammerstones have also been found on the site.

Several querns and grinders were identified, together with pestles in varied raw materials. Querns and grinders are in basalt. This raw material is commonly used in the Caucasus for grinding tools on Neolithic and Bronze Age settlements. Generally broken, they may have been brought on the mine for reutilization.

Conical and cylindrical pestles, made on cobbles of different raw materials, were also found on the site (fig. 6). The first use-wear analysis results show that they were used for the transformation of soft mineral matters rather than for food preparation. This suggests that some stages of salt transformation were made directly on the mining site, very close to the extraction areas.

Many spherical hammerstones made on silicified rocks (flint, quartzite, sandstones) were found on the site, together with intermediate tools. They are mainly found together with hammers flakes and broken hammers. They were probably used for the shaping of the hammers by flaking and pecking. This is all the more probable as some rough out of hammerstones have been found on the mining area. This shows that some of the hammers were shaped and directly repaired on the mine.

**Conclusion**

The mapping of the different types of stones tools in Duzdagi shows that extraction of salt rock and transformation of salt into powder was made directly on the site. The diversity of the stone tools found on the salt mine of Duzdagi suggests that episodes of opportunist exploitation of the salt may have coexisted with more structured and complex exploitations based on a high level of technical skillness. The distribution of

the different types of hammers and stone tools also reveals that a certain form of work organization was existing between extraction zones and associated “workshop” areas. Further investigations will show how the use of these tools was integrated to a complex organization of the exploitation, transformation and circulation of salt throughout Caucasus and neighboring regions.

**References**


1. Abibullayev O. 1982. Энеолит и бронза на территории Нахсичеванской АССР. Баку : Элм.
2. Aliyev V. 1991. Култура эпохи средней бронзы Азербайджана. Баку : Элм.
3. Marro C., Bakhshaliyev V. and Sanz S. 2010. Archaeological investigations on the salt mine of Duzdagi (Nakhchivan, Azerbaïdjan). TÜBA-AR. Vol 13.


**Legend des figures**



*Fig. 1. Duzdagi salt mine*



*Fig. 2. Duzdagi hammers:* complex *handling system*



*Fig. 3. Duzdagi hammers: heavy type*

**Bəhlul İBRAHİMLİ**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

# ANTİK DÖVRDƏ NAXÇIVANIN DUZ TİCARƏTİ HAQQINDA

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba-Gilan arxeoloji ekspedisiyası 2008-2011-ci illərdə Arazın qolu olan Gilançayın sol sahilində yerləşən Sumbatan (Sunbatan kimi də işlənir) qədim şəhər yerində arxeoloji tədqiqat işləri aparmışdır (1.70-74; 2.138-142; 3.135-142).

2010-cu ildə dağın zirvəsində, 480 $m^2$ sahədə aparılan arxeoloji qazıntılar burada dini-inzibati təyinatlı tikili kompleksinin olduğunu göstərdi. Kompleks, antik dövrdə, orta və son əsrlərdə dəfələrlə dağıntıya məruz qalmışdır. Şəhər hər dəfə dağıntıya məruz qaldıqdan sonra bərpa olunmuşdur ki, bərpa izləri arxeoloji qazıntılar zamanı, xüsusilə kompleksin şərq tərəfində daha aydın izlənmişdir. Kompleksin yaşayış yerinə tərəf olan hissəsinə nisbətən, dağın sıldırım qayalıq olan tərəfindəki divarlarının özülü o dövrdəki yer səthindən 1,8-2,0 m hündürlüyündə (6-8 daş hündürlükdə) salamat qalmışdır. Axırıncı dağıntıdan sonra – təqribən eramızın III əsrində tikintinin təyinatı dəyişdirilmişdir.

Tikilinin əsas divarı şimal-cənub istiqamətində olub, eni cənub tərəfdə 3,0 m, şimal tərəfdə isə 2,8 m-dir. Kontrforslarla təchiz olunmuş bu divarı, həm tikinti kompleksinin əsas divarı, həm də şəhərin müdafiə divarı hesab etmək olar. Bu siklopik divarın mərkəzi hissəsində çəkisi 5-8 tona qədər olan qaya parçaları vardır. Qazıntı zamanı müəyyən edildi ki, müdafiə divarı işlənərkən dağın zirvəsindəki qaya parçalarından səmərəli şəkildə istifadə olunmuşdur. Kompleksin divarları da nəhəng qaya parçalarının üzərində işlənmiş, onların tikintisində bərkidici maddə kimi palçıq məhlulundan istifadə olunmuşdur. 2-3 metrlik divarların hər iki tərəfinə işlənmiş iri daşların arası müxtəlif həcmli daşlarla və palçıqla doldurulmuşdur. Bu zaman ən iri həcmli daşlar yaşayış yerinə tərəf deyil, divarın əks tərəfinə düzülmüşdür. Müdafiə divarının şərq tərəfdən dörd kontrforsu (eni 1,5 m, uzunluğu isə 3 m-ə qədər olduğundan onları rizalit də adlandırmaq olar) qismən salamat qalmışdır. Bu kontrforslar şimal divarındakı kontrforslardan fərqlənirlər, belə ki, şimal divarındakı kontrforslar divardan 50 sm qabağa çıxdığı halda bu kontrforslar 2,5-3,0 m qabağa çıxmışdır. Eyni zamanda kontrforsların arası 1,5 m hündürlüyü olan əlavə divarlarla bağlanmışdır ki, bu da kompleksin müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə artırmışdır. Əgər nəzərə alsaq ki, Sumbatan dağının bu tərəfi 50 m-ə qədər hündürlüyü olan sərt yamac və 9-10 m hündürlüyündə sıldırım qayalıqdır, onda kompleksin necə güclü müdafiə qabiliyyətinə malik olduğu aydın olar. Müdafiə divarları dağın ətəyində, dağın ortasında və zirvəsinə yaxın yerləşmişdir. Sumbatan dağının quruluşu elədir ki, onun aşağısından zirvəsinə qədər, 15-20 m-dən bir 2-3 m qalınlığında daş qatı keçir. Müdafiə divarları da bu daş qatlarına uyğun işlənmiş, eyni zamanda bu qaya parçalarından da istifadə olunmuşdur. Dağın bir çox yerində bu daşların qabağı işlənərək ona divar görkəmi verilmişdir. Maraqlıdır ki, bu bir tərəfli divarların da kontrforsları vardır. Qazıntı zamanı, təqribən e.ə. I minilliyin ortalarına yaxın baş vermiş dağıntıdan sonra müdafiə divarlarının daha da möhkəmləndirildiyi nəzərə çarpır. Belə ki, bərpa zamanı dağın zirvəsindəki axırıncı müdafiə divarının kontrforslarının arası işlənmiş, ehtimal ki, bu zaman divarların hündürlüyü də bir qədər artırılmışdır. Əks-təqdirdə kontrforsların arasının işlənməsi müdafiə qabiliyyətini azaltmış olardı.

Antik dövrdə şərq divarının yuxarıda göstərilən kontrforsları (1,5 m) daşla işlənərək dağın sıldırım qayalığına qədər uzadılmışdır. Güman ki, qonşu kontrforsların üstü örtülərək onlardan təsərrüfat məqsədilə və ya yaşayış otaqları kimi istifadə edilmişdir. Ehtimal ki, bu küp qəbirlərdə dəfn adətinin yayılmağa başladığı vaxt baş vermişdir. Elə bu zamandan tikinti kompleksi öz ilkin təyinatını itirmiş, məbəd kimi deyil, bütünlüklə yaşayış evi və ya inzibati bina kimi istifadə olunmuşdur. Zərdüş dininin zorla yayıldığı vaxtlar qədim məbədlərin dağıdılması haqqında yazılı mənbələrin məlumatları vardır.

Qədim bərpa izləri demək olar ki, kompleksin hər yerində nəzərə çarpır. Sumbatan dağının şərq tərəfindəki nəhəng qayalıqlar zaman-zaman uçub aşağı yuvarlanmış və buradakı tikililərin üzərini örtmüşdür. 5-10 tonluq bu qaya parçalarının bəziləri zaman-zaman aşınmış torpağın altında qalsa da, çoxu indi də aydın görünür. Dağın bu hissəsi uçub tökülərkən kompleksin burada yerləşən tikililəri də dağılmışdır. Bu səbəbdən də qazıntı zamanı kompleksin şərq tərəfdə necə tamamlandığını müəyyən etmək mümkün olmadı. Kontrforsların quruluşuna və dağın ətəyindəki bir tərəfli müdafiə divarlarının tikilişinə əsaslanaraq ehtimal etmək olar ki, qayalıqların arasındakı boşluqlar və çıxıntıların ətrafı daşla işlənərək möhkəmləndirilmişdi.

Qərbdən ikinci və üçüncü kontrforsların arasında, 0,9-1,1 m dərinlikdə 3-5 sm qalınlığında yanğın qalıqları olan təbəqə aşkar edildi. Bu yanğın qatına kompleksin içərisində rast gəlinmədi. Ehtimal ki, kompleks üçüncü dəfə dağıdılan zaman yanğın baş vermiş, yaxud qəsdən od vurulmuşdur. Bərpa olunarkən binanın içərisi təmizlənmiş, yanğın qalıqları kənara atılmışdır. Qazıntı zamanı müdafiə divarının şərq tərəfindən təsərrüfat küplərinin qalıqları və çay daşları tapılırdı.

Tikinti kompleksinin təqribən mərkəzindən keçən əsas divarın cənub tərəfi dağın ən hündür yerində sıldırım qayalığın kənarında qurtarır. Burada, divarın şərq tərəfində iki otaq aşkar edildi. Cənubdan birinci otağın sahəsi 18 $m^2$, ikinci otağın sahəsi isə 16 $m^2$-dir. Otaqların şərq divarı saxlanmamışdır, cənub və şimal divarlarının eni müvafiq olaraq 1,1-1,3 m-dir. Birinci otağın qərb tərəfdən 0,8 m enində giriş yolunun divarları 35-40 sm hündürlüyündə salamat qalmışdır. İkinci otağın giriş yolu aşkar edilmədi, ehtimal ki, şərq tərəfdən olmuş və sonradan uçmuşdur. Qeyd etmək lazımdır ki, ikinci otaq kontrforsların arasında, qədim bərpa zamanı yaradılmışdır.

Qazıntı zamanı cənubdan ikinci kontrforsun şimal-şərq küncündə, 2,2 m dərinlikdə, 1,3 $m^2$ sahədə İlk Tunc dövrü mədəni təbəqəsi aşkar edildi. Mədəni təbəqə ocaq yerindən, möhrə divar qalığından və qara-boz gilli, yarımşar formalı qulpu olan qabın gövdə və qulp hissələrinin fraqmentlərindən ibarət idi. Təəssüf ki, İlk Tunc dövrünün mədəni təbəqəsini qazıntının başqa yerlərində izləmək mümkün olmadı.

İkinci və üçüncü kontrforsların arası 3,8 m-dir, əsas divardan şərqə tərəf onların arası 1,2 m hündürlüyündə daşla işlənmişdir. Üçüncü və dördüncü kontrforsların arası nisbətən dardır (1,6 m). Burada əsas divarla kontrforslar arasında sahəsi 4,2 $m^2$ olan kiçik otaq yerləşir. Otağın cənub-qərb küncünə yaxın iri həcmli təsərrüfat küpü fraqmentlər şəklində aşkar edildi. Küp fraqmentlərinin arasında ən böyüyü 1 kq-a qədər olan daş duz tikələri var idi. Çox güman ki, təsərrüfat küpündən duz saxlamaq üçün istifadə olunmuşdur. Beşinci kontrfors 0,7 m hündürlüyündə salamat qalmışdır. Bu kontrforsun üzərində və ümumiyyətlə kompleksin şimal tərəfində XV əsrdən sonrakı dövrə aid yeddi müsəlman qəbri vardır ki, onlar abidənin bu hissəsində arxeoloji qazıntı işləri aparmağa maneçilik törədirlər. Müsəlman qəbirləri qurularkən qədim tikililər güclü dağıntıya məruz qalmışdır. Qəbirlərin hansı ailəyə və ya hansı tayfaya məxsus

olduğu çoxdan unudulmuşdur. Sabir kənd mollasının razılığı ilə kompleksin şimal divarı üzərində yerləşən müsəlman qəbrini yaxınlıqdakı qəbristanlığa köçürtdükdən sonra qazıntını davam etdirdik. Altıncı kontrfors əsas divarın şimal qurtaracağında, kompleksin şimal-şərq küncündə yerləşir və burada şimal və şərq divarlarının kontrforsları birləşir. Məbədin şimal divarının uzunluğu 11,8 m, eni 2m-dir, 1,0-1,3m hündürlüyündə salamat qalmışdır. Bu divarın, bir-birindən 5,6 m aralı üç kontrforsu vardır. Kontrforsların eni 1,6 m-dir. Onlardan biri divarın şərq qurtaracağında, ikincisi qərb qurtaracağında, üçüncüsü isə divarın mərkəzində yerləşir. Kənarlardakı kontrforslar 40 sm, ortadakı isə 30 sm irəliyə çıxmışdır. Kompleksin şimal-şərq küncündəki kontrforsun şərq tərəfdə eni 1,8 m-dir.

Kompleksin qərb divarının eni 1,2 m-dir, iri həcmli dağ daşlarından gil (palçıqla) məhlulu ilə işlənmişdir. Bu divarın, kompleksin şərq divarından ensiz olması onun yaşayış yerinə tərəf olması və buradan hücum təhlükəsinin az olması ilə bağlıdır.

Kompleksin cənub divarının qərb tərəfdə 1,2 m, şərq tərəfdə isə 0,8 m hissəsi 0,3-0,5 m hündürlüyündə salamat qalmışdır. Qalan hissələri tamamilə dağıdılmışdır. Qeyd etmək lazımdır ki, kompleksin cənub və qərb divarları dağıntıya daha çox məruz qalmışdır ki, bu da orta əsr qəbristanlığının buraya yaxın yerləşməsi ilə əlaqədardır. Qəbirlərin yerüstü hissəsi qurularkən divar daşlarından istifadə olunmuşdur. Kompleksin qərb divarı ilə əsas divarı arasında böyük bir otaq aşkar edilmişdi. Otağın qərb tərəfində, kompleksin qərb divarına bitişik eni 0,8 m olan divar qalığı bu otağın iki hissəyə bölündüyünü göstərir. Qazıntı zamanı bu otağın şimal divarı yanında, orta əsrlər dövrünə aid üç müsəlman qəbri aşkar edilmişdi. Qəbirlər qazıntıya mane olmadığından onların köçürülməsinə ehtiyac olmadı. Otağın şimal-şərq küncündə eni 1,3 m olan, 0,7-1,0 m hündürlüyündə salamat qalmış qapı yeri aşkar edildi. Bu qapı yeri, sahəsi 12,3 $m^2$ olan otağa açılır. Otağın cənub-qərb tərəfində, cənub divarı yanında, 83 sm diametrində, içərisində 5-6 sm qalınlığında kül qatı olan ocaq yeri aşkar edilmişdi. Otağın bu hissəsində daş döşəmə sökülmüşdür. Ehtimal ki, bu ocaq yeri qədim bərpadan sonrakı dövrə aiddir. Otağın şimal divarının mərkəzi hissəsində eni 1,1 m olan qapı yeri aşkar edildi. Bu otaqdan şimala tərəf kompleksin mərkəzı otağı yerləşir. Otağın sahəsi 49 $m^2$-dir. Şərq və şimal divarları 0,9-1,0 m, qərb divarı isə 0,3 m hündürlüyündə salamat qalmışdır. Otağın şimal-şərq küncündə, divarlarda 3-7 sm qalınlığında gildən çəkilmiş suvaq qalmışdır. Belə suvaq izləri kompleksin əsas divarının şərq tərəfində də aşkar edilir. Görünür ki, kompleks həm içəridən, həm də eşikdən gillə suvanmışdı. Otağın tam mərkəzində ətrafı daşla işlənmiş dirək yeri vardır. Dirək, diametri 35-38 sm olan ağacdan olmuşdur. Burada ağac çürüntüsü aşkar edilməmişdi, lakin palçıqda dirəyin yeri aydın görünür, ona görə də dirəyin dağıntıdan sonra çıxarılıb aparıldığı ehtimalı həqiqətə daha yaxındır. Bu otaqdan şimala tərəf, otaqla şimal divarı arasında daha bir otaq da vardır. Həmin otağın ölçüləri böyük otağın cənub tərəfindəki otağın ölçüləri ilə demək olar ki, eynidir (12,5 $m^2$). Bu otağın cənub-qərb küncündə iri həcmli təsərrüfat küpünün alt hissəsi aşkar edildi. Görünür küpün yuxarı hissəsi kompleksin qərb divarı sökülərkən sındırılıb atılmışdır.

Sumbatan-Dizə yaşayış yerinin üç dəfə dağıntıya məruz qaldığı və bərpa olunduğunu yuxarıda qeyd etdik. Birinci və üçüncü dağıntılar yanğınla müşayiət olunmuşdur ki, onların qalıqlarını qazıntı zamanı aydın izləmək mümkün olmuşdu. Birinci dağıntıdan və yanğından sonra divarlar da uçurdulmuşdur. Uçmuş divar daşlarından divarların bərpası zamanı istifadə olunmuşdur. Üzərində yanğın izləri olan daşlara kompleksin cənub-şərq divarlarında daha çox rast gəlinir. Üçüncü dağıntı

zamanı baş vermiş yanğının izlərinə kompleksin mərkəzi otağının cənub tərəfində və cənub-şərqdəki ikinci otaqda rast gəlinmişdi. Görünür, bu yanğın tikilinin hər tərəfini əhatə etməmişdir, yaxud dağıntıdan bir müddət sonra baş vermişdir. Əldə edilən arxeoloji tapıntılarda yanğın izlərinə rast gəlinməməsi ikinci ehtimalın həqiqətə daha yaxın olduğunu göstərir.

Qədim Sumbatan şəhərinin baş darvazası cənub-şərq tərəfdən olmuşdur. Sumbatan dağı burada Dəyirman dağı ilə yaxınlaşır, onlar arasındakı məsafə təqribən 50 m-ə qədərdir. Dəyirman dağının Sumbatan dağına yaxın hissəsində dağ daşlarından və çay daşlarından inşa olunmuş tikili qalıqları aşkar edilmişdi. Çox güman ki, bu şəhər darvazaları yanındakı müşahidə məntəqəsinin qalıqlarıdır. Təəssüf ki, iki dağ arasındakı ərazidə bağ salınmış və avtomobil yolu çəkilmişdir. Qədim tikililərdən, yalnız kənara atılmış və çox ağır olduqlarından istifadə olunmamış dağ daşları qalmışdır. Həmin daşlar vaxtilə burada siklopik tikililərin olduğunu göstərir. Çox güman ki, qədim tikililərin özülləri bəzi yerlərdə qalmışdı, lakin o yerlər hazırda şəxsi həyətyanı sahələr kimi istifadə edilir. Qədim Sumbatanın darvazaları burada – iki dağın bir-birinə ən çox yaxınlaşdığı yerdə olmuşdur. Sumbatan dağı ilə Dəyirman dağı və Hidayətin dirriyi arasındakı ərazi 15 hektara yaxındır. Şəhərin əsas tikililəri də burada yerləşmişdir. Şəhər tikililərinin yerləşdiyi ərazinin ortasında, hündürlüyü 12-15 m olan bir təpə vardır. Təpənin iki yerində qoyulan şurflar burada yalnız qəbir abidələrinin olduğunu göstərdi. Belə aydın olur ki, Sumbatan yaşayış yeri hələ eyni adlı dağın üzərində və ətrafında olduğu zaman bu təpədə yaşayış yerinin qəbiristanlığı yerləşmişdir. Şəhərin ərazisi genişləndiyi zaman da burada, ətraf əraziyə görə hakim mövqeyə malik olmasına baxmayaraq heç bir tikinti işləri aparılmamış və bura qəbiristanlıq olaraq qalmışdır.

Sumbatan yaşayış yerində tikililər nə qədər çox dağıntıya məruz qalsa da burada Tunc dövründən müasir dövrə qədər fasiləsiz olaraq yaşayışın davam etməsi, bütün dövrlərə aid mədəni təbəqələrin mövcudluğu tariximizin və mədəniyyətimizin öyrənilməsində abidənin mühüm əhəmiyyətə malik olduğunu göstərir. Tədqiqatlar zamanı qədim şəhərin plan quruluşu, memarlığı, tikinti texnikası və sənətkarlığı ilə yanaşı çox maraqlı faktlar da aşkar edilmişdir. Bu maraqlı faktlar içərisində daş bütləri və duz anbarlarını xüsusilə qeyd etmək lazımdır.

Duz anbarları şəhərin narınqala hissəsində, Dəmir dövründə məbəd, antik dövrdə isə bərpa edilərək inzibati bina kimi fəaliyyət göstərən kompleksdə aşkar edilmişdir. İki anbardan biri şərq tərəfdəki kontrforsların arasında, digəri isə kompleksin qərb tərəfində "gizli" otaqda yerləşir.

Kompleksin şərq divarındakı ikinci və üçüncü kontrforsların arası 3,8 m-dir, əsas divardan şərqə tərəf onların arası 1,2 m hündürlüyündə daşla işlənmişdir. Üçüncü və dördüncü kontrforsların arası nisbətən dardır (1,6 m). Burada əsas divarla kontrforslar arasında sahəsi 4,2 $m^2$ olan kiçik otaq yerləşir. Otağın cənub-qərb küncünə yaxın iki iri həcmli təsərrüfat küpü fraqmentlər şəklində aşkar edildi. Küp fraqmentlərinin arasında ən böyüyü 1 kq-a qədər olan (ümumi çəki 17 kq 650 q) daş duz parçaları var idi (3.139). Bu təsərrüfat küplərindən duz saxlamaq üçün istifadə olunmuşdur.

Kompleksin qərb divarının təqribən mərkəzində giriş yolu vardır. Bir tərəfi tamamilə uçub dağıldığından giriş yolunun enini dəqiq müəyyən etmək mümkün olmadı, lakin daxili divarların simmetrikliyinə əsaslansaq giriş yolunun təqribən 1,5 m enində olduğunu ehtimal etmək olar.

Giriş yolundan şimala tərəf, bir-birinin içərisində yerləşmiş iki gizli otaq aşkar edildi. Bu otaqlardan birincisi düzgün olmayan dördbucaqlı formasındadır. Onun

cənuba tərəf olan hissəsinin uzunluğu 3,7 m, şərqə tərəf olan hissəsinin uzunluğu 4,0-4,2 m, enləri isə müvafiq olaraq 1,7 m və 0,9 m-dir. Bu otağın şimal küncündə 15 kq daş duz parçaları aşkar edildi. İkinci gizli otağın girişi bu otağın içərisindəndir, eni 0,6 m-dir. İkinci gizli otağın içərisindən bir neçə gil qab fraqmentindən başqa heç nə tapılmadı.




*Sumbatan-Dizə yaşayış yeri. Məbədin planı.*

Dördüncü geoloji dövrdə formalaşan 5 laydan ibarət Naxçıvan Daş-duz yataqlarından insanlar çox qədimdən istifadə etməyə başlamışlar (4.347). Naxçıvan duzu Eneolit dövründən başalayaraq mübadilə vasitəsi olmuşdur. Tunc dövründə şərq ölkələri ilə ticarət əlaqələrində Naxçıvanda istehsal olunan duz, metal və dulusçuluq məmulatı mühüm yer tutmuşdur (5. 367). Arxeoloji tapıntılar göstərir ki, antik dövrdə duz mübadiləsi daha da genişlənmişdir. Bu mübadilədə demək olar ki, Naxçıvanın

bütün iri yaşayış məntəqələri, ən çox isə inzibati mərkəzlər iştirak etmişlər. Naxçıvanın şərqində yerləşmiş ən fəal inzibati mərkəz Sumbatan-dizə şəhəri olmuşdur. Sumbatan-dizə şəhərinin duz ticarətində əsas vəzifəsi Arazın aşağı axarında və onun qolları üzərində yerləşmiş yaşayış məntəqələrinə Naxçıvan duzunu çatdırmaq idi. Çox güman ki, duz Naxçıvan əhalisi üçün zəruri olan ərzaqa və sənətkarlıq məhsullarına dəyişdirilirdi. Etnoqrafik faktlar sübut edir ki, Naxçıvanın qədimdən formalaşmış duz ticarəti XX əsrin ortalarına qədər davam etmişdir.

XIX əsrin sonlarından XX əsrin 30-cu illərinə qədər Culfa rayonunun Yaycı kənd sakini Kərbəlayi Həzrətqulu 23 dəvə ilə Naxçıvan duzunu mütəmadi olaraq, hazırda Qərbi Azərbaycan (Ermənistan) ərazisində yerləşən Qərçivan (qədim adı Duzaldır) şəhərinə daşıyırmış. Maraqlıdır ki, Sovet hakimiyyəti də inqilabdan əvvəl mövcud olmuş bu vəziyyəti dəyişməmiş, əksinə dövlət ondan istifadə etmişdir. Yalnız XX əsrin 30-cu illərində, kollektivləşmə dövründə Kərbəlayi Həzrətqulunun dəvələri müsadirə olunmuşdur. Həmin vaxtdan sonra bu işlə dövlət məşğul olsa da, lakin bir müddətdən sonra çox qədimdən mövcüd olmuş bu ticarət yolu öz fəaliyyətini dayandırmışdır.

Beləliklə, həm arxeoloji, həm də etnoqrafik faktlar Naxçıvanın qədim zamanlardan formalaşmış və zaman keçdikcə bütün ətraf regionları əhatə edən təkmilləşən duz ticarəti şəbəkəsinin olduğunu sübut edir.

## ƏDƏBİYYAT:

1. Azərbaycanda arxeoloji tədqiqatlar. 2008. Bakı, 2008.
2. Azərbaycanda arxeoloji tədqiqatlar. 2009. Bakı, 2010.
3. Azərbaycanda arxeoloji tədqiqatlar. 2010. Bakı, 2011.
4. Naxçıvan ensiklopediyası. Bakı, 2002.
5. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008.

**Tofiq BABAYEV**
*Tarix üzrə fəlsəfə doktoru*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

# DUZUN XALQ MƏİŞƏTİNDƏ YERİ

2002-ci ildə ulu öndər Heydər Əliyevin xüsusi sərəncamı və birbaşa dəstəyi ilə AMEA Naxçıvan Bölməsi fəaliyyətə başladı. Bütövlükdə Azərbaycan elminin inkişafında olduqca mühüm əhəmiyyət daşıyan bu hadisə müqəddəs vətən torpağımızın ayrılmaz parçası olan, qədim və zəngin tarixə, mədəniyyətə və dövlətçilik ənənələrinə malik Naxçıvanımızın hərtərəfli, daha dərindən öyrənilməsi işini gündəmə gətirdi.

Naxçıvan alimlərinin gərgin zəhməti ilə Naxçıvanın indiyə qədər lazımi səviyyədə öyrənilməyən müxtəlif problemləri tədqiqat obyektinə çevrildi. Bu baxımdan Naxçıvan tarixinin ən qədim dövrlərindən başlayaraq xüsusi diqqətlə, sözsüz ki, arxeoloji-tarixi mənbələrə əsaslanaraq obyektiv öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Aparılan tədqiqatların yüksək elmi-tarixi dəyəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talibovun 2006-2011-ci illərdə imzaladığı sərəncamlarda da əks olunmuşdur. Məhz bu sərəncamlar qədim Naxçıvan tarixi ilə məşğul olan alimlərin elmi fəaliyyətini daha da intensivləşdirmiş, keçirilən beynəlxalq simpoziumlar Naxçıvanın ilkin sivilizasiya və şəhərsalma mərkəzlərindən olduğunu təsdiq etmiş, bu gün tədqiqat obyektimizin əsas mövzularından olan Duzdağın bu sivilizasiyanın yaranması və inkişafındakı yerinin müəyyənləşdirilməsi məsələsinin həllində mühüm addımlar atılmışdır.

Duzdağ müqəddəsliyinə, loğman hikmətinə görə Naxçıvan elinin gözündə ucalıq, əyilməzlik rəmzinə çevrilib. Hər daşı, qayası, abidəsi tarixin canlı şahididir Duzdağın. Türk xalqlarının, eyni zamanda, Azərbaycan türklərinin mifik görüşlərində, folklorunda ulu, müqəddəs dağlar ən ülvi ibadət yeri hesab edilir. Tanrı mərhəmətindən şəfa tapmaq ümidilə yaşayanlar Duzdağa da ilahi bir varlıq kimi, pir kimi baxır, onun şəfa qüdrətinə inanaraq onu "Tanrı ocağı" adlandırırlar.

Duzdağın yaralara şəfa, dərdlərə dərman olması ilə bağlı bir rəvayət yada düşür. Deyilənə görə, çox-çox qədimlərdə bir hökmdarın qızı ağır dərdə mübtəla olur. Loğmanlar tökülüb gəlir, ancaq heç biri qızın dərdinə əlac tapa bilmir. Göz görə-görə qız şam kimi əriyir. Hökmdar qızının ölməsini görməmək üçün əmr edir ki, onu gözdən-nəzərdən uzaq bir yerə aparsınlar. Qızı gətirib, uca bir dağın başına çıxardırlar. O, tək-tənha qalır, boğulduğunu hiss edir, sinəsində baş verən ağrıdan yerə uzanır, dili ilə torpağı yalamağa başlayır. Aradan bir neçə gün keçir. Hökmdar əmr edir ki, gedib qızın vəziyyəti ilə tanış olsunlar, onun taleyindən xəbər gətirsinlər. Saray adamları həmin dağa gəlir, qızı sağ-salamat görüb gözlərinə inanmırlar. Ondan bu möcüzənin sirrini soruşurlar. Ətə-qana gələn, yanaqları allanan qız gülə-gülə cavab verir:

-Məni bu torpaq diriltdi. Ürəyimə qüvvət, gözlərimə işıq verən gördüyünüz bu torpaqdır, daşların qüdrətidir... Bu hadisədən sonra loğmanlar həmin dağa gəlir, dağın zirvəsindən torpaq götürüb diqqətlə baxırlar. Torpağın içindəki ağ parlaq duz dənəciklərini görüb təəccüblənirlər. Elə o vaxtdan bu dağa Duzdağ deyirlər.

Bu gün Duzdağ Naxçıvanın ictimai, iqtisadi və siyasi həyatında mühüm rol oynayır. Onun müalicəvi əhəmiyyəti çoxlarını heyran qoymuşdur. Uzunmüddətli müşahidələr, toplanmış etnoqrafik materiallar sübut edir ki, qədim duz mədənləri nə qədər azar-bezara əlac eləyib. 1979-cu ildə Duzdağda qədim duz mədənlərinin bazası

əsasında fizioterapiya xəstəxanası təşkil edildi. Yeraltı şaxtalarda köhnə duz mədənlərində qalmaq tənəffüs yollarının xəstəliklərinin ən yaxşı müalicəsidir.

Alimlər Duzdağın ilahiliyini, müqəddəsliyini, Naxçıvanda ilk məskunlaşmanı Nuh peyğəmbərlə bağlayırlar. Bu haqda məlum rəvayətlərin birində deyilir ki, tufandan sonra Naxçıvanda məskunlaşan Nuh peyğəmbər bu ərazinin ilkin sakinlərinə xeyirxah işlə məşğul olmağı – zəruri maddi nemətlərin əldə olunmasını, Duzdağdan duz çıxartmanı, ondan həyatın müxtəlif sahələrindən səmərəli şəkildə bəhrələnmək imkanını da öyrənmişdi (1. s.73).

Naxçıvan ərazisinin qədim və mürəkkəb geoloji quruluşa malik olması burada bir sıra metal və qeyri-metal filiz yataqlarının, faydalı qazıntıların, tikinti materiallarının eyni zamanda daşduz yataqlarının əmələ gəlməsinə səbəb olmuşdur. Muxtar Respublikanın iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edən daşduz yatağı Duzdağ Babək rayonu ərazisində, Naxçıvan şəhərindən 10-12 *km* aralıda yerləşib. Dərələyəz dağ silsiləsindən Araz çayına qədər uzanır. Yarımsəhra landşaftı var (2, s.55).

Tarixi-arxeoloji tədqiqatların nəticələri, eləcə də etnoqrafik-çöl materialları Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan ərazisində də əhalinin yerli təbiət məhsullarından bacarıqla yararlandıqlarını təsdiq edir. Qədim Naxçıvan sakinlərinin oturaq həyat tərzinə keçməsində daş duzdan istifadə də müəyyən rol oynamış və onlar təbiətin bəxş etdiyi bu qiymətli və əvəzedilməz nemətin bol olduğu yerlərdə, təsərrüfat üçün daha faydalı olan münbit torpaqlarda, suya yaxın ərazilərdə daimi məskən salmışlar. Zaman keçdikcə iqtisadiyyatın inkişafı və əhalinin artması yeni-yeni yaşayış yerlərinin də yaranmasına səbəb olmuşdur. Bu da təbii olaraq bölgənin regional iqtisadi və ticari əlaqələrində rolunun artmasına gətirib çıxarmışdır.

Duzdağ və buradan duz çıxarılması ilə bağlı ilkin məlumatlara XIX yüzilə aid əsərlərdə rast gəlinir. Zamanında Naxçıvan qəzasının iqtisadiyyatı və tarixi ilə bağlı bir sıra incəlikləri açıqlayan K.A.Nikitin 1870-ci ildə bu diyarın duz mədəninin nəzarətçisi Beyerin tapdığı daş balta və külüng haqqında məlumat verərək yazırdı ki, həmin alətlər ibtidai insanlar tərəfindən duz çıxarılmasında istifadə edilmiş və yeni daş dövrünə aiddir (3, s.115). Əldə olunan alətlər 40-60 kq olub adi çay daşlarına oxşayır. Bu alətlər Naxçıvan duzlağının qədim təbəqələrindən tapılmış və duzlağın hələ insanlara metal məlum olmadığı dövrdən istismar edildiyini göstərir.

1833-cü ildə B.Qriqoryev tərəfindən tərtib olunmuş "Naxçıvan əyalətinin statistik təsviri" kitabında Naxçıvan duzunun tamından, şöhrətindən, müxtəlif ərazilərə daşınmasından bəhs olunur: "Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetbol (Gəncə), dairəsindən, Şərurdan, Naxçıvanın bütün kəndlərindən buraya karvanlar gəlir. Aprel ayından oktyabr ayınadək duz istehsalının əhatə dairəsi daha da genişlənir"(4, s.17).

Naxçıvan Duzdağ mədənlərinin arxeoloji baxımdan tədqiqini sonralar Vəli Əliyev aparmış və bu da abidənin qədim tarixi ilə bağlı mövcud təsəvvürləri daha da genişləndirmişdir. Vəli Əliyev yazır ki, mədənin qarşısında, onun cənub-qərb tərəfindəki kiçik təpənin üstündə arxeoloji kəşfiyyat işləri aparıldı və buradan bir daş balta və xeyli gil qab qalıqları tapıldı. Bu qab qırıqlarını heç bir şübhə etmədən e.ə.III minilliyin sonu və e.ə. II minilliyin birinci yarısına (orta Tunc dövrü) aid etmək olar (5, s.83).

Lakin yeni mədən üçün tunel (4 N-li) açılarkən düşərgə tamamilə dağıdıldı. Dağıntılar içərisində tapılan və Kür-Araz mədəniyyətinə aid tünd boz rəngli, yarımşar formalı qab qulpu diqqəti cəlb edir (6, s.85). Aparılan araşdırmalar göstərir ki, Duz

mədəni I Kültəpə yaşayış yeri ilə həmyaşıd olub, Tunc dövrünə (e.ə.III minillik) aiddir. E.ə.III-II minilliklərdə Naxçıvan sakinlərinin təsərrüfat həyatında, eləcə də onların qonşu Cənubi Qafqaz tayfaları və Yaxın Şərqlə ticarət əlaqələrində duz istehsalı mühüm rol oynamışdır (7, s.86).

Son illər Duzdağ ərazisində müntəzəm olaraq geniş tədqiqat işləri Vəli Baxşəliyev və fransız arxeoloqu Katrina Maronun rəhbərliyi ilə davam etdirilir. Araşdırmalar nəticəsində buradan müxtəlif dövrlərə aid daş baltalarla yanaşı Eneolit, erkən Tunc, Dəmir dövrlərinə və Orta əsrlərə aid keramika materialı əldə olundu (8, s.88-90). Bu tapıntılar burada həyatın, duzçıxarma işinin Daş dövründən günümüzə qədər davam etdiyini söyləməyə imkan verir.

Burada bir məsələni xüsusi olaraq qeyd etmək istəyirik. Duzdağ və onun yerləşdiyi ərazi, duzla bağlı məsələlər, rəvayətlər, mifoloji mətnlər, onların tarixi qaynaqlardakı məlumatlarla qarşılıqlı müqayisəsi, duzun ənənəvi istehsalı, ibrətamiz deyimlər və s. etnoqrafik baxımdan Hacı Qadir Qədirzadənin əsərlərində əksini tapmışdır (9, s.73-86). Bu baxımdan folklorşünas Rafiq Babayevin "Duz yükü" adlı məqaləsini də qeyd etmək istərdik.

Duz ta qədimdən yurdumuzda ən müqəddəs nemətlərdən sayılıb. Böyük bir duz süfrəsinə bənzəyən Naxçıvan duz mədənlərinə ellərimizin hər yerindən cığırlar, yollar uzanıb. Neçə-neçə min illər bundan əvvəl Naxçıvanın bu bitib tükənməz ruzusu, sərvəti olan duzu torba və çuvallara yığaraq, arabalara yükləyir və anbarlara daşıyırdılar. Duz həm ölkə daxilində istifadə olunur, həm də karvanlar vasitəsilə yaxın-uzaq ellərin bazarlarına çıxarılırdı. Keçmişdə duzu ulaqla da daşıyıblar. Nahaq yerə deməyiblər ki, "Duz Duzdağda, ulaq naxırda". Araşdırmalar göstərir ki, Naxçıvanın Qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrində Duzdağın özünəməxsus yeri olmuşdur. Buradan çıxarılan duz həmçinin mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır(10, s.138).

Bir tərəfdən zəngin xəzinənin özü, tarixi qaynaqlardakı məlumatları, folklor örnəklərini araşdırdıqca, Duzdağ və duzun xalq məişətində yeri barədə yeni-yeni faktlar ortaya çıxır ki, bu da el-obamızın məişətində duzun yeri və rolunu bir daha ön plana çəkir.

Bütün dövrlərin və bütün xalqların qidalanma mədəniyyətini duzsuz təsəvvür etmək mümkün deyil. Duz Tanrının insanlara bəxş etdiyi bərəkətdir, əvəzsiz nemətdir. Etnoqrafik materialların araşdırılması göstərir ki, Naxçıvan mətbəxi öz zənginliyi, fərdi xüsusiyyətləri və tarixi köklərinin dərinliyi ilə dünya xalqlarının mətbəxləri arasında layiqli yer tutur. Burada hazırlanan yeməklərin ən mühüm komponentlərindən olan duz onu bir daha dada, tama gətirmək üçün işlədilir. Duzun tamı onun tərkibində olan mikroelementlərin nisbətindən və miqdarından asılıdır. Bu baxımdan Naxçıvan duzu kimyəvi tərkibinə görə yüksək keyfiyyətli olub yumşaq hesab edilir. Duz ilboyu mətbəxdə işlədilir, süfrəyə qoyulur, bir sözlə hər gün istifadə edilir. Duz təkcə xörəklərin bişirilməsində deyil, həm də turşuların, şorabaların hazırlanmasında, ətin qaxac edilməsində, balıq məhsullarının, qurut, pendir və digər ağartı məhsullarının duzlanmasında, gön-dəri məmulatının aşılanmasında, tibbdə, kənd təsərrüfatında, toxuculuqda, boyaqçılıqda istifadə edilir.

Etnoqrafik araşdırmalar zamanı məlum olur ki, Naxçıvan duzu başqa duzlardan fərqli olaraq hipertoniya xəstəliyi əmələ gətirmir, qanda və əzələdə suyu tənzimləyir, mədə şirəsinin əmələ gəlməsində iştirak edir.

Bütün bunlarla yanaşı Naxçıvanın ilkin sivilizasiya mərkəzi olduğunu və şəhərsalma tarixini öyrənmək baxımından Duzdağ ətrafında kompleks arxeoloji qazıntıların

aparılması və aşkara çıxarılan maddi mədəniyyət nümunələrinin daha ətraflı araşdırılması mühüm əhəmiyyətə malikdir. Məsələyə bu mövqedən yanaşdıqda xalq içərisində hələ qədim vaxtlarda Duzdağ və duzla bağlı mövcud olan örnəklərin – rəvayətlərin, atalar sözlərinin, alqış, qarğış və and formalarının, sınama, inanc və etiqadların toplanıb öyrənilməsinə də böyük ehtiyac duyulur. Bu mənəvi abidələr Naxçıvanın ilkin sakinlərinin, hər şeydən öncə, düşüncə tərzini, həyata baxış və münasibətini, mənəvi aləmini sistemli şəkildə izləmək baxımından çox dəyərlidir. Etnoqrafik materiallar bu baxımdam çox zəngindir.

Söz yox ki, əsrlərin, nəsillərin sınağından keçərək bizim günümüzədək gəlib çatmış bu örnəklər birdən-birə, öz-özünə yaranıb formalaşmamışdır. Bunlar ilk növbədə Naxçıvanın ibtidai sakinlərinin uzun müddət aparılan müşahidələrinin, ilkin təsəvvürlərinin nəticəsində meydana gəlmişdir.

Bu yurdun uzaq keçmişdə yaşamış sakinləri süfrəmizin başqa əziz təamları kimi doğru andını duza da ünvanlayıb. Həlledici anlarda, sədaqət, etibar andı içmək istəyəndə "Bu duza and olsun", "Duz-çörək haqqı" deyiblər. Duz-çörəyi dostluq, qardaşlıq, halallıq, düzlük rəmzi sayıblar, "Halal duz-çörək kəsilən yerdə xəyanət olmaz", – deyiblər. Bir də ki, "Ən ağır günah duz-çörəyə xəyanət etməkdir" - söyləyiblər.

Naxçıvan elinin camaatı ulu çağlardan çörəyi, duzu bütün nemətlərin başı bilmiş, süfrənin bərəkəti saymışlar. Süfrəyə birinci çörək qoyulur, sonra başqa xörəklər düzülür. Qadir Allahın adı çəkilməklə süfrəyə əl uzadılır ki, süfrə həmişə bərəkətli olsun. Süfrə yığışdırılanda isə birinci duz götürülür. Xalq təsəvvüründə bu iki müqəddəs nemətin birləşməsi tamamilə qanunauyğundur. Çünki çörək həyatdır, hər bir evin, ailənin, hər bir adamın güzaranı, necə deyərlər, gündəlik ruzusu duz-çörəklə bağlıdır. Nahaq yerə demirlər ki, "Duz-çörək düz çörək". Bu ehtiramlı nemətlərin birləşməsi sayəsində əmin-amanlıq, ruzi bolluğu olur.

Ölkəmizə xoşniyyətlə, açıq ürəklə gələn elçinin, qonşunun, qonağın qarşısına duz-çörəklə çıxırlar. O da çörəkdən bir tikə kəsib duza batırıb yeyir. Bununla da həmin şəxs yurdumuza saf niyyətlə qədəm basdığını bildirmiş olur.

Bir sıra türk xalqlarında, eləcə də azərbaycanlılar arasında belə bir sınama var: "Yuxuda duz alsan xeyirə çatarsan". Bu zaman ürəyində hansı niyyəti tutsan, həmin niyyət tezliklə hasil olar. Xalq arasında belə bir etiqada da inanılıb ki, qadının hamiləliyi bilinincə başına xəlvəti bir çimdik duz atılır və hərəkətlərinə göz qoyulur. O, əlini başına tərəf aparsa oğlan, ayağına sarı aparsa qız uşağı dünyaya gətirər.

İnsanlar duzu təsirli bir müalicə vasitəsi kimi sınamış, dönə-dönə yoxlamış və inanmışdır ki, oda, ocağa atılaraq yandırılan duzun çatıltısı və "Sənə pis nəzərlə baxanın gözü partlasın" ovsun deyimi yaman gözün, pis nəzərin kəsərini azaldır, uşağın, böyüyün bədəninə, əhval ruhiyyəsinə gətirdiyi süstlüyü, nasazlığı aradan götürür, azar-bezarı çıxarır, sovuşdurur. Toplanmış etnoqrafik materiallara əsasən, xəstə uşağın tez-tez əsnəməsi nəzərə gəlməsi kimi yozulur. Belə olduqda valideyn – ana sağ əlinə bir çimdik duz alır, onu uşağın başına dolandırdıqca hər dəfə yumruğunu uşağın kürəkləri arasına astaca vurur və "göz vuranın gözü çıxsın" - söyləyir. Bu proses üç kərə təkrar olunduqdan sonra uşağın başına dolandırılmış həmin bir çimdik duz:

Duz, duz,
Ocaqda qız,
Yanıb kül olsun,
Balama dəyən göz -

deyilib ocağa atılır. Duz çarta-çartla yandıqda "göz vuranın nəzəri kəsildi" - deyə düşünərlərmiş və elə indi də belə düşünürlər (11, s.59). Belə bir fikrin təşəkkülü əlbəttə, təsadüfi olmayıb, çox əski görüşlərlə bağlıdır.

Gəlin ata evindən çıxarılarkən başına duz dolandırıb ocağa atır və onun çatıltısını gözləyirlər. Sonra da gəlini üç dəfə ocağın başına dolandırırlar. Burada duz gəlinə qarşı bədnəzərin kəsilməsi deməkdir. Gəlini ocağın başına həm də üç dəfə dolandırılması odun, ocağın müqəddəs sayılmasına işarədir (12, s.135).

Qış fəslinin xalq arasında deyilən boz ayının son ilaxır çərşənbəsində ərgən qızlar duzlu kökə bişirib yatmazdan qabaq onu yeyir və üstündən su içmirlər. İnanırlar ki, gecə yuxuda susuz olduğu zaman bir oğlan gəlib həmin qıza su verəcək. Belə olduqda, o qızın bəxti açılmış sayılır. El-obada bu sınağın doğru çıxdığı barədə çoxlu xoş söhbətlər gəzib-dolaşmaqdadır. Bəzən bu çərşənbəyə el arasında "duzlu çərşənbə" də deyilir (13, s.62).

Duzla bağlı daha bir məsələni yada salmağı gərəkli bilirik. Göz dəyən və yaxud qorxan naxoşları evin ortasında əyləşdirər, bir çimdik duzu onun başı üstündə dolandırar, ocağa atıb oxuyarlar: "atdım ocağa çartdasın, bədnəzərlər partlasın". Bu ayin yenə də ulu-ibtidai baxışların nəticəsi kimi diqqəti cəlb edir.

İnanca görə, süfrəyə duz calandıqda söz-söhbət və dava –dalaş düşməsin deyə duzun üstünə qənd qoyur və yaxud su çiləyib "acılığı getsin, şirinliyi qalsın" – deyirlər. Mal-qaranın yelininin şişməməsi üçün ocaqda köpüklənib daşan südün üzərinə duz atılması, bişməcə olan insanların duzlu su ilə çimizdirilməsi duzun fövqəltəbii gücünə olan inamla bağlıdır. Duz yeyən heyvanın ovlanması ovçular arasında günah hesab edilir.

Azərbaycanda, həmçinin onun tərkib hissəsi olan Naxçıvanda duzla bağlı neçə-neçə müdrik sözlər, məsəllər, bayatılar, deyimlər və s. də yaranmışdır. Belə deyimlərdən biri "Naxçıvanın duzu, qızı, qarpızı" kəlamıdır. Çox güman ki, "duz" burada bir tərəfdən dad-tam, şirinlik, acılıq, digər tərəfdən qızın və ya gəlinin ağır oturub-durması, danışığında hər sözü ölçüb-biçməsi, bir sözlə, yüksək mənəviyyatlı böyüməsi, "qız" gözəllik, saflıq, bakirəlik, "qarpız" isə ailə, çoxlu oğul-uşaq doğub-törətmək, nəsil artırmaq mənalarında işlədilmişdir.

Bəzən çox əzizlənən, hədsiz mehribanlıq göstərən adamlar bir-birini "duz kimi sevmək", "duz kimi yalamaq"; qonaqpərvər, səxavətli adamın çörəyini yeyəndə "duzunu dadmaq"; bayağılaşdıran, ləzzətini çıxaran, rəğbətdən salan adam haqqında isə "duzunu qaçırtdı" – deyirlər. Xalq arasında "duza getmək" ifadəsi çox yayılmışdır. Bu deyim hər hansı bir işi asan həll edən, uğur qazanan şəxsə müraciətlə "filankəs duza gedir" kimi işlədilir. Babalarımız bir də qədri bilinməyən, zəhmətinə qiymət verilməyən adamların ünvanına "çörəyinin duzu yoxdur", – söyləyiblər.

Təsadüfi deyil ki, Azərbaycan nağıllarında istədiklərinə nail olmaq üçün divlərə, əjdahalara qarşı mübarizə aparan qəhrəmanlar gecə yatmasın deyə barmaqlarına duz səpərdilər. Duzun bir gecəlik verdiyi əziyyət onların səadətinə yol açırdı.

Xalqımızın müdrik təsəvvürləri ilə bağlı nağıl qəhrəmanlarının yaralarına duz səpməsi müasir şairlərimizin əsərlərinə də hopmuş və onlar yaradıcılıqlarında bu ənənədən lazımınca bəhrələnmişlər. Ramiz Rövşənin aşağıdakı misraları bu baxımdan çox xarakterikdir:

Yüz il qocalma, qarıma,
Bir səhər çıxıb yoluma
Duz səpsən köhnə yarama
Yaram gülsün, duzun gülsün...

## ƏDƏBİYYAT

1. Hacı Qədir Qədirzadə. Naxçıvan: Nuh baba və türk atadan gələn yol. Naxçıvan 2011
2. Zahid Məmmədov. Naxçıvanın təbii sərvətləri. Bakı 1993
3. К.Н.Никитин. Город Нахычевань и Накичеванский уезд. СМОПК, вып.2.Тифлис,1882
4. В.Т.Григорев. Статистическое описание Нахичеванской провинции. СПБ, 1833
5. V.Əliyev. Naxçıvanın qədim duz mədənləri. Az.SSR EA-nın Xəbərləri, 1983, № 4
6. Yenə orada.
7. Yenə orada.
8. Baxşəliyev B., Marro K., Aşurov S., Ovçular tənəsi. Bakı, 2010.
9. Naxçıvan Ensiklopediyası. 2 cilddə, I c, Naxçıvan, 2005.
10. Bəhlul Abdulla. Azərbaycan mərasim folkloru. Bakı, 2005.
11. Yenə orada.
12. Bəhlul Abdulla, Tofiq Babayev. Novruz bayramı ensiklopediyası. Bakı, 2008

**Fəxrəddin SƏFƏRLİ**
*Tarix elmləri doktoru,*
*AMEA Naxçıvan Bölməsi*

# NAXÇIVAN DUZDAĞINDA DUZ HASİLATI TARİXİNDƏN

İnsanın, ümumiyyətlə, canlıların həyatı üçün vacib olan komponentlərdən biri də duzdur. İsti iqlim şəraitinə malik olan ölkələrdə yaşayan insanlar hərəkət edərkən, yaxud da işləyərkən daha çox tərləyir, bu zaman orqanizimdə müxtəlif fizioloji proseslərdə daim sərf olunan duz tərlə birlikdə bədəndən xaric olur. Əgər bu itkinin yeri doldurulmasa sağlamlıq üçün böyük fəsadlar törənə bilər. Bu səbəbdən də insanlar qədim zamanlardan duzdan istifadə etmişlər. Duz insan həyatında o dərəcə də mühüm rol oynamışdır ki, onunla bağlı inamlar və deyimlər yaranmış, duza and içilmiş, duz mübadilə vasitəsi olmuş, bir sıra ölkələrdə (Çin, Efiopiya və s.) “duz pullar” işlənmiş, bəzi yerlərdə vergilər duzla ödənilmiş, duzla bağlı narazılıqlar baş vermiş (məsələn, 1648-ci ildə Moskvada baş verən “Duz qiyamı”), duz uzunömürlülüyün, sarsılmazlığın, sadiqliyin, müdrikliyin rəmzinə çevrilmişdir (28). Ona görə də duza olan tələbatı ödəmək üçün ayrı-ayrı yerlərdə təbii proseslər nəticəsində yaranmış duz süxurlarından istifadə olunmuş, nəticədə duz mədənləri meydana gəlmişdir. Belə duz mədənlərindən biri də Naxçıvan şəhərindən 12 km şimal-qərbdə yerləşən duz mədənləridir. Burada duz yataqları şimalda Cəhri və Sust kəndlərinə qədər uzanır. İstismarına nə vaxtdan başlanması dəqiq məlum olmayan Naxçıvan duz mədənləri haqqında orta əsr qaynaqlarında elə bir məlumat yoxdur. Ancaq Naxçıvan Muxtar Respublikası əhalisi arasında geniş yayılan şifahi xalq ədəbiyyatı nümunələrində və XIX əsrə aid rus dilli qaynaqlarda bu haqda mühüm məlumatlar vardır.

Bölgə əhalisi arasında Naxçıvanda və Kulp (hazırkı adı Tuzluca olan Kulp Türkiyə Respublikasının İğdır vilayətində bir ilçədir. P.Nadejdin Kulpun coğrafi mövqeyindən bəhs edərkən onun Arazın sağ sahilində, çaydan 3,5 verst aralı, İrəvanın 60 verstliyində yerləşdiyini yazır (19, s. 232)) ərazisində duz çıxarmanın Nuh peyğəmbərlə əlaqədar başlandığı haqqında rəvayətlər vardır. Naxçıvan bölgəsində Nuh peyğəmbərlə əlaqədar yayılan rəvayətlərdən birində deyilir ki, Tufandan sonra Naxçıvanda məskunlaşan Nuh peyğəmbər xalqa bir sıra sənətkarlıq sahələrini, o cümlədən Duzdağda duz çıxarmanı öyrətmişdir (6, s. 73). Həmin rəvayətlərə əsaslanaraq Naxçıvan şəhər məktəbinin müfəttiş-müəllimi K.A.Nikitin 1882-ci ildə yazırdı ki, Nuh Naxçıvan və Kulp duz mədənlərində ilk işçi olmuşdur (20, s. 110). Rəvayətlərdə, həmçinin Nuh peyğəmbərin Tufandan sonra burada üzümçülüyün əsasını qoyması haqqında da məlumatlar vardır (22, s. 1; 24, s. 32).

Duzdağda XIX yüzilliyin II yarısından etibarən təsadüfi tapıntılar nəticəsində başlanan və sonralar kiçik miqyasda da olsa davam etdirilən tədqiqatlar nəticəsində aydın olmuşdur ki, burada duz hasilatına qədim zamanlardan başlanmışdır. XIX yüzilliyin 70-ci illərində Duzdağda mədənlərin rəisi vəzifəsində çalışmış Beyer buradan bir neçə ədəd daş balta və iskənə tapmış, onun ardınca 1879-cu ildə İ.Polyakov duz mədənlərinin ətrafında bir neçə daş balta aşkar etmişdir. İ.Polyakov həmin tapıntıları təhlil edərək bu baltlardan duzu parçalamaq və əzmək üçün istifadə edilməsi fikrinə gəlməklə onları ilk metal dövrünün, bəlkə də daha qədim dövrün insanlarına məxsus alətlər olduğunu qeyd etmişdir (7, s. 14). S.Zelinski 1880-ci ildə nəşr etdirdiyi məqaləsində Duzdağda tez-tez rast gəlinən konusvari, ortasında haşiyə şəklində

girintilər olan daş alətlərə istinad edərək burada duz istehsalının daş dövründən başlandığını ehtimal edir (17, s. 215). F.A.Brokqauz və V.A.Efronun nəşr etdirdikləri "Энциклопедический словарь"da da Duzdağda köhnə mədən yerlərindən tapılmış daş alətlərin şahidliyinə əsaslanaraq Naxçıvan duz mədənlərində daş dövründən etibarən duz çıxarılması haqqında məlumat verilir (25, s. 705). P.Nadejdin və İ.Şopen Duzdağda duz istehsalının başlanması tarixindən bəhs edərkən yazırlar ki, burada duz istehsalının başlanması zamanın qaranlıqlarında itib yox olmuşdur: duz çıxaranlar ancaq onu xatırlayırlar ki, onlar indi öz uşaqlarını göndərdikləri kimi, ataları da onları ora duz çıxarmağa göndərirmişlər. Bir çox əlamətlər, dağ yamacları boyunca uçqunlar, keçmişin bütün əlamətlərini özündə əks etdirən mədənlər burada istehsalın qədimliyi haqqında şahidlik edirlər (19, s. 234; 26, s. 834). P.Nadejdin Duzdağdan tapılan alətləri daş çəkic hesab etmişdir (3, s. 355-356).

Duzdağdan tapılmış daş alətləri tədqiq edən ilk azərbaycanlı arxeoloq İ.Cəfərzadə də bu alətlərin daş dövrünə aid çəkiclər olduğunu yazmışdır (16, s. 68). Daş dövrü üzrə görkəmli mütəxəssis M.Hüseynov da bu və Duzdağda 1936-cı ildə aşkar olunmuş alətlər üzərində tədqiqat işləri aparmış, onların bir qismini Yeni Daş dövrünün axırlarına və metal dövrünün əvvəllərinə, bəzilərini isə Tunc dövrünə aid etmişdir (4, s. 144). M.Vəliyev (Baharlı) də duz mədənlərinin tarixindən bəhs edərək yazır ki, indiyə qədər Naxçıvanın bəzi qədim duz mədənlərində duz çıxarma aləti olan müxtəlif formalı və ölçülü daş alətlər çox qədim dövrdə - daş dövründə duzun çıxarılmasını sübut edir (15, s. 141).

Bir məsələ ilə əlaqədar fikir və mülahizələrimizi bildirmək istərdik. Məlumdur ki, qədim insanlar daşdan həm silah, həm də əmək aləti kimi istifadə etmişlər. Zaman keçdikcə cəmiyyətin inkişafı sayəsində daş silah və alətlər insanın tələbatını ödəyə bilmədiyi üçün onlar silah və alətlərini daha əlverişli bir materialdan hazırlanmış alətlərlə əvəz etmək istəmişdir. Bu məqsədlə misdən silah və alətlər hazırlansa da mis yumşaq olduğu üçün insanların arzusunu yerinə yetirə bilmədi. Mis daş silah və əmək alətlərini əvəz edə və onu insan həyatından sıxışdırıb çıxara bilmədiyindən daşla birlikdə insanların istifadəsində qaldı. E.ə. IV minillikdə kəşf onunan tunc insanların tələbatını bu cəhətdən ödədi və bir sıra sahələrdə daşı əvəz etməyə başladı.

Bir sıra tədqiqatçıların fikrincə Duzdağda aşkar olunan daş alətlər e.ə. IV-III minilliklərdə istifadə olunmuşdur. Bizcə, həmin vaxtlar artıq tunc insanların həyatına daxil olduğundan və duzun çıxarılması üçün daş çəkiclərə, baltalara nisbətən tuncdan hazırlanmış əmək alətləri daha əlverişli olduğundan insanlar tuncdan istifadə etməli idilər. Ancaq Duzdağda mis və dəmir alətlərin qalıqlarına rast gəlinsə də (2, s. 8), indiyədək tunc əmək alətlərinə və ya qalıqlarına təsadüf edilməmişdir. Ancaq bu, heç də o demək deyildir ki, Duzdağda duz hasilatında tuncdan hazırlanmış əmək alətlərindən istifadə olunmamışdır. Burada duz hasilatının Tunc dövründə çox yüksək səviyyədə olması faktına əsaslanaraq demək olar ki, gələcəkdə Duzdağda geniş arxeoloji tədqiqat işləri aparılarsa, orada tunc alətlərin aşkar olunacağına şübhə yoxdur. Ona görə də demək olar ki, bu daş alətlərin çoxundan Tunc dövründən əvvəlki dövrlərdə istifadə olunmuşdur.

Bütün bunlar heç də belə bir təsəvvür yaratmamalıdır ki, Duzdağ ərazisində istər qədim duz mədənlərində, istərsə də ətraf yerlərdə aşkar olunan daş çəkiclər, baltalar, çapacaqlar və guppanlar hamısı daş dövründə duz çıxarılması və emalı üçün istifadə olunan alətlərdir. Burada Daş dövründən sonrakı vaxtlarda duz hasilatında istifadə olunan daş alətlər də vardır. Çünki daş əmək alətləri bütün dövlərdə insanın həyatında

mühüm rol oynamışdır. Hətta indinin özündə də məişətdə sal duzu əzmək üçün daşdan istifadə edilir, buğdadan yarma hazırlamaq üçün kiçik əl dəyirmanından – daşdan hazırlanmış kirkirədən yararlanırlar.

Duzdağdan aşkar olunan daş alətlərin bəzilərinin daş dövründən sonrakı vaxtlara aid olmasını XIX yüzilliyin II yarısından üzü bəri bir sıra tədqiqatçılar da təsdiq etməkdədirlər. Məsələn, S.Zelinski bu haqda məlumat verərək yazır ki, hazırkı vaxtda tarixi dövrlər istisna olunmaqla yeni dövrə aid daş alətlərə rast gəlinir (17, s. 245). Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, məişətdə ən qədim dövrlərdən başlayaraq indiyə qədər daş alətlərdən istifadə olunduğu kimi Duzdağda da duz hasilatında daş alətlərdən bütün dövrlərdə istifadə edilmişdir.

Duz çıxarılmasında və emalında dəmir alətlərdən də istifadə olunmuşdur. XIX yüzillikdə Duzdağda duzu dövrünə görə müasir üsulla çıxarırdılar. 1836-cı ilə aid bir mənbədə qeyd olunur ki, duzu qırmaq üçün dəmir lomlarla deşir və barıtla partladırdılar. Bu iş yüngül olmaqla uğurlu idi. Belə ki, bir adam gündə iki xalvar (40 pud) duz çıxarırdı (21, s. 312). Həmin yüzilliyin 70-80-ci illərində duz mədəni 16 şaxtadan ibarət olmuşdur (17, s. 215).

S.Zelinski vaxtilə duz mədənlərinin rəisi işləmiş Beyerin ona verdiyi və 1857-1866-cı illərdə Duzdağda hasil olunmuş və iltizamçılara (XIX əsrdə Rusiyada dövlətə müəyyən miqdarda pul vermək müqabilində xüsusi şəxslərə verilən vergi toplamaq hüququ olan şəxslərə) verilmiş məhsulun miqdarını əks etdirən aşağıdakı cədvəli öz məqaləsinə daxil etmişdir (17, s. 215).

| Hasil olunmuşdur | | | | İltizamçılara verilmişdir | | |
|---|---|---|---|---|---|---|
| İllər | Sal duz | Narın duz | Cəmi | Sal duz | Narın duz | Cəmi |
| 1857...... | 135 421 | 19 250 | 154 671 | 135 421 | 19 250 | 154 671 |
| 1858...... | 230 500 | 43 400 | 273 900 | 212 441 | 35 820 | 248 261 |
| 1859...... | 312 521 | 23 600 | 236 121 | 283 421 | 24 400 | 307 821 |
| 1860...... | 164 927 | 38 860 | 203 787 | 164 927 | 38 860 | 203 787 |
| 1861...... | 209 753$^1/_2$ | 23 204 | 232 957$^1/_2$ | 209 753$^1/_2$ | 23 204 | 232 957$^1/_2$ |
| 1862...... | 307 383 | 32 800 | 340 183 | 307 383 | 32 800 | 340 183 |
| 1863...... | 298 779 | 59 750 | 358 529 | 132 068 | 36 550 | 168 618 |
| 1864...... | 122 851$^1/_2$ | 43 225 | 166 076$^1/_2$ | 44 271 | 37 225 | 81 496 |
| 1865...... | 95 820 | 24 791 | 120 611 | 141 097 | 63 385 | 204 482 |
| 1866...... | 153 091$^1/_2$ | 239 992 | 393 083$^1/_2$ | 276 986 | 47 301 | 324 287 |
| Cəmi | 2 031 047$^1/_2$ | 548 872 | 2 579 919 | 1 907 768$^1/_2$ | 358 795 | 2 266 563$^1/_2$ |
| | 2 579 919$^1/_2$ pud | | | 2 266 563$^1/_2$ pud | | |

Cədvəldən aydın olur ki, XIX yüzilliyin 1857-1866-cı illərində (10 ildə) Duzdağda 2.579.919,5 pud duz hasil olunmuşdur.

1967-ci ildə Duzdağda uçqun nəticəsində qədim insanların istifadə etdikləri mədən aşkar olunmuşdur. 1976-cı ildə isə duz çıxarmaq üçün partlayış aparılarkən başqa bir mədən üzə çıxmışdır. İstər birinci, istərsə də çox maraqlı quruluşa malik olan ikinci mədəndə əldə olunan maddi mədəniyyət nümunələri, həmçinin 2007-ci ildə tədqiqatlar zamanı aşkar olunmuş arxeoloji materiallar (daş çəkiclər, ocaq izləri, keramika məmulatları, ağac pazlar, maral buynuzunun qalıqları və s.) təsdiq edir ki, bu duz mədənlərindən insanlar e.ə. VI-II minilliklərdə istifadə etmişlər (9, s. 269-270).

Naxçıvan duz mədənlərində yerli arxeoloqlarla birgə tədqiqat işləri aparan Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları 2008-ci ildə tədqiqatları nəticəsində əldə olunmuş maddi mədəniyyət nümunələrini, Şərur rayonundakı Ovçular-təpəsi abidəsindən tapılmış və radio-karbon analizləri aparılmış nümunələrlə müqayisə edərək çox uğurlu nəticələr aşkar etmişlər. Bu nəticələr əsasında müəyyən olunmuşdur ki, Naxçıvan duz mədənləri dünyanın ilk duz ocaqlarından biridir (27, s. 230). Onlar Türkiyədə nəşr olunan "Tuba-AR" jurnalında nəşr etdirdikləri məqalədə Naxçıvan duz mədənlərində əldə olunan maddi mədəniyyət nümunələrinin çoxluğuna istinad edərək bu mədənlərdən çox geniş şəkildə istifadə olunması fikrini irəli sürmüşlər (27, s. 230).

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşlarından Katerina Morro və Severine Sanz Naxçıvan Duzdağında apardıqları tədqiqatların nəticələri haqqında Fransanın müxtəlif qəzetlərində məqalələr dərc etdirmişlər. Həmin məqalələrdə dünyanın ən qədim duz mədəninin Azərbaycanda tapıldığı haqqında beynəlxalq elmi ictimaiyyətə xəbər verilmişdir (12). Həmçinin, Duzdağ haqqında məqalələr həm də www.cnrs/presse/communique internet saytında da yerləşdirilmişdir (12). "Şərq qapısı" qəzetinə verdiyi müsahibədə bu haqda bəhs edən arxeoloq V.Baxşəliyev bildirir ki, əldə etdiyimiz nəticələr təsdiq edir ki, Duzdağ dünayanın ən qədim duz mədənidir. Mədənçilik işi Duzdağda Eneolit dövründən başlanmışdır. Dünyada mədənçilik tarixində bundan qədim tapıntı yoxdur (13).

Duzdağda qədim dövrlərdən başlanan duz hasilatı orta əsrlər zamanı da intensiv şəkildə davam etmişdir. Qaynaqlarda X-XIV əsrlərdə Duzdağda əla növlü duz istehsal olunması və hazır məhsulun müəyyən hissəsinin bir sıra ölkələrə ixrac edilməsi haqqında məlumatlar vardır (7, s. 84). Yaşayış üçün çox zəruri olduğu üçün duz yüksək dərəcədə gəlirli olmuşdur. Bu səbəbdən də duz istehsalçıları hasil olunan duzun müqabilində vergi ödəmişlər. Akademik Ə.Əlizadənin yazılı qaynaqlara əsaslanaraq orta əsrlər zamanı şəhər əhalisindən - tacirlərdən və sənətkarlardan alınan və nəqd şəkildə pulla ödənilən tamğa vergisinin duz istehsalçılarından da alındığı fikrinə söykənərək R.Məmmədov Naxçıvan duz mədənlərindən də tamğa vergisinin alındığı qənaətinə gəlmişdir (7, s. 89-90).

Qədim və orta əsrlər dövründə Duzdağla birlikdə ondan şimalda yerləşən, duz yataqlarının uzanıb getdiyi Sust kəndində də duz hasil edilmişdir. 2011-ci ildə aparılan tədqiqatlar zamanı Sustda Eneolit və Erkən Tunc dövrünə aid abidələr aşkar olunmuşdur (13). Buna əsasən belə bir nəticəyə gəlmək olar ki, Sust duz mədənlərində duz istehsalı həmin vaxtdan başlanmışdır. Sust kəndində duz istehsalı orta əsrlər zamanı da davam etdirilmişdir. "Naxçıvan sancağının müfəssəl dəftərin"də Xıncav (Xıncab) kəndindən bəhs edilərkən ondan əvvəl duz kəsənlər haqqında məlumat verilir. Burada ehtimal ki, Xıncav kəndi ilə çox yaxın (təxminən 1 km) olan Sust duz mədənlərindən söhbət açılmışdır. Dəftərdə qeyd olunur ki, bu mədən üç ocaqdan ibarətdir. Bu ocaqlara duz kəsmək üçün yüksək göstəriş verildiyi halda, onlar başqa yerə köç edib, yeni ocaq yaradaraq, orada (ehitmal ki, Naxçıvan duz mədənlərində – H.S.) duz kəsməkdə davam

edirlər. Ona görə əvvəlki vəziyyət nəzərə alınaraq [dəftərdə] qeyd olundu. Gəlir – 210000 (ağça) (10, s. 20,133).

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji tədqiqatlar xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı ilə 2011-ci ilin iyulunda Naxçıvan şəhərində "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən Beynəlxalq Simpoziumda səslənən fikirlər təsdiq edir ki, Naxçıvanın əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulsa da, təxminən 5000 il bundan əvvəl orada ilkin şəhər mədəniyyəti yaranmış və Naxçıvan bir şəhər kimi formalaşmağa başlamışdır. Azərbaycanda son zamanlar əldə olunan elmi nəticələr bu fikri bir daha təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 12 aprel 2012-ci ildə Tovuz rayonunda olarkən Göytəpə Neolit dövrü arxeoloji abidəsi ilə tanış omuşdur. Həmin vaxt Prezidentə məlumat verilmişdir ki, dünya arxeologiyasında Göytəpə yaşayış məskəni tipli Neolit dövrünə aid arxeoloji abidələr ilkin sivilizasiyanın başlanğıc nöqtəsi, protoşəhər, yəni insanların yığcam yaşayış tərzinin bərqərar olduğu ilkin şəhər mədəniyyətinin formalaşması dövrü kimi dəyərləndirilir. Məlumatda abidədən götürülmüş kömür qalıqlarının üzərində Fransanın Milli Araşdırmalar Mərkəzində aparılmış radio-karbon analizlərinin nəticələrinə əsasən Tovuzun 8 minillik şəhər mədəniyyəti tarixinin olması xüsusi vurğulanmışdır (1, s. 5).

Deməli aparılan son tədqiqatlar zamanı əldə olunan nəticələrə əsasən Azərbaycan-da ilkin şəhər mədəniyyətinin yaranmasının 8 min illik tarixindən bəhs olunur. Belə olan halda nəinki Azərbaycanın, bütövlükdə Yaxın Şərqin ən qədim mədəniyyət mər-kəzlərindən biri olan Naxçıvanda ilkin şəhər mədəniyyətinin 5000 il əvvəl yaranması fikri çox tutarlı görünür.

Naxçıvanın bir şəhər kimi formalaşmasında bir sıra sənətkarlıq sahələrinin inkişafı ilə yanaşı yaxınlıqdakı duz mədənlərinin tarixin erkən çağlarından başlanan istismarı da mühüm rol oynamışdır. Burada açıq və yeraltı qazmalar vasitəsilə hasil edilən duz mədənlərin yaxınlığında ilkin emal olunmuş və Naxçıvan şəhərinin əhalisinin duza olan tələbatını ödəmişdir. Şübhəsiz ki, burada hasil olunan duz bölgənin digər yaşayış məskənlərinin əhalisinin də duza olan tələbatını ödəmişdir. Bu məqsədlə hətta bəzi inkişaf etmiş yaşayış məskənlərində duzu ətraf yerlərə yaymaq və paylamaq məqsədilə xüsusi mərkəzlər yaradılmışdır. Ordubad bölgəsindəki Sumbatan-Dizə qədim şəhər yerində 2010-cu ildə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunan küp qırıqlarından birinin içərisində daş duz parçaları tapılmışdır. Arxeoloq Bəhlul İbrahimlinin fikrincə, bu daş duz parçaları qədim zamanlarda Naxçıvan mədənlərindən gətirilərək ətrafdakı yaşayış məskənlərinə paylanmış və ya satılmışdır (5, s. 140). Sumbatan-Dizə şəhər yeri e.ə II minilliyin sonu – I minilliyin əvvəllərinə aid olduğu üçün demək olar ki, Naxçıvan Duzdağının duzu oraya ən azı üç min il əvvəl aparılmış-dır. Sözsüz ki, bu iş daha qədim zamanlardan başlanan işin davamı kimi üç min il əvvəl də davam etmişdir. Etnoqraf-alim H.Q.Qədirzadənin fikrincə, sal duzun Sumbatan-Dizə şəhərində küplərdə, yaxud da xüsusi yerlərdə - "Duz damı"nda saxlanması onun nəmlikdən, yağışa düşməkdən qorunması və ticarəti ilə bağlı olmuşdur (6, s. 64).

Qeyd etmək lazımdır ki, Duzdağda Naxçıvan şəhərinin və yaxınlıqdakı digər yaşayış məskənlərinin əhalisinin tələbatından artıq tədarük edilən duz mübadilə məqsədi ilə buradan qonşu ölkələrə də aparılmışdır. Şöhrəti dünyaya səs salan "İpək yolu"ndan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb (28) (Rusiyada knyazlıqlar dövründə Kiyevdən Qaliç-Volın knyazlığında və Şimali Krımda duz hasil

edilən yerlərə gedən yol da "Duz yolu" adlanırdı (23, s. 1249). Duzdağdan duz çıxarılmasında qədim zamanlardan mühüm rol oynayan Babək rayonundakı Cəhri kəndinin əhalisi indi də Cəhridən qədim duz mədənlərinə gedən yolu "Duzdağ yolu" adlandırır). Naxçıvandan keçərək Şərqə və Qərbə hərəkət edən ticarət karvanlarının yüklərindən biri də Naxçıvan duzu olurdu. AMEA-nın müxbir üzvü V.Əliyev bu haqda yazır ki, duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, qonşu Cənubi Qafqaz regionlarına və Yaxın Şərq ölkələrinə ixrac olunmuşdur (3, s. 17). Naxçıvanın digər ölkələrlə ticarət əlaqələrini genişləndirən bu hal ənənəyə çevrilmiş, XIX yüzillikdə, hətta XX yüzilliyin oratalarınadək fərdi üsulla da olsa davam etdirilmişdir. Məsələn, XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istisnasız olaraq məşğul olan yaxınlıqdakı Cəhri kəndinin əhalisi (11, s. 84), həmçinin digər kəndlərin sakinləri Duzdağ duzunu qatır və ulaqlar vasitəsi ilə fərdi qaydada yaylaqlara, dağ və dağətəyi kəndlərə, hətta Kəlbəcər, Laçın, Gorus, Sisyan və Dərələyəzin kəndlərinə aparılır, onu satır və ya kənd təsərrüfatı, heyvandarlıq məhsulları, toxuculuq məmulatı, Naxçıvanda az tapılan mallar ilə mübadilə edirdilər (6, s. 84). Beləliklə, Duzdağ duzu həm də əhalinin dolanışıq vasitəsinə, qazanc mənbəyinə çevrilmişdi.

Duzdağ Naxçıvanda əhalinin həyatında o dərəcədə mühüm rol oynamışdır ki, insan ömrü onunla müqayisə olunmuş, o dua, alqış yerinə çevrilmişdir. Belə ki, Naxçıvanda indi də xeyirxah, xalq içərisində hörmət və nüfuz sahibi olan adamlara "ömrün duzdağına dönsün" duası edilir. Bununla da insanlar həmin adama, min illərdir duzu kəsilən, ancaq bitib tükənməyən Duzdağın ömrü kimi faydalı və uzun ömür arzulayırlar (6, s. 79-80). Göründüyü kimi, neçə min illərdir ki, xalqın duza olan tələbatını ödəyən Duzdağ əhali arasında uzunömürlülük, tükənməzlik simvoluna çevrilmişdir. Bu mövzuda hətta poeziya nümunələri də yaranmışdır. Məsələn, tarix üzrə fəlsəfə doktoru, şair – publisist Vaqif Məmmədov "Naxçıvan nəğməsi" şeirində bu xüsusda yazır:

Dağın yaz dağı olsun,
Nəğmən söz dağı olsun.
Ömrün duz dağı olsun,
Naxçıvanım, Naxçıvan (8, s. 52).

Yaxud başqa bir şeirində şair belə yazır:

Həsrətin saçımda qırovdu-dəndi,
Əbədi yandıran göz dağı olub...
Vüsalın necə tez bitdi, tükəndi...
Həsrətin tükənmir-duz dağı olub (8, s. 57).

Məhz bütün bunları, Duzdağın Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasında əhəmiyyətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 20 aprel 2012-ci il tarixdə imzaladığı "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında" Sərəncamda qeyd olunur ki, "Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl IV minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə, öz növbəsində şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır" (14, s. 1).

Yəqin ki, Sərəncama uyğun olaraq 2012-ci ilin iyul ayında keçiriləcək Beynəlxalq Simpoziumda Naxçıvan Duzdağı, onun Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasında, xüsusi ilə Naxçıvanın bir şəhər kimi formalaşmasında rolu və əhəmiyyəti haqqında yeni faktlar və sübutlar ortaya qoyulacaqdır.

## ƏDƏBİYYAT


1. “Azərbaycan” qəzeti. 14 aprel 2012 ci il.
2. Baxşəliyev V., Morro C., Homon C., Alıyev N., Dessaint P., Sanz S. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan: Əcəmi, 2012, 80 s.
3. Əliyev V. Naxçıvan – Azərbaycanın qədim diyarıdır. Bakı: XXI – YNE, 2002, 320 s.
4. Hüseynov M. Naxçıvanın qədim daş çəkicləri. Azərbaycan SSR EA Məruzələri, XII cild, 1956, №2.
5. İbrahimli B. Sumbatan-Dizə yaşayış yerində arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar, 2010, s. 135-142.
6. Qədirzadə H.Q. Naxçıvan: Nuh baba və Türk atadan gələn yol. Naxçıvan: Əcəmi, 2011, 192 s.
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
8. Məmmədov V. Dənizə qar yağırdı. Bakı: Şirvannəşr, 2012, 160 s.
9. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, 521 s.
10. “Naxçıvan sancağının müfəssəl dəftəri”. Giriş və tərcümənin müəllifləri akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Sabah, 1997, 336 s.
11. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX – XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
12. “Şərq qapısı” qəzeti. 4 dekabr 2010-cu il.
13. “Şərq qapısı” qəzeti. 29 sentyabr 2011-ci il.
14. “Şərq qapısı” qəzeti. 21 aprel 2012-ci il.
15. Vəliyev M. (Baharlı). Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan, 1993, 192 s.
16. Джафарзаде И. Следы древнейшей культуры человека на территории Азербайджана. Известия Аз. ФАН СССР, 1944, №9.
17. Зелинский С. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский, Географигеско – статистическое и сельско – хозяйственное описание. Сборник сведений о Кавказе. Том VII. Тифлис, 1880, с. 209-275.
18. Надеждин П. Кавказский край (Люди и Природа). Тула, 1859.
19. Надеждин П. Природа и Люди на Кавказе и за Кавказом. СПб, 1869, 413 с.
20. Никитин К. Город Нахичевань и Нахичеванский уезд. Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, 1882, вып. II, отдель I, с. 109-142.
21. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть IV, Санкт-Петербург, 1836, 401 с.
22. Сборник материальов для описание местностей и племен Кавказа. Выпуск второй . Тифлис, 1882.
23. Советский энциклопедический словарь. Москва: Изд.-во “Советская энциклопедия”, 1980, 1600 с.
24. Сысоев В. Краткий путеводитель наиболее известным памятником древности и природы в Азербайджане. Баку, 1930.
25. Энциклопедический словарь. Том XX$^{A}$. Издатели: Ф.А.Брокгауз, И.А.Ефрон. С.-Петербург, 1897, 960 с. s. 705.
26. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург // Типография императорской АН, 1852, 1231 с.
27. Morro C., Bakhsalıyev V., Sanz S., Alıyev N. Archaelogical investigations on the salt mine of Duzdağı (Nakhchivan, Azerbeycan). Tüba – Ar. Turkish Akademy of Sciences Journal of Archaeology. 2010, №13, s. 229-239.
28. kayzen.az/blog/erzaq/4978/xörək-duzu.html
29. www.lent.az/news.php?id=13615

**Qadir QƏDİRZADƏ**
*AMEA-nın müxbir üzvü,*
*AMEA Naxçıvan Bölməsi*

# DUZDAĞ, DUZLA BAĞLI RƏVAYƏTLƏR, DEYİMLƏR, İNAMLAR VƏ DUZDAN İSTİFADƏ

Naxçıvanda Nuh Nəbi dönəmində yaranan, müəyyən tarixi mənbələrdə də öz əksini tapan bir rəvayət dolaşmaqdadır. Elin qan yaddaşına görə Dünya Tufanından sonra Nuh peyğəmbər insanlara zəruri tələbatlarını ödəmək üçün əkinçilik, maldarlıqla yanaşı müəyyən peşələr də öyrətmişdir ki, bunlar içərisində duzçıxarma xüsusi yer tutmuşdur. Duz insan həyatında o dərəcədə böyük rol oynamışdır ki, onun adı əsas qida olan çörəklə birgə çəkilir: duz-çörək. Əgər çörək zəruri qida vasitəsidirsə, duz bir sıra sənətkarlıq sahələrinin xammalı, qidaların dadı, bütün canlı aləmin möhtac olduğu əvəzedilməz sərvətdir. Duz çörəklə birlikdə xalqın and yeri, kişilik timsalı, dostluq məqamı, barış, qonaqpərvərlik şərtidir. Hazırda Naxçıvanda xalq arasında Duzdağ və duzla bağlı çox sayda deyim, alqış və qarğış mövcuddur. Duzdağın müqəddəsliyi ilə bağlı deyilən: “Duzunu yeyib Duzdağı zibilləmə” ifadəsi bu məqamın müqəddəsliyindən, onun bərəkət simvolu kimi qorunmasından xəbər verir.

Xalq arasında tam müəyyənləşməmiş, yarımçıq iş haqqında: “Duz Duzlaqda, at axurda, eşşək naxırda” ifadəsi işlədilir. Deyim bir tərəfdən duzun daşınması üçün nəqliyyat vasitəsi olaraq həmin heyvanlardan istifadə edildiyini bildirirsə, digər tərəfdən onun çıxarılması və istənilən yerə aparılmasının çətinliyini bildirir. Buna uyğun olan bir neçə deyim də mövcuddur: “Hələ duza gedir, tamaşa qayıdandadır”, “Qız yükü duz yükü”. Birinci deyim hər hansı bir işin ilk baxışdan asan görünməsi, başlandıqdan sonra çətinliklərinin ortaya çıxması ilə bağlıdır. Duza gedən müəyyən minik vasitəsinə minib, lazım olan çuvalları, ləvazimatı götürüb həvəslə yola düşür . Əsl iş duzun çıxarılması və yüklənib mənzil başına çatdırılmasıdır.

Xalq arasında duz yükü ən ağır yük sayılmaqla onu qız uşağının böyüdülməsi, tərbiyəsi ilə müqayisə edir və deyirlər: “Qız yükü, duz yükü”. Bəlli, qız böyütmək məsuliyyəti Duzdağdan duz gətirmək qədər çətin idi. Duz yükü xüsusi diqqət tələb edirdi. Yükün düz vurulmaması, onun aşması, yağışa, suya düşməsi qorxulu sayılırdı. Bəzən aşan yük çatıldığı heyvanın şikəstliyinə, ölümünə səbəb olurdu. Nə qədər çətin olsa da, bu maddi zərər idi. Qız yükü, qız məsuliyyəti namus məsələsi, mənəvi varlıq idi. Bu yükü mənzil başına çatdırmaq, onu namusla böyüdüb ərə vermək müqəddəs vəzifə idi. Deməli, bu yükün duz yükündən maddi deyil, mənəvi ağırlığı daha çətin olmuşdur.

“Duz-çörək, düz çörək” deyimi ilə bağlı bir neçə söz. Azərbaycanda çörək and yeri, etibarlıq, güvənlik qaynağı, kişilik simvolu sayılmış, qonaqlar duz-çörəklə qarşılanmış, ailələrarası münasibətlər onunla ölçülmüşdür. Duz-çörək ailə namusundan hesab olunurdu. Uzun müddət bir-biri ilə çörək yeyənlər, ailəvi dostluq edənlər: “Kişi ilə özümüz ağırlıqda duz-çörək yemişik”- deyərdilər. Yeyilən duz-çörək fərdlər arasında deyil ailələr, nəsillər arasında qorunub saxlanardı. Çətin anlarda: “Yediyimiz çörəyə and olsun”- demək ən böyük zəmanət idi. Nağıl və dastanlarda çörək kəsənlərin ən çətin məqamda bir-birilərinə sadiq qaldıqlarına şahid oluruq. Deyimdən də göründüyü kimi çörəyi düz kəsmək, ona xəyanət etməmək tövsiyə olunur. Müşahidələr sübut edir ki, bu həmişə belə olmur. Bəziləri çörəyi məqsədli kəsirlər, onu sona qədər qoruyub saxlaya

bilmirlər. Məqsədlərinə çatdıqdan, mövqeləri yüksəldikdən sonra kəsdikləri çörəyi unudurlar. Yəni, neçə ki, süfrənin başındadır dostluqdan, sədaqətdən dəm vurar, elə ki, süfrədən qalxdı, özünü "çörəyi dizinin üstündə imiş, qalxanda sürüşüb düşmüş, bütün münasibətləri unutmuş kimi aparar". Beləlləri haqqında: "Çörəyi dizinin üstündə", "çörək ayaqlayan", "yediyi qaba tüpürən"- deyirlər.

Duzdan xalq təbabətində, Türkəçarə müalicədə geniş istifadə edilir. Xalq arasında müxtəlif dəri xəstəliklərinin müalicəsində duzlu su ilə yuyunmaq, oynaq şişlərində duz qovurub qoymaq, gözdəymədən qorunmaq üçün oda duz atmaq və sairə geniş yayılmışdır. Toplanmış etnoqrafik materiallara əsaslanaraq demək olar ki, XX yüzilliyin ortalarına qədər tarixi Naxçıvan ərazisinin bir sıra kəndlərində yeni doğulan uşağın göbəyi kəsildikdən sonra onu duzlayar və ya duzlu suya salıb çıxarardılar. Bunu belə izah edirdilər ki, duz doğuş zamanı uşağın bədəninə düşmüş murdar şeyləri (yəqin ki, mikrobları - H.Q.Q.) təmizləyir, gələcəkdə dəri xəstəliklərinin, bişməcələrin qarşısını alır və belə uşaqlar «duzlu» olurlar. Bu gün el arasında işlədilən «duzsuz adam» ifadəsini də bu adətlə əlaqələndirirlər. Tarixi mənbələrdə bəlli olur ki, XIX əsrdə Azərbaycanın digər bölgələrində də bu adət olmuşdur (13, s.139). Digər türk xalqlarında da adətlə bağlı paralellərə rast gəlirik. Qırğızlarda adətdən bəhs edərək S.M. Abramzon yazır ki, bunu uşağın sağlam olması üçün edirlər (10, s.81). Məlumata görə özbəklər adətə ona görə əməl edirlər ki, gələcəkdə uşağı milçək, mığmığa dişləməsin, onda dəri xəstəlikləri olmasın (16, s.193). V.A. Qordlevskinin məlumatına əsasən Osmanlı türklərində də adətə əməl edilmişdir (11,s.128). Uşağın duzlu su ilə yuyundurulması Altay türkləri arasında da yayılmışdır (15, s.35).

Göründüyü kimi, ayrı-ayrı türk xalqlarında mövcud olan həmin adətdə başlıca məqsəd uşağı qorumaqdır. Adətə Anadolu türklərində də eyni məqsəd üçün əməl edildiyinə O.Acıpayramlı (7, s.57), Y.Kalafat (9, s.96) və digərlərinin məlumatlarında rast gəlmək olur. Lakin V.A.Qordlevski «uşağın duzlu su ilə çimizdirilməsi»ni xristianlıqla, daha çox ermənilərlə bağlamağa səy göstərir. Ümumiyyətlə, yuxarıda göstərilən məqaləsində və digər əsərlərində müəllifin bir sıra adətləri ermənilərlə əlaqələndirməsi aydın görünür. Müəllif bunu yerli əhalinin əvvəlcə erməni-xristian olmaqla islamı qəbul edib türkləşməsi, lakin ənənəvi adətləri saxlaması ilə əlaqələndirir. Müəllifin özü də yazır ki, o məlumatları erməni kökənli insanlardan toplamışdır. Deməli, məsələ bəllidir-ermənilər və onların havadarları bu işlərdə də əvvəlcədən müəyyən olunmuş proqrama əməl edirlər. Digər türk xalqları ilə paralelləri, müəllifin bu məzmunda olan yazılarına tərəfimizdən elmi cavab verildiyini (8) nəzərə alaraq məsələnin üzərində geniş dayanmayacağıq.

Duz-çörəyə inam təkcə insanlararası münasibətlərdə deyil müəyyən heyvanların şərini sovuşdurmaqda da istifadə edilməkdədir. İtə quduz dəydikdə (it qudurduqda), həyətə ilan, bayquş gəldikdə ev sahibi onların qarşısına duz-çörək qoyub deyir: "Səni and verirəm bu halal duz-çörəyə, kimsəyə zərər vermədən bu ərazidən get". Yaşlı insanlar bundan sonra həmin heyvanların çıxıb getdiklərini söyləyirlər.

Naxçıvanda sözün də duzlusu, duzsuzu var (duzlu, məzəli, duzsuz-duzsuz danışmaq, duzlu yeyib duzsuz danışmaq), insanın da duzlusu, duzsuzu var (çox duzlu, xoşxasiyyət adamdır. Mənfi mənada-bu heç duz dadmayıb).

Xalq arasında Duzdağ və duzla bağlı müxtəlif alqışlar, qarğışlar və inamlar indi də qalmaqdadır. Biri digərinə dua edərkən, uzun ömr arzulayarkən: "Səni görüm ömrün

Duzdağına dönsün"-deyir. Görəsən, qarşısındakına nə diləyir dua edən!? Niyə, nədən ondan hündür, əzəmətli olan Ağrı dağına, ətrafdakı digər dağlara deyil, məhz Duzdağına dönməsini istəyir? Bu bir hikmətdir, el hikmətidir. Hər kəsə, hər yetənə belə dua etməzlər. O adamlara edərlər ki, onlar həyatlarını dost-tanışın, qohum-əqrabanın, elin xeyrinə, haqqa, ədalətə sərf edər, əldən tutar, faydalı ömür yaşayarlar. Müqayisədə ətrafdakı heç bir dağ insanların, heyvanların faydası üçün öz ömrünü, varlığını Duzdağ qədər ortaya qoymayıb. Neçə on min illərdir ki, Duzdağın ömrü kəsilir. O bitib tükənmək bilmir, insanlarla birgə ömür yaşayır. Buna görə də onun varlığı insan ömrü ilə müqayisə edilir. İnsanlara da Duzdağ kimi faydalı və uzun ömür arzulayırlar.

Bərəkətinə and içilən, bir çimdiyi yerə töküləndə dava-dalaş düşəcəyinə inanılıb üzərində əsilən, duz təmizlik, paklıq, halallıq rəmzidir.

Naxçıvanda etibarını itirmiş, nankor adamlar haqqında bir ifadə də işlədilməkdədir: "Onun duzuna qurd düşüb, onun duzu qoxub". Nə qədər böyük deyim, belə adamların hər cürə qoxmanın, çürümənin, qurdlamanın qarşısını alan duzuna inanmaq olmaz, ona qurd düşüb. Beləlləri xalqın dediyi kimi: "Çörək itirəndirlər, onların sözlərinə inanmaq olmaz".

Bir sıra qidalarla yanaş duzdan heyvanat məhsullarının hazırlanması və qorunmasında da geniş istifadə edilir.

Tarixi məlumatlara söykənərək demək olar ki, duz, onun istehsal olunduğu Duzdağ ilkin məskunlaşmanın, oturaq həyata keçidin, sənətkarlıq və ticarətin inkişafının, bütün bunlar əsasında şəhər mədəniyyətinin yaranmasının əsas şərtlərindən biridir.

XIX əsrdə Naxçıvanda olmuş bir sıra müəlliflər Duzdağın ətrafında yaşayış məskənləri və içməli su olmadığını qeyd edirlər. K.A.Nikitin yazır ki, bura içməli su Naxçıvan şəhərindən 12 verst aralı olan ərazidən gətirilmişdir (14, s. 138).

Toplanmış çöl materiallarına əsaslanaraq demək olar ki, Duzdağ silsiləsinin qərb tərəfi qış otlaqları üçün əlverişli olsa da, şirin su mənbələrinin yoxluğu, torpaqların şorangah olması burada oturaq həyata keçilməsinə imkan verməmişdir. Bundan fərqli olaraq dağ silsiləsinin şərqində, Cəhriçayından ayrılan dörd böyük arxın-Xaraba Peşov, Orta Arx və Xor arxlarının sututarlarında, Şorakət adlanan yerə qədərki ərazilərdə, əhali sıx surətdə məskunlaşmışdır. Xalq arasında olan məlumata görə Sutökülən adlanan yerdə Orta arxdan bir qol arxı vasitəsi ilə Duzdağ yaxınlığındakı yaşayış məskəninə su aparılmışdır. Təbii şərait və heyvandarlıqla əlaqəli olaraq buradan daha çox müvəqqəti məskən kimi istifadə edilmişdir.

Toplanmış etnoqrafik məlumatlara və arxeoloji materiallara söykənərək demək olar ki, qədim dövrlərdən başlamış İlk orta əsrlərdə, bir az da ondan sonrakı dövrlərdə Duzdağın indi duz çıxarılan ərazisinin şimal-şərqində, tarixən açıq üsulla duz çıxarılan yerlərin şərqində, Cəhri kəndi ərazisində Kəndtəpə, Qoşatəpə, Əyriarx, Tülkütəpəsi, Binətəpə kimi yaşayış məskənləri mövcud olmuşdur. Kəsə yolla Duzdağın 2-3 km-də yerləşən Qoşatəpə yaşayış yerinə su yuxarıda adlarını göstərdiyimiz arxlar vasitəsi ilə gətirilmişdir. Bunlarla yanaşı hazırda el arasında Arxacqabağı adlanan yerin yaxınlığından çıxan və «Qamışlıq» adlanan bulağın suyundan da istifadə edilmişdir. Digər su mənbəyi bu yaxınlarda yol-tikinti işləri zamanı Duzdağın sağ tərəfindən aşkar edilmiş köhnə kəhriz sistemi olmuşdur.

Bütövlükdə Duzdağda içməli su məsələsinə gəlincə, burada içməli suya geniş tələbat olmamışdır. Çünki keçmişdə duz çıxarmaq daha çox fərdi xüsusiyyət daşıyırdı.

İçməyə gələnlər at, ulaq vasitəsi ilə özlərinə su gətirirdilər. Yəni, burada içməli su problemi olmamışdır. Gətirilmiş sular səhənglərdə duz lağımlarına qoyulurdu. Yayda lağımlar sərin olduğundan su yaxşı saxlanırdı. Mövsümü iş zamanı buradakı müvəqqəti yaşayış yerlərində-qazmalarda yaşayanlara isə su digərləri tərəfindən gətirilirdi.

Tarixi məlumatlara, qədim maddi-mədəniyyət nümunələrinə və etnoqrafik mənbələrə söykənərək demək olar ki, insanların məskunlaşmasında təbii-coğrafi şəraitlə bərabər onların gündəlik tələbatlarının ödənməsi şərtləri də əsas amillərdən sayılmışdır. İlkin insan məskənlərini araşdıranlar hər şeydən öncə təbii sığnaqlara, mağara və zağalara böyük önəm verirlər. Bu dövrə aid mədəniyyət araşdırıcıları tərəfindən müxtəlif adlarla təqdim edilir. Bizcə, bunun ən mükəmməl adı- “Mağara mədəniyyəti və ya mağaradan başlanan həyat”dır. Özlərinin təhlükəsizliyini təmin etmək, təbii amillərdən və iqlim şərtlərindən qorunmaq məqsədi ilə hələ kollektiv halında yaşamaqdan özgə çarəsi olmayan, ikili ailənin formalaşmadığı, uşaqların fiziki və mənəvi tərbiyəsində, mağara məişətinin qorunub saxlanmasında anaların payının üstün olduğu bir mərhələdə mağara mədəniyyətindən kənara çıxmaq mümkün deyildi. Başlıca şərt lazım olan gündəlik qidanı təmin etmək, mağara kollektivini, müəyyən qohumluq bağları olan insanları qorumaq və uşaqları tərbiyə etmək idi. Təbii ki, bu digər canlıların birlik formasına məxsus olan fiziki və maddi təminat cəhətdən oxşar idi. Lakin Allahın yüksək şərtlər daxilindən yaratdığı, müxtəlif bilik və bacarıqlar verdiyi insan düşüncə mənbəyi, yenilik etmək, rast gəldiyi hər bir hadisəni, əhatə olunduğu mühiti öyrənmək, bir-birləri ilə qarşılıqlı yardımda və təmasda olmaq qabiliyyətinə görə dəyişir və inkişaf edirdi. Onlar zaman-zaman mağarada formalaşdırdıqları mədəniyyətlər məcmusunu təbii-coğrafi şəraitə uyğunlaşdıraraq ətrafa yaymağa başladılar. Beləliklə, digər yerlərdə olduğu kimi Naxçıvanda da insanlar yeni yaşayış məskənləri, məşğuliyyətlərinə uyğun yerlər seçdilər. Min illər boyu mağarada formalaşmış mədəniyyət inkişaf edərək təbii-coğrafi şəraitə, əhalinin məşğuliyyətinə uyğun olan yeni yaşayış məskənlərinə, oradan şəhərsalma və dövlət qurmaya yüksəldi.

Bu birliyin və mədəniyyətin formalaşmasında bir çox amillərlə yanaşı Duzdağ və burada istehsal olunan duz ciddi rol oynamışdır. Bəzi məqalələr, statistik təsvirlər istisna olmaqla tarixi mənbələrdə Duzdağla bağlı o dərəcədə də geniş məlumat yoxdur. X1X əsrin ikinci yarısından başlayaraq burada çalışan bir sıra mühəndislər qədim duz mağaraları, oradan aşkar edilmiş daş alətlərlə maraqlanmışlar. 1870-ci ildə Duzdağda çalışan Bayer bir neçə daş balta tapmışdır. K.A.Nikitinin məlumatından aydın olur ki, o tapdığı baltalardan ikisini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını Tiflis və Peterburq muzeylərinə göndərmişdir (14, s.115). Sonrakı dövrlərdə İ.S.Polyakov və P.N.Nadejdin buradan bir neçə daş balta və digər tapıntılar əldə etmişlər. Duzdağ mədənlərinin arxeoloji cəhətdən tədqiqi keçən əsrin 70-ci illərində yenidən başlanmışdır. Bunlar da təsadüfi tapıntılarla bağlı olmuşdur. 1967-ci ildə uçqun zamanı və 1976-cı ildə Duzdağda qazma işləri apararkən qədim şaxta aşkar edilmişdir. Həmin vaxt şaxtada ilkin araşdırmalar aparmaq məqsədilə arxeoloq V.Əliyev məni və Q.Ağayevi də ora apardı. Xatırımda qaldığı qədər Vəli müəllim ilkin tədqiqatla bağlı «Elm və həyat» jurnalında, sonra isə Az. SSR EA «Xəbərlər»ində məqalə nəşr etdirmişdir (3).

Xalq arasında Duzdağla bağlı müxtəlif rəvayətlər hələ də yaşamaqdadır. Deyirlər ki, guya Qaşın altı bütövlükdə boşdur, Duzdağdan Qaraquca (Qaravuşa) qədər yeraltı yol var. Guya keçmişdə məlum məsafədən havalanma üçün xüsusi bacalar açılmışdır. Bu həm də işıqlandırma rolunu oynamışdır.

Duzdağ ərazisində geniş tədqiqat işləri 2006-2008-ci illərdə Vəli Baxşəliyev və Katiri Maronun rəhbərliyi ilə aparılmışdır. Araşdırmalar nəticəsində buradan müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı Eneolit, Erkən Tunc, Dəmir dövrlərinə və Orta əsrlərə aid keramika materialları əldə olunmuşdur (2, s. 88-90). Həmin tapıntılara söykənərək demək olar ki, Duzdağda həyat, duz çıxarılması işi Daş dövründən günümüzə qədər davam etmişdir.

Duzdağ, buradan duz çıxarılması ilə bağlı ümumi və statistik məlumatlara K.A.Nikitinin (14), V.Qriqoryevin (12) əsərlərində rast gəlirik. Naxçıvanda duz istehsalı, onun satışı və digər məsələlərlə əlaqəli Z.Şahverdiyevin kitabında (6), Y.Rəhimovun məqaləsində (5, s. 75-79) geniş məlumat verilmişdir. Yuxarıda göstərilən mənbələr daha çox Duzdağın qədim dövrünə aid tarixi-iqtisadi məsələləri, statistik məlumatları əhatə edir. Ümumiyyətlə, bizim məlumat xarekterli yazımız (4, s. 43-45), R.Babayevin məqaləsi (1, s. 144-146) istisna olmaqla Duzdağ və duzla bağlı məsələlər folklor və etnoqrafik baxımdan tədqiqata zəif cəlb edilmişdir.

Duzdağ sərvət dağıdır, bərəkət hündürlüyüdür. Elmi ədəbiyyatda Ələyəz dağlarından ayrılıb cənub istiqamətinə uzanan silsilə Duzdağ silsiləsi adlanır. Lakin el arasında bura Qaş, Cəhrinin qaşı deyilir. Duzdağ isə onun cənub hissəsini təşkil edir.

Xalq arasından toplanmış materiallara əsaslanaraq demək olar ki, qədim zamanlardan Duzdağdan duz çıxarılması Cəhri kəndinin nəzarətində olmuşdur. Tarixi mənbələrə əsaslanaraq Z.Şahverdiyev yazır ki, XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istinasız olaraq Cəhri kəndinin sakinləri məşğul olmuşlar. Lakin Kalbalı xanın vaxtında, XIX əsrin əvvəllərində cəhrililər bu işdən kənarlaşdırılmışdır ( 6, s. 84). Rəsmi göstərişə baxmayaraq Cəhri kəndinin sakinləri XX əsrin 30-cu illərinə qədər Duzdağ ərazisindən duz çıxarmaqda davam etmişlər.

Duz çıxarılmasında lom, külüng, dəmir guppanla bərabər qədimdə olduğu kimi daş alətlərdən də geniş istifadə olunmuşdur. Bunlar içərisində çəkisi 2-3 pud olan daş guppanlar diqqəti daha çox cəlb edir. Ucları sivri düzəldilmiş guppanlardan duz uçqunu yaratmaq üçün istifadə olunurdu. Ortasındakı kan yerindən ip bağlanaraq müəyyən hündürlükdəki mıxdan asılı olan guppan ortasına bağlanmış ip vasitəsi ilə geri çəkilib buraxılırdı. Ağır zərbə ilə duz layına dəyən alət duz sallarını qırıb tökürdü.

Təbii ki, daş alətlərdən istifadə olunması daş dövründən başlamışdır. Lakin Duzdağda istifadə edilən alətlərin müəyyən hissəsi sonrakı inkişaf mərhələlərində yerli ustalar tərəfindən də düzəldilmişdir. Yəni, alətin daşdan olması o demək deyil ki, onun hamısı daş dövrünə aiddir. Lakin daşla duz çıxarılması ənənəsi ibtidai insanlardan bizə qalan mirasdır. Buna görə də buradan aşkar edilmiş alətləri dövrləşdirərkən tarixilik məsələsinə xüsusi diqqət verilməlidir. Çıxarılan duz bir neçə formada olurdu: sal duz, xınc və narın duz.

Məişətdə narın duzdan daha geniş istifadə edilmişdir. O, bir neçə üsulla hazırlanırdı. Hələ Duzdağda olarkən duz sallarının ən təmiz, gili az olanı ayrıca yığılırdı. Həmin sallar həyətlərə gətirildikdən sonra yuyulub qurudulur, müəyyən daş və ya çəkiclə əzilərək "xınc" formasına salınırdı. Əzilmiş, xırdalanmış duzlar müxtəlif ölçülü dibək daşlarında döyülürdü. Duz qış ruzisi sayılmaqla hələ yaydan onu döyüb hazırlayırdılar. Böyük ailələrdə duz çox istifadə edildiyindən onu dibəkdə döyüb çatdırmaq çətin olurdu. Buna görə də duzu kir-kirədə (dəstər, əl dəyirmanı) çəkirdilər (üyüdürdülər). Kirkirədə duz çəkmək çətin olduğundan bu işdə qadınlara evin kişiləri xüsusən, oğlan uşaqları da yardım edirdilər. El arasında deyirdilər ki, hər adam kirkirədə duz çəkə bilməz. Çünki onun qaydasını bilməyənlər daşı sürtdürə bilərlər.

Beləliklə, daş ovulub duza qarışar. Eyni zamanda kirkirə dişəkdən düşər. Məlum olduğu kimi belə daşlar xüsusi adamlar tərəfindən dişənir. Yəni xüsusi alətlə daş çopurlaşdırılır (onda kiçik çıxıntılar oyulur). Daş hərləndikdə həmin çıxıntıların (dişəklərin) arasında qalan duzlar un kimi üyünür. Bilindiyi kimi kirkirədə təkcə duz çəkilmirdi. Burada yarma, qovud çəkilir, bir sıra toxumlar üyüdülürdü. Dişəkdən düşmüş kirkirə üyütmək xüsusiyyətini itirirdi. Qeyd edək ki, kirkirə hər evdə olmazdı. Buna görə də ev sahibi onda kənar adamların duz üyütməsinə icazə vermirdi. Etnoqrafik materiallara söykənərək demək olar ki, kəndlərdə bu işlə məşğul olan adamlar var idi. Onlar kirkirəni duz üyütməyə (çəkməyə) verərkən əvəzində pul və ya natura formasında nə isə alırdı. Lakin bu çox az halda olardı. Xalq arasında belə alətlər «ehsanlıq» adlanmaqla qohum və qonşular arasında ücrətsiz istifadə olunardı.

Ağ duz xüsusi qaydada hazırlanırdı. Duz xınc halına salındıqdan sonra onu isti suda həll edirdilər. Tam bulanıq məhlul adlanırdı. Alınmış məhlulu müəyyən müddət bir qabda saxlayırdılar. Duzun gili, qarası çökürdü qabın dibinə, sonra qatı duzlu məhlulu ayrı bir qaba süzüb qaynadırdılar. Xalq arasında deyirlər ki, ağlığına baxmayaraq belə duzların dadı olmur.

Narın duz ayrıca qablarda-duz çuvallarında saxlanırdı. Duz çuvalları müxtəlif ölçülü və naxışlı olmaqla xüsusi qaydada toxunur və ya palaz materialından tikilirdi. Duz çuvalları evin bir küncündə, su toxunmayan yerdə saxlanılar və çox nadir halda yerindən tərpədilərdi. Bunun təsiridir ki, evdə çox oturmağa məcbur edilən qız-gəlinlər «Mən duz çuvalı deyiləm ki, evin bir küncündə qalam»- deyərdilər. Duza böyük inam olduğundan duz çuvalı, duz qabı ciddi şəkildə qorunardı.

Məişətin digər sahələri ilə yanaşı duz heyvandarlıqda da geniş istifadə edilirdi. Buna görə də heyvanlar yaylağa qaldırılarkən həll edilən əsas məsələlərdən biri də duzla təminat idi. Etnoqrafik çöl materiallarına söykənərək demək olar ki, bütün yurd yerlərinin ətrafında böyük qayalarda yonulmuş dibəklər və duz daşları olurdu. Döyülmüş duz yastı və hamar daşların üzərinə səpilər, sonra heyvanları duz yalamağa ötürərdilər. Uzun illər boyu həmin daşlar heyvanlar tərəfindən yalandığından çox hamar olmaqla «duz daşı» kimi bilinirdi. Heyvanlara bu qaydada duz verilməsi daha çox xırdabuynuzlulara aid idi. İribuynuzlu mal-qara üçün duz sal şəklində müəyyən yerlərə qoyulur. Bütün bunlar duzun ayaqlanıb zibilə qatılmaması üçün edilirdi. İlin soyuq fəslində axur və qalotlara sal duz qoyulur.

Yaylaqda duzdan təkcə heyvanlara verilmək üçün deyil, həm də heyvanat məhsullarının hazırlanmasında geniş şəkildə istifadə edilirdi. Xüsusən pendirin duzlanması, şorov hazırlanması, motal və eymələrdə qurd əmələ gəlməsinin qarşısını almaq üçün ondan geniş istifadə edilirdi.

Heyvandarlıqda duzla bağlı adətlərdən biri də yeni doğulmuş balaların duzlanmasıdır. Peşəkar heyvandarlar söyləyirlər ki, bala doğulan kimi onun üstünə duz səpirlər. Bu, ananın balanı yalamasına, südlü və balacanlı olmasına təsir göstərir. Duzlanmış balalar qotur və digər xəstəliklərə çətin tutulurlar.

Beləliklə, duz heyvandar üçün həyatı məsələ idi. Hevandarlıqda geniş istifadə edildiyi üçün ilin isti fəsillərində Qarabağın elat əhalisi tarixi Naxçıvan ərazisindəki yaylaqlara gələn vaxtlarında duz çıxarılması, duz ticarəti nəzərə çarpacaq dərəcədə artırdı. Bununla bağlı yazılı mənbələrdə də məlumatlar vardır. V.Qriqoryev yazır ki, ilin yay aylarında Qarabağdan gələn köçlərin Salvartının, Əriklinin, Dərələyəzin yurdlarında yerləşməsi duza olan tələbatı daha da artırırdı (12 , s. 17-18).

Duz yaylaqlara, dağ və dağətəyi kəndlərə, hətta Kəlbəcər, Laçın, Korus, Dərələyəz və Sisiyanın kəndlərinə qatır və ulaqlar vasitəsi ilə daşınırdı.

Tarixin müəyyən mərhələsində Naxçıvandan çıxan karvanların əsas yükü duz olmuşdur. Hələ indi də birini xoşugəlmədiyi yerə çağıranda gileylənərək bu ifadəni işlədir: «Dəvəyə dedilər ki, səni qonaqlığa çağırırlar cavab verdi ki, öpməli dodağım yox, qucmalı belim, məni ya Naxçıvana duza göndərəcəklər, ya da Bərşükata düyüyə». Bu deyimin bir tərəfi Naxçıvandan duz aparmaqdırsa, digər tərəfi Bərşükatdan düyü gətirməkdir. Bəli, Naxçıvandan aparılan duzun əvəzində qayıdanda heyvanat məhsulları, toxuculuq məmulatı, burada az tapılan mallar gətirilirdi. Deməli, Naxçıvan duzu ən yaxşı mübadilə vasitəsi idi.

Duz ticarətlə bərabər Naxçıvanda sənətkarlığın inkişafında, xüsusən gön-dəri məmulatlarının aşılanmasında, müxtəlif geyimlərin, at əsləhəsinin, döyüş vasitələrinin hazırlanmasında, xalq təbabətində geniş istifadə edilmişdir. Bütövlükdə şəhər mədəniyyətinin formalaşmasında ciddi rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Babayev R. Folklorda «duz yükü» məsələsi (Naxçıvan materialları əsasında). AMEA Naxçıvan bölməsi, Xəbərlər, № 2, Naxçıvan, 2006, s. 144-146
2. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
3. Əliyev V. Naxçıvanın qədim duz mədənləri. Az. SSR EA Xəbərləri, 1983, № 4.
4. Qədirzadə H.Q. Cəhriçay vadisi: m.ö. IV minilliklərdən günümüzədək (tarixi etnoqrafik araşdırma). Naxçıvan: 2007, 160 s.
5. Rəhimov Y. XIX əsrdə Naxçıvan duz sənayesi (rus mənbələri əsasında) AMEA Naxçıvan Bölməsi, Xəbərlər, № 3, Naxçıvan, 2007, s. 75-79
6. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 204 s.
7. Acıpayramlı O. Türkiyede doğumla ilgili adet ve etimoloji etüd. Erzurum, 1961, 172 c.
8. Kadırzade Kadır. Rus alimi, akad. V.A.Qordilevskinin Bektaşilikle ilgili araştırmaları üzerine bir açıklama. HBVSB. Ankara, 1999, s. 173-176.
9. Kalafat Yaşar. Kuzey Azerbaycan-Doğu Anadolu ve Kuzey İrakta eski türk dini izleri. Dini folklorik tabakalaşma. Ankara , 1998, 293 s.
10. Абрамзон С.М. Рождение и детство киргизского ребенка (из обычаев и обрядов тянь-шаньских киргизов. Сб.МАЭ , т.12,М.-Л., 1949, с. 78-138.
11. Гордлевский В.А. Рождение ребенка и его воспитание. Избранные сочинения. Том 4, Москва, Наука, 1968, 612, с. китабында, s.128-130.
12. Григорьев В.Г. Статистическое описание Нахичеванской провинции. СПб, 1833, 263 с.
13. Колашев Николай. Местечко Сальяны (Салян) Джевадского уезда Бакинской губернии. СМОМПК. Вып. 5, отдел 1, Тифлис, 1886, с. 66-171.
14. Никитин К.А Город Нахичевань и Нахичеванский уезд. СМОМПК, Тифлис, 1882, вып. 2.отдел 1. с. 109-142.
15. Тошакова Е.М. Традиционные черты народной культуры алтайцев (XIX-начале XX вв). Новосибирск, Наука, Сибирское отделение. 1978, 160 с.
16. Фирштейн Л.А. О некоторых обычаях и поверьях, связанных с рождением и воспитанием у узбеков Южного Хорезма. Семья и семейные обряды у народов Средней Азии и Казахстана. Москва, Наука, 1978 китабында, s.189-208.

**Bayram RZAYEV**
*Kimya elmləri doktoru*
*AMEA Naxçıvan Bölməsi*

# DAŞ DUZ NAXÇIVANIN ƏN QİYMƏTLİ MİNERAL SƏRVƏTİ KİMİ

Xörək duzu insanın tanıdığı və istifadə etdiyi ilk təbii mineral maddələrdən biridir. Duzun çıxarılması və işlədilməsi haqda yazılı məlumata Heredotun "Tarixində" (e. ə. 484- 425-ci illər) rast gəlinir.

Qədimdə Naxçıvan daş duzu bütövlükdə Qafqazı təmin etməklə yanaşı, eyni zamanda onu Rumıniyaya, Bolqarıstana, Çinə, hətta Yaponiyaya dəvə karvanları ilə aparırmışlar [1, s. 8]. Naxçıvan daş duzu minilliklər ərzində mübaliğəsiz demək olar ki, dünya duzu rolunu oynamışdır. Duzun qiyməti qızılla dəyərləndirilmişdir.

Duzun dəyəri haqqında qədimdən başlayaraq bir sıra mütəfəkkirlər qiymətli kəlamlar işlətmişlər.

Qədim Roma alimi və yazıçısı Plini eramızın birinci əsrinin ortalarında duzun insan üçün əhəmiyyəti haqqında belə yazırdı: –"Duz başlanğıc üçün o qədər əhəmiyyətlidir ki, həyatda olan bütün yaxşı şeyləri, hətta ən yüksək şadlıq belə onunla müqayisə oluna bilməz". Qədim Romada duzun xariqüladə gücə malik olduğuna inanır və hətta ona tilsim kimi baxırdılar.

Məşhur alman kimyaçısı Y. Libix XIX əsrin ortalarında yazırdı: ...Afrikanın bir çox yerlərində insanları duza satırlar; ...Duz üçün qardaş bacını, ər arvadı, valideynlər uşaqlarını satırlar, Akkra ölkəsində (Qızıl sahil ) bir ovuc duza ən yaxşı məhsullar, qızıl və iki kəniz almaq olardı". Hətta Afrikanın bir çox ölkələrində indi də xörək duzu ləzzətli qida rolunu oynayır, tanışlar görüşdükdə dostluq əlaməti olaraq bir-birini duza qonaq edirlər.

Qədim yunan və Roma mütəfəkkirləri duzu yüksək qiymətləndirərək yazırdılar ki, bu maddə çörəkdən savayı bütün qidaları əvəz edə bilər. Onu "Tanrı sovqatı" adlandırırdılar.

Hind əsgərləri komandirləri qarşısında duza and içirdilər. İslam aləmində duzun dəyişməzliyini, sabitliyini əsas tutaraq sazişləri duzla təsdiq edirdilər.

Qədim yəhudilərdə duz allah Yəhva ilə xalq arasında sarsılmaz əlaqə rəmzi sayılırdı. İslam dinində çörək "Allah sovqatı" sayıldığından onun duza batırılıb yeyilməsi çörəyin qorunması, bu isə Tanrı və onun təbəələri arasında birliyin olması demək idi.

XVII əsrin ortalarında duz çatışmazlığına görə Rusiyanın bir çox şəhərlərində (Pskov, Novqorod və b.) xalq iğtişaşları baş vermiş, üsyanlar olmuşdur. 1930-cu ildə Hindistanda Qandi özünün 78 nəfər sədaqətli silahdaşları ilə birlikdə dəniz sularından duz almaq üçün yürüş təşkil etmişlər. Məhz bu da ingilislərin duz monopoliyasına qarşı Hindistanda etiraz aksiyasının başlanğıcı olmuşdur.

Dünya xalqlarında duzla bağlı əfsanələr, nağıllar, zərb-məsəllər yaranmışdır. Bunlardan birində deyilir ki, şahın xəzinəsini yaran oğrular oradan qızıl, gümüş və qiymətli daş-qaşları yığışdırılar.

Bu zaman oğrunun gözü ağ kristal şeyə sataşır. Onun nə olduğunu yoxlamaq üçün dilinə sürtür. Bunu görən oğrubaşı maddənin duz olduğunu anlayır. Dərhal oğurlanmış şeylərin hamısını yerinə qaytarmağı əmr edir və deyir: Biz burada duz daddıq, heç nəyə əl vurmaq olmaz. Duz bizi tutar, bizə qənim olar. Cəhənnəmin odlu kösövündən qorxmayan, şahın qanlı dar ağacından çəkinməyən oğru duzdan xoflanır, çəkinir.

"Ömrün duz dağına dönsün" − "ömrün duz dağı qədər uzun olsun" deyimi, bioloji dillə desək, Naxçıvan üçün xarakterik, tipik olub qədim Naxçıvanda meydana çıxmışdır [2]. Təbii ki, deyim ya duz, ya da dağla bağlı yaranmışdır. Əgər dağla bağlı olsa idi onda onun Sarı, Nəhəcir,

Əlincə, Haçadağ ya da ki, Ağrı dağı qədər uzun olsun deyərdilər. Bu dağlarla müqayisədə duz dağı çox kiçik görünür. Deməli, deyimin əsl mənasını dağda deyil, duzda onun çox dərin hikmətində, kimyəvi xassələrində axtarmaq lazımdır. Xörək duzu çox hiqroskopik maddə olub nəmi asanlıqla udaraq sulanır və olduğu yerdən səthə dırmanır. Hər tərəfində duz layı qalmış quyuya kənardan yağış suları sızaraq duz təbəqələrini sulandırır. O da tədricən quyunun dibinə doğru hərəkət edir və yüzilliklər ötdükdən sonra duzla dolan quyunun kənarlarından sızaraq səthə çıxır. Təsadüfən bunu görən insanlar quyunun ağzını açdıqda onun duzla dolduğunu görüb heyrətlənirlər. Buna görə də duza "möcüzə", "Böyük Allah", "Tilsim" və s. kimi baxmışlar. Qədim insanlar elə başa düşürdülər ki, dağdan nə qədər duz çıxarılmasından asılı olmayaraq dağdan duz qurtarmaz, tükənməz. "Ömrün duz dağı qədər uzun olsun" − yəni tükənməz olsun deyimi, məhz duzun xassələri ilə bağlı meydana çıxmışdır

Naxçıvan daş duzu üzrə ilk dəfə əsaslı tədqiqat aparan Q.Voskoboynikov olmuşdur [1, s. 8-9]. O, 1830-cu ildə "Горный журнал"da Naxçıvan daş duz yatağının təsvirini vermişdir. Məqalədə göstərilir ki, Naxçıvan duzu qədim dövrün yüzillikləri ərzində istismar mənbəyi olmuşdur. Bu 12 müxtəlif sahədə aparılmış, geniş işlənmiş yerlərin izlərindən də aydın görünür. Qədim mədənlərdə işlərin dayandırılmasına səbəb duzun çox dərindən çıxarılmasının çətinliyi, su axarının olması və şaxtalarda uçqunların baş verməsi olmuşdur. Hazırda işlənən mədən təpənin qərb tərəfində yerləşir.

XIX əsrin 60-cı illərində duz yatağını Sulukidze, Xalatov və Arxipov təsvir etmişlər.

1909-cu ildə A.M. Marqolius Duzdağ və Sust yataqlarını xarakterizə etmiş və onların minimum ehtiyatlarını qiymətləndirməyə çalışmışdır.

1930-cu ildə K. N. Paffenhols duz yatağını öyrənərək duz qatının quruluşunun mənzərəsini vermiş və qatı daha qədim geoloji qatlarla əlaqələndirmişdir.

1934-cu ildə ilk dəfə yataqda Qafqaz Geoloji Tresti tərəfindən hərtərəfli kəşfiyyat işləri aparılmışdır. Nəticədə yatağın cənub hissəsində $A+C_1$ kateqoriyası üzrə 17 mln. ton duz ehtiyatının olduğu təsdiqlənmişdir.

Qədimdə duz dünyanın çox az yerlərində tapılmışdır. Yataqda duz layının səthə çıxışı olmasına görə Sust və Duzdağ nadir yataqlardan hesab olunur. Yataqlarda müəyyən yerlərdə əmələ gələn çatlardan duz nəmlənərək səthə çıxdığından qədim insan onu asanlıqla "kəşf" etmişdir.

Duzun dadsız qidanı dadlı etməsi, ərzaqları təzə saxlamaq xüsusiyyəti insanlarda heyranlıq doğurur, insanlar onu sevirdilər. Orqanizmdə duzun azlıq etməsi insanın əqli qabiliyyətini zəiflədir, hərəkəlikdən salaraq süstlük yaranır. Orqanizmdə duz balansının qorunub saxlanması toxumalarda və hüceyrələrdə maddələr mübadiləsi üçün zəruri şərtdir. Ona görə də gündə 5 qram duzdan istifadə edilməsi kifayətdir. Həmin miqdara müxtəlif qidalarla orqanizmə daxil olan duz da aiddir.

Doğrudan da xörək duzu insan üçün əvəzedilməz mineral qidadır. Burada söhbət duzun tək dad keyfiyyətlərindən yox, onun orqanizmdə oynadığı roldan gedir. İnsanın qidasında xörək duzunu hər hansı bir başqa maddə ilə əvəz etmək haqqında düşünmək belə ağlasığmazdır. Dəniz və okean sularında olan duzların miqdarı təyin edilmiş və onların kütlə nisbətləri hesablanmışdır. Bu nisbətləri qanın duz tərkibi ilə müqayisə etdikdə qəribə də olsa uyğunluq müşahidə edilmişdir. Bunu və eyni zamanda natrium xloridin mərkəzi və vegetativ sinir sistemində, qanın və toxumanın kimyəvi tərkibini nizama salmaqla orqanizmdə çox böyük rol oynadığını nəzərə alan bir sıra alimlər həyatın əmələ gəlməsinin duz mənşəli olduğunu göstərən hipotez irəli sürməkdə bəlkə də haqlıdırlar.

Naxçıvan daş duzunun qida məhsulu kimi əsas çatışmayan cəhəti tərkibində yodun olmamasıdır. Ona görə də yeyinti məqsədilə istehsal olunan duz yodlaşdırılmalıdır.

Xörək duzunun yodlaşdırılmasının əsas səbəbi içməli sularda yodun çatışmazlığından əmələ gələn endemik zobun qarşısını almaq üçün işlədilən profilaktiv vasitədir. Yodlaşdırıcı reagent kimi kalium yodiddən istifadə edilirdi. Yodlaşdırılmış duzda yodun davamlılığını artırmaq üçün ən yaxşı stabilizator natrium tiosulfat hesab olunur. Natrium tiosulfatı kalium yodidin 1%-li, yaxud ümumi xörək duzunun 0,00001%-i qədər (1 ton duza 250 q tiosulfat) əlavə edilməsi yodlaşdırılmış duzda yod itkisinin qarşısını 6 ay alır.

Yodlaşdırma yaş və quru üsulla yerinə yetirilir. Yaş üsulda 25 q kalium yodid və 250 q natrium tiosulfat 5 – 10 litr suda həll edilir. Alınan konsentrat 1 ton üyüdülmüş duza qarışdırılır. Quru üsulda isə 1 kq duza 25 q kalium yodid və 250 q natrium tiosulfat əlavə edilir. Alınan konsentrat 1 ton duzla qarışdırılır.

Son zamanlar xörək duzunu yodlaşdırmaq üçün kalium yodit duzundan istifadə edilməyə başlanmışdır. Yodun bu duzu çox davamlı olub, uzun müddət parçalanmır.

Hazırda duzun yodlaşdırılması tam avtomatlaşdırılmışdır. Üyüdülməyə verilən duzun miqdarından asılı olaraq müəyyən sürətlə dozatordan yodlaşdırıcı maddənin məhlulu axıdılır. Bu halda yodlaşdırıcı reagent duzla yaxşı qarışır, onda bərabər paylanır.

Qida duzunun yodlaşdırılması daş duzdan istifadə olunduqda deyildiyi kimi iki üsulla həyata keçirilir. Birinci üsulda quru duza yodlaşdırıcı maddənin məhlulu, ikincidə isə bərk maddənin əlavəsi ilə duzun üyüdülməsi zamanı prosesə verilir. Yodlaşdırılma sxemi aşağıdakı şəkildə verilir.



*Şəkil . Yodlaşdırılmış duzun alınma sxemi*

*1. lentalı transportyor; 2–irikristallı duz bunkeri; 3–maili nov; 4– yodlaşdırıcı reagent məhlulunun çilənməsi; 5–xırdalama maşının ağzı; 6–xırdalama dəzgahı; 7–yodlaşdırılmış duzun çıxışı.*

Xörək duzunun suda yaxşı həll olması, xüsusi dadı, konservasiya, iondəyişmə və krioskopik xassələri onun xalq təsərrüfatının çox müxtəlif sahələrində və məişətdə geniş tətbiq olunmasına imkan verir.

Natrium xloridə ən böyük tələbatı olan kimya sənayesidir. Soda və natrium hidroksid qeyri-üzvi kimya sənayesində istehsal olunan çoxtonlu məhsullara aiddir. Sodanın 1 tonunun istehsalı üçün 1,55 ton natrium xlorid, natrium hidroksidin 1 tonunun alınması isə 1,6 – 1,9 ton xörək duzu tələb olunur.

Natrium xloridə tələbatı böyük olan sahələrdən biri də energetikadır. İstilik elektrik stansiyalarında, istilik qazanxanalarında işlədilən suyun təmizlənməsində istifadə olunan ionitlərin regenerasiyasını 6–10%-li natrium xlorid məhlulu ilə aparırlar. 1 kub metr suyun təmizlənməsinə 0,6 – 1,0 kq natrium xlorid işlənir.

Yeyinti və yüngül sənayedə də natrium xloriddən geniş istifadə edilir. Qida məhsullarının konservləşdirilməsi, parçaların boyanması, dərinin duzlanması, saxlanması və aşılanması proseslərində natrium xlorid əvəzolunmazdır. Bir misal, 1 ton xam dərinin şorabalama üsulu ilə

duzlanmasına 500 kq, bir canavar dərisinin çeşidləmə və boyanmasına orta hesabla 2,7 kq, 1000 $dm^2$ qoyun xəzinin konservasiyasına xəzin keyfiyyətindən asılı olaraq 19,2-dən 31,4 kq-a qədər xörək duzu işlədilir [ 3, s. 36] .

Xörək duzundan dumana qarşı effektiv mübarizə tədbiri kimi istifadə etmək olar. Müəyyən edilmişdir ki, narın üyüdülmüş xörək duzunu aerodrom üzərindən səpdikdə o havanın nəmini güclü udaraq dumanın dağılmasına səbəb olur.

Natrium xlorid suyun donma temperaturunu aşağı saldığına görə ondan buz bağlamış yolların açılması üçün işlədilir.

Rəngli metallurgiyada xörək duzu polimetallik və sulfid filizlərinin, pirit yanığının xlorlaşdırma – yandırılmasında istifadə olunur. Bu proseslərdə natrium xlorid xlorlaşdırma reagenti kimi sink, qurğuşun, mis və başqa metalları suda həll olan xloridlərə çevirir. Yandırma 400 – $600^0$C-də aparılır. Metallurgiyada natrium xlorid eyni zamanda flyus kimi istifadə edilir [ 4, s. 45 ].

Xörək duzu toxuculuq sənayesində boyama prosesində, sabun sənayesində, keramikanın qlazurla örtülməsində, endotermik qarışıqların hazırlanmasında geniş istifadə olunur.

Tibbidə natrium xlorid qədər miqdarca çox və müxtəlif sahələrdə tətbiq edilən ikinci bir preparat təsəvvür etmək çətindir. Natrium xloridin 0,9%-li məhlulu fizioloji məhlul adı ilə bilavasitə venaya köçürülür. Mərkəzi və vegetativ sinir sisteminin fəaliyyətini, qanın və toxumanın kimyəvi tərkibini nizama salan – hemodez, Ringer Lokk, "Asesol", "Disol", "Trisol", "Laktasol", "Xlorosol" və digər geniş yayılmış dərman preparatlarının tərkibinin əsas komponentlərindən biri natrium xloriddir. Eyni zamanda natrium xlorid müxtəlif dərman preparatlarının izotonikləşdirilməsində əvəzolunmazdır.

Tibbidə işlədilən natrium xlorid əsasən kimyəvi təmiz təsnifatlı maddələrin–xlorid turşusunun soda ilə qarşılıqlı təsirindən alınır. Bu üsulda başlanğıc maddələrin alınması və təmizlənməsi çətin, texnoloji proseslərin sayı çox və mürəkkəb olduğundan alınan natrium xlorid baha başa gəlir.

Bunu və respublikanın tibbi duza ehtiyacını nəzərə alaraq daş duz əsasında yüksək təmizliyə malik natrium xloridin alınması istiqamətində geniş laboratoriya tədqiqatları aparılmışdır. Daş duzda olan əsas kənar qarışıqlar kalsium, maqnezium və sulfat ionlarıdır. Onların hər biri üçün təmizləmə metodu işlənmişdir. Proseslərə analitik nəzarət metodları seçilib istifadə edilmişdir. Kənar qarışıqlardan təmizlənmiş duz məhlulu kvars qızdırıcılarla buxarlandırılaraq kiçik kristallı natrium xlorid alınmışdır. Natrium xlorid xüsusi materialdan düzəldilmiş tutumlarda 120 – $150^0$C temperaturda qurudulmuşdur. Proseslər yarımsənaye qurğularında da aparılmış və bütün texnoloji parametrlər çıxarılmışdır. Alınmış kristallik natrium xlorid analiz nəticələrinə görə farmakopeyanın bütün tələblərini ödəyir. İş üzrə patent alınmışdır [5].

Daş duz Naxçıvan Muxtar Respublikasının ən qiymətli mineral sərvətidir. O, eyni zamanda ekoloji baxımdan ən təmiz duzdur.

## ƏDƏBİYYAT

1. Мамедов Ш.Н., Мухтаров Г.Г., Осипова В.А. Рациональная разработка месторождений каменной соли Азербайджана. Ваку, Наука, 1967, 223 с.
2. Rzayev B.Z. Ömrün duz dağına dönsün, yaxud bir xalq deyiminin izi ilə. Şərq qapısı, № 63-64, 2003.
3. Чернов Ф.О., Аронина Ю.Н., Гайдаров Л.П. и др. Технология кожи. М., Гос.научно-технические изд-ство легой промышленности, 1952, 679 с.
4. Фурман А.А., Бельды М.П., Соколов И.Д. Поваренная соль. М., 1969. 253 с.
5. Rzayev B.Z., Qarayev Ə.M. Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi 2006, İ 0131.

**Ağarza RÜSTƏMOV**
*İqtisad elmləri doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA DUZ İSTEHSALININ PERSPEKTİVLƏRİ

Azərbaycan zəngin təbii sərvətlərə malikdir ki, bu da Ulu Tanrının Azərbaycan xalqına lütfüdür. Bu baxımdan Azərbaycanın Uralı sayılan Naxçıvan Muxtar Respublikası xüsusilə seçilir. Burada zəngin filiz və qeyri-filiz yataqları vardır ki, bunlar ölkəmizin iqtisadi potensialının gerçəkləşdirilməsində xüsusi çəkiyə malik ola bilərlər.

Hazırda dünya bazarında mineral xammala olan tələbat böyük sürətlə artmışdır. Elə vəziyyət yaranmışdır ki, bir qrup dövlətlər dünya miqyaslı xammal alıcılarına çevrilmişdir. Geridə qalmış və inkişafda olan ölkələrin maddi imkanları məhdud olduğundan təbii sərvətlərdən, xüsusilə mineral xammal yataqlarından ixrac malı kimi istifadə edərək onlardan gələn gəlir hesabına ölkələrinin iqtisadi – sosial inkişafını təmin edirlər.

Təbii sərvətlərin, o cümlədən də mineral xammalın ixracı xüsusi dövlət nəzarəti altında olmalıdır. Əks təqdirdə mineral xammal ixrac edən ölkə inkişaf etmiş dövlətlərin, yaxud ayrı-ayrı Beynəlxalq korporasiyaların mineral xammal mənbəyinə çevrilə bilər ki, bu da nəticə etibarilə heç bir müstəqil dövlətin xeyrinə ola bilməz.

Qeyd olunanları nəzərə alaraq təbiətin bizə bəxş etdiyi təbii sərvətlərdən, eləcə də yerin təkində olan kəşf olunmuş mineral xammal yataqlarından səmərəli və kompleks şəkildə, tullantısız texnologiyaların tətbiqinin həyata keçirilməsi formasında istifadə edilməsini ən vacib məsələlərdən hesab edirik.

Onu da qeyd etmək lazımdır ki, yeraltı mineral sərvətlər təbii sərvətlərin tükənən, bərpa olunmayan növünə aiddir. Ona görə də onlardan istifadə tam və komplkes xarakterdə olmaqla yanaşı ətraf mühiti çirkləndirməməli və zəhərlən-dirməməlidir. Bu fikir xammalın çıxarılmasından başlamış, zənginləşdirmə me-todlarına, konsentratların işlənmə metodlarına, ara və son məhsulllların istehsalına qədər bütün prosselərdə əsas götürülməlidir.

Qeyri – filiz ehtiyatları içərisində daş duz ehtiyyatları xüsusi çəkiyə malikdir və bu sahə Naxçıvanın simvollarından biri sayılır. Belə ki, Naxçıvan Muxtar Respublikasının təbiəti füsunkar və cazibədar gözəlliyi, əsrarəngiz dağ landşaftları və Araz çökəkliyi ilə səciyyələnir və çoxsaylı müxtəlif faydalı qazıntı yataqları ilə zəngindir. Naxçıvan çökəkliyindəki Nehrəm və digər daşduz yataq-ları unikal ehtiyatlara malikdir. Naxçıvan Muxtar Respublikasında – Naxçıvan, Nehrəm, Sust yataqlarında tədqiq olunmuş daş duz ehtiyatı Azərbaycanın bütünlükdə daş duz ehtiyatı deməkdir. Onu da qeyd etmək lazımdir ki, dünyada xörək duzu istehsalında ən keyfiyyətli duz daş duz sayılır.

Xörək duzu bəşər övladına çox qədimlərdən məlumdur. İnsanın onunla tanışlığının tarixi yeddi min ildən çoxdur.

Naxçıvanın tədqiq olunmuş daş duz ehtiyatı haqqında məlumat verməyimiz bu sahənin gələcək perspektivlərini müəyyənləşdirməyə imkan verərdi və

yuxarıda adlarını çəkdiyimiz üç yataq haqqında qisa məlumat verməyi özümüzə borc bilirik.

**Naxçıvan daşduz yatağı** - (Halit-halloidlər sinfinə aid mineral, NaCl, sərtliyi 2, sıxlığı 2100 kq/ $m^3$.) Naxçıvan şəhərindən şimal-qərbdə Duzdağın cənub yamacındadır. Yataqda 5 lay qazılmışdır ki, onlardan ikisi sənaye əhəmiyyətlidir. 1-ci layın qalınlığı 4,4-10,3 metr, ikinci layın qalınlığı isə 6,3-10,8 metrdir. Laylardakı xörək duzunun miqdarı 92-98 %-dir. Ehtiyatı 124506 min tondan artıqdır. Duz yatağı 1926-cı ildən sənaye əsasında istismardadır. Ərazidə Naxçıvan Filiz İdarəsi də yerləşərək orada gündə 20 ton duz üyüdülərək qablaşdırılır.

**Nehrəm daşduz yatağı** - (Halit-halloidlər sinfinə aid mineral , NaCl , sərtliyi 2, sıxlığı 2100 kq/ $m^3$.) Babək rayonundakı Nehrəm kəndinin şimal-şərq tərəfindən yataqdakı daşduzun qalınlığı 43-92 metr, tərkibindəki xörək duzunun miqdarı 78-92 %, ehtiyatı isə 1378 mln. tondur. Yataq yeri 1946-cı ildə susuzlaşdırılmış soda yatağı adı ilə öyrənilmişdir.

**Sust daşduz yatağı** - (Halit-halloidlər sinfinə aid mineral, NaCl, sərtliyi 2, sıxlığı 2100 kq/$m^3$.) Babək rayonundakı Sus kəndi ərazisində 2 daşduz yatağı vardır ki, birincidə xörək duzu 96 %, ikincidə isə 95 %-dir. Yatağın ehtiyatı 15317 min ton olmaqla ehtiyatda saxlanılır.

Bu məlumatlar Feyruz Bağırovun 2008-ci ildə Naxçıvanda çap olunmuş “Naxçıvanın Təbii Sərvətləri” kitabından götrülmüşdür və ümumilikdə Naxçıvan Muxtar Respublikasının daş düz ehtiyatı 3,0 milyard tondan çox olduğu aşkarlanmışdır.

ABŞ-da nəşr olunmuş “Duzun yüz bir tətbiq üsulu„ kitabçasında bu möcüzəli maddənin bişirilmiş tərəvəzin öz rəngini saxlaması, dondurmanın soyuq saxlanması, qaynayan suyun daha çox istilik ayırması, pasın və paltardakı ləkənin təmizlənməsi, alovlanan yağın söndürülməsi, dərilmiş güllərin uzun müddət tər-təzə qalması, eyni zamanda tibbi məqsədlərlə işlədilməsi məsləhət görülmüşdür. Duzdan əczaçılıqda, gübrə istehsalında, qarı tez əridən reagentlər, habelə sabun bişirilməsində, suyun yumşaldılması və parçaların boyanması üçün maddələr hazırlanmasında geniş istifadə olunur.

Natriumun xlorlu, sulfatlı və karbonatlı duzlarının alınmasında və ən vacib mənbə kimi onlardan sənaye məhsullarının istehsalında təbii mineral duzlardan, həmçinin yüksək minerallaşmaya malik təbii və süni duzlu məhlullardan istifadə edilir. Xörək duzunun (natrium xlorun) alınmasında, əsasən, daşduzdan (67,9%), göllərdə çökən duzlardan (31,8%) və az miqdarda təbii duzlu məhlullardan istifadə edilir. Təyinatı və istifadəsi üzrə duzlar yeyinti (ümumi istehsalın 50%-i), texniki (40%) və yem (10%) duzlarına bölünür.

Texniki duzlardan, əsasən, susuzlaşdırılmış və kaustik soda, xlor və turşu, ammonium və kalsium xlorun istehsalında istifadə edilir. Daşduz həmçinin lak-boya, meşə-kimya, toxuculuq, sellüloz-kağız, dəri, metallurgiya, neft, kimya və dərman sənayesində istifadə edilir.

Bizə məlumdur ki, duzdağ müalicəvi əhəmiyyəti ilə də seçilir və yeraltı Duzdağ Fizioterapiya Mərkəzi 1979-ci ildən 50 çarpayılıq xəstəxana kimi fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-ə çatdırılb. Yer altındakı müalicə mərkəzi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə yerləşir. Xəstəxananın yeraltı sahəsində işıqlandırılma sistemi yüksək səviyyədə qurulub.

Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Qeyd edək ki, burada istənilən adam müalicə ala bilər.

Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra təbii sərvətlərinin tam sahibinə çevrilmiş və bu sərvətlərdən istifadə milli maraqlara uyğun qurulmuşdur. Onu da qeyd etmək lazımdır ki, ölkəmizin müstəqillik tarixinin yaxın dövrə aid olmasına baxmayaraq ölkə və Naxçıvan Muxtar Respublikası rəhbərliyinin qayğısı və uzaqgörən siyasəti nəticəsində duz yataqlarından səmərəli istifadə sahəsində xeyli iş görülmüşdür. Belə ki, xörək duzu istehsalı və Duzdağ Fizioterapiya Mərkəzi müasir tələblərə uyğun yenidən qurulmuşdur.

Verilən məlumatlara görə 1866-cı ildə Naxçıvanda 11 min ton xörək duzu hasil edilmişdir və haliyyədə burada ildə 7 min tona yaxın xörək duzu hasil edilir. Göründüyü kimi Naxçıvan Muxtar Respublikasının daş duz potensialının çox cüzi hissəsindən istifadə edilir.

1970-ci illərin əvvəllərində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi H.Ə.Əliyevin təşəbbüsü ilə Nehrəm dolomit və Nehrəm daş duz yataqlarını birgə istismara cəlb etməklə maqnezium, xörək duzu, xlor, susuzlaşdırılmış soda və digər məhsulların alınması məqsədilə mühüm bir layihə hazırlanmışdır. Bu yataqların bazasında illik məhsuldarlığı 3-6 mln. ton filiz olan iki mədənin, 3 zavodun və Daşkəsənə bənzər iri bir şəhərin tikintisi nəzərdə tutulmuşdur.

Yuxarıda göstərdiyimiz rəqəmlərdən aydın olur ki, ümummilli lider Heydər Əliyevin bu sahədə irəli sürdüyü ideya tam gerçəkliyə söykənir və bu ideyanın həyata keçrilməsi Azərbaycan xalqının mənafelərinə tam cavab verir. Fikrimizcə bu ideyanın həyata keçrilməsi aşağıda gostərilənlərin reallaşdırılmasına imkan verərdi:

- Regionda məşğulluğun əsaslı şəkildə həll olunmasına;
- Muxtar respublikanın ixrac potensialının yüksəlməsinə və beləliklə ölkənin tədiyyə balansının yaxşılaşmasına;
- İqtisadi artımın təmin olunmasına;
- Əhalinin sosial həyat səviyyəsinin yüksəldilməsinə;
- Regionda turizmin inkişafına və sair.

Araşdırmalardan aydın olur ki, Naxçıvan Muxtar Respublikasının təbii sərvətlərindən optimal istifadə etməklə bir sıra iqtisadi problemləri həll etmək və ya da asanlaşdırmaq olar. Bu baxımdan Naxçıvanın daşduz ehtiyatları xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Cəfərov Firuddin Nəsrəddin oğlu. Təhlükəsiz qida məhsulları istehsalı dövrün tələbidir. Gəncə, 2010.
2. Bağırov Feyruz. Naxçıvanın Təbii Sərvətləri. Naxçıvan 2008.
3. Rzayev B.Z. Naxçıvan MR-ın mineral sərvətləri və onların istifadəsi. Bakı 2003.

**Tariyel Talıbov,**
*AMEA-nın müxbir üzvü,*
*AMEA Naxçıvan Bölməsi*
**Musa Piriyev,**
*Biologiya üzrə fəlsəfə doktoru*
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN DUZDAĞININ FAUNA VƏ FLORASININ BİOMÜXTƏLİFLİYİ

Naxçıvan Muxtar Respublikasının ərazisi özünəməxsus torpaq – iqlim xüsusiyyətlərinə, xüsusi oroqrafiya və landşaft tiplərinə malik olduğundan ona müvafiq olaraq da zəngin fauna və flora biomüxtəlifliyi formalaşmışdır.

Toplanılan materiallar, ədəbiyyat məlumatları və aparılan tədqiqatlara əsasən Azərbaycan, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisində heyvanlar aləminin çox zəngin olduğu aydınlaşır. Azərbaycan Respublikasının faunası 40000- dən çox növlə təmsil olunur ki, onun da böyük əksəriyyətini Cücülər (35 dəstə, 25000 növ) və Hörümçəklər (7 dəstə, 1837 növ) təşkil edir. Burada yayılan onurğalı heyvanların mövcud təsnifat spektri isə "Azərbaycanın heyvanlar aləmi" (12,13) fundamental əsəri əsas götürülməklə aşağıdakı kimidir (Cədvəl 1).Təqdim edilən təsnifat Azərbaycanda və o cümlədən, Naxçıvan Muxtar Respublika ərazisində aparılan son tədqiqatlar nəticəsində aşkar edilən yeni taksonlar (1,2,3,5) da daxil edilməklə, təsnifat kateqoriyalarına aid nəşr edilən müvafiq əsərlərlə müqaisə olunmuşdur.

*Cədvəl 1.*

*Azərbaycan və o cümlədən Naxçıvan* Muxtar Respublika *ərazisində onurğalı heyvanların taksonomik tərkibi*

| Siniflər | Azərbaycan üzrə | Nax.MR | Dəstə | | Fəsilə | | Cins | | Nadir növlər | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Azərb. üzrə | Nax.MR | Azərb. üzrə | Nax.MR | Azərb. üzrə | Nax.MR | Azərb. üzrə-1989 | Nax.MR-2006 |
| Dəyirmiağızlılar | 1 | - | 1 | - | 1 | - | 1 | - | 1 | - |
| Balıqlar | 97 | 30 | 13 | 6 | 15 | 8 | 49 | 25 | 4 | 2 |
| Amfibilər | 10 | 6 | 2 | 1 | 5 | 4 | 5 | 4 | 5 | 1 |
| Sürünənlər | 54 | 35 | 3 | 3 | 12 | 11 | 28 | 24 | 8 | 10 |
| Quşlar | 366 | 248 | 18 | 18 | 58 | 51 | 187 | 142 | 36 | 39 |
| Məməlilər | 111 | 61 | 7 | 6 | 24 | 19 | 57 | 40 | 14 | 20 |
| Cəmi: | 639 | 380 | 44 | 34 | 115 | 93 | 327 | 235 | 68 | 72 |

Göründüyü kimi, Azərbaycanda aşkar edilən onurğalı heyvanların 60%- nə qədəri Naxçıvan Muxtar Respublika ərazisində rast gəlinir.Yüksək dağlığın qayalıq hissələrində bezoar keçisi, muflon,bəbir, saqqallı qartal, berkud, qırmızıdimdik, kəkliklər, ular və s. məskunlaşıb. Dağ-meşə qurşağında daşlıq dələsi, meşə dələsi, ayı, vaşaq, meşə pişiyi, çöl donuzu (qaban), zığ-zığ, qaratoyuq, tetraçalan, göyərçin və b.

vardır. Yarımsəhra şəraitində qırmızıquyruq siçan, oxlu kirpi, gürzə, səhra kəkliyi və bir çox başqa heyvanlar yaşayır (7,8,9).

Azərbaycan Respublikasının bitkilər aləmi də çox zəngin olub, onun ali bitkiləri 162 fəsiləyə daxil olan 4500-dən çox bitki növünü təşkil edir ki, onlardan da 200 növü Azərbaycan endemi, 950 növü Qafqaz endemi və 23-ü isə relikt növlərdir. Respublikamızın ərazisində 865-dən artıq şibyə və 500-ə qədər mamır növü vardır. Azərbaycanın yabanı dendroflorasında 460-a yaxın ağac və kol bitkilərinə təsadüf olunur. Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublika ərazisində üçüncü dövrə aid olan relikt (qədim) ağac və kollar da bitir. Onlardan Eldar şamı, dəmirağac, ipək akasiyası, Xəzər lələyi, əncir, nar və başqalarını göstərmək olar (4,8,10,11,14).

Aparılan tədqiqatlara və ədəbiyyat məlumatlarına əsasən Naxçıvan Muxtar Respublikasının müasir flora biomüxtəlifliyi aşağıdakı taksonlara daxil olan miqdarlarla təmsil olunurlar (Cədvəl 2.).

*Cədvəl 2.*

*Naxçıvan* Muxtar Respublika *ərazisində ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilərin taksonomik tərkibi*

| ŞÖBƏ | | Classis | Ordo | Familia | Genus | Spesis |
|---|---|---|---|---|---|---|
| BRYOPHYTA -MAMIRLAR | | 2 | 15 | 31 | 70 | 114 |
| EQUİSETOPHYTA - QATIRQUYRUĞULAR | | 1 | 1 | 1 | 1 | 7 |
| POLYPODİPHYTA - QIJILAR | | 1 | 2 | 4 | 7 | 10 |
| PİNOPHYTA - ŞAMLAR | | 1 | 2 | 3 | 6 | 11 |
| GNETOPHYTA - ACILIQLAR | | 1 | 1 | 1 | 1 | 2 |
| MAGNOLİOPHYTA - ÇİÇƏKLİ BİTKİLƏR | MONOCOTYLEDONEAE BİRLƏPƏLİLƏR | 1 | 20 | 27 | 152 | 547 |
| | DİCOTYLEDONEAE İKİLƏPƏLİLƏR | 1 | 63 | 104 | 637 | 2146 |
| CƏMİ: | | 8 | 104 | 170 | 874 | 2837 |

Göründüyü kimi, bu miqdar ümumilikdə Azərbaycan florasının 63%- ni təşkil edir ki, onlardan da 750 növə yaxını faydalı bitkilərdir və həmin bitkilərdən 132 növü isə rəsmi dərman bitkiləridir ki, onlardan da 37 növünün təbii ehtiyatı boldur.

Kiçik Qafqaz dağlarının Dərələyəz silsiləsinin Arazboyu maili düzənliyinə söykənən qollarından biri də dəniz səviyyəsindən 1153 m hündürlükdə yerləşən Duzdağ ərazisidir. Bu ərazi Ağqaya (1758 m), Anabadgədik (2081 m), Qaravultəpə (919 m) və Tazıuçan (935 m) dağları ilə həmsərhəd olub, Korosman silsiləsinin (817 m) Binadüzü (883 m) dağı ilə Araz vadisinə qovuşur. Arazboyu maili düzənliyin şorakətli yarımsəhra landşaftının davamı olan Duzdağ ərazisində hündürlük artdıqca Naxçıvan Muxtar Respublikası üçün səciyyəvi olan dağ bozqırlarına, firqanalara keçir.

Duzdağ və ona qonşu olan ərazilərdə məməlilərdən: porsuq, canavar, tülkü, çaqqal, dovşan, siçanlar, ərəb dovşanları; quşlardan:muymul, leşyeyən, çöl göyərçini, kəkilli torağay, xırda torağay, çaxraqcıl, dovdaq, kiçik dovdaq, bəzgək, ala qarğa, boz sərçə və s. rast olunur. Sürünənlərdən: çöl gürzəsi, Cənubi Qafqaz gürzəsi, Aralıq dənizi tısbağası, koramal, kərtənkələlər; suda-quruda yaşayanlara: göl qurbağası, Suriya sarımsaqiyli qurbağası və s. heyvanlara da rast gəlinir. Duzdağ ərazisindən tapılan gil qatın içərisində çoxlu miqdarda daşlaşmış sümüklü balıq nümunələri aşkar edilmişdir.

Duzdağ və ona yaxın olan ərazilərdə şorangə bitkiləri böyük qruplaşmalar əmələ gətirirlər. Qış otlaqları kimi mühüm əhəmiyyət daşıyan bu ərazilərdə mövcud bitkilərlə yanaşı keçmiş SSRİ-nin, Azərbaycan və o cümlədən Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitablarına daxil olan çoxlu miqdarda nadir bitkilər vardır. Bunlara Qozbel laləvər - *Fritillaria gibbosa* Boiss.; İkiçiçək tülpan -*Tulipa biflora* Pall.; Qafqaz süsəni - *İris caucasica* Stev.; Qurdqulağı süsən -*İris lycotis Woronow forma magnifica* Grossh.; Şoranyer qarğa soğanı- *Gladiolus halophilus* Boiss. Et Heldr.; İran quşüzümü - *Asparagus persicus* Baker (*A. leptophyllus* Schischk.); İsayev şiyavı -*Stipa issaevii* S.G.Musajev etSadychov; Karyagin şiyavı- *Stipa karjagini* S.G.Musajev etSadychov; Kiçik dombalankök -*Leontice minor* Boiss.; Alabəzək alloxruza- *Allochrusa versicolor* (Fisch. et C.A. Mey.) Boiss.; Girdəqanad bienertiya - *Bienertia cygloptera* Bunge; Lessinq kafirotu -*Camphorosma lessıngii* Litv.; Gözəl dazı -Hypericum formosissimum Takht.; Çoxbölümlü biberşteyn- *Biebersteinia multifida* DC.; Sirkənvari həlməl - *Zygophyllum atriplicoides* Fisch. et C.A. Mey.; Çılpaq dorema- *Dorema glabrum* Fisch. et C.A. Mey.; Yumurtavari ilankölgəsi-*Ferula oopoda* (Boiss. et Buhse)Boiss.; İran ilankölgəsi- *Ferula persica* Willd.; Soviç ilankölgəsi -*Ferula szowitsiana*DC.; İriqanad kuziniya- *Cousinia macroptera* C.A. Mey.; Sosnovski yemliyi - *Tragopogon sosnowskyi* Kuth.; Nazik dağ nanəsi - *Ziziphora tenuior* L. və s.

Göründüyü kimi, təkcə kiçik bir ərazidə iyirmidən çox nadir növ yayılmışdır. Bundan başqa ərazidə kəskin şoranlıq faktorlarına dözən və yüksək quraqlığa davamlı bitkilər də movcuddur. Belə bitkilərə:

1. *Salsola australis* R.Br. (S. pestifer Nels.) - Avstraliya şoranı
2. *Salsola camphorosma* İljin - Kamforalı şoran
3. *Salsola cana* C. Koch - Boz şoran
4. *Salsola crassa* Bieb. - Ətli şoran
5. *Salsola dendroides* Pall. - Ağacvari şoran
6. *Salsola ericoides* Bieb. - Çərən, Şahsevdi şoran
7. *Salsola soda* L. - Sodalı şoran
8. *Suaeda altissima* (L.) Pall. - Hündür çərən
9. *Suaeda confusa* İljin - Müxtəlif çərən
10. *Suaeda dendroides* (C.A.Mey.) Moq. - Ağacvari çərən
11. *Salicornia europaea* L. - Avropa duzlaq çoğanı
12. *Kalidium caspicum* (L.) Ung. - Sternb. - Xəzər sarıbaşı
13. *Halocnemum strobilaceum* (Pall.) Bieb.-Yoğunlaşmış sarsazan
14. *Camphorosma lessingii* Litv. - Lessinq kafirotu
15. *Bienertia cycloptera* Bunge - Girdəqanad binertiya
16. *Atriplex cana* C.A.Mey. - Ağ sirkən
17. *Atriplex patula* L. - Çoxbudaqlı sirkən
18. *Atriplex prostrata* Boucher ex DC. - Sərilən sirkən
19. *Kochia laniflora* (S.G.Gmel.)Borb. - Tüklüçiçək əzgən
20. *Kochia prostrata* (L.) Schrad. - Sərilən əzgən
21. *Seidlitzia florida* (Bieb.) Bunge- Çiçəkli şoravcə
22. *Alhagi pseudalhagi* (Bieb.)Fisch. – Adi yağtikanı
23. *Atraphaxis spinosa* L. - Tikanlı dəvəqıran
24. *Acantholimon araxanum*Bunge - Araz tıs-tısı
25. *Acantholimon caryophyllaceum* Boiss. - Qərənfil tıs-tısı
26. *Acantholimon glumaceum* (Jaub. &Spach) Boiss. - Zarlıtıs-tısı

27. *Limoniumcarnosum* (Boiss.) O.Kuntze - Ətlidəvəayağı
28. *Limoniumfischeri* (Trautv.) Lincz. - Fischer dəvəayağı
29. *Tamarixhohenackeri* Bunge - Hohonakeryulğunu
30. *Tamarixmeyeri*Boiss. - Meyer yulğunu
31. *Tamarixoktandra* Bunge - Doqquzerkəkcikli yulğun
32. *Erophilaverna* (L.) Bess. - Yazbaharotu
33. *Lepidiumcampestre* (L.) R.Br. - Əkinbozalağı
34. *Lepidiumruderale* L. Yolbozalağı
35. *Lepidiumvesicarium* L. - Qovuqlubozalaq
36. *Sisymbriumaltissimum* L. - Boyluşüvərən
37. *Resedalutea* L. - Sarı rezeda
38. *Euphorbia marschalliana*Boiss. - Marşalsüddüyəni
39. *Euphorbia arvalis*Boiss. &Heldr. - Əkinsüddüyəni
40. *Euphorbia humilis*C.A.Mey - Yatıqsüddüyən
41. *Euphorbia seguieriana* Neck. - Sequyer s.
42. *Astragalusaznabjurticus*Grossh. - Əznəbürdpaxladəni
43. *Linumsubbiflorum*Juz. - İkiçiçəkzəyərək
44. *Tribulus terrestris* L. - Sərilən dəmirtikan
45. *Peganum harmala* L. - Adi üzərrik
46. *Zygophyllumfabago* L. - Adi həlməl
47. *Scabiosapersica*Boiss. - İran skabiozası
48. *Scabiosamicrantha*Desf. - Xırdaçiçəkskabioza
49. *Amberboa moschata* (L.) DC. - Müşklü amberboa
50. *Amberboa glauca*(Willd.)Grossh. - Göy amberboa
51. *Artemisia absinthium* L. - Acı yovşan
52. *Carthamus gypsicola* İljin - Kirəclik ulaxqanqalı
53. *Centaurea cyanus* L. - Əkin güləvəri
54. *Cirsium arvense* (L.) Scop. - Çöl qanqalı
55. *Helichrysum graveolens* (Bieb.) Sweet -İyli solmazçiçək
56. *Picris hieracioides* L. - Qırğıotuvari kəkrəvari
57. *Senecio vernalis* Waldst. & Kit. - Yaz xaçgülü
58. *Caccinia macranthera* (Banks & Soland.) Brand - Qalınyarpaq kaççin
59. *Onosma caucasica* Levin ex M. Pop. - Qafqaz onosması
60. *Bungea trifida* (Vahl.) C.A.Mey. - Üçdilim bungeya
61. *Pedicularis caucasica*Bieb. - Qafqazyuvaotu
62. *Verbascum szovitsianum* Boiss. - Soviç keçiqulağı
63. *Phlomis pungens* Willd. - Tikanlı odotu
64. *Scutellaria araxensis* Grossh. - Araz başlıqotu
65. *Stachys inflata* Benth. - Şişkin poruq
66. *Stachys lavandulifolia* Vahl. - Lavandayarpaq poruq
67. *Thymus nummularius* Bieb. - Pulvari kəklikotu

Qeyd edilən növlərin çoxu əmələ gətirdikləri formasiyalarda dominant və ya subdominant rolunu oynayaraq, arid landşaftlar üçün xarakterik qruplaşmalar əmələ gətirirlər. Beləliklə, kiçik bir ərazi olmasına baxmayaraq Duzdağın fauna və flora biomüxtəlifliyi öz rəngarəngliyi və zənginliyi ilə seçilir.

## ƏDƏBİYYAT


1. Məmmədov A.F. Naxçıvan Muxtar Respublikasının meşə quşları. AMEA NB Xəbərlər. Təbiət və texniki elmlər seriyası. Cild 8, №2, Naxçıvan. Tusi, 2012, s. 175- 185.
2. Məmmədov A.F. Naxçıvan Muxtar Respublikasında ornitofaunanın müasir vəziyyəti. AMEA NB Xəbərlər.Təbiət və texniki elmlər seriyası. Cild 6, №4, Naxçıvan. Tusi, 2010, s. 191- 196.
3. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasında nadir heyvan növləri və onların genefondunun qorunması. Bakı: Elm, 1999, 102 s.
4. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması.Bakı: Elm, 2001, 192 s.
5. Talıbov T.H. Naxçıvan təbiətinin flora və fauna biomüxtəlifliyinin tədqiqi vəziyyəti «Hər yönü ilə Naxçıvan və Qars» Beynəlxalq Simpoziumun materialları, Naxçıvan: Qeyrət, 2003, s.76-77.
6. Talıbov T.H., İbrahimov Ə.M., İsmayılov A.H. Nuh yurdum Naxçıvanım. AMEA Naxçıvan Bölməsi. Xəbərlər, Naxçıvan: Tusi, 2005, № 1, s. 148-152.
7. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasının məməliləri. AMEA Naxçıvan Bölməsi. Xəbərlər, Təbiət və texniki elmlər seriyası, Naxçıvan, Tusi, 2006, № 5, s. 47- 53.
8. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasının sürünənlərinin müasir vəziyyəti. AMEA Zoologiya İnstitutu elmi əsərləri. Bakı, 2006, Cild 28, s. 887- 895.
9. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasının fauna biomüxtəlifliyinin yeni taksonları. AMEA Naxçıvan Bölməsi. Xəbərlər, Təbiət və texniki elmlər seriyası, Naxçıvan: Tusi, 2008, № 2, s. 38- 42.
10. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri. Naxçıvan: Əcəmi, 2008, 364 s.
11. Talıbov T.H. Naxçıvan təbiətinin biomüxtəlifliyi qədim insanın yaşayışını şərtləndirən amil kimi// Naxçıvan: İlk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları) Naxçıvan: "Əcəmi" NPB, 2011, s.134-138.
12. Животный мир Азербайджана. Позвоночные Ответств. редакторы Д.В.Гаджиев, И.К.Рахматулина. Млекопитающие. Баку: Элм, 2000 с. 436-593.
13. Рахматуллина И.К, Гулиев Г.Н. Таксономические дополнения к териофауне Азербайджана. Materials of the Gongress of Azer. Zool. Soc. Baku, 2003: 477-482.
14. Флора Азербайджана. Из-во АН Азерб.,Т.1-8, 1950- 1961.

**Malikəjdər İBRAHİMOV**
*Tibb üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*
**Malik ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN FİZİOTERAPİYA XƏSTƏXANASINDA BRONXİAL ASTMALI XƏSTƏLƏRİN FİZİOTERAPİYA METODU İLƏ MÜALİCƏSİ

Allerqologiya müasir təbabətin əsas problemlərindən biridir. Bu termin altında orqanizmin müxtəlif yad maddələrə qarşı yüksək həssaslığı nəzərdə tutulur və bu təsirdən törəyən xəstəliklər allergik xəstəlik hesab olunur.

Bronxial astma allergik xəstəliklər arasında əsas yer tutur. Bu xəstəlik dərmanla tam müalicə olunmur. Bəzən də müalicə dərman allergiyası ilə nəticələnir. Odur ki, bronxial astmanın müalicəsində axtarışlar davam edir.

Tədqiqatlar göstərir ki, duz mədəninin mikroiqlimi şəraitində speleoterapiya müalicəsi bronxial astmada çox zaman daha effektli olur.

Speleoterapiya çox da qədim deyil və qəribə tarixi vardır.

İkinci dünya müharibəsi zamanı Almaniyanın Vestfal şəhərində əhali bombardmandan qorunmaq məqsədilə duz şaxtalarından istifadə etmişdir. Bəzən saatlarla sürən hava hücumunda şaxtada oturan bronxit və bronxial astmadan şikayətlənən xəstələr buradan çıxdıqdan sonra bir yüngüllük hiss etmişlər, öskürmə və boğulma tutmalarının yoxa çıxdığı müşahidə edilmişdir. Əlbəttə, bu, çoxlarının nəzər-diqqətini cəlb etmiş və mütəxəssislər bu məsələ ilə maraqlanmışlar. Məlum olmuşdur ki, duz mədənində çalışan işçilər arasında ağciyər vərəminə, xroniki bronxitə və bronxial astmaya nadir hallarda rast gəlinir.

B.Yunq və C.Novak 1955-ci ildən bronxial astma ilə xəstələnənlər üzərində müşahidə aparmış və belə nəticəyə gəlmişlər ki, Solbad Solselman şaxtalarının mikroiqlimi şəraitində müalicə alan xəstələrdə yaxşılaşma, dərman müalicəsi alan xəstələrdən daha effektli olmuşdur. Sən demə, duz mədəninin mikroiqlimi şəraitində müalicədən alınan terapevtik effekt şaxtanın mikroiqlimindən, fiziki və fiziki-kimyəvi agentlərdən, havada allergenlərin və digər qıcıqlandırıcı maddələrin yoxluğundan, kiçik duz hissəciklərinin çox olmasından asılıymış. Bütün bunlar ağciyərlərdə hava ventilyasiyasını artırır və orqanizmin oksigenlə təmin olunmasını yaxşılaşdırır. Başqa amillərin də təsiri az deyil. Belə ki, xarici qıcıqlandırıcı faktorlardan ayrılmaq, səssizlik, sakitlik xəstəliyi törədən patoloji dominantların aradan qaldırılması üçün gözəl fon yaradır, həm də orqanizmin desensibilizasiyası müşahidə olunur ki, bunun bronxial astmanın müalicəsində əhəmiyyəti çoxdur.

Speleoterapiya üzrə tədqiqatlara əsaslanaraq Zakarpatye vilayətində, Sovet İttifaqında ilk dəfə olaraq 1968-ci ildə Solotvino duz mədəni bazasında 30 çarpayılıq klinik-eksperimental vilayət allerqoloji xəstəxanası təşkil edilmişdir. Bu xəstəxananın iş təcrübəsi speleoterapiyanın tənəffüs sisteminin qeyri-spesifik xəstəliklərinin müalicəsində ən əhəmiyyətli metod olduğunu bir daha sübut etdi və xəstəxananın çarpayı fondu genişləndirilməyə başlandı. Hazırda Solotvino duz mədəni bazasında Odessa Elmi Tədqiqat Kurortologiya İnstitutunun Ujqorod Filialı Klinikasının 120 çarpayılıq Respublika Allerqoloji xəstəxanası fəaliyyət göstərir.

Müşahidəyə görə, burada müalicə olunan xəstələrin yüngül formada hər 100 nəfərindən 96-sı, orta-ağır formasında 76-sı, ağır formasında 45-i tam yaxşılaşmışdır. 7-14 yaşlı uşaqların müşahidəsi daha yaxşı nəticə verir. Onların, demək olar ki, hamısı tam yaxşılaşır. Müalicənin müsbət təsiri 8-10 gündən sonra hiss edilməyə başlayır, 21-22 gündən sonra isə tam yaxşılaşma baş verir.

Duz mədəninin mikroiqlimində xəstələr xüsusi qrafiklə üst-üstə 280-300 saat qalırlar.

Hələ Sovetlər dövründə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Naxçıvandakı duz mədəninin şaxtasından müalicə məqsədilə istifadə etmək haqqında təşəbbüs irəli sürmüş və bu məqsədə tezliklə nail olaraq Babək Rayon Mərkəzi Xəstəxanası nəzdində duz mədəni bazasında 10 çarpayılıq allerqoloji şöbə açılmışdır. Həcminə görə kiçik olmasına baxmayaraq tez bir zamanda öz müalicəvi əhəmiyyətini bir daha sübut etmiş və Naxçıvan bölgəsi üçün ən əlverişli üsul müəyyənləşdirilmişdir.

Xəstəxanadakı allerqoloji şöbə iki hissədən (yeraltı və yerüstü) ibarətdir. Şöbənin yeraltı hissəsi duz mədəninin ikinci şaxtasında, 350 metr dərinlikdə yerləşir. Şöbənin yerləşdiyi mağaranın eni 8 metr, uzunluğu 48 metr, hündürlüyü isə 4 metrdir.

Burada mikroiqlim aşağıdakı göstəricilərlə xarakterizə olunur: havanın sabit temperaturu 18-20$^0$ S, nisbi rütubəti 20-25%, havada oksigenin miqdarı 20,3%, karbon qazının miqdarı 0,03%, atmosfer təzyiqi 720 mm.c. sütunu. Hava kiçik duz hissəcikləri ilə zəngindir. Patogen allergenlər və mikroorqanizmlər yoxdur.

Naxçıvan duz mədəni öz müalicəvi keyfiyyətlərinə və duz tərkibinə görə nəinki Solotvino duz mədəninə yaxındır, hətta müəyyən üstünlükləri vardır. Belə ki, şaxta üfüqi vəziyyətdə yerləşdiyindən xəstələr Solotvinodakı kimi birdən-birə yüksək atmosfer təzyiqinə düşmürlər və xəstələrdə balneoreaksiya müşahidə olunmur, həmçinin şaxta üfüqi vəziyyətdə yerləşdiyindən burada müəyyən zərərli qazların əmələ gəlməsi təhlükəsi də yoxdur və s.

Allerqoloji şöbə muxtar respublikamızda speleoterapiyanın pioneri olsa da, böyük gələcəyi vardır. İlk nəticələr sevindiricidir. Əyani olmaq üçün bir xəstəlik tarixindən qısa çıxarış veririk: 15 yaşlı xəstə M. 10 ildir ki, bronxial astma ilə xəstə idi. Dəfələrlə ambulator və stasionar müalicə olmasına baxmayaraq yaxşılaşma müvəqqəti olmuş, boğulma tutmalarından əzab çəkmişdir. Axırıncı dəfə Babək Rayon Mərkəzi Xəstəxanasının allerqoloji şöbəsinə stasionar müalicə üçün daxil olmuşdur. Xəstəxanaya daxil olarkən öskürək, hava çatışmazlığı və vaxtaşırı boğulma tutmalarından şikayətlənirdi. Xəstə 3 gün rayon xəstəxanasında adaptasiya müddətində saxlanmış, ona şöbənin quruluşu, müalicəvi əhəmiyyəti və başqa məsələlər haqqında məlumat verilmişdir. Sonra qrafik üzrə 280 saat speleoterapiya və müalicə gimnastikası təyin edilmişdir. 8 gündən sonra xəstədə klinik əlamətlər azalmış, vəziyyəti yaxşılaşmışdır. 18 gündən sonra klinik əlamətlər tam keçmiş 30 gündən sonra xəstənin vəziyyəti tam yaxşılaşmış və evə göndərilmişdir.

Naxçıvan Muxtar Respubilkasinda yerləşən duz mədənində duz çıxarılarkən, bir neçə il bundan əvvəl burada "sehrli sarayların" aşkar edilməsi, belə bir fikir doğurur ki, bəlkə də nə vaxtsa şaxtadan müalicə məqsədi ilə istifadə olunmuşdur.

1979-cu il dekabrın 24-də təşkil olunan primitiv müalicəxana son illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində yeni standartlara cavab verən müasir texniki avadanlığı olmaqla ən yaxşı vəziyyətə gətirilmişdir. Məhz bunun nəticəsində də Naxçıvan Muxtar Respublika Fizioterapiya

Xəstəxanası yaradılmışdır. Hal-hazırda burada 60 çarpayılıq böyüklər üçün, 40 çarpayılıq isə uşaqlar üçün müalicəvi şöbə fəaliyyətdədir. Burada gimnastika əməliyyatları, istirahət zonaları və başqa xidməti şöbələr fəaliyyət göstərir. Speleoterapiya ilə müalicə zamanı əsas təsir edici amil Na + Cl-ionlarının (aerozollarının) bronxlarda selikli qişanın əmələ gəlmiş ödemindən mayeni özünə çəkməsi ilə bronx mənfəzinin genişlənməsinə, bəlğəm ifrazının asanlaşmasına, hipertonik mühit şəraitində infeksiyanın artmasına maneçilik törətməsi, böyrəküstü vəzilərin beyin maddəsindən ketoxolaminlərin sekresiyasının artması (lakin hansı mexanizmlə baş verməsi tam dəqiqləşdirilməmişdir) tam sakitlik vəziyyətinin və hava allergenlərinin olmaması ilə və s. əlaqəlidir.

Speleoterapiyanın effektivliyi müalicənin ilk günündən asmatik vəziyyətin, hava çatışmaması əlamətlərinin yüngülləşməsi, medikamentoz müalicənin tam dayandırılması və ya kəskin azaldılması, dərmandan asılılığın aradan qaldırılması, dərman alınmaya tələbatın çox azalması və hormonal preparatların xoşagəlməz təsirləri və s. ilə dəyərləndirilmişdir. Obyektiv qiymətlənmə üçün xəstələrdən illik sorğu anketi doldurulması aparılmışdır. Müşahidələr əsasında speleoterapiya üsulunun tətbiqi üçün göstəriş, nisbi göstəriş və əks-göstəriş olan hallara aid təlimat hazırlanmışdır.

Bütün bunların məntiqi nəticəsi olaraq müasir Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası öz füsunkar təbiəti ilə yanaşı çox böyük müalicəvi əhəmiyyətə malik yeraltı və yerüstü resursları ilə zəngindir. Bunun nəticəsində də son zamanlar Naxçıvan Fizioterapiya Xəstəxanasında tətbiq olunan yeni speleoterapiya üsulunun digər qeyri-spesifik ağciyər xəstəliklərinin müalicəsi sahəsində və onun təbliği istiqamətində də ciddi işlər görülməlidir.

## ƏDƏBİYYAT


1. Ə.Ə.Əyyubov, K.M.Hacıyev və b. Uşaq xəstəlikləri. Bakı: 2006, 250 səh.
2. N.A.Şaxtaxtinski. Speleoterapiya. Naxçıvan: 2007, 130 səh.
3. N.P.Şabalov. Detskie bolezni. San-Peterburq: 2006, 550 səh.
4. S.Mani Kavuru, P.Herbert, Wiedemann. Asıtımda tanı və tedavi. İngz. Terc. Ankara: 1999, 470 səh.
5. M.Q.İbrahimov, Ə.Kərimov. Bronxial astma və duzla müalicə. Elm və həyat jurnalı. 1979. 29 səh.
6. M.Q.İbrahimov, A. Quliyev. Naxçıvan MSSR-də dağ-duz yatağının duz tozları mikro iqlimində bronxial astma xəstələrinin müalicəsi. Azərbaycan Elmi Tədqiqat Kurortologiya İnstitutunun metodik tövsiyələr məcmuəsi. 1984, 95 səh.
7. M.Q.İbrahimov, Z.Ağayev Naxçıvan Fizioterapiya xəstəxanasında Speleoterapiya metodu ilə bronxial astmalı uşaqların müalicəsinin nəticələri və perspektivləri. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Şöbəsinin Təbiət və Texniki Elmlər seriyası. 2008, 209 səh.

**Yasin BABAYEV,**
*Kimya elmləri doktoru,*
*Naxçıvan Dövlət Universiteti*
**Firdovsi QASIMOV**
*Kimya üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*
**Vaqif ABDULLAYEV,**
*Babək rayon Şıxmahmud kənd tam orta məktəbi*

## NAXÇIVAN DUZUNDAN YENİ KİMYƏVİ MƏHSULLARIN ALINMA PERSPEKTİVLƏRİ

Cəmiyyətin inkişafında, əhalinin maddi rifah halının yaxşılaşdırılmasında kimyəvi istehsal mühüm rol oynayır. Kimyəvi istehsal elmi-texniki tərəqqini müəyyən edən əsas texnologiya sahələrindən biri olmaqla sənayeni yeni xammal və material növləri, həmçinin yüksək effektivliyə malik texnologiyalar ilə təmin edir. Hazırda insan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada kimya sənayesinin bu və ya digər məhsulundan istifadə edilməsin. Müasir texnika üçün zəruri olan ifrat xassəli (ifrat bərk, ifrat yüngül, ifrat axıcı, ifrat keçirici və s.) maddələrin, materialların istehsalını, həmçinin bəşəriyyətin qarşısında duran qlobal problemlərin (ərzaq, içməli su, enerji, ekoloji və s.) həllini kimyəvi istehsal olmadan həyata keçirmək mümkün deyil.

Hələ qədim zamanlarda insanlar mexaniki və fiziki üsullardan, həmçinin bəzi kimyəvi reaksiyalardan istifadə etməklə əmək alətləri və istehlak məhsulları istehsal etməyi öyrənmişdilər. Əvvəl gildən keramik qabların istehsalı həyata keçirilmişdir. Bu isə qida maddələrinin bişirilməsinə imkan yaratmışdır. Bu barədə məlumatlar Yeni Daş dövründə olan yaşayış məskənlərində aparılan arxeoloji qazıntı işləri nəticəsində əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikası təbii sərvətlərinin zənginliyinə görə regionda özünəməxsus mövqeyə malikdir. Naxçıvanın daş duzu, dolomit, bentonit, seolit yataqları, qurğuşun, sink, molibden ehtiyatları, zəngin polimetallik filizləri, mis və qızıl ehtiyatları, müxtəlif növ gillər, mərmər və əhəng daşları, karbon qazı, mineral sular və s. muxtar respublikanın mineral təbii sərvətlərinin əsasını təşkil edir [1]. Muxtar Respublikada yerli xammal mənbələri hesabına emal və istehsal sahələrinin yaradılması, fəaliyyəti, texnoloji proseslərin təkmilləşdirilməsi, yeni, mütərəqqi texnologiyalardan istifadə edilməsi daim dəstəklənir, Naxçıvan istehsalı olan məhsulların şöhrəti get-gedə artır. Bu məhsullar içərisində Naxçıvan duzu xüsusi yer tutur [2].

AMEA Naxçıvan Bölməsi alimlərinin və digər tədqiqatçıların elmi araşdırmaları sübut etmişdir ki, hələ bizim eradan əvvəlki 10 –cu minillikdən qabaq Naxçıvanda mədənçilik mövcud olmuş, zaman keçdikcə bu proses geniş miqyas almış, yerli tələbatı ödəmək və mübadilə məqsədi ilə daş duz istehsal olunmuşdur. Təbiiliyinə, mineral tərkibinə, dadı və tamına görə Naxçıvan duzu məişətdə, kənd təsərrüfatında, tibdə geniş tətbiq olunmaqla bərabər qiymətli kimyəvi xammal və sənaye xammalı növlərindən hesab olunur. Muxtar Respublikada daş duz Nehrəm kəndi yaxınlığında və Naxçıvan şəhərindən 12 km məsafədə şimal-qərbə doğru Duzdağın cənub ətəklərində geniş yayılmışdır. Duzdağ daş duzunun ehtiyatı 100 mln. ton həddindədir. Hər iki duz yatağındakı daş duz şəffaf olmayan göyümtül rənglidir və dənəvər struktura malikdir.

Duzdağ daş duzu ilkin emala qədər aşağıdakı mineral tərkibə malikdir: $NaCl$ - 81,5-81,7% ; $CaCl_2$ -0.45-0.70% ; $MgCl_2$- 0.42- 0.64% ; $CaSO_4$-1.1-1.2 % ;$H_2O$ -0.17-0.22 %.

Həll olmayan çöküntülərin miqdarı 13,15 -15.60 % həddindədir və əsasən gil, qum, əhəngdaşı, merqel və azacıq sementləşmiş konqlomeratlardan ibarətdir. Göründüyü kimi, əsas çatışmazlıq xammalın tərkibində gil və digər həll olmayan qarışıqların əhəmiyyətli dərəcədə olmasıdır. Lakin son bir neçə il ərzində mütərəqqi texnologiyadan istifadə yolu ilə Naxçıvan Duz İstehsalı Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmış, müəssisə yenidən qurulmuşdur. Burada mexaniki, fiziki, kimyəvi emal üsulları tətbiq etməklə daş duzun tərkibindəki əsas həll olmayan qarışıqlar kənarlaşdırılmış və hazırda, tərkibində əsas maddənin miqdarı 97,5 % olan, yodlaşdırılmış, qablaşdırılmış, bir neçə növ və çeşiddə, böyük rəqabət qabiliyyətinə malik olan xörək duzu istehsal olunaraq daxili və xarici istehlakçılara çatdırılır. Duzdağ ərazisindəki yeraltı fizioterapevtik mualicəxana isə əhalinin sağlamlığına xidmət edir.

Aydındır ki, aşağı kondisiyalı daş duzdan xörək duzu istehsal etdikdə, əsasən, durultma üsulundan istifadə olunur, yəni suda həll olmayan qarışıqlar kənarlaşdırılır. Alınan xörək duzu məhlulu isə həm də kimyəvi xammal kimi elektrolizə uğradıla bilər. Dünya təcrübəsində texnoloji prosesin sadəliyinə, eyni zamanda yüksək təmizlikdə bir neçə məhsul alınmasına və yığcamlıq amilinə görə elektrolotik proseslərdən geniş istifadə olunur [3].

Naxçıvan MR-də Nehrəm yatağı üzrə 735 mln. ton miqdarında dəyərləndirilmiş xörək duzu ehtiyatı Azərbaycanın potensial duz ehtiyatlarının 27.3 % -ni təşkil edir və irimiqyaslı soda istehsalı üçün real imkanlar açır. Bu isə öz növbəsində Naxçıvan MR-i nəinki defisit sayılan susuzlaşdırılmış soda istehsalçısına, eyni zamanda yeyinti və kimya sənayesi sahələri üçün yüksək keyfiyyətli xörəkl duzu istehsalı üçün əlverişli xammal bazasına çevirə bilər.

Duz məhlulunun elektrolizindən əsas məqsəd xlor istehsal etməkdir. Bu prosesdə eyni zamanda əlavə məhsul olaraq NaOH alınır və hidrogen ayrılır. Odur ki, bu üsulla xlor istehsalı iqtisadi cəhətdən çox əlverişli hesab edilir.

Xlordan və hidrogendən xlorid turşusu alınır. Xlorid turşusunun istehsal prosesi əsasən iki mərhələdən ibarətdir: 1) Hidrogen - xlorid qazının alınması; 2) Alınmış hidrogen – xlorid qazının suda həll edilib turşuya çevrilməsi.

Xlorid turşusunun sənayedə çox işlənən növlərindən biri də ingibitorlu xlorid turşusudur. İngibitorlu xlorid turşusu neft sənayesində daha çox işlənir. Bu turşunu neft quyularına yuyucu kimi verdikdə quyularda işlənən polad boruların korroziya prosesinin qarşısı alınır və eyni zamanda çöküntülər yuyulur.

Natrium - hidroksiddən neft məhsullarının təmizlənməsində, sabun, süni ipək, kağız, toxuculuq, boya istehsalında və s. sənaye sahələrində istifadə olunur. NaOH – in hazır məhsul kimi alınması iki hissədən ibarətdir. Birincisi, onun maye halında alınması, ikincisi isə maye halından buxarlandırma və əritmə yolu ilə bərk hala salınmasıdır. Alınan hidrogen qazı azot qazı ilə reaksiyaya girərək amonyak əmələ gətirir.

Amonyak üsulu ilə soda istehsalında xammal kimi NaCl məhlulundan, karbon qazından və amonyakdan istifadə olunur. Sodanın istehsalı aşağıdakı əsas və köməkçi proseslərdən ibarətdir:

**Əsas proseslər**

1) Duz məhlulunun hazırlanıb təmizlənməsi

2) Təmizlənmiş duz məhlulunun $NH_3$ qazı ilə doydurulması (absorbsiya) və məhlulun soyudulması

3) Soyudulmuş $NH_3$-lı duz məhlulunun $CO_2$ qazı ilə doydurulması və $NaHCO_3$ kristallarının ayrılıb çökdürülməsi (karbonizasiya)

4) Natrium-bikarbonatın $NH_4Cl$ məhlulundan ayrılması (süzülməsi)
5) Natrium-bikarbonatın peçdə közərdilib, sodaya ($Na_2CO_3$) çevrilməsi (kalsinasiya)
6) Amonyakın alınması üçün $NH_4Cl$ –in əhəng südü ilə regenerasiyası (distillasiya)

**Köməkçi proseslər**

1) Əhəng daşının peçdə yandırılıb, sönməmiş əhəngə və karbon qazına çevrilməsi.
2)Sönməmiş əhəngin su ilə söndürülüb əhəng südünə çevrilməsi.

Sodanın alınma reaksiyası dönəndir və ümumi şəkildə aşağıdakı tənlik üzrə gedir:

$$NaCl + NH_3 + CO_2 + H_2O = NaHCO_3 + NH_4Cl$$

Bu reaksiyanın gedişi temperaturdan asılı olaraq $30^0C$-də sağa, $70\ ^0C$-də isə əksinə gedir.

Ayrılan $NaHCO_3$ çöküntüsü, xüsusi peçlərdə $140\text{-}170^0$ C temperaturda közərdilir və $Na_2CO_3$-ə çevrilir:

$$2NaHCO_3 = Na_2CO_3 + CO_2 + H_2O$$

Təmiz $NaHCO_3$ aşağıdakı qayda üzrə alınır:
1)Bikarbonatın hazır məhsul-sodadan alınması
2)Soda istehsalında alınan aralıq məhsul olan xam bikarbonatdan alınması
İkinci üsul iqtisadi cəhətdən daha əlverişlidir.

Adi karbonat sodasının özünə su çəkib monohidrat əmələ gətirmə qabiliyyətindən istifadə etməklə ağır soda alınır.

$$Na_2CO_3 + H_2O = Na_2CO_3\ xH_2O$$

Amonium-xloriddən amonyakın regenerasiyası (distilləsi) prosesində əsas məqsəd vakuum-süzgəcdən xaric olan süzülmüş məhluldan $NH_3$ –ın alınıb yenidən istifadə üçün absorberə verilməsidir.

$$2NH_4Cl + Ca(OH)_2 = 2NH_3 + CaCl_2 + 2H_2O$$

Beləliklə, Naxçıvan duzundan aşağıdakı məhsulları almaq olar:

1)gil (sement zavoduna verilə bilər)
2)hidrogen qazı
3) xlor qazı
4)bərk NaOH (kaustik soda)
5)xlorid turşusu
6)amonyak
7)natrium-bikarbonat $NaHCO_3$ (çay sodası)
8)ağır soda $Na_2CO_3\ XH_2O$

Naxçıvan MR-də filiz və qeyri-filiz mənşəli mineral xammal növlərinin yetərincə olmasını, bir sıra kimya və dağ mədən-yönlü müəssisələrin uğurlu fəaliyyətini, "İpək yolu" amilini və kadr potensialını nəzərə aldıqda Naxçıvan duzundan həm də kimyəvi xammal kimi istifadə perspektivlərinin reallığa yaxın olduğu diqqəti cəlb etmiş olar [4].

## ƏDƏBİYYAT

1. Abbasov Ə.D. Naxçıvan MR-in mineral ehtiyatları. "Elm və həyat" jurnalı, N-4, 2011, s.43-45
2. Гусейнов К.З., Бабаев Я.Н., Абдуллаев В.А. Поваренная солъ.Nax. ЦНТИ, Инф. листок N-8-85, 1985
3. Rzayev M.H., Cabbarov A.Ə. Ümumi kimya texnologiyası. Bakı: Maarif ,1975 ,242 s.
4. Babayev Y.N. Karbon 4-oksiddən Naxçıvan MR-də daha geniş istifadə perspektivləri haqqında. Beynəlxalq simpoziumun materialları. 5-6 oktyabr 2007, Naxçıvan , 2008, s.508-514

**Asəf QƏRİBOV**
*İqtisad üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNDƏ DUZ EHTİYATLARININ ROLU

Xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının beynəlxalq təsərrüfat miqyasında inteqrasiyasının sürətləndirilməsinin əsas şərtidir. Ölkələr iqtisadi inteqrasiya axınlarına qoşularaq bu yolla öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin ümumi rifah səviyyəsini artırmağa çalışırlar. Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formaları intensiv şəkildə genişləndirilmədən ölkə iqtisadiyyatının inkişafında əsaslı dönüş aparmaq mümkün deyildir. Dünya ölkələrindən heç biri öz inkişafını xarici ölkələrdən təcrid olunmuş şəkildə təmin edə bilmədiyinə görə öz aralarında beynəlxalq və regional səviyyədə iqtisadi əlaqələr yaratmağa çalışırlar.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası xarici iqtisadi siyasətini artıq özü müəyyən etməyə başlamış və beynəlxalq iqtisadi münasibətlərdə müstəqil subyekti kimi məqsəd və maraqlarını formalaşdırmışdır. Ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafi mövqedə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsinə müsbət təsirini göstərmişdir. Müstəqil Azərbaycan Respublikasında müxtəlif mülkiyyət formalarının inkişafı, iqtisadiyyatın yüksək maddi-texniki bazaya malik olması, əmək bölgüsü və kooperasiyasının geniş vüsət alması və s. milli iqtisadiyatımızın beynəlxalq əməkdaşlıqda mövqeyinin daha da artmasına obyektiv zərurət yaradır.

Son illərdə xarici ticarətin inkişafında yüksək göstəricilərə nail olunmuşdur. 2011-ci ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin həcmi 11766,9 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 5708,6 milyon ABŞ dolları, ixracın həcmi isə 6058,3 milyon ABŞ dolları təşkil etmişdir. Bu dövr ərzində dünyanin 137 ölkəsi ilə ticarət sahəsində qarşılıqlı surətdə faydalı əməkdaşlıq edilmişdir. İxrac-idxal əməliyyatlarının 28,5 %-i Avropa Birliyi, 25,5 %-i MDB ölkələri ilə, 46 %-i isə digər dövlətlərlə aparılmışdır. Xarici ticarət əlaqələrinin 47,4 %-i Avropa, 44,6 %-i Asiya, 7,7 %-i Amerika, 0,2 %-i Afrika qitəsi ölkələri, 0,1 %-i isə Okeanı ilə aparılmışdır. Azərbaycana xarici ölkələrdən 61,4 milyon dollarlıq humanitar və texniki yardım daxil olmuşdur. Azərbaycanın xarici ticarət dövriyyəsinin strukturuna nəzər salsaq, burada İtaliya, İngiltərə, Almaniya və Fransanın xüsusi çəkisinin böyük olduğunu görərik(6,s.14).

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmiş və uğurla icra olunur (1,s.201).

Ölkənin regionlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını və iqtisadiyyatın

tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları ölkə başçısının regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olmaqla, regionların kompleks inkişafına, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur.

Azərbaycan Respubliksaının iqtisadi-coğrafi rayonlaşdırılmasında Naxçıvan Muxtar Respublikasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunur və özünün çoxsahəli strukturu ilə fərqlənir. Belə ki, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur. Naxçıvan Muxtar Respublikası son illərin makroiqtisadi göstəricilərinin yekun nəticələrinə görə inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur.

Xarici iqtisadi əlaqələrin müasir təhlili göstərir ki, Naxçıvanın tarixən İran və Türkiyə dövlətləri ilə əlverişli coğrafi mövqedə olması iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərmişdir. Bu əlaqələrin inkişafı və coğrafiyasının genişlənməsində təbii ehtiyatlar, o cumlədən duz ehtiyatları əhəmiyyətli rol oynamışdır. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Naxçıvanın təbii resurslarından olan Duzdağ yataqları Naxçıvan şəhərindən 12 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Naxçıvan Muxtar Respublikasındakı Duzdağ, Nehrəm və Püsyanın yer təkində bir–birilə birləşən daş duz yataqları çoxdan məşhurdur. Araz zonasının duzdaşıyan hövzəsinin uzunluğu 300 km-ə, eni 15–20 km-ə və qalınlığı onlarca metrə çatır. Naxçıvanda duz ehtiyatı bir neçə milyard tondan çoxdur (2,s.89).

Qədim dövrlərdən başlayaraq duz ehtiyatları xarici iqtisadi əlaqələrin yaranması və inkişafına təkan vermiş, eləcə də infrastruktur elementlərin formalaşmasında xüsusi yer tutmuşdur. Naxçıvan duz mədənlərində istehsal edilən məhsulların müxtəlif regionların istehlakçılarına göndərilməsi ənənə halını almışdır. Məlumat üçün qeyd edək ki, Duzdağdan aşkar olunmuş maddi-mədəniyyət nümunələri, xüsusilə daş çəkiclər qədim duzdağ mədənlərindən hələ eramızdan əvvəl III-II minilliklərdə geniş istifadə edildiyini göstərir. Primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına ilk dəfə 1927-ci ildə başlanılmış, sovetlər dönəmində bu sənaye müəssisəsində istehsal edilən daş duz İttifaq respublikalarına göndərilmişdir. 90-cı illərdə Naxçıvan duz mədənlərində 100 min tondan çox duz hasil edilərək bir başa vaqonlara yüklənərək Baş-Başı stansiyası vasitəsi ilə İttifaq Respublikalarına göndərilmışdir (3, s.211).

Naxçıvanın hərbi-strateji və iqtisadi əhəmiyyəti qədim zamanlardan təbii ehtiyatların iqtisadi əlaqələrə cəlb edilməsi ilə həmdə onu nəqliyyat qovşağına çevirmişdi. XIX-XX əsrin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafına dair tədqiqatın müəllifinin yazdığı kimi «Naxçıvan xanlığından keçən başlıca karvan yolları İrana və Təbrizə doğru uzanırdı. Bu yollar tranzit ticarətində mühüm rol oynayırdı. Azərbaycanın şimal torpaqlarına İran malları, əsasən Naxçıvan vasitəsilə daxil olurdu. Eyni zamanda xanlığın daxilində də Naxçıvanı və Ordubadı ayrı-ayrı yerlərlə birləşdirən karvan yolları mövcud idi. XIX əsrin başlanğıcında burada daxili

ticarətin illik dövriyyəsinin 160.000 manata çatması həmin yolların kifayət qədər işlək olduğunu göstərirdi» (3, s.59).

Nəqliyyatın vəziyyəti ticarətin inkişafı ilə sıx bağlı idi. Naxçıvanda xanlığın son dövründə baş verən siyasi hadisələr və 1826-1828-ci illər Rus – İran müharibəsi ticarət həyatına mənfi təsir göstərmişdi. Bu, özünü daxili ticarətdə daha kəskin şəkildə birüzə verirdi. Tədqiqatçıların yazdığına görə «Daxili ticarətdən fərqli olaraq Naxçıvan xanlığında gəlmə tacirlərin hesabına xarici ticarətdə nisbətən canlanma hiss olunurdu. Xarici ölkələrdən, xüsusilə Rusiyadan buraya gələn tacirlər öz ölkələrinə Naxçıvan ustalarının hazırladıqları nəfis ipək parçalar aparırdılar. Təsadüfi deyildir ki, Moskvadakı, Nijni Novqoroddakı yarmarkalarda Naxçıvan və Ordubadda istehsal edilmiş ipək parçalara və müxtəlif rənglərə boyanmış ipək saplara təsadüf olunurdu. Naxçıvan xanlığından bir sıra xarici bazarlara qırmızı və ağ bez parçalar, düyü,duz, şərab və s. məhsullar aparılırdı. Bez, əsasən, Qarabağ və İrəvan xanlıqlarına, düyü və duz Mərənd, Xoy və Təbriz xanlıqlarına, pambıq parça Bayazid, Qars, Tiflis, Şuşa və digər şəhərlərə ixrac edilirdi(3, s.61).

Son illərdə muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının icrasını təmin etmək, Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən və yerli şəraitdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə 09 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" təsdiq olunmuş və icrası uğurla reallaşdırılmışdır.

İqtisadi tərəqqinin davamlılığını təmin etmək, mövcud təbii ehtiyyatlardan və əmək potensialından səmərəli istifadənin təşkilini həyata keçirmək məqsədilə 2009-cu il aprelin 14-də "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmiş və ikinci Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının da inkişafı ilə bağlı mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Əldə olunan nəticələri və muxtar respublikanın sosial-iqtisadi həyatında müşahidə olunan dinamik artım bu Dövlət Proqramının da uğurla yekunlaşacağına təminat verir. Qeyd edək ki, bu istiqamətdə həyata keçirilən tədbirlər, yaradılan sabitlik və iqtisadi inkişaf yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunmasına əlverişli şərait yaratmışdır. Duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılmış, 1991-ci ildən istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı müəssisəsi yenidən qurulmuş, müasir texnoloji avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı müəssisəsi tikilərək istehsala başlamışdır. Burada bütün istehsal prosesləri avtomatlaşdırılmış, konveyer xətti, Almaniya, Türkiyə, İtaliya və İranın birgə istehsalı olan paketləyici avadanlıq quraşdırılmışdır. Bu da hazır məhsulu 200, 250 və 500 qramlıq taralarda qablaşdırmağa imkan verir.

İstifadəyə verilən yeni duz emalı sexləri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan birinci müasir istehsal sahələridir. Hazırda duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir. "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətindən verilən məlumata görə, gün ərzində 40-45 ton daş duz, 20-25 ton isə üyüdülmüş duz istehsal edilir. Hazırda müəssisədə 12 çeşiddə duz istehsal olunur və bu məhsullar məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məişətdə istifadə edilən yodlaşdırılmış duz həm nəfis tərtibatla bəzədilmiş 0,5 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,25, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır.

İstehsal olunan duzun ölkəmizin digər regionlarında satışını təmin etmək məqsədilə Bərdə şəhərində baza yaradılmışdır. Müəssisənin balansındakı yük maşınları ilə duz bazaya daşınır, oradan da sifarişə uyğun olaraq ətraf rayonlarda fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Eyni zamanda bu qiymətli təbii sərvətin xarici bazarlara çıxarılması da diqqət mərkəzində saxlanılmış, ötən ildən Gürcüstan Respublikasında satışı təmin olunmuşdur. Davamlı olaraq müəssisədə istehsal olunan məhsulların digər xarici dövlətlərə ixrac olunması və beynəlxalq bazarlara çıxış imkanlarına diqqət yetirilir. Təsadüfi deyil ki, 2011-ci ilin iqtisadi yekunlarının təhlilinə görə yüksək keyfiyyətli məhsul istehsal edən "Naxçıvan Duz İstehsalı" MMC "Biznesdə uğur-2011" mükafatının "İlin ixracatçısı" nominasiyası üzrə qalibi olmuşdur.

Muxtar respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsalyönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın əsasən yerli istehsal məhsulları hesabına təmin edilməsinə, yerli xammal və materiallardan istifadə əsasında istehsal potansialının gücləndirilməsinə, xarici əlaqələrin genişlənməsinə iqtisadi stimul yaradılmışdır. Şöhrəti dünyaya səs salan İpək Yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə uzanan Duz yolu ilə xarici ticarət, mədəni əlaqələri inkişaf etmiş, hələ Sovet İttifaqı dövründə burada fizioterapiya xəstəxanası yaradılaraq fəaliyyət göstərmiş və müstəqillik dövründə müalicəyə gələnlərin sayı artdıqca bu sahə daha da genişləndirilib. Qeyd edək ki, "Duzdağ" Fizioterapiya Mərkəzi Naxçıvan şəhərindən 14 km aralıda yerləşir, yeraltı şöbə duz mədənində II əsas dağ sexində, girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə 9 işlənmiş ştrixdə yerləşir. 2006-cı ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunub. Hazırda bu mərkəzə bir çox ölkələrdən o cümlədən Rusiya, Türkiyə, Gürcüstan və digər MDB və Avropa ölkələrindən xəstələr gəlir. Mərkəzin 324 yerlik beşulduzlu "Duzdağ-Hotel" mehmanxanası da fəaliyyət göstərir.

Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma, elmi nəzəriyyəyə və təcrübəyə söykənən konsepsiya əsasında həyata keçirilən köklü islahatlar və irimiqyaslı quruculuq proseslərinin nəticələri muxtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş yüksək inkişaf templərinin qorunub saxlanılmasına və daha da yüksəldilməsinə təminat verir.

Muxtar respublikada iqtisadiyyat sahəsində aparılan islahatlar bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olmasına şərait yaratmış, investisiyalar, müasir texnologiyalar və idarəetmə təcrübəsi cəlb etməklə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına və nəticə etibarilə xalqın

maddi rifahının yüksəldilməsinə yönəldilmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən, yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

## ƏDƏBİYYAT


1. Vəliyev D.Ə. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarına inteqrasiyası :təmayüllər, problemlər, perspektivlər. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2006, 239 s.
2. Nağıyev V.N., Məmmədov İ.Ə. Naxçıvan MR-nın faydalı qazıntıları. Bakı: Elm, 2010, 240s
3. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri.Bakı: Elm, 2007.469
4. Şahverdiyev Z.Ə.Naxçıvan bölgəsi XIX – XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
5. Vavilov E.V. ,Borodlina L.P. , Международная торговля. Moskva: 2008.
6. Azərbaycan Respublikasının Statistik göstəriciləri 2011, Bakı: 2012.
7. 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: Əcəmi, 2012, 87 s.
8. www.referat.ru









**THE INTERNATIONAL SYMPOSIUM OF “NAKHCHIVAN: FIRST TOWN AND DUZDAGH (SALT ROCK)”.**

**МЕЖДУНАРОДНЫЙ СИМПОЗИУМ НА ТЕМУ “НАХЧЫВАН: РАННЫЙ ГОРОД И ДУЗДАГ”.**



Duz Dağı
sistematik yüzey
araştırması: 1. pencere
2008 durumu
Açıklamalar
mikrolitik
keramik
tipoloji dışında taş aletleri
taş aletleri
galeriler
vadiler
sırt, diğer
gidilmiş alanlar
ocaklar
iş alanları
platformalar
sistematik yüzey araştırmasının sınırları
© CNRS
0
100
200
Metre






50 cm

## MÜNDƏRİCAT

*"Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı......................3*

*"Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi ilə əlaqədar Tədbirlər Planı......................................................................... 5*

*"Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinın Sədri Vasif Talıbovun çıxışı....................6*

*Nailə Vəlixanlı, Nasir Quluzadə. Naxçıvanın ilkin şəhər mədəniyyətinin tədqiqində və təbliğində Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji materiallarının əhəmiyyəti.......................................................................................9*

*İsa Həbibbəyli. Nuhdaban oturaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti..............17*

*Katherine Marro. Duzdağda duz mədən sənayesinin mənşəyi və inkişafı.......................25*

*Yaqub Mahmudov. Naxçıvan–müasir sivilizasiyanın ən qədim mərkəzlərindən biri .....29*

*Vitali Otroşenko. Gəmiqaya petroqliflərinin dünyası: yanaşmalar və şərhlər...............35*

## NAXÇIVAN: BƏŞƏR SİVİLİZASİYASININ İLK BEŞİKLƏRİNDƏN BİRİ, İLKİN ŞƏHƏR MƏDƏNİYYƏTİ

*Qüdrət İsmayılzadə. "Neolit inqilabı" və Naxçıvan.....................................................47*

*Ketevan Svanidze. Milli xarakterin formalaşması: tarix və müasirlik...........................51*

*Rauf Məlikov. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə.........................................................................................................55*

*Səfər Aşurov, Fidan Əliyeva. Naxçıvanın Tunc dövrü yaşayış məskənlərinin tikinti və memarlıq xüsusiyyətləri.......................................................................................61*

*Leyla Hüseynova. Ümummilli lider Heydər Əliyevin irsində Naxçıvan tarixi məsələləri.......................................................................................67*

*Sevinc Abbasova. XVI əsr Osmanlı qaynaqlarında Naxçıvan və Duzdağ......................75*

*Sevinc Hüseynova. Naxçıvanın qədim dövr hərb sənəti................................................87*

*Firudin Rzayev. Qədim Naxçıvanın Mesopotamiya ilə etnogenetik əlaqələri (m.ö. VI-III minilliklərə aid Naxçıvan oykonimləri əsasında).....................................102*

*Allahverdi Əlimirzəyev. Azərbaycanın Naxçıvan bölgəsinin Urartu ilə siyasi əlaqələri tarixindən.......................................................................................112*

*Zəhmət Şahverdiyev. Naxçıvan: ilkin şəhərsalmadan böyük mədəniyyətə doğru.........115*

*Elbrus İsayev. Naxçıvan şəhər mədəniyyətinin formalaşması və inkişafında ticarət və sənətkarlığın rolu................................................................... 124*

*Nizami Alıyev. Sust mədənindən tapılmış daş alətlər..................................................131*

## ARXEOLOJİ-TOPONİMİK ABİDƏLƏR: TARİXİN İLK MƏNBƏLƏRİ

*Alirza Hejbəri. Cənubi Azərbaycanın Erkən Dəmir dövrü mədəniyyəti....................... 138*

*Emily Hammer, Vəli Baxşəliyev, Lauren Ristvet. Şərur rayonu ətrafındakı yaşayış sahələri və tarixi ərazilərin yeni tədqiqinin ilkin nəticələri.............................149*

*Bəhram Ajorloo. II Kür-Araz mədəniyyəti və onun Araz çayının cənubuna doğru yayılmasının yolları (keramika nümunələri əsasında)......................................177*

*Asmat Ardzenadze. Mədəniyyətlərarası münasibətlərə tarixi-linqvistik baxış.............187*

*Vəli Baxşəliyev. Naxçıvan Duzdağı....................................................................190*

*Mir Ruhulla Məhəmmədi. Cənubi Muğanda – Nadir təpədə Kür-Araz mədəniyyətinin arxeoloji tədqiqatları.........................................................................................197*

*Qəhrəman Ağayev. Şahtaxtının qonşu tayfalarla iqtisadi-mədəni əlaqələri.................206*

*Yusif Hüseynov. Naxçıvanın tranzit mövqeyinin beynəlxalq əlaqələrdə rolu...............211*

*Gülnarə Qənbərova. Naxçıvan bölgəsinin məskunlaşma strukturu və orta əsrlərdə şəhər kimi formalaşmasına sosial-siyasi amillərin təsiri.............................................215*

*Rəsul Bağırov. Naxçıvan əhalisinin mədəni və təsərrüfat həyatı (e. ə. V-IV minilliklər)............................................................................................................ 220*

*Günay Məmmədova. Gəmiqaya təsvirlərində musiqi və rəqs motivləri.......................223*

## DUZDAĞ: ŞƏHƏRƏTRAFI MƏDƏNİYYƏTİ

*İsmayıl Hacıyev. Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasında və formalaşmasında Duzdağın rolu.........................................................................227*

*Turqut Öcal. Türk mədəniyyətində duzun yeri və əhəmiyyəti......................................232*

*Abbas Seyidov. Naxçıvanın Tunc dövrü daş əmək alətləri və Duzdağ........................246*

*Əbülfəz Quliyev. Ədəbiyyatımızda Duzdağ və duz mövzusu.......................................249*

*Toğrul Xəlilov. Tunc və Erkən Dəmir dövründə Naxçıvanda duz emalı.......................255*

*Qadir Əliyev. Klassik Naxçıvan memarlıq formalarının və duz kristallarının quruluşu.......................................................................................................................259*

*Əli Cabbarov, Günel İsayeva. Naxçıvan Duzdağının müalicə və tanışlıq turizm imkanları.....................................................................................................................264*

*Məhsəti İsmayıl. Azərbaycan folklorunda duz və Duzdağına baxış............................267*

*Nana Xaxutaişvili. Çorox hövzəsinin qədim Kolxid metallurgiyası............................272*

*Əkrəm Hüseynzadə. Naxçıvan folkor nümunələrində duzla bağlı bəzi məsəllər və şərhi.........................................................................................................................276*

*Əlövsət Quliyev. Duzdağ duz mədəni ətrafında şirin su mənbələri və qədim sivilizasiyaların ondan istifadə imkanları...................................................................281*

*Zakir Rzayev. Dünya duz ticarəti və Naxçıvan............................................................286*

*Nazim Bababəyli, İmat Fateh. Duzdağ massivində təbii mağaraların genetik xüsusiyyətləri və yaranma şəraiti ........................................................................291*

## NAXÇIVAN DUZDAĞI VƏ DUZUN ƏHƏMİYYƏTİ

*Caroline Hamon. Duzdağında duzun çıxarılması və mübadiləsi: daş alətlərin tədqiqi.......................................................................................................................299*

*Bəhlul İbrahimli. Antik dövrdə Naxçıvanın duz ticarəti haqqında...............................302*

*Tofiq Babayev. Duzun xalq məişətində yeri................................................................308*

*Fəxrəddin Səfərli. Naxçıvan Duzdağında duz hasilatı tarixindən................................314*

*Qadir Qədirzadə. Duzdağ, duzla bağlı rəvayətlər, deyimlər, inamlar və duzdan istifadə*.........321
*Bayram Rzayev. Daş duz Naxçıvanın ən qiymətli mineral sərvəti kimi*.........328
*Ağarza Rüstəmov. Naxçıvan Muxtar Respublikasında duz istehsalının perspektivləri*.........332
*Tariyel Talıbov, Musa Piriyev. Naxçıvan Duzdağının fauna və florasının müxtəlifliyi*.........335
*Malikəjdər İbrahimov, Malik Əliyev, Naxçıvan Fizioterapiya Xəstəxanasında bronxial astmalı xəstələrin fizioterapiya metodu ilə müalicəsi*.........340
*Yasin Babayev, Firdovsi Qasımov, Vaqif Abdullayev. Naxçıvan duzundan yeni kimyəvi məhsulların alınma perspektivləri*.........343
*Asəf Qəribov. Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrində duz ehtiyatlarının rolu*.........346

**NAXÇIVAN: İLKİN ŞƏHƏR VƏ DUZDAĞ**
*(27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları)*

Yığılmağa verilmiş 09.09.2013.
Çapa imzalanmış 07.11.2013.
Formatı 60X90 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 45.0 ç.v.
Sifariş № 1021 Tiraj 300 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi,1